AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI
SLAVYAN
UNİVERSİTETİ

YÜKSƏK TƏHSİL MƏRKƏZİ
BAKI SLAVYAN UNİVERSİTETİ

İTİC2024
BSU KONFRANSI

İNKLÜZİV TƏHSİLDƏN
İNKLÜZİV CƏMİYYƏTƏ

II BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN MATERİALLARI

KAPSAYICI EĞİTİMDEN
KAPSAYICI TOPLUMA

II ULUSLARARASI BİLİMSEL-PRATİK KONFERANSIN BİLDİRİLERİ

FROM INCLUSIVE EDUCATION
TO INCLUSIVE SOCIETY

II INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE MATERIALS

МАТЕРИАЛЫ II МЕЖДУНАРОДНОЙ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ

ОТ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ
К ИНКЛЮЗИВНОМУ ОБЩЕСТВУ

BSU 2024

16 APREL / BAKI

19 APREL / QAZAX

İnklüziv təhsildən inklüziv cəmiyyətə (İTİC-2024)
II Beynəlxalq elmi-praktiki konfransı Bakı Slavyan Universiteti rektorunun
2024-cü il 09 fevral tarixli, 10 nömrəli əmri əsasında keçirilmişdir.

REDAKSİYA HEYƏTİ

Piralı Əliyev	pedaqoji elmləri doktoru
Dilbar Nurkeldiyeva	pedaqoqoji elmləri doktoru
Xitryuk Vera	pedaqoqoji elmləri doktoru
İlahə Carçıyeva	pedaqogika üzrə fəlsəfə doktoru
Arzu Məmmədova	filologiya üzrə fəlsəfə doktoru
Sevinc Qarayeva	biologiya üzrə fəlsəfə doktoru
Fidan Əfəndiyeva	pedaqogika üzrə fəlsəfə doktoru
Nərgiz Əliyeva	tibb üzrə fəlsəfə doktoru
Səbinə Əlizadə	psixologiya üzrə fəlsəfə doktoru
Gülnarə Həsənova	psixologiya üzrə fəlsəfə doktoru
Afaq Nəsibova	pedaqogika üzrə fəlsəfə doktoru

İnklüziv təhsildən inklüziv cəmiyyətə (İTİC-2024). II Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2024. – 444 səh.

ISBN: 9789952391862

Məqalənin məzmunu ilə bağlı məsuliyyət müəllifin üzərinə düşür.

© BSU, 2024

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

Anar Nağıyev (sədr)	Bakı Slavyan Universitetinin rektoru
Ənvər Abbasov	Bakı Slavyan Universitetinin Tədris işləri üzrə prorektoru
Nailə Xəndan	Bakı Slavyan Universitetinin Elm və innovasiyalar üzrə prorektoru
Aytən Bayramova	Bakı Slavyan Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru
Gülnarə Əliyeva-Koşkun	Bakı Slavyan Universitetinin Türkologiya kafedrasının müdiri
Ülviyyə Məmmədova	Bakı Slavyan Universitetinin Yüksək təhsil mərkəzinin direktoru
Sevinc Axundova	Bakı Slavyan Universitetinin Təhsil fakültəsinin dekanı
Əzim Əliyev	Bakı Slavyan Universitetinin Sosial elmlər fakültəsinin dekanı
Piralı Əliyev	Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının müdiri
Aytəkin Axundova	Bakı Slavyan Universitetinin İbtidai təhsil kafedrasının müdiri
İlahə Carçıyeva	Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksinin direktoru
Aytəkin Qurbanova	Bakı Slavyan Universitetinin Elmi Şuranın katibliyinin aparıcı mütəxəssisi
Nərmin Əskərova	Bakı Slavyan Universitetinin hüquqşünası
Günel Rəhmanova	Bakı Slavyan Universitetinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin əməkdaşı
Orxan Abdullayev	Bakı Slavyan Universitetinin baş mühasibi
Arif Rüstəmov	Bakı Dövlət Universitetinin Qazax filialının direktoru
Ləzifə Qasımova	Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının müdiri
Aytən Eynalova	“Birgə və sağlam” İctimai Birliyinin sədri
Nərgiz Əliyeva	“House of Dreams” Cəmiyyətə İnteqrasiya Mərkəzinin rəhbəri
Kəmalə Babayeva	Bakı Slavyan Universitetinin məzunu
Arzu Məmmədova (katib)	Bakı Slavyan Universitetinin İbtidai təhsil kafedrasının baş müəllimi

MÜNDƏRİCAT

I BÖLMƏ
İNKLÜZİV TƏHSİL: MƏZMUN VƏ TƏLİM MƏSƏLƏLƏRİ

1. **Nağıyev Anar**
İnklüziv təhsil üçün müəllim hazırlığı: BSU-nun təcrübəsi....10
2. **Abdinova Nigar**
Müasir dövrdə sağlamlıq imkanları məhdud olan uşaqların təhsil hüququnun həyata keçirilməsi yolları 17
3. **Abdullayeva Gülnar**
Tədrisdə universal dizayn sisteminin tətbiqi əhəmiyyəti 19
4. **Agakişiyeva Şükufə**
İnklüziv təhsil və uşaqların idrak fəallığı 23
5. **Axundova Sevinc**
Sosiomədəni inklüziya: definisiyalar və təcrübələr 25
6. **Balakişibəyli Svetlana**
İnklüziv siniflərdə pedaqoji xidmətin təşkili 30
7. **Budaqova Aynur**
Təhsilalanlara inklüziv yanaşma 33
8. **Cəfərova Fəxriyyə, Həsənova Tahirə**
Azərbaycanda inklüziv təhsil 35
9. **Cəfərova Səbinə**
İnklüziv məktəblərdə praktik psixoloqun fəaliyyətinin xüsusiyyətləri 38
10. **Dolxanova Kifayət**
İnklüziv təhsildə informasiya kommunikasiya texnologiyalardan istifadə 41
11. **Əlixanova Natəvan**
Autizm spektr pozuntusu olan uşaqlarla işin müasir formaları, texnikaları və metodları 45
12. **Əliyev Piralı**
Ümumi təhsil müəssisələrində inklüziv təhsil: problemin təşkilati-pedaqoji aspektləri 48
13. **Əliyev Hafiz**
İnklüziv təhsıl şəraitində pedaqoqun peşə səriştəliliyi 54
14. **Əliyeva Səadət**
İnkluziv mühitdə məktəbəqədər yaşlı uşaqların nitq ləngiməsi və onun aradan qaldırılması 57
15. **Əliyeva Vüsalə**
İnklüziv siniflərdə qiymətləndirmənin aparılması yollar 59
16. **Eminova Gülşən**
İnklüziv təhsildə pedaqoqun həyata keçirdiyi monitorinq və qiymətləndirmə strategiyaları 61
17. **Əsədova Nəzrin**
Emosional intellektin tədris prosesindəki rolunun əhəmiyyəti və psixoloji təhlili 64
18. **Əsədova Şəbnəm**
İnklüziv təhsilin keyfiyyətinin qiymətləndirilməsi 68
19. **Eynalova Aytən**
Sağlamlıq inkanları məhdud uşaqların məktəbəhazırlıq mərhələsində ailənin rolu 70
20. **Hacıyeva Könül, Əliyeva Kamilə**
İnkluziv təhsilin inkişaf problemləri və perspektivləri 72
21. **Həmidova Xalidə**
Məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsilin həyata keçirilməsinin xüsusiyyətləri 76
22. **Həsənzadə Nailə**
Ailənin SİM övladına münasibəti onun təliminə təsirinin bir amili kimi 78

23. **Hüseynova Günel**
İnklüziv təhsilin şagird psixologiyasına təsiri 80
24. **İbrahimova Sayalı**
İnkluziv təhsildə pedaqoji yardım 83
25. **İlyasov Müseyib**
İnklüziv təhsildə müəllim səriştəliliyinin spesifik xüsusiyyətləri 86
26. **İlyasov Hamlet**
Məhdudiyyəti olan şagirdlərlə fiziki tərbiyə dərslərinin təşkili 89
27. **İmanova Lalə**
İnklüziv bağçalar SİM uşaqlar üçün ideal bir başlanğıç kimi 92
28. **Kərimova Mehriban**
İnklüziv təhsilin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlığın vacib prinsipləri 94
29. **Mansurova Sevda**
Uşaqlarda psixi inkişaf ləngiməsi və səbəbləri 97
30. **Məmmədov Kərim**
Nitqin inkişafında ləngiməsi olan uşaqların cəmiyyətə inteqrasiya edilməsində ünsiyyət və məşqlərin rolu....100
31. **Məmmədova Yeganə**
Xüsusi təhsil müəssisələrində uşaqların əmək tərbiyəsi üzrə işin təşkili 102
32. **Məsimli Aytən**
İnklüziv dərsin planlaşdırılması və tətbiqi 105
33. **Mirzəyeva Gülnar**
Korreksiyaedici pedaqoq, sinif müəllimi və psixoloq əməkdaşlığı 110
34. **Nəsibova Afaq**
İnklüziv siniflərdə təlimin effektivliyinə xidmət edən metod və strategiyalar 112
35. **Pirverdiyeva Göyçək**
İnklüziv təhsili vacib edən əsas xüsusiyyətlər 116
36. **Qasımova Ləzifə**
İnklüziv təhsilin inkişaf tarixi 119
37. **Quliyeva Nuridə**
İnkluziv siniflərdə ibtidai sinif şagirdlərinin sosiallaşması 121
38. **Salamova Kamalə**
İnkülziv təhsilin təlim fəaliyyətinə təsiri 123
39. **Şükürova Sənubər**
Bullinq nədir və ondan necə qorunmaq olar? 127
40. **Süleymanova Günay**
İnklüziv təhsil sistemində sağlamlıq imkanları məhdud uşaqlara xarici dilın tədrisi 130
41. **Xələfov Anar**
İnklüziv təhsilə dair pedaqogikada fikir müxtəlifliyi 134
42. **Давыдова Елизавета, Давыдов Денис, Богомолов Антон**
Особенности внимания у младших школьников с расстройствами аутистического спектра ...138
43. **Данилина Камилла**
Организация школьного обучения детей с расстройствами аутистического спектра 143
44. **Каратаева Диана**
Инклюзивное образование: вчера и сегодня 147
45. **Мехралиева Земфира**
Мониторинг детей с ограниченными возможностями здоровья 150
46. **Рагимова Кямиля**
Психолого-педагогическая компетентность педагога в условиях инклюзивного образования 153
47. **Эфендиева Фидан**
Преодоление трудностей в инклюзивной среде при наличии детей с дислексией 158

II BÖLMƏ
İNKLÜZİV TƏHSİL BEYNƏLXALQ TƏCRÜBƏDƏ

1. **Bayramova Fidan**
Məktəbəqədər müəssisələrdə inklüziv təhsilin mühüm rolu 161
2. **Cahangirova Səadət**
İnklüziv təhsil dünya təcrübəsində 163
3. **Cəfərova Nabat, Məmmədova Sona**
Sağlamlıq imkanları məhdud şəxslərin təhsildən istifadə imkanları 167
4. **Dostəliyeva Səbinə**
İnklüziv təhsil sisteminin təşkili üzrə bir sıra məsələlər 171
5. **Elyazova Ulviyya**
Inclusive education and mental retardation in international practice 174
6. **Hacıyeva Leyla**
İnklüziv təhsilin dünya təcrübəsi 177
7. **Həsənli Solmaz**
İstedadlı uşaqlara psixoloji xidmətin sahələri və onların mahiyyəti 179
8. **Həsənov Aqil**
İnklüziv təhsilin təşkili 184
9. **Həsənova Milana**
İnklüziv təhsildə tətbiqi davranış analizi 187
10. **Xaspoladova Sevda**
İnklüziv təhsildə yeni texnologiyaların tətbiqi əhəmiyyəti 189
11. **Jagiello-Rusilowski Adam**
European and Asian teachers' concepts of inclusive language classrooms 192
12. **Qurbanova Şəfa**
Ekoinklüziya 200
13. **Mammadova Aytakin, Yusubova Aynur**
Inclusive education in the world experience 206
14. **Memmedova İrana**
Öğretmenlerin mesleki ve kişisel yeterliliğinin artırılmasına yönelik küreselleşme ve kültürel entegrasyon 210
15. **Məhsimova Sevinc**
Müasir inklüziv təhsildə kadrların əsas kompetensiyaları 213
16. **Məmmədova Afət**
İnkluziv təhsilin təşkil edilməsinə universitet müəllimlərinin hazırlığı 219
17. **Məmmədova Esmira**
Müasir təhsil sistemində inklüzivə yeni yanaşma 223
18. **Məmmədtağıyeva Gövhər**
İnklüziv siniflərdə autizm spektrli şagirdlərin adaptasiyası 226
19. **Məmmədzadə Müjkan**
İnklüziv təhsildə kreativlik 228
20. **Orucova Sevinc**
Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial və ictimai həyata inteqrasiyası 230
21. **Ömərova Ələviyyə**
İnklüziv siniflərdə tədrisin təşkili 233
22. **Sultanova Nigar**
Xarici ölkələrdə inklüzv təhsilin inkişaf mərhələləri 235
23. **Süleymanov Fərid**
İnklüziv təhsildə Pareto Təkmilləşməsi 238
24. **Tağıyeva Qəmər**
Dünya ölkələrində inklüziv təhsil və onun inkişaf istiqamətləri 239
25. **Tanrıverdiyeva Zülfiyyə**
Təhsildə inklüzivlik və inteqrasiya 243

26. **Yusifova Nəzakət**
Sağlamlıq imkanları məhdud uşaqların təhsilinın təşkili 245
27. **Zülfüqar Fatimə**
STEAM dərslərində əlçatanlığın təmini üçün inklüziv strategiyalar 249
28. **Абидова Н.З.**
Создание инклюзивной образовательной среды для детей с особыми образовательными потребностями 252
29. **Акименко Валентина**
Особенности реализации образовательной вертикали в условиях инклюзивного образования 256
30. **Байбаева Мухайё**
Инклюзивное образование для детей с особыми потребностями в Узбекистане 259
31. **Бакаева Мубина**
Инклюзивное образование в Узбекистане 263
32. **Вохидова Норпошшахан**
Инклюзивное образование как социально-педагогическая потребность 265
33. **Сергиенко Инна**
Особенный ребенок в школе: от теории к практике 267
34. **Карпова Надежда, Егорова Алена, Захарова Елизавета, Колокольников Вадим**
Динамика сформированности профессиональных навыков и степени самостоятельности лиц с психическими нарушениями в инклюзивной кулинарной мастерской ГАМП («Гастрономическая модельная площадка») в РБОО «Центр лечебной педагогики». Описание случаев.....270
35. **Каримжонович Абдугаппор Киргизбаев**
Подготовка кадров для внедрения инклюзивного образования в Узбекистане 277
36. **Когамбаева Акерке**
Kapsayıcı eğitim alanındaki pedagogların mesleki yeterliliği 280
37. **Нуркельдиева Д.А.**
Внедрение инклюзивного образования в Узбекистане 284
38. **Юсупова Шоҳзода**
Организация инклюзивного образования в Узбекистане 288

III BÖLMƏ

MÜASİR CƏMİYYƏTLƏRİN İNKLÜZİV POTENSİALI: TƏHSİL VƏ ƏMƏK BAZARI

1. **Abdullayeva Gülnar**
İnklüziv təhsilin əsas partnyorları 290
2. **Abdullayeva Sevda, Bayramov Elgün**
İnklüziv təhsilin hüquqi aspektləri 295
3. **Ağayeva Günay**
Periodization of formation and development of inclusive education 297
4. **Bədəlzadə Günay**
Müxtəlifliyi əhatə etmək: daun sindromlu şəxslər üçün inklüziv cəmiyyətin təşviqi 300
5. **Əhmədova Mehparə, Xəlilov Taleh**
Sağlamlıq imkanları məhdud uşaqların təliminin təşkili prosesində rast gəlinən çətinliklər..... 302
6. **Əliyeva Nuranə**
Humanist təhsilin zəruriliyi 305
7. **Hacımuradova Lamiə, Həsənova Aynur**
Azərbaycanda inklüziv təhsilin inkişafı 306
8. **Heydərova Simnarə**
İnklüziv təhsil: problemlər və həlli yolları 313
9. **Həbibova Sevinc**
Azərbaycanda inklüziv təhsilin müasir reallıqları 315

10. **Həsənli Səyyarə**
Инклюзивное образование в многонациональном обществе: преодоление культурных барьеров 320
11. **Həsənova Gülnarə**
İnklüziv təhsil şəraitində psixoloqun işində metaforik assosiativ kartlardan istifadə 325
12. **Həsənova Sevda**
Azərbaycanda inklüziv potensialın məşğulluğunun təmin edilməsi 327
13. **Hüseynova Naila**
İnklüziv təhsil: tədris mühitində müxtəlifliyin və bərabərliyin təşviq edilməsi 331
14. **Xəlilova Aybəniz**
İnklüziv təhsilin üstün və çatışmayan tərəfləri 333
15. **Xəlilova İlhamə**
Orta məktəb təcrübəsində tədrisə inklüziv yanaşmalar 336
16. **İlyasova Vəfa**
İnklüziv təhsilin məktəb səviyyəsində təşkilinə verilən tələblər 338
17. **İmamverdiyeva Nəzakət**
İnklüziv təhsilə dair bəzi məsələlər 341
18. **İsmayılova Nigar**
Müasir cəmiyyətdə inklüziv təhsil və onun tətbiq istiqamətləri 343
19. **Kamilov Ruslan**
İnklüziv təhsil: fərqlərin qəbul edilməsi və dəstəklənməsinə yanaşma 346
20. **Qarayeva Sevinc**
Davamlı inklüziv təhsilin həyata keçirilməsi prosesinə sosial maneələrin təsiri 348
21. **Qasımova Aynur**
İnklüziv təhsil uşaqların cəmiyyətə inteqrasiya prosesidir 350
22. **Qasımova Ayşən**
Sağlamlıq imkanları məhdud olan uşaqların sosiallaşması və cəmiyyətə inteqrasiyası 352
23. **Qasımova Tənzilə**
Əlilliyi olan şəxsin cəmiyyətə inteqrasiyasında inklüziv təhsilin rolu 356
24. **Quliyeva Şahnaz, Hacıyeva Ayna**
İnklüziv tələbələrin özünüreallaşdırmasının psixoloji məsələləri 359
25. **Qurbanova Vüsalə**
Müasir inklüziv təhsilin mahiyyəti və məzmunu 361
26. **Məmmədov Nurlan**
İnklüziv təhsildə bərabər imkanların yaradılmasının sosial və hüquqi aspektləri 363
27. **Məmmədova Arzu**
Ali təhsil müəssisələrində inklüziv təhsilin məzmununun təkmilləşdirilməsi 365
28. **Məmmədova Laləzar**
İnklüziv cəmiyyətin formalaşmasında maariflənmənin rolu 368
29. **Muxtarova Nübar**
Hiperaktiv uşaqlarda diqqətin pozulması.... 371
30. **Mollayeva Elza**
İnklüziv təhsildən inklüziv cəmiyyətə keçiddə ailə-məktəb-cəmiyyət əməkdaşlığının sosial-pedaqoji əhəmiyyəti 373
31. **Mudasir Ali**
Impact of artificial intelligence on development of inclusive education 376
32. **Murğuzova Aybəniz**
İnklüziv təhsilin əmək bazarına uyğunlaşdırılması 379
33. **Nəzərova Günel**
Müasir cəmiyyətdə əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyası 381
34. **Nəzərova Humay**
Ümumitəhsil məktəblərində inklüziv təhsil şərtləri 383
35. **Nuraliyeva Sabina**
Inclusive education in modern society 387

36. **Orucəliyeva Şəkər**
Müasir dövrdə inklüziv təhsilin əhəmiyyəti və vacibliyi 390
37. **Sadıxova Minayə**
İnklüziv təlimin təşkilində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi istiqamətləri 391
38. **Süleymanova Ümmü**
İnklüziv təhsil mühitinin layihələşdirilməsi və universal öyrənmə dizaynı 394
39. **Şıxəliyeva İlahə**
İnküziv siniflərdə təlimin təşkili istiqamətləri 396
40. **Наджмеддинли Анар**
Проблемы, встречающиеся при организации обучения в области инклюзивного образования 401
41. **Самедов Кямран**
Организация инклюзивного образования в образовательных учреждениях 405
42. **Санькова Алена, Соловьева Ольга**
Особые образовательные потребности младших школьников с ограниченными возможностями здоровья в условиях инклюзивного образования 410
43. **Сергиенко Ирина**
Организация поведения и обучения детей с расстройством аутистического спектра 413
44. **Телешева Светлана**
Проблемы в организации психолого-педагогического сопровождения ребенка и семьи 415
45. **Трущелева Анна**
Психолого-педагогические условия инклюзивного образования учащихся с нарушениями зрения 419
46. **Qəhrəmanova Kamalə**
Demokratiyanın inkişafında inklüzivliyin rolu 424
47. **Əliyeva Leyla**
İnklüziv təhsilin beynəlxalq modelləri 427
48. **Аюпова Мукаррам**
Нарушения звукопроизношения у детей-узбеков дошкольного возраста 430
49. **Адилова Ноиба**
Адаптация кохлеарно имплантированных детей в инклюзивном образовании 433
50. **Мамаражабова Зулфия**
Особенности развитие инклюзивной компетентности будущих сурдопедагогов в республике Узбекистан 436
51. **Пулатова П.М.**
Особенности эмоционально-волевой сферы школьников с интеллектуальной недостаточности 439
52. **Ахмедова З.М.**
Командная работа - как фактор повышения эффективности процесса инклюзивного образования 441

I BÖLMƏ

İNKLÜZİV TƏHSİL: MƏZMUN VƏ TƏLİM MƏSƏLƏLƏRİ

İNKLÜZİV TƏHSİL ÜÇÜN MÜƏLLİM HAZIRLIĞI: BSU-NUN TƏCRÜBƏSİ

Anar Nağıyev
Bakı Slavyan Universitetinin rektoru

TEACHER DEVELOPMENT FOR INCLUSIVE EDUCATION: CASE OF BSU

Summary

The article evaluates the research of Azerbaijani and foreign scientists in the field of inclusive education using the methods of study, comparison and analysis. Attention is paid to the principles of organization of inclusive education, and it also speaks about the financing of inclusive educational institutions and organizations in the system of medical, psychological, pedagogical and social support of children with disabilities in educational institutions.

It is substantiated that there are different approaches to the organization of the educational process in the inclusive classroom. To create a break in this work it is important to pay attention to the child's adaptation to the educational institution, preparation for cooperation with classmates, organization of educational space, organization of the inclusive educational process, including technologies for assessing the results.

***Key words**: normative-legal document, principle, concept, organization, cooperation, development*

ПОДГОТОВКА ПЕДАГОГОВ ДЛЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ: ОПЫТ БСУ

Резюме

В статье оцениваются исследования азербайджанских и зарубежных ученых в области инклюзивного образования с использованием методов изучения, сравнения и анализа. Уделяется внимание принципам организации инклюзивного образования, а также говорится о финансировании инклюзивных образовательных учреждений и организаций в системе медицинского, психолого-педагогического и социального сопровождения детей с ОВЗ в образовательных учреждениях.

Обосновывается, что существуют различные подходы к организации образовательного процесса в инклюзивном классе. Для создания перелома в этой работе важно обратить внимание на адаптацию ребенка к учебному заведению, подготовку к сотрудничеству с одноклассниками, организацию образовательного пространства, организацию инклюзивного образовательного процесса, в том числе технологии оценивания результатов.

***Ключевые слова**: нормативно-правовой документ, принцип, концепция, организация, сотрудничество, развитие.*

KAPSAYICI EĞİTİM İÇİN ÖĞRETMENLERİN EĞİTİMİ: BSU DENEYİMİ

Özet

Makale, Azerbaycanlı ve yabancı bilim adamlarının kapsayıcı eğitim alanındaki araştırmalarını inceleme, karşılaştırma ve analiz yöntemlerini kullanarak değerlendirmektedir. Kapsayıcı eğitimin organizasyon ilkelerine dikkat çekilmek-

te ve ayrıca eğitim kurumlarında engelli çocukların tıbbi, psikolojik, pedagojik ve sosyal destek sistemindeki kapsayıcı eğitim kurum ve kuruluşlarının finansmanından bahsedilmektedir.

Kapsayıcı bir sınıfta eğitim sürecinin organizasyonuna yönelik farklı yaklaşımlar olduğu kanıtlanmıştır. Bu çalışmada bir dönüm noktası yaratmak için, çocuğun eğitim kurumuna adaptasyonuna, sınıf arkadaşlarıyla işbirliğine hazırlanmasına, eğitim alanının düzenlenmesine, sonuçların değerlendirilmesi teknolojileri de dahil olmak üzere kapsayıcı eğitim sürecinin düzenlenmesine dikkat etmek önemlidir.

***Anahtar kelimeler**: normatif-yasal belge, ilke, kavram, organizasyon, işbirliği, gelişme*

İnklüziv təhsilə normativ hüquqi sənədlərdə verilən yer

Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununda qeyd olunduğu kimi, humanistlik, demokratiklik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik və digər prinsipləri ilə yanaşı təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri sırasında bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanların yaradılması və təhsil hüququnun təmin edilməsini özündə ehtiva edən bərabərlik prinsipi durur [4]. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 dekabr 2017-ci il tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” [3] inklüziv təhsilin təşkili sahəsində aparılan işlərin hüquqi bazasını təşkil edir. Dövlət Proqramında [3] göstərilir ki, inklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir. Dövlət Proqramının vəzifələrinə [3] aid edilənlər sırasında təhsil müəssisələrinin və ***tədris proqramlarının*** sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi; sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı ***pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması***; sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ***ictimai maarifləndirmə*** işinin aparılması durur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 43 nömrəli Qərarı ilə “İnklüziv təhsilin təşkili Qaydası”ı [2] təsdiq edilmişdir. Qaydalarda inklüziv təhsilin təşkili ilə bağlı “***fərdi tədris planı***; ***təhsil proqramının uyğunlaşdırılması***; ***təhsil proqramının sadələşdirilməsi***” məsələlərinin təşkili yer almışdır. Qeyd olunan sənəddə göstərilir ki, “inklüziv təhsil sinifində təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar tədris prosesində funksionallığın artırılmasına xidmət edən lazımi avadanlıq və vəsaitlərlə, didaktik materiallarla təmin olunurlar”. Yaxud, “Sağlamlıq imkanları məhdud uşaqların (əqli geriliyi olanlar istisna olmaqla) təhsili ümumi orta və tam orta təhsil səviyyələrində ***təhsil proqramının uyğunlaşdırılması*** vasitəsilə həyata keçirilir” [2].

İnklüziv təhsilə baxış bucaqları

İnklüziv təhsilin mahiyyəti, əhəmiyyəti, elmi-nəzəri əsasları, işin təşkili metodikası, qiymətləndirilməsi, təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və s. sahədə alimlər tədqiqatlar aparılmışdır. Tədqiqatçılar tədqiqatlarında inklüziv təhsilin təşkilini müxtəlif aspektdən araşdırmaqla yanaşı, həm də təlim prosesində şəxsiyyətin dəyər göstəricilərinin formalaşmasına xüsusi diqqət yetirməyi müəllimə tövsiyə edirlər. Bəzən insanlar inklüziv təhsildə müəllim şəxsiyyətinə olan inamı pedaqoji uğur üçün ən mühüm psixoloji şərt saysalar da, inklüziv təhsildə inam müəllim üçün kifayət deyil, bunun üçün sahə üzrə müvafiq peşə bacarıqlarına malik olmaq lazımdır..

Aparılan araşdırmalar belə bir nəticəyə gəlməyə imkan verir ki, 21-ci əsrin ən narahatedici tendensiyalarından biri sağlamlıq imkanları məhdud (SİM) uşaqların sayının durmadan artmasıdır. UNİCEF-in məlumatına əsasən sağlamlıq imkanlarından məhdudluq qlobal səviyyədə təhsil üçün ən böyük sədlərdən birini təşkil edir [11]. Məlumdur ki, ölkəmizdə SİM uşaqların təhsilinin təşkili istiqamətində mühüm işlər aparılmış və aparılmaqdadır.

İnklüziv təhsil modeli SİM uşaqlar üçün maneəsiz və onların ehtiyaclarına uyğunlaşdırılmış təhsil mühitinin yaradılmasını və digər həmyaşıdları ilə birgə təhsil prosesində lazımi dəstəyin təmin edilməsini nəzərdə tutur.

Ümumtəhsil məktəblərində oxumaq SİM uşağa dostları və sinif yoldaşları ilə bərabər akademik və sosial öyrənmə imkanı yaradır. Cəmiyyətin hər bir üzvü SİM uşaqların təhsil almaq, onların qabiliyyətlərini, istedadlarını inkişaf etdirmək və ən əsası hər kəslə ünsiyyət mühitini dəstəkləməlidir.

İnklüziv təhsilin təşkilinə dair Azərbaycanın həyata keçirdiyi nümunədə cəmiyyətin müxtəlif maraq qruplarının SİM uşaqların təhsil və təlim prosesinə cəlb edilməsi istiqamətində mühüm addımların atıldığını göstərir. Məlumdur ki, bu istiqamətdə Birinci Vitse Prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi olaraq qeyd edilməli, Fondun sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili məqsədi ilə təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının gücləndirilməsi, SİM uşaqlar üçün internat və xüsusi məktəblərin əsaslı təşkili istiqamətindəki davamlı fəaliyyəti vurğulanmalıdır.

Məlumdur ki, SİM uşaqların təhsil alması məsələsi bir çox məsələlərin həllini tələb edir. Valideynlər də, müəllimlər də yaxşı bilirlər ki, SİM uşaqların ümumi təhsil mühitinə adaptasiyasında təlim mühitinin uyğunlaşdırılması ilə yanaşı, pedaqoji heyətin bilik və bacarıqlarının formalaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Müəllimlər xüsusi hazırlığa malik olmalı, bütün şagirdlərin təlim prosesinə cəlb edilməsini təşviq etməli, uşaqların uğurunu qiymətləndirməyi və birgə inkişafı həvəsləndirməyi bacarmalıdır. Burada vacib məqam müəllimlərin hərtərəfli hazırlanmasıdır. Bu prosesdə SİM uşaqların valideynləri də uşaqların birgə təhsilinə düzgün təlim münasibətinin formalaşmasında dəstəyə ehtiyac duyurlar. Başqa sözlə, inklüziv təhsil prosesi şagird, sinif, məktəb, valideyn və icma ilə işin təşkili bacarığına malik müəllim hazırlığını tələb edir. Bu isə, müəllim hazırlığını həyata keçirən pedaqoji ali təhsil müəssisələrində inklüziv təhsil üçün müəllimin hansı bilik və bacarıqlara sahib olması və bu mütəxəssislərin necə hazırlanması istiqamətindəki məsələləri ATM daxildə diskursun mərkəzinə qoyur.

Beynəlxalq təcrübələrinin təhlili və tədqiqat göstərir ki, təhsil sistemlərinin inklüzivliyinin təmin edilməsi uzun bir proses olmaqla, müxtəlif cəmiyyətlərin tələblərinə uyğun olaraq fərqli modellərin yaranmasına səbəb olmuşdur. Təbii ki, SİM uşaqların təhsilə cəlb edilməsi, bütövlükdə inklüziv təhsilin təşkilinə dair müxtəlif modellərin mövcudluğu normal haldır. Burada qarşıya qoyulmuş əsas vəzifə hər kəsin, fərqliliyindən asılı olmayaraq bütün fərdlərin təhsil almaq və cəmiyyətin tərkib hissəsi olaraq cəmiyyətə inteqrasiya etmək hüquqlarının təmin olunmasına xidmət etməsidir.

Qeyd edilən təcrübələrin təhlili pedaqoji kadr hazırlığı istiqamətində fəaliyyətin daha uğurlu təşkili baxımından mühüm əhəmiyyət kəsb edir. Təcrübə və tədqiqatlarda SİM uşaqlar üçün birgə təhsilin effektivliyi təsdiq olunsa da, burada inklüziv təhsilin təşkilinə verilən prinsiplərin nəzərə alınmaması bu təhsilin səmərəli təşkilində çətinliklər yarada biləcəyini nümayiş etdirir. Burada xüsusi olaraq inklüziv təhsilin cəmiyyət və müəllimlər tərəfindən təhsilalanların bərabər dəyərləndirilməsi (a), şagirdlərin məktəb həyatında bərabər iştirakının təmin olunması (b), biliyin əldə edilməsi üçün maneələrin aradan qaldırılması və məktəb həyatında tam iştirakın təmin edilməsinin təkcə SİM olanlara deyil, bütün şagirdlərə şamil olunması (c) və s. kimi prinsiplərini qeyd etməli və bu istiqamətdə pedaqoji kadr hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin rolu önə çəkilməlidir [7].

Tədqiqatlarda müxtəlif təcrübələrdən irəli gələrək sadalanan prinsiplər sırasında təklif edilən və "Aberdin prinsipləri" adlanan prinsiplər bu istiqamətdə müəllim hazırlığı üçün əsas vəzifələri müəyyən edir desək, yəqin ki, yanılmarıq. Bu prinsiplər aşağıdakı kimi ümumiləşdirilir:

1. Fərdi fərqliliklər öyrənmənin təşkilində mühüm inkişaf elementi kimi qəbul edilməli və müəllimin fəaliyyətində keçicilik konseptini müəyyən etmək bacarığı ilə təmin edilməlidir;
2. Müəllimlər bütün şagirdləri öyrədə bilmək bacarığında olduqlarına əmin olmalıdırlar;
3. Müəllim peşəsi başqaları ilə davamlı öyrənməni təmin etmək üçün yeni və yaradıcı metodları təmin etməyi bacarmalıdır [11, s. 24].

Belə şəraitdə ali təhsil müəssisələrinin rolu SİM uşaqları da cəlb edən təhsil prosesini idarə edəcək müəllim kadrların hazırlanması və onların ömürboyu öyrənməsini təşkil etməkdə öz

fəaliyyətini qurmaqdan ibarətdir. Müəllim hazırlığında səriştə əsaslı kadr hazırlığının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Tədqiqat göstərir ki, inklüziv təhsil prosesində (müəllim, inklüziv sinif və məktəb) müəllimin səriştələri sırasında aşağıdakı dəyərlər öz yerini almalıdır [11, s 24]:

- ✓ Şagirdlərin müxtəlifliyinin dəyərləndirilməsi (öyrənənlərin müxtəlifliyinin müəllim tərəfindən nəzərə alınması);
- ✓ Bütün təhsilalanların dəstəklənməsi (müəllim bütün şagirdlərin yüksək təhsil nəticələri üçün çalışır, bütün təhsilalanların akademik və sosial öyrənməsi təmin edilir);
- ✓ Digərləri ilə işi düzgün qurmaq (valideynlər, ailələri və digər müəllimlərlə fəaliyyətin effektiv təşkili);
- ✓ Peşəkar inkişafı davam etdirmək (müəllimin ömürboyu öyrənməsi, müəllimin təcrübəsini davamlı inkişaf etdirməsi).

Təbii ki, inklüziv təhsilin təşkilinə dair prinsip və tələblər fərqlidir. Müxtəlif tədqiqatlar və təhsil sistemlərinin təcrübələri bu prinsiplərin əhatəliliyini artırır, inklüziv pedaqogikaya müxtəlif prizmalardan baxışı təmin edir. Tədqiqatçılar qeyd edirlər ki, inklüziv pedaqogika müəllimin biliklər sisteminin tərkib hissəsi olmaqla hər bir uşağın fərdiliyindən çıxış edərək prosesin marginallaşdırılmasının qarşısının alınması (a), şagirdlərin öyrənmə potensialına açıq baxışının olması (b), sinifdə hər kəs üçün bərabər imkanların yaradılması (c), bütün uşaqların öyrənmə ehtiyaclarının müəyyən edilməsi (d) kimi elementləri əhatə edir. [10].

Digər bir tədqiqat nəticəsi inklüziv təhsilin təşkilinə dair inklüziv məktəblərdə bütün maraq qruplarına fokuslaşmış hədəflər müəyyən edir [8]. Müəllimlər üçün hədəflər isə yuxarıda qeyd edildiyi kimi məktəbin müəllimlərin bacarıqlarının artırılmasında maraqlı olması, məktəbdaxili əlaqələndirmənin bütün tərəfləri əhatə etməsi (müəllimə dəstəyin formalaşdırılması) və siniflərdə uşaqların bacarıqlarının artırılması istiqamətində öyrənmə imkanların yaradılması kimi göstərilir [8].

“Ümumtəhsil haqqında” Azərbaycan Respublikasının Qanununda təhsilin inklüziv təşkilinin tənzimlənməsi istiqamətində minimum doqquz fərqli anlayış müəyyən edilmişdir [5]. Qanunda inklüziv siniflərdə tədrisin təşkili məqsədi ilə müəllimlə yanaşı müəllim köməkçiləri də məsul tutulmuşdurlar. Beynəlxalq təcrübədə olduğu kimi, Azərbaycanda da SİM uşaqların ümumtəhsil müəssisələrində xüsusi şərait yaradılmaqla təhsilinin təşkili məqsədi ilə istər müəllim kadrların, istərsə də köməkçi heyətin hazırlanması istiqamətində səriştə əsaslı kadr hazırlığının təşkili mühüm məsələ kimi qarşımızda durur. Deməli, təhsilverənlərin inklüziv təhsilin təşkilinə hazır olması öndə duran mühüm məsələlərdən biridir. Müəllimlik təcrübəsi müddətində SİM uşaqlarla qarşılaşmayan müəllimlər, hətta peşəkarlığın inkişafı kurslarından keçmələrinə baxmayaraq, tədris prosesinin təşkilində lazımi bacarıq, texnologiya və metodikalara malik olmaya bilirlər. Yəni, müəllimlər, verilmiş şəraitdə, uşaqlarla kompleks işin təşkili və onların bərabər səviyyədə təhsil prosesinə cəlb etmək üçün lazımi səriştələrə sahib olmalıdırlar. Bu kontesktdə, müəllimlərin şagirdlərinin nailiyyətlərini qiymətləndirmək üçün yeni yanaşmaları öyrənməsi, inklüziv təhsil üzrə təlimlər, mütəxəssislərlə SİM uşaqlarla işləyən müəllimlər arasında əlaqələndirmə, tematik pedaqoji şuralar, davamlı mütəxəssis məsləhətləşməsi (reabilitasiya mərkəzlərindən, loqopedik xidmətlərdən, xüsusi məktəblərdən və s.), müəllimlərin peşəkarlığının inkişafı, o cümlədən əlavə təhsil imkanları mühüm alətlər sırasındadır.

Ali təhsil müəssisələri və inklüziv təhsil

Qeyd edildiyi kimi, inklüziv təhsilin təşkilində mühüm rollardan biri ali təhsil müəssisələrinin üzərinə düşür. Pedaqoji kadr hazırlığının aparıldığı ali təhsil müəssisələri istər kadr hazırlığı kontekstində, istərsə də ömürboyu öyrənmə prinsipləri əsasında müəllimlərin əlavə təhsil imkanları vasitəsi ilə bilik və bacarıqlarının inkişaf etdirilməsi kontekstində cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Ali təhsil müəssisələrinin inklüziv təhsilin təşkilindəki rolunu bir neçə istiqamət üzrə ümumiləşdirməyə çalışaq:

Səriştə əsaslı kadr hazırlığı. Ali təhsil səviyyəsinin və müvafiq ixtisasın təlim nəticələrinə uyğun olaraq səriştə əsaslı kadr hazırlığının həyata keçirilməsi, məzmunun, ixtisasın və əmək

bazarının tələblərinə uyğun davamlı şəkildə inkişafı və tətbiqi. Məzmunun yaradılmasında cəmiyyətin dinamik inkişafına çevik reaksiyanın təmin edilməsi.

Ehtiyaclar və analizlər. Ali təhsil müəssisələri istər əmək bazarının, istərsə də valideyn və şagirdlərin ehtiyacları üzərindən, eləcə də istər təcrübəli, istərsə də gələcək müəllimlərin öyrənmə ehtiyacları üzərində davamlı dəyərləndirmə, ehtiyacların xəritələnməsi və izlənməsi alətlərinə sahib olmalıdırlar.

Tədqiqatlar və elm yaratma. Ali təhsil müəssisələri konkret ehtiyaclar və ya hədəflər üzərindən davamlı tədqiqatlar aparmağı təmin etməli, təlim və tədris prosesini bu tədqiqat nəticələrinə uyğunlaşdırmalıdırlar. İnklüziv təhsil, inklüziv pedaqogika və bu kimi istiqamətlər üzrə ali təhsil müəssisələrində elm yaratma (uzun müddətli hədəflər üçün) və elmi-pedaqoji kadr hazırlığı prosesi planlı və sistemli xarakter daşımalıdır. Bilik yaratma prosesi ilə yanaşı elm yaratma və elmi tədqiqatın nəticələrinin düzgün tətbiqi mühüm rol oynayır.

Fənlərarası və təcrübələr arası inteqrativ öyrənmə modellərinin tətbiqi. Pedaqoji kadr hazılrlığı prosesində öyrənmə modelləri sırasında "adaptasiya edilmiş təcrübə" və "fənlərarası və metodlararası" təcrübələrin tətbiqi mühüm əhəmiyyət kəsb edir [10]. Başqa sözlə, səriştə əsaslı müəllim hazırlığında tətbiq edilməsi mümkün olan fərqli metodlar öyrənmə və şagirdlərin sinifə inteqrasiyasını asanlaşdırmaqla yanaşı, müəllimin peşəkar və fərdi təcrübələrinin bir araya gətirilməsi ilə onun səmərəliliyini daha da artıra bilir.

Ömürboyu öyrənmə, təlimlər və əlavə təhsil. Məlumdur ki, öyrənmə prosesi normativ təhsil illəri çərçivəsi ilə məhdudlaşan proses deyildir. İstər cəmiyyətin inkişafı, istərsə də elm və texnologiyanın sürətli inkişafı öyrənməyə çevik və yerində (istehsalatdan minimum aralanmaqla) əlavə öyrənməni tələb edir. Bu baxımdan istər ali təhsil müəssisəsinin məzunlarının sonrakı peşəkar inkişafı baxımından, istərsə də inklüziv təhsil prosesinə cəlb edilmiş digər mütəxəssislərin əlavə öyrənməsinin təşkili ali təhsil müəssisələrinin fəaliyyətinin tərkib hissəsini təşkil edir [1].

Əlaqələndirmə və şəbəkələşmə funksiyası. Öz profilləri və həyata keçirdikləri təhsil proqramları çərçivəsində bütün maraq qrupları, xüsusi ilə müəllimlər və ali təhsil müəssisələri arasında əlaqələndirmənin təmin edilməsi, inklüziv təhsilinin inkişafı, yeni imkanların, o cümlədən məzmun və bacarıqların inkişafının müzakirəsi məqsədi ilə ali təhsil müəssisələrinin müvafiq strukturları ilə şəbəkələşmənin təşkili mühüm əhəmiyyət kəsb edir. Şəbəkələşmə ən yaxşı təcrübələrin öyrənilməsi və yayılması üçün mühüm platforma rolunu oynaya bilər. Müxtəlif seminarlar, dəyirmi masa müzakirələri və tematik konfranslar bu istiqamətdə mühüm alətlərdir.

Ümumtəhsil müəssisələri ilə işin təşkili. Pedaqoji kadr hazırlığı ilə məşğul olan ali təhsil müəssisələri və ümumitəhsil müəssisələri arasında əlaqələndirmənin, qarşlıqlı mübadilələrin və eksperimentlərin təşkili mühüm əhəmiyyət kəsb edir. Ali təhsil məüssisələri ümumi təhsil məktəbləri ilə işlərin təşkilində aktiv rol almağı hədəfləməlidirlər.

Bakı Slavyan Universiteti və inklüziv təhsil: İnklüziv təhsildən inklüziv cəmiyyətə layihəsi

İnklüziv təhsilin təşkili istiqamətində aparıcı rol oynamaq hədəfi Bakı Slavyan Universitetinin strateji planının tərkib hissəsidir. 2023-cü ilin sentyabr ayında BSU Elmi Şurası tərəfindən təsdiq edilmiş "BSU 2030: Strateji İnkişaf Planı"na uyğun olaraq universitetin 2030-cu ilədək inklüziv təhsilin təşkili, bu istiqamətdə məzmunun inkişafı, səriştə əsaslı kadr hazırlığı və əlavə təhsilinin təşkili, eləcə də inklüziv iş mühiti sahəsində ölkəmizin ali təhsil müəssisələri arasında qabaqcıl yerə sahib olmağı, qlobal səviyyədə rəqabətədavamlı müəssisə kimi tanınmağı hədəfləyir. Bakı Slavyan Universitetinin davamlı olaraq müxtəlif maraq qrupları ilə keçirdiyi tədbirlər universitetin inklüziv

təhsilin müzakirə məkanlarından birinə çevirilməsini qarşıya məqsəd qoymuşdur. Yalnız 2024-cü ilin aprel ayında keçirilməsi planlaşdırılan 20-dən çox tədbir məhz bu məqsədə xidmət edir [6].

Sərişdə əsaslı kadr hazırlığı və məzmunun inkişafı istiqamətində universitetdə davamlı işlər həyata keçirilir, BSU nəzdində fəaliyyət göstərən Məktəb-Lisey Kompleksi ilə pedaqoji fakültələr arasında fəaliyyət planları bu istiqamətdə fəaliyyətin səmərəli təşkilinə xidmət edir. BSU-da kadr hazırlığı aparılan bütün pedaqoji və filoloji ixtisasların təşklilində inklüziv təhsilin təşkilinə dair tələblərin yer alması hədəflənir. Qarşıdakı dövr ərzində isə bu proses “İbtidai sinif müəllimliyi”, “Məktəbəqədər hazırlıq”, “Korreksiyaedici təlim” və “Təhsildə sosial-psixoloji xidmət” ixtisaslarına fokuslanmışdır. Hazırda bu ixtisaslar 2021-ci ildə yaradılmış Təhsil fakültəsində həyata keçirilməklə 803 tələbəni əhatə edir. Qeyd edilməlidir ki, universitetin Yüksək Təhsil Mərkəzi tərəfindən həyata keçirilən müxtəlif innovativ layihələrdən olan “Şagird hazırlığının müasir çağırışları: dünya standartları üçün müəllimlər” layihəsi çərçivəsində əmək bazarının nümayəndələri (yerli və beynəlxalq özəl məktəblər) ilə birlikdə bu ixtisaslarda təhsil alan tələbələr üçün fənnlərin hazırlanması prosesində inklüziv təhsilin təşkili üzrə bacarıqlar da xüsusi yer alacaqdır.

2022-ci ilin aprel ayından etibarən Bakı Slavyan Universitetində “İnklüziv təhsildən inklüziv cəmiyyətə” layihəsi həyata keçirilir. Layihənin məqsədi Bakı Slavyan Universitetində pedaqoji kadr hazırlığı prosesində inklüziv təhsil üçün kadr hazırlığının effektiv təşkilinə, eləcə də bu istiqamətdə məzmunun və öyrənmənin daha səmərəli təşkili məqsədi ilə müxtəlif maraq qruplarının əlaqələndirilməsinə töhfə verməkdir.

Layihənin birinci dövrü 2022-ci ilin aprel ayını əhatə etmişdir. Bu dövrdə Bakı Slavyan Universitetində müxətlif maraq qrupları, xüsusi ilə SİM uşaqlarla çalışan ictimai təşkilatların iştirakı ilə məlumatlandırma tədbirləri keçirilmiş, ali təhsil müəssisələrinin mütəxəssisləri ilə müzakirələr aparılmışdır. 15 aprel 2022-ci il tarixində isə ilk dəfə olaraq “İnklüziv təhsildən inklüziv cəmiyyətə” elmi-praktiki konfransı təşkil edilməklə inklüziv təhsil sahəsində ali təhsil müəssisələri arasında ilk geniş müzakirə platforması yaradılmışdır. Ümumtəhsil müəssisələrində və ATM-lərdə çalışan 300-dən çox müəllimin iştirakı ilə keçirilən birinci konfrans müəllim, mütəxəssis və tədqiqatçıların böyük marağına səbəb olmuşdur. Konfrans çərçivəsində müxtəlif ixtisaslarda təhsil alan tələbələr üçün peşəkarlar tərəfindən təlimlər həyata keçirilmişdir.

Bu dövr ərzində Bakı Slavyan Universitetində kadr hazırlığının təşkili istiqamətində yeni qərarlar verilmiş, 2022-2023-cü tədris ilindən başlayaraq “Korreksiyaedici təlim” və “Psixologiya” ixtisasları üzrə qəbul həyata keçirilməyə başlamışdır. Qeyd olunmalıdır ki, “Təhsildə sosial-psixoloji xidmət” ixtisası üzrə əlavə təhsil istiqamətində də marağın böyük olduğu müşahidə edilməkdədir.

Layihənin ikinci dövrünü təşkil edən 2023-cü il ərzində əsasən regional əlaqələndirmə görüşləri keçirilmiş, yerlərdən olan həmkarların iştirakı ilə müzakirələr təşkil edilmişdir. Bu dövr ərzində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə regionlarda yerləşən ümumtəhsil müəssisələrinin pedaqoji heyətləri ilə sıx əməkdaşlıq quruldu. “Inklüziv təhsilə doğru növbəti addım” adı altında dörd regionda dəyirmi masa təşkil edildi, müxtəlif səviyyələrdə inklüziv təhsillə bağlı dəyərləndirilmənin aparılması məqsədi ilə sorğular təşkil edildi. Astara, Biləsuvar, Şamaxı və Şəmkir şəhərlərində təşkil edilən dəyirmi masalarda müvafiq regionlar üzrə təhsil idarələrinin rəhbərləri, məktəb direktorları, müəllim və psixoloqlardan ibarət təxminən 300 nəfərin iştirakı ilə seminarlar (vorkşoplar) təşkil edildi.

Psixologiya Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə 2023-cü ilin iyununda Bakı Slavyan Universitetində keçirilmiş “II Psixologiya Zirvəsi” konfransında da inklüziv təhsil və SİM uşaqlarla işin təşkili əsas mövzular sırasında yer almışdı.

Layihənin üçüncü dövrü müəllim hazırlığında məzmunun inkişafı və sərişdə əsaslı kadr hazırlığı prosesində ali təhsil müəssisələri və əmək bazarı ilə fəaliyyətin daha effektiv təşkilini nəzərdə tutub. 2024-cü il ərzində pedaqoji kadr hazırlığı ilə məşğul olan ali təhsil müəssisələri ilə məzmunun inkişafı istiqamətində geniş məsləhətləşmələrin aparılması nəzərdə tutulur. Qarşıdakı dövrdə inklüziv təhsilin təşkili məsələlərinə dair tematik tədqiqatların aparılması istər sərişdə əsaslı kadr hazırlığı, istərsə də təhsilin və əlavə təhsilin planlaşdırılması və tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir.

Qeyd edilməlidir ki, ənənəvi olaraq ümumdünya autizim maarifləndirmə aylığı çərçivəsində keçirilən onlarla tədbirlə yanaşı, 16-19 aprel tarixlərində Bakı Slavyan Universitetində "İnklüziv təhsildən inklüziv cəmiyyətə" beynəlxalq elmi-praktiki konfransı keçiriləcəkdir. Sayca ikinci olan bu konfransın beynəlxalq status daşımaqla ABŞ, Belarus, Polşa və Özbəkistandan olan həmkarların iştirakı ilə aprelin 16-da Bakıda keçirilməsi planlaşdırılmışdır. Aprelin 19-da Bakı Dövlət Universiteti ilə Qazax şəhərində keçirilən regional bölmənin bu regiondan olan müəllimlərin geniş iştirakını nəzərdə tutur.

Beləliklə, Bakı Slavyan Universiteti müxtəlif maraq qrupları ilə fəaliyyətin sıx təşkili əsasında inklüziv təhsil prosesi üçün sərişdə əsaslı kadr hazırlığını həyata keçirməkdədir. İnklüziv təhsilin təşkilində ali təhsil müəssisələrinin rolunun mühüm əhəmiyyətini nəzərə alaraq, istər kadr hazırlığı, istər tədqiqatların aparılması, istərsə də əlaqələndirmə və şəbəkələşmə fəaliyyətinin təşkili baxımından fəaliyyətin inkişafında Bakı Slavyan Universiteti bundan sonra da öz işini qurmağı hədəfləyir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ömürboyu öyrənmə üzrə Milli Kvalifikasiyalar Çərçivəsi. 2018.
2. İnklüziv təhsilin təşkili Qaydası. https://e-qanun.az/framework/53554
3. 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. https://e-qanun.az/framework/37269
4. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı. "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2009, 80 s.
5. Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. www.e-qanun.az
6. "BSU 2030: Staretji İnkişaf Proqramı". Bakı Slavyan Universitetinin strateji plan (2023-2030).
7. Алёхина С.В. Принципы инклюзии в практике // Аутизм и нарушения развития. 2020. №1(40). С. 1-6.
8. Abawi L.A. Principles of inclusive practice report. Prinsiples of inclusive school practice. November 2016. University of Sothern Queensland.
9. Lakkala S. Paradigm in inclusive education. in Alvyra Galkiene. Inclusion in socio-educational frames. Inclusive school cases in four European countries. University of Educatiional Sciences, Lithuania. 2017. s 24:
10. Mintz J. The role of universities and knowldge in teacher education for inclusion. International Journal of inclusive Education. 2022.
11. Sahani R.S. Inclusive education: meaning, concept and objectives. Journal of emerging technologies and innovative Research (JETIR). April, 2023, Volume 10, issue 4.
12. UNİCEF-in rəsmi internet saytı. www.unicef.org

MÜASİR DÖVRDƏ SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARIN TƏHSİL HÜQUQUNUN HƏYATA KEÇİRİLMƏSİ YOLLARI

Nigar Abdinova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
teachern@mail.ru

Summary

Ensuring the realization of the right to education for children with disabilities in our time is a priority of public policy. This training is a process of implementing an individual and differential approach to students with disabilities. Education for children with disabilities is their successful socialization, ensuring their participation in society, various types of professional and social activities.

Key words: *a disabled child, education, the right.*

Резюме

Обеспечение реализации права на образование детей с ограниченными возможностями здоровья в наше время является приоритетной задачей государственной политики. Это обучение является процессом реализации индивидуального и дифференциального подхода к учащимся с ограниченными возможностями здоровья. Образование детей с ограниченными возможностями здоровья - это их успешная социализация, обеспечение их участия в обществе, различных видах профессиональной и социальной деятельности.

Ключевые слова: *ребенок с ОВЗ, образование, право*

Müasir dövrümüzdə sağlamlıq imkanları məhdud olan uşaqların təhsil hüququnun həyata keçirilməsinin təmin edilməsi dövlət siyasətinin prioritet vəzifələrindəndir. Pedaqoji inteqrasiya inkişaf qüsurları olan uşaqların və onların normal inkişaf edən həmyaşıdlarının eyni ümumtəhsil müəssisəsinin daxilində birgə təhsil həyatını əhatə edir.

Bu gün sağlamlıq imkanları məhdud olan uşaqların təhsil alması onların uğurlu sosiallaşması, cəmiyyətdə, müxtəlif peşə və sosial fəaliyyət növlərində iştirakının təmin edilməsi üçün vacib şərtlərdən biridir. Təhsil sistemində sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnun həyata keçirilməsi üçün şəraitin yaradılması zəruri haldır. Məqsədlər:

-sağlamlıq imkanları məhdud uşaqların pulsuz təhsil almaq hüquqlarının həyata keçirilməsi üçün şəraitin təmin edilməsi;

-müxtəlif formalarda inkişaf qüsurları olan şagirdlərlə yüksək keyfiyyətli korreksiya və reabilitasiya işinin təşkili;

-tədris prosesinin təkmilləşdirilməsi yolu ilə sağlamlıq imkanları məhdud şagirdlərin sağlamlığının qorunması və möhkəmləndirilməsi;

-sağlamlıq imkanları məhdud şagirdlərin fərdi qabiliyyətlərinin reallaşdırılması üçün əlverişli psixoloji-pedaqoji mühitin yaradılması;

-sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili üçün məktəbin maddi-texniki bazasının və resurs təminatının genişləndirilməsi;

-kadr təminatı sisteminin təkmilləşdirilməsi [16,316].

Bu gün bir çox məktəblərdə sağlamlıq imkanları məhdud uşaqların təhsil alması üçün aşağıdakı şəraitlər yaradılmışdır:

-məktəb sağlamlıq imkanları məhdud olan şagirdlər üçün ibtidai ümumi və əsas ümumi təhsilin xüsusi (korreksiyaedici) proqramlarını həyata keçirir;

- sağlamlıq imkanları məhdud uşaqların valideynlərinin ərizəsi əsasında, tibbi və sosial-pedaqoji göstəricilərə görə evdə fərdi təlim təşkil edilir;

- şagirdlərin təhsil və tərbiyəsinin təşkili ilə bağlı ümumi təhsil müəssisəsinin fəaliyyəti ilə bağlı məsələlər təhsil müəssisəsinin Nizamnaməsi və yerli aktları ilə tənzimlənir;

- sağlamlıq imkanları məhdud uşaqların bütün təhsil proqramlarını mənimsəmələrini, fiziki və ya əqli inkişafındakı çatışmazlıqları korreksiya etmək üçün məktəb şagirdlərin lazımi avadanlıqla təchiz olunmuş psixoloq kabineti, müəllim-psixoloq və tibb işçisi ilə təmin edir.

Sağlamlıq imkanları məhdud uşaqların məktəbdə tədrisi prosesi aşağıdakı kimi qurulmuşdur:

- fərdi dərslər-bu zaman sağlamlıq imkanları məhdud uşaqlar müəllimlərdən fərdi şəkildə təhsil alırlar;
- evdə təhsil – bu zaman müəllimlər sağlamlıq imkanları məhdud uşaqların evlərinə gedirlər.

Sağlamlıq imkanları məhdud uşaqlarla aparılan işin təşkili:

Eşitmə qüsuru olan şagirdlərlə danışarkən onun üzünə baxmaq vacib şərtlərdən biridir. Bu zaman aydın danışmaq lazımdır və heç bir şeyi həddindən artıq vurğulamaq olmaz. Xüsusilə onun qulağına qışqırmağa icazə verilmir. Təkrara ehtiyac olduqda, cümləniyenidən ifadə etmək lazımdır. Jestlərdən istifadə etmək olar. Söhbət zamanı sadə, qısa cümlələrdən istifadə etmək, onun üçün tanış olmayan ifadələrdən istifadə etməkdən çəkinmək lazımdır. Əgər rəqəm, qayda, düstur, ünvan, texniki və ya digər mürəkkəb termini özündə əks etdirən məlumatları çatdırmaq lazım gələrsə, onda onu yazmalı, deyilənləri qeydlərlə təkrar etmək lazımdır. Eşitmə qüsuru olan şagirdlərə xəbərdarlıq etmədən söhbətin mövzusunu dəyişmək olmaz.

Görmə qabiliyyəti zəif olan şagirdlərə dərs keçərkən tanımadığı əşya ilə tanış olduğu zaman ona sərbəst şəkildə obyektə toxunmaq imkanı verilməlidir. Gözdən əlil şagirdin qarşısında maneə olduğunu görüb, onun hərəkətini uzaqdan idarə etməməli, yaxınlaşıb düzgün yola çıxmağa kömək etmək lazımdır. Əgər ona yaxınlaşmaq mümkün deyilsə, təhlükə barədə yüksək səslə xəbərdlıq etmək lazımdır.

Dərs prosesinin praktiki bacarıqların inkişafına aid olan hissəsində görmə qabiliyyəti zəif olan şagirdlərin müstəqilliyinin və fəallığının inkişafına xüsusi diqqət yetirilməlidir. Bu zaman müəllim pedaqoji taktika nümayiş etdirməli, uğur situasiyaları yaratmalı, hər bir şagirdə vaxtında köməklik göstərməli, öz gücünə və imkanlarına inamı inkişaf etdirməyi bacarmalıdır.

Dayaq-hərəkət sistemi pozuntusuolan şagirdlərlə aparılan dərsin müddəti 1,5 saatdan çox olmamalıdır, bundan sonra isə 10-15 dəqiqəlik fasilə tövsiyə olunur. Şagirdə yazılı və şifahi işləri (oturmaq, ayaq üstə durmaq, dirsəklərinə söykənmək və s.) yerinə yetirmək üçün rahat mövqe seçmək imkanı verilməlidir.

Dayaq-hərəkət aparatı zədələnmiş şagirdlərin məlumatı tam qəbul etmələri üçün audio mesajlar vizual olanlarla təkrarlanmalı, əyani materiallardan və maarifləndirici videoma-teriallardan istifadə edilməli, idrak fəaliyyətini aktivləşdirən üsullardan istifadə edilməlidir.

Fiziki qüsur şagirdin sosial mövqeyinə, həyata münasibətinə son dərəcədə mənfi təsir göstərir ki, bu da aparıcı fəaliyyətin və başqaları ilə ünsiyyətin pozulması ilə nəticələnir. Belə şagirdlərdə fərdi inkişaf pozuntuları olur, bu da özünü fəaliyyət üçün motivasiyanın azalması, hərəkət və ünsiyyətlə əlaqəli qorxu, sosial əlaqələri məhdudlaşdırmaq istəyi, xarici stimullara həddindən artıq həssaslıq və qorxu ilə özünü göstərir. Bəzilərində narahatlıq, tələş, digərlərində isə passivlik müşahidə edilir.

Əlilliyi olan şagirdlərlə işləmək üçün ümumi tövsiyələr-həm şifahi, həm də yazılı təlimatların istifadəsi, tapşırıqların addım-addım izahı və ardıcıl icrası, tapşırığı yerinə yetirmək üçün təlimatların şagirdlər tərəfindən təkrarlanması, audio-vizual texniki təlim vasitələri ilə təmin edilməsi, şagirdlər-dən birinin digərinə nümunə ola bilməsi məqsədilə layihələri tamamlamaq üçün onların cütlərə bölünməsi, tapşırıqların yerinə yetirilməməsinə görə cəzaları minimuma endirmək, mənfidən daha çox müsbətə fokuslanmaq, müsbət yönümlü və şagirdin bacarıq və qabiliyyətlərini nəzərə alan fərdi planların tərtib edilməsi, kiçik davranış pozuntularına məhəl qoymamaq və s.

Birgə öyrənmə mürəkkəb bir problemdir. Məhz bu səbəbdən də onu həll edərkən real sosial və təhsil inteqrasiyasına imkan verəcək mövcud nəzəri əsaslandırmalara və praktiki inkişaflara etibar etmək lazımdır.

İnklüziv təhsil əlilliyi olan uşaqların və normal inkişaf edən həmyaşıdlarının birgə təhsili və təlimi prosesidir. Bu təhsilin vəzifəsi isə sağlamlıq imkanları məhdud şagirdlərə fərdi və differensial yanaşmanın həyata keçirilməsi prosesidir. Bu zaman sağlamlıq imkanları məhdud uşaqlar sosial inkişafda ən tam tərəqqiyə nail ola bilərlər. Eyni zamanda, normal inkişaf edən uşaqların keyfiyyətli təhsil almasına heç bir maneə olmamalıdır.

Ədəbiyyat

1. “İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr” V Elmi-praktiki konfransın məqalələr toplusu. Bakı, “Şərq-Qərb” Nəşriyyat evi, 2011, 624 səh.
2. Виневская А. Практические материалы для педагогов, реализующих инклюзивное образование. – Екатеринбург: Ridero, 2016. – 192 с.

TƏDRİSDƏ UNİVERSAL DİZAYN SİSTEMİNİN TƏTBİQİ ƏHƏMİYYƏTİ

Gülnar Abdullayeva
ADU-nun Pedaqogika kafedrasının baş müəllimi
kerimzadeh85@mail.ru

Summary

All designs included in universal learning design must be user-centered. This approach, called design for all, aims to create a universal environment that meets the spatial, social and personal needs of all learners, including those with disabilities. Accessibility must be ensured for the safe and free movement of all individuals, including persons with disabilities. Universal learning design allows for the full inclusion of learners with different learning needs in the learning process. It involves continuous support in the process of mastering the general education program with learners with special needs. This is ensured not only by special specialists in individual classes, but also by the flexibility and versatility of the educational programs every day, every lesson, every teacher.

Key words: *inclusive education, universal learning design, technology, integration, safe environment.*

Резюме

Все проекты, включенные в универсальный дизайн обучения, должны быть ориентированы на пользователя. Этот подход, получивший название «дизайн для всех», направлен на создание универсальной среды, отвечающей пространственным, социальным и личным потребностям всех учащихся, включая людей с ограниченными возможностями. Доступность должна быть обеспечена для безопасного и свободного передвижения всех людей, включая людей с ограниченными возможностями. Универсальный дизайн обучения позволяет полностью включить в учебный процесс учащихся с различными потребностями в обучении. Он предполагает постоянное сопровождение в процессе освоения общеобразовательной программы учащимися с особыми потребностями. Это обеспечивается не только специальными специалистами на индивидуальных занятиях, но и гибкостью и универсальностью образовательных программ на каждый день, каждый урок, каждого преподавателя.

Ключевые слова: *инклюзивное образование, универсальный дизайн обучения, технологии, интеграция, безопасная окружающая среда*

Universal Öyrənmə Dizayn “bütün insanlara bərabər öyrənmək imkanı verən tədris proqramlarının işlənib hazırlanması üçün prinsiplər toplusunu” əks etdirir. Universal öyrənmə dizaynı (UÖD) öyrənənlərin necə öyrənməsi ilə bağlı elmi məlumatlara əsaslanır və təlim-tədris prosesinin təkmilləşdirməsinə xidmət edir. Təlim strategiyalarının bir çoxu müxtəlif öyrənənlər üçün öyrənmə imkanlarına çıxışın təmin edilməsinə ümumi diqqəti nəzərdə tutsa da, UÖD bütün şəxslər üçün yüksək keyfiyyətli təhsil imkanları təmin edən yanaşmanı təmsil edir. UÖD konsepsiyası üç əsas yanaşmanı ehtiva edir (Meyer, 2005, s. 13-35):

- *Çoxsaylı təqdimat vasitələri* (müxtəlif üsullarla təqdim olunan məlumat və məzmun).
- *Çoxsaylı fəaliyyət və ifadə vasitələri* (öyrənənlərin biliklərini ifadə edə bilmə üsulları).
- *Öyrənənləri təlim prosesinə cəlb etməyin bir çox vasitələri* (təlimə marağı və motivasiyanı stimullaşdırmaq).

Bu prinsiplər təlim nəticələrinin, qiymətləndirmənin, metodların və resursların dizaynına rəhbərlik edir. “Universal Dizayn” termin kimi ilk dəfə memarlıq sahəsində, əlil arabası istifadəçisi olan memar R.Mays ilk dəfə bina və tikililərdə əlçatanlığı təmin edəcək bir sıra prinsipləri təsvir etmək üçün işlətmişdir. R.Mays (Ron Mace), memarlıq prinsiplərinin əlilliyi olan insanlara fayda verəcəyini və eyni zamanda əlilliyi olmayan insanlara isə "dalğalı təsir" göstərəcəyini iddia etmişdir. Maysın fikirlərinin təsdiqinə gündəlik həyatda rast gəlmək mümkündür, məsələn (Meyer, 2005, s. 13-35):

➢ Səkilərdəki maili bordürlər - əlillər, eləcə də uşaq arabasında olan valideynlər və arabalı insanlar üçün faydalıdır.

➢ Qapı tutacaqları - əşyaları tutmaqda çətinlik çəkən insanlara kömək etmək üçün nəzərdə tutulmuşdur və çoxlu əşyaları tutduqları halda qapıları dirsəkləri ilə açа bilən şəxslər üçün də faydalıdır.

➢ Böyük ölçüdə çap olunmuş yazılar - həm görmə qüsuru (görmə zəifliyi) olan insanlar, həm də oxumağı öyrənən uşaqlar üçün faydalıdır.

➢ "Universal İşarələr" (sözsüz işarələr) - başqa dildə danışan və üzündən oxuya bilməyən insanlara kömək edir.

Universal dizayna əsaslanan təlim mühitində müəllimlər öyrənənlərə məzmunu izah etmək, bilikləri ifadə etmək və təlim prosesində fəal iştirak etmək üçün çoxsaylı imkanlar təklif edirlər. Müəllimin dəstəyi ilə əlilliyi olan şəxslərə yardım məqsədilə müxtəlif təlim üsulları ("Çoxsaylı Yollar") hazırlanmışdır. "Çoxsaylı Yollar" yanaşması bütün öyrənənlərə onların öyrənmə ehtiyaclarına, öyrənmə üslublarına və şəxsi üstünlüklərinə cavab verən müxtəlif fəaliyyətlərdə iştirak etmək imkanı verir. Universal Öyrənmə Dizayn bütün öyrənənlərin öyrənmə ehtiyaclarını ödəmək üçün xüsusi bir yanaşmanı tələb edir. UNICEF-in hüquqlara əsaslanan təhsil yanaşmasını 1948-ci il BMT-nin "İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsi" ilə əlaqələndirmək olar. Yuxarıda qeyd edildiyi kimi, bütün uşaqların təhsilalma hüququ vardır. UNICEF maksimum dərəcədə bu cür təhsilin inklüziv xarakter daşıması ideyasını iddia edir. 2000-ci ildə UNICEF "Təhsildə keyfiyyətin müəyyən edilməsi" adlı işçi sənədində keyfiyyətin beş ölçüsünü müəyyən etmişdir. Bu ölçülər yüksək keyfiyyətli təhsil sisteminin funksiya və göstəriciləri haqqında anlayışı təmin etmək üçün nəzərdə tutulmuşdur (Cast, 2002, s. 17-22):



Əlçatanlığı nəzərə alaraq sinifdə istifadə olunan yanaşmalar öyrənənlərin təlim ehtiyaclarını qarşılamaq üçün nəzərdə tutulmuşdur. Universal Öyrənmə Dizaynı UNICEF-in beş ölçüsü üzrə keyfiyyəti artıra bilər:

1. ***Öyrənənlər*** - öyrənənlərə bilik əldə etmək və öyrəndiklərini nümayiş etdirmək üçün müxtəlif üsullar təqdim edilir. UÖD strategiyalarından istifadə edən müəllimlər öyrənənlərə daha çox güvənir, onlardan yüksək nəticələr gözləyirlər.

2. ***Ətraf mühit*** - UÖD əsaslı sinif otaqları inklüziv təhsil üçün nəzərdə tutulmuşdur. Öyrənənlər müəllimlərlə qarşılıqlı əlaqədə olduqları üçün daha çox fəaliyyət və tapşırıq yerinə yetirmək kimi üstünlüyə sahibdirlər. Bu qarşılıqlı əlaqələr təhlükəsiz sinif mühiti ilə yanaşı, müxtəlif öyrənmə qabiliyyətinə malik olan öyrənənlər arasında daha yüksək səviyyədə inkişafı təmin edə bilər.

3. ***Məzmun*** - UÖD-də məzmun sabit qalır, lakin materialın təqdimatı və məzmunun həyata keçirilməsində öyrənənlərin iştirakı sinif otağından və onların öyrənmə ehtiyaclarından asılı olaraq dəyişir. Bu məqsədlə, UÖD öyrənənlərin məzmunu başa düşmək və mənimsəmələrini nümayiş etdirmək üçün bir çox yollar təklif edə bilər.

4. ***Proseslər*** - Sinif prosesləri UÖD-nın əsasını təşkil edir. Bütün proseslər, o cümlədən mövzunun təqdimatı, biliklərin ifadə üsulları və sinifdə şagird fəaliyyətləri əlçatanlıq nəzərə alınmaqla tərtib edilmişdir. UÖD-nin yaradılması prosesində müəllimlər öyrənənlərin təlim ehtiyaclarını nəzərə alır, məzmunu bütün öyrənənlərə əlçatan etmək üçün məqsədlər müəyyən edir və öyrənənlərin məzmunla

qarşılıqlı əlaqədə olması üçün bir çox üsulları yaradıcı şəkildə tərtib edirlər. Bir çox UÖD strategiyaları UNICEF-in uşaq mərkəzli öyrənmə modelinə uyğun gəlir.

5. ***Nəticələr*** – şagird fəaliyyətinin qiymətləndirilməsi də UÖD fəlsəfəsinə inteqrasiya oluna bilər. Qiymətləndirmə öyrənənlərə bilik nümayiş etdirmək üçün öyrəndikləri məzmuna cavab vermək üçün bir neçə üsul təqdim etməklə başlayır. Qiymətləndirmə üsulları müəllimlərə xüsusi ehtiyacların təsirini minimuma endirəcək şəkildə öz şagirdlərinin irəliləyişlərini dəqiq ölçməyə imkan verir (Meyer, 2005, s. 13-35).

UÖD BMT-nin “Uşaq Hüquqları haqqında” Konvensiyasına əsaslanan təhsil fəlsəfəsinə uyğun gəlir. UÖD yüksək keyfiyyətli təhsil sistemini əks etdirir, belə ki:

- *Öyrənənlər üçün çevik öyrənmə təcrübələrini inkişaf etdirilməsini;*
- *cəlbedici sinif mühitinin yaradılmasını;*
- *gözləntiləri qarşılamaq üçün bir çox yol təqdim etməklə bütün öyrənənlər üçün yüksək nəticələrin gözlənilməsini;*
- *müəllimlərə universal təlim haqqında fərqli düşünmək səlahiyyətinin verilməsini;*
- *bütün şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud olan şəxslər üçün təhsil nəticələrinə diqqət yetirilməsini dəstəkləyir.*

UÖD-dən istifadə etməklə öyrənmə maneələrini minimuma endirmək mümkündür. Maneəsiz öyrənmə dizaynı müəyyən bir sinif daxilində bütün şagirdlərin ehtiyaclarına diqqət yetirməyi nəzərdə tutur. Müəllim UÖD - dən bələdçi çərçivə kimi istifadə edərək dərsləri planlaşdırarkən, dil, öyrənmə üslubları, duyğu, qavrayış, mədəniyyət və elmi səviyyədə müxtəlif ehtiyacları olan öyrənənlərə ən yaxşı şəkildə tədrisin yollarını təklif edir. UÖD-in ümumi strukturu məlumatın qəbulu və emalı yollarını əks etdirir. Birinci rəhbər prinsip ondan ibarətdir ki, məzmunun hazırlanması və təqdim edilməsində çevik yanaşma tətbiq olunmalı, effektiv tədris üçün müxtəlif tədris metodları və strategiyalarından istifadə edilməlidir. Bunun üçün müəllim diqqətlə müşahidə edir, hər bir şagirdin özünəməxsus öyrənmə üsullarını kəşf edir və uyğun metod seçir. Universal təlim dizaynının bu prinsipi xüsusilə zəruridir, çünki şagirdin ehtiyaclarını nəzərə almaq və müvafiq metodu seçməklə şagird üçün maneə azalır. İkinci rəhbər prinsipə görə, təhsilin məqsədi şagirdlərə sadəcə olaraq bilik və bacarıqlar öyrətmək deyil. Şagirdlərə əldə etdikləri bilik və bacarıqları nümayiş etdirmək və istifadə etmək üçün geniş imkanlar yaradılmalıdır. Şagirdlərin özünü ifadə etmə üsulları, onların tədris üsulları da fərqli ola bilər. Şagirdlərin bəziləri öz fikirlərini şifahi, bəziləri isə yazılı şəkildə daha yaxşı ifadə edə bilirlər. Bunu nəzərə alaraq, onlara özünü ifadə etmək imkanı yaradılmalıdır. Qeyd etdiyimiz bu prinsip şagirdə başa düşdüyünü nümayiş etdirmək imkanı verir və müəllimə şagirdin bilik və bacarıqlarını yoxlamağa kömək edir. Üçüncü rəhbər prinsip, şagirdləri təlim prosesinə cəlb etməyin çoxsaylı üsullarını, öyrənmənin “effektiv” komponentini araşdırır. Şagirdlərin dərsin məzmununu yaxşı başa düşmələri üçün onların təlim prosesinə maraq göstərmələri vacibdir. Bu məqsədlə müəllim uşaqları dərsə həvəsləndirmək üçün rəngarəng və çevik yanaşmalardan istifadə etməlidir. Təlim prosesinin səmərəli olması üçün düzgün motivasiya mühüm şərtlərdən biridir. Çünki motivasiya şagirdlərdə idrak prosesini aktivləşdirir və onları bu prosesdə fəal iştiraka sövq edir. UÖD müəllimlərin yüksək standartlara riayət etdikləri, lakin müxtəlif tədris yanaşmalarından fəal şəkildə istifadə etdikləri bir prosesdir. UÖD çərçivəsinə əsasən, dövlət kurrikulumun və təlimatın hazırlanması üçün ilk təlimat kurrikulumun dizaynı və çatdırılması daxil olmaqla məlumatın işlənib hazırlanmasını və çatdırılmasını nəzərdə tutur. Hamıya uyğun olan tək ölçülü təqdimat tərzi bir çox şagirdlər üçün öyrənmə üçün maneələr yaratdığından, UÖD məzmunun təqdim edilməsinə görə həm çoxsaylı strategiyaları, həm də çevik öyrənmə modellərini aşağıda cədvəldə təsvir etməyə çalışmışıq:

Cədvəl 1. Öyrənmə modelləri və müəllim strategiyaları

№	Öyrənmə modelləri	Müəllim strategiyaları
1.	*Vizual öyrənmə (eşitmə qüsurlu öyrənənlər daxil olmaqla)*	obyektlər və ya rəsmlər (fotoşəkillər, xüsusi xətlərin təsvirləri, abstrakt vizual təsvirlər); məlumatin rəng

		kodlaşdirilmasi; müxtəlif simvol və işarələr, şəkillər, qrafiklər, video və animasiyalar üçün təsvirlər və s.
2.	*Dinləyərək öyrənmə (görmə qüsurlu öyrənənlər daxil olmaqla)*	mühazirə və ya müzakirə əsasinda öyrənmə, həmyaşidlarin fəaliyyəti; audiokitablar, video və ya audio kliplər üçün transkriptlər, dərsdə istifadə olunan vizual materiallari sözlərlə başqasina izah etmək və s.
3.	*Rəsm (heykəltəraşlıq) və ya diaqram vasitəsilə ünsiyyət quran öyrənənlər (nitq və yazı çətinliyi olan öyrənənlər də daxil olmaqla)*	vizual və bədii formalara dair bilikləri nümayiş etdirmək imkanlari; kiçik məlumat parçaları, tez-tez təkrarlanma, müxtəlif səviyyəli mətn materialı, çoxsaylı nümunələr, xüsusi öyrənmə təcrübələri və s.
4.	*Kinestetik öyrənmə*	layihə əsasli öyrənmə, laboratoriyalar; tədris xarakterli gəzintilər və səfərlər; prinsip və qaydalarin nümunələri; real həyatdan nümunələr gətirən müəllimlər; praktiki yanaşmalar (məsələn, kompüterdən istifadə) və s.
5.	*Oxuma-yazma ilə öyrənmə*	sözlü materiallar və qeydlərdən istifadə edən müəllim və ya repetitorlar; hadisələrin, anlayişlarin, ideyalarin, və s. siyahilarini və ya hiyerarxiyalarini yaratmaq; mövzunu hissələrə/başliqlara ayirmaq; sözlük və lüğətlər və s.
6.	*Fiziki qüsurlu öyrənənlər*	düzgün məlumati qəbul etmək, yazi işində köməkçidən istifadə etmək; fiziki cəhətdən uyğun materiallar və tədris yanaşmalari və s.

UÖD çərçivəsində bütün dizaynlar istifadəçi yönümlü olmalıdır. Hər kəs üçün dizayn adlandırılan bu yanaşma, sağlamlıq imkanları məhdud olan şəxslər də daxil olmaqla, bütün öyrənənlərin məkan, sosial və fərdi ehtiyaclarına cavab verən universal mühit yaratmağı qarşıya məqsəd qoyur. Bütün fərdlərin, o cümlədən sağlamlıq imkanları məhdud olan şəxslərin təhlükəsiz və sərbəst hərəkəti üçün əlçatanlıq təmin olunmalıdır. Universal öyrənmə dizaynı müxtəlif təlim ehtiyacları olan öyrənənlərin təlim prosesinə tam daxil edilməsi üçün şərait yaratmağa imkan verir. O, xüsusi ehtiyaclara malik olan öyrənənlərlə ümumi təhsil proqramının mənimsənilməsi prosesində daimi dəstəyi nəzərdə tutur. Bu, təkcə ayrı-ayrı siniflərdə xüsusi mütəxəssislər tərəfindən deyil, eyni zamanda hər gün, hər dərs, hər bir müəllim tərəfindən tədris proqramlarının çevikliyi və çoxşaxəliliyi ilə təmin edilir.

Ədəbiyyat

1. CAST (2022). About Universal Design for Learning. https:// www.cast.org/impact/universal-design-for-learning-udlChita-Tegmark, M., Gravel, J.W., Maria De Lourdes, B.S., Domings, Y., & Rose, D.H. (2012). Using a universal design for learning framework to support culturally diverse learners. Journal of Education, 192(1), pp. 17–22

2. McKeown, M.G., Beck, I.L., Omanson, R.C., & Pople, M.T. (1985). Some effects of the nature and frequency of vocabulary instruction on the knowledge and use of words. Reading Research Quarterly, pp. 522–535

3. Meyer, A., & Rose, D.H. (2005). The future is in the margins: The role of technology and disability in educational reform. In D.H. Rose, A. Meyer, & C. Hitchcock (Eds.), The universally designed classroom: Accessible curriculum and digital technologies, pp. 13–35

4. https://lincs.ed.gov/sites/default/files/2_TEAL_UDL.pdf

5. https://files.eric.ed.gov/fulltext/EJ1160465.pdf

6. https://udlguidelines.cast.org/binaries/content/assets/udlguidelines/udlg-v2-2/udlg_graphicorganizer_v2-2_numbers-no.pdf

7. https://www.researchgate.net/publication/312566249_Universal_Design_for_Learning

İNKLÜZİV TƏHSİL VƏ UŞAQLARIN İDRAK FƏALLIĞI

Şükufə Agakişiyeva
Bakı Slavyan Universiteti, İbtidai təhsil kafedrası
agakisiyeva1968@mail.ru

Summary

Inclusive education is one of the basic rights of every child. The article discusses the right of all children to receive quality inclusive education in schools where they live with their peers, the development of students' cognitive activity in technology classes in primary school, and the teacher's sensitivity to each student.

***Key words**: Inclusive, cognitive, teacher training, technology, human rights, collaboration, classroom practice, pedagogical process.*

Резюме

Инклюзивное образование является одним из основных прав каждого ребенка. В статье рассматриваются права всех детей на получение качественного инклюзивного образования в школах, где они проживают со своими сверстниками, развитие познавательной активности учащихся на уроках технологии в начальной школе, чуткое отношение учителя к каждому ученику.

***Ключевые слова:** Инклюзивная, подготовка учителей, технология, права человека, сотрудничество, аудиторная практика, педагогический процесс.*

Müasir dövrdə həyatın bir çox sahələrində olduğu kimi təhsil sahəsində də müvafiq məsələləri daha səmərəli şəkildə həll etmək imkanı yaranmışdır. Təhsil dövlət üçün strateji əhəmiyyət kəsb edr. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası Nazirlər Kabineti “Azərbycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili üzrə hələ 2005-2009-cu illər üçün İnkişaf Proqramı”nı təsiqləmişdir. Bu proqramın icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyət planı hazırlamışdır. Plana uyğun olaraq inklüziv təhsil üzrə eksperiment pilot layihələr həyata keşirildikdən sonra Milli Strategiya işlənmışdır.

İnklüziv təhsil uşaqların psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir [1].

Problemin tədqiqi bizi “İnklüziv təhsil stimullaşdırma prosesi kimi gözləntimiz nədir?” sualına cavab vermək vəzifəsilə qarşılaşdırır. Bu suala müxtəlif yazılarda cavablar axtarmalı olduq.

Bu gün cəmiyyətimizin qarşısında duran ən mühüm məsələlərdən biri də gənc nəslin ideyaca dərin, mənəviyyatca zəngin və yüksək əxlaqlı şəxsiyyət kimi formalaşdırılmasıdır. Vətəndaşlarının vətənpərvərliyi və tolerantlığı, əslində həmin ölkənin dövlətçilik ideologiyasının milli, bəşəri dəyərlər üzərində qurulmasıdır.

Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununda, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda azərbaycançılıq ideyalarına sadiq vətədaşın yetişdirilməsi təhsilin ümdə vəzifələrindən biri hesab edilmişdir (5).

Bildiyimiz kimi,ümumi təhsilə cəlb edilmiş uşaqlar potensial imkanları və intellektləri, istedad, bacarıq və təlim göstəriciləri baxımından heç də eyni səviyyəli olmurlar. Düzdür, hər bir ölkəyə inkişafı üçün bilikli, savadlı insanlar lazımdır. Buna görə də qətiyyətlə deyə bilərik ki, heç bir uşağı nəzərdən qaçırmamaqla, onların hər birinə “Sən dövlət,cəmiyyət,ailə üçün gərəklisən” fikrini aşılamaq lazımdır.

Müasir dövrdə təhsil sistemində inklüziv təhsilin tətbiqi cəmiyyətin zəruri tələblərindən birinə çevrilmişdir. İnklüziv təhsil ümumtəhsil müəssisələrində xüsusi qayğıya ehtiyacı olan uşaqların tədrisi prosesini təsvir etmək üçün istifadə olunan termindir. İnklüzivlik müxtəlif qabiliyyətlərə malik olan uşaqların məktəb həyatının bütün aspektlərinə tam daxil edilməsi deməkdir, burada bütünlükdə olaraq digər şagirdlər də məmnuniyyətlə və böyük sevinclə təhsil alırlar. Bu təkcə əlil, əlilliyi olan uşaqlar yox, həm də xüsusi yanaşmaya ehtiyacı olan istedadlı uşaqlar üçündür.

Sağlam uşaqların təhsilindən fərqli olaraq, sağlamlıq imkanları məhdud şəxslərin təhsil və tərbiyə sisteminin tarixi onların müxtəlif dövrlərdə cəmiyyətdə tutduğu mövqe, din və mədəniyyətlə sıx bağlı olmuşdur. Fiziki və əqli qüsurlu insanlar çox vaxt ictimai həyatın kölgəsində qalırdılar. Tarixə nəzər yetirdikdə görmək olur ki, fiziki və əqli qüsurlu şəxslərin sağ qalmaqları cəmiyyətin onlara münasibə-

tindən asılı idi. Çünki tarixi dönəmlərdə sağlamlıq imkanları məhdud şəxslər ölkədəki sosial, iqtisadi və siyasi vəziyyətin təsirinə məruz qalırdılar.

Təhsil sahəsi istisnasız olaraq bütün uşaqların və böyüklərin akademik və ictimai həyatda bərabərhüquqlu iştirakını təmin etməlidir. "İnklüziv təhsil" anlayışının geniş çərçivədə izah edilməsinə ehtiyac o səbəbdən yaranmışdır ki, təhsil işçiləri, idarəedici və digər orqanlar, təhsil siyasətini hazırlayan şəxslər qarşılıqlı əməkdaşlıq və dialoq üçün ümumi diskursiv sahəyə (diskursiv sahə intellektual və sosial sahələrin qarışığıdır ki, burada sosial əlaqələr müəyyən bir təcrübəyə çevrilir) malik olsunlar.

Dünya ölkələrinin praktikasına nəzər salsaq görərik ki, digər ölkələrdə də əlil və əlilliyi olan uşaqlar var idi və onlar üçün nəzərdə tutulan məktəblər də fəaliyyət göstərirdi. İslah məktəbləri, internat məktəbləri fəaliyyət göstərirdi. Amma bu məktəblər sanki uşaqları fərqləndirirdi, qütbləşdirirdi. Bəlkə də onun nəticəsidir ki, hələ də şüurda həkk olunan problemlərdən biri əlil uşaqlara fərqli nəzərlərlə baxmaq, onları sanki təcrid olunmuş insanlar kimi görmək və halına acımaq. Amma əlil uşaqların da hüququ olmalıdır, onlar da yaşadıqları cəmiyyətdə faydalı işlərlə məşğul olmalıdırlar, təhsil almalıdırlar. Son zamanlar bu tendensiya dəyişib əlilliyi olan uşaqlar öz hüquqlarını daha çox bilirlər, yaşadıqları cəmiyyət uğrunda mübarizə aparırlar.

Ətraf aləmin dərki və şəxsiyyət kimi formalaşmaq prosesində insana idrak prosesləri kömək edir. Prosesləri araşdırmadan öncə idrakın nə olduğuna nəzər salaq. İdrak insanın yeni bilik əldə etməsi prosesi və əvvəllər məlum olmayanın kəşfi deməkdir. İdrakın fəlsəfi problemləri dedikdə idrak nəzəriyyəsinin predmeti yaxud qneseologiya nəzərdə tutulur. Qneseologiya yunanca qnozis-bilik, loqos-söz, təlim deməkdir. Həqiqəti, obyektiv reallığı dərk etməyin dialektik yolu belədir. Burada ilk növbədə hissi idrak ayırd edilir.

İnklüziv təhsilnən bağlı qloballaşma şəraitində dünyada müxtəlif istiqamətlərdə işlər aparılır. Azərbaycanda inklüziv təhsil BMT-nin " Əlilliyi olan şəxslərin hüquqları haqqında" konvensiyanın 24-cü maddəsində irəli sürülən tələblərinə uyğun olaraq həyata keçirilir. Sənəddə qeyd olunan öhdəliklərə uyğun olaraq aşağıdakılar öz həllini tapmalıdır;

. əlilliyi olan uşaqların umumtəhsil məktəblərdən kənarlaşdırılmamasını təmin etmək;

. yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;

. fərdi ehtiyacları nəzərə alaraq ağla batan uyğunlaşdırmalar aparmaq;

. əlilliyi olan uşaqların umumtəhsil məktəblərində zəruri dəstəyin olmasına təminat vermək;

. inklüzivliyin tam şəkildə təmin olunması hədəfinə uyğun olaraq akademik və sosial inkişafa maksimum şərait yaradan mühitlərdə fərdi ehtiyaclara uyğunlaşdırılmış dəstək tədbirlərini təmin etmək[1.s.3].

Aparılan müşahidələr əsasında qeyd olunmalıdır ki, ölkəmizdə həyata keçirilən bu mühit tədbirin mahiyyətinə uyğun olaraq onun məzmununu, məqsəd və vəzifələri bir birilə ahəngdarlıq təşkil edir. Bunu təmin etmək üçün ölkədə önəmli addımlar atılır . 2018-2024 illərdə "Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün təhsili inkişafı üzrə Dövlət proqramı" qəbul edilmişdir.Bununlada Azərbaycanda İnklüziv təhsilin tətbiqini dəstəkləmək üçün bir sıra təşəbbüslər həyata keçirilmişdir. Belə ki, Təhsil Nazirliyi Unicef ilə əməkdaşlıq çərçivəsində ölkədə inkluziv təhsil komponentləri ilk pilot məktəbləri işə salmışdır. Bununlada qeyd olunan sahədə nümunəvi təcrübələr müşahidə olunmasıdır. İnkluziv təhsilə səmərəli yanaşmaq üçün pilot məktəblərdə olan təcrübələr böyük əhəmiyyət daşıyır.

İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları bir çox bölmələri özündə ehtiva edir. Bura daxilidir.

. insan hüquqlarına əsaslanan inklüziv təhsil;

. əməkdaşlıq;

. inklüziv sinif təcrübəsinin yaradılması;

Qeyd olunan proqram üzrə müəllim hazırlığı şagirdlərin ibtidai siniflərdə inklüziv təhsil sahəsində uşaqların idrak fəallığını təmin etmək olar. Bu zaman müəllim hər bir fənn üzrə xarici aləmlə bağlı inklüziv təhsildə uşağı əhatə edən idrak prosesinə maraq yaratmaq olar.

Əslində, istər valideyinlər, istər fənn müəllimləri, istər tərbiyəçilər, istərsə də bu sahədə çalışan mütəxəssislər daha çox nikbinlik prinsipindən istifadə etməlidirlər. Çünki belə qüsurlu uşaqların hər birinin özünə məxsus müsbət cəhətləri olur[2.s.36].

Bir tədqiqatçı kimi, biz bu proqramların dinləyicisi kimi yüksək fəallıqla yanaşı onun praktik tətbiqinə səy göstərmişik. İbtidai siniflərdə təhsil alan əlil şagirdlər texnologiya fənninə xüsusi maraq göstərmək məntiqi idrak keyfiyyətcə yeni ən yüksək mərhələni nümaiş etdirir. Uşaqlarda texnologiyadan emal texnologiyaları və vasitələri ilə bağlı anlayışların mənimsənilməsinə maraq artır. Proses iki istiqamətdə baş verir. İnklüziv təhsildə əvvəlcə qazanılan anlayışlar dərinləşdirilir, dürüstləşdirir, daha yüksək səviyyəyə qalxır. Daha sonra yeni anlayışlar meydana gəlir, bu da onların mühakimələr, əqli nəticələr formalaşmasına səbəb olur.İnklüziv təhsilin mahiyyəti və müəllimin öyrənmə uslubunun başa düşməsi bu işdə önəmlidir.İdrak fəallığının səmərəli olması aşağıdakı cəhətlərin modellət üzrə dərk olunması vacibdir.

Müəllim pedaqoji prosesdə həmin cəhətlərə nail olmalıdır. Bura daxildir inklüziv təhsilin hər uşağın əsas hüququndan biri olması; pedaqoji prosesdə öyrənənin davamlı fəaliyyəti; öyrənmənin məktəbdə baş verməsi; öyrənmənin sosial və aktiv fəaliyyəti (öyrədən və öyrənənin birgə iştirakı, biliklərin aşılanmasından daha çox konsepsiyaların praktik tətbiqi); təlimçilərin bələdçiliyi.

Şagirdlərin texnologiyadan idrak fəallığında inklüzivliyin təmin edilməsinin prinsip kimi müəllim tərəfindən tələbat və ehtiyaclarının müəyyən edilməsidir. Diaqnostik qiymətləndirmə zamanı texnologiyadan müxtəlif fəaliyyətlər vasitəsilə bu iş həyata keçirilir.Bilmək lazımdır ki, texnologiyadan idrak fəallığı zamanı şagirdlər heç də ilk məşğələdə öz xüsusiyyətlərini daxili aləmini, fərdi xüsusiyyətlərini biruzə verməyə hazır olmurlar. Bunun üçün ibtidai siniflərdə müəllim hər bir şagirdə diqqət göstərməli və həssaslıqla yanaşmalıdır. İstisnasız bütün uşaqlar öyrənə bilərlər. Həyatlarının müxtəlif mərhələlərində öyrənmə fərqli ola bilər. Bəzi uşaqlar müəllimə qulaq asmaqla, digərləri isə vizual vasitələrdən və ya qrup müzakirələrindən istifadə edərək öyrənir. Ümumiyyətlə idrak prosesi təlimlə bağlı olduğu üçün inklüzivliyin təmin edilməsi məqsədi ilə müxtəlif vasitələrdən istifadə edilməlidir. Məsələn: paylama materialları kimi texnologiyada məmulat hazırlanan materiallar aydın və səliqəli şəkildə tərtib olunmalıdır.

Ədəbiyyat

1. İnklüziv təhsil üzrə müəllimin inkişaf proqramları.(2019) UNİCEF-in Azərbaycandakı Nümayəndəliyi “Regional inkişaf” ictimai birliyi

2. Sadıqov, F. (2018). Korreksiya pedaqogikası. Bakı: Maarif

https://www.pa.edu.az/library/7/44/300_felsefe_m_N5idrak_nezeriyyesi__qiyabi.pdf

SOSİOMƏDƏNİ İNKLÜZİYA: DEFİNİSİYALAR VƏ TƏCRÜBƏLƏR

Sevinc Axundova
Bakı Slavyan Universitetinin dosenti
sevinc3006@gmail.com

Summary

The article is devoted to the problem of socio-cultural inclusion in modern society, in which the processes of globalization are intensifying and thus actualizing the issues of people's cooperation. Various approaches to understanding the concept of sociocultural inclusion are reflected here. The integral role of society in the processes of inclusion of people with special needs in the active life of society, in the development of the creative potential of the less mobile population groups, in the development of cultural capital is emphasized. The study reflects inclusive practices in our country.

Key words: *sociocultural inclusion, integration, inclusive theater, culture, creativity, equality.*

Резюме

Статья посвящена проблеме социокультурной инклюзии в современном обществе, в котором усиливаются процессы глобализации и тем самым актуализируются вопросы взаимосотрудничества людей. Здесь отражены различные подходы к осмыслению понятия социокультурная инклюзия. Подчеркивается неотъемлемая роль

социума в процессах включения людей с особыми потребностями в активную жизнь общества, в развитии творческого потенциала маломобильных групп населения, в наращивании культурного капитала. В исследовании отражены инклюзивные практики, имеющиеся в нашей стране.

Ключевые слова: *социокультурная инклюзия, интеграция, инклюзивный театр, культура, творчество, равенство.*

XXI əsr üçün YUNESKO-nun Beynəlxalq təhsil komissiyasının sədrinin J. Delorun "Təhsil-gizli xəzinə" məruzəsində təhsilin ömürboyu prosesə çevrilməsinin əhəmiyyəti vurğulanaraq, təhsilin mühüm dörd məqsədi formalaşdırılmışdır (3). Bunlar birgə yaşamağı öyrətmək, bilikləri əldə etmək, işləməyi öyrətmək və yaşamaqdır (sonuncu məqsəd şəxsi həyatı qurmaq mənasını daşıyır). Birgə yaşamaq məqsədin ekzistensional mahiyyəti insanların, xalqların artan qarşılıqlı asılılığını dərk etməsi ilə bağlıdır. Qloballaşma dövründə bir meqacəmiyyətin formalaşmasının qaçılmazlığı bəşəriyyətin qarşısında birgə yaşamağ üçün yol və vasitələrin müəyyən etməsi məsələni son dərəcədə aktuallaşdırır. İnsanların qarşılıqlı pozitiv münasibətlərdə olması, ksenofob, aqressiv, müxtəlif diskriminasiya formalarından uzaq olması, inklüzivliyi təbliğ edərək inklüziv cəmiyyətin qurulması məsələnin həlli üçün olduqca əhəmiyyətlidir. İnklüziv cəmiyyətdə dinindən, dilindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq insanlar bərabər hüquqludur. İnklüziv cəmiyyətdə insanlar arasında fərqlilik norma kimi qəbul olunur və seqreqasiya hallarını yaşayanlar olmur.

Çağdaş dünyamızda inklüzivlik yalnız tibbi və pedaqoji istiqamətlər, mövzularla məhdudlaşmır, artıq məsələ planetar miqyasda olan problem kimi səslənməkdədir. Hazırda inklüziv məsələlər getdikcə daha çox həyatın sosial, mədəni, iqtisadi, informasiya və texnoloji aspektlərini və insan həyatının digər müxtəlif sahələrini əhatə etməkdədir. Eyni zamanda, insan həyatının bu sahələrini ayrıca nəzərdən keçirmək mümkün olmur, zatən bunlar ümumi güzaranımızın bir vəhdətidir. Sağlamlıq imkanları məhdud olan şəxs və ya başqa dildə danışan və ya fərqli dini mənsubiyyətinə malik olan şəxs müxtəlif həyat situasiyalarına görə gündəlik münasibətlərə daxil olur, sosiumda əlaqələr yaratmalı olur. Məsələn, insanlar işgüzar münasibətlərdə və əmək fəaliyyətində başqa insanlarla qarşılıqlı əlaqəyə daxil edir, hər hansı bir məsələ ilə sosial və mədəni qurumlara baş çəkir və bunlar labüd olan proseslərdir. Öz ehtiyaclarını ödəməklə inkişaf etmək insanın təbiətindədir, bilik və bacarıqlara yiyələnmək, bir şəxsiyyət kimi zənginləşmək, özünü yaradıcı şəkildə reallaşdırmaq proqramları mütləq gerçəkləşməlidir. Lakin yer kürəsində yaşayan hər bir insan buna nail ola bilirmi? Dinindən, dilindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq insanların sosiuma inteqrasiyası maneəsiz ola bilirmi? Təəssüf ki, bu sualların cavabı "yox" olacaq. Cəmiyyətdə hələdə təcrid, seqreqasiyaya məruz qalan insanlar var.

Ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya ilə bağlı dövlət proqramları qəbul olunub və atipik uşaqların təhsil hüquqlarının dəstəklənməsi və maneəsiz mühitinin yaranması üçün bir çox işlər görülür. Bu kontekstdə sağlamlıq imkanları məhdud olan uşaqların təhsili ilə yanaşı onların sosial-mədəni inkişafının diqqət mərkəzində saxlanılması önəmli məsələlərdəndir. Xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləmək sadəcə "təhsil" söhbəti ilə məhdudlaşmamalıdır. Onun üçün bağça, məktəb və ya tələbə həyatı yaradıcı, mədəni və sosial baxımdan zəngin ola bilər və olmalıdır. Konsertlər, müsabiqələr, yaradıcılıq tədbirləri uşağa öz istedadını göstərməyə, yaradıcılıq potensialını üzə çıxarmağa, hiss və duyğularını ifadə etməyə kömək edəcək vasitələrin yalnız kiçik bir hissəsidir. Bu konteksdə sosial-mədəni inklüziyadan danışmaq yerinə düşər. Sağlamlıq imkanları məhdud olan uşaqların sosial-mədəni həyata daxil edilməsi gələcəkdə onların cəmiyyətə daha uğurla uyğunlaşmasına və həyatın müxtəlif sahələrində digər insanlarla qarşılıqlı əlaqədə olmasına kömək edəcəkdir.

Bəs sosial-mədəni inklüzivlik nədir? Bu anlayış iki komponentdən ibarətdir: "cəmiyyət" və "mədəniyyət". "Mədəniyyət" fenomeninə müraciət edək. İlk dəfə bu terminə məhşur filosof və natiq Mark Tulli Siseronun "Tuskulan söhbətlər" əsərində rast gəlmək olar. Antik dövrdə bu anlayış bir-biri ilə əlaqəli və bir-birini tamamlayan bir neçə mənaya malik olub, "becərmə", "tərbiyə vermək", "yemək", özünü təbii, "vəhşi"yə qarşı qoymaq mənaya malik idi və insana xas olan, onu fərqləndirən hər şeyi ehtiva edirdi. Bu, başdan sonadək insanın özü tərəfindən yaradılmış bir dünyadır, hansı ki, insanın öz üzərində yorulmaz, şüurlu işləməyi, yetişməyi nəzərdə tuturdu.

Mədəniyyət bəşəriyyətin ümumi mənəvi təcrübəsi, insanların yaratdığı hər şey kimi başa düşülür. Bu, insanın təbiətin üzərinə qatladığı bir növ ikinci dərəcəli, unikal bir mühitdir. Buraya dil, inanclar, adətlər, vərdişlər və dəyər sistemləri daxildir. Alman filosofu F.Nitsşe mədəniyyəti xalqın həyat tərzi kimi başa düşmüşdür. Amerikalı filosof D.Bell mədəniyyəti xalqın estetik baxışlar sistemi, mənəvi həyat tərzi və fərdin təkrarolunmaz xüsusiyyəti hesab etmişdir. Mədəniyyət haqqında mövcüd baxışları ümumiləşdirərək, onun əsas üç mənasını geyd etmək olar:

1) istehsal etmək, yaratmaq, yenidən hazırlamaq, həmçinin torpağı şumlamaq;

2) təhsil, tərbiyə, inkişaf;

3) səcdə, etiqad (dini baxımdan).

Geniş mənada mədəniyyət çox zaman insan əli ilə əldə olunan nailliyyətləri nəzərdə tutur. Bu mənada mədəniyyəti həm maddi, həm mənəvi adlanan sahələrə bölürlər (Manafova, 2006, s.7).

Mədəniyyət insanın cəmiyyətdəki həyatı ilə ayrılmaz şəkildə bağlıdır, yəni o, həmişə sosialdır. Bu ümumbəşəri irsdir, çünki mədəniyyət kollektiv həyatın sosial təcrübəsinin toplanması və ümumiləşdirilməsini ifadə edir. Eyni zamanda mədəniyyətlə sosial həyat arasında əks əlaqə mövcuddur, çünki sosial həyat artıq mədəni xarakter daşıyır. İstənilən ictimai əlaqələr mədəni məzmun daşıyır. Beləliklə, mədəniyyət fenomeninə əsaslanaraq, sosiomədəni inklüzyanun mahiyyətinə keçirik. Dünya Bankının sənədlərinə görə Sosial inklüzivlik fərdlərin və qrupların cəmiyyətdə iştirakı və onların bacarıqların inkişaf etməsi üçün vəziyyətin təkmilləşdirilməsi prosesidir. (7)

Britaniyalı tədqiqatçılar Toni But və Meyl Enskoy hesab edirdilər ki, inklüzivliyin inkişafı üçün üç amil əhəmiyyətli rola malikdir:

- inklüziv siyasətin inkişafı (inklüziv proseslərin tənzimləməsində normativ hüquqi bazanın mövcudluğu);
- inklüziv təcrübələrin inkişafı (daxiletmə proseslərin proqram və metodik təhcizatı),
- inklüziv mədəniyyətin yaradılması ilə onun prinsip və dəyərlərin bərqərar olması: insan hüquqların qorunması, mədəni müxtəlifliyə açıqlıq, əməkdaşlıq və mədəniyyətlərarası dialoq (But. s.15-16).

Zənnimizcə bu komponentlər inklüziyanın baza təməlləri olaraq, özündə sosiomədəni, psixoloji, iqtisadi, siyasi aspektlləri ehtiva edərək, ümumi sistem kimi çıxış etməsini şərtləndirir. İnsanın mədəniyyətə və cəmiyyətə daxil edilməsi təcrübəsi insanın və bütün cəmiyyətin mədəni zənginləşməsinə, eləcə də inklüziv cəmiyyətin yaradılmasına töhfə verir. Qeyd etmək lazımdır ki, üç komponentli olan inklüziv mədəniyyət cəmiyyətlərin inkişaf səviyyəsinin təzəhürü kimi çıxış edir, cəmiyyətlərin möhkəm mədəni təməllər əsasında qurulduğunun, ali, mükəmməl olduğunun göstəricisidir.

Bir çox elmi ədəbiyyatlarda sosial inklüzivlik və mədəni inklüzivlik ayrıca nəzərdən keçirilir. Sosial inklüzivlik bütün insanlar üçün bərabər imkanların təmin edilməsinə, cəmiyyətin hər bir üzvünün həyatın bütün sahələrində, o cümlədən mülki, sosial, iqtisadi və siyasi fəaliyyətlərdə tam və fəal iştirakına şəraitin yaradılmasına, həyat potensialının reallaşdırılması üçün şəraitin yaradılmasına yönəlmiş prosesdir. Q.E.Hatçinson, B.Li sosial inklüzivliyi cəmiyyətdə bərabərliyi təmin etmək, sosial təcriddən qaçmaq, maddi resurslara çıxışı təmin etmək və həyati əhəmiyyətli ictimai qərarların qəbul edilməsində iştirakı təşviq etmək üçün bir üsul hesab edirlər (Huthinson A., s. 119-136). Mədəni inklüzivlik müxtəlif mədəniyyətlərə mənsub insanların ehtiyaclarının nəzərə alınması, mədəniyyətlərarası qarşılıqlı əlaqə, qarşılıqlı hörmət, insanların cəmiyyətin mədəni həyatında hərtərəfli iştirakını nəzərdə tutur. Beləliklə, sosial-mədəni inklüziyanın əsas ideyası və mənası həyat səviyyəsindən, sosial vəziyyətindən, maddi rifahından, fiziki və ya intellektual xüsusiyyətlərindən asılı olmayaraq bütün insanlar üçün yaradıcı fəaliyyət üçün imkanlar yaratmaqdır, insanın həyatını mədəni dəyərlərlə, yeni sosial əlaqələrlə zənginləşdirməkdir.

Beləliklə, təcrübədə mövcud olan bir neçə sosial-mədəni inklüziv sahəni nəzərdən keçirək.

1. Sağlamlıq imkanları məhdud şəxslərin işlə təmin olunmasında və lazımi şəraitin əldə edilməsində köməklik göstərilməsi. Məsələnin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının zəngin qanunvericilik bazası mövcüddur.

Sağlamlıq imkanları məhdud olan şəxslərin digər şəxslərlə bərabər səviyyədə əmək fəaliyyəti ilə məşğul olmaq, o cümlədən açıq, inklüziv və müyəssər iş şəraitində sərbəst seçdiyi və ya qəbul etdiyi əmək bazarında iştirak etməklə öz yaşayışını təmin etmək hüququ Əllilliyi olan şəxslərin hüquqları

haqqında Azərbaycan Respublikasının qanunu (31 may 2018-ci il) ilə tənzimlənir. Onların işlə təmin olunması məsələləri isə Nazirlər Kabinetinin 22 noyabr 2005-ci il tarixli "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında qərarları ilə müəyyən edilir. Həmin qaydalar sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunu təmin etmək üçün kvota tətbiq edilməsi qaydasını müəyyən edir.

2. İnklüziv teatr fəaliyyəti.

Bu istiqamətin reallaşması həm ölkəmizdə, həm digər ölkələrdə uğurla həyata keçirilir. Fəaliyyətin Azərbaycanda bariz nümunəsi kimi Əsa teatrını göstərmək olar. Tamaşanın səhnələşdirilməsi komanda işidir, bu müddət ərzində ünsiyyət və sosial bacarıqlar, birgə işləmək və digər iştirakçıları dinləmək bacarığı inkişaf etdirilir. Yeni tanışlıqlar və təəssüratlar, digər insanlarla ünsiyyət sayəsində qapalı məkanından kənara çıxmaqdır. Yaradıcı fəaliyyətdə iştirak etməklə insan şəxsiyyət kimi inkişaf edir, təkmilləşir, onun yaradıcı, əqli və intellektual potensialı üzə çıxır. Yaradıcı özünüifadə sayəsində komanda üzvləri "bacarıram", "məndə alınır" dərketməni əldə edirlər, onlarda özünə hörmət, özünə inam və mədəni inkişaf mərhələləri ilə daha da irəliləmək istəyi artır.

Buxarest Universitetinin alimləri R.Folostina, T.Mişel əqli qüsurlu yeniyetmələr arasında sosial kompetensiyaların inkişafında teatr terapiyasının istifadəsi ilə bağlı maraqlı bir araşdırma aparmışdılar. Alimlər teatr tamaşalarından sonra müşahidələrini təhlil edərək, aşağıdakı nəticələri göstəriblər:

- yeniyetmələr qrupunda passivliyin, laqeydliyin və apatiyanın azalması;
- müxtəlif həyat vəziyyətlərinə kəskin reaksiyaların azalması (qıcıqlanma, təşviş);
- dağıdıcı və arzuolunmaz davranışların azaldılması (qaçınma, özünütəcrid);
-göz təması, üz ifadələri, səs tonu, jestlər və s. vasitəsilə ünsiyyət bacarıqlarının təkmilləşdirilməsi;
- digər uşaqlar üçün empatiyanın artması;
- yeniyetmələrin gələcək sosial uyğunlaşması üçün zəruri olan bacarıqların mənimsənilməsi;
- müsbət emosiyaların mənimsənilməsi (Foloştină R., s. 1268 -1274)

Dünyada inklüziv teatr təcrübəsi də geniş yayılmaqdadır, məsələn Britaniyanın "Face Front", Rusiyanın "Xəyallılar" inklüziv teatrlarını göstərmək olar.

3. Yaradıcı inklüziv kollektivlərin fəaliyyəti.

İnkülziv teatrlardan savayı sosiomədəni inklüziyanın gerçəkləşməsində müxtəlif yaradıcı kollektivlərin fəsliyyətdə olması əhəmiyyətli dərəcədədir. Azərbaycanda belə təcrübə "Bacarıqlı Əllər Dünyası" İctimai Birliyi tərəfindən həyata keçirilir. Birlik cəmiyyətdən təcrid olunmaq, asudə vaxtlarını səmərəli keçirmək, bacarıqların nümayiş etdirmək kimi problemlərlə üzləşən sağlamlıq imkanları məhdud olan şəxslərin rifah halını yaxşıllaşdırmağa, onların cəmiyyətə inteqrasiyasına yardım olmaq üçün bir çox işlər görür. Eyni zamanda kollektivdə hər uşaq özünə yeni bir ailə tapır. Bacarıqlı əllər ailəsinin çox sayda üzvləri mövcuddur, onlar rəsm çəkmək, muncuqla işləmək, mozaika ilə iş və sair kimi fəalliyətlərə qoşulurlar. Tez-tez uşaqların hazırladıqları əl işlərinin sərgiləri təşkil olunur. İctimai Birliyin ali missiyası bir çox könülləri xoşbəxt edir.

4. Dost inklüziv və inkişaf Yaradıcılıq Mərkəzi.

Mərkəz Azərbaycanda 2021-ci ildə yaradılmışdır. Birinci vitse - prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi sağlamlıq imkanları məhdud olan şəxslərin o cümlədən, müharibə əlillərinin, şəhid ailəsi üzvlərinin, valideynləri itirilmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə sosial cəhətdən həssas qrupların yaradıcı potensial və bacarıqların üzə çıxarılması, inkişaflarına dəstək olmasıdır. Mərkəzdə müxtəlif istiqamətlər üzrə həm tədris, həm yaradıcılıq qabiliyyətlərin inkişafı üzrə tədbirlər həyata keçirilir: xalçalıq, toxuma və tikmə, bədii oyma, dərzi istiqamətləri, təsviri incəsənət, kulinariya, dulusçuluq istiqamətləri, musiqi və rəqs, fotoqrafiya və audio-səsyazma və media istiqamətləri, floristika, bağçılıq və landşaft dizaynı istiqaməti. Mərkəzdə kitabxana da fəaliyyət göstərir. Mərkəzdə eyni zamanda 140 benefesiar xidmətlərdən yararlana bilir. Mərkəz şəxslərin şərəf və ləyaqətinə hörmət göstərərək fəaliyyətini bərabərlik, dostluq, konfidensiallıq prinsipləri əsasında həyata keçirir.

Şəxsiyyətin sosiumla qarşılıqlı əlaqəsi sosiomədəni inklüziyanın əsas ideyası kimi cəmiyyətin hümanistləşdirilməsi kontekstində mümkündür, insanların digər insanlara və xüsusi ilə fərqli olanlara

münasibətdə sosial məsuliyyətinin artması, hər bir insanın əhəmiyyətliliyin dərk etməsidir. Belə əlaqələrin olması unikal mədəni təcrübələrin yaranmasına gətirib çıxarır. Belə təcrübələr ikitərəfli, qarşılıqlı effektə malikdir. Burada mənəvi zənginləşmə proseslərlə yanaşı insanların təkrarolunmazlığı ilə səciyyələnən şəxsi potensialı ortaya çıxır. Birmənalı, mədəni müxtəlifliyin qəbul edilməsi və dəstəklənməsi cəmiyyətin mədəni resursların yüksəltməsini şərtləndirir. Beləliklə, sosiomədəni inklüziya dəyər imperativa, həyatımızın tələbinə çevrilməsi insanlarda yeni bir dünyagörüşün formalaşması ilə xarakterizə olunmaqdadır. İnsanlar arasında fərqliliyin dərk edilməsi və dəstəklənməsi, eyni zamanda özünün və digərlərin unikallığının fərqində olması, bu gün aktual olan “fərqlilik kapitalın”zənginləşməsinə xidmət edəcək.

Fikrimizcə, sosiomədəni inklüzivlik indeksi üç ölçüdən ibarət olmalıdır:

a) Ölkənin mədəni həyatının əlçatanlığı.

Ölkədə gedən mədəni proqramların əlçatanlığı aşağıdakı şərtlərin gözlənməsi ilə bağlıdır:

- bütün sosial və mədəniyyət müəssisələrində infrastrukturun olması.
- fiziki şəkildə iştirakın mümkun olması təqdirdə rəqəmsal texnologiyalarnan, distant şəkildə iştirakların təmin olunması.

b) Sosial-mədəni müəssisələrdə yaradıcılıq fəaliyyətinin təmin edilməsi.

Bütün təhsil müəssisələrində, yaradıcılıq, inkişaf və mədəniyyət mərkəzlərində inklüziv mühitin yaradılması.

c) Mədəni müxtəlifliyə dəstək.

- dünya mədəniyyətlərin öyrənilməsi
- kiçik xalqlara, etnoslara hörmət hissinin formalaşdırılması.

Cəmiyyətdə özünü tamhüquqlu hiss edən insan onun müxtəlif sferalarında: sosial, mədəni, təhsil, elm sahələrində fəal iştirak etməyə başlayır. Sosiomədəni inklüziyanın əsas missiyası ondan ibarətdir ki, insan öz qabiliyyət və imkanlarından, maddi rifah səviyyəsindən asılı olmayaraq, özünü reallaşdırmaq imkanları aşkar edir, özünü cəmiyyət üçün zəruri və dəyərli hesab edir edir. Digər tərəfdən cəmiyyət sosial-mədəni inklüzivlik prosesində hər bir insanın özünəməxsusluğunu, qabiliyyət və istedadını qəbul edərək, empatiya qurmağı öyrənir, humanistləşir. Zənnimizcə, bərabərhüquqluluq prinsipinə əsaslanan sosiomədəni inklüziya cəmiyyətlərdə qlobal etikaya dönüş yaratmalıdır.

Ədəbiyyat

1. Əllilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının qanunu, Bakı şəhəri, 31 may 2018-ci il, № 1153-VQ

2. Бут Т. Показатели инклюзии: практическое пособие/ Т.Бут, М. Эйнскоу под редакцией М. Вогана; перевод с англ. под ред. М. Перфильевой.- Москва: Перспектива, 2013. – 123 с.

3. Делор Ж. и др. Международная комиссия по образованию для XXI века. Образова- ние — сокрытое сокровище. Париж: ЮНЕСКО. 1996. С. 1–102; См. также: Доклад ЮНЕ- СКО: сокрытое сокровище // ВВМ. 1997. No 9. С. 22–27.

4. Foloştină R., Tudorache L., Michel T., Erzsébet B., Duţă N. Using Drama Therapy and Storytelling in developing social competences in adults with intellectual disabilities of residential centers // Procedia-Social and Behavioral Sciences. – 2015. – No 186. – P. 1268–1274.

5. Huthinson A., Lee B. Exploring social inclusion in practice // Canadian Social Work Review / Revue canadienne de service social. – 2004. – Vol. 21 (2). – Pp. 119–136.

6. M. Manafova Mədəniyyət tarixi və nəzəriyyəsi. Dərslik, Bakı 2006, 402 s.

7. The world bank. Social Inclusion. [Elektron resurs]. – URL:
https://www.worldbank.org/en/topic/social-inclusion

İNKLÜZİV SİNİFLƏRDƏ PEDAQOJİ XİDMƏTİN TƏŞKİLİ

Svetlana Balakişibəyli
Bakı Slavyan Universiteti
sveta51.51@inbox.ru

Summary

Inclusive education is an approach based on the principles of equality, mutual respect, tolerance and cooperation, in which children with special needs study together with healthy children in general education institutions. It recognizes the diversity of children and tries to integrate them into a unified educational environment. Pedagogical activities with children in inclusive classes are of great importance. The need for inclusive education in our society is increasing every day. The main problem in the development of inclusive education is personnel training. Practical experience in the professional training of inclusive education specialists, collected in a number of large cities in Azerbaijan, creates demand for mass distribution. At the same time, in the context of the implementation of the idea of inclusive education in preschool institutions and schools, the problem of the quality of education becomes a particular problem.

Key words: *society, inclusive, healthy, development, physical, limitation*

Резюме

Инклюзивное образование – это подход, основанный на принципах равенства, взаимного уважения, толерантности и сотрудничества, при котором дети с особыми потребностями учатся вместе со здоровыми детьми в общеобразовательных учреждениях. Он признает разнообразие детей и пытается интегрировать их в единую образовательную среду. Большое значение имеет педагогическая деятельность с детьми в инклюзивных классах. Потребность в инклюзивном образовании в нашем обществе возрастает с каждым днем. Основной проблемой развития инклюзивного образования является подготовка кадров. Практический опыт профессиональной подготовки специалистов инклюзивного образования, собранный в ряде крупных городов Азербайджана, создает спрос на массовое распространение. При этом в условиях реализации идеи инклюзивного образования в дошкольных учреждениях и школах особую проблему приобретает проблема качества образования.

Ключевые слова: *общество, инклюзивное, здоровое, развитие, физическое, ограничение*

Bu gün cəmiyyətdə inklüzivlik termininə tez-tez rast gəlirik. Bəs inklüziya nədir? Özündə nəyi ehtiva edir? İnklüziya fiziki inkişafda çətinlik çəkən, o cümlədən əlilliyi olan və ya psixi qüsurları olan insanların cəmiyyətin aktiv həyatına real daxil edilməsi prosesidir.

Qeyd edilən məsələ təhsil sahəsindən də yan keçmir. Azərbaycanda "İnkluziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verilmişdir. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili"nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir.

İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi təhsil müəssisələrində sağlam uşaqlarla birgə təhsil alması, bərabərlik, qarşılıqlı hörmət, tolerantlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan yanaşmadır. O, şagirdlərin müxtəlifliyini tanıyır və onları vahid təhsil mühitinə inteqrasiya etməyə çalışır. Bu, sadəcə olaraq, müxtəlif qabiliyyətlərə malik uşaqları eyni sinifdə bir araya gətirməkdən ibarət deyil, o, kurikulumların, metodların, materialların və qiymətləndirmənin hər bir uşağın ehtiyaclarına uyğunlaşdırılmasını nəzərdə tutur. Bu, müəllimlər, valideynlər, mütəxəssislər və digər maraqlı tərəflər arasında qarşılıqlı əlaqə və əməkdaşlığı nəzərdə tutur. İnklüziv təhsilin məqsədi uşağın tam fərdi inkişafı, sosiallaşması və cəmiyyətin həyatına daxil olması üçün şərait yaratmaqdır.

Fiziki və ya əqli cəhətdən sağlamlıqlarında qüsur olan uşaqların öz istəklərinə, potensiallarına nail olmalarını dəstəkləmək məqsədilə inklüziv təhsil proqramı bu gün Azərbaycan təhsil sistemində aktuallıq daşıyır, bu da xüsusi qayğıya ehtiyacı olan uşaqların öz güvənini, özünə inamını artırır və digər sağlam uşaqlarla bərabərhüquqlu olmasını təmin edir. Qeyd etmək yerinə düşər ki, inklüziv təhsil anlayışı yalnız xüsusi qayğıya ehtiyacı olan insanların təhsil hüquqlarını dəstəkləməkdən savayı, həmin insanların cəmiyyətə uğurlu inteqrasiyasını, müstəqil qərarvermə imkanlarını, öz hüquq və vəzifələrini öyrətmək məqsədi daşıyır. Bu da həmin insanların yaşamaq və gələcəyə daha da ümidlə baxmaq imkanına nail olmalarına şərait yaradır.

İnkluziv təhsil uşaqların müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib. İnkluziv təhsil tədris zamanı müxtəlif ehtiyacların ödənilməsinə yönəlmiş yanaşmaların formalaşdırılmasına çalışır.

İnklüziv təhsildən bəh edərkən, bu sahədə xüsusi təlim görmüş pedaqoji fəaliyyətlə məşğul olan pedaqoqlara ehtiyac duyulur. Pedaqoji fəaliyyət bəşəriyyət tərəfindən toplanmış mədəniyyət və təcrübənin yaşlı nəsillərdən gənc nəsillərə ötürülməsinə, onların şəxsi inkişafı üçün şərait yaradılmasına və cəmiyyətdə müəyyən sosial rolların yerinə yetirilməsinə hazırlanmasına yönəlmiş xüsusi ictimai fəaliyyət növüdür (Hüseynova T., 2017, 22 s.). Təcrübə və mədəniyyətin gənc nəslə ötürülməsi prosesinin təşkilinin xüsusiyyətlərini əvvəlcədən müəyyən edən ixtisaslaşdırılmış təhsil müəssisələrində pedaqoji fəaliyyətdə çoxlu müsbət təcrübə toplanmışdır. Müasir cəmiyyətin demokratikləşməsi və cəmiyyətdə inklüzivlik ideologiyasının və tədris mühitinin populyarlaşması ilə əlaqədar təhsil sisteminin modernləşdirilməsi xüsusi uşaqlarla işləyən müəllimlərin təcrübəsinin analitik dərk edilməsinə və onun təcrübədə əks olunmasına ehtiyac olduğunu göstərir. Müasir sosial inkişafın məqsədlərinə cavab verən inklüzivlik ideologiyası əhalinin bütün kateqoriyaları üçün ömürboyu təhsilin əlçatanlığı məsələsinin həlli üçün əsas ola bilər.

İnklüziv siniflərdə uşaqlarla pedaqoji fəaliyyət mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətimizdə inklüziv təhsilə ehtiyac hər gün artır. İnklüziv təhsilin inkişafında əsas problem kadr hazırlığıdır. Azərbaycanın bir sıra iri şəhərlərində toplanmış inklüziv təhsil üzrə mütəxəssislərin peşəkar hazırlığının praktiki təcrübəsi kütləvi şəkildə yayılmasına tələbat yaradır. Çünki iri şəhərlərdən savayı, müxtəlif bölgələrdə də inklüziv siniflərin açılmasına və SİM uşaqlarla düzgün işləməyi bacaran müəllimlərə, pedaqoqlara ehtiyac duyulur. Bundan əlavə, istər məktəbəqədər təhsil müəssisələrində, istər məktəblərdə inklüziv təhsil ideyasının həyata keçirilməsi kontekstində təhsilin keyfiyyəti problemi xüsusi problemə çevrilir. Keyfiyyətli təhsil bu gün inklüziv təhsil sahəsində də aktual məsələlərdəndir.

Müəllimlərin davamlı inklüziv təhsil sistemində işləməyə hazırlanmasının aparıcı mövqeyi kurikulumların, iş proqramlarının və inklüziv təhsilin təşkilində metodiki yanaşmaların diferensiallaşdırılması bacarıqlarının inkişaf etdirilməsidir. Bundan əlavə, inklüziv siniflərdə çalışan müəllim SİM (eşitmə, görmə qabiliyyəti zəif, hiperaktiv, əqli qüsurlu və s.) uşaqlarla işləmək üzrə ilkin biliklərə malik olmalı, bu istiqamətdə xüsusi pedaqoji bacarıqlara yiyələnməlidir.

Pedaqoji fəaliyyətin əsas növləri - tədris və tərbiyə işi - hər hansı bir ixtisasın, təhsil səviyyəsinin müəlliminin fəaliyyətinin dialektik vəhdətini təşkil edən inklüziv təhsil şəraitində müəllimin peşə fəaliyyətində öz spesifikliyinə malik olmasıdır.

Müəllimin sosial funksiyası böyüyən nəsli mədəni irsə və yaşlı nəslin ictimai təcrübəsinə yiyələndirməkdən ibarətdir. Real fəaliyyətdə müəllim əyani şekilde yiyələndiyi bilik, davranış modellerini, sosial norma ve dəyərləri, K.D.Uşinskinin qeyd etdiyi kimi, "tədris etməklə" həyata keçirir (Qasımov S., Kərimova E.və b. 2006, s. 81). Qeyd etmək yerinə düşər ki, məktəblərdə təhsil-tərbiyənin təşkili, idarə edilməsində sağlam uşaqlarla bərabər sağlamlıq imkanları məhdud uşaqların bilik, bacarıq, vərdişlərin qazanılmasında, eyni zamanda həmin uşaqların cəmiyyətə, sinfə sosial adaptasiyasında adi sinif müəllimlərilə müqayisədə xüsusi siniflərdə çalışan müəllimlərin məsuliyyəti daha yüksəkdir. Müəllim öz peşə kompetensiyalarına yiyələnməklə bərabər, xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud uşaqların xüsusiyyətlərini, tələbatlarını, maraqlarını, istəklərini bilməli, əqli və ya fiziki qüsurlarından asılı olmayaraq bütün uşaqları bərabər sevməli, hər bir uşağa məhəbbət, sevgi aşılamalıdır. Bundan əlavə müəllim sağlam uşaqlarla sağlamlıq imkanları məhdud uşaqların birgə fəaliyyətində SİM uşaqlara hörmətlə yanaşmaq, onları sevmək və məhəbbətlə yanaşmağı tərbiyə etməlidir.

Müəllimlərin inklüziv siniflərdə işləməyə başlaması korreksiya işinin əsasları haqqında biliklərə maksimum dərəcə malik olmaqlarından ibarətdir. Bu biliklər toplusu xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil və tərbiyəsinin təşkilində pedaqoji fəaliyyətin cari səlahiyyətləri qurulur. Bu baxımdan müəllimin psixoloji biliklərinin və pedaqoji səriştələrinin artırılmasına yönəlmiş xüsusi təhsil müəyyən qədər rol oynaya bilər. Bu təlimlərin məqsədlərinə pedaqoji səriştənin motivasiyalı şəkildə artırılması daxildir. Təlim fəaliyyətinin məzmunu aşağıdakılara yönəldilmişdir:

1. müəllimlər tərəfindən inklüzivlik fəlsəfəsini mənimsəmək;

2. uşağı müşahidə etmək, davranışında və xüsusiyyətlərinin, xarakterinin öyrənməsində dəyişiklikləri qeyd etmək qabiliyyətini artırmaq;

3. peşəkar biliklərdəki boşluqları aradan qaldırmaq;

4.pedaqoji problemlərin həllində uşağın valideynləri ilə sıx əməkdaşlıq qurmaq;

5. uşağın inkişafı üçün nəticələrinin maksimum səmərəliliyi ilə müəllim-valideyn arasında qarşılıqlı əlaqəni düzgün təşkil etmək bacarıqlarının formalaşdırmaq.

İnklüziv siniflərdə işləmək üçün müəllimlərin peşəkar səriştəsinin komponentləri aşağıdakılardır:

- İnkişaf ləngiməsi və korreksiya işinin əsasları haqqında minimal və ya dərin biliklərə yiyələnməli, eyni zamanda xüsusi pedaqogikanın imkanları ilə tanış olmalıdır.
- tədrisin çevik formalarına, interaktiv təlim metodlarına yiyələnmək;
- idrak fəaliyyətinin müstəqilliyini motivasiya etmək bacarığı;
- xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinə psixoloji və pedaqoji dəstək yaratmaq üçün komandada işləmək, mütəxəssislərlə qarşılıqlı əlaqə qurmaq bacarığı;
- uşaq kollektivində xüsusi ab-hava və mədəniyyət yaratmaq məqsədilə təhsil müasir texnologiyalarına yiyələnmək (Loreman T., Deppeler J., Harvey D, 2020, s. 123).

Sağlamlıq imkanları məhdud uşaqlara psixoloji və pedaqoji dəstək müəllimdən həmin uşaqların sağlam həmyaşıdları ilə birgə və fərdi fəaliyyətlərini təşkil etmək bacarığını tələb edir. Bu baxımdan müəllimin yaşı, duyğu və intellektual xüsusiyyətləri ilə yanaşı biliyi, hər bir uşağın xarakteristikası haqqında ilkin məlumat toplamaq bacarığı aktuallaşır. İnklüziv təhsildə müəlliminin peşə fəaliyyətinə qoyulan tələblərdən biri də uşağın emosional sabitliyinə nəzarət tələbidir. Mövcud kompetensiyalar arasında münaqişələrin idarə edilməsi sahəsində səriştələr, hər hansı bir münaqişənin qarşısının alınması və həlli pedaqoji problemlərin həllinin uğurunun təminatıdır.

İnklüziv sinflərdə müəllim tədris prosesini şagirdlərin müxtəlif səviyyə və qabiliyyətlərinə uyğunlaşdırmağa, onların qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına kömək edən, idrak, sosial və emosional bacarıqlarını inkişaf etdirən, onlarda müsbət münasibət formalaşdıran müxtəlif üsul və vasitələrdən istifadə edir. İstifadə edilən üsullardan aşağıda qeyd edilən üsullar məqsədəuyğundur:

Öyrənmənin diferensiallaşdırılması. Müəllim hər bir uşağın fərdi xüsusiyyətlərini, maraqlarını, ehtiyaclarını və imkanlarını nəzərə alır və onun hazırlıq səviyyəsindən, öyrənmə sürətindən, düşüncə tərzindən asılı olaraq ona tapşırıqlar, materiallar, resurslar, iş formaları və qiymətləndirmələr təklif edir. Öyrənmənin diferensiallaşdırılması hər bir şagirdə təlim prosesində özünü rahat, inamlı və həvəsli hiss etməyə imkan verir.

Fərdi tədris planı (FTP). Bu, əlilliyi olan və ya xüsusi təhsilə ehtiyacı olan uşaq üçün təhsilin məqsədləri, vəzifələri, məzmunu, formaları və vaxtı haqqında məlumatları ehtiva edən sənəddir. Müəllim, valideynlər, digər müəllimlər, sosial işçilər və şagirdin özü (mümkündürsə) tərəfindən onun ehtiyacları, imkanları və maraqları əsasında birgə hazırlanır. Bu sənəd tədris prosesinin uyğunlaşdırılması, onun monitorinqi və korreksiyası üçün əsasdır.

Kollektiv öyrənmə. Bu, müxtəlif qabiliyyət və xüsusiyyətlərə malik uşaqlardan ibarət kiçik qruplarda (3-5 nəfər) işlədiyi təlim üsuludur. Kollektiv öyrənmə ünsiyyət, sosial və koqnitiv bacarıqların inkişafına kömək edir, həmçinin məsuliyyət, qarşılıqlı yardım, hörmət və dostluq hissi yaradır.

Oyun üsulları. Bunlar oyundan uşaqları həvəsləndirmək və onlarda yaradıcı düşüncəni inkişaf etdirmək vasitəsi kimi istifadə edən təlim üsullarıdır. Oyun üsullarına müxtəlif oyun növləri daxildir: hərəkət, rollu oyunlar, didaktik oyunlar, simulyasiya və s. Bu oyunlar SİM uşaqlarda yeni bilik və bacarıqlar əldə etməyə, yaradıcılıq, fantaziya, təxəyyül, məntiqi təfəkkür, yaddaş, diqqət və digər psixi proseslərin inkişafına kömək edir.

İnformasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə. Bu, təlim prosesində müxtəlif elektron cihazların (kompüterlər, planşetlər, smartfonlar), proqramlar (maarifləndirici oyunlar, proqramlar, təqdimatlar), internet platformaları (veb-saytlar, bloqlar, forumlar, sosial şəbəkələr) və digər İKT vasitələrindən istifadə deməkdir. İKT müəllimə tədris materialını şaxələndirməyə və zənginləşdirməyə, onu şagirdlərin müxtəlif qabiliyyət və ehtiyaclarına uyğunlaşdırmağa, öyrənməni daha maraqlı, interaktiv və effektiv etməyə imkan verir.

İnklüziv siniflərdə təlimin uğurlu və səmərəli təşkil olunması üçün müəllimlər üç əsas pedaqoji şərti gözləməlidirlər:

1. Hər bir müəllim öz şagirdlərinin bilik, bacarıq və vərdişlərini, maraq ve imkanlarını bilməli, uşaqların hər birini yaxşı tanımalıdır.

2. Müəllim şagirdlərə tapşırıq və fəaliyyətin digər növlərinin şəxsiyyət formalaşdırılması baxımından əhəmiyyətini başa salmalıdır.

3. Müəllim sinifdə işi elə təşkil etməlidir ki, şagirdlərdə işləməyə, fəaliyyətin hər hansı bir növündən fəal istifadə etməyə həvəs oyatsın (Qasımov S., Kərimova E.və b. 2006, s. 81).

Məlumdur ki, sinifdə bu və ya digər işlə məşğul olan şagirdlər kimin necə çalışdığını çox yaxşı bilir, yeri gəldikdə qazanılmış bilik, bacarıq və vərdişlərin təkmilləşdirilməsi üçün əlavə şərhə ehtiyac duyurlar. Şagirdlərin düzgün təlim-tərbiyəsini təşkil etmək üçün müəllimlər mütləq təlimin prinsiplərinə əsaslanmalı və bu prinsiplərə istinad etməklə öz işini qurmalıdır.

Beləliklə, inklüziv təhsil kontekstində pedaqoji problemləri uğurla həll etməyə imkan verən müəllimin şəxsi xüsusiyyətlərinə özünütənzimləmə və intizam, əzmkarlıq, çətin vəziyyətləri həll etmək bacarığı daxildir. Müəllim bu peşənin nümayəndəsi kimi xüsusən inklüziv siniflərdə işlədiyi zaman bu keyfiyyətlərə malik olmalıdır: humanizm, əxlaq, məsuliyyət, əxlaq, başqalarına münasibət və başqalarını anlamaq, nəzakət, nikbinlik, emosional hərarət, gülərüzlük, dostluq. Təhsil müəssisəsinin təhsil mühiti xüsusi qayğıya ehtiyacı olan uşaq üçün əlçatan və maneəsiz mühitə çevrildikdə bu keyfiyyətlərin inkişafı pedaqoji problemlərin həlli üçün əsas ola bilər.

Ədəbiyyat

1. Hüseynov Q., Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil. Bakı 2010.
2. Hüseynova T. İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası. (Dərs vəsaiti). Bakı: ADPU-nun nəşri, 2017
3. Qasımov S., Kərimova E.və b. İnkluziv təhsil: müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait. Bakı: OKA Ofset, 2006, 168 s.
4. Loreman T., Deppeler J., Harvey D. /İnklüziv təhsil (sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təməllər)/ T.Loreman, J.Deppeler, D.Harvey. İdeal Print 2020, 309 s.
5. Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil. Məktəbəqədər təhsil pilləsi üçün. Bakı 2010.
6. https://ncrdo.ru/center/blog/osobennosti-raboty-pedagoga-inklyuzivnogo-obrazovaniya/

TƏHSİL ALANLARA İNKLÜZİV YANAŞMA

Aynur Budaqova
Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsi
nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının ftl.f.d. dosenti
aynurbudagova@yahoo.com

Summary

In the article, the process of organizing inclusive education in Azerbaijan, the implementation of laws in this area, the results of state programs and the ways to overcome the challenges are investigated. Some children with disabilities have to receive their education at home, and there are also problems in finding textbooks that suitable for their education. The article also focuses on other topics related to inclusive education, such as the lack of special programs for disabled children, textbooks and evaluation methods, the number of public centers that cover extracurricular activities, and the lack of projects and programs in this area. It is recommended that the special education staff develop action plans and involve higher education institutions in this process in order to remove the obstacles to the organization of education in inclusive education. One of the ideas highlighted in the article is that children involved in inclusive education have the opportunity to engage in schooling alongside their typically developing peers. Those children should join their peers in order to integrate into society, they need to receive education together with other children. Prior to integrating disabled children into the same classroom as typically developing children, it's essential to hold discussions and meetings with both the affected children and the teachers of that particular class. This is to prevent any child from being bullied. In general, this is a separate issue.

Key words: *inclusive education, children with disabilities, education and training rules, self-confidence*

Ümumi təhsil hamı üçün əlçatan olmalıdır. Bildiyiniz kimi təhsil lap kiçik yaşlardan başlayır. Lakin heç də hər kəs, hamı kimi bir mənalı təhsilə başlanğıc verə bilmir. Buna səbəb cəmiyyətimizdə bütün

uşaqların eyni sağlamlıq imkanlarına malik olmamasıdır. Təəssüf ki, uşaqlarımız arasında müxtəlif qüsurlu uşaqlar vardır və ya səhhətləri ilə əlaqədar bir neçə gözlənilən və yaxud gözlənilməyən qüsurların tədricən meydana çıxırması halları ilə rastlaşırıq. İnsan həyatında sağlamllığı ilə bağlı yaranan qüsurlar onları təhsildən kənarda saxlamamalıdır. Buna görə də inklüziv təhsil bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir.

Qeyd olunan təhsil növü təhsil alanların, əsasən də kiçik yaşda olan uşaqların bir fərd olduğunu və onların təhsil aldığı müddətdə ehtiyaclarını göstərən xüsusi metodologiyaya əsaslanan inkişaf yoludur. Bu o deməkdir ki, bu növ təhsil ehtiyacların formalaşmasına yönəlmişdir.

İstər sağlam, istərsə də fiziki qüsurlu insanların (əlillərin) və ya bir qədər sağlamlığı ilə bağlı digər problemləri olan insanların cəmiyyətimizdə digər insanlardan fərqli olmasını göstərən və cəmiyyətlə eyni bərabər hüquqlara malik olan təhsil sisteminə ehtiyac vardır. İnklüziv təhsil məhz bu ehtiyacları tamamlayan yeganə təhsil növüdür. Lakin inklüziv təhsil bir sinifdə yalnız əlillik problemləri və digər qüsuru olan təhsilalanlardan ibarət olmamalıdır. Bu bir neçə hallarda belə uşaqların digər uşaqlarla bir sinifdə təhsil alaraq, özlərini bərabər fiziki gücdə hiss etmələri üçün eyni hüquqa malik olmalarını göstərir. Lakin, həmin siniflərdə təhsil alanların faiz göstəricisi 5-1-%-dən çox olmamalıdır.

Sağlamlıq imkanları məhdud uşağın birbaşa kütləvi təhsil müəssisəsində təlimə cəlb olunması o qədər də düzgün fikir deyildir. Onları ümumi təhsilə hazırlamaq üçün öyrənmə prosesini asanlaşdırmaq, defektoloji, psixoloji və pedaqoji yardımlardan istifadə etməklə bu prosesə hazırlamaq lazımdır. Bunun üçün ümumtəhsil məktəblərində inklüziv siniflərin təşkili bu işin müsbət həlli yollarından biri kimi qiymətləndirilə bilər (İnklüziv siniflərdə təlimin təşkili, 2018). Hal-hazırda ölkəmizdə sağlamlıq imkanları məhdud olan 50 mindən çox uşaq vardır. Onlardan hamısı səhhətlərində olan ciddi qüsurlara görə təhsilə cəlb oluna bilmir. Odur ki, təhsilə cəlb olunan uşaqların sayı təxminən 12 min nəfərdir.

Əslində ciddi qüsurlu uşaqlar üçün xüsusi təhsil ocaqları mövcuddur. Bu təhsil mərkəzləri sırf əqli inkişafdan və eyni zamanda öz davranışlarını tam tənzimləyə bilməyən uşaqlar üçün nəzərdə tutulmuşdur. Belə təhsil mərkəzlərindən biri Bakı şəhərində yerləşən 11 saylı əqli cəhətdən qüsurlu uşaqlar üçün ixtisaslaşdırılrılmış məktəb, Şaqanda Şaqan 3 saylı fiziki və əqli qüsurlu uşaqlar üçün internat evi və s. məktəbləri qeyd etmək mümkündür. Lakin, sağlamlıq imkanları məhdud uşaqların təhsil alması üçün məktəb sayı bir o qədər çox deyildir. Belə uşalqarın çoxu evdə təhsil almalı olduğundan cəmiyyətə inteqrasiyası məhdudlaşır. Məktəblə yanaşı belə uşaqlar üçün xüsusi tədris proqramları və dərsliklər də hazırlanmalıdır, amma əfsuslar olsun ki, bu istiqamətdə dərsliklərin az olduğu da müşahidə olunmaqdadır. Lakin bu baradə ciddi işlər görülməkdədir. İnanırıq ki, yaxın gələcəkdə bu məsələlər öz həllini tapacaqdır (4).

İnklüziv təhsilə cəlb olunan uşaqlar əsasən bir qədər fiziki qüsurlu olub, lakin əqli cəhətdən fəaliyyətini itirməmiş uşaqlardır. Sağlamlıq cəhətdən tam imkanlara malik olmayan uşaqların təhsili və tərbiyəsi üçün ayrıca şərait yaradılmazdan öncə həmin sinifdə təhsil alan digər sağlamlığı yerində olan uşaqlarla və onlara tədris verəcək müəllimlərlə söhbətlər aparmaq qarşılıqlı anlaşmanın bir hissəsidir. Bu hal bulinq kimi şəraitin yaranmaması üçün vacibdir. Lakin bu mövzu ayrıca geniş mövzudur.

Eyni sinifdə təhsil alan uşaqlarla qitmətləndirmə zamanı belə uşaqlara motivasiya vermək üçün müəllim xüsusi özünəməxsus qiymətləndirmə metodundan istifadə etməlidir. Lakin ənənəvi qiymətləndirmə prosesini də unutmaq olmaz. Bu ona görə olunur ki, gələcəkdə həmin fərdin əmək bazarında məşğulluğu təmin olunsun, yəni istənilən fərdin müəyyən sahə üzrə müəyyən elmi biliyə malik olması əsas şərtlərdən biridir. İnklüziv təlim zamanı həmin uşaqların valideynləri də tədris təlim və tərbiyə prosesində mühüm rol oynayırlar. Təlim zamanı valideynlər müəllimlərə köməyi əsirgəməməlidirlər. Demək olar ki, müsbət nəticələr əldə etmək üçün onlar birgə fəaliyyət göstərməlidirlər. (Xudaverdiyeva, 2021, s. 49–58)

Azərbaycanda "İnklüziv təhsil layihəsi" üçün 2005-ci ildən etibarən müəyyən xüsusi işlərə başlanılmışdır. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili" -nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir. Bu növ təhsilin sağlamlıq imkanları məhdud olan uşaqlar üçün yaratdığı şərait tədqirə layiqdir.

- Xüsusi qayğıya və diqqətə ehtiyacı olan uşaqlar cəmiyyətə inteqrasiya edir.

- Digər uşaqlarla eyni hüquqlara malik olduqlarını hiss edir.
- Başqa uşaqlardan fərqlənməmək qüsurlu və ya fərqli olduqlarına diqqətlərini cəmləyib özlərinə qapanmırlar.
- Onlarda özlərinə inam və öz güvən yaranır.
- Onların gələcəkdə məşğulluqla bağlı problemləri bir qədər həll olunur.

2018-2024-cü illərdə ölkəmizdə sağlamlığı ilə əlaqədar problemləri olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı çərçivəsində Elm və Təhsil Nazirliyinə aid əsasnamənin 13.5 bəndini rəhbər tuttaraq 2022-2023-cü tədris ilində bir neçə məktəblərdə inklüziv siniflər təşkil edildi. Bu əmr Azərbaycan Respublikası Elm və Təhsil Naziri Emin Əmrullayev tərəfindən verilərək imzalandı. İnklüziv təhsilin təşkil olunması Bakı şəhəri 39, 84, 265, 300, Gəncə şəhəri 8, Sumqayıt şəhəri 25, Xaçmaz şəhəri 6, Ağcabədi şəhəri 5, Qəbələ şəhəri 3 nömrəli tam orta məktəbdə və Xırdalan şəhəri 3 nömrəli məktəb-liseydə həyata keçirilmişdir. (Əmrullayev, 2022, F-443)

Nəhayət, onu qeyd etmək lazımdır ki, biz cəmiyyət olaraq sağlamlıq imkanları məhdud şəxslərin təhsilə adaptasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirməməli, belə fərdlərin cəmiyyətə, təhsilə tam inteqrasiyası hər bir pedaqoqun, psixoloqun, bir sözlə, hər bir Azərbaycan vətəndaşının ümdə vəzifəsinə çevrilməlidir.

Ədəbiyyat

1. Əmrullayev E., Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 15 iyul 2022-ci il F-443)
2. Xudaverdiyeva T. (2021). İnklüziv təhsildə təlimin təşkili prinsipləri: perspektivlər və nəticələr. Azərbaycan məktəbi. № 3(696), səh. 49–58 Azerbaijan Journal of Educational Studies | 2021. №3
3. İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı. Oxu materialı. http://www.tipii.edu.az.
4. İnklüziv təhsil — Vikipediya (wikipedia.org)

AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİL

Fəxriyyə Cəfərova
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
FakhriyyaCafarova@nmi.edu.az
Tahirə Həsənova
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
tahireh37@gmail.com

Summary

The development of inclusive education in Azerbaijan today is related to the activities of the great leader Heydar Aliyev. The "Law of the Republic of Azerbaijan on the Education of Persons with Disabilities (Special Education)" signed by our national leader Heydar Aliyev on June 5, 2001, set forth the importance of developing and inclusive training programs for children with special needs as an important issue. After that, important steps were taken towards the development of inclusive education.

In the article, the creation of inclusive education and its application in Azerbaijan are discussed.

Key words: *Azerbaijan, inclusive education, teacher,inclusive training programs, children in need of care*

Резюме

Развитие инклюзивного образования в Азербайджане сегодня связано с деятельностью великого лидера Гейдара Алиева. «Закон Азербайджанской Республики об образовании лиц с ограниченными возможностями (специальное образование)», подписанный нашим общенациональным лидером Гейдаром Алиевым 5 июня 2001 года, определил важность разработки и инклюзивных программ обучения для детей с особыми потребностями как важный вопрос. После этого были предприняты важные шаги в направлении развития инклюзивного образования.

В статье обсуждается создание инклюзивного образования и его применение в Азербайджане.

Ключевые слова: *Азербайджан, инклюзивное образование, учитель,инклюзивные программы обучения, дети, нуждающиеся в уходе*

Bu gün Azərbaycanda həyata keçirilən inklüziv təhsil böyük əhəmiyyət kəsb etməklə, sağlamlıq imkanları məhdud olan uşaqların təhsilə cəlb edilməsində xüsusi rola malikdir. Eyni zamanda, inklüziv təhsil ümumi təhsilin tərkib hissəsi olmaqla öz növbəsində təhsilin inkişafını şərtləndirən amil hesab edilir. İnklüziv təhsilin əsas məqsədi təhsilin hamı üçün əl çatan olmasını təmin etməkdir. Bu da o deməkdir ki, sağlamlıq imkanları məhdud olan uşaqlar da təhsilə cəlb ediləcək və bununla da bu istiqamətdə görülən işlər öz həllini tapacaqdır.

Bildiyimiz kimi, Aərbaycanda təhsilin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Azərbaycanda hakimiyyətdə olduğu hər iki dönəmdə ulu öndər xalqına sədaqətlə xidmət etmiş, "Təhsil millətin gələcəyidir" şüarını əldə rəhbər tutaraq təhsilin inkişafına xüsusi qayğı və diqqətlə yanaşmışdır. Bəlkə də buna görədir ki, ulu öndər müəllim adını da həmişə yüksək tutmuş və bu haqda belə bir fikir irəli sürmüşdür:"Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdr. Ancaq bundan da yüksək ad müəllimlikdir. Müəllimlik sənəti şərəfli bir sənətdir"(1).

Deməli, təhsilin inkişafı butün dönəmlərdə aktual olmuş, bu gün də bu sahəyə xüsusi diqqət yetirilir. Bu diqqətin əsasında əlilliyi olan şəxsləırin təhsilə cəlb edilməsi, onların təhsil ala bilmələri üçün müəyyən şəraitin yaradılması, proqramların həyata keçirilməsi məsələsi də dayanır. Bu baxımdan inklüziv təhsil istiqamətində mühüm işlər görülmüşdür. Əslində əlilliyi olan şəxslərin təhsilə cəlb edilmələri onların cəmiyyətə adaptasiya olmaları üçün mühüm şərtdir.

Tarixi baxımdan inklüziv təhsildən bəhs etsək görərik ki, hələ XX əsrin əvvəllərində əlilliyi olan uşaqların ayrıca yaşayışı təmin edilmiş, onların təhsili üçün uşaq evləri, internat tipli təhsil müəssisələri fəaliyyət göstərmişdir. Bu müəssisələrdə həmin uşaqların təhsili üçün hər bir şərait yaradılmış, amma onların cəmiyyətə adaptasiyası məsələsi heç də diqqqətdə saxlanılmamışdır. Zaman keçdikcə bu məsələyə münasibətdə yeniliklər özünü göstərməyə başlamışdır. 1960-1980-ci illərdə əlilliyi olan uşaqların ailədə yaşamaq, onların təhsil almaq kimi ehtiyacları nəzərə alınmış, onların bu kimi hüquqlarına hörmətlə yanaşılmağa başlanılmışdır.

Əsası Skandinaviyada qoyulan bu model Böyük Britaniya, Amerika, İtaliya və İsveçrədə əlilliyi olan şəxslərin təhsilində yeni yanaşmanın tətbiqinə bir yol açmış olur. Bu modelə görə uşaq evləri, internat məktəbləri bağlanır. Beləliklə, 1980-ci illərdən etibarən əlilliyin sosial modelinin tətbiq edildiyi "inklüzivlik" təhsil dövrü başlanır. Bəs inklüzivlik nə deməkdir?

Ədəbiyyatlarda bu suala belə cavab tapmaq olar. "İnklüzivlik sağlamlıq imkanlarından, bacarıqlarından, ailə vəziyyətindən, irqindən, dinindən asılı olmayaraq bütün şəxslərin təhsil prosesində və həyatda bərabərhüquqlu iştirakıdır"(3).

Deməli, inklüziv təhsil dini və mədəni mənşəyindən, əlilliyi olub-olmamasından asılı olmayaraq hər bir uşağın yaxınlıqdakı ümumtəhsil məktəblərdə təhsilə cəlb edilməsidir. Son illərdə inklüziv təhsilin həlledici rolunu artırmaq və tanıtmaq üçün mühüm işlər görülmüş, inklüziv təhsilin hüquqi cəhətdən ilk icbari xarakterli sənədi olan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya qəbul edilmişdir. Bu Konvensiyanı imzalayan tərəflərdən biri də məhz Azərbaycandır. Bu mənada, inklüziv təhsilin həyata keçirilməsi üçün Azərbaycanda mühüm işlər həyata keçirilir.

Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il iyun ayının 5-də imzaladığı "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu"(2) xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması məsələsinin vacibliyini mühüm məsələ kimi qarşıya qoymuş oldu. Bütün bunlar da öz növbəsində inklüziv təhsilin vacibliyini şərtləndirmiş oldu.

2005-ci ildən Azərbaycanda "İnklüziv təhsil layihəsi"nin icrasına başlanıldı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı(2005-2009-cu illər)" təsdiq edildi. Bu proqramın həyata keçirilməsi ilə bağlı olaraq 3 pilot layihənin icrasına başlanıldı. Layihələrin həyata keçirilməsi istiqamətində görülən işlərdən ən mühümü 15 ümumi təhsil, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb edilməsi oldu.

Onu da qeyd edək ki, 2015-ci ildə Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsilin təşkili sahəsində yeni bir mərhələ başlayır. Bütün bu işlərin həyata keçirilməsində əsas məqsəd sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilinin təmin edilməsi idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 dekabr 2017-ci il tarixli sərəncamı ilə təsdiq olunan "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nda məhz, bu yönümdən həyatımızda humanist münasibətlərə daha nəcib keyfiyətlərlə alışmağın inkişaf strategiyaları öz əksini tapdı.

Proqramda göstərilir:

sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi,

- təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi,
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması,
- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması,
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması(3).

Əlbəttə, bu istiqamətdə həyata keçirilən tədbirlərin mərkəzində uşaqların bilik və bacarıqlara yiyələnməsi və gələcəkdə özlərini cəmiyyətdə reallaşdıra bilmələri məsələsi dayanır. Əgər diqqət yetirsək görərik ki, bu gün dünya ölkələrində inklüziv təhsilə cəlb edilənlərin sayı durmadan artır. Bu da inklüziv təhsilə cəlb edilənlərin sayının digər təhsil formalarına cəlb olunanların sayından çox olmasının göstəricisidir. İnklüziv təhsil öz prinsipləri baxımından da fərqlənir. Bu prinsiplər aşağıdakılardan ibarətdir:

1. Uşağın öz ailəsi ilə qalması
2. Uşağın valideynləri ilə sıx əməkdaşlığı
2. Fərdi inkişaf

Bu prinsiplər də onu deməyə əsasverir ki, inklüziv təhsilin məqsədi sağlamlığı məhdud olan şəxslərin hamı ilə birlikdə təhsilə cəlb edilməsi və bununla da sosial həyata inteqrasiya oluna bilməsidir. Hamı ilə birgə təhsil almaq isə uşaqda özünəgüvən hissini daha da artırmış olur. Bu mənada inklüziv təhsilin sağlamlıq imkanları məhdud uşaqlar üçün faydalarını belə qeyd etmək olar:

1. İnklüziv təhsil nəticəsində uşaqlar kollektivə uyğunlaşır
2. Cəmiyyətə inteqrasiya olunurlar
3. Özlərinə inam hissi formalaşmış olur
4. Cəmiyyətin digər üzvləri kimi onlar da bərabərhüquqlu şəxsiyyət kimi formalaşmış olurlar.

Əlbəttə, inklüziv təlimi şərtləndirən əsas amillər də məhz bunlardır. Bu gün inklüziv təhsilin tələblrindən biri uşaqlar arasında ayrı-seçkilik aparılmadan onların mükəmməl təhsil almalarına nail ola bilməkdir. Bu tələblər təmin edildikdə uşaqlar daha ciddi şəkildə təhsilə can atır ki, bu da onların gələcəkdə uğurlar qazana bilmələrinə səbəb olur. Eyni zamanda, məhdud imkanlara malik insanların peşə hazırlığı üçün də heç bir sərhəd qoyulmur.

Bu gün Azərbaycanda "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin tətbiq edildiyi məktəblərdə müəyyən xəstəliklərdən əziyyət çəkən uşaqlar təhsil alır. Bu uşaqlar üçün xüsusi öyrədici mühit təşkil edilir ki, burda da əsas məqsəd şagirdi öyrədə bilmək, onun öyrəndiyinə əmin olmaqdır. Təbii ki, bu prosesdə müəllimin fərdi tədris proqramına əsaslanması da mühüm amil kimi çıxış edir.

Onu da qeyd edək ki, Bakı, Sumqayıt, Gəncə, Quba, Şəki, Qazanda fəaliyyət göstərən ümumtəhsil məktəblərində inklüziv təhsil resurs mərkəzi yaradılmış, bu mərkəzlər inklüziv təhsil üzrə material və ləvazimatlarla təmin edilmişdir. Eyni zamanda, inklüziv təhsilə dair materiallardan ibarət kitabxananaın fəaliyyəti də təmin edilmişdir.

İnklüziv siniflərin təşkil edilməsi ilə bağlı ümumi təhsil müəssisələrinin şəbəkələrinin genişləndirilməsi, əlilliyi olan uşaqların təhsilə cəlb edilməsi, inklüziv təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə Azərbaycanda 2021-2022-ci tədris ilində Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elm və Təhsil Nazirliyi və UNISEF ilə birgə "İnklüziv sinif təşkil edən ümumi təhsil müəssisələrinin

şəbəkəsinin genişləndirilməsi" adlı möhtəşəm bir layihə həyata keçirilmişdir. Bu layihə əsasında Azərbaycanda 10 region üzrə 22 ümumi təhsil müəssisəsində 205 nəfərə yaxın əlilliyi olan şagird təhsilə cəlb edilmişdir ki, bu da bu sadədə əldə edilən uğur idi.

Bu layihə əsasında müəllimlərin inklüziv təlimə hazırlanması istiqamətində də mühüm addımlar atılmışdır. Belə ki, "inklüziv sinifdə təlimin təşkili" ixtisasartırma proqramı əsasında müəllimlərə təlim keçirilir. Bu təlim zamanı müəllimlər inklüziv siniflərdə işin təşkili mexanizminə yiyələnirlər ki, bu da onların təlim prosesində koməyinə gəlir.

Bu gün inklüziv təhsil öz müsbət cəhətləri ilə seçilir. Əlilliyi olan uşaqların təhsili, onların sosial münasibətlər baxımından uğurlar əldə etmələri, cəmiyyətə inteqrasiyaları zamanın tələbi kimi çıxış edir. Azərbaycan Respublikasında da bu istiqamətdə mühüm addımlar atılır, inklüziv təhsilin inkişafı üçün mövcud imkanlardan istifadə edilir.

Ədəbiyyat

1."Azərbaycan müəllimi" qəzeti. 10 dekabr, 2010

2. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili(Xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu. (2001).

3. https://static.inkluzivtehsil.edu.az/book/files/Məlumat%20kitabçası.pdf

4.https://e-qanun.az/framework/37269

İNKLÜZİV MƏKTƏBLƏRDƏ PRAKTİK PSİXOLOQUN FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

Səbinə Cəfərova
Bakı Slavyan Universiteti
Pedaqogika və psixologiya kafedrasının müəllimi
sabina_16_86@mail.ru

Summary

In modern times, a new concept of inclusive education has been introduced into the field of education. Although inclusive education is a new direction in the world pedagogical science and practice, its ideas and approaches to education are rich. One of the important issues is the organization of psychological services in inclusive schools. This means that the psychological service in these schools should be organized at a high level. The main goal of the psychological service is to ensure the psychological health of all participants in the educational process. At the same time, a practical psychologist is considered the main figure in a general education school, especially in inclusive classes. The role of a practical psychologist in regulating the psychological climate in these classes is indisputable and irreplaceable. Along with the teacher, the role of creating a psychological environment in inclusive classes is great; practical psychologists are needed. It is necessary to carry out psychological work to create a healthy psychological environment in classes where inclusive education is used, to regulate the sphere of relationships, to adapt children with special needs in the team of this class and to solve other problems.

Key words: *inclusive education, society, psychologist, school, class*

Резюме

В современное время в сферу образования внедрена новая концепция инклюзивного образования. Хотя инклюзивное образование является новым направлением в мировой педагогической науке и практике, его идеи и подходы к образованию богаты. Одним из важных вопросов считается организация психологической службы в инклюзивных школах. Значит, психологическая служба в этих школах должна быть организована на высоком уровне. Основной целью психологической службы является обеспечение психологического здоровья всех участников образовательного процесса. При этом главной фигурой в общеобразовательной школе, особенно в инклюзивных классах, считается практический психолог. Роль практического психолога в регулировании психологического климата на этих занятиях бесспорна и незаменима.Наряду с учителем велика роль создания психологической среды в инклюзивных классах, необходимы практические психологи. Необходимо проводить психологическую работу по созданию здоровой психологической среды в классах, где применяется инклюзивное образование, регулировать сферу взаимоотношений, адаптировать детей с особыми потребностями в коллективе данного класса и решать другие проблемы.

Ключевые слова: *инклюзивное образование, общество, психолог, школа, класс*

Təhsil sistemi müasir cəmiyyətin sosial-mədəni tərkib hissəsidir, nəsilləri formalaşdırır, onların şüurunun, dəyərlərinin, davranışının bu və ya digər istiqamətini təyin edir.

Müasir dövrdə təhsil sahəsinə yeni inküziv təhsil anlayışı daxil edilmişdir. İnklüziv təhsil dünya pedaqoji elm və təcrübəsində yeni istiqamət olsa da, onun ideyaları, təhsilə dair yanaşmaları zəngindir. Salamanka (1994) və Cenevrə (1999) bəyannamələrinin müddəalarına əsasən, inklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların yaşayış yerində təhsil hüququnun həyata keçirilməsini təmin etmək üçün nəzərdə tutulmuşdur: valideyn himayəsindən məhrum olmuş uşaqlar, sağlamlıq imkanları məhdud uşaqlar, milli və dini azlıqların nümayəndələri, əhalinin aztəminatlı təbəqələrindən olan immiqrantlar, çətin tərbiyə olunan uşaqlar və s. [5, s. 45] Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud uşaqlar üçün inklüziv təhsilin müxtəlif modelləri və metodları fəal şəkildə inkişaf etdirilir, bu uşaqların xüsusi məktəblərdən kənarda təhsil alması üçün bir sıra layihələr həyata keçirilir. Bütün təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlara yardım sistemi (dəstəkləyici və həvəsləndirici dərslər, fənn konsultasiyaları) işlənilib hazırlanmaqda və tətbiq edilməkdir.

İnklüziv təhsilin əsas məqsədi sağlamlıq imkanları məhdud şagirdlərin təhsilə cəlb edilməsi, sağlamlıq vəziyyətindən, cinsindən, intellektual inkişaf səviyyəsindən və s. asılı olmayaraq bütün şagirdlərin keyfiyyətli təhsil alması üçün təhsil müəssisələrində əlverişli şəraitin yaradılmasıdır. İnklüzivliyin digər məqsədlərindən biri də pedaqoji prosesin bütün iştirakçılarının (müəllimlər, valideynlər, tələbələr) fəallığını artırmaqdır ki, bu da təhsilin yüksək keyfiyyətini və şagirdlərdə bir sıra səriştələrin (universal, sosial, kommunikativ) inkişafını təmin edir.

İnklüziv məktəblərdə gündəlik dərslərin keçirilməsi ilə yanaşı psixoloji xidmətin təşkili də vacib məsələlərdən hesab edilir. Belə ki, həmin məktəblərdə psixoloji xidmət yüksək səviyyədə təşkil edilməlidir. Psixoloji xidmətin əsas məqsədi təhsil prosesinin bütün iştirakçılarının psixoloji sağlamlığının təmin etməkdən ibarətdir. Bununla yanaşıümumtəhsil məktəblərdə, xüsusən inklüziv siniflərdə praktik psixoloq əsas sima hesab edilir. Bu siniflərdə psixoloji iqlimin tənzimlənməsində praktik psixoloqun rolu danılmaz və əvəzedilməzdir. Praktik psixoloq inklüziv siniflərdə müxtəlif problemləri həll etmək üçün ayrı-ayrı uşaqlarla yanaşı, onların valideynləri ilə də işləməli, problemlərin həlli istiqamətində söhbətlər aparmalı, tövsiyələr verməlidir.

Müasir təhsil sistemində müəllimin peşə səriştəsinin inkişafına və pedaqoji ustalığının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Müəllimlə yanaşı inklüziv siniflərdə psixoloji mühitin rolu yaradılmasının rolu böyükdür və praktik psixoloqlara ehtiyac vardir. İnklüziv təhsil tətbiq edilən siniflərdə sağlam psixoloji mühitin yaradılması, qarşılıqlı münasibətlər sahəsinin tənzimlənməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqların həmin sinif kollektivinə adaptasiya olunması və digər problemləri həll etmək məqsədi ilə psixoloji işlərin aparılması zəruridir [4, s. 126]

Məlum olduğu kimi, inklüziv təhsilin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərin sosial cəmiyyətə adaptasiyası, sosiallaşması, normal həyata inteqrasiyasıdır. Bu sosiallaşma yalnız sağlamlıq imkanları məhdud uşaqlara müxtəlif biliklərin ötürülməsi yolu ilə aparılmır. İlk növbədə praktik psixoloq sağlamlıq imkanları məhdud uşaqlarla düzgün istiqamətdə iş aparmağı bacarmalıdır. Belə ki, bu cür uşaqlarda inktellekin inkişafı, emosional sahənin inkişafı, stresə qarşı dözümlülüyün inkişafı, özünə inamı və s. inkişafetdirmək çox vacibdir. Praktik psixoloq sağlamlıq imkanları məhdud uşaqlarla müxtəlif söhbətlər apararaq, onlarda özünə inamı, müstəqil düşünməni, pozitiv yanaşmanı daha da inkişaf etdirə bilər [4, s. 125].

Vurğulamaq lazımdır ki, adi məktəblərdə praktik psixoloqun işi çətindirsə, inklüziv məktəblərdə bu işi ikiqat çətin olur. Çünki, bu məktəblərdə çalışan praktik psixoloqlar təlim prosesinin optimallaşdırılmasına yardımçı olmalı, inklüziv siniflərdə müəllimlərə təlimin məzmun və metodlarını seçməyə köməklik göstərməli, sağlamlıq imkanları məhdud şagirdlərin psixoloji xüsusiyyətlərini nəzərə alaraq, fərdi yanaşma vasitələrini seçməlidirlər. Eyni zamanda praktik psixoloq sağlamlıq imkanları məhdud şagirdlərdə şagird şəxsiyyətinin formalaşdırılması və psixi inkişafın xüsusiyyətlərini üzə çıxarmalı, müəllim və şagirdlər arasında düzgün ünsiyyət formalaşdırmalı, davranışında qüsur olan uşaqlarla iş aparmalı, profilaktika və korreksiya işləri həyata keçirməlidir. Praktik prixoloq inkülziv siniflərdə hər bir sağlamlıq imkanı məhdud şagirdə fərdi yanaşmanı təmin etməlidir. Bu fərdi yanaşma yalnız sağ-

lamlıq imkanları məhdud şagirdlərə deyil, eyni zamanda sağlam şagirdlərə də şamil edilməlidir. Çünki hər iki şagird arasında düzgün ünsiyyətin qurulması, onların istək və tələblərini başa dümək, düzgün kollektivçilik mühitinin qurulmasına köməklik göstərmək, sosial-psixoloji rifahı təmin etmək, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətdə uğurlu adaptasiyasının, reabilitasiyasının formalaşması üçün şərait yaratmaq praktik psixoloqun əsas vəzifələrindən hesab edilir.

İnklüziv siniflərdə praktik psixoloqun əsas fəaliyyətistiqamətləri bunlardan ibarətdir: psixoloji təhsil, psixoloji profilaktika, psixoloji məsləhət, psixoloji diaqnostika, psixoloji korreksiya, psixoloji reabilitasiya və sosial-psixoloji uyğunlaşma.

İnklüziv siniflərdə psixoloji köməkliyin iki növü vardır:

1. Mövcud istiqamətdə müxtəlif problemlərin cəld həlli;
2. Perspektivli istiqamət üzrə hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq müxtəlif problemlərin həlli.

Təlim zamanı praktik psixoloq ehtiyacı olan inklüziv təhsil prosesinin bütün iştirakçılarına gündəlik yardım göstərir.İnklüziv təhsil məkanında praktik psixoloqun fəaliyyətinin aparıcı istiqaməti uzunmüddətli planlaşdırmadır. Bütün işlər illik plana, imtahan proqramlarına, monitorinqə, şagirdlərlə korreksiya və inkişaf etdirici işlərə uyğun aparılır.

İnklüziv təhsilin praktik psixoloqunun fəaliyyətində dörd əsas iş sahəsi müəyyən edilmişdir:

- sağlam uşaqlarla iş;
- sağlamlıq imkanları məhdud uşaqlarla iş;
- pedaqoqlarla iş;
- sağlamlıq imkanları məhdud uşaqların valideynlərilə iş.

İnklüziv siniflərdə çalışan psixoloq ətrafdakı insanlara qarşı dözümlü, xeyirxah, mehriban, rəğbət bəsləməyi bacaran, hazırcavab, həmkarlarının fikirlərini dinləməyi bacaran, psixolojibiliklərə malik, eyni zamanda sağlamlıq imkanları məhdud uşaqların fərdi və psixi xüsusiyyətlərinə dərindən bələd olan, onlarla korreksiya və reabilitasiya işləri aparmağı bacaran şəxs olmalıdır. Göründüyü kimi inklüziv təhsil məkanında çalışan psixoloqun fəaliyyəti çox məsuliyyətlidir, ona görə də psixoloqda stressə davamlılıq, yüksək peşəkarlıq və başqalarına qarşı dözümlü münasibət olmalıdır. Müxtəlif psixofiziki pozğunluqları olan uşaqlar getdikcə daha çox olduğundan, psixoloqun böyük səbri olmalıdır. Dinləyib eşitməyi, baxıb görməyi, motivasiya etməyi, valideynlərlə, uşaqla etibarlı münasibət qurmağı bacarmalıdır. Bu da praktik psixoloqun işinu daha da məsuliyyətli edir.

Ədəbiyyat

1. Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi. (2018).
2. Hüseynova N.T., Məlikov M.Ş. Xüsusi pedaqogikanın müasir problemləri. Dərs vəsaiti, Bakı 2018, ADPU-nəşriyyatı, 230 s.
3. Loreman T., Deppeler J., Harvey D. /İnklüziv təhsil (sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təməllər)/ T.Loreman, J.Deppeler, D.Harvey. İdeal Print 2020, 309 s.
4. Qasımov S., Kərimova E.və b. İnkluziv təhsil: müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait. Bakı: OKA Ofset, 2006, 168 s.
5. «Интегрированное обучение детей с ограниченными возможностями в обществе здоровых детей / Ф.Л. Ратнер, А.Ю. Юсупова, Москва, Гуманитар. изд. центр ВЛАДОС, 2006, ISBN 5-691-01581-8»: 89 с.

İNKLUZİV TƏHSİLDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARDAN İSTİFADƏ

Kifayət Dolxanova
Bakı Slavyan Universiteti
kifayat.dolxanova@yandex.com

Summary

The article describes the advantages and disadvantages of using information and communication technologies (hereafter ICT) in the field of inclusive education. The main directions of the application of ICT in education, as well as the pedagogical goals of their use, are reviewed. Objectives and arguments in favor of using ICT in inclusive education are defined. Possible negative consequences of using ICT in the educational process are described.

Key words: *inclusive education, information and communication technologies, features of ICT development in inclusive education, inclusive society, inclusive program*

Резюме

В статье представлено описание недостатков и преимущества применения информационно-коммуникационных технологий (ИКТ) в сфере инклюзивного образования. Рассмотрены педагогические цели их применения, а также основные направления применения ИКТ в образовании. Определены задачи и аргументы в пользу применения ИКТ в инклюзивном образовании. Описаны возможные последствия применения ИКТ в образовательном процессе.

Ключевые слова*: инклюзивное образование, информационно-коммуникационные технологии, особенности развития ИКТ в инклюзивное образование,инклюзивное общество, инклюзивная программа*

Hazırda bütün dünyada əlillərinvəpsixofizioloji inkişafa xüsusi ehtiyacı olan şagirdlərin və tələbələrin sayı artır. Əvvəllər əlillərin ixtisaslaşdırılmış təhsil müəssisələrində və ya evdə onların tibbi, təhsil ehtiyaclarını ödəyərək təhsilalması bir adət idi. Beləki, belə bir öyrənmə prosesi uşağın tam sosial uyğunlaşmasına maneə yaradırdı və uşaqların həmyaşıdlarından, bütövlükdə cəmiyyətdən təcrid olunmasına səbəb olurdu. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün əlçatan təhsil mühitinin yaradılması müasir cəmiyyətin əsas vəzifəsidir. Bununla belə, bu cür təhsil prosesi uşağın tam sosial uyğunlaşmasına maneə yaratdı, uşaqların həmyaşıdlarından və bütövlükdə cəmiyyətdən təcrid olunmasına səbəb oldu. Xüsusi qayğıya ehtiyacı olan uşaqların hərbir qrupunun müəllim tərəfindən ödənilməli olan öz xüsusi təhsil ehtiyaclarına sahib olduğunu bilərək lazım olan uyğun metod və üsulların axtarışını nəzərə alınmalıdır.

İKT-dənistifadə inklüzivsiniflərdə və qruplarda uşaqlar üçün rahat təhsil proqramının yaradılmasına kömək edə bilər. Buna əsaslanaraq inklüziv təhsildə İKT-dən istifadənin problemli məsələlərini nəzərdən keçirmə kvacibdir. İnklüziv təhsil, mövcud inkişaf xüsusiyyətlərinə baxmayaraq, hərbir şagirdə təhsil müəssisələrində təhsil almaq imkanının verildiyi təhsil prosesinin formasıdır. Azərbaycanda əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı Konsepsiyasına əsasən, inklüziv təhsil müxtəlif təhsil ehtiyacları olan tələbələrin, o cümlədən əlilliyi olan şəxslərin birgə təhsil prosesinə tam şəkildə daxil edilməsini təmin edən təlim və təhsildir. (1)

Tələbələrin fərdi ehtiyaclarını, qabiliyyətlərini, idrak imkanlarını nəzərə alan şərtlərə baxcaq inklüziv təhsilin təhsil sistemlərinə inteqrasiyailə müqayisədə bir sıra fərqləri vardır.(1) İnteqrasiya xüsusi ehtiyacı olan insanlarınheç birdəyişiklikolmadanqalantəhsilsisteminə uyğunlaşdırılmasını nəzərdə tutur. İnklüzivlik, əksinə, şəraiti və mühiti tələbələrin xüsusiyyətlərinə uyğunlaşdırır. Bu, binaların yenidən qurulması, yeni tədris metodlarının inkişafı, uyğunlaşdırılmış kurikulumların yaradılması və s. vasitəsilə həyata keçirilir (4).

Xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təhsili və təlimi Azərbaycan Respublikasının social siyasətinə daxildir. İnklüziv təhsil prinsiplərinin həyata keçirilməsi ilə bağlı bütün ideyalar beynəlxalq standartlara cavab verən qanun vericilik bazası ilə dəstəklənir. Mövcud qanun vericilik çərçivəsində istənilən təhsil müəssisəsi inklüziv olur və xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almasına hazır olmalıdır. Təhsil müəssisəsinin hazırlığı maneəsiz mühit yaratmaq, təhsil mühitini və peşə hazırlığını uyğunlaşdırmaqdır.

İKT informasiyanın emalının müxtəlif mexanizmlərini, cihazlarını və üsullarını özündə birləşdirən ümumi anlayışdır. Mühüm müasir İKT cihazlarından biridə lazımi proqram təminatının quraşdırıldığı kompüterdir (Poqodinaİ.A;VarnavskayaL.Q.2018, s.118). Bugün təhsil mühitində ən çox istifadə olunan İKT alətləri mətn prosessorları, electron cədvəllər, təqdimat hazırlamaq proqramları, verilənlər bazası idarə etmə, təşkilatçılar, qrafik paketlər və s.

Tədris prosesinin kompüterləşdirilməsi müasir təhsil sistemindəki yeniliklərdən biridir. Təhsildə İKT-nin tətbiqinin bir neçə əsas istiqaməti var:

– tədris prosesinin təkmilləşdirilməsi, onun keyfiyyətinin və səmərəliliyinin artırılması;

– özünü və reallığı dərk etmək üçün kompüter texnologiyalarından istifadə;

– nəzarət, korreksiya, sınaq və psixo-diaqnostika proseslərinin avtomatlaşdırılması üçün kompüter texnologiyasından istifadə;

– pedaqoji təcrübənin, metodiki və tədris ədəbiyyatının ötürülməsi və mənimsənilməsi məqsədilə kommunikasiyaların təşkili;

– tələbələrin intellektual asudə vaxtının və yaradıcı inkişafının təşkili;

– təhsil müəssisəsinin idarə etmə və idarə etmə proseslərinin təkmilləşdirilməsi (Poqodina İ.A;VarnavskayaL.Q.2018, s.118).

İKT-dən istifadə bir sıra əsas pedaqoji məqsədləri əks etdirir:

- təhsil prosesinin bütün səviyyələrinin təkmilləşdirilməsi:

tədris prosesinin səmərəliliyinin və keyfiyyətinin artırılması,

idrak fəaliyyətinin aktivliyinin artırılması,

fənlər arası əlaqələrin dərinləşdirilməsi,

həcmin artırılması və lazımi məlumatlarına xtarışının optimallaşdırılması;

- tələbələrin şəxsiyyətinin hazırlanması və inkişafı:

təfəkkür və ünsiyyət bacarıqlarının inkişafı,

-mürəkkəb vəziyyətlərdə həll yolları təklif etmək və təklif etmək bacarıqlarını inkişaf etdirmək,

multimedia texnologiyalarından istifadə etməklə estetik tərbiyə;

məlumat emal bacarıqlarının inkişafı,

tapşırığı və ya vəziyyəti simulyasiya etmək, eksperimental tədqiqat fəaliyyətini həyata keçirmək bacarıqlarının formalaşdırılması;

kompüter alətləri istifadəçisinin təlimi.

Hazırda istənilən təhsil müəssisəsində İKT-dən istifadə təhsil prosesinin tərkib hissəsinə çevrilib. İKT tələbələrin ünsiyyət və informasiya bacarıqlarının səviyyəsini yüksəltməyə imkan verir, beləki müxtəlif kommunikasiya kanallarından (qrafik, mətn, toxunma, səs və s.) istifadə etməklə tədris materialının yüksək keyfiyyətli təqdimatını təmin edir [Afonkina Y.A.s.16-20 (2017)].

İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqları qorxu və narahatçılıq olmadan öyrənməyə həvəsləndirmək və onlara öz qabiliyyətlərinə inam yaratmaq cəhdidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar öz potensiallarını tam şəkildə inkişaf etdirməlidirlər və inklüzivlik bu ideyaları həyata keçirməyə kömək edir [2; 3]. Bu vəzifələri həyata keçirmək üçün həm bütün uşaqlar üçün universal, həm də fərdi ola biləcək alətlər hazırlamaq çox vacibdir, çünki onların hər birinin müxtəlif xüsusiyyətlərini nəzərə almaq vacibdir. Müasir İKT-lər məhz bu imkanlara malikdir [1].

İnklüziv təhsildə İKT-dən istifadənin bir sıra əsaslı səbəbləri var:

– sosial aspekt – əlilliyi olan şəxslərin cəmiyyətdəki rolunu dərk etməyə hazırlamaq üçün əsas İKT bacarıqlarına yiyələnməyin vacibliyi;

– peşəkar aspekt – tələbələrə gələcək peşə fəaliyyəti bacarıqlarını öyrətmək üçün təhsildə İKT-yə ehtiyac;

– pedaqoji aspekt – İKT-nin köməyi ilə xüsusi ehtiyacı olan insanlar üçün təhsilin keyfiyyətinin yüksəldilməsi [1].

təhsil sistemini qoymur, həm də metodiki xidmətlər- qarşısında, ən başlıcası isə inklüziv prinsipləri həyata keçirən təhsil müəssisələrinin rəhbərləri qarşısında ciddi vəzifələr qoyur.

Ümumi təhsil müəllimləri korreksiya pedaqogikası, xüsusi və pedaqoji psixologiya sahəsində fəaliyyət göstərən mütəxəssislərin kompleks ixtisaslaşmış köməyinə ehtiyacı vardır.Çünkü onlar xüsusi təhsil ehtiyacları olan, ilk növbədə sağlamlıq imkanları məhdud olan uşaqların təliminə fərdi yanaşılmasını başa düşmək və həyata keçirmək iqtidarındadırlar. Pedaqoqların öyrənməli olduqları ən vacib məsələ – müxtəlif vərdişlərə malik uşaqlarla işləmək və hər kəsə tutarlı yanaşmada bu rəngarəngliyi nəzərə almaqdır.

Kütləvi və korreksiya məktəbi müəllimlərinin birgə səylərindən istifadə – Xüsusi təhsil ehtiyacları olan uşaqların xüsusi tələbatını ödəmək üçün ən səmərəli üsul- inkluziv sinidir. Ümumi və xüsusi pedaqoqların müxtəlif əməkdaşlıq və birgə təlim modellərinə ehtiyac vardır. Korreksiya məktəblərinin müəllimlərinin zəngin təcrübəsi-inklüziyaya metodik yardım mənbəyidir. Bu təcrübənin uğurlu tətbiqi maneələrin və məhdudiyyətlərin uşaqlarımızın imkanlarına və uğurlarına çevrilməsinə imkan verəcək.

Müasir şəraitdə təhsil müəssisələrinin inkluziv təhsilə hazır olmaması nəticəsində inklüziyanın imitasiyası və bu yolla inkluziv obraz ideyasının özünün nüfuzdan salınması təhlükəsi yaranır. İmitasiya təhlükəsi ondan irəli gəlir ki, müəyyən təşkilati şəraitdə inklüziv təhsil ən yüksək keyfiyyətli təhsil və tərbiyəvi proseslərdə ciddi dəyişiklik etmədən dəbə, populyar tendensiyaya çevrilə bilər. Ümumi təhsil sistemində inklüziya proseslərini inkişaf etdirən mütəxəssislər üçün əsas istiqamətlər Bu mərhələdə bütün iştirakçıların daxil edilməsi və müşayiət edilməsi prosesinin keyfiyyəti, uğurlu təcrübələrin təhlili, effektiv texnologiyaların axtarışı, psixoloji və sistemli dəyişikliklərin dinamikasının qiymətləndirilməsi olmalıdır.

Son zamanlar sağlamliq imkanlari məhdud olan uşaqlara təhsil xidmətlərinin göstərilməsi üçün müəllimlərin hazırlanması problemi kifayət qədər aktuallaşır. Belə ki, S.İ. Sabelnikova inklüziv təhsil müəssisələrinin müəllimlərinin peşəkar və şəxsi hazırlığı üçün lazım olduğunu qeyd edir :

- inkluziv təhsilin nə demək olduğunu, onun ənənəvi təhsil formalarından fərqi nədir;
- inkluziv təhsil mühiti şəraitində uşaqların yaş və şəxsi inkişafının psixoloji qanunauyğunluqlarını və xüsusiyyətlərini bilmək;
- uşaqların birgə təlim keçmələri üçün tədris prosesinin psixoloji və didaktik layihələndirmə metodlarının öyrənilməsi;
- təhsil mühitinin bütün subyektləri (ayrı-ayrılıqda və qrupda şagirdlərlə, valideyn-müəllim həmkarları, ixtisas və rəhbərlik) arasında pedaqoji qarşılıqlı fəaliyyətin müxtəlif üsullarını tətbiq etmək bacarığı.

Müasir pedaqogikada müəllimlərin hazırlığının müəyyən edilməsi üçün *peşə sərişt*əliliyi *a*nlayışı tətbiq edilir.

Hazırlıq strukturunda üç komponent müəyyən edilə bilər: idraki, şəxsi və fəaliyyət. Xüsusi, ümumpedqoji və peşə bacarıq və qabiliyyət qrupları, onun peşəkar fəaliyyətində psixoloji-pedaqoji təhsilin bakalavr pilləsində lazım olan bacarıq və rdişləri də qeyd edək. Kompetensiyaların idraki komponenti tədqiqatçıların fikrincə, özündə olan bilik sistemini əhatə etməlidir:

-insanı əhatə edən təbii və sosial mühitin, özünü dərk etməsini, dünyanın elmi mənzərəsinin bütöv şəkildə qavranılmasını xarakterizə edən metabiliklər tələbənin elmi dünyagörüşünün formalaşmasına kömək edir;

-təhsilin, o cümlədən sağlamlıq mədəniyyətinin kulturoloji xüsusiyyətləri haqqında ümumpeşəbilikləri, təhsilalanların təlimi, tərbiyəsi və inkişafı üzrə əsas nəzəriyyə və konsepsiyaları, təlim prosesinin təşkili formaları, fəaliyyətin fəallaşdırılması texnologiyaları, şəxsiyyətin hərtərəfli inkişafının qanunauyğunluqları haqqında psixo-loqo-pedaqoji biliklər;

-şəxslərin psixoloji-pedaqoji xüsusiyyətləri haqqında xüsusi biliklər

-inteqrasiya olunmuş təlim nəzəriyyəsi və praktikasında, onun forma və modellərində inkişafında yayınmalar olan şəxslərin psixoloji-pedaqoji xüsusiyyətləri haqqında xüsusi biliklər; psixofiziki inkişafın mövcud pozulmalarının korreksiyası və təzminatı, təhsilalanın cəmiyyətə inteqrasiyası əsasında uşağın şəxsiyyətinin inkişafı haqqında; xüsusi və inteqrasiya olunmuş təhsil sistemində pedaqoqun fəaliyyətinin xüsusiyyətləri;

-xüsusi və inkluziv təhsil prosesinin təşkili və məzmununun nəzəri, metodoloji, texnoloji əsasları, onların yaş və fərdi xüsusiyyətlərinə uyğun müxtəlif inkişaf pozuntuları olan uşaqlarla bağlı vahid fənn bilikləri;

-sağlam həyat tərzinin əsasları, onun komponentləri haqqında biliklər sistemi, peşə fəaliyyətində sağlamlığa qənaət edən təhsil texnologiyalarının (Sağlamlaşdırıcı Təhsil Texnologiyalrı) mənimsənilməsi, şəxsi təhlükəsizlik və ətraf aləmin təhlükəsizlik tədbirləri;

-Uşaq hüquqları və əlillərin hüquqları haqqında beynəlxalq və yerli sənədləri bilmək, onları peşəkar fəaliyyətlərdə tətbiq etməyə hazır olmaq;

-elmi araşdırmanın təşkili prinsiplərinin, peşəkar məsələlərin yeni optimal həllərinin tapılması bacarığının başa düşülməsi; Global kompüter şəbəkələrində informasiyanın əldə edilməsi, saxlanılması, emalının əsas metod və vasitələrin mənimsənilməsi, onların toplanması, sağlamlıq vəziyyəti, sağlamlıq imkanları məhdud olan uşaqların fərdi xüsusiyyətləri, xəstəlikləri və inkişaf tarixi haqqında biliklər əldə edilməsi, işlənilməsi üsullarına yiyələnməsi.

Səlahiyyətli şəxsin komponentlərinə daxildir:

-inkişafında pozulmalar olan uşaqlarla işləməyə hazır və hazır olma, peşə biliklər dəyərini anlama, pedaqoji əməkdən məmnun olma, pedaqoji fəaliyyətdə subyekt-субъектных münasibətlərinin priorttet olasını anlamaq, sağlamlıq dəyərlərini başa düşmək və ona məsuliyyətli münasibət bəsləmək;

-fərdin özünün sosial birliyin, onun yerləşdiyi sosial mühitdə öz yerinin və rolunun bir parçası kimi dərk etməsi, Peşəkar və sosial-mədəni sahələrdə sosial funksiyaların və rolların yerinə yetirilməsinə hazır olması, gələcək Bakalavrın təhsilalanlara münasibəti ilə səciyyələnən peşəkar istiqamətləndirilməsi (qayğı, sevgi, uşağın şəxsiyyətinin inkişafına yardım edilməsi və onun fərdiliyinin maksimal şəkildə özünü aktuallaşdırması) kollektivə (şəxsi anlayışa hazır olması, peşəkar etik prinsiplərə riayət edilməsi və s.); özünü təkmilləşdirməyə və peşəkar fəaliyyət sahəsində özünü reallaşdırmağa ehtiyac duyulması ilə bağlı özünə istiqamətlənmək;

-şəxsi keyfiyyətlər: analitik, tənqidi təfəkkürün; diqqətin çevikliyi; tamlıq, təsəvvürlərin dəqiqliyi; özünənəzarət və özünənəzarət; stresə davamlı keyfiyyətlər(fiziki məşq, öz emosiyalarını və davranışlarını idarə etmək bacarığı), optimizm, özünə inam, məsuliyyət, sistem vasitəsilə sağlamlıq mədəniyyətinin formalaşmasının şəxsi nümunəsi ümumbəşəri dəyərlər və s.;

-şəxsiyyətin öz vəziyyətini, imkanlarını dərk etməsi, öz fəaliyyətini qiymətləndirməsi, öz hərəkətlərini vaxtında tənzimləməsi, onları təkmilləşdirməsi.

Pedaqoji praktik fəaliyyət sistemini özündə ehtiva edən kompetensiyaların fəal komponenti aparıcı fəaliyyət əlamətinə görə sistemləşdirilmiş üç bacarıq qrupu ilə təmsil olunur. Bunlar xüsusi, ümumtəhsil və peşəkar bacarıq və vərdişlərdir.

Müəllimin xüsusi bacarıq və vərdişləri inklüziv təhsildə üst-üstə düşən uşaqların psixoloji-pedaqoji müşayiətinin bu və ya digər fəaliyyət növlərinin yerinə yetirilməsini təmin edir. Fəaliyyətin tərkib hissəsinin strukturunda təşkilatçılıq, analitik, layihələndirmə, proqnozlaşdırma, kommunikasiya, tənzimləmə-korreksiya, sağlamlığa qənaət, qiymətləndirmə kimi ümumtəhsil və peşə bacarıq və vərdişlər də vacibdir.

Müəllimin səriştəlilik komponentlərinin məzmununu ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, yalnız koqnitiv, şəxsi və fəal komponentlərin vəhdəti, onların qarşılıqlı əlaqəsi və qarşılıqlı əlaqəsi uşaqların ailə üzvlərinin psixoloji-pedaqoji müşayiəti sahəsində uğurlu peşə fəaliyyəti üçün şərt olacaqdır.

Ədəbiyyat

1. Бонин О.В. К проблеме подготовки педагогических кадров в сфереинклюзивного образования: специфика профессиональной компетентности 2013. № 1. С. 49–51.

2. Борисова Н.В. Инклюзивное образование:право,принципы,практика Москва: Перспектива, 2009. 127 с.

3. Малярчук Н.Н. «Острые углы»инклюзивного образования учащихся с ОВЗ. 2016. № 51–6. С. 235–241.

4. Малярчук Н.Н. Проблемы инклюзивного образования в России 2015. № 2. С. 72–78.

5. Медова Н.А. Инклюзивное образование в схемах и таблицах: методическое пособие Томск, 2012. 24 с.

6. Сабельникова С.И. Развитие инклюзивного. 2009.1. С. 42–54.

İNKLUZİV MÜHİTDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NİTQ LƏNGİMƏSİ VƏ ONUN ARADAN QALDIRILMASI

Səadət Əliyeva
Bakı Dövlət Universiteti Qazax filialı
mursaqulova@gmail.com

Summary

If a child avoids communicating after a certain age, does not understand some things and does not understand others, does not follow simple instructions, is over two years old but has less than 50-60 words, if his speech is not clearly understood by other people, then there are delays in the child's speech. In order to develop the speech of a child with speech delay in an inclusive environment, the causes of speech delay should be investigated and teachers should approach these children individually with certain tasks.

Key words: *child, speech delay, vocabulary, games, motivation*

Резюме

Если ребенок после определенного возраста избегает общения, не понимает одних вещей и не понимает других, не выполняет простых инструкций, старше двух лет, но имеет менее 50-60 слов, если его речь непонятна другим людям, то наблюдаются задержки речи ребенка. Для развития речи ребенка с задержкой речи в инклюзивной среде необходимо исследовать причины задержки речи и педагогам подходить к этим детям индивидуально с определенными заданиями.

Ключевые слова: *ребенок, задержка речи, словарный запас, игры, мотивация.*

Məktəbəqədər yaşlı uşaqlarda nitqin ləngiməsi valideynləri, tərbiyəçiləri, müəllimləri narahat edən problemlərdən biridir. Əgər uşaq ünsiyyətə girməkdən çəkinirsə, adını çağırdıqda dönüb baxmırsa, bəzi şeyləri anlayıb bəzilərini anlamırsa, verilən sadə göstərişləri etmirsə, 2 yaşını keçib lakin söz ehtiyatı 50-60-dan azdırsa, 4 yaşındadır lakin, nitqi digər insanlar tərəfindən aydın başa düşülmürsə, deməli uşağın nitqində ləngimələr mövcuddur.

Bəzən valideynləri el arasında deyilən “oğlan uşaqları gec dil açar”, yaxud uşağın valideynləri də kiçik yaşlarında gec dil açıb, gec danışmaq bizim nəsildə irsidir kimi yanlış fikirlər onları arxayın salır.

Nitq ləngiməsinin səbəbləri nədir?

- İrsi faktorlar. Əgər uşağın atası, anası, bacı və qardaşında vaxtilə nitq ləngiməsi, nitq pozğunluğu olubsa uşaqdakı bu problemi irsi faktorlara bağlamaq olar.

- Uşağın televiziya, kompyuter qarşısında uzun müddət vaxt keçirməsi. Müxtəlif kanallarda uşaqlarla bağlı bir çox verilişlər, cizgi filmləri göstərilsə də televizora çox baxan, kompyuter və telefonla uzun müddət oynayan uşağın nitq və diqqət inkişafında gerilik müşahidə edilir.

- Evdə uşaqla ünsiyyətin qurulmaması. Nitq inkişafı üçün kəlmələrin, sözlərin qarşılıqlı şəkildə insanların bir-birinə ötürməsi və eşidilməsi mühüm şərtlərdən biridir. Çünki, uşaq eştdiyini təkrarlamasa da eşitdiyi fərqli sözlər onun yaddaşına yazılır. Uşağın ev şəraitində onunla az ünsiyyət quran, az dialoqa girən anadan başqa digər insanları görməməsi nitqində ləngimələrə gətirib çıxarar.

- Uşağın eşitməsində problem olduqda, autizm, əqli inkişafın geri qalması və bu kimi hallar da onların nitq inkişafında gecikmə hallarını yaradan səbəblərdən biridir.

Bəzən uşaqda nitq ləngiməsi daha çox autizm sindromu ilə əlaqələndirilir, müəllim və valideynlərdə uşağın autizm olması ilə bağlı şübhələr yaranır. Uşaqda nitq ləngiməsinin müşahidə edilməsi ilə onda autizm sindromunun olması barədə fikir söyləmək çox yanlışdır. Çünki autizm sindromlu uşaqların sifət quruluşlarında, fizioloji görünüşlərində fərqlər hiss olunur.

İnkuliziv mühitdə nitq ləngiməsi olan uşağın nitqini inkişaf etdirmək üçün nitqin ləngimə səbəbləri dəqiq araşdırılmalı, uşağa psixoloq, həkim, loqoped tərəfindən dəqiq diaqnoz qoyulduqdan sonra uşağa uyğun müalicə təyin edilməlidir. Ümumilikdə isə inkuliziv mühitdə nitq ləngiməsi olan uşağın nitqini inkişaf etdirmək üçün müəllimlərə aşağıdakıları etmək tövsiyə olunur.

- Uşaqlarla oyunlar oynamalıyıq. Uşaqlar oyun şəraitində daha sərbəst və rahat olurlar.

Tədqiqatlar göstərir ki, uşaqlarla tez-tez oyunlar oynamaq, oyun zamanı onların dediyi sözlərə cəld reaksiya vermək onların nitqini inkişaf etdirir.

- Uşaqları danışmağa motivasiya etməliyik. Uşağın qarşısına seçimlər qoymalı, bəyəndiyi, istədi-

yi obyekti, əşyanı özü götürməyə və seçimini müdafiə etməyə sövq etməliyik. Məsələn, uşağın qarşısına iki cizgi filmi diski qoymalı, uşaq sevdiyi cizgi filmini seçdikdən sonra ona bu filmə nə üçün baxmaq istədiyini soruşmaq lazımdır. Yaxud nitq ləngiməsinin daha ağır hallarında uşağın hansısa sevdiyi oyuncağı və ya şirniyyatı bağlı bir qutuya qoymaq, uşaq ünsiyyətə girib "aç" dedikdə qutunu açıb istədiyini verməklə onları danışmağa motivasiya edə bilərik. Mimika və işarələrlə göstərdikdə isə onun istədiyini etməmək lazımdır. Çünki, ünsiyyət qurmadan uşağın istədiklərini etsək onda danışmağa ehtiyacı olmaz.

- Uşaqları araşdırmağa sövq etmək. Hər hansı bir mətni, nağılı oxuduqdan yaxud uşaqlara

aid bir filmi göstərdikdən sonra həmin materiala uyğun uşaqlara bir neçə sual verərək, həmin araşdırmanın sualları, siyahısı uşaqlara təqdim edilməlidir. Araşdırmanın aparılmasına valideyinləri, uşağın özündən böyük bacı, qardaşını da kömək məqsədilə cəlb etmək mümkündür. Nəticədə uşaqlar arasında bir-birləri ilə ünsiyyət qurmaq, sosiallaşma, bir-birinə yardım etmək bacarıqları formalaşdırmaq mümkündür.

- Uşaqlara PECS görüntülü əlaqə qurmaq sistemini tətbiq etmək. PECS sistemi amerikalı

psixoloq Andi Bondi və nitq üzrə mütəxəssis Lori Frost tərəfindən inkişaf etdirilmişdir. Bu metodun əsas mahiyyəti ondan ibarətdir ki, söhbəti, dialoqu böyük, valideyn, tərbiyəçi, müəllim yox uşaq idarə etməli və lider olduğunu hiss etməlidir və söhbət zamanı uşaq əldə etmək istədiyi bir şeyin-əşyanın, hansısa bir meyvəni, şirəni, oyuncağı əldə etmək üçün həmin obyektin şəkli ilə dəyişməyi bacarmalıdır. Məsələn, içmək üçün su yaxud çay istədikdə onun şəklini böyüyə verib həmin suyu, çayı əldə etməyi öyrənir. Bu metod danışa bilməyən, yaxud söz ehtiyatı olub, lakin davamlı olaraq ünsiyyətə girməyən hər bir uşağa tətbiq edilməlidir. Əvvəl öz istəyini tək bir şəkillə başa salan uşaq daha sonra şəkilləri ayırmağı, cümlələr qurmağı mənimsəyəcəkdir. (https://nationalautismresources.com/the-picture-exchange-communication-system-pecs/)

- Uşaqlarda təqlid etmək bacarığını inkişaf etdirməliyik. Bunun üçün onlara kitablar

oxumalı və bəzi hissələrini emosional şəkildə danışmalıyıq, çətin və yeni kəlmələrin şəklini göstərərk onları təkrar etməyi, daha sonra isə oxunan kitabdan hər hansı bir bölməni danışmağa sövq etməliyik. Bu tapşırığı 3 yaşdan yuxarı uşaqlara etmək daha məqsədəuyğundur. Əgər uşaq 3 yaşdan kiçikdirsə kitablardan heyvanların, nəqliyyat vasitələrinin şəkillərini göstərərək həmin obyektin səsini çıxarmalı və obyektin adını deməli uşaq bunu təqlid edənə qədər tapşırığı təkrar-təkar etməliyik.

Təqlid ictimai təcrübənin mənimsənilməsi yollarından biridir. O, ontogenetik inkişafın ilk mərhələlərində xüsusilə böyük əhəmiyyət kəsb edir. Ananın körpə uşaqla ilk ünsiyyəti onun təqlid yolu ilə sosial təcrübəni mənimsəməsi üçün əlverişli şərait yaradır. Yəni uşaq yaşlı adamları və başqa uşaqları təqlid etmək vasitəsilə müəyyən əşyalarla əməliyyatları, özünəxidmət vərdişlərini, davranış normalarını mənimsəyir, nitqəyiyələnir.

Uşağın yaşı artıqca sosial təcrübənin mənimsənilməsində təqlidin də rolu dəyişilir bir tərəfdən, emosional təcrübənin mənimsənilməsində oyun, təlim və əmək fəaliyyətinin əhəmiyyəti artır. Təqlid bu mürəkkəb prosesin ancaq bir cəhəti kimi meydana çıxır. Digər tərəfdən, uşağın bir şəxsiyyət kimi, formalaşması zəminində təqlidin məzmun və formasında mühüm keyfiyyət dəyişiklikləri baş verir. (Bayramov, Əlizadə, 2003, s.315)

Uşaqlarda nitq ləngiməsini daha kiçik yaşlarda aşkara çıxarmaq və aradan qaldırmaq üçün mütləq müəllimlər valideynlərə dəstək verməli, onları istiqamətləndirməlidir. (Ağayev, Rzayeva, Hüseynova, Vahabova, 2008 s.169)

Cəmiyyət uşaqların tərbiyəsi üçün valideynlərə daha yüksək tələblər versə də bu heç də uşaqların ehtiyacının ödənilməsinə yönəlir. Uşağın tərbiyəsi prosesini yaxşılaşdırmaq üçün daha səmərəli üsul və vasitələrin seçimində fikir müxtəlifliyi mövcud ola bilir, lakin valideynlərə köməyin zəruriliyində heç bir fikir ayrılığı yoxdur.

Ədəbiyyat

1. Ağayev, Ə.Ə., Rzayeva, Y.T., Hüseynova, T.M.,Vahabova, T.Ə. (2008). Sosial Pedaqogika, Bakı.

2. Bayramov, Ə.S., Əlizadə, Ə.Ə., (2003). Sosial psixologiya, Bakı, 354 səh.

3. (https:/nationalautismresources.com/the-picture-exchange-communication-system-pecs/)

İNKLÜZİV SİNİFLƏRDƏ QİYMƏTLƏNDİRMƏNİN APARILMASI YOLLARI.

Vüsalə Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
vusale2000@gmail.com

Summary

The last stage of organizing the learning process in inclusive classes is assessment. The assessment phase is considered as a difficult process as it is important for every learning process. In Azerbaijan, until now, traditional strategies are used in the assessment of inclusive classes. As we know, in traditional assessment strategies, children usually have to memorize difficult texts as well as demonstrate what remains in their memory through written or oral tests. Because this kind of assessment system does not take into account children's learning, it becomes a barrier not only for children with disabilities, but also for children without disabilities.

Key words: *inclusive class, child-oriented pedagogy, evaluation, children with disabilities, interests and needs.*

Резюме

Последним этапом организации учебного процесса в инклюзивных классах является оценивание. Этап оценивания считается сложным процессом, поскольку он важен для каждого процесса обучения. В Азербайджане до сих пор при оценке инклюзивных классов используются традиционные стратегии. Как известно, в традиционных стратегиях оценивания детям обычно приходится запоминать сложные тексты, а также демонстрировать то, что осталось в их памяти, с помощью письменных или устных тестов. Поскольку такого рода система оценивания не учитывает обучение детей, она становится барьером не только для детей с ограниченными возможностями, но и для типичных детей.

Ключевые слова*: инклюзивный класс, детско-ориентированная педагогика, оценка, дети с ограниченными возможностями здоровья, интересы и потребности.*

Təlim prosesində şagirdin qiymətləndirilməsi təhsil qərarlarının qəbul edilməsi üçün öyrənənin nailiyyətləri barədə məlumatların toplanması prosesidir. İnklüziv təlim prosesində qiymətləndirmə həm müəllim, həm də şagirdləri təlim prosesinə dair məlumatlarla təmin edir. Bu cür məlumatlar öyrənmə prosesinin keyfiyyətinin təkmilləşdirilməsində istifadə edilir. Qiymətləndirməni müxtəlif hallarda istifadə edilə biləcək zəngin məlumat toplusu olmaqla aşağıdakı kimi ümumiləşdirə bilərik:

1.Müəllimin özünütəhlili- bu zaman müəllim dərs haqqında özünə suallar verir. Məsələn, bütün şagirdlər nəzərdə tutulan biliklərə yiyələnə bilirlərmi? Dərs planı nəzərdə tutulan təlim nəticələrini dəstəkləyirmi? Kim üçün nə yaxşıdır və nə yaxşı deyil? Fənni tədris etmək üçün daha yaxşı üsul varmı?

2. Şagirdin özünütəhlili üçün müəllim şərait yaratmalıdır və onlara özlərinə verəcəkləri suallara istiqamətləndirməlidir. Məsələn, mən necə öyrənirəm və ya qavrayıram? Daha nələri öyrənmək istəyirəm? Buna necə nail ola bilərəm?

3.Valideynlərlə ünsiyyət zamanı müəllim müxtəlif suallarla müraciət edə bilər. Şagird məktəbdə necə öyrənir? Şagird evdə necə öyrənir? Məktəb, şagird və müəllimlərin gözləntiləri nədir? Evdə öyrənməni məktəbdə öyrənmə ilə necə əlaqələndirə bilərik? Nailiyyətlərin qiymətləndirilməsinə aid suallara baxdıqda şagird qarşısına qoyulan təlim naliyyətlərini nə dərəcədə yerinə yetirib? və s. görürük.

İnklüziv qiymətləndirmə inklüziv təhsilin təməlində duran əsas prinsip və yanaşmalara istiqamətlənir. Müəyyənləşdirilmiş yanaşmalara əsasən şagirdlərin biliklərə yiyələnmə imkanlarının genişləndirilməsi və öyrənənlərin fərdi müxtəlifliyini nəzərə alaraq təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir edir. İnklüziv qiymətləndirmədə istifadə edilən strategiyalar və toplanan məlumatlar yalnız seçim, attestasiya, hesabatvermə və ya müqayisə kimi “ənənəvi” məqsədlərlə istifadə edilmir, həmçinin təhsilin bütün səviyyələrində nailiyyətlər və bərabərliyin artırılmasını təmin edir. İnklüziv təlimdə qiymətləndirmənin əsas elementlərinə baxdıqda aşağıdakıları görmək mümkündür:

- qiymətləndirmələr başa düşülən və əlaqələndirilmiş olur, öyrənmə prosesində məlumatlandırmaq əsas götürülür;
- şagirdlər mənimsədikləri biliklərin səviyyəsini müəyyənləşdirmək üçün qiymətləndirmə prosedurlarına cəlb olunurlar;
- summativ və formativ qiymətləndirmə yanaşmaları daxildir;

- nəzəriyyə və təcrübə inklüziv qiymətləndirməni koordinasiya edir və dəstəkləyir.(49)

Ənənəvi təlim prosesi dəyişdiyi kimi ənənəvi qiymətləndirmə strategiyaları da uşaqlara öyrəndiklərini nümayiş etdirməyə imkan vermədiyi üçün dəyişməyə məcburuq.

Təlim prosesində müntəzəm qiymətləndirmə strategiyalarına dəyişikliklərin edilməsindən başqa inklüziv müəllimlər, ənənəvi qiymətləndirmə strategiyalarını innovativ qiymətləndirmə strategiyaları ilə birləşdirirlər.

Belə ki, inklüziv qiymətləndirmə diaqnostik, formativ və summativ olaraq aparılır.

Təhsil sistemində diaqnostik qiymətləndirmə tədris ilinin əvvəlində, fənnə uyğun bölmənin başlanğıcında, şagird sinfini və ya məktəbi dəyişdikdə biliyinin ilkin qiymətləndirməsi məqsədi ilə həyata keçirilir.

Formativ qiymətləndirmə iki məqsəd üzrə aparılır. Məsələn, öyrətmə üçün qiymətləndirmə hədəfi və öyrənmə üçün qiymətləndirmə hədəfinə uyğun olaraq aparılır.

İnklüziv siniflərdə əlilliyi olan və olmayan şagirdlərin qiymətləndirilməsinə bir sıra tələblər verilir. Bu tələbləri müəllim bilməli və qiymətləndirmə zamanı nəzərə almalıdır:

- Nailiyyət və sərf edilmiş qüvvəni nəzərə alan fərdi meyarlardan istifadə etməli;
- Gündəlik qiymətləndirmə aparılmalı;
- Testlərə cavab verə bilməyən şagirdlərin sərbəst işlərini qiymətləndirməli;
- Müsbət qiymətləndirməyə hədəflənməli;
- Həll edə bilmədiyi tapşırığın üzərində dəyişikliklər etməli;
- Dəyişdirilmiş tapşırıq əsasında qiymətləndirmə aparmalı.

Burada formativ qiymətləndirmə müəllimləri öyrənilənləri şagirdlərin necə qavramasına dair cari informasiya ilə təmin edir. Beləki, aparılan bütün prosedurlar müəllimlərin hər kəsin öyrənməsini təmin etmək üçün təcrübələrini hər zaman tənzimləmələrinə imkan verir. İnklüziv təlimdə formativ qiymətləndirmənin məqsədi şagirdlərin öyrənməsi və təkmilləşməsinə, qarşısına qoyulan biliklərə yiyələnmə hədəflərinə nail olmasına dəstək olmaqdır. İnklüziv formativ qiymətləndirmə əks-əlaqə, motivasiya, rəhbərlik, öyrənmə dəstəyinə istiqamətlənir.

Araşdırmalara əsasən qeyd edə bilərik ki, formativ qiymətləndirmə uşağın özü və yaşıdları tərəfindən qiymətləndirmə, əks etdirmə, şagirdlərin öz hədəflərini müəyyən etməsi, öyrənmək üçün məsuliyyətin stimullaşdırılmasına əsaslanır. Formativ qiymətləndirmə prosesində müəllimin rolunu belə müəyyənləşdirə bilərik. Məsələn, özünüqiymətləndirmə üzrə model və təlim bacarıqları, öyrənmə prosesinin monitorinqi və qeyri-müəyyənlik halları ilə mübarizə aparmaq üçün rəhbərlik etməkdən ibarətdir.

İnklüziv təlimdə summativ qiymətləndirmənin məqsədi öyrənilənlərin qiymətləndirilməsidir. Belə ki, summativ qiymətləndirmə səriştəni ölçmək və göstərməkdən ibarətdir. Summativ qiymətləndirmə attestasiya, nailiyyətlər, peşəkar tanınma, standartların saxlanmasına əsaslanır. Ənənəvi qiymətləndirmədə olduğu kimi inklüziv summativ qiymətləndirmə də bölmə və ya proqramın sonunda aralıq və yekun imtahanla həyata keçirilir.

Qiymətləndirmə zamanı ehtiyac olduqda müxtəlif sahələrdən olan mütəxəssis, yəni, psixoloq, ümumi profilli müəllim, fizioterapevt, sosial işçi və s. dəstək qrupu işə cəlb oluna bilər.

Ümumiyyətlə, inklüziv qiymətləndirmə əməkdaşlıq və çoxşaxəli iş prinsiplərinə əsaslanmalıdır. İnklüziv təlim prosesində şagirdlərin ehtiyaclarını qarşılayacaq müxtəlifliyin əldə edilməsi qarşılıqlı əməkdaşlığı və ümumi tədris təcrübəsinin əldə edilməsinə yönəlmiş inklüziv prosesin dəstəklənməsidir.

Ədəbiyyat

1. Əliyev, İ.H.. Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər) dair sərəncam.

2. Əhmədov, H. (2010). Azərbaycan Təhsilinin İnkişaf Strategiyası. Bakı: Elm.

3. "Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma". UNICEF, 2012.http://www.unicef.org/ceecis/IEPosition Paper_ENGLISH.pdf

4. "Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi qaydaları"nın və "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 24 may 2010-cu il tarixli 274 N-li fərmanı.

5. Hüseynova, N.T., Aslanova, S.R., (2018). Xüsusi psixologiya. Dərslik. I CİLD. Bakı: ADPU-nəşriyyatı. 278 s.
6. Hüseynova, N.T., Rüstəmova, L.H., (2007). Xüsusi pedaqogika, Bakı: ADPU-nəşriyyatı. 147 s.
7. Hüseynova, N.T., Məlikov, M.Ş. (2018). Xüsusi pedaqogikanın müasir problemləri. Dərs vəsaiti. Bakı: ADPU-nəşriyyatı. 230 s.
8. Hüseynova, N.T. (2014). İnklüziv təhsil. Bakı

İNKLÜZİV TƏHSİLDƏ PEDAQOQUN HƏYATA KEÇİRDİYİ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ STRATEGİYALARI

Gülşən Eminova
ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının baş müəllimi, p.ü.f.d.
eminovagulsn@gmail.com

Summary

An inclusive classroom environment is a holistic combination of physical, emotional and social factors. Ensuring psychological safety in such classes is of the most importance. Students should feel safe, respected and free from any form of discrimination or violence. In such an environment, it plays an important role in making each student feel welcome, valued, and empowered to learn their own skills in the best way possible. To create a learning environment that truly supports inclusion, teachers must know the characteristics of their learning needs and use a number of strategies designed to over come difficulties. They should do monitoring and evaluation strategies used in inclusive education very important. Evaluating and improving inclusive practicesis not a one-timetask. It is an ongoing commitment to improve the educational experience for all students. By committing to regular feedback, self-evaluation, and professional development, teachers can ensure that their classrooms remain vibrant, inclusive spaces that meet the unique needs of each student. Special approaches in the inclusive classroom not only help the development of students with special needs, but also in still important values in their peers. Also, in the process of inclusive education, teachers adopt pedagogical strategies that allow effective support for their intellectual development, taking in to account the individual characteristics of students.

Key words: *inclusive education, monitoring, evaluation, feedback, competent teacher, student feedback.*

Резюме

Инклюзивная среда в классе представляет собой целостное сочетание физических, эмоциональных и социальных факторов. Обеспечение психологической безопасности на таких занятиях имеет первостепенное значение. Студенты должны чувствовать себя в безопасности, пользоваться уважением и быть свободными от любой формы дискриминациииили насилия. В такой среде обучение играет важную роль в том, чтобы каждый учащийся чувствовал себя желанным, ценным и имел возможность освоить свои навыки наилучшим образом. потребности и использовать ряд стратегий, предназначенных для преодоления трудностей. Они должны это делать. Стратегии мониторинга и оценки, используемые в инклюзивном образовании, очень важны. Оценка и улучшение инклюзивной практики – это не одноразовая задача. Это постоянное обязательство поулучшению образовательного опыта для всех студентов. Принимая меры по регулярной обратной связи, самооценке и профессиональному развитию, учителя могут гарантировать, что их классы останутся яркими, инклюзивными пространствами, отвечающими уникальным потребностям каждого ученика. Особые подходы в инклюзивном классе не только помогают развитию учащихся с особыми потребностями, но и прививают важные ценности их сверстникам. Также в процессе инклюзивного образования учителя принимают педагогические стратегии, позволяющие эффективно поддерживать их интеллектуальное развитие с учетом индивидуальных особенностей учащихся.

Ключевые слова: *инклюзивное образование, мониторинг, оценка, обратная связь, компетентный преподаватель, обратная связь учащихся.*

İnklüziyaümumtəhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və onun bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. İnklüziv təlim mühitində hər bir şagirdin başqaları ilə birlikdə tədris prosesində iştiraketmə hüququnu nəzərdə tutur. İnklüziv təhsil cinsindən, etnik və dini mənsubiyyətindən, dilindən, yaş qrupundan, asılı olmayaraq, təhsildən məhrum olan bütün uşaqların öz həmyaşıdları ilə birgə ümumtəhsil məktəblərində eyni sinifəcəlb edilməsidir.

Artıq dünyanın bir çox ölkələrinin təhsil siyasətinin əsas prioritetlərindən biri olan inklüziv təhsil beynəlxalq prinsip və standartlara uyğunlaşdırılmışdır. Bu prinsiplərdən biri də təhsilin humanistləşdirilməsi və insan hüquqları ilə bağlıdır. Bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanaraq,

bir sıra beynəlxalq konvensiyalar, həmçinin milli qanunvericilik aktları və normativ-hüquqi sənədlər inklüziv təhsilin tətbiqini təmin edir. 1948-ci ildə qəbul edilmiş İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (İHÜB), bütün insanların eyni hüquqlara sahib olması fikrinə əsaslanan ilk beynəlxalq sənədlərdəndir. Hər bir fərdin hüquqlarını qoruyan bəyannamə 30 maddədən ibarət təsbit olunmaqla yanaşı həm də ümumbəşəri dəyərlərdir.(1.Məmmədov M.2018 səh 7)

İnklüziv təhsil sahəsində müasir dövrümüzün ictimai məlumatlılığınınartırılması, maarifləndirilməsi və inkişafı ilə bağlı qərarlar Azərbaycan Respublikasının təhsil qanunvericiliyində həmçinin də Dövlət proqramlarında əks olunmuşdur.İnklüzivlik təhsil dünyasında güclü bir terminalogiyadır. Bu, qəbul, dəstək və hər bir şagirdin özünü xoş, bacarıqlı və dəyərli hiss etməsinə dair öhdəliyi ifadə edir. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na uyğun hazırlanmış müvafiq təlim strategiyalarından istifadə edilməsi əlilliyi olan uşaqların sosial, psixi, fiziki və konqnitiv inkişafını təmin etməklə onları sinif kollektivinin inteqrativ bir üzvünə çevirir.İnklüziv təhsil təkcə fərqli ehtiyacları olan şagirdləri eyni sinifdə yerləşdirməkdən ibarət deyil; təhsilin mahiyyətini dəyişdirərək hər kəsə xitab etməkdən ibarətdir.

İnklüziv təhsil yeni anlayış olmasa da, daim inkişaf edir,təlim strategiyalarını təkmilləşdirir.Bu müasir baxışlar təhsilin daha ədalətli, əlçatan və fərdi ehtiyaclara uyğunlaşdırılmasına yanaşmanı da artır. Bu təkamülün inkişaf tendensiyasını başa düşmək pedaqoqlara qarşıdakı problemlərə və imkanlara hazırlaşmaqda kömək edə bilər. İnklüziv təhsilin əsas elementləri bir-biri ilə sıx bağlıdır. Bərabərliyin təmin edilməsi fərqliliyin tanınması və əlçatanlığın rahat olması mənasına gələ bilər. İcma hissini inkişaf etdirmək hər bir şagirdin fərqli güclü tərəflərini başa düşmək və tədris prosesində istifadə etməkdən irəli gələ bilər. Bu məqamlar nəzərə alındıqda,tanındıqda və dəstəkləndikdə, inklüziv təhsil həqiqətən inkişaf edə və təkcə ayrı-ayrı şagirdlərə deyil, bütövlükdə cəmiyyətə böyük faydalar verə bilər.

İnklüziv təhsilin monitorinqi, qiymətləndirilməsi və təkmilləşdirilməsi hər bir təhsil təşkilatçısını düşündürən vacib amillərdir.İnklüzivlik sadəcə bir yanaşma,münasibət deyil; bir tətbiqdir. Hər hansı bir tətbiqdə olduğu kimi, onun effektivliyi davamlı qiymətləndirmə və təkmilləşdirmə ilə artır. İnklüziv təcrübələrin davamlı qiymətləndirilməsi təkcə çatışmazlıqlarıgöstərmək deyil, həm də nəyin işlədiyini müəyyən etmək, strategiyaları dəqiqləşdirmək və hər bir şagirdin faydalanmasını təmin etməkdir.

Effektiv inklüziv təhsil mühitinin yaradılması,idarəedilməsi üçün təcrübələrin müntəzəm monitorinqi, qiymətləndirilməsi və təkmilləşdirilməsi vacibdir. Bunlar müəllimlərə nəinki həyata keçirməyə, həm də inklüzivliyitəkmilləşdirməyə imkan verən strategiyalar yaradır. Bu davamlı strategiyalar şagirdlərinin müxtəlif ehtiyacları ilə inkişafını təmin edir.

Sinifin effektiv idarəolunması üçün pedaqoqların diqqət yetirməli olduqları məqamlar.

Sinifin effektiv idarə edilməsində pedaqoq müvafiq texniki vasitələrdən istifadə etməklə şagirdlərin nizam-intizamlı və hazırlıqlı olmalarını təmin etməlidir. Müəllim şagirdə onun davranışı və fəaliyyətinin necə olması barədə "Hamıya hörmətlə,diqqətləyanaşmaq","Məsuliyyətli olmaq", "Təhlükəsizlik qaydalarına riayət etmək" kimi təlimatları verməklə yanaşı, onları necə icra etdiklərini müşahidə altında saxlamalıdır. İnklüzivlik strategiyalarının effektivliyini qiymətləndirməyin birbaşa yolu bunu hər gün yaşayanlara, yəni şagirdlərə müraciət etməkdən keçir (4.Eminova G.2021 səh 87). İnklüzivsiniflərdə dərs keçən müəllimlər müxtəlif əlilliyi, fərqliliyi olan uşaqlar üçün aşağıda göstərilən məqamlara,strategiyalaradiqqət yetirməlidirlər:

- Şagirdlərin rəyi - sinifdə inteqrativliyin olması şagirdlərin öz təcrübələri ilə bağlı hissləri, fikirləridir.
- Anonim sorğular- şagirdlərin öz tədris metodları, sinif mühiti və iştirak səviyyələri ilə bağlı hisslərini ifadə edə biləcəkləri sorğular.
- Fokus qrupları- sinif təcrübələrinin xüsusi aspektlərini müzakirə etmək üçün şagirdlərdən ibarət kiçik qruplar təşkili.
- Rəy sessiyaları- şagirdlərin fikirlərini birbaşa bölüşmələri üçün xüsusi iclaslar təyin edilməsi və bunun hər kəsin sərbəst danışa biləcəyi təhlükəsiz məkana çevrilməsini təmin olunması.
- Refleksiya- tədris metodlarının təhlili.

İnklüziv siniflərdə dərs keçən müəllimlər yuxarıda qeyd olunan strategiyaların köməkliyi ilə tədris prosesi zamanı müsbət, mənfi və maraqlı olanları şagirdlərdən müxtəlif formalarda alaraq dərslərini

qiymətləndirir. Növbəti dərslərində müsbət mərhələləri nəzərə alır,maraqlı olan fikirləri dəyərləndirir, mənfi halların isə təkrar olunmamasına çalışır. Müəllimlər əsasən qayğıkeş mühitdə əməkdaşlıq etdikdə, öz sinif otaqlarında yeni yanaşmaları sınaqdan keçirməyə daha meylli olurlar. Yeni strategiyaları tətbiq edərkən sinif otağının reallığını nəzərə almağa, yerli kontekstə uyğun həll yollarını tapmağa və dərhal icra etməyə kömək edir. (2. “İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları”, 2019 səh 30) İnklüziv təhsil sahəsi dinamikdir. Effektiv qalmaq üçün müəllimlər öz bacarıq və biliklərini daim yeniləməlidirlər. Səriştəli müəllimlər öz təcrübəsində aşağıda qeyd olunan strategiyaları tətbiq edirlər:

• Tədris qeydləri -gündəlik tədris təcrübələri, qarşılaşılan çətinliklər və müşahidələrin qeydini aparır.

• Video qeydlər -tədris sessiyalarını qeyd edir və nəzərdən keçirir. Bu, sinif dinamikası və şagirdlərin iştirakı haqqında üçüncü şəxsin rəy bildirməsinə imkan verir.

• Həmkarların rəyi - həmkarlar sinfi müşahidə etməyə və konstruktiv tənqid etməyə dəvət etmək yeni fikirlər təmin edilməsi.

- Peşəkar inkişaf- inklüziv seminarlarda və ya kurslarda mütamadiiştirak.

• Onlayn kurslar - çoxsaylı platformalar xüsusi olaraq təhsildə inklüzivlik ətrafında hazırlanmış kurslar təklif edir. Bunlar müəllimin ehtiyaclarından asılı olaraq həm ümumi, həm də qabaqcıl səviyyədə ola bilər.

• Seminar və konfranslar- bu tədbirlərdə iştirak etmək və ya hətta təqdimat etmək ən son texnika və tapıntılarla tanış olurlar.

• Peşəkar şəbəkələr - inklüziv təhsilə yönəlmiş təşkilatlara və ya qruplara qoşulmaq zəngin resurs, anlayış və həmkar dəstəyini təmin edir. (3, 2004, səh 9)

Nəticə

İnklüziv təhsilin effektiv və aktual olması üçün təcrübələrin monitorinqi, qiymətləndirilməsi və təkmilləşdirilməsi hədəf deyil, davam edən peşəkar bir yoldur. İnklüzivtədrisi təşkil edən məktəblər və müəllimlər bu yola özlərini həsr edirlər və hər bir uşağın qabiliyyətlərindən, mənşəyindən və qarşılaşdıqlarıçətinliklərdən asılı olmayaraq mümkün olan ən yaxşı təhsili almasını təmin edirlər.

Ədəbiyyat

1.Əliyev, M. (2018). “İnklüziv təhsil”. (Məlumat kitabçası). Bakı

2. Crimes, P., Stevens, M., Cruz, A., Merkado,T., Ligaya, K., Cruz, S. (2019). “İnküziv təhsil üzrəmüəllim inkişafı proqramları”.

3.”Müəllimlərin inklüziv təhsil sahəsində potensialının artırılması” proqramı.Bakı 2004

4.Eminova G. İnklüziv təhsildə sinfin effektiv idarəedilməsinin məqsəd və əhəmiyyəti. Azərbaycan məktəbi | AzerbaijanJournal of EducationalStudies | 2021. №4

5. http://as-journal.edu.az

EMOSİONAL İNTELLEKTİN TƏDRİS PROSESİNDƏKİ ROLUNUN ƏHƏMİYYƏTİ VƏ PSİXOLOJİ TƏHLİLİ

Nəzrin Əsədova
DTX-nin Heydər Əliyev adına Akademiyası
asadova.nazrin94@gmail.com

Summary

Summarizing the information we mentioned in the article, we can conclude that although there have been great advances in the field of emotional intelligence research in recent years, there are also many serious difficulties. These difficulties are primarily theoretical and practical. Because the approaches of various researchers and many important propositions regarding this issue have not been clearly stated. Based on the study of models of emotional intelligence, this type of intelligence can be expressed as the ability to understand and control one's own and other's emotions. From this point of view, developing emotional intelligence and preparing development programs for the purpose of forming interpersonal relationships among students and increasing the effectiveness of teaching is one of the most important issues.

Key words: *emotion, emotional intelligence, cognitive, affective, educational process*

Резюме

Обобщая упомянутую нами в статье информацию, можно сделать вывод, что хотя в области исследований эмоционального интеллекта в последние годы наблюдаются большие успехи, существует и немало серьезных трудностей. Эти трудности носят прежде всего теоретический и практический характер. Потому что подходы различных исследователей и многие важные положения по этому вопросу четко не изложены. На основе изучения моделей эмоционального интеллекта этот тип интеллекта можно выразить как способность понимать и контролировать свои и чужие эмоции. С этой точки зрения развитие эмоционального интеллекта и подготовка развивающих программ с целью формирования межличностных отношений учащихся и повышения эффективности обучения является одним из важнейших вопросов.

Ключевые слова: *эмоция, эмоциональный интеллект, когнитивный, аффективный, образовательный процесс*

Psixikanın koqnitiv və emosional-affektiv sferaları arasındakı əlaqə problemi psixologiya elmində ən mürəkkəb və vacib məsələlərdən biridir. Bu tədqiqatların tarixi antik dövrlərə gedib çıxsa da, bu gün də öz aktuallığını itirməmişdir. Müasir elmdə isə bu problemin tədqiqi daha müasir anlayış olan "emosional intellekt" adı altında öz əksini tapmışdır. İntellekt və emosiyalar arasındakı əlaqəni araşdıran tədqiqatçılar təbii olaraq bu mövzuda mövcud ədəbiyyatları təhlil etməklə müvafiq nəticələrlə üzləşirlər. Çünki, bu təhlillər həm psixologiyanın inkişafının fəlsəfi dövründəki əsərlərin nəzərdən keçirilməsini, həm də problemlə bağlı müasir fikirləri ehtiva etməlidir. Bundan əlavə, bu məsələnin mövcud empirik tədqiqatlarını və tətbiqi aspektlərini qiymətləndirmək lazımdır. Həmçinin materialın təqdim edilməsinin məntiqi psixologiya elminin özünün tarixi kontekstinə uyğun olmalıdır. Beləliklə, Q.Ebbinhauz XIX əsrin sonu XX əsrin əvvəllərində bu kontekstdə mühüm mövqeylə çıxış etmişdir: "Psixologiyanın böyük bir keçmişi və çox qısa tarixi var" ([126]-dan sitat gətirilmişdir).

Məlumdur ki, psixologiya bir elm olaraq fəlsəfi biliklər çərçivəsində inkişaf etmişdir. Ağıl və hisslər arasındakı əlaqənin aktual psixoloji problem kimi tədqiqi ilk dəfə antik dövrdən başlayaraq filosoflar tərəfindən nəzərdən keçirilmişdir. Bu problemin sistemli şəkildə konkret elmi tədqiqi müasir dövrümüzdə həyata keçirilməsə də, görkəmli filosofların əsərlərində (bu və ya digər kontekstdə) emosiyalarla intellekt arasındakı əlaqə məsələsinə toxunulmuş və dərindən təhlil edilmişdir. Fəlsəfi əsərlərdə əksini tapan faktiki məlumatları açıqlamaq, eləcə də bu tədqiqatın metodoloji əsasını əsaslandırmaq üçün bu məsələyə dair fəlsəfi ədəbiyyatların qısa təhlilini aparmaq məqsədəuyğun görünür. Antik dövrdə filosoflar ruhu üç hissəyə ayırırdılar- arzu olunan, hiss və ağıl. Beləliklə, xüsusilə Platon ruhu ləzzətləri və iztirabları pak, ali, aşağı təbəqələrlə heç bir əlaqəsi olmayan, bədənin ehtiyaclarını ödəmək səbəbindən yaranan amil kimi təsnif etmişdi. Beləliklə, problemin inkişafının mənşəyində əvvəlcə psixi sferanın və ona xas olan "intellektual narahatlığın" insanın tələbat-motivasiya sahəsindən ayrılması planlaşdırılır.

Aristotel də mahiyyət etibarilə bu mövqeyə yaxın olaraq qeyd edirdi ki, "idrak prosesinin özü, hansı xarici praktiki motivlərlə bağlı olub-olmamasından asılı olmayaraq, nəzəri həqiqətin öyrənilməsi

üçün emosiyaların mənbəyini kimi çıxış edir”. Antik dövrün mütəfəkkirlərinin fikirlərinə əsasən “affektiv həyat daha az əhəmiyyət kəsb edirdi və ümumiyyətlə təfəkkürə tabe idi”.

Təhlil olunan problemin sonrakı inkişafı isə əsasən qnoseologiyaya uyğun aparılmışdır. Bu dövrlərdə rasionalizminin əsas nümayəndəsi olan R.Dekarta görə rasionalist metodunun mahiyyəti iki əsas prinsiplə nəticələnir. Birincisi, bilikdə bəzi intuitiv aydın, fundamental həqiqətlərdən başlamaq lazımdır; başqa sözlə desək, biliyin əsasında, R.Dekarta görə, intellektual intuisiya olmalıdır. İkincisi, ağıl bu intuitiv baxışlardan bütün zəruri nəticələri çıxarılmasını ehtiva edirdi. Digər vacib amil deduksiyadır ki, bu da ağlın hərəkəti olub, onun vasitəsilə müəyyən müddəalardan müəyyən nəticələr çıxarılır və məntiqi nəticələr əldə edilir. Deduksiya, R.Dekarta görə, zəruridir, çünki nəticə həmişə aydın və dəqiq şəkildə təqdim edilə bilməz. Buna yalnız hər bir addımın aydın və dəqiq dərk edilməsi ilə düşüncənin tədricən hərəkəti ilə nail olmaq olar. Bu metodun işlənməsinə holland filosofu B.Spinozanın əsərlərində də rast gəlirik. O, da R.Dekart kimi rasionalizm tərəfdarı idi. B.Spinozaya görə hissi təmsilçilik, biliyin birinci, ən aşağı növünü təşkil edir. Hissi təmsilçilik iki qavrayış yolundan ibarətdir. Onlardan birincisini B.Spinoza qeyri-müəyyən və ya nizamsız təcrübə adlandırırdı. Bu təcrübə insan həyatının ən geniş sahəsini əhatə edir, çünki heç bir insan belə təcrübə olmadan heçnə edə bilməz. Lakin həqiqətlərin, yaxud B.Spinozanın dediyi kimi ideyaların eksperimental bilikdə əldə edilən nəzəri dəyəri azdır ki, B.Spinoza bunu eksperimental biliyin məhdudiyyətlərini təcrübənin universallığa və zərurətə malik olmaması ilə izah edirdi.

Dəqiq bilik yalnız ikinci növ bilikləri təşkil edən anlama və düşünmə mərhələsində mümkündür. Ağılın fəaliyyəti ümumi anlayışların fəaliyyəti ilə bağlıdır. Biliyin iki formasını (hissi və rasional) müəyyən edən B.Spinoza onların işlədiyi alətlər arasında aydın fərq qoyur. Hissi idrakın nəticələri (sensor ideyalar) çox mürəkkəb tərkibə malikdir, çünki onlar insan bədəninin qavrayış prizmasından qaçılmaz olaraq xarici cisimlərin təbiətini əks etdirir. Bu idrak metodunun nəticəsi olaraq, xarici cisimlərin vəziyyəti haqqında fikirlər insanın öz bədəninin vəziyyəti haqqında fikirlərlə müxtəlif şəkildə qarışdırılır. Bu cür fikirlərdə obyekti subyektivdən ayırmaq olmaz. Məhz sensor ideyaların fərdi xarakteri də buradan qaynaqlanır.

Ümumi anlayışlar isə əşyaların öz obyektiv xüsusiyyətlərini əks etdirir. Beləliklə, əgər empirist F.Bekon həmişə ideyaların sensor məzmununu vurğulayırdısa, rasionalist B.Spinoza onların məntiqi mahiyyətini vurğulayırdı. B.Spinozanın yanaşmasına əsasən rasional bilik növü ilkin müddəalardan həqiqətləri çıxarmaq üçün deduktiv bir üsul olub, öz təbiətinə görə xarici aləmin təsvirlərini təmin edə bilməyən, ancaq fərdin subyektiv təcrübələrini əks etdirən anlayışlardan təşkil olunmuşdur (qorxu, ümidsizlik, melanxoliya, qayğı, sevgi və s.).

Rasionalizmlə müqayisədə irrasionalizm emosiyalar və intellekt arasında uçurum ilə xarakterizə olunur, hansı ki, burada emosiyaların ağıla tabe olmaması vurğulanır. İrrasionalizmdə qnoseoloji deyil, aksioloji yanaşma üstünlük təşkil edir ki, burada əsas prioritet intellektə deyil, mənəvi qiymət vermək bacarığına verilir. İrrasionalizm fəlsəfəsinin başqa bir əlamətdar xüsusiyyəti intellektin reallığı əks etdirmək qabiliyyəti kimi inkar edilməsidir. Bu fəlsəfəyə əsasən dünyanı həqiqi dərk etmək emosiyalar, intuisiya və iman vasitəsilə baş verir.

Deməli, fəlsəfədə emosiyalar və intellekt arasındakı əlaqəyə dair iki əsas fikir mövcuddur. Rasionalist yanaşma, ali təhsil kimi intellektin emosiyalar üzərində üstünlük təşkil etməsi ideyası ilə xarakterizə olunur. Üstəlik, emosiyalar varlığın həqiqi biliyinə və fərdin və bütövlükdə cəmiyyətin uğurlu fəaliyyətinə mane olur. İrrasionalizmdə vurğu affektiv sferanın prioritetinin xeyrinə dəyişir. Bununla belə, fəlsəfi fikrə açıq şəkildə hakim olan ümumi fikir bu psixi funksiyalararasında mürəkkəb vasitəçi əlaqələrin mövcudluğunun etirafıdır.

Son onillikdə psixoloji ədəbiyyatlarda sosial və emosional sahələrdə xüsusən də, emosional intellektin tədqiqi ilə əlaqəli bir çox araşdırmalar aparılmışdır. Bu baxımdan EI fenomeni böyük bir tədqiqatçı qrupunun diqqət mərkəzində olmuşdur. Emosional intellekt anlayışı ilk dəfə 1985-ci ildə U.Peynin doktorluq dissertasiyasında qeyd edilmişdir. Bu sahədə aparılmış növbəti tədqiqatlar 1990-cı ildə iki amerikalı tədqiqatçı C.Mayer (Nyu-Hempşir Universiteti) və P.Saloveyin (Yel Universiteti) konsepsiyasında öz əksini tapmışdır. Bu müəlliflər tərəfindən tərtib edilmiş EQ konsepsiyasında emosional intellekt dedikdə “emosiyaları dərindən dərk etmək, qiymətləndirmək və ifadə etmək, emosiya-

ları və emosional bilikləri anlamaq, fərdin emosional və intellektual inkişafına töhfə verən emosiyaları tənzimləmək bacarığı" nəzərdə tutulurdu. Məlumdur ki, insan təfəkkürü rasional amillərlə məhdudlaşmır. Emosiyalar və intellekt arasındakı əlaqələr müxtəlif aspektli olsa da, müəyyən bir nöqtədə kəsişir. Bu qarşılıqlı kəsişmə və təsirin kifayət qədər məhdud sferası isə məhz emosional intellekt anlayışını müəyyən edir" P. Salovey və J. Meyer deyir (Mayer J. D., Salovey P., Caruso D. R. 2020, 15).

Geniş mənada desək, EI emosiyaları tanımaq, anlamaq və idarə etmək bacarığını ehtiva edir. Bu, həm subyektin öz emosiyalarına, həm də digər insanların emosiyalarına aiddir. Bundan əlavə, EI insan qabiliyyətlərinin müxtəlifliyi haqqında mövcud elmi fikirləri genişləndirir və bununla da diferensial psixologiyanı zənginləşdirir. EI konsepsiyası həm də H. Qardnerin "çoxsaylı intellekt" nəzəriyyəsinə, xüsusən də onun şəxsiyyətlərarası və şəxsiyyətdaxili intellektə dair baxışlarına uyğun gəlir. Bəzi müəlliflər hesab edirlər ki, EI sonradan informasiya emalı prosesləri baxımından emosional hadisələrin izahı ilə əlaqələndirilə bilər ki, bu yanaşma isə artıq əqli intellektin elmi modellərinin inkişafında öz məhsuldarlığını göstərmişdir.

Müasir cəmiyyətdə psixologiya elmində emosional intellekt konstruksiyasının yaranmasına və inkişafına kömək edən müəyyən mədəni, iqtisadi və sosial şərtlər inkişaf etdirilmişdir. Bu baxımdan emosional intellektin təlim-tədris prosesindəki rolunun əhəmiyyəti üzrə araşdırmalar aparan yerli və xarici tədqiqatçılar iddia edirlər ki, məktəblərdə mütləq şəkildə emosional intellektin inkişafına yönəlmiş təlimlər keçirməlidirlər. Bu cür "emosional tərbiyə" birbaşa təlimatlandırma, müəyyən psixoloji mühitin yaradılması, şagirdlərin, tələbələrin, müəllimlərin və valideynlərin birgə fəaliyyətə cəlb edilməsi yolu ilə həyata keçirilə bilər. Ehtimal olunur ki, digər bacarıqlar kimi, EI də sistemli təlim vasitəsilə inkişaf etdirilə bilər. Buna görə də müəllimlər EI anlayışına daha çox maraq göstərirlər.

Bu sahədə tədqiqat aparan rus psixoloq V.Yurkeviç "emosional intellekt" anlayışını inkişaf və yaş psixologiyası sahəsində xüsusən də, istedadlı yeniyetmələrin inkişafı kontekstində araşdırmağa cəhd etmişdir. Müəllifin fikrincə, EI mücərrəd-məntiqi EI-dən daha çox inkişafa və məqsədyönlü təlimə meyllidir. Bunun üçün də, emosional səriştə və emosiyaların mənimsənil- məsini inkişaf etdirmək üçün reallığın qavranılması və emosional qiymətləndirilməsi prosesini təkmilləşdirmək çox vacibdir. EI-ni inkişaf etdirməyin əsas yolu məktəbəqədər dövrdə uşağın təxəyyülünü stimullaşdırmaqdır. EI-nin inkişafının əsas vasitəsi kimi rollu oyunlardan istifadə edilə bilər (Готтман Д., Деклер Д., 2021, 215.).Məktəbəqədər yaşda əqli intellektin hər hansı bir intensivləşməsi, bir qayda olaraq, EI-nin inkişafında çətinliklərə və nəticədə şəxsiyyətin deformasiyasına səbəb olur. Üstəlik, bu vəziyyət bir çox insanlar üçün, o cümlədən uşaqlıqda zehni inkişafı sürətlənmiş istedadlı uşaqlar arasında olanlar (uşaq vunderkindləri) üçün özünü həyata keçirməkdə çətinliklərin əsas səbəbidir. Məlum olub ki, xüsusi istedadlı uşaqların 95%-nin EI-nin fəaliyyətində bu və ya digər dərəcədə çətinliklər mövcuddur. Müəllif hesab edir ki, xüsusilə istedadlı uşaqların inkişafındakı demək olar ki, bütün problemlər bu və ya digər şəkildə Eİ-nin inkişafının olmaması ilə bağlıdır. Xüsusi istedadlı bir uşağın ünsiyyət və idrak fəaliyyətindəki çətinliklərinin əsas səbəbini EI problemləri təşkil edir.

The article talks about the birth in families in modern times of children who need special care, and the different reactions of parents to this process, shows the studies conducted by researchers in this area, and the different family models determined as a result. It was noted that the different responses of each family have a major impact on the future inclusion of children with special needs in inclusive education and educational achievements.

Key words: *a child with special needs, family models*

Резюме

В статье в современное время говорится о рождении в семьях детей, нуждающихся в особой заботе, и различной реакции родителей на этот процесс, показаны исследования, проведенные исследователями в этой области, и определяемые в результате разные модели семьи. Было отмечено, что различная реакция каждой семьи оказывает большое влияние на будущее привлечение детей с особыми потребностями к инклюзивному образованию и образовательные достижения.

Ключевые слова: *ребенок с особыми потребностями, семейные модели*

Bir ailədə xüsusi qayğıya ehtiyacı olan uşağın doğulması bütün ailə üzvlərinə, xüsusilə də valideynlərə təsir edir. Bu da öz növbəsində, həm ailədaxili münasibətlərə, həm də ailənin ətrafla olan sosial münasibətlərinə təsir edən bir vəziyyətdir.

Bəzi ailələr xüsusi qayğıya ehtiyacı olan övladı asanlıqla qəbul edir, bu vəziyyətə uyğunlaşır və normal həyatlarını davam etdirirlər. Bəzi ailələr isə uşaqlarının xüsusi ehtiyaclı olduğunu uzun müddət, bəzən isə heç vaxt qəbul edə bilmirlər.

Ailələrin uşaqdakı bu xüsusi vəziyyəti vaxtında qəbul etmələri erkən müdaxilə üçün çox vacibdir. Ancaq bəzi ailələrdə bu qəbul olunmama prosesi uşağın təhsilinə, sosial adaptasiyasına ciddi təsir edəcək miqyasda olur.

Övladının məhdudiyyətli olduğunu öyrənməsi valideynlərin psixologiyasında ciddi iz buraxır, hətta onlar şok keçirirlər. Şokdan sonra isə fərqli reaksiyalar göstərilməyə başlanır.

Valideynlərin övladının vəziyyətinə belə müxtəlif reaksiya verməsi ailənin xüsusiyyətləri, ailə üzvlərinin şəxsi keyfiyyətləri və ailənin yaşadığı cəmiyyətdəki sosial münasibətlərlə bağlıdır. Bu səbəbdən uşağın xüsusi ehtiyaclarına ailələrin reaksiyalarını araşdıran tədqiqatçılar müxtəlif modellər irəli sürmüşlər.

Bu sahənin tədqiqatçılarından biri olan F.Akkök özünün “Farklı özelliğe sahip çocuk ailelerle yapılan çalışmalar” adlı tədqiqatında ailələrin reaksiyalarını aşağıdakı dörd model üzrə təsnif edərək, onların izahını vermişdir:

- Davamlı kədər modeli;
- Çarəsizlik, gücsüzlük, anlamsızlıq modeli;
- Fərdi strukturlaşma modeli;
- Mərhələ modeli (Akkök, (2006), s.119-137).

Davamlı kədər modeli. Bu ailələrdə üzüntü daimi xarakter daşıyır. Sanki uşağın məhdudiyyətindən bu gün xəbər tutmuş kimi abu-havaya (psixoloji vəziyyətə) sahibdirlər. Belə ailələr uşaqlarına davamlı lazımi dəstəyi göstərirlər.

Çarəsizlik, gücsüzlük, anlamsızlıq modeli. Bu ailələr qurban roluna bürünməyi seçdikləri üçün əksər hallarda təklif olunan dəstəyi rədd edərək, problemin həllinə dair hər hansı bir qərar qəbul etmirlər. Həllə köklənmədikləri üçün, deyə bilərik ki, ən şanssız uşaqlar bu ailədə dünyaya gələnlər hesab edilir.

Fərdi strukturlaşma modeli. Bu qəbildən olan ailələrə çox nadir hallarda rast gəlinir. Onlar mövcud problemə yox, həllə kökləndikləri üçün şokdan sonra məntiqə əsaslanan addımlar atmağa və problemin həlli üçün müvafiq dəstəyin alınmasına başlayırlar. Erkən müdaxilə olunduğu üçün ən şanslı uşaqlar bu tip ailədə dünyaya gələnlər hesab olunur, ki gələcəkdə olnların inklüziv təhsil mühitinə cəlb olunması da məhz ailələrinin zamanında verdiyi düzgün reaksiya hesabına baş verir.

Mərhələ modeli. Adından bəlli olduğu kimi bu tip ailələr xəbəri aldıqdan sonra şokdan qəbul olunmaya qədər bir neçə mərhələdən ibarət uzun bir yol qət etmiş olurlar. Qeyd etmək lazımdır ki, müasir dövrdə xüsusi qayğıya ehtiyacı olan övlad sahibi ailələr arasında ən çox rast gəlinən reaksiya modeli - mərhələ modelidir. Bu ailədəki uşaqlar da qayğı ilə əhatələnir.

Günümüzdə mərhələ modelinə daha çox təsadüf edildiyi üçün onun daha geniş təsvir etməkdə fayda var. Bu reaksiya modelində ilk mərhələ şok, inkar, depressiyadır. Şokdan sonra inkar edən valideynin bu davranışı qeyri-müəyyənliyə qarşı müdafiə mexanizmindən qaynaqlanır. Ardınca gələn depresiya ana-atanın özünü “bacarıqsız” hesab etməsi duyğusundan qaynaqlanır. Valideynlər o anda xüsusi qayğıya ehtiyacı olan uşağı öz uğursuzluğu kimi qavrayırlar. Bu hal uşağın inkişafındakı kritik zamanlarda periodik olaraq təkrar-təkrar yaşanır.

İkinci mərhələ günahlandırma, qərarsızlıq, qəzəb və utanmadır. Valideynlər uşaqlarının xüsusi ehtiyaclı olmasını özlərinin hər hansısa bir xətaları ilə əlaqələndirirlər. Bu zaman qərarsızlıq duyğusu yaşayan valideyn uşağa uyğunlaşmaqda çətinlik çəkir.

Sonrakı qəzəb duyğusunda isə “niyə bizim başımıza gəldi?” kimi sualların verildiyi mərhələsidir. Bu etapda ana-ata bir-birinə qəzəblənərək boşanma həddinə qədər çata bilərlər. Övladının cəmiyyət tərəfindən qəbul edilməmə qorxusu ilə yaşanan qəzəb hətta onun ölməsini istəmə vəziyyətinə çatdırır. Adətən bu duyğuları yaşayan ana-ata utanma hissi ilə prosesə davam edirlər.

Utanma duyğusu ana-atanın xüsusi uşağa görə özlərinin cəmiyyət tərəfindən qəbul edilməmə, xor görülmə reaksiyası ilə qarşılaşma qorxusundan qaynaqlanır. Bu səbəblə onlar antisosial həyat sürürlər.

Üçüncü mərhələdə isə ana-atada müşahidə olunan davranışlar əhd, uyğunlaşma və nəhayət qəbuldur. (Metin, (2018), s. 15-35) .

Verdiyi reaksiyadan asılı olmayaraq əksər ailələr problemin və mövcud vəziyyətin həlli yolunda övladlarının gələcəyi naminə əllərindən gələni edərək bilik və bacarıqlarını təkmilləşdirməyə, bəzi planlar qurmağa və gələcək haqqında düşünməyə başlayırlar.

Modellərin təsnifatı bir daha sübut edir ki, ailə-məktəb əməkdaşlığında xüsusi qayğıya ehtiyacı olan şagirdin valideynləri məhz bu səbəbdən fərqi davranışlar sərgiləyirlər.

Effektiv məktəb-ailə əməkdaşlığı uşağın akademik uğurunun artırılmasında, sosial adaptasiyasında ailə-uşaq və müəllim-uşaq münasibətlərinin möhkəmləndirilməsində, bütövlükdə uşağın müsbət inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən səmərəli məktəb-ailə əməkdaşlığının inkişaf etdirilməsi və sağlamlıq imkanları məhdud uşaqlarının inklüziv təhsil prosesinə cəlb olunması işində ailə üzvlərinin fəal iştirakının təmin edilməsi çox vacibdir.

Beləliklə, söylənilənlərin təhlili aşağıdakı qənaətlərə gəlməyə əsas verir:

- Əməkdaşlıq prosesi zamanı ailə üzvləri, müəllimlər və ekspertlər ümumi məqsədə malik olmalıdırlar;

-Əməkdaşlıq prosesində ailə üzvləri və mütəxəssislərin hər biri bərabərdir və onların töhfələri vacibdir;

-Əməkdaşlıq prosesi bütün qərarlar üçün ortaq məsuliyyət tələb edir.

Xüsusilə vurğulamaq lazımdır ki, ailə-müəllim əməkdaşlığını çətinləşdirən amillərdən biri də onun peşə fəaliyyətinə aid olmayan gözləntilərin müəllimdən gözlənilməsi və müəllimin buna qarşı həddən artıq həssas davranması olur.

Müəllim ailənin diqqətini xüsusi qayğıya ehtiyacı olan uşağın edə bilmədiklərindən daha çox, edə bildiklərinə yönəltməlidir. Ancaq bunu edərkən uşağın vəziyyəti ilə bağlı çətin də olsa, dürüst olması lazımdır. Yəni ailəni psixoloji rahatlamaq üçün uşaq haqqında reallığı əks etdirməyən fikirlər səsləndirilməməlidir.

Müəllim edə biləcəyi və edə bilməyəcəyi köməyi açıq şəkildə ailəyə bildirməlidir. Problemin həlli yolunda ehtiyac olduğu halda müvafiq mütəxəssis dəstəyi almalı olduğunu deməlidir. Beləliklə, gözləntini aid olan ünvana yönəldərək həllinin tezləşməsinə kömək etmiş olur.

Bu səbəbdən də müəllimin bu balansı qoruya bilməsi üçün yuxarıda qeyd olunan ailə modellərini və onların davranışları haqqında məlumatlı olması vacibdir. Bu cür situasiyada müəllim ailə tipini tanıdıqda vəziyyətə hakim olaraq, həssaslıq balansını qoruya bilir.

Beləliklə də müəllim lazım olduğundan artıq enerji və zaman sərf etməli olmur. Unutmayaq ki, həssaslıq balansını qorumaq inklüziv mühitin məhsuldarlığını artırmaq üçün ən vacib nüanslardandır.

Müəllim həmçinin ailənin dəstək aldığı digər mütəxəssislərlə də əməkdaşlığa açıq olmalıdır. Çünki inklüziv mühitin qurulması bir komanda işidir. Məhz məhsuldar komanda işi onun təlim prosesində effektiv metodlardan istifadəsinə köməklik göstərir, işi həm asanlaşdırır, həm də şagirdin təhsilə inteqrasiyası və sosial adaptasiyasını zamanında, gecikmədən həyata keçirilməsinə dəstək olur.

Ədəbiyyat

1. Akkök, F. (2006). Farklı özelliğe sahip çocuk ailelerle yapılan çalışmalar. Ankara: Gündüz eğitim ve yayıncılık. 168 s.

2. İnküziv təhsil. (2018). Məlumat kitabçası. Bakı, RİİB, 40 s.

3. Metin, N. (2018). Özel gereksiniml çicukların aileye katılımı. Ankara: Anı yayıncılık. 124 s.

İNKLÜZİV TƏHSİLİN ŞAGİRD PSİXOLOGİYASINA TƏSİRİ

Günel Hüseynova
Şamaxı Çıraqlı kənd ümumi orta məktəb
gunelhuseyinova9@gmail.com

Summary

The article “The Impact of Inclusive Education on the Psychology of Students” talks about what inclusive education is, how it is implemented in schools and what rules are followed to make this process more effective, the importance of inclusive education and its impact on the psychology of students. Information about the impact on the development of knowledge, skills and habits of students, what achievements and results they lead to is also reflected. The method of applying inclusive education in schools of the Republic of Azerbaijan is also discussed.

Key words*: inclusive education, innovative training, cooperation,student psychology*

Резюме

В статье «Влияние инклюзивного образования на психологию учащихся», раскрывается что такое инклюзивное образование, как оно реализуется в школах и какие правила соблюдаются, чтобы этот процесс был более эффективным, рассматривается важность инклюзивного образования и его влияние на психологию учащихся, а также по мере развития знаний, умений и навыков, каких достижений и результатов отражается информация о деле. Также обсуждается метод применения инклюзивного образования в школах Азербайджанской Республики.

Ключевые слова: *инклюзивное образование, инновационное обучение, сотрудничество, психология студента*

İnklüziv təhsil nədir?

İnklüziv təhsil şagirdlərə, xüsusən də müxtəlif əlilliyi olanlara digərşagirdlərlə birlikdə təhsil almaq imkanı yaradır. Əslində, bu, təkcə xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün deyil, həm də kənd yerlərində yaşayan müxtəlif etnik və mədəni mənşəli uşaqların bərabər və keyfiyyətli təhsil almaqda problemləri olan digər hallarda nəzərə alınır.

İnklüziv təhsil müxtəlifliyi dəyərləndirmək, cins, etnik mənsubiyyət, sosial sinif, sağlamlıq, sosial iştirak və uğur kimi səbəblərə görə təhsil proseslərindən kənarda qalmamaq və hər kəsin sistem tərəfindən mənimsənilməsi üçün vacibdir.

Başqa sözlə inklüziv təhsil o deməkdir ki, bütün şagirdlər öz yerli məktəblərində iştirak edirlər və onların yaşına uyğun olaraq müntəzəm siniflərə qəbul olunurlar və məktəb həyatının bütün aspektlərində öyrənmək, töhfə vermək və iştirak etmək üçün dəstəklənirlər. İnklüziv təhsildə sinif elə təşkil edilməlidir ki,sinif otağında,məktəbdə və sinif fəaliyyətimizdə bütün şagirdlər tədrisdə iştirak etsinlər və öyrənsinlər.

Bəs Azərbaycanda inklüziv təhsilə baxış aspekti necədir?

İnklüziv təhsil o deməkdir bütün şagirdlər adi siniflərdə təhsil alırlar. Lakin bu o demək deyil ki, şagirdlərin tədrisi yalnız sinif daxilində aparılır. Yəni şagird müəyyən səbəblərə görə sinifdənkənar şəraitdə müəyyən mövzu haqqında müəllimdən təkbətək kömək istəyə bilər. Adi sinif otaqlarında bəzi tələbələrin fərqli təhsil məqsədləri olsa də, bütün şagirdlərin birlikdə öyrənmələri üçün imkanlar yaradılır. İnklüziv təhsil sistemi müəyyən şagirdləri adi siniflərdə ayırmır.

İnklüziv təhsildən necə fayda əldə etmək olar?

Bütün şagirdlər fərdi xüsusiyyətlərindən asılı olmayaraq inklüziv təhsildən faydalana bilər.Öz yaşlarında olan digər şagirdlərlə sinif həyatında iştirak edə bilər, fərdi məqsədləri üzərində işləyə bilər. Valideynlərintəhsilə və məktəbfəaliyyətinə cəlb edilməsi nəticəsində daha çox səmərə əldə etmək olar. İnklüziv təhsil təqib və zorakılığın təsirini azaldaraq, fərdi fərqləri öyrənmək və qəbul etmək imkanlarını təmin edir.

Şagirdlərin fərdi ehtiyacları və qabiliyyətləri olan digər fərdi xüsusiyyətlərə malik digər uşaqlarla dostluq əlaqələrinin qurulmasına şərait yaranar. Müxtəlifliyin və inklüzivliyin daha geniş səviyyədə yayılması həm məktəbə, həm də icmaya müsbət təsir göstərər.

İnklüziv təhsili yaymaq üçün hansı addımlar atıla bilər?

✓ Bütün uşaqları müntəzəm siniflərə və məktəbə qəbul etməklə;

✓ Şagirdlərə və müəllimlərə lazımi qədər dəstək olmaqla;

✓ Şagirdlərin qabiliyyətlərini daha da ön plana çıxaracaq tapşırıqlar verməklə. Beləliklə şagird mənfi psixologiyaya bürünüb zəif tərəflərinə fokslanmaz, güclü olduğu tərəflərini inkişaf etdirməyə həvəslənər;

✓ Məktəb kollektivi eləcə də rəhbər üzvlər, digər müəllimlər və valideynlərləəməkdaşlıq etmək;

✓ Şagirdlərin eyni təhsil məqsədlərinə malik olmadığını başa düşmək vəşagirdin fərdi qabiliyyətlərinə uyğun olaraq təhsil məqsədləri hazırlamaq;

✓ Müəllimin daim yenilikçi olması, şagirdləri birgə fəaliyyətə sövq edən öyrənmə üsulları axtarması.

İnklüziv təhsilin şagird psixologiyasına təsiri necədir?

UNICEF müəllim hazırlığıvə ictimai məlumatlandırma kampaniyaları vasitəsilə inklüziv təhsilin əhəmiyyəti irəlisürülür. Çox uzun müddətdir ki, əlilliyi olan uşaqların ayrıca təhsil alması lazım olduğuna inanılır. Lakin araşdırmalar göstərdi ki, əlilliyi olan uşaq əlilliyi olmayan uşaqlarla dərslərə getdikdə, bütün iştirakçılar üçün müsbət təhsil və sosial faydalar olur. İnklüziv təhsil seçim deyil. Bu,

BMT-nin Uşaq Hüquqları və Əlillərin Hüquqları haqqında Konvensiyalarında təsbit edilmiş və hazırda Azərbaycan Prezidentinin Fərmanında təsbit edilmiş uşağın hüququdur.

Azərbaycan Respublikası əlilliyi olan uşaqların hüquqlarını inklüziv təhsil vasitəsilə dəstəkləyir. Lakin bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı bir sıra problemlər qalmaqdadır.

- Əllilliyi olan şagirdlərin fiziki olaraq sağlam şagirdlərlə bərabər təhsil almaq və təhsildə iştirakını təmin edən qanunvericilik və siyasətlərin olmamasıdır.
- Müəllimlərin sağlamlıq imkanları məhdud uşaqlarla işləmək təcrübəsi, eləcə də dərsdə köməkçi texnologiyalardan istifadə etmək üçün lazımi bilikləri yoxdur.
- Əlilliyi olan uşaqları təcrid edən yanlış məlumatlandırılmış münasibətlər və sosial normalar diferensiallaşdırma strategiyalarına mane ola vəşagirdlər arasında ziddiyətlər yaranmasına səbəb ola bilər.
- Hər bir şagirdin təhsilə bərabər çıxışının olmamasıvə məktəbin hamı üçün universal şəkildə təşkiledilməməsi.
- Müəllimlərin problemlərə qarşı qeyri-adekvat rəftarı bu problemlərə aid ola bilər.

Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayev " İnklüziv təhsilin əhatə dairəsinin genişləndirilməsi barədə" əmr imzalayıb. Əmrə əsasən, "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə 2022-2023-cü tədris ilində bir sıra məktəb-liseydə inklüziv siniflər təşkil ediləcək. Həmçinin, 2015-ci ildən etibarən Təhsil Nazirliyi tərəfindən ölkədə inklüziv təhsilin inkişafı istiqamətində pilot layihələr həyata keçirilir. Qanunvericilik səviyyəsində islahatlar aparılır və müəllim hazırlığı üzrə proqramlar yenilənir(1).

2021-ci ildən başlayaraq Azərbaycan Respublikasının Təhsil İnstitutu inklüziv təhsil istiqamətində 3 məsələyə mühüm yer verir: (4)

1. Maarifləndirmə - Şagird və valideynlərlə görüşlər keçirilir, inkluziv təhsilin əhəmiyyəti barədə iştirakçılar məlumatlandırılır və maarifləndirilir;
2. Təlimlər - Pedaqoq və psixoloqların səriştələrini artırmaq üçün təlimlərin keçirilməsi nəzərdə tutulur;
3. Metodik dəstək - İnklüziv təhsilin tətbiqinə dair müəllimlərə,psixoloqlara və məktəb rəhbərliyinə dəstək göstərilməsi nəzərdə tutulur.

İnklüziv təhsil vacibdir, çünki bütün şagirdlər həmyaşıdları ilə birlikdə yaşamağı öyrənməlidirlər. Onlar birlikdə öyrənirlər; birlikdə oynayır və birlikdə böyüyürlər.Effektiv inklüziv sinif elə təşkil edilməlidir ki, fiziki və əqli qüsuru olan şagirdlər digər şagirdlərlə bərabər hüquqlara və imkanlara malik olsun, şagirdlər özlərini sərbəst, müstəqil və təhlükəsiz şəraitdə hiss etsin, həyata qarşı pozitiv olsun, özlərini birliyin üzvü kimi qəbul etsin.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 43 nömrəli Qərarı.
2. İnklüziv siniflərdə təlimin təşkili Bakı, 2018 (səh. 60).
3. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. 2020.
4. Hüseynova N.T. İnklüziv təhsil. Dərs vəsaiti. Bakı, 2014.
5. https://arti.edu.az

İNKLUZİV TƏHSİLDƏ PEDAQOJİ YARDIM

Sayalı İbrahimova
Bakı Slavyan Universiteti, baş müəllim
ibrahimovasayali@gmail.com

Summary

Inclusive education is the most reliable means of ensuring the involvement of children with disabilities in education. Inclusive education is aimed at developing methodologies that ensure that all the needs of each child are met during education. Its main goal is to realize the satisfaction of children's educational and training needs during teaching. The main goal of the principles of organizing training in inclusive education is to develop communication skills and habits in people with disabilities through special pedagogical and psychological methods, to achieve the acquisition of relevant knowledge and to prepare them for an independent life, turning them into equal citizens of society.

Key words: *inclusive, training, pedagogical assistance, education.*

Резюме

Инклюзивное образование является наиболее надежным средством обеспечения вовлечения детей с ограниченными возможностями в образование. Инклюзивное образование направлено на разработку методик, обеспечивающих удовлетворение всех потребностей каждого ребенка во время обучения. Его основная цель – реализация удовлетворения образовательных и обучающих потребностей детей в процессе обучения. Основная цель принципов организации обучения в инклюзивном образовании – развитие коммуникативных навыков и привычек у людей с ограниченными возможностями посредством специальных педагогических и психологических методов, достижение приобретения соответствующих знаний и подготовка их к самостоятельной жизни, превращение их в равноправных. граждане общества.

Ключевые слова: *инклюзивность, обучение, педагогическая помощь, образование.*

İnklüziv təhsil ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların ehtiyaclarına uyğun həyata keçirilən təhsil prosesidir. Onu ənənəvi təhsildən fərqləndirən ən başlıca cəhət isə istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud uşaqların bərabər təhsilalma hüquqlarını təmin etməklə cəmiyyətdə sosial bərabərliyin qorunması, bu uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə nail olunmasıdır.

2016-cı ilin statistikasına görə Azərbaycanda sağlamlıq imkanları məhdud olan 65 minə yaxın uşaqdan yalnız 12 mini təhsilə cəlb olunub, onların 1105-i xüsusi məktəblərdə, 2664-ü xüsusi internat məktəblərində, 7750-si evdə, 268-i isə inklüziv təhsil alır. (“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. (2009)

Prosesi mütəşəkkil şəkildə həyata keçirmək üçün inklüziv təhsilin daha sadə və asan formada təşkilinə nail olmaq bu sahədə xidmət göstərən insanların birgə fəaliyyətindən asılıdır. İnklüziv təhsil sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnun təminatına, eyni zamanda cəmiyyətə sağlam düşüncə ilə inteqrasiyasına şərait yaradan və dünyada geniş yayılan bir təhsil təcrübəsidir. Azərbaycan Respublikasında da sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşın təhsil almasına bərabər şərait yaradılmışdır.

Təlim prosesinin uğurla həyata keçirilməsində əsas problem isə bu cür uşaqların sağlam düşüncəli vətəndaş kimi cəmiyyətə adaptasiyasıdır. Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədinə əsasən bu problemin tədricən aradan qaldırılması, həssas qrupa daxil olan uşaqların erkən yaşlardan aşkar edilməsi və təlim-təhsil prosesinə cəlb olunması qarşıya qoyulan əsas hədəflərdəndir (Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi, (2018).

İnklüziv təhsil prosesində təlimin təşkili prinsipləri, ilk növbədə pedaqoji prinsiplərə əsaslanır. Pedaqoji optimizm, diferensiallaşdırma, fərdi yanaşma, erkən pedaqoji yardım, sosial-adaptasiyaedici və xüsusi pedaqoji rəhbərliyin vacibliyi kimi prinsiplərin tələb və şərtlərinə əməl etməklə inklüziv təhsildə arzu olunan nəticə əldə etmək mümkündür. Bu prosesdə ilk addım sağlamlıq imkanları məhdud olan bütün şagirdləri təlim prosesində bilikləri hamı kimi mənimsəyə biləcəkləri fikrinə inandırmaqdır. L.S.Vıqotskinin fərdi inkişaf proqramında olduğu kimi təlim prosesinin başlanğıcı, gedişi və nəticəsini mütəmadi şəkildə təhlil etməklə və sağlamlıq imkanları məhdud şəxslərin müvəffəqiyyət göstəricilərini izləməklə inklüziv təhsil prosesində müsbət nəticə əldə etmək olar (İnklüziv siniflərdə təlimin təşkili, 2018).

İnklüziv təhsilin digər məqsədi hamı ilə birlikdə, cəmiyyətdən təcrid olunmadan, amma ehtiyaclara uyğun təşkil olunmuş fərdi inkişaf və təhsil proqramını tətbiq etmək, həssas qrupa daxil olan uşaqları sağlam düşüncəli uşaqlar kimi sosial həyata inteqrasiya etməkdir. Bu uşaqlarda sağlam düşüncə formalaşdırılarsa, onlar sosial həyata daha çox meyilli olar, rastlaşdıqları çətinliklər onlar üçün maneə deyil, irəli getmək üçün bir stimul yaradar. Bu uşaqların inkişafı, özünütəsdiqi və gələcəyi üçün təşkil olunan hər bir dövlət proqramı çox əhəmiyyətli məsələ olduğundan, bu sahəyə aid Dövlət Proqramı hazırlayanların və layihə icraçılarının qətiyyətliliyi müsbət nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynayır.

Diferensiallaşdırma və fərdi yanaşma prinsipləri əsasında təhsilverənlər şagirdin fərdi xüsusiyyətlərini, onların inkişaf pozğunluğunun spesifik özəlliklərini nəzərə alaraq müvafiq təlim şərtləri əsasında pozitiv təlim mühiti yaratmalıdırlar. Bu məqsədlə təlim prosesinin təşkilində iştirak edən şəxslər (pedaqoqlar, psixoloqlar, valideynlər) sağlamlıq imkanları məhdud olan uşaqların xarakteristikasını və təhsil ehtiyaclarını dərindən öyrənməlidirlər. Onlar əqli gerilik, psixi inkişafın ləngiməsi, daun sindromu, autizm sindromu, hiperaktivlik və diqqət əksikliyi sindromu, serebral iflic, nitq inkişafının ləngiməsi kimi hallarda necə davranmalı olduqlarına diqqət yetirməli, psixi inkişafa təsir edən bioloji, ətraf mühit, tərbiyə və şəxsi fəallığın rolu kimi amilləri nəzərə almaqla təlim prosesini reallaşdırmalıdırlar.

Erkən pedaqoji yardım prinsipinə əsaslanaraq pedaqoqlar şagirdlərə psixoloji-pedaqoji dəstək verməklə onların fərdi təhsil ehtiyaclarını müəyyənləşdirə, inkişafındakı ləngimələri aşkarlaya və onları psixoloji dəstəklə təmin etməklə inklüziv təhsili reallaşdırmağa nail ola bilərlər.

Təlimin sosial-adaptasiyaedici prinsipi sosial bacarıqları və şagirdin sosial-mədəni mühitə psixoloji hazırlığını təmin edir. Sağlamlıq imkanları məhdud olan şagirdlər üçün ümumi təhsil ehtiyacı nitqin, təfəkkürün və ünsiyyətin inkişafına korreksiyaedici-pedaqoji köməyin göstərilməsidir. Bu məqsədlə bütün təhsilalanlar arasında müvafiq tədbirlərin təşkili sağlamlıq imkanları məhdud şagirdlərin sosial adaptasiyasına, onlarda təfəkkürün və ünsiyyətin inkişafına təkanverici amil rolunu oynaya bilər. Belə tədbirlərin təşkili zamanı ümumtəhsil məktəblərinin şagirdləri ilə maarifləndirici söhbətlər aparmaqla, onlara həssas qrupa daxil olan şagirdlərlə ünsiyyətin mahiyyətini və əhəmiyyətini izah etməklə bu prosesin effektivliyinə zəmin yaratmaq olar.

Xüsusi pedaqoji rəhbərliyin vacibliyi prinsipi sağlamlıq imkanları məhdud olan şagirdlərin öyrənmə potensialını nəzərə alaraq təlim-təhsil prosesinin planlaşdırılması, sadədən mürəkkəbə metodu əsasında dərsin mənimsənilməsi, illüstrasiyalar, şəkillər, sxemlər, rəmzlər əsasında prosesin təşkili işinin təminatıdır. Belə ki, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün mahiyyətcə eyni, lakin sadələşdirilmiş tapşırıqlar verilməsi, bu tapşırıqların fərdi şəkildə yerinə yetirilməsi təlim prosesinə müsbət təsir edir. Bu prosesdə həssas qrupdan olan uşaqlar üçün xüsusi ixtisaslaşmış müəllimlərin seçilməsi də vacib məsələlərdəndir.

Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı əsas problem qanunvericilik bazasının yetərsizliyidir. İnklüziv təhsillə bağlı bir sıra müddəaların müvafiq qanunlarda öz əksini tapmasına baxmayaraq, onların həyata keçirilməsi tam reallaşdırılmayıb. Bunun əsas səbəbləri kimi valideynlərlə müəllimlərin sıx əməkdaşlıq etməməsini, sağlamlıq imkanları məhdud uşaqların tədris prosesinə cəlb olunması üçün inklüziv təhsildə təlimin təşkili prinsiplərinə düzgün əməl olunmamasını göstərmək olar.

İnklüziv təhsildə təlimin təşkili zamanı sağlamlıq imkanları məhdud uşaqları təhsilə cəlb etməzdən əvvəl, mövcud fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərini nəzərə almaqla, hər uşağa ümumi təhsil və tərbiyə prosesinə daxil olmaq imkanı yaratmaq daha doğru yanaşmadır. Sonra isə onları müvafiq biliklər qazanmağa və cəmiyyətdən təcridolunma riskini tədricən aradan qaldırmağa çalışmaq, sağlamlıq imkanları məhdud uşaqlara qarşı hər hansı bir qabiliyyəti çatışmayan şəxslər kimi deyil, əksinə onlarda olan istedadların üzə çıxarılmasının mümkün olduğuna inanmaq və cəmiyyəti inandırmaq lazımdır.

Ümumi təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təhsili və tərbiyəsi üçün xüsusi şəraitin yaradılmasından öncə, onların sağlam yaşıdları ilə, eləcə də bu tədris prosesinə cəlb olunmuş müəllimlərlə mütəmadi aparılan söhbətlər qarşılıqlı anlaşmanın təminatı ola bilər. İnklüziv təhsillə məşğul olan müəllimlər qiymətləndirmə strategiyalarına müntəzəm dəyişikliklər etməklə yanaşı, formativ qiymətləndirmə kimi daha ənənəvi formanı innovativ qiymətləndirmə strategiyaları ilə

birləşdirə və ya şagirdləri motivasiya etmək üçün özünəməxsus qiymətləndirmə metodundan istifadə edə bilərlər (Mikayılova, Şərəfxanova, (2011).

İnklüziv təhsil prosesində təlimin təşkili zamanı bir sıra nəzəri əsasları və praktik mexanizmləri bilməklə yanaşı, başlıca məsələlərdən biri də sağlamlıq imkanları məhdud uşağın, onun ailəsinin qarşılaşdığı problemlərin (məsələn, uşaqların cəmiyyət tərəfindən qəbul olunmaması) həllini təmin edən səriştələr formalaşdırmaqdır. Digər əsas məsələ tapşırıqların dəyişkənliyi, təşkili formaları və metodları nəzərə alınmaqla təhsilalanların praktik biliklərə yiyələnməsini təmin etməkdir.

İnklüziv sinifdə təhsil alan hər bir şagirdin təlim prosesində iştirakının təmin edilməsi üçün tədqiqatlar sosial ədalət paradiqmasına əsaslanır. Tədqiqatçılar qeyd edirlər ki, məktəbdə “İnklüziv mədəniyyətin yaradılması” şagirdlərin birgə təlimdə fəal iştirakını təmin etmək üçün əsas amildir. “İnklüziv mədəniyyətin formalaşdırılması” çərçivəsində inklüziv məktəblərdə əməkdaşlığın, ümumi inklüziv dəyərlərin və münasibətlərin inkişafı digər istiqamətlərdə də dəyişikliklərə gətirib çıxara bilər. İnklüziv mədəniyyətin formalaşdırılmasını vacib hesab edən tədqiqatçılar isbat edirlər ki, məhz elə inklüziv mədəniyyət siyasəti və təcrübəni dəyişdirir. Bu istiqamətdə tədqiqatlarda inklüziv təhsil tətbiq olunan məktəblərin rəhbərliyi, pedaqoji heyəti, texniki işçiləri, şagirdləri və valideynlər tərəfindən “inklüziv mədəniyyətin” qəbul edilməsinin zəruriliyi qeyd olunur (Booth, Ainscow, 2002).

Sağlamlıq imkanları məhdud şagirdlərin təhsildə mükəmməl nəticə əldə etməsi üçün müəllimlərlə yanaşı, valideynlərin bu prosesə cəlb olunması inklüziv təhsildə təlimin başlıca prinsiplərindəndir. Dövlət, eləcə də təhsil müəssisələri siyasi və hüquqi yollarla inklüziv təhsilə dəstək verərkən valideynlərin onlarla birgə əməkdaşlığı müsbət nəticələrə daha tez nail olmaq imkanı verir. Qeyd edək ki, sağlamlıq imkanları məhdud uşağın birbaşa kütləvi təhsil müəssisəsində təlimə cəlb olunması məqsədəuyğun deyil. Onları ümumi təhsilə hazırlamaq üçün öyrənmə prosesini asanlaşdırmaq, defektoloji, psixoloji və pedaqoji yardımlardan istifadə etməklə bu prosesə hazırlamaq lazımdır. Bunun üçün ümumtəhsil məktəblərində inklüziv siniflərin təşkili bu işin müsbət həlli yollarından biri kimi qiymətləndirilə bilər. XXI əsrdə, elm və texnologiyanın yüksək şəkildə inkişaf etdiyi bir dövrdə, xüsusi ehtiyacı olan hər bir fərdin bütün sosial proseslərdə, təhsilin bütün səviyyələrində məhdudiyyətsiz iştirakının həyata keçirilməsi təmin edilməli, adi insanlarla əlillər eynihüquqlu subyektlər kimi dərk edilməli, istər iş yerlərində,istərsə də müxtəlif sosial məkanlarda onların bütün hüquqları qorunmalıdır. (İnklüziv siniflərdə təlimin təşkili, 2018)

Sağlamlıq imkanları məhdud şəxslərin gələcəkdə hər hansı bir peşəyə yiyələnməsinin həyatının valideynlərsiz dövründə də müstəqil şəkildə yaşamasına kömək etdiyini nəzərə alsaq, ali təhsil müəssisələrinə onların cəlb olunması daha vacib və təxirəsalınmaz məsələdir. Belə şəxslər ali təhsil pilləsində təlim-təhsil prosesinə cəlb olunmaqla təkcə müvafiq bir peşəyə yiyələnmir, həm də onların intellektual səviyyəsi artır, iradəli, sağlam düşüncəli, dünyagörüşlü, həyatda öz məqsəd və məramını bilən şəxsiyyətə çevrilirlər. İnklüziv təhsildə asudə vaxtın düzgün təşkili məqsədilə kompüter texnologiyalarından və internetdən məqsədyönlü istifadənin əhəmiyyətini bildirməklə, sağlamlıq imkanları məhdud şəxslərə öyrədici video-çarxlar göstərməklə, dünyanın müxtəlif yerlərində həyatı örnək olan bu cür insanları tanıtmaqla belə şəxslərin özlərinə inamını artırmaq, onların karyera qurmaq planlarını gerçəkləşdirməsinə nail olmaq mümkündür.

Xüsusi pedaqoji rəhbərliyin vacibliyi prinsipində “səriştəlilik” konsepsiyasına diqqət yetirək: bildiyimiz kimi, səriştəlilik insanın yaxşı bildiyi bir sıra məsələləri daha effektiv şəkildə yerinə yetirməyə sövq edir. Təhsilin inkişafının son hədəfi “bilik” dən “səriştəyə” əsaslandığından təcrübəli pedaqoji rəhbərlik inklüziv təhsildə təlim prosesinin təşkilində əsas və aparıcı rol oynayır.

İnklüziv təhsil prosesində erkən pedaqoji yardım prinsipinə əməl edilərsə, sağlamlıq imkanları məhdud şəxslərin mənəvi və əxlaqi dəyərlərini nəzərə almaqla onların sosiallaşmasını reallaşdırmaq mümkün olar. Buraya planlaşdırma, təhlil, düşüncə, təhsil və idrak fəaliyyətində özünü qiymətləndirmənin təşkili məsələləri də daxildir. Fikrimizcə, inklüziv təhsildə gənclər arasında populyar olan sosial şəbəkələrdən məqsədəmüvafiq istifadə etməklə də bu cür şəxsləri erkən pedaqoji dəstəklə təmin etmək olar. Həmin vasitələr sağlamlıq imkanları məhdud şəxslərin sosial adaptasiyasına da kömək edə bilər. O.S.Kuzminaya görə, inklü-ziv təhsil, əlil bir uşağın sağlam yaşıdları ilə birlikdə öyrəndiyi, xüsusi təhsil ehtiyaclarının ödənilməsi ilə əlaqəli spesifik pedaqoji dəstək və islah yardımı aldığı bir təhsil

prosesinin qurulmasından ibarət olan sosial və pedaqoji fenomendir. (Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu. (2012)

Bu gün Azərbaycan cəmiyyəti sağlamlıq imkanları məhdud şəxslərin diskriminasiya (ayrı-seçkilik), seqreqasiya (əhalinin bir qrupunun cəmiyyətdən müəyyən əlamətlərə görə zorla ayrılması) mərhələlərini dəf etsə də, belə şəxslərin cəmiyyətə inteqrasiyası və inklüziya (əlilliyi olan insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması) mərhələsinə keçidlə bağlı görüləsi işlər çoxdur. Çünki iqtisadi, hüquqi inkişaf baxımından müəyyən uğurlara nail olmuş bir cəmiyyətdə sağlamlıq imkanları məhdud şəxslərə qarşı münasibət dövlətin sosial tələbi kimi müəyyənləşdirilməli, təhsil də daxil olmaqla, bütün sahələrdə onlara digər insanlarla bərabər imkanlar yaradılmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu. (2012)
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. (2009).
3. Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi, (2018)
4. Booth, T., and Ainscow, M. (2002). Index for Inclusion, Developing learning and participation in schools. Published by the Centre for Studies on Inclusive Education (CSIE), p.102.
5. Mikayılova, Ü., Şərəfxanova, Ş., və b. (2011). İnklüziv təhsil. Metodik vəsait. Bakı.

İNKLUZİV TƏHSİLDƏ MÜƏLLİM SƏRİŞTƏLİLİYİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Müseyib İlyasov
Azərbaycan Dövlət Pedaqoji Universiteti
museyibilyas@gmail.com

Summary

It is quite characteristic of the modern pedagogical process that the teacher has a number of qualities and competences in the process of inclusive activity and is able to implement it. The teacher's pedagogical competence in inclusive conditions is the basis of his success in his work. Therefore, it is very important for every teacher to have a number of competencies: management, didactic, development, communication, and creativity.

In the article, the role and importance of these skills in the educational process in inclusive conditions was explained, and the necessity of acquiring them (analytical thinking, democratic communication, individual approach, motivation, etc.) was justified.

Key words: *teacher; competence; education; activity; communication.*

Резюме

Для современного педагогического процесса весьма характерно то, что педагог обладает рядом качеств и компетенций в процессе инклюзивной деятельности и способен ее реализовать. Педагогическая компетентность учителя в инклюзивных условиях является основой его успеха в работе. Поэтому очень важно каждому учителю обладать рядом компетенций: управленческих, дидактических, развивающих, коммуникативных, творческих.

В статье объяснены роль и значение этих навыков в образовательном процессе в инклюзивных условиях, а также обоснована необходимость их приобретения(аналитического мышления, демократического общения, индивидуального подхода, мотивации и т.д.).

Ключевые слова: *учитель; компетентность; образование; активность; коммуникация.*

İnklüziv təhsil gənclərin müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönələn təhsildir. Buna görə də o, tədris zamanı təhsilalanların müxtəlif ehtiyaclarının ödənilməsinə yönəlmiş yanaşmaların formalaşdırılmasını özündə ehtiva edir. Buna nail olmaq isə müəllimlərin bu şəraitə uyğun peşə səriştəliliyinə malik olmasını tələb etdiyindən inkluziv təhsil prosesində müəllimlərin yüksək peşəkarlıq və səriştəlilik göstərə bilməsi olduqca əhəmiyyətli və zəruridir.

Müəllim səriştəliliyi pedaqoji, psixoloji və metodik keyfiyyətlərin məcmusundan ibarət mühüm keyfiyyətdir. Səriştəlilik müəllimin gördüyü bütün təlim-tərbiyə işlərini daha əlverişli metodlarla, daha optimal variantı seçməklə həyata keçirməsi olduğundan inkluziv təhsildə bunun özünəməxsus bir sıra

xüsusiyyətləri vardır ki, bunlarınəzərə alımadanpedaqoji prosesdə yüksək nəticələrə malik olmaq olduqca çətindir. Təhsilin bütün səviyyələrində çalışan müəllimlərin müvəffəqiyyətlə işləməsində bu amil mühüm olduğundan müasir müəllimlərimizdə bu sahədə peşə səriştələrinin olması olduqca vacib və əhəmiyyətlidir. Bu baxımdan müasir dövrdə müəllimin fəaliyyətində yüksək nəticələr əldə edə bilməsindəinkluzivliyin gözlənilməsi əsas amillərindən biri hesab olunur.

“Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”nda bu münasibətlə deyilir: “Səriştəlilik əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandıqları bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir (1).

İnkluziv müəllimin səriştəlili mövqeyi ondan xüsusi qabiliyyət və məharət tələb edir. Müxtəlif xarakterli, müxtəlif soslal qrupları təmsil edən ailələrdə tərbiyə olunmuş, fiziki, psixi və sağlamlıq durumları müxtəlif olan təhsilalanlarla təhsil, tərbiyə işi aparmaq, onlarla səmərəli şəkildə işləmək nə qədər məsuliyyətli, nə qədər çətindirsə, müəllimin bu prosesdə səriştəli olması, yüksək səriştəlilik göstərməsi dəbir o qədər lazımdır və əhəmiyyətlidir.

İnkluziv təhsilin və inkluziv fəaliyyətinin özünəməxsusluğundan irəli gələrək müəllimin səriştəliliyi bir sıra spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətləri əsasən aşağıdakı kimi xarakterizə etmək olar:

1. Bir sinifdə (qrupda) təhsilalanların əsasən eyni yaşda olmasına baxmayaraq, eyni sosial tərkibə malik olmaması.

2. Təhsilalanlar arasında istedadlı, yaxşı oxuyan, orta səviyyəli və tədris materialını yetirə bilməyən qrupların (yaxud fərdlərin) olması.

3. Qrupda (sinifdə) fiziki cəhətdən xüsusi qayğıya ehtiyacı olan təhsilalanların olması.

4. Təhsilalanların təhsilə (həmçinin oxuduğu fənnə) maraq və mellərinin eyni səviyyədə olmaması.

5. Təhsilalanların özünütəsdiq və özünüifadə bacarıqlarının müxtəlifliyi və s.

Bu xüsusiyyətlər hər bir müəllimin öz işinə ustalıqla, bu fərdi xüsusiyyətləri nəzərə almaqla və səriştəliliklə yanaşmağı tələb edir.

Pedaqoji fəaliyyət ona yaradıcı şəkildə yanaşmağı sevir. Müəllim işində nə qədər yaradıcı olarsa, fəaliyyətinə yaradıcı yanaşarsa onun əldə etdiyi nəticələr də bir o qədər məhsuldar və yüksək olar. İnkluziv təhsildə bu olduqca vacibdir. Müəllimin təhsilalanlara humanist mövqedən yanaşması, onlara dəstək olması, həssaslığı, empatiya bacarıqları bu prosesdə mühüm rol oynayır. Təkzibedilməz faktdır ki, pedaqoji prosesdə müəllimin bu mövqeyini və yanaşmasını müşahidə edən, görən və duyan təhsilalanlar istər-istəməz bu münasibəti özlərində də hiss edə bilirlər. Onlarda yoldaşlarına qarşı tolerantlıq, əməkdaşlıq, empatiya, qayğıkeşlik, bərabərlik, qarşılıqlı yardım, həssaslıq kimi bir sıra yüksək mənəvi keyfiyyətlər və ali hisslər formalaşa bilir ki, bu da müəllimin bu keyfiyyətlərə malik olmasının digər bir nəticəsi kimi özünü təhsilalanların hərəkət və davranışında göstərir. Əks hal, yəni müəllimin davranışında, sözündə, gündəlik fəaliyyətində bunların olmaması təhsilalanların da xarakterində və davranışında mənfi izlər buraxmış olur ki, bu da istər cəmiyyətimizin, istərsə də onu təmsil edən kiçik bir qupun formalaşmasına mənfi təsir göstərmiş olur. Buna görə də müəllim özünün gündəlik fəaliyyətinə yaradıcı yanaşmaqla yanaşı, həm də işlədiyi sinfin (qrupun) hər bir üzvünün psoxofizioloji xüsusiyyətlərini yaxşı bilməli, öz fəaliyyətini təkcə dəs keçməklə, yaxud yaxşı oxuyan uşaqlarla məhdudlaşdırmamalıdır. Nəzərə alsaq ki, sinifdə auditoriyada inkluzivliyin gözlənilməsi heç də müəllim üçün asan deyildir. Bu, müəllimdən tolerantlıq, həssaslıq, səbr və diqqət tələb edən fəaliyyət olduğundan müəllimin bu sahədə planlı fəaliyyəti, həvəslə çalışması, şagirdlərin hər birinə qayğı və diqqət göstərməsi, zəif, xüsusi qayğı və diqqətə ehtiyacı olan şagirdlərə dəstək olması öz nəticəsini göstərə biləcəkdir.

İnkluziv yanaşma müəllimin təkcə xüsusi qayğıya ehtiyacı olan təhsilalanlara fərqli yanaşmaq demək deyildir. Bunun bir çöx tərəfləri və tələbləri vardır ki, bunlar da məllimdən müntəzəm olaraq nəzəri və praktik hazırlığını artırmağı, elmi-pedaqoji yenilikləri izləməyi tələb edir. Müəllimin təkcə təlim və tərbiyə nəzəriyyəsi və texnologiyaları haqqında biliyə və bacarığa malik olması, uşaqlarla aparılacaq təlim-tərbiyə işlərinin metodikasına yiyələnməsi deyil, eyni zamanda inkiluziv təhsilin spesifik tərəfləri, fərqli cəhətləri, onun mahiyyət və məzmunu haqqında bilik və bacarığa malik olması da vacibdir.

İnkluziv təhsil və müəllimin fəaliyyət dairəsi olduqca geniş və rəngarəng xarakterə malikdir. Müəllim bu istiqamətdə səriştəli olduqda onun apardığı təlim-tərbiyə fəaliyyəti də maraqlı, məzmunlu və səmərəli olur. Bu baxımdan müasir dövrün müəllimi inkluziv təhsilin bütün incəliklərinə yiyələnməli, onun əsas parametrlərini mənimsəməli və ən başlıcası isə fəaliyyətində xüsusi səriştəlilik nümayiş etdirməyi bacarmalıdır.

Elmi-pedaqoji ədəbiyyatlarda müəllim səriştəliliyinə dair kifayət qədər tədqiqatlar aparılsa da, yeni fikirlər olsa da, məhz inkluziv şəraitdə müəllimin fərqli, bu şəraitə uyğun, onun tələb etdiyi səriştələrə dair fikirlər heç də çox deyildir. Buna baxmayaraq inkluziv şəraitdə müəllimlərin hansı səriştələrə malik olmasını aşağıdakı kimi qeyd etmək olar:

1. Müəllimin təşkilatçılıq, idarəetmə səriştəliliyi. Bu, bütün dərs boyu davam edən, sinfin yüksək səviyyədə təşkil edilməsi, müəllimin pedaqoji prosesi idarə edə bilməsi və sinifdə (qrupda) bütün şagirdlərin təlim marağının, motivaiyasının təmin edilməsi ilə bağlı səriştələrdən ibarətdir.

2.Didaktik (öyrədə bilmə) səriştəliliyi. Bu səriştə bütün şagirdlərin, həmçinin xüsusi qayğıya ehtiyacı olan şagirdlərin də eyni səviyyədə təlim prosesində iştirakının təmin edilməsi, onların müəllim tərəfindən təlim tapşırqlarını yerinə yetirmələrini təmin edə biləcək səriştələrdən ibarətdir.

3. Təhsilalanların idrakının inkişaf etdirilməsi səriştəliliyi. İnkluziv mühitdə aydındır ki, şagirdlərin öyrənmə marağının müxtəlif olmaı ilə yanaşı, onların idrak səviyyələri də eyni deyldir. Lakin təlim prosesində bütün şagirdlərin tələbat və maraqlarının təmin olunmasın zəruriyyəti və tələbi pedaqoji prosein hamı üçün əlçatanlığını təmin etməyi tələb edir. Bu da şagirlərin idrak səviyyəsini nəzərə almaqla onların hər birinin inkişaf etdirilməsini zəruri edir. Bu baxımdan müəllim pedaqoji prosesdə hər bir şagirdin idrakının inkişaf etdirilməsi üçün müəyyən səriştə nümiyiş etdirməli, prosesə sıriştəli yanaşmağı bacarmalıdır.

4.Pedaqoji prosesə kreativ yanaşma səriştəliliyi. Bunlar müəllimin pedaqoji prosesdə çeviklik, yaradıcılıqla yanaşması, öyrətmə prosesində daha əlverişli metodlar seçə bilməsi və onlardan istifadə edə bilməsi səriştəliliyindən ibarətdir. İstisna deyildir ki, inkluziv sinifdə müəllimin tətbiq etdiyi metod və priyonlar heç də hamı üçün müyəssər olmasın. Bu da müəllimdən kreativ səriştələrə malik olmasını, əlverişli vasitələrdən istifadə edə bilmək bacarıqlarını nümayiş etdirə bilməsini tələb edir.

5.Ünsiyyət və əməkdaşlıq səriştəliliyi. İnkluzivliyin təmin olunmasında bu səriştələrin xüsusi yeri və rolu vardır. Bunlar müəllimin hər bir şagirdlə işgüzar ünsiyyət yaratması, əməkdaşlıq etməsi və eyni zamanda şagirdlərin bir-biri il ünsiyyət və əməkdaşlığının yaradılmasına istiqamətlənən və xidmət edən səriştələr kimi qiymətlidir. Müəllimin şagirdlərin bir-biri ilə ünsiyyət saxlamalarına, xüsusən ehtiyacı olan şagirdlərlə digər şagirdlərin ünsiyyətinin yaradılmsına səbəb olan bu tipli səriştələr sinif (qrup) kollektivinin formalaşmasına və onların ünsiyyət qabiliyyətlərinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan müəllimin özünün əməkdaşlıq və ünsiyyət səriştələrinə malik olması əsas baza kimi pedaqoji prosesin səmərəliliyini də təmin edə bilir ki, müəllimin bu sahədə öz üzərində işləməsi, müəyyən təmrinlərdən istifdə edərək bacarıqlarını inkişaf etdirməsi xüsusi əhəmiyyət kəsb edir (İlyasov, 2018, s. 95-97)..

İnkluziv təhsil cəmiyyətimizin əsa tələblərindən və qaçılmaz problemlərindəndir. Cəmiyyətimiz inklziv cəmiyyət olduğundan aydın məsələdir ki, bu xüsusiyyət təhsil prosesini də əhatə etməlidir. Uşaqlar daim inkişafdadırlar. Burada heç bir istisnalıq mövcud deyildir. Buna görə də müəllim hər bir uşaqda bu inkişafı görə bilməli, izləməli və onları daha da inkişaf etdirmək üçün xüsusi bacarıqlara və səriştələrə malik olmalıdır.

Sinifdə (qrupda) təhsil və tərbiyənin şəxsiyyətyönümlülüyünün təmin olunması müəllimin səriştəliliyindən çox asılıdır. Pedaqoji prosesi təşkil edə bilməsi, təhsilalanlara humanist münasibət göstərməsi, onlara bir şəxsiyyət kimi yanaşması, onların gələcəyinə nikbin baxması, hər birinin inkişaf etməsi və formalaşması üçün münbit, yaradıcı bir mühit formalaşdırması onun səriştəliliyi ilə bilavasitə bağlıdır. Ona görə də müəllimin öz səriştəliliyin artırılması, inkişaf etdirilməsi üzərində müntəzəm işləməsi vacibdir.

İnkluziv fəaliyyətinin özünəməxsus cəhətlərini nəzərə alaraq müəllimlərin yuxarıda göstərilən səriştələrə malik olması üçün bir sıra keyfiyyətlərə yiyələnməsini zəruri hesab edirik:

1. *Analitik təfəkkürə malik olmaq*.Hər bir müəllim müasir dövrdə təhsilin əsas məqsədi, başlıca hədəfləri və bu sahədə qarşıda duran vəzifələri aydın dərk etməli, mövcud vəziyyətin necəliyini bilməli, hadisə və prosesləri təhlil edərək müvafiq nəticələr çıxarmağı bacarmalıdır. Görəcəyi proqnozlaşdıra bilməli, gənc nəslin tərbiyəçisi kimi məsul bir vəzifə daşımağın məsuliyyətini dərk etməlidir.

2. *Pedaqoji ünsiyyətə malik olmaq*. Müəllim öyrənənlərlə daim ünsiyyətdə olduğundan onun ünsiyyətin əlverişli (demokratik, emosional, uşaqların yaş və fərdi xüsusiyyətlərinə uyğun) tərzlərindən istifadə etməklə onlarla yaxından ünsiyyətdə olmalıdır. İnkluziv təhsildə müəllimin buna xüsusi diqqət göstərməsi olduqca vacibdir. Sinifdə “unudulmuş şagird” olmamalı, müəllim bütün şagirdlərlə əlverişli ünsiyyət qumağı bacarmalıdır. Müəllimin demokratik ünsiyyət tərzinə malik olması xüsusi qayğıya ehtiyacı olan təhsilalanlarla əməkdaşlıq, qarşılıqlı hörmət, onların maraqlandırılması və stimullaşdırılması, onlarda tələbatların və motivlərin yaradılması üçün də olduqca əlverişlidir.

3. *Uşaqların fərdi psixoloji xüsusiyyətlərini dərindən bilmək və pedaqoji fəaliyyətdə bu biliklərdən və bacarıqlardan yaradıcı surətdə istifadə edə bilmək.*Müəllim təkcə nəzəri cəhətdən deyil, həm də praktik psixoloq olmalıdır. O, siniifdə bütün uşaqların psixikasına dərindən bələd olmaqla onların hissinə, emosiyasına, təfəkkürünə, təxəyyülünə təsir edə bilmək qabiliyyətinə malik olmalıdır. Eyni zamanda onların fərdi bacarıq və qabiliyyətlərinin inkişafına kömək etməlidir.

4. *Motivasiya etmək, öyrənməkə həvəs yarada bilmək.* Müəllim xüsusi qabiliyyəti olan şagirdlərin daha da inkişaf etdirməsi üçün onlarda daha çox öyrənməyə, bilməyə maraq və xüsusi qayğıya ehtiyacı olan şagirdlərin proqram həcmində inkişafı üçün isə onlarda həvəs oyatmağı bacarmalı və maraq yarada bilməlidir.

5. *Sinifdə (qrupda) hər bir təhsilalan üçün komfort psixoloji iqlim yarada bilmək.*Çalışmalı və buna nail olunmalıdır ki, hər bir təhsilalan sinifdə, auditoriyada özünü rahat, azad, xoşbəxt hiss etsin, heç nədən sıxılıb, çəkinməsin.

Bütün bunlar həmçinin inkluziv şəraitdə də müəllimin pedaqoji səriştəliliyini xarakterizə edir. Buna görə də müəllim daim öz üzərində işləməli və öz peşə, ixtisas bacarığını, qabiliyyətini artırmağa çalışmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. (2013). Bakı // Azərbaycan müəllimi. - 25 oktyabr, 2013.

2. İlyasov, M.İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və Təhsil, - 208 s.

MƏHDUDİYYƏTİ OLAN ŞAGİRDLƏRLƏ FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNİN TƏŞKİLİ

Hamlet İlyasov
BDU-nun Qazax filialı,
pedaqogika üzrə fəlsəfə doktoru
hamlet.ilyasov9597@gmail.com

Summary

The modern training process is against the division of students into medical groups. Because, dividing in this way causes students to study separately and isolate themselves from society. At this time, they feel broken and psychologically unfit for society. Being physically disabled is not scary, in our opinion, being morally disabled is more scary for society. Simply, the physical education teacher, together with the school doctor, conducts a medical examination at the beginning of the school year, obtains information about each student and takes it into account in the training process. The use of modern training technologies during the organization of physical education classes should ensure the strengthening of physiological, psychological, and spiritual health of students in order to adapt them to the collective, society and prepare them for future work.

Key words: *inclusive education,children with physical disabilities,new learning technologies,physical education, healthy lifestyle, day routine, traditional training.*

Резюме

Современный учебный процесс против разделения студентов на медицинские группы. Потому что такое разделение заставляет студентов учиться отдельно и изолировать себя от общества. В это время они чувствуют себя сломленными и психологически непригодными для общества. Быть физически инвалидом не страшно, на наш взгляд, быть морально инвалидом страшнее для общества. Просто учитель физкультуры совместно со школьным врачом в начале учебного года проводит медицинский осмотр, получает информацию о каждом ученике и учитывает ее в процессе обучения. Использование современных технологий обучения при организации занятий по физическому воспитанию должно обеспечить укрепление физиологического, психологического и духовного здоровья учащихся, их адаптацию к коллективу, социуму и подготовку к будущей работе.

Ключевые слова: *инклюзивное образование, дети с физическими недостатками, новые технологии обучения, физическая культура,здоровый образ жизни,распорядок дня,традиционное обучение.*

Bu gün yaşadığımız cəmiyyətdə, məkanda fiziki məhdudiyyətli uşaqlarla rastlaşırıq. Buna gənclərimizin ailə həyatına hazır olmaması, insan orqanizmi haqqında bilgilərin az olması,ailə qurarkən tibbi müayinədən keçməməsi, ekoloji pozğunluq, müharibələrin törətdiyi gərginliklər, qeyri-sağlam qidalar və s. səbəb olur. Gəncmüəllimlər bu cür hallara daim hazır olmalıdır. Ona görə ki, fiziki məhdudiyyəti olan uşaqların cəmiyyətə adaptasiyası ilk növbədə düzgün təlim prosesindən keçir.

Ənənəvi təlimdə fiziki tərbiyə müəllimi məktəbin həkimi ilə birlikdə tədris ilinin əvvəlində dərs keçəcəyi sinifdə tibbi müainə aparmalı və bu tibbi müainənin nəticəsinə uyğun olaraq şagirdlər üç qurupa bölünürdü: əsas, hazırlıq və xüsusi tibb qrupları.

Əsas qrupa fiziki sağlam şagirdlər daxil edilir.

Hazırlıq qrupuna sağlamlığında, fiziki hazırlığında geriləmələr olan şagirdlər daxil edilir. Bu şagirdlər dərsi əsas qrup ilə ümumi proqram əsasında keçir. Bu qurupda fiziki tərbiyə dərsinin məqsədi müalicəvi bədən tərbiyəsindən istifadə edərək şagirdlərin sağlamlığına çalışmaq, fiziki hazırlığını inkişaf etditmək və gələcəkdə onların əsas qrupa keçməsini təmin etməkdir.

Hazırlıq qurupunda fiziki hərəkətlərin təlimində fiziki yük verilməsi şagirdlərin fiziki durumuna uyğun şəkildə verilir. Təlim prosesində bu qrupdan olan şagirdlərə təlimin müxtəlif forma və üsullarından istifadə edərək xüsusi diqqətyetirilir.Fiziki hərəkətlərin təlimində hərəkətlər sadələşdirilmiş şəkildə verilir. Bu qrupda olan şagirdlərlə dərsin təşkili fərdi, qrup və kollektiv formasında təşkil olunur.

Xüsusi tibb qrupuna sağlamlığında məhdudiyyəti olan şagirdlər daxil edilir. Xüsusi tibb qrupuna daxil olan şagirdlər həm müvəqqəti, həm də daimi xarakterli ola bilər.Xüsusi tibb qrupuna daxil olan şagirdlərlə işin vəzifəsi:

-şagirdlərin fiziki məhdudiyyətini müəyyən edib ona uyğun təlim prosesi qurmaq;

-şagirdlərin fiziki məhdudiyyətinin funksiyalarının artırılması və bərpası;

-şagirdlərdə özünə inam hissinin artırılması və həyatla əlaqələrin genişləndirilməsi;

-şagirdlərin orqanizmində xarici mühid amillərinə qarşı müqavimətin artırılası;

-şagirdlərdə zəifləmiş orqnın bərpası və düzgün qamətin inkişaf etdirlməsi;

-şagirdlərin işgörmə qabiliyyətinin artırılması üçün ağ ciyərlərin həyat tutumunun səviyyəsini artırmaq və əzələlərinin işgörməqabiliyyətini yüksəltmək;

-şagirdlərin fiziki məhdudiyyətinə uyğun onlarda hərəki bacarıq və vərdişlərin formalaşdırılması;

-şagirdlərin psixoloji vəziyyətinin inkişaf etdirilməsi;

-şagirdlərlə düzgün gün rejiminin qurulması;

-şagirdlərin gələcək əmək həyatına hazırlanması.(1,səh.115)

Bu vəzifələrin həlli üçün fiziki tərbiyə müəllimi məktəbin həkimi ilə birgə fəaliyyət aparır.

Ənənəvi təlimdən fərqli olaraq müasir təlim prosesinin fərqli cəhətlərindən biridə şagirdlərlə aparılan inkluziv təlim prosesidir. Müasir təlim prosesi şagirdlərin tibb qruplarına bölünməsinin əleyhinədir. Çünki, şagirdlər tibb qruplarına bölünüb ayrılıqda dərs keçərsə şagird özünü cəmiyyətdən ayrılmış hiss edir. Həmin şagirdlər özlərini mənən sınmış, psixoloji cəhətdən cəmiyyətə hazırlıqsız hiss edirlər. Sadəcə fiziki tərbiyə müəllimi məktəbin həkimi ilə birlikdə tədris ilinin əvvəlində tibbi yoxlama apararaq hər bir şagird haqqında məlumat əldə edir və təlim prosesində nəzərə alır.Fiziki tərbiyə dərslərinin təşkili zamanı müasir təlim texnologiyalarından istifadə etmək, fiziki məhdudiy-

yətli şagirdlərin kollektivə, cəmiyyətə uyğunlaşmasını və gələcək əməyə hazırlanması üçün şagirdlərin sağlamlığının möhkəmlənməsini təmin etməlidirlər.

BRİTİSH COUNCİL şirkətinin 2008-ci ildə təşkil etdiyi Beynəlxalq idman həyacanı TOPs Təlimatçıları üçün Təlim kurslarında iştirak edərək baş müəllim dərəcəsi aldığım üçün bu proqram haqqında məlumat vermək istərdim.

TOPs-Britaniyanın Gənclər İdman Fondunun (Youth Sport Trust) mütəxəsisləri tərəfindən yaradılmış və uzun illərdir dövlət səviyyəsində tətbiq olunan ən uğurlu fiziki tərbiyə metodikası hesab edilir. TOPs proqramı fiziki tərbiyə dərslərinin təşkili zamanı müəllim fəaliyyətinin düzgün tənzimlənməsində istifadə olunan bir metoddur. TOPs proqramının əsasını STEPS(Addım) və SMİLES (Təbəssüm) prinsipləri əsasında hazırlanmış metodik kartlar təşkil edir. Müəllimlər müasir fiziki tərbiyə dərslərində STEPS(Addım) və SMİLES(Təbəssüm) prinsiplərindən istifadə edərək şagirdlər arasında fiziki məhdudiyyətinə fərq qoymayaraq interaktiv şəkildə **“Şən”,“Təhlükəsiz”**və **“İnklüziv”** dərsin tədrisinə və lazım olan nəticələrin əldə edilməsinə nail ola bilərlər. TOPs metodikası ilə fiziki tərbiyə dərslərinin təşkili üçün özgüvənli, yerləşdiyi mühitə, şəraitə, əldə olan ləvazimata və uşaqların fiziki hazırlığına uyğun müasir təlim prosesini təşkil edən müəllim hazırlamaq mümkündür. Bu metodla şagirdlər təlim prosesində şagirdlər daha aktiv olurlar. Ona görə ki, təcrübəli müəllim mövzunu izah edərkən şagirdlər qulaqları ilə eşidir, praktik göstərərkən gözləri ilə görür, hərəkəti tətbiq edərkən bədəni ilə hiss edirlər. Mütəfəkkirlərin dediyi kimi:

Mənə de-yadda saxlayım.

Mənə göstər-yadda saxlayım.

Məni cəlb et-öyrənim.

Fiziki tərbiyə müəllimi bilməlidir ki, uşaqlar müxtəlif üsullarla dərk edirlər, fiziki bacarıq və vərdişlərə yiyələnirlər.Fiziki tərbiyə müəllimi daim iş faəliyyətində şagirdlərə sağlam həyat tərzi haqqında məlumat verməli, fiziki aktiv olmaq, zərərli vərdişlərdən uzaq olmağı təbliq etməli, hamının təlim prosesinə cəlb etməklə inklüziv təlimi təşkil etməlidir.

STEPS (Addım) və **SMİLES (Təbəssüm**) prinsiplərindən təlim prosesində aşağıdakı formada istifadə etmək olar.

(STEPS) Addım

S (Spase) Məkan. Təlim prosesinin keçirildiyi yer. Təlim prosesi bacarıqlı müəllim tərəfindən yerləşdiyi məkana uyğun təşkil edir.

T (Task)Tapşırıq.Təlim prosesində tapşırıqlar şagirdlərin fiziki hazırlığına və sağlamlıq imkanlarına görə verilir.

E (Epuipment) Ləvazimat. Təlim prosesi əldə edilən ləvazimata uyğun qurulur.

P (People) İnsanlar).Təlim prosesi şagirdlərin sağlamlığına, fiziki məhdudiyyətinə və fiziki hazırlığına görə təşkil edilir.

S (Success)Uğur. Bu hər kəsin fiziki imkanlarına uyğun uğur qazanması üçün yaradılan şəraitdir.

Smiles- (Təbəssüm)

S Safety (Təhlükəsizlik). Təlim prosesinə başlamazdan əvvəl idman zalının, avadanlıqların tam təhlükəsizliyini təmin etmək və təlim zamanı təhlükəsizlik qaydalarına riayət etmək.

M (**Maximum participation) Maksimum iştirak.**Təlim prosesində şagirdlərin maksimum iştirakını təmin etmək.Uşaqların təlim prosesində uzun müddət dayanaraq növbəsinin gözləməsinin qarşısını almaq. Fiziki yükün normal verilməsini təmin etmək.

İ (İnvolvement) İnklüziv təhsil (hamının birgə təhsili) (inclusion, İnvolvement). Heç kəs kənarda qalmamalıdır, heç kəs dominant olmamalıdır.

L (Learning) öyrənmə. Məqsəd irəliləmə və bacarıqların inkişafı.

E (Enjoyment) həzz, zövq. Təlim prosesi elə keçirilməlidir ki, hər kəs həzz (zövq) alsın

S (Success) uğur. Təlim prosesində hər kəs bir qədər uğur əldə etməlidir.(2, səh.38)

Məlumdur ki, dünyada və ölkəmizdə paraolimpiya idman komitəsi fəaliyyət göstərir. Ölkəmizdə paraolimpiyaçılar üçün Dövlətimizhər bir şərait yaradır və dövlət qayğısı göstərir.Fiziki tərbiyə müəllimləri təlim prosesini düzgün quraraq fiziki məhdudiyyətli şagirdlərdə psixoloji cəhətdən özünə inamını təmin etməli, onların fiziki imkanlarını ortaya çıxararaq gələcəkdə yüksək dərəcəl mütə-

xəsislərin hazırlanmasına istiqamətləndirməlidir. Bu günün fiziki məhdudiyyətli şagirdi gələcəyin Dünya və Olimpiya çempionlarıdır.

Ədəbiyyat

1. Nazim Əlicanov "Bədən tərbiyənin nəzəriyyəsi və metodikası" (dərslik) II hissə, Bakı: "Müəllim" nəşriyyatı, 2020.
2. TOPS təlimi üzrə köməkçi materiallar, Beynəlxalq idman həyacanı Azərbaycan 2008.

İNKLÜZİV BAĞÇALAR SİM UŞAQLAR ÜÇÜN İDEAL BİR BAŞLANĞIÇ KİMİ

Lalə İmanova
ADPU, ped.ü.f.d
l.imanova@adpu.edu.az

Summary

İnclusiveness means that all children naturally enter a group, play together and learn about the world. Staying in an inclusive kindergarten or other preschool educational institution in many cases brings great benefits to children with disabilities. If parents of normotypic children perceive kindergartens as a place where their child can play and communicate with peers, then for parents of "special" children, inclusive preschool institutions can become a place where their child will be socially adapted and develop intellectually.

Key words*: preschool, inclusion, children with disabilities, educators, special staff*

Резюме

Инклюзивность означает, что все дети естественным образом входят в группу, играют вместе и познают мир. Пребывание в инклюзивном детском саду или другом дошкольном учреждении во многих случаях приносит большую пользу детям с ограниченными возможностями. В то время как родители нормотипичных детей рассматривают детские сады как место, где их ребенок может играть и общаться со сверстниками, дошкольные учреждения, в которые входят родители "особых" детей, могут быть местом, где их дети будут социально адаптированы и интеллектуально развиты.

Ключевые слова*: дошкольное учереждение, инклюзия, дети с ограниченными возможностями, воспитатели, специальный персонал*

İnklüziv bağçalar SİM uşaqlar üçün ideal bir başlanğıç kimi ola bilərdi. Lakin hal-hazırda ölkəmizdə həyata kecirilən inklüziv təhsillə bağlı layihədə məktəbəqədər müəssisələrdə inklüziv təhsil nəzərdə tutulmayıb.

Ailənin, uşağın şəxsiyyətinin formalaşması prosesində yaxın ətraf mühitin böyük rolu səbəbindən bu inkişafı maksimum dərəcədə stimullaşdıran, uşağın zehni vəziyyətinə mənfi təsirini hamarlaşdıran cəmiyyətin bir təşkili lazımdır. Bu təşkil məhz inklüziv bağça ola bilər.

İnklüzivlik o deməkdir ki, bütün uşaqlar təbii olaraq bir qrupa daxil olur, birlikdə oynayır və dünyanı öyrənirlər. İnklüziv uşaq bağçasında və ya digər məktəbəqədər təhsil müəssisəsində qalmaq bir çox hallarda əlil uşaqlara böyük fayda gətirir.

Məktəbəqədər təhsil müəssisəsinə gəlməzdən əvvəl bir uşaq ümumiyyətlə yalnız bir qrup insanla – ailəsi ilə tanışdır. Uşaq bağçasında qrupa daxil olduqda, körpə bu insanların Onu qəbul etdiyini hiss etməlidir, çünki bu uşaq bərabər hüquqlarla onların qrupuna daxil olur. Şəxsiyyətinin ortaya çıxması üçün həlledici rol oynayan məhz bu amildir. Və bu xüsusilə SİM uşaqlar üçün vacibdir. Adətən, uşağın bütün xüsusiyyətləri ilə bir bağça qrupuna qəbul edilməsi bütün sonrakı həyatına böyük təsir göstərir

Məktəbəqədər təhsilin humanistləşmə istiqamətində inkişafı inklüziv dəyərlərin təcəssümü sayəsində həyata keçirilən sistemli dəyişikliklər tələb edir. Uşaq bağçalarındakı dəyişikliklərin və yeniləmələrin sadəcə "yaxşılaşdırma" ilə bitməməsi, əksinə aşağıdakı cəhətləri nəzərə alması vacibdir:

- müəssisənin ümumi psixoloji atmosferi;
- müəllimlər, uşaqlar və valideynlər arasındakı münasibətlər sistemi;
- hər uşağa diqqət;
- müəssisənin inkişafında cəmiyyətin iştirakının mümkünlüyü və s.

Uşaq bağçalarında inklüzivlik necə təşkil olunmalıdır?

Normotipik uşaqların valideynləri uşaq bağçalarını uşağının həmyaşıdları ilə oynaya biləcəyi və ünsiyyət qura biləcəyi bir yer kimi qəbul edirlərsə, "xüsusi" uşaqların valideynləri üçün daxil olan məktəbəqədər təhsil müəssisələri övladlarının sosial cəhətdən uyğunlaşacağı və intellektual inkişaf edəcəyi bir yer ola bilər.

Məktəbəqədər təhsil müəssisəsində inklüziv təhsil SİM olan uşaqların tam hüquqlu bir cəmiyyətdə inkişaf etməsinə imkan verən yeni bir təhsil sistemidir. Bu təhsil sistemi bütün uşaqların bərabər qəbul edilməsini və hər bir uşağın xüsusiyyətlərini nəzərə alaraq öyrənməyə fərdi yanaşmanın tətbiq edilməsini nəzərdə tutur. Nəticədə uşaqlar cəmiyyətin tam hüquqlu hissələrinə çevrilirlər.

Məktəbəqədər müəssisələrdə inklüziv təhsilin üç şərti:

- uşaqların bütün öyrənmə imkanları, fəaliyyətləri və təcrübələri əlçatandır.
- uşaqlar mənalı şəkildə gündəlik həyata daxil edilir.
- ailələri, müəllimləri və işçiləri işə cəlb etmək üçün infrastruktur və proqram dəstəyi istifadə olunur.

Məktəbəqədər müəssisələrdə inklüziv təhsilin vəzifələri

- inklüziv təhsil siyasətinin müəssisə səviyyəsində həyata keçirilməsi (daxili normativ sənədlər);
- təhsil prosesinin təşkili üçün mövcud təcrübənin inklüziv yanaşmalarla zənginləşdirilməsi.

İnklüziv dəyərlər aşağıdakı daxilolma məqsədlərini təmin edən sosial cəhətdən təsdiqlənmiş yanaşmalardır:

- yaşayış yerindəki bütün uşaqların uğurlu təhsili və inkişafı imkanı;
- hər kəsə bütövün bir hissəsi kimi hiss etməyə kömək edir;
- uşaqların, valideynlərin, müəllimlərin yaradıcı təşəbbüsünün inkişafına kömək etmək;

Bu yanaşma dəyərlər əsasında işdə bir sıra prioritetlərin dəyişdirilməsini tələb edir, bunlar arasında:

- struktur dəyərləri-təhsil prosesinin bütün iştirakçılarının bərabərliyi, hər kəsin hüquqlarının təmin edilməsi, cəmiyyətə güvənilməsi, davamlı inkişafın təmin edilməsi;
- münasibətlərlə əlaqəli dəyərlər-müxtəlifliyə hörmət, şiddətin olmaması, etibar, empatiya, dürüstlük, cəsarət;
- əxlaqi keyfiyyətlər-quruluşda şən əhval-ruhiyyənin üstünlük təşkil etməsi, bir-birinə sevgi və hörmət, ümid və nikbinlik, münasibətlərdə səmimiyyət, ətrafdakı gözəllik.

Əlil uşaqlar inklüziv məktəbəqədər müəssisələrdən sonra həyata nə qədər uyğunlaşırlar:

- Ümumi təhsil müəssisələrinə "daxil olan" əlilliyi olan şagirdlər məhdud şəraitdə yaşıdlarına nisbətən daha çox müsbət sosial və emosional davranış nümayiş etdirirlər.
- İlk illərdə daxil olma proqramları ilə təhsil alan şagirdlər, çox güman ki, bütün həmyaşıdları ilə daha fəal sosial qarşılıqlı əlaqə, daha az damğalanma hissi və təsirli akademik uğurlar nümayiş etdirəcəklər.
- Daha yüksək gözləntilər nəticədə əlil uşaqlara daha çox şey əldə etdirir, özünə inam və müstəqillik qazandırır və daha güclü bir mənlik hissi inkişaf etdirir.

Həmişə olduğu kimi-inkişaf etməkdə olan uşaqlar məktəbəqədər müəssisələrdə daxil olmaqdan faydalanırlar:

Tipik həmyaşıdları SİM olan həmyaşıdları üçün təqlid obyektinə çevrildikləri üçün özünə inam və liderlik bacarıqlarını inkişaf etdirirlər. Və onlar nümayiş etdirirlər:

- həmyaşıdlarına daha müsbət münasibət;
- sosial bacarıqların artırılması (məsələn, qarşılıqlı fəaliyyətə başlamaq, danışıqlar);
- ədalət, mərhəmət və tolerantlıq hissi;
- əlilliyi olan həmyaşıdları üçün həm sosial, həm də akademik davranışların modelləşdirilməsi.

Uşaq bağçası işçilərinə nəzarət və uşaq baxımı baxımından artan tələblər qoyulur. Bunun üçün daha çox kadr lazımdır. SİM uşaqlar uşaq bağçasına gələrsə, müəssisə əlçatanlıq baxımından xüsusi avadanlıq tələb edir. Əlverişli bir mühitin təşkili nümunəsi: əlil arabasında olan bir uşaq pilləkənlərdən istifadə edə bilməz, yəni panduslara və hətta liftlərə ehtiyac var. Qapılar müəyyən bir genişliyə sahib

olmalıdır, tualetlər bu cür uşaqların ehtiyacları üçün uyğunlaşdırılmalıdır. Üstəlik, inklüziv uşaq bağçalarının psixoloji yardim, loqopedik iş, fizioterapiya aparmaq imkanı olması arzu olunandir.

SİM bir uşaq məktəbəqədər müəssisəsinə gedəndə valideynləri üçün də ciddi bir sınaq olur. Əvvəlcə bütün bu müddət ərzində onlardan çox asılı olan körpələrinin indi yad insanlar tərəfindən xidmət ediləcəyinə alışmalı olacaqlar. Buna görə valideynlər üçün ilk gündən müəllimlərlə sıx əlaqə qurmaq çox vacibdir. Uşağın uyğunlaşması və gələcək inkişafı üçün birlikdə müzakirə etmək və planlar qurmaq lazımdır. Bunun üçün də kifayət qədər zaman lazımdır. Əlbəttə ki, valideynlər və müəllimlər qarşılıqlı səbr və diqqət göstərməlidirlər.

Bütün uşaqlar üçün uşaq bağçasında ilk dəfə olmaq həyəcan verici, çünki yeni bir mühitə və ətrafdakı insanlara alışmalıdır. SİM olan uşaqların valideynləri ilə xüsusi, çox sıx əlaqəsi var, çünki əvvəllər bütün vaxtlarını onlarla keçirirdilər və köməklərindən asılı idilər. Buna görə də, bu cür uşaqları tanımadığı bir vəziyyətə yavaş-yavaş və çox diqqətlə öyrətmək lazımdır.

Sonda qeyd etmək istəyirəm ki, ölkəmizdə hal-hazirda məktəbəqədər inklüziya olmasada, bu o demək deyilki, erkən inklüziya hec vaxt başlamayacaq. Azərbaycanın məktəbəqədər inklüziya təcrubəsi var (2005-2015-ci illərdə) və umid edirik ki, yaxın illərdə bu inklüziya forması yenidən bərpa olacaqdır.

Ədəbiyyat

1. Н.Микляева. 2019 год. «Специальное и инклюзивное образование для детей дошкольного возраста.» стр 98-101.

2. https://inkluzia.com.ua/ru/inkluzivna-grupa-v-dnz.-rekomendatsiyi-oblashtuvannya-prostoru./

3. http://fontanchik.edu.ru/svedeniya-ob-ou/inklyuzivnoe-obrazovanie-i-dostupnaya-sreda-v-detskom-sadu

4. https://www.unicef.org/belarus/

İNKLÜZİV TƏHSİLİN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜÇÜN MÜƏLLİMLƏR ARASINDA ƏMƏKDAŞLIĞIN VACİB PRİNSİPLƏRİ

Mehriban Kərimova
ADPU-nun Şəki filialı
kerimova.mexriban@mail.ru

Summary

For a long time it was believed that children with disabilities should study separately. However, studies have shown that the participation of such children in the lesson process, carried out jointly with other children, in the same class, benefits all participants in this process from an educational and social point of view. The article examines the principles of cooperation between teachers and their important aspects to improve inclusive education. For this purpose, examples of teachers cooperation models are shown.

Key words: *Inclusive classroom, collaborative learning, research groups, collaboration,modelsof cooperation*

Резюме

Долгое время считалось, что дети с ограниченными возможностями должны учиться раздельно. Но исследования показали, что участие таких детей в процессе занятий, проводимых совместно с другими детьми, в одном классе, приносит образовательную и социальную пользу всем участникам этого процесса. В статье рассмотрены принципы сотрудничества педагогов в целях совершенствования инклюзивного образования и их важные аспекты. С этой целью приведены примеры моделей сотрудничества педагогов.

Ключевые слова: *Инклюзивный класс, совместное обучение, исследовательские группы, сотрудничество, модели сотрудничества*

İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir(Dövlət Proqramı, 2017).

İnklüziv təhsil digər sahələrdən təcrid olunmuş şəkildə baş vermir. Hər hansı məktəbi inklüziv məktəbə çevirmək üçün müəllimlər, məktəb rəhbərləri və kollektiv birlikdə mürəkkəb bir yol qət edir. Müəllimlərin ən yaxşı öyrəndiyi mühit onlara dəstək verən, inam və paylaşma mədəniyyətinin olduğu

və birlikdə öyrəndikləri münbit mühitdir.Müəllimlər onlara kifayət qədər dəstək göstərildiyini bildikləri zaman, yeni tədris strategiyalarını təcrübədən keçirməyə daha həvəsli olurlar və tədris və öyrənmə prosesinin təkmilləşdirilməsində, bununla da təhsilalanların təlim nəticələrinin yaxşılaşdırılmasında daha fəal iştirak edirlər. Məktəblərdə müəllimlərin təlim icmalarının yaradılması əməkdaşlıq mədəniyyətinin yaradılmasına stimul verə bilər.

Bildiyimiz kimi öyrənmə sosial fəaliyyətdir. Müəllimlərin öyrənməsi üçün ən yaxşı vasitə əməkdaşlıq və iş yerində öyrənməkdir. Öyrənmə prosesi o zaman daha effektli olur ki, müəllimlər real həyatda yaşadıqları təcrübələri və çətinlikləri bir-biri ilə bölüşür və həll yollarını birgə formalaşdırırlar. İş yerində öyrənmə müəllimlərə öyrəndiklərini dərhal təcrübədən keçirmək imkanı verir.

Qeyd edək ki, müəllimlər inklüziv təhsili tətbiq edə bilmək üçün praktiki dəstəyə ehtiyac duyur. Bunu təmin etmək üçün peşəkar təlim icmaları (metodbirləşmələr) yaradılmalıdır (Grimes et al., 2018). Metodbirləşmələr şagirdlərin nailiyyətlərini yüksəltmək üçün davamlı olaraq müəllimlərin fəaliyyətini birgə tədbiq edirlər.

Şagirdlərin öyrənməsini təmin etmək məqsədilə metodbirləşmələrin qarşısında hansı əsas prinsiplər durur sualına cavab tapaq: Metodbirləşmələr (peşəkar təlim icması) praktiki tətbiq-etməyə və özünüqiymətləndirməyə şərait yaradan davamlı refleksiya prosesinə cəlb olunur.O, müəllimlərin təlim və öyrənmə prosesi barədə refleksiya etməsi üçün platforma kimi çıxış edir. Müəllimlər qarşıya çıxan problemlərə birgə baxır, həll edir və öyrəndiklərini dərhal sinif otağında təcrübədən keçirirlər. Metodbirləşmələrin əsas məqsədi “şagirdlərin sadəcə dərsdə iştirakını deyil, öyrənməsini təmin etmək”dir. Metodbirləşmələr hər bir şagirdin öyrənməsini təmin etmək öhdəliyini götürür və aşağıdakı kimi vacib suallara cavab axtarır:

1. Biz hər bir şagirdin nəyi öyrənməyini istəyirik?
2. Hər bir şagirdin bunu öyrəndiyini necə biləcəyik?
3. Şagird öyrənmədə çətinlik çəkəndə biz hansı tədbirləri görəcəyik?

Müəllimlər çox zaman qapılarını bağlayıb təcrid olunmuş şəraitdə işləməyə öyrə-şiblər.Uğurlu metodbirləşmələr güclü əməkdaşlıq mədəniyyətinə malik olur. Əməkdaşlıq üçün inam tələb olunur. Metodbirləşmələrin bütün üzvləri üçün rahat mühit yaratmaq və onlara hörmət etmək vacibdir. Bu, səmimi və məhsuldar müzakirələrə şərait yaradan, açıq, qayğıkeş və müsbət mühitə imkan yaradır. Əməkdaşlıq nəticəyə çatmaq üçün bir vasitədir, özü nəticə deyil. Metodbirləşmə kontekstində əməkdaşlıq dedikdə, müəllimlərin öz təlim praktikasına şagirdlər, heyət və məktəb üçün daha yaxşı nəticələr əldə etməyə imkan verən dəyişikliklər etmək üçün birgə çalışdığı sistemli proses nəzərdə tutulur.

Qeyd edək ki, diqqəti nəticələrə yönəltmək vacib prinsiplərdən biridir.Metodbir-ləşmənin məqsədi diqqətli şagirdlərin öyrənməsinə yönəltməkdir. Metodbirləşmələrin səmərəliliyi şagird nailiyyəti ilə ölçülür. Metodbirləşmələrin hər bir üzvünün irəliləyişi mün-təzəm monitorinq etməklə təlim nəticələrinin cari səviyyəsinin yaxşılaşdırılması məqsədini güdür. Nəticələrə bu cür köklənmə məktəbin və rayonun təhsil məqsədləri ilə uzlaşan, ölçülə bilən məqsədlərin qoyulmasına gətirib çıxarır. Onlar həm də bir-birindən öyrənmək, fərdi təlim fəaliyyətindəki güclü və zəif cəhətləri aşkar etmək üçün nəticələri incələyirlər. Ən əsası, qiymətləndirmələr öyrənmək üçün əlavə vaxta və dəstəyə ehtiyacı olan şagirdləri müəyyən etmək üçün istifadə edilir. Metodbirləşmələr bu prinsiplərə sadiq olarsa, bütün üzvlərin (müəllimlərin) yerli (məktəb əsaslı) təlim prosesində iştirakını təmin etmək üçün müvafiq strukturlar yaradılar. Metodbirləşmələrnin və təlim mədəniyyətinin dayanıqlılığını qorumaq üçün bütün məktəbin, o cümlədən məktəb rəhbərliyinin prosesə cəlb olunması vacibdir.Bunlar peşəkar təlim icmasının yaradılması üçün əsas elementlərdir.

Onu da qeyd edək ki, formal struktur vacibdir. Metodbirləşmələr birlikdə çalışmaq üçün protokollar yaradır, təlim sessiyaları üçün mütəmadi qrafik barədə razılığa gəlirlər.

Metodbirləşmələrin görüşlərinin əsas mövzuları şagirdlərin təliminə yönəlir və davamlı refleksiya ilə məşğul olur. Müəllimlər birlikdə sinifdəki hər hansı problemi təhlil edir, strategiyalar yaradır və onu dərhal təcrübədən keçirir, nəyin uğurlu, nəyin uğursuz alındığını qiymətləndirir. Prosesdə müəllim səriştəsi inkişaf edir, bu, təlim nəticələrinin yaxşılaşmasına gətirib çıxarır.

İnklüziv siniflərin yaradılması üçün müəllimlər öz potensiallarını artırmalıdırlar. Metod-birləşmələr müəllimlərin malik olduğu təcrübə və bilikləri təkmilləşdirir. Təlim və öyrənmə ilə bağlı məsə-

lələrin həll yolları müəllimlərin gündəlik təcrübələrində və üzləşdikləri çətin-liklərdədir. Müəllimlər arasında əməkdaşlıq fikirlərin və təlim strategiyalarının mübadiləsinə imkan verir (Grimes et al., 2019). Müəllimlər bir-birilərindən yeni biliklər əldə edir və sinifdə üzləşdikləri çətinliklərin öhdəsindən gəlmək üçün öz səriştələrini birlikdə artırırlar.

Müəllimlər arasında əməkdaşlıq modellərinin əhəmiyyətini araşdırsaq aşağıdakı nəticələrə gəlmək olar. Bu modellər müəllimlər arasındakı əməkdaşlığa şərait yaradır və davamlı peşəkar inkişafa töhvə verir. Bu modellərin uğurlu olmağının səbəbləri bunlardır:

1. Bu modellər müəllimə köklənir, müəllimlərin öz praktikaları baxımından hansı mərhələdə olmalarını müəyyən etməklə başlayır.Onların əməkdaşlıq və peşəkar inkişafa yönəlməsi müəllimlərin öz səriştələrini artırılmasında fərdi ehtiyaclarına uyğundur. Onlar modelləşdirmə, nəzarət, mentorluq və s. üçün imkanlar yaradır.

2. Bu modellər peşəkar təlim icmalarının yaradılması və öyrənmə ənənəsinin qorunub saxlanılmasına töhvə verir.

3. Bu modellər təlimin əsas prinsiplərinə - təhsilalanların necə öyrəndiyinə, dərslərin təhsilalanların öyrənməsi üzərində qurulmasına və dərslərin keçirilməsində ən yaxşı yanaşmalara yönəlir.

4. Bu modellər aktivdir və fəaliyyətə yönəlir.

5. Bu modellər yüksək səviyyədə planlaşdırılan və təkrarlanan proseslərdir. Onlar müəllimlər arasında əməkdaşlığı qoruyub saxlamaqla davamlı peşəkar inkişafla nəticələnir.

6. Bu modellər məktəb və iş əsaslıdır, bu da dərhal rəy almağa, yeni bilik və bacarıqları tətbiq etməyə imkan verir.

Araşdırmalarımıza görə müəllimlər arasında əməkdaşlıq modellərinin aşağıdakı kimi növləri vardır:

- Dərsin birgə tərtibatı
- Müşahidə və rəy
- Açıq dərs
- Tədqiqat qrupları
- Birgə təlim

Dərsin birgə tərtibatı modeli - bu modelə bəzən kurikulumun birgə planlaşdırılması, birgə dərs planlaşdırması, dərs tətdiqi və s. də deyilir.

Dərsin birgə tərtibatı modelində müəllimlər bir dərsi birlikdə planlaşdırır və ya təkmilləşdirir, onu sinifdə sınaqdan keçirir, müşahidə, dəyişikliklər edir və dərsin şagirdin öyrənməsinə təsirini müəyyən etmək üçün məlumatlar toplayırlar. Bu, bir neçə ay müddətində baş verir. Birgə dərs tərtibatı zamanı hər hansı bir müəllim müəyyən yanaşma əsasında (məsələn, didaktik metod və ya oxunulanların başa düşülməsi strategiyası) dərs və ya silsilə dərslərin planlaşdırılmasında bir müəllim və ya bir qrup müəllimlə işləyir.

Dərsin tərtibatı təlimin əsas elementlərini-məzmun, qiymətləndirmə və qarşılıqlı fəaliyyəti əhatə edir.Dərsin peşəkar inkişaf ekspertinin bələdçiliyi altında bir qrup həmkarla birlikdə planlaşdırılması çox zəngin təcrübə ola bilər. O, təlim və öyrənmə ilə bağlı müzakirəyə şərait yaradır, nəzəriyyəni təcrübə ilə əlaqələndirir,praktiki fəaliyyəti və refleksiyanı təşviq edir, müəllimlərin diqqətini konkret məsələlərə (materialların hazırlanması, qruplaşdırma, təlim nəticələrinin planlaşdırılması, nəticələrin təlimat və qiymətləndirmə ilə uzlaşdırılması və s.) yönəldir, seminarda və ya sinifdə əldə edilən bilikləri müəyyən etməyə və onu təcrübədə tətbiq etməyə imkan verir.

Müşahidə və rəy modeli - bu modeldə peşəkar inkişafı təmin edən tərəf - məktəbin baş müəllimi, mütəxəssis və ya çox təcrübəli bir müəllim həmkarlarının dərslərində müşahidə apararaq, onların fəaliyyətlərini qiymətləndirir və planlı rəy verir. Bu model seminarlardan sonra il ərzində vaxtaşırı dəstək tədbiri kimi istifadə edilə bilər.

Açıq dərs modeli - açıq dərsdə əsas diqqət müəllimin davranışına yetirilir. Müşahidədən sonra planlı müzakirə və informasiya mübadiləsi olduqda, təcrübəli müəllim açıq dərs verdikdə hər iki tərəf – həm dərsi keçən, həm də müşahidə edən müəllim üçün faydalı olur.

Tədqiqat qrupları modeli - müəllimlər vacib məsələlərlə bağlı öz həmkarları ilə formal müzakirə və qarşılıqlı təmasdan faydalanırlar. Tədqiqat qruplarında müəllimlər böyük qrup və ya kiçik qruplar

şəklində əməkdaşlıq edərək ümumi bir problemi həll etmək və ya ümumi bir məqsədə çatmaq üçün plan hazırlamaq və tətbiq etmək məqsədilə müəyyən bir məsələni tədqiq edirlər. Tədqiqat- (ixtisaslı bir təlimçinin rəhbərliyi altında aparılan oxuma, müzakirə, yazı və refleksiya) tədqiqat qrupunun əsas komponentidir. Tədqiqat prosesində onlar çap formasında olan resurslardan, sinif otağı materiallarından (məsələn, şagirdlərin hazırladığı işlər) və problemə yanaşmalarının bir hissəsi kimi öz təcrübələrindən istifadə edə bilirlər.

Birgə təlim modeli - birgə təlim zaman iki və daha artıq müəllim birlikdə dərs keçirlər (dərslərin birgə planlaşdırılması prosesi çərçivəsində hazırlanan dərslər kimi). Birgə təlimin çoxsaylı modelləri mövcuddur.Məsələn,birgə dərs keçən müəllimlər vəzifələrini zaman və məkan baxımdan bölə, paralel və ya növbəli həyata keçirə bilərlər.

Lakin birgə təlimin də öz çətinlikləri var. Birgə dərs keçən müəllimlər fərqli iş üslublarına və şəxsiyyətlərə malikdirlər, bu zaman dərsə nəzarətlə bağlı müəyyən dərəcədə güzəştə getməlidirlər. Birgə təlim texniki təchizat və təşkilatçılıq baxımından daha çox səy tələb edir. Sizi tanımayan şagirdlər üçün sizin sinifdə olmağınız son dərəcə vahiməli ola bilər.

Bu çətinliklərlə yanaşı, birgə təlimin faydaları çoxdur. Müəllimlərin seminarda və ya kursda öyrəndiklərini tətiq etmək üçün yaxşı yoldur. Birgə təlim müəllimlərə sinfi idarəetmədə kömək edir və real rejimində modelləşdirmə, plan və dəstək təmin edir.

Yuxarıda qeyd etdiyimiz təlim modellərinin əməkdaşlıq xarakteri gələcəkdə müəllimlər tərəfindən yeni təcrübələrin tətbiqinin çətinliyini azaldaraq onlara kömək edəcəkdir.

Ədəbiyyat

1. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2017).

2. Grimes, P., Marieke, S., Arlene dela, C., Tricia, M., & Kaisa Ligaya Sol, C.(2018).“İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının oxu materialı, 60-71.

3. Grimes, P., Marieke, S., Arlene dela, C., Tricia, M., & Kaisa Ligaya Sol, C. (2019).İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları, 21-37.

UŞAQLARDA PSİXİ İNKİŞAF LƏNGİMƏSİ VƏ SƏBƏBLƏRİ

Sevda Mansurova
Bakı Slavyan Universiteti, psixologiya üzrə fəlsəfə doktoru
sevda_mansurovai@mail ru

Summary

Mental developmental delay in children and its causes.

Novadays, a number of problems related to children are one of the pressing issues of concern to society among these problems, both their physical development problems and their level of psychic development are particularly noticeable/ In addition to the fact that a healthy, functional family plays a very large role,

Mental developmental delay is observed in children from an early age. So, it is possible to make this diagnosis of mental developmental delay is made at an older age, this indicates the presence of a more serious problem.

Key words*: mental development,family, society, learning, problem, factor.*

Резюме

Психическом развитии у детей и ее причины.

В современном мире обшество волнуют некоторые проблемы связанные с детми. Среди этих проблем значительное место занимают проблемы связанные как с физическим развитием, так и психическим развитием. На физическое и психическое здоровье детей влияют много факторов, среди которых значительное место принадлежит семье, а также немало важное значение имеет и генетический фактор.

Нарушения в психическом развитии наблюдаются у детей с раннего возраста. Этот диагноз можно поставит ребенку как в младенчестве, так и детям в дошкольном возрасте. Однако, если диагноз о нарушениях в психическом развитии ставится учащимся в старших классах, то это уже свидетельствует о более серьезных проблемах связанных с психическим здоровьем.

Ключевые слова*: психическое развитие, семья, общество, обучение, проблема, фактор.*

Müasir dövrdə uşaqlarla bağlı bir sıra problemlər cəmiyyəti narahat edən aktual məsələlərdəndir. Bu problemlər içərisində həm onların fiziki inkişaf problemləri, eyni zamanda psixi inkişaf səviyyələri xüsusilə nəzərə çarpandır. Uşaqların fiziki və psixi sağlamlığında sağlam, funksional ailənin cox böyük rolunun olması ilə yanaşı genetik faktorun da çox böyük rol oynadığını qeyd edə bilərik. Uşaqların psxi və fiziki inkişafı bir biri ilə əlaqəli prosesdir. Sağlam psixi inkiafın təməli ailədən başlayır. Sağlam ailə uşağın sağlam şəxsiyyət kimi böyüyüb formalaşmasında vacib şərtdir. Funksional (normal) ailə özünün çevik ierarxik hakimiyyət strukturu, aydın formalaşmış ailə qaydaları, güclü valideyin həmrəyliyi və nəsillər arasında səmimi və mehriban münasibətlərlə xarakterizə olunur. (Çələbiyev, 2015. s122)

Məqalənin əsas məqsədi son dövrlərdə aktual olan uşqlarda psixi inkişaf ləngiməsi və onun əsas səbəblərini araşdırmaqdır.

Ilk öncə psixi inkişaf ləngiməsinin nə olduğunu aydınlaşdıraq. Bu problem həm də bir çox mənbələrdə infantilizm adlandırılır. İnfantil uşaq dedikdə öz yaşıdları ilə müqayisə edildikdə həm emosional-iradi sferanın aşağı olması, həm də intellektual imkanları aşağı olnan uşaqlar nəzərdə tutulur. Psixi inkişaf ləngiməsi uşaqlarda erkən yaşlardan müşahidə olununr. Belə ki körpəlik dövründə və məktəbəqədər yaş dövründə bu diaqnozu qoymaq mümkündür. Lakin psixi inkişaf ləngiməsi diaqnozu daha yuxarı yaş dövründə qoyulursa bu daha ciddi problemin olmasına dəlalət edir. Bu halda oliqofreniyanın olması ehtimalı yüksəkdir.

Qeyd etdiyimiz kimi, psixi inişaf ləngiməsi problem ilə ailələr hələ körpələrinin erkən yaşlarından üzləşə bilərlər. Bəs bu problemin yaranma səbəbi nədir və belə olan halda valideyin necə davranalıdır.

Qeyd edə bilərik ki,uşaqlarda psixi inkişaf ləngiməsinin yaranmasına bir sıra faktorlar səbəb ola bilər. Bu faktorlara endogen, ekzogen və bioloji faktorları aid edə bilərik. Fərdi xüsusiyyətlərdənasılı olmayaraq insanın bütün inkişaf mərhələləriniardıcıl və fasiləsiz keçməli olduğu bir qanunauyğunluq vardır (Salamova, 2022 .s.32)

İlk öncə bioloji amilləri təhlil etsək qeyd edə bilərik ki, irsiyyətin rolu hər zaman olduğu kimi bu problemdə də az deyil. Bu xüsusilə genetik faktorlardan qaynaqlanır. Bildiyimiz kimi filogenetik inkişaf ictimai inkişafın irsi genlər vasitəsi ilə fərdə ötürülməsidir. Bilolgiya elmi həmin dövrün informasoyasısı daşıyan DNT üzərində olduqca uğurlu kəşflər etmişdir. Məhz DNT-nin daşıdığı informasiya hır hansı fərdin irsiyyəti haqqında dəqiq məlumat almaq imkanı verir (1,s.102).

Psixi inkişaf ləngiməsinə təsir edən endogen amillər dedikdə isə daxili səbəbdən yaranan amillər nəzərdə tutulur. Bu məqamda biz diqqəti xüsusilə hamiləlik dövrünə yönəltməliyik. Sağlam hamiləliyin keçməsi dünyaya gələcək döl üçün son dərəcə vacibdir. Bu fakt uzun illərdir ki, həm tibbi nöqteyi nəzərdən, həm də psixoloji aspektdən təsdiqlənmişdir. Dünyaya gələn çağanın həm fizioloji cəhətdən sağlam, həm də psixi inkişaf səviyyəsinin qanunauyğun şəkildə olması üçün hamiləlik dövrünün necə keçməsi cox vacibdir. Buna ananın düzgün qidalanmaması, nevropatiya, ümumi toksikoz, hamilə qadının keçirdiyi bir sıra infeksiyalar səbəb ola bilər.

Ekzogen faktorlara gəldikdə isə bu zaman psixi inkişaf ləngiməsinə səbəb ola biləcək xarici faktorlardan bəhs etməliyik. Bu faktorlardan birinə doğuş zamanı baş verən baş-beyin travmasını aid edə bilərik. Eyni zamanda ana bətnindəki dölün oksigen çatışmamazlığı yaranarsa bu hal da sonradan psixi inkişaf ləngiməsinə səbəb olan xarici faktor ola bilər. Məlumdur ki, ananın hamiləlik müddətində daha cox havada gəzməyi, oksigenlə zəngin mühitdə olması çox vacibdir. Bu uşağın sağlam dünyaya gəlməsi üçün mühüm olan şərtlərdən biridir. Bununla yanaşı uşaq doğulduqdan sonra erkən yaşlarda keçirdiyi xəstəliklər də psixi inkişaf ləngiməsinə yol açа bilər. Bu baxımdan hamiləliyin sağlam keçməsi uşağın sağlam dünyaya gəlməsinə cox böyük təsir göstərir. Əks halda isə uşaqda bir sıra problemlər yarada bilər. İnkişaf ləngiməsi də bu problemlərdəndir.

Qeyd etməliyik ki, bəzən valideyinlər uşaqlarda olan bu problemi gec anlayır, bu da onların psixi inkişafın qanunauyğunluqları haqqında az biliklərə malik olmaları, inkişaf ləngiməsinin təzahür xüsusiyyətlərini bilməmələrindən irəli gəlir. İlk olaraq onu qeyd edə bilərik ki, psixi inkişaf ləngiməsi problem yaşayan uşaqlar təlim fəaliyyətinə hazır olmurlar.

Bildiyimiz kimi 5 yaşından etibarən məktəbəqədər yaşlı uşaqların aparıcı fəaliyyəti təlim fəaliyyətidir. Hər bir sağlam uşaq rollu oyunlarla yanaşı təlimə maraq göstərməyə başlayır. Onların oyunla-

rının əsas sujet xəttini təlim fəaliyyəti təşkil etməyə başlayır. Eyni zamanda onlar öz oyunlarında dərs prosesini canlandıraraq təlim prosesinə maraq göstərdiklərini nümayiş etdirirlər. Bu da onlarda emosional-iradi sferanın və dərketmə fəaliyyətinin qanunauyğun inkişaf etməsindən xəbər verir. Psixi inkişaf ləngiməsi olan uşaqlarda isə əksinə olaraq fiziki və psixoloji olaraq məktəbə hazır olmurlar. Öz yaşıdları ilə müqayisədə onlarda bəzi funksiyalar və psixi proseslər zəif inkişaf edir. Psixi proseslər lazımi səviyyədə inkişaf etmir. Daha dəqiq desək təfəkkür prosesləri, fikri əməliyyatlarda problemlər yaranır. Onlarda təhlil-tərkib, ümumiləşdirmə, müqayisə etmə əməliyyatlarında çətinliklər yaranır. Bu da təbii ki, öz növbəsində dərketmə proseslərinə də təsir göstərir. Belə uşaqlarda təsəvvür etmək də çətinliklə alınır. Bununla yanaşı dərketmə fəaliyyəti daha az yaşlı uşaqların dərketmə fəaliyyətinə uyğun olur. İradi-emosional sferanın inkişafına görə də belə uşaqlar geri qalır. Bunun fonunda da ümumi bilikləri az olur. Geniş dünyagörüşünə malik olmurlat. Ətraf aləm haqqında qeyri-dəqiq informasiyaya malik olması, ümumi biliklərinin az olması psixi inkişaf ləngiməsi problemi zamanı müşahidə olunan xüsusiyyətlərdir. Bununlayanaşı belə uşaqlar müstəqil olaraq, yaxınlarının köməyi olmadan hər hansı bir işlə çətinliklə məşğul olurlar. Hərəkətlərində məntiqsiz davranışlar göstərir, zəif iradəyə malik olurlar. İntellektual potensialları da aşağı olur. Belə ki, həm intellektual imkan olaraq zəif olur, həm də təlim prosesinə maraq göstərmirlər. Belə olan halda uşaq təlimdən geri qalır və bunun da aradan qaldırılmaması daha ciddi problemlərə gətirib çıxarır.

Təbii ki, hər bir valideyin problemin bu qədir bariz təzahürünü görüb və mütləq tədbir görməlidir. Problem nə qədər tez aradan qaldırılarsa o qədər də effektiv nəticə almaq olar. Mütəxəsisə müraciət etmək bu kimi hallarda ən doğru seçimdir. Lakin bu zaman təkcə mütəxəsisin müdaxiləsi ilə kifayətlənmək də doğru deyil, Valideyin də bu zaman mütləq birgə fəaliyyətdə iştirak etməlidir. Psixi inkişaf ləngiməsi probleminin müalicəsi birgə fəaliyyət prosesində daha effektiv nəticə göstərir.

Psixi inkişaf ləngiməsi problemini valideyinlər bəzən nitq inkişafının ləngiməsi zamanı aşkar edirlər. Nitq inkişafında geriləmə son dövrlərdə daha çox müşahidə olunan haldır. Bəzən bu problemi daha tez görən valideyin dərhal müdaxilə edərək həm nitq ləngiməsinə eyni zamanda psixi inkişaf ləngiməsinə daha tez müdaxiləni təmin edir. Məlum faktdır ki, nitq prosesində geriləmə vaxtında bərpa olunmazsa uşaqlarda psixi geriləməyə zəmin yaradır və bu da onların təlim fəaliyyətinə, eyni zamanda həmyaşıdları ilə ünsiyyət qurmalarına mane olur.Bu zaman uşaqların təfəküründə də geriləmə müşahidə olunur. Lakin bu o demək deyildir ki, nitq prosesini ləngiməsi psixi inkişaf lngiməsinin nəticəsidir. Uşaqlarda anadangəlmə yaranan bir sıra xəstəliklər onların nitqının ləngiməsinə də səbəb ola bilər.

Əsasən valideyinlər bu halı uşağın təqribən 5 yaşından etibarən fərqinə varırlar. Bu da təbii ki, artıq bu dövrdə uşağın öz həmyaşıdları ilə aktiv münasibət qurması, ünsiyyətə girməsi vacib hesab edilən bir dövrdür. Bunun baş vermədiyini görən valideyin isə artıq təşvişə düşür, problem olduğunu anlayır və mütəxəsisə müraciət edir. Bu zaman mütəxəsis uşaqda təkcə nitq inkişaf ləngiməsi deyil, həm də psixi inkişaf ləngiməsi əlamətlərinin olduğunu qeyd edir. Bu mərhələdə problemi aradan qaldırmaq çətinləşir. Problem nə qədər teş aşkarlanarsa ona müdaxilə və ya aradan qaldırmaq bir o qədər tez nəticəverər. Hətta 2 yaşına qədər uşaqda psixi inişaf ləngiməsi problemi görülərsə onu tamamilə aradan qaldırmaq kompleks yanaşma ilə mümkündür.

Hamiləlik dövründə ağır infeksiyaların uşağa keçməsi, mərkəzi sinir sisteminin funksiyalarının pozulması nəticəsində psixi inkişaf ləngiməsi ilə yanaşı, autizm xəstəliyinin elementləri də özünü göstərməyə başlayır.

Psixi inkişafın qanunauyğunluqlarına nəzər salsaq, hər bir yaş dövründə aprıcı fəaliyyətin biri birini əvəz etməsi və bu fəaliyyətin tam təmin olunması sağlam psixi inkişafın vacib şərtlərindəndir. Hər bir yaş dövründə körpənin inkişafı və xüsusilə də aparıcı fəaliyyətin onun inkişafına təsiri valideynin diqqətindən qaçmır.Xüsusilə də sosial qrupların psixoloji xarakteristikasından belə aydın olur ki, rollu oyunlar zamanı qeyd edilənlərlə yanaşı ünsiyyət tələbatı formalaşır, sosiallaşma gedir, ixtiyari davranışın dinamik inkişafı baş verir (Əmrahlı, 2020, s.28).

Ümumiyyətlə uşaqların həm fiziki və psixi inkişafı valideyinlərin diqqət mərkəzində olmalıdır. Onlarrın həyatlarının ilk aparıcı fəaliyyəti olan vasitəsiz-emosional ünsiyyət çağanın psixi inkişafı üçün təməl rolunu oynayır. Bu dövrün normal keçməsi növbəti mərhələ üçün vacib şərt hesab olunur. Əşyavi manipulyativ fəaliyyət də uşaqların inkişafında çox önəmlidir. Xüsusilə ailələrdə sağlam psixoloji

iqlimin olması, ailədə şəxsiyyətlərarası münasibətlərin düzgün qurulması, sevgi, diqqət qayğının uşağı əhatə etməsi onun sağlam inkişafı üçün şərtdir. Konfliktlərin olması isə ailədi psixoloji iqlimə mənfi təsir göstərir. Konfliktli ailədə formalaşan mənfi ünsiyyət təcrübəsi get-gedə möhkəmlənir, dostluq və qarşılıqlı anlaşmaya əsaslanan səmimi ünsiyyət imkanları itirilir, psixi travmaya səbəb olan mənfi psixoemosionsl davranış tərzi formalaşır (Çələbiyev, 2015, s.60).

Psixi inkişaf ləngiməsi zamanı uşaqlarda həm də emosional iradi sferanın zəif inkişaf etməsi, onun sosiallaşma bacarığının olmaması, yaşıdları ilə ünsiyyət qura bilməməsi, diqqət dağınıqlığı kimi halar müşahidə olunur.

Fizioloji baxımdan diqqətin paylanması onunla izah olunur ki, baş beyin qabığında optimal təsirlənmə halının mövcud olması ilə yanaşı, onun ayrı-ayrı sahələrində ancaq nisbi ləngimə yaranır ki, bu da həmin sahələrə eyni zamanda yerinə yetirilən hərəkətləri idarə etmək imkamı verir.Diqqətin paylanması insanın istər psixi, istərsə də fizioloji vəziyyətindən asılıdır. (Salamova, Məmmədov. 2020, 106 s.) Bu baxımdan uşaqların psixi inkişaf səviyyəsi onların diqqətlərinin paylanmasına xüsusilə təsir edir.

Psixi inkişaf ləngiməsi diaqnozlu uşaq təbii ki, təlim materiallarının qavranılması, diqqətin mərkəzləşməsi, fikri əməliyyatların icrası, eyni zamanda sosiallaşma, yaşıdları ilə ünsiyyət qura bilmə bacarığına və imkanlarına malik olmurlar. Məktəbə hazırlığın struktur komponentlərinə isə sosial-psixoloji hazırlıq, intellektual hazırlıq və emosional-iradi hazırıq aid edilir. Bu baxımdan məktəbə adaptasiya müddətində və təlim prosesində yarana biləcək problemlər aydın şəkildə görülməkdədir.

Təlimin psixi inkişafla qarşılıqlı əlaqəsi XX əsrdə pedaqoji psixologiyada aparılmış tədqiqatların əsas mövzusu olmuşdur. Əldə olunmuş nəticələrə görə, məktəbə hazırlıq ərəfəsində beynin morfofizioloji mexanizmləri başa çatmadıqda təlimin hər hansı təkmilləşdirici təsiri mümkün deyildir (Əmrahlı, Rzayevas, 2015.s.220). Bu xüsusiyyətləri nəzərə alaraq problemli uşağın mütəxəsis yardımı almadan, təlimə adaptasiyasında çətinliklər yaranacaqdır. Əksinə psixi inkişaf ləngiməsi diaqnozlu uşaqlar erkən yaşlardan aşkarlanıb kompleks müalicə alarsa, orta ümumtəhsil məktəblərində digər uşaqlarla təhsil ala bilərlər. Təbii ki, bu halda müəllimin fərdi yanaşma bacarığı da xüsusilə vacibdir.

Nəticə olaraq qeyd edə bilərik ki, uşaqlarda psixi inkişaf ləngiməsinin səbəbləri dedikdə doğuş zamanı beyin travmasının nəticəsində, infeksional xəstəliklər səbəbindən beyin funksiyalarının pozulması, eyni zamanda irsi amillərin təsiri və əlverişsiz ailə mühitinin olması hallarını qeyd edə bilərik. Problemi aradan qaldırmaq üçün təkcə xəstəliyi deyil, eyni zamanda onun səbəblərini də aradan qaldırmaq lazımdır.

Ədəbiyyat

1. Bayramov Ə.S.,Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-çap, 2002, 620 s.
2. L.Ş.Əmrahlı, N.T.Rzayeva Uşaq psixologiyası. Bakı. “Nurlan”, 2015,344s.
3. L.Ş.Əmrahlı Psixoloji treninq. Bakı. “Adiloğlu” 2020,256s.
4. Çələbiyev N.Z. Ailə psixologiyası, Bakı: Mütərcim, 2015, 424 s.
5. K.Salamova. Ümumi psixologiya. Bakı.”Füyuzat”. 2022.,448s.
6. K.Salamova, C.Məmmədov Dərketmə fəaliyyətinin psixologiyası Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi. 2020, 208s

NİTQİN İNKİŞAFINDA LƏNGİMƏSİ OLAN UŞAQLARIN CƏMİYYƏTƏ İNTEQRASİYA EDİLMƏSİNDƏ ÜNSİYYƏT VƏ MƏŞQLƏRİN ROLU

Kərim Məmmədov
Bakı Slavyan Universitetinin professoru

Summary

The article discusses the importance of communication in correcting speech deficiencies in children. It touches upon problems associated with stuttering, bradyllalia, tachylalia, the reasons for their occurrence, ways to eliminate them, and the role of communication and training in correcting speech deficiencies.

Key words: *speech impairment, integration, communication, correction, social adaptation, stuttering, bradycardia, tachylalia.*

Резюме

В статье рассматривается значение общения в коррекции речевых недостатков детей. Здесь затрагиваются проблемы, связанные с заиканием, брадилалией, тахилалией, причины их порождения, пути их устранения и роль общения и тренировки в коррекции речевых недостатков.

Ключевые слова: *речевые недостатки, интеграция, общение, коррекция, социальная адаптация, заикание, брадилалия, тахилалия.*

XX əsrin ortalarından başlayaraq bu günümüzə qədər nitqində qüsurları olan uşaqların cəmiyyətə inteqrasiya edilməsinə dair dünya alimləri müxtəlif istiqamətli tədqiqatlar aparmış, təqdirəlayiq nəticələr əldə etməyə nail ola bilmişlər. Elmi-texniki tərəqqinin inkişaf etdiyi müasir dövrümüzdə də bu problem öz aktuallığını saxlamaqdadır.

Müşahidələr göstərir ki, nitqində qüsurları olan uşaqlar daim ünsiyyətdən qaçır, dialoqdan uzaq durur, hər hansı bir fikrin tay-tuşları ilə bölüşməsindən yan keçməyə çalışırlar. Bu da öz növbəsində özünəqapanma hisslərini gücləndirir, onların psixi inkişafına mane olur, zehni, idraki fəaliyyətini məhdudlaşdırır. Bu qüsurlar həm də uşaqların emosional davranışına da mənfi təsir edir. Onlarda əsəbilik, dözümsüzlük hisslərini artırır. Onun bir şəxsiyyət kimi formalaşmasına mane olur.

Nitqdəki qüsurlar həm də təhsildə uşaqların geriləməsinə səbəb olur, onların ixtisas seçiminə, peşəyönümü fəaliyyətinə mənfi təsir edir.

Deyilən çatışmazlıqları aradan qaldırmaqdan ötrü nitqin korreksiya edilməsi işinə uşaqların ilkin yaşlarından başlanılması daha səmərəli nəticə əldə etməyə şərait yaradır. Uşaqların sosial adaptasiyasına münbit şərait yaradır.

Nitqin vaxtında korreksiya edilməsi uşaqlarda davranış təcrübəsinin formalaşmasına xidmət edir. Onlarda müsbət motivlər formalaşdırır. Müsbət nəticələr əldə etdikdə uşaqlarda özlərini cəmiyyətin fəal bir üzvü olmasına əminlik yaranır, onları kollektiv əməkdə iştirak etməyə sövq edir.

60 illik pedaqoji təcrübəmiz göstərir ki, nitqində qüsurlar olan uşaqların nitqinin korreksiya edilməsinin ən səmərəli yolu onlarla düzgün ünsiyyətin qurulmasıdır.

Nitq qüsurlarının etiologiyasını araşdıran alimlər onun bir neçə növlərini qeyd edirlər. Tədqiqatımızda onun ünsiyyət vasitəsi ilə daha asan islah edilməsi mümkün olan aşağıdakı üç növünə toxunmuşuq: kəkələmə (dispemiya), nitqin ləng həyata keçirilməsi (bradilaliya), nitqin tələsik həyata keçirilməsi (taxilaliya).

Tədqiqatçılar kəkələməni beynin hansısa təsir vasitəsi ilə zədələnməsi ilə əlaqələndirirlər. Kəkələmə anatomik proses olduğu üçün onun ünsiyyət vasitəsilə aradan qaldırılması uzun vaxt tələb edir. Bu uşaqların əsəb sisteminin pozulması ilə əlaqələndirilir.

Ləng danışma, ütələk danışma uşaqların psixoloji xüsusiyyətləri ilə bağlı olduğundan bunları məşq, özünənəzarət və s. amillərlə daha asan aradan qaldırmaq mümkün olur.

Bunun üçün aşağıdakı tələblərə əməl etmək yüksək nəticələr əldə etməyə şərait yarada bilir:

- İnandırma və tələqinetmənin düzgün həyata keçirilməsi;
- Releksasiya işinin düzgün aparılması;
- Bədii nümunələrin ifadəli oxunuşu;
- Rollu oyunların təşkili;
- Təntənəli gecələrdə onların çıxışlarının təşkili;
- Onların kollektiv əmək fəaliyyətinə cəlb edilməsi;
- Nitqin avtomatlaşmasına müntəzəm nəzarətin, özünənəzarətin həyata keçirilməsi.

Göstərilən tələblərin ardıcıl və müntəzəm həyata keçirilməsi nitqdəki qüsurların asan şəkildə islah edilməsinə xidmət edə bilər.

Ədəbiyyat

1. Жукова Н.С. (2021). Основы теории и практики логопедии. М., Эксмодетство, 288с.
2. Демина А.А. (2022). Логопедия. М., ДНП, 64 с.
3. Давудович Л.Р. (2014). Логопедия. Системное недоразвитие речи у детей школьного возраста. Учебное пособие. М., МПСН, 536 с.

XÜSUSİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN ƏMƏK TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

Yeganə Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
yeganememmedova.doc@gmail.com

Summary

Labor education is a complex process, a person's entry into various labor activities. The main task of labor education is the moral, psychological and practical preparation of the child for work. There is a specific task of labor education in special correctional schools. Labor education of children in special educational institutions is organized taking into account local conditions and needs. Labor training is one of the most necessary processes in correctional work, which directly affects the activation and development of mental, mental and physical activity.

Key words: *Special education, labor education, correctional work, disabled children, health environment.*

Резюме

Трудовое воспитание – сложный процесс, вступление человека в разнообразную трудовую деятельность. Основная задача трудового воспитания — моральная, психологическая и практическая подготовка ребенка к труду. Существует конкретная задача трудового воспитания в специальных коррекционных школах. Трудовое воспитание детей в специальных образовательных учреждениях организуется с учетом местных условий и потребностей. Трудовое обучение является одним из наиболее необходимых процессов в коррекционной работе, который непосредственно влияет на активизацию и развитие умственной, умственной и физической деятельности.

Ключевые слова:*Специальное образование, трудовое воспитание, коррекционная работа, дети-инвалиды, медико-санитарная среда.*

Xüsusi təhsil müəssisələrindəuşaqların əməyə hazırlığının təşkili korreksiya-bərpa və sağlamlaşdırıcı mahiyyət daşıyır. Əmək təliminin məzmununa inkişaf qüsurlu uşaqların əmək fəaliyyətinin ayrı-ayrı tərəflərini (intellektual, hərəkət və nitq prosesləri, işqabiliyyəti və s.) əhatə edir. Uşaqların əmək fəaliyyətində və inkişafındakı çatışmazlıqların aradan qaldırılması xüsusi məktəblər üçün spesifik xarakter daşıyır və özündə əmək təliminin məzmunu ilə bilavasitə bağlı bir sıra özəl vəzifələri daxil edir.

Əmək tərbiyəsi- mürəkkəb proses olub, insanın müxtəlif əmək fəaliyyətinə daxil olmasıdır. Əmək tərbiyəsinin əsas vəzifəsi uşağın əməyə mənəvi, psixoloji və praktik hazırlanmasıdır. Kütləvi ümumtəhsil məktəblərindən fərqli olaraq xüsusi korreksiya məktəblərində əmək tərbiyəsinin spesifik vəzifəsi vardır. Bu sağlamlıq imkanları məhdud uşaqlarda birincili qüsurun təsiri ilə bağlı çatışmazlıqların aradan qaldırılmasıdır. Əmək təliminin ənvacib komponenti- uşaqlarda əməyə müsbət münasibətin formalaşdırılmasıdır. O özündə həm dünyagörüşü, həm də mənəvi cəhətləri birləşdirir. Birinci cəhət əməyə həyatın əsası, cəmiyyətin, insanın özünün inkişafının mənbəyi, hər bir insana və özünə qayğı kimi münasibəti əks etdirir. İkinci cəhət isə insanı zəhmətkeş kimi dəyərləndirməyi, öz işinin ustası, yaradıcı, cəmiyyət və insanın faydası üçün işləməyə can atan şəxsiyyət kimi qəbul etməyi özündə əks etdirir.

Əmək tərbiyəsinə mənəvi hazırlığı əməyin mahiyyətini (maddi gəlir vasitəsi, işin sevinci, digər insanlara fayda vermək kimi) dərk etmək, mənəvi keyfiyyətlərin (işə vicdanla yanaşmaq, fəaliyyətdə uğura nail olmağa inad və fəallıq göstərmək, ümumi məqsəd naminə kollektivdə işləmək, kömək göstərməyə hazır olmaq və s.) formalaşdırmasına can atmaq təşkil edir.

Əmək tərbiyəsinə psixoloji hazırlıq dedikdə insanların faydası üçün tapşırılan hər hansı bir işi keyfiyyət və həvəslə yerinə yetirmək, başlanmış işi var gücü ilə sona çatdırmaq başa düşülür.

Xüsusi təhsil müəssisələrində uşaqların əmək tərbiyəsi yerli şərait və tələbatların nəzərə alınması ilə təşkil olunur. Əmək tərbiyəsi əqli, psixi və fiziki fəaliyyətin fəallaşmasına və inkişafına birbaşa təsir göstərən, korreksiya-bərpa işində ən gərəkli proseslərdən biridir. Xüsusi təhsil müəssisələrində uşaqların əmək təlimi, istehsalat-əmək hazırlığı və peşəyönümü təlim-tərbiyə işinin əsas hissəsi olub, sağlamlıq imkanları məhdud uşaqların sosial-əmək və sosial məişət yönümlü problemlərinin həllinə kömək edir. Əmək təlimi kütləvi məktəblər üçün olan proqramlar əsasında, lakin onun inkişaf qüsurlu

şagirdlərin xüsusiyyətlərinənəzərə alınmaqla adaptasiya edilərək, bir neçə mərhələdə tədris olunur. Belə ki, kütləvi ümumtəhsil məktəblərindən fərqli olaraq xüsusi təhsil müəssisələrində uşaqların əmək təlimi özünəməxsus mövzu, məqsəd, vəzifə, forma, təşkilati-pedaqoji və metodiki xüsusiyyətlərə malikdir.

Xüsusi məktəblərdə kütləvi ümumtəhsil məktəblərdə olduğu kimi əmək tərbiyə sisteminin aşağıdakı formalarından istifadə olunur:

- təlim prosesində əmək tərbiyəsi;
- sinifdənxaric əmək;
- uşaqların özünəxidmət əməyi;
- ictimai faydalı əmək (iməcliklər, məktəbdə sanitar günü və s.);
- uşaqların istehsalat əməyi (Hüseynova, 2006, s.38).

Təlim əməyi-tədris fənlərinin təlimi prosesində uşaqların fəal fəaliyyətini, tapşırıq və çalışmaların vaxtında və düzgün yerinə yetirməyi nəzərdə tutur.Təlim əməyi inkişaf qüsurlu uşaqdan diqqət, əqli fəaliyət, iradə və böyük səy tələb edir.

Sinifdənxaric əmək - məktəbdə təşkil edilmiş dərnəklərdə aparılan işi nəzərdə tutur. Xüsusi məktəblərin əksəriyyətində xalçaçılıq, ağac üzərində oyma, metal üzərində döymə və bu kimi dərnəklər fəaliyyət göstərir. Bu dərnəklərdə uşaqlara praktik əmək vərdişləri aşılanmaqla yanaşı, həm də peşə hazırlığı istiqamətində də işlər aparılır.

Özünə xidmət əməyi psixo-fiziki çatışmazlıqları olan uşaqların əmək təlimində xüsusi yer tutur. Uşaqlarınsanitar-gigiyenikvərdişlərə, yatağınıyığışdırmaq, özünü səliqəyə salmaq, müstəqil soyunub-geyinmək, yuyunmaq, qidalanmaq kimi bacarıqlara yiyələnmə öncə ailədə, sonra isə ibtidai siniflərdən başlanır və yuxarı siniflərdə artıq onlar bu işləri özləri sərbəst, kənardan kömək olmadan icra etməkdə çətinlik çəkmirlər.

İctimai faydalı əmək dedikdə xüsusi məktəblərdə və ya onun yerləşdiyi rayon, yaxud küçədə təşkil olunan iməcliklər, abadlıq işləri, məktəb həyətinin yaşıllaşdırılması, məktəbdə sanitar gününun təşkil edilməsi nəzərdə tutulur. Belə əmək uşaqlarda şəxsiyyət keyfiyyətlərinin (kollektivçilik, qarşılıqlı yardım ,qarşlıqlı fəaliyyət, məsuliyyət, yoldaşlıq və s.) formalaşdırılması və inkişafına kömək edir.

Əməyin bu forması sağlamlıq imkanları məhdud uşaqlarda ictimai-faydalı əməyə müsbət münasibətin yaranmasında böyük rol oynayır. Sağlamlıq imkanları məhdud uşaqların əmək tərbiyəsi əsasən əməyin iki: xüsusi təşkil edilmiş təlim və ictimai-faydalı növündə əks olunur.

Təlim əməyi məktəb proqramı həcmində əsas biliklərin öyrədilməsinə yönəldililən bir prosesdir. Bu prosesin nəticəsində uşağın dəyişməsi, onun əqli və mənəvi inkişafı yeni keyfiyyət səviyyəsinə keçməsi baş verir. Sağlamlıq imkanları məhdud uşaqların təlimə məyinin təşkili zamanı mütləq aşağıdakı şərtlər gözlənilməlidir:

- biliklərin əldə edilmə prosesinin qüsurların korreksiya işi ilə əlaqələnməsi;
- təlim fəaliyyətinin xarakterinin (icraçılıqdan müstəqilliyə, yaradıcılığa doğru) dəyişmə vacibliyi;
- əqli əmək rejimi (fəaliyyət ritminin gözlənilməsi, əməyin istirahətlə növbələşdirilməsi).

Sağlamlıq imkanları məhdud uşaqların əmək tərbiyəsində əmək dərsləri xüsusi əhəmiyyət daşıyır. Əmək dərslərində şagirdlər əmək əməliyyatları, əmək vərdişləri, texniki və texnoloji biliklərə yiyələnərək gələcək əmək fəaliyyəti üçün müəyyən bacarıqlar qazanırlar.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblərdə siniflər üzrə əmək təlimi aşağıdakı mərhələlərdə müəyyənləşdirilir:

1) propedevtik (I-III siniflərdə iş);

2) peşə - bələdləşmə (IV siniflərin tədris emalatxanalarında iş);

3) peşə -əmək (V-XII siniflərdə emalatxanalarda peşə -əmək təlimi);

4) istehsalat (X-XI siniflərdə şagirdlərin daha dərindən sosial və peşə hazırlığı) (Qasımov, 2000, s.136).

Propedevtik mərhələ sağlamlıq imkanları məhdud, xüsusi ilədə əqli gerilikli uşaqların əmək peşələrinə yiyələnməsini təmin edir. Aşağı siniflərdə əmək təliminin təşkilində dərsin vacib mərhələləri olan əməli tapşırığın (naxışların, kəsiklərin planlaşdırılması və təhlili) yerinə yetirilmə hazırlığı və onun nəticələrinin təhlilinin (sözlü hesabat, təhlil, müqayisə, özünü qiymətləndirmə və s.) keyfiyyətinə xələl gətirmədən daha çox vaxt əməli işə ayrılır .

Xüsusi təhsil məktəblərində ənənəvi olaraq I-III siniflərdə dərslərin məzmunu mərkəzləşdirilmə (konsentrik) prinsipinə uyğun tərtibedilmiş tədrisproqramıiləmüəyyənləşdirilir. Bu siniflərdə əməyin müxtəlif növlərindən istifadə edilir. Uşaqların inkişaf səviyyəsindən asılı olaraq onlar konkret tapşırıqların dərinləşdirilməsi, mürəkkəbləşdirilməsi və genişləndirilməsi ilə təkrar edilir. Şagirdlər əmək dərslərində parça, taxta, kağız, karton, plastilin, xəmir, digər təbii materiallardan və konstruktorlarla işləyirlər .

İkincimərhələdə IV sinif şagirdlərinin peşə hazırlığı onların əqli və fiziki inkişafı, müəyyən bölgənin social tələbatları nəzərə alınmaqla müəyyənləşdirilir. Peşə təliminin istiqaməti çox müxtəlif, bölgənin lazımı istehsalat tələblərini özündə əks edir. Ən çox tələb olunan xarrat, dülgər malakeş, tikişçi, cildləmə çəkməçi, heyvandar peşələrdir.

Üçüncü mərhələdə **şagirdlər** (V-X siniflərdə) müəyyən peşələr qazanırlar. Xüsusi məktəblərdə ən çox əmək hazırlığı: xarratlıq, dülgərlik, çilingərlik tikişçi və kənd təsərrüfatı peşələri (kənd rayonlarına yaxın ərazilərdə yerləşən internat məktəblərdə) tədris edilir.

Xüsusi internat və yardımçı məktəblərdə peşə-əmək hazırlığın məzmunu aşağıda qeyd edilən prinsiplər nəzərə alınmaqla müəyyənləşir:

- məzunların işə düzəlmə prespektivlərini nəzərə alan təlimin sosial əhəmiyyət məzmunu prinsipi;
- əmək təliminin əlyetər məzmunluluğu;
- əmək təliminin korreksiya məzmunluluğu;
- sağlamlıq imkanları məhdud uşaqların fərdi və tipoloji xüsusiyyət və imkanlarının differensasiyal nəzərə alınması prinsipi.

Xüsusi məktəblərdə şagirdlərin əmək və peşə təlimi bir neçə mərhələdə həyata keçirilir:

1. Fəaliyyətin məqsəd və şərtlərinin dərk edilməsinə yönəldilmiş intellektual və iradi keyfiyyətlərin inkişafı.

2. Fəaliyyət proqramının (işplanının) müstəqilişlənməsinin təlimi (daimi trenninq yolu ilə).

3. Uşaqlara işin bilavasitə yerinə yetirilməsi üçün vacib olan texnoloji üsulların öyrədilməsi.

Sadalanan hər bir mərhələ üçün ən vacib şərt həm bütün təlim prosesi boyu, həmdə onun ayrı -ayrı iş sahələrində fəaliyyətə və nəticələrə daimi nəzarətdir.

Adətən əmək dərslərində şagirdlər müəllim tərəfindən xüsusi hazırlanmış digər orientirlərdən-əyani vəsaitlərdən də istifadə edirlər, Onlardan istifadənin əsas məqsədi şagirdləri nəqli əmək fəaliyyətlərini yüngülləşdirmək və fəallaşdırmaqdır. Planlaşdırma mərhələsi məqsədə çatmaq üçün mövcud şəraiti nəzərə almaqla fəaliyyətin məzmun və qaydalarını müəəyənləşdirməkdən ibarətdir. Əməyin nəticələri iş planının əhatəli olmasından daha çox asılıdır. Əmək fəaliyyətinin əsas mərhələlərindən biri şagirdlər tərəfindən iş qəbulunun praktik cəhətdən mənimsənilməsidir. Əməyin qəbulu-bu əmək fəaliyyətinin aralıq, sadə və son nəticələrinin alınmasına yönəldilmiş kompleks praktik fəaliyyətdir. Əmək qəbulunun əqlivə əməli (praktik,əşyavi) fəaliyyəti fərqləndirilir. Əməli iş zamanı hər iki qəbul tipindən istifadə edilir. Lakin birinci tipin yerinə yetirilməsi əmək obyektinin dəyişməsinə gətirib çıxartmır. Əşyavi fəaliyyət qəbulunun praktiki yerinə yetirilməsi zamanı əməyin obyekti dəyişir, yəni onun forma, ölçü, yerləşmə və daxili vəziyyəti dəyişdirilir, yaxud da əmək obyekti üzərində sonrakı əməliyyatlar üçün işarələr qoyulur. Əmək fəaliyyətinin əsas xüsusiyyəti işləyənin özəməyində əvvəllər formalaşmış vərdişləri təkrar vasitəsi ilə möhkəmləndirmək imkanlarıdır.

Ədəbiyyat

1. Ağayeva T.H., Əliyeva S.M. (1999) Loqopediyanın nəzəri-praktik məsələləri. Bakı: ADPU, 190 s.
2. Hüseynova N.T., Rüstəmova L.H. (2006) Xüsusi pedaqogika. Bakı: ADPU, 353 s.
3. Qasımov S.Ə, Talıbov Y. (2000) Anomal uşaqların əlahiddə pedaqogikanın əsasları. Bakı: Çaşıoğlu, 264 s.
4. Qasımov S.Ə., Kərimova E.M. (2004) Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Bakı: 203 s.

İNKLÜZİV DƏRSİN PLANLAŞDIRILMASI VƏ TƏTBİQİ

Aytən Məsimli
Bakı, Azərbaycan
aytanmasimli@gmail.com

Summary

In the article, Inclusive education as an actual problem of the modern era, general theoretical issues, goals and tasks of inclusive education, main features of inclusive education, history, ways of development and current state of inclusive education, organization of inclusive education, principles of planning and organization of inclusive education, strategies of inclusive education and technologies, the importance of cooperation in the process of inclusive education, assessment in inclusive education, teacher professionalism in planning and implementing inclusive lessons are discussed.

Key words: *inclusive education, equal opportunities, strategies*

Резюме

В статье инклюзивное образование как актуальная проблема современности, общетеоретические вопросы, цели и задачи инклюзивного образования, основные особенности инклюзивного образования, история, пути развития и современное состояние инклюзивного образования, организация инклюзивного образования, принципы. обсуждались вопросы планирования и организации инклюзивного образования, стратегии инклюзивного образования и технологии, важность сотрудничества в процессе инклюзивного образования, оценка в инклюзивном образовании, профессионализм учителей в планировании и проведении инклюзивных уроков.

Ключевые слова: *инклюзивное образование, равные возможности, стратегии*

Hər bir cəmiyyətdə insanlara yaşamaq üçün bərabər imkanların yaradılması vacib hesab edilmişdir. Dünya dövlətləri cəmiyyətdə və eləcə də, təhsildə vətəndaşları üçün bərabər hüquq və bərabər imkanların yaradılmasını öz qanunvericiliklərində, dövlət sənədlərində müvafiq maddələrlə qeyd etmişlər. Ölkəmiz də bu məsələdə ön sıralardadır. Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandığı gündən ölkəmizdə vətəndaşların rifahının yüksəldilməsi ən vacib məsələ kimi diqqət mərkəzindədir.

Bu prosesdə əsas yeri cəmiyyətin kiçik üzvləri, gələcəyin qurucuları olan uşaqlara diqqət, qayğı, bərabər imkanların yaradılması tutur. Bu dəyərli işin təməlini ümumilli lider Heydər Əliyev qoymuş və müasir dövrdə Prezident İlham Əliyev tərəfindən şərəf və ləyaqətlə davam etdirilir.

Beləki, Azərbaycan müstəqillik qazandığı gündən insan hüquqları, xüsusilə uşaq hüquqları ilə əlaqəli olan bütün beynəlxalq sazişlərə, konvensiyalara, birliklərə qoşulmuş, üzərinə bir sıra öhdəlik lər götürmüş və hər zaman, bu gün də bu öhdəlikləri uğurla yerinə yetirir.

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsilalma hüququna əsaslanır və hər şagirdin bərabər şəraitdə bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsidir. İnklüziv təhsil mövcud fiziki, intellektual, sosial-emosional və digər keyfiyyətlərdən asılı olmayaraq hər bir uşağın ümumi təhsil-tərbiyə, inkişaf və sosiallaşma prosesinə daxil olmasıdır.

“İnklüzivlik müvafiq yaş qrupuna daxil olan bütün təhsilalanların bərabər səviyyəli və birgə öyrənmə təcrübəsi ilə və onların tələb və seçimlərinə ən yaxşı şəkildə cavab verən mühitlə təmin edilməsinə istiqamətlənən, gələcəyə baxış fonunda maneələrin aradan qaldırılması üçün təhsildə məzmuna, tədris metodlarına yanaşmalara, strukturlara və strategiyalara dəyişiklik və düzəlişlərin edilməsindən ibarət sistemli islahat prosesidir.” (6;5)

İnklüziv təhsilin əsas xüsusiyyətləri bunlardır:

1. ümumi sistem yanaşması;
2. ümumi təhsil mühiti;
3. şəxsiyyətin tamlığı prinsipinə əsaslanan yanaşma;
4. müəllimlərə dəstək;
5. müxtəlifliyə və fərqliliyə hörmət;
6. təhsil alan üçün yaradılmış mühit;
7. səmərəli təşkilatçılıq;
8. əməkdaşlığın qəbul edilməsi;
9. monitorinqin keçirilməsi

İnklüziv cəmiyyətin yaranması inklüziv təhsildən başlayır. Təhsil mühiti məktəb, ailə və ictimaiyyət arasındakı qarşılıqlı əlaqə yaratmaq inklüziv cəmiyyətin yaranmasına zəmin yaradır. Bu əməkdaşlığın tanınması, qəbul edilməsi kimi xüsusiyyətin olduğu anlamına gətirib çıxarır.

İnklüziv təhsilin xüsusiyyətlərindən biri də mütəmadi monitorinqlərin keçirilməsidir.

İnklüziv məktəblərdə inteqrasiya və seqreqasiyanın vəziyyətini öyrənmək, inklüziv təhsilin uğurla həyata keçdiyini yoxlamaq üçün mütəmadi monitorinqlərin keçirilməsi vacibdir. Sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyac olan şagirdlərin, eləcə də mümkün olduqca onların valideynlərinin, üzv olduqları təşkilatların bu monitorinqlərə cəlb olunması məqsdəuyğundur.

İnklüzivlik təhsil bütün səviyyələrdə müəllimlər üçün dəstək və resurslar sisteminin olmasını tələb edir. Sağlamlıq imkanları məhdud olan şagirdlərin valideynləri və ya qəyyumları müvafiq hallarda, fərdi tədris planları da daxil olmaqla, tədris proqramlarının hazırlanması və həyata keçirilməsində tərəfdaş kimi iştirak edə bilərlər.

"İnklüziv təhsil" anlayışı xüsusi qayğıya ehtiyacı olan şagirdlərin digər həmyaşıdları ilə birlikdə tədris prosesinə qoşulmasını, bərabərlik əsasında təhsil almalarını təsvir etmək üçün işlədilən termindir. İnklüziv təhsil bütün uşaqlara məktəbə getmək, eyni proqramlarla təhsil alıb inkişaf etmək üçün müəyyən bacarıqlara yiyələnmək üçün ən effektiv imkandır. UNİCEF inklüziv təhsil sistemini inkişaf və monitorinq etmək üçün dörd fəaliyyət sahəsi müəyyənləşdirmişdir:

- təbliğat-yüksək səviyyəli təhsil formalarında, tədbirlərində və digər təbliğat proseslərdə inklüziv təhsili müzakirə etmək;
- maarifləndirmə- cəmiyyət üzvlərinin təhsilin bu forması ilə yaxından tanış olması məqsədiyɬlə seminar, dəyərimi masalar, konfranslar və digər tədbirlərdə maarifləndirmə işlərini aparmaq;
- potensialın yaradılması-inklüziv təhsil üzrə kadrların hazırlanması, inklüziv məktəblərin, idarəçiliyini bacaran işçilər yetişdirmək;
- icra-inklüziv təhsildə nəzəriyyə və praktikanı həyata keçirmək üçün pedaqoji prosesi düzgün qurmaq, monitorinq və qiymətləndirməni layiqincə yerinə yetirmək.

İnklüziv təhsil müasir dövrdə ümumi təhsilin prioritet sahəsi kimi tarixi yol keçmişdir. Bəşər tarixi yarandığı gündən əqli və fiziki cəhətdən sağlamlığında qüsurlar olan, xüsusi qayğı tələb edən insanlar olmuşdur. Belə insanların normal insanlar tərəfindən qəbul edilməsi, onlara qarşı münasibət fərqli olmuşdur və onların hamı kimi təlim, tərbiyə, təhsil ala bilmələri məsələsi uzun və mürəkkəb tarixə malikdir.

Antik dövrdə fiziki qüsurla doğulan körpələri cəmiyyət qəbul etmir, onları cəmiyyətə yararsız hesab edərək Tayqet dağından aşağı atıb məhv edirdilər.

Bu I mərhələ uzun bir dövrü əhatə etmiş və cəmiyyət sağlamlıq imkanaları məhdud olan insanlara qarşı aqressiv rəftar etmiş onları qəbul etmişlər. Bu diskriminasiya adlanmışdır. II mərhələdə artıq fiziki, əqli və psixi cəhətdən problemləri olan uşaqların xüsusi məktəbə yerləşdirilmmiş və ya evdə təhsilə cəlb olunmuşlar. Bu seqreqasiya adlanmışdır.

III mərhələ - sağlamlıq imkanları məhdud uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla bir məktəbdə, lakin xüsusi proqram üzrə ayrı siniflərdə təhsil alırdılar ki, bu inteqrasiya adlanırdı.

IV mərhələdə - sağlamlıq imkanları məhdud uşaqlar ümumtəhsil müəssisələrdə tipik uşaqlarla eyni sinifdə təhsil alırlar – bu inklüziya adlanır.

İnklüziya ümumtəhsil müəssisələrində istisnasız bütün uşaqların-sağlam və sağlamlıq imkanları məhdud olan uşaqların birlikdə təhsil almasıdır. Bu təhsilin əsas məqsədi və uğurunun vacib göstəricisi və şərti bütün vətəndaşların, o cümlədən müəyyən səbəblərdən sağlamlıq imkanaları məhdud olanların, fiziki və ya əqli inkişafında qüsuru olan şəxslərin ictimai həyatda fəal iştiraka qatılmalarıdır.

Bu, mümkündür və bu, günün ən aktual, amma həllini tapmış problemlərindəndir. Zaman bunu tələb edir. Bəzən cəmiyyət sağlamlıq imkanları məhdud olan şəxslərin assimilyasiyasına neytral və ya passiv-mərhəmət və passiv tolerantlıq nümayiş etdirir. Odur ki, inklüziv təhsil bu gün bütün uşaqların birlikdə yalnız təhsil alması kimi deyil, sağlamlıq imkanları məhdud şəxslərin diskriminasiyasının aradan qaldırılmasının vacib vasitəsi kimi qəbul edilir. Çünki məktəb insanın yalnız bilik, bacarıq və vərdişlər sisteminə sahibləndiyi bir məkan yox, eyni zamanda onun həm əqli, həm psixi, həm də sosial baxımdan formalaşdığı təhsil ocağıdır.

İnklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqlara zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla, onların cəmiyyətə uyğunlaşmasını, onlarda özünəxidmət qabiliyyətlərinin yaradılmasını, əmək fəaliyyəti və ictimai həyata hazırlanmasını təmin etmək üçün təşkil olunan prosesdir. Ümumilikdə, inklüziv təhsil inklüziv cəmiyyət yaratmağın əsasını təşkil edir.

BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” konvensiyasını imzalayan ölkələrdən biri kimi Azərbaycan da inklüziv təhsili uğurla həyata keçirmək üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda sağlamlıq imkanları məhdud şəxslərin də təhsil hüquqlarının qorunması və təmin olunması öz əksini tapmışdır. Eyni zamanda, bu mühüm dövlət sənədində göstərilir ki, dövlətimiz hər bir vətəndaşının təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə icazə vermir.

“Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, mülkiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir”. (5)

Ölkəmizin təhsil siyasətinin əsasını vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin edilməsi, milli azlıqları, məcburi köçkünləri, qaçqınları, davranışında çatışmazlıqları, sağlamlıq imkanı məhdud olan uşaqların təməlli təhsil alması üçün bütün təhsil ocaqlarında keyfiyyətli şəraitin və bərabər imkanların yaradılması, müvafiq proqramlarda həyata keçirilməsinə təminat verir.

Bununla yanaşı təhsilin inkişafı üzrə Dövlət Strategiyasında inklüziv təlim və tədris proqramlarının, xüsusi istedadı olan uşaqlar üçün fərdi, xüsusi inkişaf proqramlarının, kurikulumdankənar məşğuliyyətlərinin təşkili mexanizmlərinin yaradılması və sağlamlıq imkanları məhdud olan uşaqların təhsil, mühitinə inteqrasiyasını təmin edə bilən təlim metodologiyası və bu şəxslərin sosial adaptasiyası üçün inklüziv modellərin hazırlanması və tətbiq edilməsinin vacibliyi qeyd edilmişdir.

Bu vacib dövlət sənədlərindən irəli gələn vəzifələri həyata keçirmək məqsədi ilə respublikamızda müvafiq addımlar atılmış və bu gün də bu iş uğurla davam ediməkdədir.

İnklüziv təhsil bütün şagirdlər üçün maraqlı, fərqli, həvəsləndirici imkanların yaradılması, hər bir şagirdin təlimə, tədris prosesinə cəlb olunması, onlara eyni münasibət, ünsiyyət göstərməklə müvafiq üsullar və resurslarla təmin olunması deməkdir. İnklüziv təhsilin təmin edilməsinin əsas şərti məktəbə qəbul olunan hər bir şagirdin fərdi xüsusiyyətlərini, ehtiyac və tələbatlarını müəyyən edib təlimə cəlb edilməsidir. İnklüziv siniflərdə təlimin nəticələri sadəcə fərdlərdən deyil, həm də təhsil mühitindən asılı olduğunu nəzərə almağı zəruri sayır.

İnklüziv təhsil hər bir şagirdə bərabər şəkildə dəyər vermək, müxtəlifliyə, fərqliliyə hörmət edərək qəbul etmək, onları cəmiyyətin layiqli vətəndaşı olmağa hazırlamaqdır. Bu yolla yalnız sağlamlıq imkanları məhdud olan şagirdlərin cəmiyyətdən və məktəbdən kənarlaşdırılmasının qarşısını almaq və məktəbin, daha sonra isə cəmiyyətin inklüziv olması üçün dəyişiklik etmək mümkündür.

Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları adlı dövlət sənədində təlimdə bərabər imkanların yaradılması prinsipi də məhz inklüziv təhsilin ölkəmizdə bütün şagirdlərin təhsilə cəlb olunmasını göstərir.

İnklüziv təhsil bu sənədlərdən irəli gələn vəzifələri həyata keçirmək üçün təlimin planlaşdırılmasıı ilə onu düzgün həyata keçirməyi tələb edir. İnklüziv təlimin planlaşdırılması fərdi və qrup tələbatlarını nəzərə almaqla həyata keçirilir. Bura şəxsi, mədəni, idraki, fiziki və hissi tələbatlar aiddir. Tələbatlar təlim proqramına uyğunlaşdırılır və münasib şəkildə yerinə yetirilir.

Təlim strategiyaları dedikdə, müəllimlərin təlim prosesində məqsədə çatmaq üçün öyrətmə metodlardan istifadəsi başa düşülür. Təlim strategiyaları özündə təhsilin bütün komponentlərini birləşdirir. Təlim strategiyaları təlimin keyfiyyətinin və şagirdlərin müvəffəqiyyətinin yüksəlməsinə zəmin yaradır.

İnklüziv təhsilin özünəməxsus strategiyaları vardır. Çünki inklüziv təhsil sağlamlıq imkanları məhdud olan şagirdlərin öz tipik həmyaşıdlarıyla birgə təhsilalma prosesidir. Odur ki, inklüziv siniflərdə təlim strategiyalarının müəyyənləşdirilməsi hər zaman diqqət mərkəzindədir.

İnklüziv siniflərdə müvafiq təlim strategiyalarından istifadə edilməsi sağlamlıq imkanları məhdud olan uşaqları sosial, psixi və əqli inkişafa doğru aparmaqla onların sinif kollektivinin fəal üzvlərinə çevirlməsinə imkan verir.

Qeyd etdiyimiz kimi, inklüziv təlim özündə, əsasən 3 komponenti cəmləyir: məzmun, fəaliyyət və şərait.

Məzmun-ümumtəhsil məktəblərində keçirilən bütün fənlər, mövzular üzrə bilik və bacarıqların qazanılması və tətbiqinə yönəlmişdir.

Fəaliyyət və ya proses şagirdlərin sosial inkişafı və şəxsiyyəti kimi formalaşmasını əhatə edir. Bu isə bütün şagirdlərin ünsiyyət qura bilmə bacarıqlarını inkişafı, hörmət, kollektivdə işləmək, fəallıq və nəhayət, cəmiyyətin fəal üzvi kimi formalaşmağı nəzərdə tutur.

Şərait dedikdə isə sinifdə bütün şagirdlər üçün imkanların yaradılması təlim strategiyaları və təlim texnologiyalarından istifadə və resursların işlədilməsi başa düşülür.

Hər üç komponent təhsil kurikulumunda təsbit olunur və həm sağlam, həm də sağlamlıq imkanları məhdud şagirdlərin maksimum dərəcədə bəhrələnməsi tələb olunur. Bu tələbi yerinə yetirmək üçün isə pedaqoji prosesdə iştirak edənlər inklüziv siniflər üçün differensial təlim strategiyasını işləyib hazırlamışlar. Differensial təlim strategiyaları yalnız sağlamlıq imkanları məhdud olan şagirdlər ilə iş zamanı deyil, eyni zamanda sağlamlığı yerində olan şagirdlərin müvəffəqiyyətinin yüksəldilməsi üçün müasir dövrün ən vacib və effektiv yanaşmalarından hesab olunur.

Differensasiya bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün şagirdlərin nə öyrəndiyinə (məzmun), necə mənimsədiklərini, əldə etdikləri bilik və bacarıqları necə tətbiq etmələrinə (nəticə) yönəlmiş təlim üsuludur.

Differensial təlimin prinsipləri bunlardır:

- Differensial sinif məlumatlı olmalıdır, yəni sinifdə hamı bilir ki, hər bir uşağın uğurunu təmin edən qiymətləndirmə üsulları, uşaqları qruplaşdırma yolları və müxtəlif materiallar var;
- Sinifdə hər bir şagirdin gücünə müvafiq tapşırığı və işi olmalıdır;
- Sinifdə şagirdlər öz aralarında və müəllimlərlə əməkdaşdırlar.

İnklüziv siniflərdə differensial təlimə keçid tədricən olmalıdır. Bu təlim strategiyasına əsasən sinifdə yüksək nailiyyətli şagirdlərə daha mürəkkəb tapşırıq verilə bilər. Differensial təlimdə şagirdlərə seçim hüququnun verilməsi yaxşı nəticə verir.

İnklüziv təhsildə əməkdaşlıq bu prosesdə iştirak edən həmkarların mütəxəssislərin, valideynlərin, uşaqların həyatında birgə, faydalı iş birliyidir. İnklüziv təhsildə iştirak edənlər yalnız müəllimlər deyil, məktəb rəhbərliyi, psixoloqlar, yardımçı müəllimlər, valideynlərin birgə əməkdaşlığı inklüziv təhsilin uğurla həyata keçirilməsinə vəsilə ola bilirlər. İnklüziv təhsil yalnız əqli və fiziki ehtiyacları olan uşaqlara deyil, ümumilikdə sinifdəki bütün şagirdlər üçün səmərəli ola biləcək təlim prosesi qurmaq üçün iştirak edən bütün insanların əməkdaşlığına əsaslanır. İnklüziv təhsildə əməkdaşlıq tədris və öyrənmə prosesinin təkmilləşdirilməsində, inklüziv sinif şagirdlərinin təlim nəticələrinin yaxşılaşdırılmasında, birgəfəaliyyət mədəniyyətinin həyata keçirilməsində çox mühüm vasitədir.

İnklüziv təhsildə əməkdaşlıq:

- Müəllimlər arasında əməkdaşlıq;
- Dəstək personalı (psixoloq, loqoped, uşaq inkişafı üzrə işçilər, müalicəvi idman mütəxəssisləri ilə əməkdaşlıq);
- Tibb işçiləri ilə əməkdaşlıq;
- Valideynlərlə əməkdaşlıq.

İnklüziv təhsildə əməkdaşlıqda hər bir iştirakçının vəzifəsi, köməyi, həyata keçirdiyi planlardan danışmazdan əvvəl bu iştirakçıların birgə iş prinsiplərinə diqqət etmək vacibdir.

Könüllülük prinsipi - inklüziv təhsildə əməkdaşlıq etmək üçün könüllülük əsasdır, yəni bu prosesdə iştirak edən hər kəs öz istəyi, arzusu ilə qoşulmağı əsas şərtdir və əməkdaşlığın əsas tələbidir. Bu, inklüziv təlimdə ən çox xüsusi qayğıya ehtiyacı olan şagirdə fayda verə bilər.

Bərabərlik prinsipi - inklüziv təhsildə könüllü olaraq iştirak edən hər bir üzvün özünü bərabərhüquqlu olmasını bilməsi və fəaliyyətinə dəyər verilməsi, irəli sürdüyü təşəbbüs və səylərinə diqqət

göstərilməsini hiss etdikdə daha çox əmək sərf edərək şagirdlərin uğur qazanmalarına nail ola bilməsi kimi başa düşmək olar.

Ümumi məqsədə səy prinsipi - inklüziv təhsildə komanda üzvlərinin yalnız bir, ümumi məqsədə çatmağa cəhdi kimi başa düşülür, sağlam və sağlamlıq imkanları məhdud olan şagirdlərin birgə təhsil alaraq cəmiyyətə layiqli vətəndaş kimi yetişməsində müəllimlər, məktəb rəhbərliyi, sinif şagirdləri, yardımçı mütəxəssislər, valideynlərin işbirliyi hədəfə tez çatmağı təmin edir.

Məsuliyyətlilik prinsipi - İnklüziv təhsildə bütün komanda üzvlərinin önəmli qərarlarda məsuliyyəti paylaşması əməkdaşlığın vacib amillərindəndir.

İnklüziv təlim prosesində hər bir komanda üzvü və kollektiv atılmış addımların uğur və uğursuzluğunda məsuliyyətlidir.

Ümumi resursların olması prinsipi - inklüziv təlimdə istifadə olunan resurslar ümumi məqsədə nail olmaq naminə bütün komanda əməkdaşları tərəfindən istifadə üçün açıq olmalıdır.

Həqiqi, dolğun, uğurlu inklüziv təhsilin həyata keçirilməsi üçün əməkdaşlıq olduqca vacib və əhəmiyyətlidir. Yalnız əməkdaşlıqla inklüziv problemlərin həllini tapmaq mümkündür. İnklüziv təlim prosesinin uğurla keçməsi üçün əməkdaşlığın əsasən 5 mərhələsi müəyyənləşdirilmişdir:

- Problemin müəyyənləşdirlməsi;
- Səbəblərin müəyyənləşdirilməsi;
- Qarşıya məqsədin qoyulması;
- Məqsədə çatmağın həlli yollarının tapılması;
- Nailiyyətlərin monitorinqi.

İnklüziv təlimin planlaşdırılması və tətbiqi zamanı şagird nailiyyətlərinin qiymətləndirilməsi inklüziv təhsilin təkmilləşdirilməsinə öz töhfəsini verir. Qiymətləndirmə təhsilin, o cümlədən inklüziv təlimin, göstərici və nəticəsi kimi qəbul edilir. İnklüziv təlim prosesində qiymətləndirmə şagirdlərin tədris olunan fənlər üzrə aldıqları bilik, bacarıq və vərdişlərə yiyələnmə imkanlarının, onların fərdi müxtəlifliyinin nəzərə alınması ilə həyata keçirilir. İnklüziv təlimdə qiymətləndirmənin özünəməxsusluğu mövcuddur:

- Qiymətləndirmə ənənəvi üsullarla deyil, FTP əsasən həyata keçirilir;
- Qiymətləndirmə əlaqələndirilmiş formada aparılır, öyrənmə prosesini yaxşılaşdırmaq üçündür;
- Bütün şagirdlərin əldə etdikləri bilik və bacarıqların səviyyəsini müəyyənləşdirmək üçün qiymətləndirməyə cəlb olunurlar;
- Qiymətləndirməyə həm summativ, həm də formativ yoxlamalar daxildir;
- İnklüziv qiymətləndirmədə də innovativ yanaşmalar ola bilər.

İnklüziv qiymətləndirmə zamanı müəllimlər ənənəvi qiymətləndirmə strategiyalarını innovativ qiymətləndirmə ilə əlaqələndirir və ya birləşdirirlər. Bu, davamlı qiymətləndirmə adlanır.

Bu, davamlı qiymətləndirmə adlanır.

İnklüziv siniflərdə qiymətləndirmənin ənənəvi qiymətləndirmədə olduğu kimi 3 növü vardır: diaqnostik, formativ və summativ.

Diaqnostik qiymətləndirmə şagird biliyinin ilkin yoxlaması məqsədi daşıyır və ilin əvvəlində həyata keçirilir.

Formativ qiymətləndirmənin məqsədi şagirdlərin öyrənməsi və təkmilləşməsi eyni zamanda qarşıya qoyulan məqsədə uyğun biliklərə yiyələnmə hədəflərinə nail olmağa dəstək olmaqdır. Formativ qiymətləndirmə motivasiyaedici xarakter daşıyır. Bu zaman müəllim təlimdə sağlamlıq imkanları məhdud uşaqların öyrənmə problemləri, imkanları və ehtiyaclarını təhlil etmək imkanı əldə edir, şagird-müəllim arasındakı əks-əlaqəni tənzimləyir, nəzərdə tutulan norma və standartları müəyyənləşdirə bilir. Formativ qiymətləndirmə təlim prosesi zamanı aparılır və öyrənmə prosesinin monitorinqi kimi nəzərdə tutulur.

Summativ qiymətləndirmə məktəb rəhbərliyi dövlət və cəmiyyət qarşısında cavabdehlik kimi müəllimin səriştəsini müəyyənləşdirək və tədris nəticəsində öyrənilənlərin qiymətləndirilməsidir. Summativ qiymətləndirmə təlim prosesində müəyyən bölmə və ya proqramın sonunda həyata keçirilir. “Summativ qiymətləndirmədə müəllimin rolu şagirdlərin qarşısına qoyulan biliklərə yiyələnmə hədəf-

lərinə və standartlarına nail olmasına dair mühakimə yürütmək və qiymətlərin verilməsindən ibarətdir.” (İnk.sin.təl.təş. səh. 52)

Ədəbiyyat

1. Allahverdiyeva F. , Tağıyeva S.S. Pedaqogika. Bakı, “Elm və təhsil” 2018
2. Borisova H.B. “İnklüzivnoe obrazovanie: pravo prinçipı, praktika. Moskva, 2009.
3. BMQ “Əlilliyi olan Şəxslərin Hüquqları üzrə konvensiya” Bakı, 2016
4. Əhmədov H.H., Zeynalova N.E. Pedaqogika (dərslik) Bakı, 2016
5. “Əlilliyi olan Şəxslərin Hüquqları haqqında” Azərbaycan Respublikası Qanunu. Bakı, 2018
6. Əliyeva R. İnklüziv təhsil və təlim. (mühazirə mətnləri)
7. İnklüziv təhsil (tərtibçi M.Əliyev) B, Universal Poliqraf
8. İnklüziv təhsil. Bakı, İdeal print. 2020
9. İnklüziv təhsildən, inklüziv cəmiyyətə. BSU. Respublika elmi-praktik konfransı. Bakı, 2022
10. İnklüziv təhsil. Valideynlər üçün bələdçi RİİB, Bakı, 2020
11. İnklüziv sinifdə təlimin təşkili. Oxu materialı
12. Komenski J.A. Böyük didaktika. Bakı, Elm və təhsil. 2012
13. Quseva T.N. “İnklüzivnoe obrazovanie” Moskva 2010
14. Loreman T.O., Deppler J., Havvey D. “İnklüziv təhsil” 2019
15. Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait. Xüsusi kitabça. Bakı, 2020
16. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanunu. Bakı, 2009
17. Uşaq Hüquqları Konvensiyası. Bakı, 1991
18. http.www. inklüzivtehsil. az
19. http.www. kelaminfo az. /article/a-6331. html

KORREKSİYAEDİCİ PEDAQOQ, SİNİF MÜƏLLİMİ VƏ PSİXOLOQ ƏMƏKDAŞLIĞI

Gülnar Mirzəyeva
Nizami rayonu 3№-li Xüsusi Təhsil Məktəbi, müəllim
İnklüziv Təhsil üzrə FTP – mütəxəssisi
12medine83@mail.ru

Summary

The article investigates the organization of an inclusive class in inclusive education, which is an emerging issue of these days reflects Individual Teaching Plans for students and evaluation issues.

The transition to an inclusive society starts begins with families, and then with kindergartens and schools. Therefore, inclusive groups in kindergartens and inclusive classes in schools should be properly organized. Based on my experience, I can note that the school psychologist, class teacher and special education teacher play an important role in organizing an inclusive class. Above all, an inclusive environment should be created. By encouraging positive attitude, students work more enthusiastically and make a lot more progress.

Every day prior to each single lesson, the tasks to be given to the students should be reviewed and resources should be selected. An inclusive classroom should be organized in such a way that the resources and teaching methods used are tailored to individual students' needs.

Another issue to be discussed is individual training plans and assessment strategies.

The Individual Training Plan of each student should be drawn up by the school psychologist, class teacher and special education teacher. The document contains the preliminary assessment results, set goals, resources to be used and training methods.

Key words: *organization of an inclusive class, psychological-pedagogical environment, correctional teacher, tablet, assessment, Individual Training Plan*

Резюме

В статье рассматриваются вопросы организации инклюзивного класса в инклюзивном образовании, индивидуальный план обучения учащихся, вопросы оценивания, что является актуальным вопросом современности.

Переход к инклюзивному обществу начинается сначала с семьи, а затем с детских садов и школ. Поэтому должны быть правильно организованы инклюзивные группы в детских садах и инклюзивные классы в школах.

Ссылаясь на свой опыт, могу отметить, что большую роль в организации инклюзивного класса играют школьный психолог, классный руководитель и коррекционный педагог. Первую очередь необходимо создать инклюзивную среду. В среде позитивного мышления учащиеся работают с большим энтузиазмом и лучше развиваются.

Каждый день перед уроком следует просматривать задания, которые будут даваться учащимся, и выбирать ресурсы. Инклюзивный класс должен быть организован таким образом, чтобы используемые ресурсы и методы обучения подходили для каждого учащегося. Еще один вопрос, который необходимо обсудить, – это индивидуальные планы обучения и виды оценивания.

Индивидуальный план занятий каждого ученика должен быть составлен школьным психологом, классным руководителем и коррекционным педагогом. Документ содержит поставленные цели, используемые ресурсы и методы обучения.

Ключевые слова: *организация инклюзивного класса, психолого-педагогическая среда, коррекционный педагог, планшет, оценивание, Индивидуальный план обучения.*

İnklüziv təhsildən inkluziv cəmiyyətə keçmək üçün biz ilk növbədə ailələr, sonra məktəbəqədər müəssisələr- bağcalar, daha sonra isə umumitəhsil məktəblərindən başlamalıyıq. Bu zəncirvari bağlılıq gələcəkdə kolleclər, peşə məktəbləri və zərurət yarandıqda ali məktəblərdə davam etdirilməldir.

İnklüziv təhsildə sagirdlərin inkişafı gələcəkdə onlarla işləyəcək pedaqoqun, tərbiyəçinin səriştəsindən çox asılıdır. Ona görə də uşaqlarla işləyəcək pedaqoq sadə biliklərə - həm nəzəri, həm praktik biliklərə malik olmalıdır. Bəs, inklüziv sinfin təşkili nə deməkdir və bunu kim edir?

İnklüziv sinfin təşkili məktəb psixoloqu, sinif müəllimi, korreksiyaedici pedaqoqdan asılıdır. Məktəb psixoloqu şagird və valideynləri psixoloji cəhətdən inklüziv sinif mühitinə hazırlayır. Bu hər bir uşağın sosiallaşma və təhsil hüququ olması ilə vurğulanır. Sinif müəllimi və korreksiyaedici pedaqoqun əməkdaşlığı isə tədris ili boyunca davam edir. Sinif müəllimi dərsi öz yaradıcı təfəkküründən tam istifadə edərək elə təşkil etməlidir ki, istifadə olunan resurslar və təlim üsullarından bütün sinif şagirdlər faydalana bilsinlər. İnklüziv sinfin təşkili qaydalarına nəzər salaq. Məlumdur ki, sagirdlərin hər biri üçün birinci görüş zamanı və ikinci yarimilin əvvəlində diaqnostik qiymətləndirmə keçirilir. Bunun əsasında şagirdlərə fərdi olaraq bilik və bacarığına uyğun təlim proqramı hazırlanır. Proqramın bəzi kateqoriyaları məktəb psixoloqu, bəziləri isə sinif müəllimi və korreksiyaedici pedaqoqun birgə əməkdaşlığı əsasında yazılır. Fərdi Təlim Planında şagirdin bacarıqları “bacarır və bacarmır” kriteriyaları ilə qiymətləndirilir. Daha sonra, qarşıya qoyulan məqsədlər, istifadə olunacaq təlim üsulları, öyrətmə metodları, resurslar öz əksini tapır. Beləliklə, yarımil ərzində şagirdlə bu proqrama əsasən təlim prosesi həyata keçirilir.

Hər gün dərsdən əvvəl korreksiyaedici pedaqoq və sinif müəllimi dərs zamanı istifadə olunacaq resurları və yerinə yetiriləcək tapşırıqları nəzərdən keçirməlidirlər. Həmin tapşırıqların, hansının inklüziv təhsilə cəlb olunmuş şagirdlərin istifadəsi üçün veriləcəyi qeyd olunmalıdır. Tapşırıqların hər biri şüurluluq, sadədən mürəkkəbə prinsipinə əsasən tərtib olunsa daha qənaətbəxş olar. Əgər şagirdin bilik səviyyəsi qismən aşagıdırsa, onda fərqli deyil, məhz dərslikdən və ya iş dəftərlərindən tapşırıqlar seçmək olar. Tapşırıqları seçərkən çalışmaq lazımdır ki , ona uyğun əyani resurslar seçmək imkanı olsun. Həmçinin, texnoloji vasitələrdən də istifadə etmək məqsədəuyğun olardı.

Qeyd edək ki, əgər şagirdin yazı bacarığı yoxdursa, elektron planşetdə yazmağa cəhd etmək lazımdır. Həmçinin, riyaziyyat dərslərində toplama zamanı misalları kalkulyator vasitəsilə də həll etməyi öyrətmək olar. Yəni, bu zaman şagird misalı oxuyur, sonra kalkulyatorda yazır və cavabını görüb köçürür. Beləliklə də yaddaşında daha yaxşı qalır. Əgər sinif müəlliminin zamanı çatmırsa , tapşırıqları korreksiyaedici pedaqoq özü də tərtib edib, müəllimə təqdim edə bilər. Pedaqoji ustalığı olan bir müəllim inklüziv sinifin təşkilində o qədər də çətinlik cəkməyəcək .

İkinci vacib məsələlərdən biri şagirdlərin qiymətləndirilməsidir. Müəllimlər cox zaman qiymətləndirmə zamanı çətinlik cəkirlər. Düzdür , birinci siniflərdə bu çətin olmasa da, 2-ci sinifdən sonra müəyyən çətinliklər yaranır. Formativ qiymətləndirmənin hər gün keçirilməsi vacibdir. Summativ qiymətləndirmələrdə şagirdin iştirak etməsinin təməli aşagı siniflərdə sadə test tapşırıqlarının yerinə yetirilməsindən başlayır. Əgər sagird test etməyi bacarırsa, ona biliyinə uyğun test hazırlanır və sonda qiymətləndirilir. Yox əgər test işləmə bacarığı yoxdursa, şifahi sorğu, yazılı çalışmalar vasitəsilə həyata kecirilə bilər.

İnklüziv təhsilin düzgün strategiya ilə təşkili qənaətbəxş nəticənin əldə olunmasında vacib amildir.

Ədəbiyyat

1. Алексеева, М.Н. Организационные модели мониторинга социальных отношений в инклюзивных классах / М.Н. Алексеева.
2. Педагогика инклюзивного образования: учебник / Т.Г. Богданова, А.М. Гусейнова, Н.М. Назарова.
3. Н.В. Старовойт Инклюзивный класс как объект социально-психологического анализа. Материалы II Всероссийской научно-практической конференции с международным участием (24–25 октября 2017 г.)
4. K.A. Disability Awareness: 24 Lessons for the Inclusive Classroom / K.A. Williams. – Portland:Walch Publishing, 2000. – 121 p.
5. Öz təcrübəmdə aparılan tədqiqatlar əsasında.

İNKLÜZİV SİNİFLƏRDƏ TƏLİMİN EFFEKTİVLİYİNƏ XİDMƏT EDƏN METOD VƏ STRATEGİYALAR

Afaq Nəsibova
Bakı Slavyan Universiteti
afaqnesibova@mail.ru

Summary

In order to involve children with special needs in inclusive education, the article examined various methods and strategies of training that are used in international practice and have proven effective in terms of influencing the quality of education in inclusive classes. To achieve better results in the learning process, researchers' approaches to this problem were analyzed, and studies from many international and domestic experts were involved.

Key words: *inclusive education, children with special needs*

Резюме

В статье с целью вовлечения детей с особыми потребностями в инклюзивное образование, были рассмотрены различные методы и стратегии обучения, которые используются в международной практике и доказали свою эффективность с точки зрения влияния на качество обучения в инклюзивных классах. Для достижения более высоких результатов в процессе обучения были проанализированы подходы исследователей к этой проблеме, привлечены исследования многих международных и отечественных экспертов.

Ключевые слова: *инклюзивное образование, дети с особыми потребностями*

Bu gün Müstəqil Azərbaycanın təhsil siyasətinin əsas prioritet məsələlərindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili, inkişafı və cəmiyyətə inteqrasiyasıdır. Bu kateqoriyadan olan uşaqların öz yaşıdları ilə bərabər şəraitdə təhsil almaları üçün hüquqi bazanın yaradılması və bunun təmin edilməsi məqsədilə başda Heydər Əliyev Fondu və UNICEF olmaqla bir çox hökümət və qeyri-hökümət təşkilatlarının dəstəyi ilə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

2018-2024-cü illəri əhatə edən bu proqramın əsas məqsədi sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olan uşaqların təhsilinin fərdi yanaşma əsasında dövrün tələblərinə və standartlara uyğun formada təşkili, onların təhsil şəraitinin yaxşılaşdırılması, bu müəssisələrdə infrastrukturun müasirləşdirilməsi, inklüziv siniflərin təşkili və ən müasir avadanlıqlarla təchiz edilməsi əsasında,onlar üçün əlverişli təhsil mühitinin yaradılması durur.

Müasir dövrdə inklüziv təhsilin təşkili bir sıra amillərlə şərtlənir:

- xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilməsi;
-xüsusi qayğıya ehtiyacı olan uşaqların Psixoloji-Tibbi-Pedaqoji Kommissiya tərəfindən qiymətləndirilməsi;
- inklüziv təhsillə bağlı valideynlərlə görüşlərin keçirilməsi;

- valideynlərin maarifləndirilməsi;
- məktəb kollektivinin məlumatlandırılması;
-məktəb psixoloqları ilə işin təşkili və s.

İnklüziv təhsil prosesinə qoşulacaq olan məktəblərin də üzərinə bir sıra öhdəliklər düşür. Bu**n**ların başında məktəb müəllimlərinin və valideynlərinin inklüziv təhsil və qarşıda onları gözləyən problemlərlə bağlı məlumatlandırması durur. Bundan başqa məktəb rəhbərliyi öncədən Psixoloji-Tibbi-Pedaqoji Kommissiyanın rəyinə əsasən, ehtiyac olduğu halda, inklüziv təhsilə qoşulacaq uşaqlar üçün psixoloji və digər sosial xidmətlərin (loqoped, inkişaf terapevti və s.) təşkilini də təmin etməli və bunun həyata keçirilməsi üçün müvafiq şəraiti yaratmalıdır.

Sağlamlıq imkanları məhdud uşaqların da öz növbəsində psixoloji-pedaqoji və tibbi göstərişlərə (əks göstərişlərə) uyğun inklüziv siniflərdə təhsil ala bilmələri üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 43 nömrəli Qanunun 21.1-ci maddəsi ilə bir sıra şərtlər müəyyən edilmişdir:

2.1.1. sağlamlıq imkanları məhdud uşağın sadə özünəxidmət bacarığının olması (sanitar qovşağından istifadə, əlini yuma, qida qəbulu və s.);

2.1.2. sağlamlıq imkanları məhdud uşaqda emosional-iradi sahədə və davranışında nəzərəçarpan pozuntuların olmaması;

2.1.3. müəssisənin pedaqoji heyətinin sağlamlıq imkanları məhdud uşaqla təlim-tərbiyə işinin təşkili üçün səriştələrinin (kompetensiyalarının) olması;

2.1.4. sağlamlıq imkanları məhdud uşağın müəssisənin yaxınlığında yaşaması;

2.1.5. müəssisənin infrastrukturunun sağlamlıq imkanları məhdud uşaq üçün müyəssər olması (6).

Yuxarıda da qeyd etdiyimiz kimi 2018-ci ildən etibarən sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması hüququnun Azərbaycan Respublikasının təhsil qanunvericiliyində öz əksini tapmasına baxmayaraq çox təssüf ki, ölkəmizdə inklüziv təhsilin qanunvericilik səviyyəsində təşkilində hələ də əksikliklər var. Əgər ənənəvi təhsildə bir çox müəllimlərin istinad etdiyi strategiyalar, təlim metodları və pedaqoji səriştələrin inklüziv təhsilin həyata keçirilməsində istifadəsinin qeyri-mümkün olduğunu nəzərə alsaq, o zaman, müasir mərhələdə inklüziv təhsilin tətbiqi üçün əsas şərt olan təlimin uşaqların sinifdaxili fərdi ehtiyaclarına əsasən uyğunlaşdırılmasının nə dərəcə önəmli olduğunu anlayarıq.

İnklüziv təhsilin əsasını təşkil edən təlimin, şagirdlərin ehtiyaclarına uyğunlaşdırılmasına xidmət edəcək pedaqoji metodların müəyyən edilməsi təlimin tempinin, onun məqsədlərinin, üsullarının, seçilmiş təlim materiallarının şagirdlərin fərdi xüsusiyyətlərinə müvafiq olaraq dəyişməsini tələb edir. Bu istiqamətdə dünya şöhrətli tədqiqatçılar Tomlinson, Rapp, Strickland, Turnbull və başqaları inklüziv təhsilin həyata keçirilməsinin əsas vasitəsi kimi təlimin uyğunlaşdırılmasının bir neçə variantını müəyyən etmişlər:

Təlimin diferensiallaşdırılması. Əsası 1975-ci ildə ABŞ-da qoyulan, 1990-cı və 1997-ci illərdə “Əlilliyi olan fərdlərin Təhsili” adı altında yenidən qəbul olunan Qanunun əsas məqsədi uşaqların fiziki, əqli, irqi, dini və s. fərqliliklərindən asılı olmayaraq fəal halda ümumtəhsil kurikulumu əsasında təhsil almasıdır.

*“*Diferensial təlim əhəmiyyətli hesab olunana, məzmunu müxtəlif öyrənmə düşüncə tərzinə malik olan şagirdlərə öyrənmək və mənimsəməni təmin etmək üçün tətbiq olunan təlim üsullarıdır*”* (İnklüziv siniflərdə təlimin təşkili, 2018, s. 40). Diferensiallaşdırılma ilə bağlı aparılan müasir araşdırmalardan birinin müəllifi olan C.A.Tomlinson qeyd edir ki, təlimin effektiv diferensiallaşdırılması prosesi birbaşa müəllimin səriştəsi ilə bağlıdır.Çünki burada konkret bir təlimatın hazırlanması qeyri-mümkündür. Bu məqsədlə də o, təlimi üç mərhələ (məzmun, proses və nəticə) üzrə diferensiallaşdırmasını məsləhət görmüşdür (Tomlinson, 2000, s. 102-222).

Birinci, təlimin məzmunu kontekstində diferensiallaşdırılmasında Tomlinsonun fikrincə, müəllimin şagirdlərə konkret olaraq nəyi öyrətmək istədiyi, qarşısına onlarda hansı bilik, bacarıq və vərdişləri formalaşdırmaq istədiyi, bunların uşaqların ehtiyac və qabiliyyətlərinə uyğunlaşdırılmasının müəyyən olunması əsas götürülür. Bu məqamda müəllim şagirdlərin bilik və bacarıqlarını dəyərləndirərək,

onların potensial inkişaf səviyyələrini müəyyən etmək yolu ilə təlimin məzmununu şagirdlərin hazırlıq səviyyəsinə, marağına və öyrənmə üslubuna əsasən diferensiallaşdıra bilər.

Sonrakı mərhələdə, təlim prosesinin diferensiallaşdırılması dedikdə isə bu dəfə müəllim tərəfindən ötürülən bilik və bacarıqların öyrədilməsi üçün məşğələlərin məhz şagirdlərin inkişaf səviyyəsi və maraq dairələrinə uyğun formada təşkil edilməsi başa düşülür ki, burada da müəllimin əsas məqsədi məşğələləri şagirdlər üçün maraqlı olacaq üslübda təşkil etməkdir.

Sonuncu, təlim nəticələrinin diferensiallaşdırılması mərhələsi müəyyən olunmuş dövr (yarım il, yaxud tədris ili) ərzində şagirdlərin əldə etdikləri səriştələrə köklənir.Yəni ki, bu mərhələdə müəllim öncədən nəzərdə tutulmuş dövr üzrə təhsilalanların təlim nəticələrini düzgün və ədalətli formada müəyyənləşdirərsə,bu onlarda özünə inamı formalaşdırmaqla, yeni bilik və bacarıqların əldə edilməsinə motivasiya yaradacaqdır.

Fərdi tədris planı. İnklüziv sinifdə təlim prosesinin şagirdlərə uyğunlaşdırılması məqsədi ilə istifadə olunan metodlardan biri də xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün fərdi tədris planının tərtib olunmasıdır. Mükəmməl tərtib olunmuş fərdi tədris planı müəyyən təhsil sahələrində (məqsədli istiqamətlərdə) tədris prosesini strukturlaşdırmaqda və sistemləşdirməkdə müəllimə kömək edir (Xələfov, 2023, s. 30) .

"Fərdi tədris planı – inklüziv təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşağın ehtiyaclarına və imkanlarına əsasən, təhsil proqramının uyğunlaşdırılması və ya təhsil proqramının sadələşdirilməsi nəzərə alınmaqla təlimin məqsədini, vəzifələrini, metod və üsullarını, nəticələrinin qiymətləndirilməsi meyarlarını özündə ehtiva edən sənəd"dir (https://e-qanun.az/framework/53554).

Fərdi Tədris Planı adətən, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə tədris ili başlandıqda (təxminən 1 ay müddətində) aparılan qiymətləndirməyə əsasən müəllim, valideyn və mütəxəssislərin əməkdaşlığının nəticəsində tərtib edilir.

Fərdi Tədris Planı – xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə iş zamanı istifadə olunana ən vacib alət olmaqla, şagird və ona təqdim ediləcək xidmətlər haqqında ətraflı informasiyanı özündə saxlayan formal sənəddir (İnklüziv siniflərdə təlimin təşkili, 2018, s. 32).

Bu planın hazırlanmasının da bir sıra vacib şərtləri vardır:

- Fərdi Tədris Planının hazırlanmasında ailənin iştirakı vacibdir. Çünki digər məqamlarda olduğu kimi, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili bağlı qərarların qəbul edilməsində ailə müəllim və digər mütəxəssislərlə əməkdaşlıq etməlidir.

- Effektiv Fərdi Tədris Planının işlənib hazırlanması müəyyən vaxt apardığı üçün onun tərtib olunmasında bilavasitə iştirak edən şəxslərin işin gedişatına nəzarət məqsədi ilə mütəmadi olaraq görüşləri təşkil olunmalıdır;

- Fərdi Tədris Planı - eksperimental, yəni işin gedişatına uyğun olaraq müəyyən dəyişikliklərə məruz qala biləcək bir sənəd olduğu üçün, müəyyən aralıqlarla onun yoxlanılması tələb oluna bilər.

Qeyd etmək yerinə düşərdi ki, bir çox inkişaf etmiş ölkələrin əksəriyyətinin qanunvericiliyində xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv siniflərdə Fərdi Tədris Planı ilə təmin edilməsi vacib bir şərt kimi irəli sürülmüşdür. Belə ki, inklüziv sinifdə təhsilin effektiv təşkili ilə bağlı aparılan tədqiqatlardan birinin müəllifləri olan Ann P. Turnbull, Bonnie B. Strickland və b.öz tədqiqatlarında təlim prosesində xüsusi təhsil ehtiyacı olan uşaqların spesifik ehtiyaclarının nəzərə alınmasının və eyni zamanda həmin uşaqların mümkün qədər adi tədris planı üzrə işə cəlb edilməsinin vacibliyini vurğulayırlar (Ann P. Turnbull, Bonnie, Strickland, John C. Brantley, 1990, s. 369). Onların fikrincə, tipik və atipik uşaqlar üçün nəzədə tutulmuş xüsusi təhsil məqsədlərinə yalnız Fərdi Tədris Planlarından məqsədli və səmərəli formada yararlanmaqla çatmaq olar.

Təhsilin fərdiləşdirilməsini dəstəkləyən digər bir mütəxəssislər (Cheney, C., and Demchak, M.) xüsusi qayğıya ehtiyacı olan uşaqların təliminin,və onları adi sinif işinə cəlb edilməsinin yalnız standart tədris planının akkomodasiya və modifikasiyası vasitəsilə mümkün olacağını hesab edirlər (Cheney, Demchak,1996, s. 190-197).

Təlimdə akkomodasiya və modifikasiya. Hər bir peşəkar müəllim dərsdə istifadə etmək məqsədilə seçdiyi metodların yeni materialın tədrisi və biliklərin əldə edilməsi zamanı şagirdlərin üzləşə biləcəkləri problem və çətinlikləri öncədən proqnozlaşdırmaq qabiliyyətinə malik olmalı, bununla da seçdiyi

təlim metodunun onun məqsədlərinə uyğun olub-olmadığını təyin etməyi bacarmalıdır. Unutmaq olmaz ki, istənilən metodun seçilməsi və onun tətbiqinin əsas məqsədi şagirdlərə bilik və bacarıqları ötürməklə, onlarda müəyyən vərdişləri formalaşdırmaqdır. İnklüziv sinifklərdə təlim prosesi zamanı bu məqsədlərə xidmət edəcək təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişikliklərin (modifikasiyaların) həyata keçirilməsi metodlarından düzgün və yerində istifadə çox önəmlidir.

Təlimin akkomodasiyası. Akkomodasiya tədris materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir. (İnklüziv siniflərdə təlimin təşkili, 2018, s. 48). Akkomodasiyanın məqsədi təqdim olunan material və ya mətndə heç bir dəyişiklik etmədən öyrənməni fərdiləşdirən, düzgün taktika və strategiyalar seçməklə xüsusi qayğıya ehtiyacı olan uşaqları öyrədə bilməkdir.

İnküziv təhsilin əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların öz yaşıdları ilə bərabər şəraitdə təhsil alması olsa da bu uşaqların təlim nailiyyətlərinin effektivliyinin artırılması məqsədilə müəyyən dəyişiklərin (fərdi akkomodasiya) aparılması labüd ola bilər. Dəyişikliklər deyəndə, əsasən fiziki mühit və düzgün təlim metodlarının seçilməsi nəzərdə tutulur. Bunu aşağıdakı kimi həyata keçirmək olar:

Fiziki mühit – siniflərdə uşaqların ehtiyaclarına uyğun olaraq qruplara bölünməsi, onların yerlərinin dəyişdirilməsi. (Məsələn, görmə qabiliyyəti zəif olan uşağın ön partdada əyləşdirilməsi).

Təlim metodu – burada məsuliyyət və yük daha çox müəllimin üzərinə düşür. Çünki hər şey müəllimin bütün şagirdlərin təlim prosesində fəal iştirakını təmin etmək məqsədilə materialı hansı formada təqdim etməsi və şagirdlərin müəllimin göstərişlərini necə yerinə yetirməsindən asılıdır. Qısacası müəllim nəticəyə köklənməli və müvafiq metodları düzgün seçməyi bacarmalıdır.

Təlimin modifikasiyası – Modifikasiya tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir (İnklüziv siniflərdə təlimin təşkili, 2018, s. 48). “Modifikasiya” termini çox zaman dəyişikliyi ifadə etmək üçün istifadə olunur. Burada məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaqların təqdim olunan materialı yaxşı başa düşmələri, qavramaları və düzgün nəticə çıxararaq yerində tərbiq etmələri üçün müəllimin tədris materialında müəyyən dəyişikliklər aparmasıdır.Bu dəyişikliklərə verilən tapşırıqların sayının azaldılması, mətndə ixtisarların aparılması və ya onun hissələrə bölünməsi daxildir.

Beləliklə, müəllim tədris prosesində müxtəlif növ akkomodasiyaları tətbiq edərkən təlimin məzmununa toxunmur, onu dəyişmir, modifikasiyaların tətbiqi zamanı isə o, əksinə olaraq məzmunu dəyişir.

Eksplisit təlim. Təlim prosesində tədris proqramına əsasən ötürülən informasiyanın həcmi adətən şagirdlərdən böyük əmək tələb edir. Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin əksəriyyəti isə iri həcmli materiallarda mənimsənilməsi vacib olan informasiyanı çox da əhəmiyyətli olmayan məlumatlardan ayırıb seçə bilmirlər. Bununla da onlar anlayış və proseslər arasında qarşılıqlı səbəb və nəticə əlaqələrini görməkdə, müəyyən təhlillər aparmaqda çətinlik çəkirlər.

Son illərdə aparılan tədqiqatlara əsasən deyə bilərik ki, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təlim nəticələrinin effektivliyinin artırılmasında “eksplisit” təlim metodlarının tətbiqi olduqca əhəmiyyətlidir. Eksplisit təlim üç mərhələ üzrə həyata keçirilir:

- *dərsin mövzusunun təqdim edilməsi* (şagirdlərin diqqətini cəlb etmək, əvvəlki dərsin materialı təkrar etmək, şagirdlərə yeni materialın öyrənmə məqsədini açıqlamaq və s.);

-*materialın birbaşa öyrədilməsi və dərsin məzmununun modelləşdirilməsi*(dərsi uşaqların anlama səviyyəsinə uyğun olaraq dəqiq, lakonik, mərhələləli şəkildə izah etmək, dərsin mövzusuna dair suallar vermək və nümunələr göstərməklə izah etmək və s.);

- *şagirdlərə təcrübə toplamaq imkanının yaradılması* (istiqamətləndirilmiş, praktiki iş) (prakriki işdə müəllimin dəstəyi ilə bütün şagirlərinin iştirakını təmin etmək, şagirdləri özünüqiymətləndirməyə həvəsləndirməklə onların müstəqil təcrübə toplamalarına imkan yaratmaq və s.).

Beləliklə, təqdim olunan metodların istifadəsinin inklüziv təhsildə şagirdlərə yalnız müəyyən biliklərin öyrədilməsi ilə məhdudlaşmadığını, eyni zamanda onların sosial mühitə adaptasiyası və cəmiyyətin bərabər hüquqlu üzvü kimi müxtəlif proseslərdə fəal iştirakına zəmin yaratdığını da görə bilərik.Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik uşaqlarla eyni mühitdə təlim-tərbiyə prosesində

effektiv iştirakının təmin edilməsi sinif müəllimi, müəllim köməkçisi və məktəb psixoloqunun işinin vəhdədə, düzgün, məqsədyönlü şəkildə təşkilindən asılıdır.

İnklüziv siniflərdə təlimin effektivliyinə təkcə düzgün strategiyaların seçilməsi deyil, eyni zamanda bu metod və strategiyaların demokratik prinsiplərə əsasən idarə olunan bir sinif kollektivində tətbiqi də böyük əhəmiyyət daşıyır. Unutmaq olmaz ki, belə bir inklüziv mühitin yaradılmasında xüsusi qayğıya ehtiyacı olan uşaqların öz yaşıdları ilə qarşılıqlı əlaqə və ünsiyyətinin qurulması da çox önəmlidir.

Ədəbiyyat

1. Ann P. Turnbull, Bonnie B. Strickland, John C. Brantley(1990). Developing and Implementing Individualized Education Programs, Ohio: Merrill. p.369

2. Cheney, C., and Demchak, M. (1996). Providing Appropriate Education in Inclusive Settings: A Rural Case Study, Washington, DC: Office of Special Education and Rehabilitative Services, p. 190-197

3. Xələfov, A. (2023). İnklüzİv sİnİflərdə tətbİq olunan pedaqoji metodların təhlili, Azərbaycan məktəbi jurnalı, №3, s. 26-38

4. İnklüziv siniflərdə təlimin təşkili TİPİİ. (2018). Oxu materialı, Bakı, 67 səh.

5. Tomlinson, C.A. (2000). The differentiated classroom: Responding to the needs of all learners, USA, p.198

6. https://e-qanun.az/framework/53554

İNKLÜZİV TƏHSİLİ VACİB EDƏN ƏSAS XÜSUSİYYƏTLƏR

Göyçək Pirverdiyeva
Gəncə Dövlət Universiteti
Ümumi pedaqogika kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru
pgoycek@mail.ru

Summary

The article states that inclusive education is a means of getting people with disabilities out of poverty by involving them in education. It is stated that the right to education through inclusive education system, including pre-school, primary, secondary, higher education, vocational training and social activities, is ensured for all people with disabilities without allowing for discrimination. In order to increase the quality of children's education and training in inclusive education, it is emphasized that the following features are necessary, and those features are consistently stated.

Key words: *Inclusive education, levels and levels of education, disabled children, different needs, harmful stereotypes, national - moral values, different characteristics*

Резюме

В статье утверждается, что инклюзивное образование является средством вывода людей с ограниченными возможностями из бедности путем вовлечения их в образование. Заявлено, что право на образование посредством системы инклюзивного образования, включая дошкольное, начальное, среднее, высшее образование, профессиональную подготовку и общественную деятельность, обеспечивается для всех лиц с ограниченными возможностями без дискриминации. Для повышения качества образования и обучения детей в сфере инклюзивного образования подчеркивается, что необходимы следующие особенности, и эти особенности последовательно констатируются.

Ключевые слова*: Инклюзивное образование, уровни и уровни образования, дети-инвалиды, разные потребности, вредные стереотипы, национально-нравственные ценности, разные характеристики*

Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşıyır və dövlətin, cəmiyyətin, insanların maraqlarını əks etdirir. Ölkəmizdə təhsil – insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli – mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya edir (“Təhsil haqqında”Qanun,2009). İnklüziv təhsil isə – bütün insanların fərqli ehtiyac və

xüsusiyyətlərini nəzərə alan və təhsilin mümkünlüyünə mane və ya əngəl olan çətinliklərin aradan qaldırılmasını özündə əks etdirir.

İnklüziv təhsil cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından (fiziki, əqli, emosional, sosial, linqvistik) və ya digər vəziyyətlərindən asılı olmayaraq hər bir şagirdin əsas təhsil hüququna malik olduğu inancından irəli gəlir. Bu fəlsəfəyə əsaslanan inklüziv təhsil sadəcə bir islahat və ya təhsil tendensiyası deyil, həm də cəmiyyətdə hüquq bərabərliyinin qorunması işində əsaslı dəyişiklikdir. Məsələn, bir bağ təsəvvür edək. Bütün şəraitinin təmin edildiyi bu bağda hər bir bitki, istər hündür ağaclar, istərsə də adi kollar, günəş işığından, sudan və qida maddələrindən öz payını alır. Bəzilərinin daha çox, bəzilərinin isə daha az qulluğa ehtiyacı ola bilər, lakin hər bir bitki ekosistemin tarazlığı üçün vacibdir.

Nəzərə alınmalıdır ki, təhsil almaq bütün insanların hüququdur. Bu baxımdan inklüziv təhsil ayrıseçkiliyə, zərərli stereotiplərə qarşı mübarizə aparmaq, müxtəlifliyi qəbul etmək, əlilliyi olan insanları uğurlu təhsilə yönəltməklə onların da hamı kimi məktəbdə iştirakını təmin etməyə istiqamətlənir. İnklüziv təhsil - bütün təhsilalanlara dəyər verilməsini, onların şəxsi müstəqilliyinə, sərbəstliyinə hörmət edilməsini, fərdlərin ehtiyaclarını, onların cəmiyyətə daxil olaraq öz qabiliyyətlərini göstərmək imkanını nəzərdə tutur. Eyni zamanda inklüziv təhsil - əlilliyi olan şəxsləri təhsilə cəlb etməklə gələcəkdə onların müxtəlif peşələrə yiyələnərək özlərini yoxsulluq vəziyyətindən çıxarmaqda bir vasitə olduğunu ehtiva edir.

İnklüziv təhsil bütün uşaqların və əlilliyi olanların fərqlərini nəzərə alaraq, onların ehtiyaclarına uyğun müvafiq dəstək göstərərək, təhsil xidmətlərindən bərabər şəkildə faydalanaraq bütün şagirdlərin birlikdə öyrənməsinə dəstək verən təhsil yanaşmasıdır. Müəllimlər əliliyi olan uşaqları nəzərə almaqla hər cür fəaliyyət təşkil etməli; bütün uşaqlar üçün və onların ehtiyaclarını ən yaxşı şəkildə təmin etməli, digər təşkilatlarla əməkdaşlıq edərək planlar hazırlamalıdır. İnklüziv təhsil bütün müxtəliyliyi olan uşaqları, əhatə edir.

İnklüziv təhsil bərabər imkanlar prinsipinə əsaslanaraq inteqrasiya və ümumiləşdirmə nəticəsində əldə edilən bilik və təcrübələrlə əldə edilmişdir. İnklüziv təhsil təhsil ehtiyacı olan bütün uşaqların ümumi əhali qrupunda digər uşaqlarla birgə təhsil almasını təmin edən bir yanaşmadır.

Bütün insanlarla bərabər əlilliyi olan şəxslər üçün ayrıseçkiliyə yol vermədən təhsilin bütün pillə və səviyyələrində və sosial fəaliyyətlər də daxil olmaqla inklüziv təhsil vasitəsilə təhsil almaq hüququnun həyata keçirilməsini təmin edir. Əlilliyi olan uşaqlarda təlim və tədrisin səmərəliliyini necə artırmaq lazımdır? - sualına cavab olaraq inklüziv təhsildə uşaqların təlim və tədrisinin keyfiyyətini artırmaq üçün aşağıdakı bir sıra xüsusiyyətlər zəruri olmasını düşünürük:

1. Elm və Təhsil Nazirliyi ümumi sistem üzrə yanaşaraq, bütün resursların inklüziv təhsilin tərəqqisinin və institusional mədəniyyətin tətbiq edilməsini və aşılanmasını təmin etməlidir.

2. Əlilliyi olan insanların təhsil aldığı müəssisələrdə müəllimlər inklüziv təhsil mühitinin yaradılması ilə təmin olunmalıdır.

3. Müxtəlifliyə və əlilliyə hörmət edərək, onun əhəmiyyətini dərk edərək zorakılığın qarşısını almaq üçün səmərəli tədbirlər mövcud olmalıdır.

4. Hər bir şəxsin öyrənmə qabiliyyəti tanınmalı, bütün təhsilalanlar, o cümlədən əlilliyi olan təhsilalanlar üçün yüksək gözləntilər müəyyən edilməlidir.

5. Tədris fəaliyyətinin planlaşdırılması zamanı diqqət məzmuna deyil, təhsilalanların qabiliyyətlərinə və hədəflərinə yönəlməlidir.

6. Şəxsiyyətin tamlığı prinsipinə əsaslanan yanaşmanın məqsədi təlim mühitində inklüziv tədrisi təmin etməklə təhsil müəssisələri daxilində seqresiyaya son qoymalı, təhsil alan üçün düşünülmüş mühit yaradılmalıdır.

7. İnklüziv təlim mühiti hər kəsin özünü təhlükəsiz hiss etdiyi, dəstəkləndiyini hiss etdiyi, həvəsli olduğu və özünü ifadə edə bildiyi, müsbət məktəb kollektivinin formalaşmasında əlilliyi olan uşaqların inkişafına təsir göstərdiyi mühitdir.

Bütün bu sadalanan xüsusiyyətlər əlilliyi olan uşaqların məktəb təhsilindən peşə - ixtisas və ali təhsilə, sonda isə əmək fəaliyyətinə səmərəli keçidin təmin edilməsinə kömək edir. Əlilliyi olan insan-

ların potensiallarını və özünəinam hissini inkişaf etdirir, onlara bütün proseslərdə bərabər səviyyələrdə rəftar edilməsini təmin edir.

Dövlətimiz əlilliyi olan şəxslər, xüsusilə autizm spektr pozuntusu olan insanlar, ünsiyyət və hissiyatla bağlı pozuntusu olan təhsilalanlar üçün zəruri tədbirləri həyata keçirir. Həmçinin, görmə qabiliyyətini tam və qismən itirmiş əlillərə Brayl əlifbasını, şrifləri, ünsiyyətin gücləndirici və alternativ üsullarını, vasitələrini, formalarını mobillik vərdişlərini mənimsətmək imkanını təmin etməyə kömək edir. Eşitmə qabiliyyəti məhdud olan əlillərə işarət dilini öyrətməkdə köməklik edərək, onların digər uşaqlarla bərabər təhsil almalarına şərait yaradır. Bütün insanların bərabər təhsilə cəlb olunması üçün tədris prosesini asanlaşdırmalı, məqsədəuyğun texnologiya və alternativ ünsiyyət sistemlərinə çıxış imkanları stimullaşdırılmalı və həmyaşıdların dəstəyi, eyni zamanda mentorluq sistemləri tətbiq olunaraq dəstəklənməlidir. Əlilliyi olan uşaqların müvafiq biliklərə yiyələnməsinə ixtisaslı kadrlar birbaşa kömək etməlidir. Onlar təhsilalanların əlilliyindən və ehtiyaclarından asılı olaraq, onlara qrup və ya fərdi şəkildə kömək etməli, fərdi tədris planı xüsusi (seqresiyalı) təhsildən ümumi təhsilə və ya təhsil səviyyələri arasında keçid edən təhsilalanların keçid dövrünü nəzərə almalıdır.

"Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya"nın 9-cu maddəsinə və Komitənin əlçatanlığı ilə bağlı 2 (2016) nömrəli ümumi şərhinə uyğun olaraq, təhsil müəssisələri və proqramları ayrıseçkiliyə yol vermədən hər kəs üçün əlçatan olmalıdır. Bütövlükdə təhsil sistemi, o cümlədən binalar, informasiya və kommunikasiya vasitələri, təhsil proqramı (kurikulum), təhsil materialları, tədris metodları, qiymətləndirmələr, dil və köməkçi xidmətlər əlçatan olmalıdır. Əlilliyi olan insanların, təhsilalanların mühiti elə layihələndirilməlidir ki, bütün təhsil müddətində onların inklüziv şəkildə təhsilə cəlb olunmasına şərait yaratsın və onların bərabərliyini təmin etsin (BMT-nin Uşaq fondu (UNICEF) Bakı, 2019). İnklüzivlik bütün uşaqların uyğun mühitdə lazımi uyğunlaşmalar apararaq ümumtəhsil siniflərinə yerləşdirmək, onların siniflərdə və dərslərdə fəaliyyətlərində iştirakına yardım etmək kimi müəyyən edilir. Belə olduqda təlim uşaqlar üçün keyfiyyətli olur. *Təhsil bütün uşaqların ehtiyaclarına uyğun təşkil edildikdə bərabərsizliyinin qarşısı alınır, sağlamlıq imkanları məhdud şagirdlərin həyatlarında özgüvəni artır, əlil şagirdlərin gələcəkdə məşğulluqda iştirakı üçün şərait yaranmış olur (*İnklüziv təhsil.2019. s.16*).*

Bu baxımdan dövlətimiz tərəfindən respublikamızda gedən abadlıq, quruculuq işləri, yeni təhsil ocaqlarının, məktəblərimizin tikilməsi zamanı müasir infrastrukturlu, yuxarıda sadalanan informasiya və kommunikasiya vasitələri, təhsil proqramı (kurikulum), təhsil materialları, tədris metodları, qiymətləndirmələr, dil və köməkçi xidmətlər, sanitar qovşağı, məktəb yeməkxanaları, kitabxanaları və s. vasitə və yerlər əlil, sağlamlıq imkanları məhdud olan insanların diğər insanlarla birlikdə bərabər təhsil almalarına köməklik göstərəcəkdir.

Ədəbiyyat

1. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqındaKonvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019.

2. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəliÜmumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaqfondu (UNICEF), 2019

3. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçünnə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019

4. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 20208.İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020

5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu 2009. https://baku.edu.gov.az/az/page/281/2476

İNKLÜZİV TƏHSİLİN İNKİŞAF TARİXİ

Ləzifə Qasımova
Bakı Dövlət Universitetinin professoru

Summary

The thesis talks about the development path of inclusive education, the research conducted in this field, including the place and role of inclusive education in the works. In the article, the essence, content and necessity of inclusive education in the world pedagogical opinion is brought to the agenda and examples of research conducted in this direction are given. Opinions are studied and attitudes are reported and generalizations are made in this direction.

Ключевые слова: *Образование, развитие, инклюзия, исследования, мысли.*

Резюме

В диссертации рассказывается о пути развития инклюзивного образования, исследованиях, проводимых в этой области, в том числе о месте и роли инклюзивного образования в этих работах. В статье вынесены на повестку дня сущность, содержание и необходимость инклюзивного образования в мировом педагогическом мнении и приведены примеры исследований, проводимых в этом направлении. Изучаются мнения, сообщаются отношения и делаются обобщения в этом направлении.

Key words: *Education, development, inclusion, research, thoughts*

İnklüzivliyin yaranma tarixini tam müəyyənləşdirmək o qədər də asan deyildir. Lakin bu haqda yazılan mənbələr çoxdur və onlar da problemin inkişaf tarixi haqda məlumat verir. Pesaqogika üzrə fəlsəfə doktoru N.Zeynalova inkluziv təhsilin pedaqogikası dərs dərsliyində belə qənaətə gəlir ki, Yaranma tarixini dəqiq müəyyənləşdirmək mümkün olmasa da, siyasi sənədlərin, mütəxəsislərin, rəsmi bəyanatları görkəmli fikir tarixçilərinin yaradıcılığında bu tarix açıqlanır. Tədqiqatlar göstərir ki, müəyyən çətinlikləri olan insanları görməmək, onlar haqda düşünməmək mümkün deyil. Tarix boyu fiziki və psixi inkişaf baxımından müəyyən çatışmazlıqlar həmişə insanların diqqətində olmuşdur. Sivilizasiyanın müxtəlif inkişaf dövrlərində insanlar fikirlərində çatışmazlıqlar müvafiq meyarlarda ölçürdülər. İbtidai dövrlərdə insanların çatışmazlıqları və ondan əziyyət çəkmə məsələləri ilə bağlı məlumatları belə yox idi. Qədim Yunanıstanda, xüsusilə Spartada uşaqlarım öldürülməsi ilə bağlı artıq fikir formalaşmışdır. Əgər dünyaya gələn uşaq fiziki cəhətdən qüsurlu olardısa, o zaman həmin uşağı öldürürdülər. Çatışmazlığı (qüsuru) olan uşaqların öldürülməsinə bəzən haqq qazandıranlarda olmuşdur. Bu sırada Aristotelli, Platonu görmək olur. Belə münasibət XIX əsrə qədər Hindistanda da özünü göstərirdi. VI əsrdən başlayaraq bizim erayadək psixi, intellektual, fiziki fəaliyyətin elmi izahına rast gəlinməmiştir. Bu fəaliyyəti yalnız beyinlə əlaqələndirirdilər. Qədim yunan-roma tibbinin formalaşdığı dövrdə artıq bu problem alimlərin diqqət mərkəzində olmuşdur. Bizim eradan əvvəl VI əsrdə ilk dəfə olaraq Pifaqor göstərmişdir ki, ağıl baş beyində yerləşir, hisslər isə ürəkdə. Sonrakı dövrlərdə tibb sahəsində bir sıra nəzəriyyələr daha da inkişaf etməyə başlamışdır. Bu sırada təbib Hippokrat böyük rola malik olmuşdur. **Bazce səhərində** tibb üzrə professor Felins Platter **həbs**xanalarda, kilsələrdə saxlanılan ruhi xəstələri müşahidə etmişdir. O dövrdə bu icazə yalnız həkimlərə verilirdi. Sonralar XV əsrdə bu insanlar üçün xüsusi müəssisələr təşkil edilmişdir. Bu müəssisələrin əsas kredosu cəza və işgəncə verməkdən ibarət idi. 1614-cü ildə nəşr olunmuş “Müşahidələr”, 1625-ci ildə “Tibbi praktika” kitablarında Platter intellektual zəifliyi olan uşaqların üzərində apardığı müşahidələri əks etdirmişdir. İlk dəfə olaraq Platter ruhi xəstəliklərin ilk olaraq təsnifatını vermişdir. O, ruhi xəstəlikləri dörd qrupda ümumiləşdirmişdir. I qrupu o, “mentis imbecillitas” adlandıraraq intellektin, yaddaşın, təxəyyülün müxtəlif formalı pozuntusu olan insanlara aid edirdi. O, qeyd edirdi ki, əgər bu qabiliyyətlər pozularsa, onda əqli geriliyin ən ağır dərəcəsi yarana, yəni təxəyyülün müəyyən pozuntusu qabiliyyətlərin zəifləməsinə və adiləşməsinə səbəb olar. Platterin diqqəti cəlb edən qruplarından biri “mentis alienatio” adlanır. Bu qrupa o, anadangəlmə əqli gerilik baxımından əziyyət çəkənləri ayırd edirdi. Bu qrupa aid olan uşaqlar sərbəst fikir yürüdə bilmirlər, nitqləri ya pozulur, ya da tam itir. Fiziki nöqsanlar özünü təzahür etdirir. Əqli geriliyi olan insanlar artıq pedaqoqların da diqqətini cəlb etmişdir. Bunlardan biri çex pedaqoqu Yan Amos Komenski olmuşdur. O, ilk dəfə əqli geriliyi olan insanların təlim-tərbiyəsinin zərurililiyini göstərmişdir. Y.A. Komenski “Böyük didaktika” əsərində göstərirdi ki, kütbeyin insanlar üçün təbiyənin

zeruriliyinə, kütbeyinlik təbiətindən azad olmasına heç kim şübhə ilə yanaşmasın. Əgər kimsə ləng və qəddardısa, onların da köməyə ehtiyacları vardır.

Rusiyada I Pyotrun vaxtında əqli geriliyi olan insanlar kilsənin himayədarlığı altında idi. Bunun səbəbi ondan ibarət idi ki, bir sıra boyarlar öz oğullarını dövlət xidmətindən azad etmək üçün "kəm-ağıllı" adı altında monastırlarda yerləşdirməyə başladılar. I Pyotr bunu bildikdə "kəm-ağıllı" insanların evlənməsinə və mülkiyyət sahibi olmasına qadağa qoydu. İsveç pedaqoqu İ.H.Pestalotski də kəmağıllıların təlim-tərbiyəsindən bəhs edərkən qeyd edirdi ki, kəmağıllıların təlim tərbiyəsi ictimaiyyəti qane edə bilməz. Təlim-tərbiyə işində yalnız yüngül intellektual çatışmazlıqları olan şagirdlər nəticə əldə edə bilərlər. Fransız psixiatrı Yan İtar tərrübi olaraq kəmağıllıların təlim-tərbiyəsini göstərə bildi. Buna səbəb maraqlı bir hadisə olmuşdur. Fransanın cənub-şərqində Aveyzona kilsələrində 1799-cu ildə 11-12 yaşlarında tamamilə vəhşiləşmiş bir oğlan uşağı tapmışdılar. O, heyvanlara məxsus hərəkətlər edir, qışqırır, dişləyir, cırmaq atırdı. Onu Parisə gətirirlər. Cəmiyyətin dəqqətini cəlb edən oğlan sivilizasiyadan kənarda idi. Bu oğlan əsrlər boyu hökm sürən sivilizasiya insana necə təsir göstərir məsələsini həll etməli idi. Oğlanla Fransa Elmlər Akademiyasının işçiləri maraqlanmışdılar. Onun adını Viktor kimi qəbul etdilər. Onu fransız psixiatrı Pinel müalicə edirdi.

Pinel belə qərara gəlmişdir ki, uşaq psixi cəhətdən xəstədir, onu tərbiyə etmək olmaz. Uşaqın bütün orqanları inkişafdan qalmışdı, hərəkətləri xaotik idi, əqli bacarıqları yox idi. Fransa Elmlər Akademiyası Karlar Milli institun həkimi İtara oğlanla məşğul olmağı tapşırdı. O şübhə etməyə çalışdı ki, uşaq **idiot** deyil, sadəcə vəhşiləşmiş olduğunu sübut etməyə çalışdı. İtara belə qərara gəldi ki, Viktoru tərbiyə etmək üçün ilk növbədə hiss orqanlarının inkişaf etdirəcək metodlardan istifadə etmək lazımdır. O belə fikirə gəldi ki, uşağın bir neçə hiss orqanı və eyni anda aparılacaq iş yaxşı və səmərəli nəticə verə bilməz. Ona görə də bir hiss orqanının inkişaf etdirilməsisinə başladı.

İlk öncə İtar oğlan üçün onun əvvəl yaşadığı mühitə oxşar bir şəraiti itlə əvəz etməyə başladı. O, uşaqda insanı keyfiyyətləri, nitqi inkişaf etdirməyə calışdı. Bu cür təsirdən İtar çox nailliyyət əldə etmiş oldu. İtar Pinelə sübüt etməyə çalışdı ki, hətta ən çətin **idiotlar** ümidsiz deyillər, onlar təkmilləşmək qabiliyyətinə malikdirlər. İtar müəyyənləşdirdi ki hiss orqanlarının çalışması və motorikanın inkişafı nəticəsində formalaşmaq olar. Beləliklə, İtarın təcrübəsi o zaman qərbdə cəmiyyətin o " kəmağıllı" insanlara olan mövcud münasibətini müsbət mənada dəyişə bildi.

L.S. Viqotskinin əsərlərində də əqli gerilik problemi ilə əlaqədar E.Seqenin mövqeyi açiqlanıb. Vıuqotski yazırdı: son illərə qədər əqli gerilik problemində uşağın intellektual çatışmamazlığı, onun kəmağıllığı çəkilir.İntellektual aktın bütün əsas xüsusiyyətlərin eyni təbiəti aşkar edilir. Belə uşaqlar strukturları qavrayır. O qeyd edir ki anomal uşağın sağlam tərəfinə söykənmək lazımdır. I.S. Vıqotskı əqli geriliyin mahiyyətinə uşagın öyrənilməsinə dinamik yanaşmanın əsasını gətirdi. O hesab edirdi ki, uşaqlarin problemini daim diqqətdə saxladı. Təsadüfi deyildir ki, ona "Sovet defekroloqiyasının atası" titulu verilmişdir. Viqoyski əgli geriliyin xüsusoyyətlərini başa düşmək üçün qusurun təbiətində iki mərhələnin olduğunu bilmək lazımdır. O, göstərir ki, uşağın inkişafında ləngiməni: 1 və 2 dərəcəli geriləməni bir-birlərindən fərqləndirmək lazımdır. Patoloji inkişafın nəticəsində əqli geriliyi olan uşaq sosial mühitdə 2-ci təbəqəyə görə xüsusi vəziyyətə məxsus kimi özünü göstərir. L.S. Viqotski qeyd edirdi ki, əgli qeriliyi olan uşağın şəxsiyyəti bioloji, sosial, psixoloji və pedaqoji faktorların qarşılıqlı əlaqəsi zamanı formalaşir. Qüsur psixi fəaliyyətin müxtəlif tərəflərini qeyri -bərabər şəkildə əhatə etməklə, geriliyi olan uşaqlar üçün xüsusi şərait yaratmış olur. İmkanların həyata keçrilməsi üçün uşagin psixi vəziyyətini düzgün görməyi bacarmaq lazımdır. Əlverişli şəraitdə, böyüklərin köməyi ilə inkişaf edərərək əqli geriliyi olan uşaq yeni keyfiyyət özündə əks etdirə bilir. Uşağın perspektiv imkanlarını Vıqotski yaxşı inkişaf zonası adlandırmışdır. Şagirdlərin inkişaf problemini öyrənən pedaqoqlardan biri də Jan Piaje idi. İsveçrə psixoloqu Jan Piaje genetik psixoloqiyanın əsasını qoymuşdur. Piaje gəncliyində biologiya üzrə yazılar yazmışdır. O biologiya müzeyində əmək fəaliyyətinə başlamışdır. Universitetdə təhsil alarkən fəlsəfə və biologiyanı dərindən öyrənmişdir. 1918-ci ildə molyuskalardan bəhs edən dissertasiya işi müdafiə etmiş və doktorluq dərəcəsinə yüksəlmişdir. O, universitet təhsilini başa vurduqdan sonra Suriyaya gedir, K.Yunqun əsərləri və psixoanalizlə tanış olur. O, eksperimental laborator metodla psixoanalizdə istifadə olunan sərbəst söhbət metodunu sintez erməklə bioloji tədqiqatlar aparmaq istəyirdi. Bunun üçün bu təcrübə ona çox lazm idi. Bu metod klinik söhbət metodu kimk məşhurlaşmışdır. Piajeyə görə

intellektual inkişaf müvafiq prosesin qarşılıqlı əlaqəsində özünü təzahür etdirir. O, koqnitiv inkişafın mərhələlərini müəyyənləşdirmişdir. Birinin digərinin əsasında qurulan dörd mərhələsinj müəyyənləşdirmiş və bu mərhələyə daxil olan təxmini yaş həddini göstərmişdir.

Ədəbiyyat

1. Ellen Notbohm. Hər bir autizmli uşağın bilməyinizi istədiyi on fakt. (ingilis dilindən tərcüməçi : Pərviz)
2. Kəmalə Əliyeva Autizm və təlim Bakı 2015
3. Minarə Məmmədova. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla psixokorreksiya işinin təşkili B. 2016
4. Lalə İsmayılova Autizm . Ev şəraitində təlim Bakı 1917
5. Выготский Л.С Рсихология.М Изд-во Ексмо-Рресс 2000
6. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (Xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu (N1153-VQ) 31 may 2018
7. Talıblı.Bakı, TEAS Press Nəşriyyat evi, 2019
8. Zeynalova N., İnklüziv təhsilin pedaqogikası Bakı, Elm və təhsil 2021
9. Minarə Məmmədova Hipeaktiv uşaqlarda diqqətin pozulması Bakı ADPU 2017

İNKLUZİV SİNİFLƏRDƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN SOSİALLAŞMASI

Nuridə Quliyeva
Bakı Dövlət Universiteti Qazax filialı
quliyeva.nuride@internet.ru

Summary

The article discusses some aspects of the socialization of primary school children in inclusive classes. In inclusive classes, certain skills necessary for a teacher to ensure the socialization of younger students were considered. Some of them were noted: the ability to feel the emotions of children in inclusive classrooms, the ability to manage these emotions and emotions, the ability to perceive, the ability to observe students, the ability to set and follow rules (help friends, not group with each other, treat students respectfully, etc.).

Key words: *student, school, teacher, communication, socialization*

Резюме

В статье рассмотрены отдельные аспекты социализации младших школьников в инклюзивных классах. В инклюзивных классах были рассмотрены определенные навыки, необходимые учителю для обеспечения социализации младших школьников. Среди них были отмечены следующие: способность чувствовать эмоции детей в инклюзивных классах, способность управлять этими эмоциями и чувствами, способность к перцепции, способность наблюдать за учениками, способность устанавливать и соблюдать выполнение правил (помогать товарищам, не группироваться друг с другом, уважительно относиться к ученикам и т. д.).

Ключевые слова: *ученик, школа, учитель, общение, социализация.*

İnkluziv siniflərdə ibtidai sinif şagirdlərinin sosiallaşmasını təmin etmək üçün müəllimlərin üzərinə böyük yük düşür. Şagird şəxsiyyətinin sosiallaşması prosesinin müvəffəqiyyətlə getməsi üçün əlverişli mühitin yaradılması vacibdir. Müəllimin səriştəli olması bu mühitin tərbiyələndirici və inkişafetdirici mühit olmasına səbəb olur. Müəllim şagirdlərin imkan və bacarıqlarını düzgün qiymətləndirməli, onların şəxsiyyətinə hörmətlə yanaşmalı, inanmalı, imkanlarının reallaşdırılmasına şərait yaratmalıdır. (İlyasov, 2018, s. 106)

İnkluziv siniflərlə işləyən müəllim bu nüanslara ikiqat diqqət etməlidir. Çünki, sosiallaşan uşaq öz sevincini, kədərini paylaşa bilir. Atalarımız əbəs yerə deməyiblər ki, “sevinci bölüşdükcə artar, kədəri bölüşdükcə azalar”. Uşaqda sosiallaşma artdıqca onun sevinci də, xoşbəxtlyi də artar.

İnkluziv siniflərdə ibtidai sinif şagirdlərinin sosiallaşmasını təmin etmək üçün müəllimlərdən aşağıdakı bacarıqlar tələb olunur.

a) İnkluziv siniflərdə uşaqların duyğularını hiss etmək və bu duyğuları idarə edə bilmək bacarığı. Bunun üçün müəllim perseptiv qabiliyyətindən istifadə etməlidir.

Perseptiv qabiliyyətlər şagirdin daxili aləminə varma qabiliyyəti, psixoloji müşahidəçilik, şagirdin keçici psixoloji vəziyyətini anlamaq qabiliyyətidir. Qabiliyyətli pedaqoq cüzi xarici əlamətlərə görə şagirdin daxili vəziyyətini hiss etməyi bacarmalıdır. (İlyasov, 2013, s. 30)

Müəllim uşaqla söhbət əsnasında ona bildirməlidir ki, onun qəmgin, əsəbi, hirsli vəziyyətlərdə olması normaldır. Lakin hirsli olduğu üçün ətrafa, yoldaşlara kobud münasibəti qəbul edilməzdir. Bir hadisəyə pis olduqda, yaxud kimsə onun qəlbinə dəydikdə, kiməsə hirsləndikdə bu hisslərini müəllimə bidirib, problemini onunla bölməlidir.

b) Qaydalar qoya bilmək bacarığı. Sinifdə uşaqlara eyni münasibət göstərilsə də, müəllim onlara sevgi ilə yanaşsa da uşaqlar arasında qaydalar qoymaq lazımdır və bu qaydalara riayət etməyin vacibliyi vurğulanmalıdır. Bu qaydalar belə ola bilər, məsələn, inkluziv sinifdə birinci qayda şagirdlərin yoldaşlarına kömək etməsi, öz aralarında qruplaşmaması, digər yoldaşlarını məsxərəyə qoymamaları və s.

Müəllim özü qoyduğu qaydalara daim ciddi nəzarət edərsə uşaqlar da bu qaydalara bir o qədər məsuliyyətlə yanaşarlar.

Məktəb təcrübəsində yol verilən səhvlərdən biri də şagirdlərin təfəkkür üslubunu müəllimlərin nəzərə almaması ilə bağlıdır. Şagirdlər informasiyanı müxtəlif yollarla əldə edir, toplayır, yenidən işləyir və istifadə edirlər. Sinir sistemi tipindən asılı olaraq şagirdlərin bir qismi tez, bir çoxu ləng fikirləşir. Müəllimlər çox vaxt bu cəhətə əhəmiyyət vermir, dərs prosesində şagirdlərin hamısını eyni dərəcədə fəallaşdırmırlar. Çox vaxt fleqmatik və melanxolik şagird dərsi bilsə də, suala dərhal cavab vermir, məsələni hamıdan gec həll edir, inşa yazanda da axıra qalır. Bu əlamətlər şagirdin intellektini keyfiyyət baxımından xarakterizə etmir və edə də bilməz. Psixoloji cəhətdən hətta şagirdin hansı məsələsini həll etməsi də onun təfəkküründü keyfiyyət baxımından təhlil etmək üçün hələ kifayət deyildir. Müəllim şagirdin, birinci növbədə, məsələni necə, hansı yolla həll etməsinə xüsusi diqqət yetirməlidir. Şagirdlərə fərdi yanaşmalı, dərsdə onların müstəqilliyi və yaradıcı fəallığı üçün əlverişli şərait yaratmalıdır. (Bayramov, Əlizadə, 2003, s. 210)

İnkluziv siniflərdə ibtidai sinif şagirdlərinin sosiallaşmasını təmin etmək üçün müəllim aşağıdakı bacarıqları şagirdlərdə formalaşdırmalıdır.

1. Uşaqların bir-birləri ilə sosial münasibətə başlamaq və bu münasibətləri davam etdirmək bacarıqları. Bunlara daxildir: uşaqların bir-biri ilə tanış olarkən özlərini təqdim etmələri, yoldaşlarına əlavə suallar vermələri, hansısa bir mövzunu müzakirə etmək bacarıqları, bir-birlərindən kömək istəmələri və bu bacarıqların davam etdirilməsi.

2. İnkluziv siniflərdə müəllimlər şagirdlərlə daha çox qrup işi görərkən çətinliklərlə üzləşir. Buna görə də qruplarla iş bölgüsünə, vəzifə bölgüsünə əməl etmək, qrupla işləyərkən məsuliyyət hissinin formalaşdırılması, digər yoldaşlarının fikrini dinləməyi və həmin fikrə hörmətlə yanaşmaq xüsusiyyətlərini formalaşdırmaq lazımdır.

3.Uşaqların duyğularını, hiss və həyəcanını hiss etmək və bu duyğuları idarə etmək bacarığına malik olan müəllim inkluziv siniflərdə müsbət nəticələr əldə edə bilər. Bununla yanaşı müəllimlər bu bacarıqları öz şagirdlərində də formalaşdırmalıdır. Uşaqlarda özünün və başqalarının duyğularını, hiss və həyəcanlarını anlamaq, özündə baş verən yüksək həyəcan və qorxunu aradan qaldırmaq, özündə gözəl hisslər formalaşdırmaq və s. bu kimi xüsusiyyətlərdəndir.

4. Çətin vəziyyətlərdə hiss və həyəcanlarının öhdəsindən gəlmək bacarıqları. Bunlara aiddir: dərsdə geri qalmaq hallarını aradan qaldıra bilmək qabiliyyəti, tək qalmaqdan qorxmamaq, utanılan bir vəziyyətə düşdükdə bu vəziyyətdən çıxış yolu tapmaq bacarığı və s.

5. Problemli vəziyyətlərdən, çətin situasiyaların öhdəsindən gəlmək bacarıqları. Uşaq lazım gəldikdə icazə istəməsi, başqalarına kömək etmək qabiliyyəti, hər hansı bir mübahisədə güzəştə getmək qabiliyyəti, yoldaşlarına kömək etmək, öz hisslərini idarə edə bilmək, öz hüquqlarını bilmək və müdafiə etmək, dava-dalaşdan uzaq durmaq, onu məsxərəyə qoyan uşaqların bu davranışının qarşısını almaq bacarıqları

6. Planlaşdırmaq bacarıqları. Öz işini, dərsini planlaşdırmaq üçün qarşıya məqsəd qoymaq, əlavə məlumatlar əldə etmək, qərar vermək, diqqətini bir yerə toplamaq və s.

Ədəbiyyat

1. Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. (2003) Sosial psixologiya, Bakı, 354 s.
2. İlyasov, M. İ. (2013). Müəllimin pedaqoji ustalığı. Bakı.: Elm və təhsil, 215 s.
3. İlyasov, M.İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı.: Elm və təhsil, 208 s.

İNKLÜZİV TƏHSİLİN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ

Kamalə Salamova
Sumqayıt Dövlət Universiteti
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
Salamovak11@gmail.com

Summary

The effect of inclusive education on learning activities

The article analyzes the positive aspects of implementation of the right to quality education, based on the program adopted by the United Nations, to increase the social development of children with disabilities, as well as space, educational resources, and therefore the right to quality education. Because, in the last decade, the discourse, arguments and researches about Inclusive education are contradicting each other. The article is based on the growing researches and leads to the agreement about the benefits of inclusive education for children with physical disabilities. Inclusive education confirms that those children achieve more positive academic indicators.

***Key words**: education, physically disabled, benefits, quality education.*

Резюме

Влияние инклюзивного образования на учебную деятельность

В статье анализируются положительные аспекты реализации права на качественное образование на основе принятой ООН программы повышения социального развития детей с ограниченными возможностями, а также пространства, образовательных ресурсов, а следовательно, и права на качественное образование. . Поскольку в последнее десятилетие дискурс, аргументы и исследования об инклюзивном образовании противоречат друг другу, статья основана на растущих исследованиях и приводит к соглашению о преимуществах инклюзивного образования для детей с ограниченными физическими возможностями. Инклюзивное образование подтверждает, что эти дети достигают более положительных академических показателей.

***Ключевые слова**: академический, образование, инвалидность, льготы, качественное образование.*

Təhsil cəmiyyətin və fərdlərin inkişafının əsasında dayanan bir prosesdir. Təhsilin səmərəsi isə bir sıra amillərdən asılıdır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”ında göstərilir: “Təhsilin infrastrukturu zəruri amil olsa da, bilik və bacarıqlar təhsil müəssisəsinin sayı və müddəti ilə deyil, öyrənmə prosesinin keyfiyyəti ilə əldə olunur”. Öyrənmə prosesinin keyfiyyəti isə təhsildə aparılan islahatların müasir tələblərə necə cavab verməsindən, böyüyən nəsillərin müstəqil həyata bir şəxsiyyət kimi hansı səviyyədə hazırlanmasından ciddi şəkildə asılıdır. Təhsilin səmərəsi fərdlərin,yəni bütövlükdə cəmiyyətin inkişafının əsasında dayanır.

Cəmiyyətin qarşısında duran ən böyük vəzifələrdən biri təhsildə məhdud imkanları olan insanlar üçün ümumi təhsil sytandartlarına uyğun təlim şəraiti yaratmaqdır.Bu Birləşmiş Millətlər Təşkilatının təhsilin genişləndirilməsi və universallaşdırılması haqqındakı Dayanıqlı İnkişaf proqramının məqsəd-lərini əks etdirir və bütün dünyadakı təhsil sistemləri üçün məqsəd və çağırışdır. Məhdud imkanları olan uşaqların təhsil sistemi “İnklüziv təhsil” adlanır və şagirdlərin məhdud fiziki imkanlarını qəbul edən və onlara cavab verən, müvafiq kurikulumlar, tədris strategiyaları və resurslardan istifadə yolu ilə hamı üçün keyfiyyətli təhsili təmin edən məktəblərdə birlikdə təhsil alması (UNESCO 1994) və bütün şagirdlərin ümumi təhsil dərslərində iştirakı və nailiyyətləri (UNESCO,2017) nəzərdə tutur. İnklüziv təhsilin əsas ideyası xüsusi təhsilə ehtiyacı olan şagirdlər qrupunun təhsilinə xüsusi qayğı ilə yanaşmaqdır (Kurth et.al..2018). Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi proqrama görə, inkülziv təhsil, əlilliyi olan uşaqların həm də sosial inkişafını artırmaq üçün məkan,təlim resursları və buna görə də onları ümumi şəraitdə paylaşa bilən keyfiyyətli təhsil hüququnun həyata keçirməsini tələb edir

(Birləşmiş Millətlər Təşkilatı,2007). Nəticə etibarilə, inklüziv təhsillə bağlı diskurs, arqumentlər və araşdırmalar çox vaxt belə uşaqlar qrupunu əhatə edir və artan dəlillər son tədqiqatların icmallarında tapıldığı kimi, inklüziv təhsilin bu tələbələr üçün faydaları barədə razılığa gətirib çıxarır. Məsələn, Oh-Young və Filler (2015) tərəfindən aparılan meta-analiz əlilliyi olan uşaqların yerləşdirmə parametrləri arasında nəticələrini müqayisə etmiş və təhlillərdən aydın olmuşdur ki, daha inteqrasiya olunmuş şəraitdə olan uşaqları həm akademik, həm də sosial sahədə daha çox ayrılmış şəraitdə təhsil alan uşaqları qabaqlayırlar. Kefallinou və başqalarının araşdırmalarının nəticəsi belə deməyə imkan verir ki, təhsilə inklüzivliyin əlilliyi olan uşaqların akademik nəticələrinə sübut edilmiş müsbət təsiri və onun sonrakı sosial inklüzivliyinə müsbət təsiri səbəbindən həm təhsil, həm də sosial baxımdan inklüzivliyi əsaslandıran çoxlu araşdırmalar var. Deməli inkülziv təhsil əlilliyi olan insanların əlavə akademik imkanları və ixtisasları, məşğulluğa çıxışı və cəmiyyət daxilində şəxsi münasibətlərin inkişafı baxımından ən müasir texnologiyalara söykənən təlimdir.İnklüziv təhsil əlilliyi olan uşaqlar üçün ən keyfiyyətli təhsill hesab olunur,bunun üçün inklüzivliyin bütün şagirdlər üçün potensial faydalarına baxmaq vacibdir. Bununla əlaqədar olaraq, inkülziv təhsillə bağlı tədqiqatların əksəriyyətinin öyrənən kateqoriyalarına, xüsusən də əlilliyi olanlara və digər SEN-lərə aid olması faktı bizim digər şagird kollektivlərinə təsirləri nəzərdən qaçırmağa səbəb ola bilər və inklüziv təhsilin tərifi ilə uyğun gəlməyə bilər (Messiou, 2017). İnklüziv yanaşmanın genişləndirilməsi və universallaşdırılması məqsədi onun bütün uşaqlar, o cümlədən SEN olmayanlar üçün müsbət və ya heç olmasa mənfi olmadığını göstərən sübutlardan faydalana bilər. Bunu son illərdə inklüzivliyin xüsusi ehtiyacı olmayan uşaqlara təsirini nəzərdən keçirən tədqiqatlarda təsdiq etmişdir. Baxmayaraq ki tədqiqatların çoxunda uşaqların başqalarına münasibəti, empatiyası və anlayışı inkişafı araşdırılmışdır. Məsələn, Smith və Williams (2001) tədqiqatlardan əldə edilmişdir ki, əlilliyi olmayan uşaqlar müxtəlif növ çatışmazlıqların nəticələrinə həssas ola bilərlər və ümumilikdə müxtəlif növ qüsurları olan uşaqların imkanları haqqında müsbət təsəvvürə malikdirlər ki, bu da inklüzivliyə müsbət təsir göstərir,Tafa və Manolitsis (2003) isə əlilliyı olan uşaqlarla birlikdə inklüziv proqramlarda təhsil uşaqların öz həmyaşıdlarının ehtiyaclarına hörmət, məlumatlılıq və qəbulu artırmış, daha az ön mühakimə inkişaf etdirmiş və əlilliyi olan insanlara daha çox kömək və dəstək olmağı öyrənmişlər. Bu, inklüziv təhsilin əlil olmayan uşaqların əlilliyi olan insanlara münasibətini dəyişdirərək, əlilliyə səbəb olan münasibətlərə meydan oxumaqda rol oynaya biləcəyi, buna görə də daha inklüziv cəmiyyətin qurulmasına töhfə verə biləcəyi qənaətinə gələn digər tədqiqatlarla uyğundur (Beckett, 2009). Grütter və başqaları (2017) isə əlilliyi olan və olmayan uşaqlarladostluq münasibətlərini təhliletmişdir. Onlar müəyyən etmişdir ki, əlil və ya fiziki qüsuru olan və olmayan uşaqlar arasında yaxın dostluq əlaqələri qurmaq imkanları daha möhkəmdir. Bu münasibətlər fiziki qüsuru olmayan uşaqların fiziki qüsuru olan uşaqlara müsbət münasibətini artırır. Bu onu göstərir ki, inklüziv təhsil əlil olan və olmayan uşaqlar arasında dostluğu fəal şəkildə təşviq edən təhsil təcrübələrindən faydalana bilir. Tədqiqatlar həmçinin inklüzivliyin ağıl nəzəriyyəsi (ZK) kimi idrak qabiliyyətlərinin inkişafına təsirini araşdırıb və aşkar edib ki, inklüziv siniflərdə fiziki qüsuru olan uşaqlarla birlikdə təhsil alan fiziki qüsuru olmayan uşaqlar ənənəvi siniflərdə təhsil alan həmyaşıdlarına nisbətən daha yaxşı ZK inkişaf etdirirlər (Smogorzewska et al., 2020).Bu uşaqlarda müxtəliflik, tolerantlıq, başqalarının qəbulu və inklüziv siniflərdə prososial davranışlardan istifadə haqqında daha çox anlayış ZK-nın inkişafına kömək edir.

Hienonen isə öz tədqiqatlarını inküluzv təhsilin akademik öyrənməyə təsirini araşdırıb. Onun tədqiqatında şagirdlərin müntəzəm siniflərdə olmasının əlilliyi olmayan həmyaşıdlarının bir qədər aşağı performansı ilə əlaqəli olduğunu müəyyən etmişdir. (Hienonen, 2018). Digər tədqiqatçılar məsələn, Ruijs və Peetsma (2009) isə aşkar etmişlər ki, inklüziv təhsil qeyri-inklüziv təhsillə müqayisədə, xüsusən də akademik nailiyyətlərlə bağlı əlilliyi olan və olmayan şagirdlər üçün neytral və müsbət təsir xarakterlıidir. Əlilliyi olmayan uşaqların təsirlərinə diqqət yetirərək Kalambouka (2007) əlilliyi olan uşaqların daxil edilməsinin mənfi təsirlərinə dair heç bir dəlil göstərməmişdir ki, bu da onu göstərir ki, əksər tapıntılar əlilliyi olmayan uşaqlaramüsbət və ya neytral təsir göstərir. Eynilə, Szumski, Smoqorzewska və Karwowski'ninmeta-analizi (2017) fiziki qüsuru olan tələbələrin mövcudluğunun fiziki qüsuru olmayan tələbələrin akademik nailiyyətlərinə əhəmiyyətli və müsbət təsirini qeyd etmişdir.

Tədqiq olunan şərtlərin heç birində əhəmiyyətli mənfi təsirlər aşkar edilməmişdir, əksinə, tədqiqatların nəticələri ya neytral ya da müsbət olmuşdur.

Aparılmış tədqiqatların təhlili sübut edir ki, bu tədqiqatlarda inklüziv təhsilin şagirdlərin əksəriyyətinin keyfiyyətli təhsil almaq hüququna zidd deyil, çünki təkcə fiziki qüsuru olan uşaqlar deyil, həm də fiziki qüsuru olmayan uşaqlar birlikdə təhsil almaqdan faydalana bilərlər.

İnklüziv təhsil mühitinin əsas xüsusiyyətlərindən biri heterojen şagirdlər arasında zəngin və müxtəlif öyrənmə qarşılıqlı əlaqəsinə malik olmaq imkanıdır. Uşaqların öyrənmə və inkişafında sosial qarşılıqlı əlaqələrin rolu uzun müddət öyrənmənin sosiomədəni nəzəriyyəsinin başlanğıcından bəri təhsil psixoloqları tərəfindən tədqiq edilmişdir (Vygotsky, 1978, Bruner, 1996). Brunerin qarşılıqlı öyrənənlərin icmaları konsepsiyası müxtəliflik kontekstində həmyaşıdlar arasında qarşılıqlı öyrənmənin faydalarını anlamağa kömək edir. Brunerə görə, məktəblərdə qarşılıqlı öyrənənlərin icmaları şəklində qrup işi fərdilik və qrup effektivliyi arasında tarazlığa imkan verir, hər kəsin öz qabiliyyətinə uyğun olaraq irəliləməsini təmin edir və bütün uşaqlara "mədəniyyətə şüurlu şəkildə daxil olmaq" imkanı verir. Qrup onun nədən bəhs etdiyini və iştirakçı kimi onun hansı işin öhdəsindən gəlmək üçün necə çalışa biləcəyini müəyyən edir.” (Bruner,1996). İnteraktiv öyrənmə məkanları, kollektiv düşünməyə və öyrənməyə imkan verir, akademik nailiyyətləri, sosial bacarıqları və sosial birliyi artırır. İnteraktiv öyrənməhəssasuşaqların təhsil aldıqları qruplar üçün daha effektlidir (Fernández-Villardón, García-Carrión və başqaları, 2020). Buna görə də interaktiv və dialoqlu təlim mühitləri yaratmaqla inklüziv təhsildədaha çox uğura nail olmaq olar.

İnteraktiv qruplar (İQ) və dialoq ədəbi yığıncaqları (DLGs) öyrənmə üçün müxtəlifliyin, qarşılıqlı əlaqənin və dialoqun dəyərini nəzərə alan xüsusi interaktiv öyrənmə mühitləridir. Həm IG-lər, həm də DLG-lər müxtəlif tələbə populyasiyalarında uğurlu təhsil nəticələrini təşviq edən uğurlu təhsil tədbirləri (SEA) kimi müəyyən edilmişdir (Flecha, 2015). İQ-lərdə sinif otaqları bir-birinə fəaliyyətin həllinə kömək etmək üçün qarşılıqlı əlaqə və dialoqdan istifadə edərək müəllimin təklif etdiyi instrumental öyrənmə fəaliyyətləri (xüsusilə savad və riyaziyyat) üzərində işləyən heterojen tələbələrdən (məsələn, hər biri 4-5 şagirddən) ibarət kiçik qruplara bölünür. Qrupdan olan könüllü (məsələn, ailə üzvü, keçmiş tələbə və ya qonşu) hər bir qrupa dəstək olur, uşqların qarşılıqlı əlaqəsini və qarşılıqlı yardımını dinamikləşdirir. IG-lər uşaqların akademik öyrənmələrini artırır və onların bir-birlərinə kömək etməyə təşviq edildiyi İQ-nin həmrəy əsasları sayəsində məktəb iqlimini yaxşılaşdırır. Nəticədə uşaqlar yeni dostluqlara, həmçinin multikultural birgəyaşayışa da vcəlb adaptasiya edilir (García-Carrión and Díez-Palomar, 2015 ; Valero et al., 2018 ; Zubiri-Esnaola et al., 2020).Uşaqlar bir biri ilə dialoq qura bilərlər.İnküluzv təhsildə dialoq uşaqların əvvəllər oxuduqları debat kitablarından ibarətdir. Hər dərsdə müzakirə ediləcək fəsillərlə razılaşdıqdan sonra onlar mətni fərdi olaraq və ya ailə üzvlərinin, müəllimin və ya həmyaşıdının köməyi ilə oxuyur və dərslərdə bölüşmək üçün uyğun gördükləri mətni özləri seçirlər. Orada onlar dialoq öyrənmə prinsipləri əsasında mətni müzakirə edir və əks etdirirlər (Flecha, 2000). Dialoqlar təkcə mətnin daha yaxşı başa düşülməsinə deyil, həm də onların oxuma, əsaslandırma və mübahisə etmə qabiliyyətlərini artırır, başqalarının perspektivlərini və emosional rifahını dərk etməyi dərinləşdirir (García-Carrión (2015) , Foncillas (2020)).

Çünki, İnklüziv təhsil əlilliyi olan şagirdlərin qarşılaşdıqları çətinliklərdən asılı olmayaraq, oxuduqları məktəbdə eyni yaşa uyğun ümumi təhsil sinfində tədrisi nəzərdə tutur. İnklüziv təhsilin fəlsəfəsi əlilliyi olan şagirdlərin əlilliyi olmayan şagirdlər kimi bacarıqlı olması fikrini təbliğ edir. Əlilliyi olan şagirdlər üçün uğurlu inklüziv təhsil onların fərqlərini qəbul etməyi, onların dəstək hiss etmələrini təmin etməyi və onları sinifdə tam iştirak etməyə təşviq etməyi əhatə edir.

İnklüziv təhsilin faydalarına və müəllimlərin sinif otaqlarının bütün tələbələr üçün qonaqpərvər və əlçatan olmasını təmin etmək üçün hansı strategiyalardan istifadə edə biləcəyinə nəzər salsaq.

İnklüziv təhsil, xüsusi təhsil alanların ümumi təhsil siniflərinə inteqrasiyası həm çətinliklər, həm də müsbət xüsusiyyətləri təqdim edir. Çətinliklərə inteqrasiya üçün ekoloji, biliyə əsaslanan və əlaqələrə əsaslanan maneələr daxildir. Bu problemlər həm ümumi, həm də xüsusi təhsil müəllimlərinin üzləşdiyi problemlərdən yarana bilər, məsələn, məhdud resurslar, təcrübə çatışmazlığı və əlaqələr qurmaqda çətinliklər. Bununla belə, inklüziv təhsilin müsbət tətfləri daha əhəmiyyətlidir. O, tam inklüzivlik konsepsiyasını təbliğ edir və universal təhsilə nail olmaq üçün bir vasitə kimi xidmət edir. İnklüziv

təhsil inklüziv icma yaratmağa kömək edir, həssas və gücləndirici xidmətlər təqdim edir, əlil uşaqlarda özünəinamı və ruhu artırır, stiqma və ayrı-seçkiliyi azaldır və inklüziv məktəblərin əhəmiyyətini təsdiqləyir. O, həmçinin əlilliyindən asılı olmayaraq bütün uşaqların unikal ehtiyaclarına cavab verir və müvafiq dəstək xidmətləri ilə ümumi təhsil şəraitinə çıxışı təmin edir. İnklüziv təhsil hər bir uşağın hüququdur və bütün dünyada təhsil sistemləri üçün prioritetdir. Fiziki qüsuru olan uşaqlar üçün inklüziv təhsilin üstünlüklərinə aşağıdakılar daxildir:

- Məktəbi bitirdikdən sonra karyera faydaları.
- Müsbət öyrənmə mühiti və müəllimlərlə münasibətlər.
- Dahaçoxictimaiyyətiniştirakı.
- Onlarıngüclü və bacarıqlarınacavabverənöyrənmə.
- Müsbətdəyərlər və müxtəlifliyəmünasibət.
- Artanəməkdaşlıq, sosialbacarıqlar və dostluqimkanları.

Müəllimlər və təhsilə yardımçı heyət üçün inklüziv təhsilin üstünlüklərinə aşağıdakılar daxildir:

- Qarşılıqlı hörmət də daxil olmaqla, müəllim-şagird münasibətlərinin yaxşılaşdırılması.
- Tələbələrin müsbət əlaqəsi sayəsində iş məmnunluğunun artması.
- Perspektivlərin genişləndirilməsi, daha yenilikçi və əks etdirən təcrübələr, daha yüksək inam və hazırlığa gətirib çıxarır.
- Müsbət sosial və iş münasibətlərinə səbəb olan şəxsi bacarıqların inkişafı (məsələn, problemlərin həlli).

Ailələr üçün inklüziv təhsilin üstünlüklərinə aşağıdakılar daxildir:

- Bütün ailələr işləmək və ya oxumaq öhdəliyinə daha çox inamlı olurlar.
- Daha geniş icmada daha inklüziv münasibətə səbəb olan əlillik haqqında məlumatlılığın və anlayışın təkmilləşdirilməsi.
- Məktəb icması ilə yaxşılaşdırılmış əlaqə.

Ədəbiyyat

1. Beckett A.E. (2009). Əlilliyə qarşı münasibətə meydan oxumaq, inklüziv cəmiyyət qurmaq: əlil olmayan uşaqlarda əlillərə müsbət münasibət inkişaf etdirmək üçün təhsilin rolunu nəzərə almaq. *Br. J. Sosial. Təhsil.* 30 317–329. 10.1080/01425690902812596 [CrossRef] [Google Scholar]

2. Bruner J. (1996). *Təhsil Mədəniyyəti.* Cambridge, MA: Harvard University Press. [Google Scholar]

3. Duque E., Gairal R., Molina S., Roca E. (2020). Təhsil psixologiyası xüsusi ehtiyacı olan tələbələrin təhsilinə social təsir göstərən tədqiqatlara necə kömək edir: uğurlu təhsil tədbirləri. *Ön. Psixol.* 11 : 439 . [PMC pulsuzməqalə] [PubMed] [Google Scholar]

4. Flecha R. (2000). *SözlərinPaylaşılması: Dialoq öyrənmənin nəzəriyyəsi və təcrübəsi.* Lanham, MD: Rowman&Littlefield. [Google Scholar]

5. Garcia C., Gairal R., Munté A., Plaja T. (2018). Dialoq ədəbi məclisləri və evdənkənar uşaq qayğısı: klassik ədəbiyyat vasitəsilə yeni mənaların yaradılması. *UşaqFam. Soc. İş* 23 62–70. 10.1111/cfs.12384 [CrossRef] [Google Scholar]

6. García-Carrión R. (2015). Dialoq ədəbi məclisləri mənə nə etdi. *Keyfiyyət sorğusu* 21 913–919. 10.1177/1077800415614305 [CrossRef] [Google Scholar]

7. Hernández Arteaga I., Fernández López KM, Estela Vasquez AC, Mestizo Nuzcue EJ (2020). Təhsil və həmrəylik: maarifləndirməyə daxil olun. *Soc. Təhsil. Tarix* 9 227–251. [Google Scholar]

8. Kurth JA, Miller AL, Toews SG, Thompson JR, Cortés M., Dahal MH, et al. (2018). İnklüziv təhsil: beynəlxalq ekspertlərin tətbiqi və təcrübəsinə dair perspektivlər. *İntellekt. Dev. Əlil.* 56 471–485. [Google Scholar]

9. Merser N., Littleton K. (2007). *Dialoq və uşaqların təfəkkürünün inkişafı, sosial-mədəni yanaşma.* Milton Park: Routledge. [Google Scholar]

10. Messiu K. (2017). İnklüziv təhsil sahəsində tədqiqat: yenidən düşünmək vaxtıdır? *Int. J. İnklüziv Təhsil.* 21 146–149.

11. Oh-Young C., Doldurucu J. (2015). Əlilliyi olan tələbələrina kademik və social bacarıqlarının nəticələrinə yerləşdirmənin təsirinin meta-analizi. *Res. Dev. Əlil.* 47 80–92. 10.1016/j.ridd.2015.

12. Valero D., Redondo-Sama G., Elboj C. (2018). İmmiqrant tələbələr üçün interaktiv qruplar: immiqrant tələbələrin yolunda uğur amili. *Int. J. İnklüziv Təhsil.* 22 787–802. 10.1080/13603116.2017.1408712

13. Vygotsky LS (1978). *Cəmiyyətdə ağıl: ali psixoloji proseslərin inkişafı.* Boston: Harvard Universiteti Nəşriyyatı. [Google Scholar]

14. Zubiri-Esnaola H., Vidu A., Rios-Qonzales O., Morla-Folch T. (2020). İnklüzivlik, iştirak və əməkdaşlıq: interaktiv qruplarda öyrənmə. *Təhsil. Res.* 62 162–180. 10.1080/00131881.2020.1755605 [CrossRef] [Google Scholar]

BULLİNQ NƏDİR VƏ ONDAN NECƏ QORUNMAQ OLAR?

Sənubər Şükürova
Şamaxı şəhəri M.Hadi adına 9 nömrəli tam orta məktəbin
Azərbaycan dili və ədəbiyyat müəllimi
sukurov03@mail.ru

Summary

It is the presence of social competence that makes the effective organization of lessons in inclusive classrooms extremely important. Cooperation and communication, a safe environment prevent many problems and directly help to solve them. Recently, the bullying that we often encounter in schools and its various forms - physical bullying, verbal bullying, social bullying, cyber bullying - have a very negative effect on improving the quality of education and the formation of students as personalities. These should be considered as the most undesirable situations in the training process. In particular, health is the number one barrier to education for children with disabilities.

Key words: *bullying, mobbing, environment, discipline, punishment*

Резюме

Именно наличие социальной компетентности делает крайне важной и эффективной организацию уроков в инклюзивных классах. Сотрудничество и общение, безопасная среда предотвращают многие проблемы и напрямую помогают их решить. В последнее время буллинг, с которым мы часто сталкиваемся в школах, и его различные формы – физический буллинг, словесный, социальный буллинг, кибербуллинг – очень негативно сказываются на качестве образования и формирования личности учащихся. Их следует расценивать как наиболее нежелательные обстоятельства в учебно-воспитательном процессе. В частности, это препятствие номер один в привлечении детей с ограниченными возможностями к образованию.

Ключевые слова: *буллинг, моббинг, окружение, дисциплина, наказание*

İnklüziv təhsil uşaqların yaşadığı ərazidə təhsil almaq hüququnu təmin etmək prinsipinə əsaslanan təhsil xidmətləri sistemidir. Hər bir uşaq təhsil ehtiyaclarını ümumitəhsil müəssisəsində ödəməlidir. Bu zaman üç xüsusiyyətə diqqət yetirmək lazımdır: inklüziv uşaqların fərdi ehtiyaclarını ödəmək üçün effektiv yollar axtarılmalıdır; inklüzivlik üçün maneələrin müəyyən edilməsi və aradan qaldırılması müəyyən edilməlidir; təhsil almaq hüququndan məhrum edilmiş uşaqlar diqqət mərkəzində olmalıdır.

İnklüziv təhsil fərqli inkişaf xüsusiyyətlərinə malik şagirdlərin müəyyən edilməsi və məktəblərin onların təhsil ehtiyaclarına uyğun təşkil edilməsi ilə bağlıdır.

Dünya bir çox ölkələrində ən başlıca problemlərdən biri insanların müxtəlif təzyiq və zorakılığa məruz qalmasıdır. Bu kimi hallar həyatın bütün sahələrinə mənfi təsir göstərməkdədir. Nəzərə alsaq ki, insanın bir şəxsiyyət kimi formalaşmasında, gələcək inkişafında ailə mühitindən əlavə ictimai mühit də mühüm rol oynayır, belə olan halda bu məsələ öz aktuallığını daha da artırır.

Cəmiyyətin ən fəal üzvü olan insan kiçik yaşlarından ətraf mühitlə, digər fərdlərlə qarşılıqlı ünsiyyətdə olaraq həm təsiredici, həm də təsirə məruz qalan tərəf kimi çıxış edir. Çox təəssüf ki, bu münasibətlər düzgün qurulmadıqda, düzgün idarə olunmadıqda xoşagəlməz hallar və onun müxtəlif formaları ortaya çıxır.

Ölkəmizdə təhsil siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biri də qloballaşan dünya ilə ayaqlaşmaq, dünyanın qabaqcıl təhsil sistemlərinə inteqrasiyanı təmin etməkdir. Məhz bu səbəbdən ümumtəhsil müəssisələrində təlim nailiyyətinin yüksəldilməsi istiqamətində bir çox uğurlu layihələr həyata keçirilməkdədir. Təhsil keyfiyyətinin artırılması bir sıra amillərdən – infrastukturdan, resurs bazasının mövcudluğu və əlçatanlığından, fənn proqramlarının müasir dövrün dəyişən tələbinə uyğun olaraq təkmilləşməsindən, hər bir vətəndaşın təhsil prosesinin faəl bir üzvünə çevrilməsindən, xüsusən də müsbət sosial-emosional mühitin yaradılmasından çox asılıdır. Qeyd olunan sağlam mühit formalaşmadıqda neqativ halların yaranmasına meydan açılır ki, nəticədə müxtəlif təyinatlı təhsil müəssisələrində aqressiv davranışlar müşahidə olunur, azyaşlılar bullinqə, mobbinqə məruz qalır. Sözsüz ki, bu da birbaşa təhsilin keyfiyyətinə, təhsilalanların şəxsi inkişafına mənfiyönümlü təsir etməkdədir.

Son zamanlar dilimizdə bullinq, mobbinq kimi anlayışların meydana gəlməsi də təsadüfi deyil. XIX əsrin II yarısında meydana çıxan bu terminlər XX əsrin əvvəllərindən daha geniş istifadə olunmağa başladı. Hər iki anlayış zorakılığın, fiziki və psixi təsirin müxtəlif formaları kimi təzahür edir. Bullinqdən fərqli olaraq mobbinq bir qrup tərəfindən bir şəxsin və ya qrupun davamlı, məqsədyönlü təhqir və təzyiqə məruz qalması kimi səciyyələndirilən arzuolunmaz davranış formasıdır.

Məktəbdə təhsil alan bütün uşaqlar bu və ya digər şəkildə bullinqlə qarşılaşırlar: ya iştirakçı, ya izləyici, ən pis halda isə qurban kimi. Bu vəziyyət hər bir halda bütün tərəflərin şəxsiyyət kimi formalaşmağına mənfi təsir göstərir. Belə uşaqlarda təhsildən yayınmaq, ətrafa qarşı aqressiv davranışlar nümayiş etdirmək, özünəinamsızlıq, özünəqapanma, cinayət və intihara meyillilik halları müşahidə olunur.

Zorbalıq (bullinq) təkrarlanan və psixoloji, sosial və ya fiziki zərər vurmaq məqsədi daşıyan davranışdır. Bullinqin və ya mobbinqin əlamətləri aşağıdakılardır:

- Bullinq edənlə bullinqə məruz qalan şəxsin güclərinin qeyri-bərabər olması;
- Bullinqin dəfələrlə təkrar olunması;
- Bullinqə məruz qalan şəxsin bu hadisələrə emosional reaksiya göstərməsi.

Zorbalığın müxtəlif növləri var. Şifahi – sözlə olan zorbalıqdır. Bu zaman zorbalığa məruz qalan şəxsin sadəcə adı çəkilə, hədələnə, başqalarının yanında təhqir edilə bilər. Fiziki – digər şəxsi döymək, yumruqlamaq, təpikləmək, üzünə tüpürmək, itələmək, əşyalarına ziyan vermək nəzərdə tutula bilər. Sosial zorbalıq - digəri haqqında söz-söhbət yaymaq, xoşagəlməz zarafatlar etmək, yoldaşları yanında utandırmaq hadisəsidir. Kiberzorbalıq isə digər şəxsə müxtəlif sosial şəbəkələrdən narahatedici mesajlar, şəkillər göndərmək və s. hallarıdır.

Bullinqi törədən və ona məruz qalan tərəflər cəmiyyətin müxtəlif təbəqələrini təkil edir. Təəssüflər olsun ki, bəzən bir çox təhsil müəssisələrində təhsilverənlər tərəfindən nizam-intizam qaydaları müxtəlif cəza tədbirləri ilə həyata keçirilir ki, bu da şagirdlərin bullinqə məruz qalmasına gətirib çıxarır. Nizam-intizamın təmin edilməsi – nizam-intizam qaydaları bəzən yalnış şəkildə istifadə olunaraq bir çoxları tərəfindən cəza kimi başa düşülür. Bir çox müəllimlərə görə isə nizam-intizam qaydaları cəzalandırma deməkdir.

Cəza uşağın davranışlarını idarə etmək üçün tətbiq edildiyi halda, nizam-intizam qaydaları onların davranışlarının düzəlməsi istiqamətində atılan addım kimi hesab olunur (İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam, 2019, s.21).

Cəza bir kəsin qayda-qanunları pozduğu anda tətbiq olunan bir vasitədir. Cəzalandırmanın məqsədi davranışların xoşagəlməz vasitələrlə idarə edilməsidir. Uşaqlara əsasən iki növ cəza tətbiq olunur:

1. Şifahi qınaq və etiraz tərkibli cəzalar;
2. Şiddətli şəkildə fiziki və emosional olan cəza (İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam, 2019, s.10).

Heç bir cəza tədbiri sinfin effektiv idarə edilməsini təmin edə bilməz. Hər bir təhsil verən sinifdə təhlükəsiz emosional mühit formalaşdırmalı, sinif və sinifdənkənar həyata keçirə biləcəyi davamlı qaydalar müəyyənləşdirməlidir. Bu prosedurlar şagirdlərin davranış və fəaliyyətini nizama salmaqda, əlverişli öyrənmə mühitinin yaranmasında müstəsna rola malikdir.

Bu gün dünya ölkələrinin verdiyi statistikaya nəzər saldıqda görərik ki, bullinqə daha çox məruz qalan tərəf əlilliyi olan şəxslərdir. Doğrudur, müasir dövrümüzdə əlilliyi olan şəxslərin həyat şəraitinin

yaxşılaşdırılması, şərəf və ləyaqətinin qorunması, cəmiyyətə abaptasiyası yönündə bir çox hüquqi sənədlər, qanunverici aktlar hazırlanmış və uğurla həyata keçirilməkdədir. Lakin bəzən bütün bunlar baş verə biləcək neqativ halların qarşısını tam olaraq ala bilmir. Xüsusən də təhsil ocaqlarında. Bir çox hallarda əlilliyi olan şagirdlər elə öz həmyaşıdları tərəfindən qısnamalara, zorakılığa, damğalanmaya məruz qalırlar. İnklüziv cəmiyyət qurmaq, inklüziv təhsil sistemi yaratmaq, hər kəsin bərabər əsaslarla təhsil almaq hüququnun olduğunu təmin etmək heç də o demək deyil ki, birdən-birə bütün sosial maneələr tamamilə aradan qaldırılacaq. Bütün müəllimlər sinifdə problemli davranış sərgiləyən, çətin uyğunlaşan şagirdlərlə üzləşirlər. Əgər biz inklüziv, hər kəs üçün əlçatan təhsildən danışırıqsa, həmin şagirdləri də təhsil prosesinin kənarında qoya bilmərik. Digərləri kimi onların da təhsil almaq hüquq var.

Çətin davranış nədir? Çətin davranışlar uşaq ilə ətraf mühit arasındakı anlaşılmazlığın nəticəsi kimi başa düşülür. Şagird öz təhsil mühitinə yaşına uyğun olmayan şəkildə reaksiya verdikdə, habelə özünün və ya digər uşaqların təliminə mane olduqda problemli davranış kimi meydana çıxır (Loreman, 2020, s.227).

Problemli davranış sərgiləməyin səbəbi və mənbəyi müxtəlif ola bilər: bullinq törədən şəxsin nə vaxtsa özünün də zorakılığa məruz qalması, həyatında baş verən məhrumiyyətlər, psixi amillər, özünü təsdiqləmə, intiqamalma və s.

Sinif mühitində bu davranışları müvəffəqiyyətlə idarə etmək üçün ilk olaraq müəllim güclü müşahidəetmə qabiliyyətinə malik olmalıdır. Hər bir şagirdin verdiyi qərarları- pis və yaxşı olmasından asılı olmayaraq izləməli, müxtəlif problemyönümlü, həyati əhəmiyyəti olan tapşırıqlar hazırlamalı, sinfi kollektiv formada işə cəlb etməlidir. Müşahidə prosesi ardıcıl həyata keçirilməli və mütəmadi qeydlər aparılmalıdır. Bu cür aparılan müşahidələr təsadüfi halları, baş vermiş konfliktin əsl mahiyyətindən fərqləndirməyə imkan yaradacaqdır. Lazım olan təqdirdə təhsil prosesinin digər iştirakçılarını- digər fənn müəllimlərini, məktəb psixoloqunu, valideynləri, icma daxilində fəaliyyət göstərən şəxsləri də bu prosesə cəlb etməli, baş verə biləcək xoşagəlməz halların qarşısı zamanında alınmalıdır.

Son dövrlərdə kiberbullinq halları geniş yayılmaqdadır. Dərsdən sonra nəzarətsiz şəkildə müxtəlif sosial şəbəkələrə daxil olan azyaşlılar kiberbullinqə məruz qalırlar. Bəzən bu hallar uzun müddət davam edir. Valideyn və digər səlahiyyətli şəxslər hadisədən xəbərdar olmadığı üçün vaxtında müdaxilə edə bilmir. Ən pisi isə bu hal azyaşlıların şantaj edilməsi, onların müxtəlif cinayət əməllərinə sövq edilməsi ilə nəticələnir.

Bullinq və mobbinq kimi davranışlar vaxtında müəyyən olunmasa, daha ağır fəsadları ortaya çıxa bilər. Hətta həyatı təhlükə də yarada bilər. Çünki müxtəlif şəraitdə, müxtəlif ailələrdə yetişən şagirdlərin psixikasının dözümlülük dərəcəsi də eyni olmur.

Bu səbəbdən məktəb rəhbərləri, xüsusən də məktəb psixoloqları müəllimlər, valideynlər və şagirdlərlə mütləq şəkildə bu istiqamətdə davamlı maarifləndirmə işləri aparmalı, hər cür zorakılığın qarşısının alınması istiqamətində birgə və sisitemli fəaliyyət göstərməlidirlər.

Ədəbiyyat

1. Axundova Ü., İsmayılova M. (2011). Uşaq inkişafı metodikası, 578 s.
2. Çoxuşaqlı siniflərdə tədris üçün məsləhətlər (2020). (Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait. Xüsusi kitabça 2) UNESCO, 66 s.
3. İnklüziv müəllimlərin profili. (2019). Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi, 50 s.
4. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili (2019). (Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait. Xüsusi kitabça 3) UNESCO, 114 s.
5. İnklüziv təhsil: Valideynlər üçün bələdçi. (2020). RİİB, 44 s.
6. İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam (2019). (Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait. Xüsusi kitabça 1) UNESCO, 122 s.
7. Loreman T., Deppeler J., Harvey D. (2020). İnklüziv təhsil310 s.

İNKLÜZİV TƏHSİL SİSTEMİNDƏ SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARA XARİCİ DİLİN TƏDRİSİ

Günay Süleymanova
Bakı Slavyan Universiteti
gunayenglish@gmail.com

Summary

Currently, large-scale tasks are being set before society and educational institutions, such as a high level and a wide range of educational services, as well as the availability of education for all categories of the child population. In educational institutions, it is possible to implement the tasks set, provided that a comfortable, favourable educational environment is created, in which educational processes take place in the most favourable conditions for pupils and students. Inclusive education helps children with physical disabilities to integrate into life and ensure their rights, saves them from isolation from society and peers. The article discusses the concept and characteristics of inclusion as a social-pedagogical phenomenon, methodological foundations of inclusive education problems, objectives and principles of inclusive education, inclusive education, models of inclusive education.

Key words: *inclusive education, forms of inclusive education, inclusive educational environment, children with disabilities.*

Резюме

В настоящее время перед обществом и образовательными учреждениями ставятся такие масштабные задачи, как высокий уровень и широкий спектр образовательных услуг, а также доступность образования для всех категорий детского населения. Реализация поставленных задач в образовательных учреждениях возможна при условии создания комфортной, благоприятной образовательной среды, в которой учебные процессы протекают в наиболее благоприятных для учащихся и обучающихся условиях. Инклюзивное образование помогает детям с ограниченными физическими возможностями интегрироваться в жизнь и обеспечить свои права, спасая их от изоляции в обществе и среди сверстников.В статье рассматриваются понятие и характеристика инклюзии как социально-педагогического феномена, методологические основания проблемы инклюзивного образования, задачи и принципы инклюзивного образования, система инклюзивного образования, модели организации инклюзивного образования.

Ключевые слова*: инклюзивное образование формы инклюзивного образования, инклюзивная образовательная среда, дети с ограниченными возможностями здоровья.*

"Təhsil hər bir insanın hüququdur və böyük əhəmiyyətə və potensiala malikdir. Azadlıq, demokratiya və davamlı inkişaf prinsipləri təhsil üzərində qurulub... hamı üçün təhsildən başqa vacib heç nə, başqa missiya yoxdur..."

Kofi Annan

İnklüziv təhsil - (fransızcadan inclusif - o cümlədən, ümumi təhsil (kütləvi) məktəblərində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili prosesini təsvir etmək üçün istifadə olunan termindir. İnklüziv təhsil - hər bir uşağa mövcud fiziki, intellektual, sosial, emosional, linqvistik və digər xüsusiyyətlərə baxmayaraq, ümumi (vahid, vahid) öyrənmə və tərbiyə (inkişaf və sosiallaşma) prosesinə daxil olmaq imkanı verən təhsildir, sonra yetkinlik yaşına çatan şəxsin cəmiyyətin bərabərhüquqlu üzvü olmasına şərait yaradır, ayrılıq və təcrid risklərini azaldır. Ümumiyyətlə qəbul edilir ki, inklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən hər kəsin təhsilə çıxışını nəzərdə tutan ümumi təhsilin inkişafı prosesidir.

İnklüziv təhsil sahəsini və məktəb mühitini hər bir uşağın ehtiyaclarına uyğunlaşdırmaqla, o cümlədən təhsil prosesində islahatlar aparmaqla, əlilliyi olan uşaqların təhsil probleminin həllini, təhsil müəssisələrinin istisnasız olaraq bütün uşaqların ehtiyac və tələblərinə cavab verməsi üçün yenidən qurulması, uşağın inkişaf pozğunluğunun növünə görə zəruri tədris vasitələri, müəllimlərin psixoloji və metodik hazırlığı və s. nəzərdə tutur.

Beləliklə, inklüzivlik xüsusi təhsil ehtiyacları olan uşaqların kütləvi müəssisələrə daxil edilməsini nəzərdə tutur, burada hər bir uşağın təhsil prosesində tam iştirakına dair bütün maneələri aradan qaldırmaq vacib hesab olunur.

İnklüziv təhsilin tətbiqi, insanın idrak imkanlarına və yaşayış yerindəki sağlamlığına adekvat mühitə uyğun olaraq keyfiyyətli təhsil almaq hüququnun həyata keçirilməsi istiqamətində təhsil sisteminin inkişafının ən yüksək formasıdır.

İnklüziv təlim və tərbiyə yerli iş sahəsi kimi deyil, bütövlükdə bütün istiqamətlər üzrə ümumi təhsil sisteminin fəaliyyətinin təşkilində sistemli yanaşma kimi qəbul edilən uzunmüddətli strategiyadır.

İnklüziv təhsil forması təhsil prosesinin bütün subyektlərinə aiddir: sağlamlıq imkanları məhdud uşaqlar və onların valideynləri, normal inkişaf edən tələbələr və onların ailə üzvləri, müəllimlər və təhsil məkanının digər mütəxəssisləri, idarə, əlavə təhsil strukturları. Buna görə də, ümumi təhsil müəssisəsinin fəaliyyəti təkcə sağlamlıq imkanları məhdud bir uşağın təhsili və tərbiyəsi üçün xüsusi şərait yaratmağa deyil, həm də müəllimlər arasında qarşılıqlı anlaşmanın təmin edilməsinə yönəldilməlidir (korreksiya və ümumi pedaqogika sahəsində mütəxəssislər və əlilliyi olan tələbələr və onların sağlam həmyaşıdları arasında).

İnklüziv təhsilin səkkiz prinsipi var:

- insanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyil;
- hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
- hər kəsin ünsiyyət qurmaq və dinlənilmək hüququ var;
- bütün insanların bir-birinə ehtiyacı var;
- həqiqi təhsil yalnız real münasibətlər kontekstində həyata keçirilə bilər;
- bütün insanların həmyaşıdlarının dəstəyinə və dostluğuna ehtiyacı var;
- bütün öyrənənlər üçün irəliləyiş əldə edə bildikləri işlərdə daha çox olur;müxtəliflik insan həyatının bütün sahələrini artırır.

İnklüziv təhsil aşağıdakı prinsiplərə əsaslanır:

Fərdi yanaşma prinsipi qrupdakı uşaqların hər birinin fərdi təhsil ehtiyaclarını nəzərə almaqla təlim və tərbiyənin formalarının, metodlarının və vasitələrinin seçilməsini nəzərdə tutur. Fərdi uşaq inkişaf proqramları uşağın funksional vəziyyətinin diaqnostikasına əsaslanır və müəyyən bir uşaq üçün fərdi inkişaf strategiyasının hazırlanmasını nəzərdə tutur. Fərdi yanaşma yalnız uşağın ehtiyaclarına xarici diqqəti əhatə etmir, həm də uşağın özünə fərdiliyini həyata keçirmək imkanı verir.

Uşağın müstəqil fəaliyyətinə dəstək prinsipi. İnklüziv təhsilin uğurunun vacib şərti uşağın müstəqil fəaliyyəti üçün şəraitin təmin edilməsidir. Bu prinsipin həyata keçirilməsi sosial fəal şəxsiyyətin formalaşdırılması problemini həll edir. İnkişafının və sosial əhəmiyyətli fəaliyyətinin subyekti olan şəxsiyyət.

Fəaliyyət tamamilə uşağa qayğı göstərən böyüklərin tərəfində olduqda, onun xüsusiyyətlərinin onun imkanlarını reallaşdırmağa imkan vermədiyinə inanaraq, "öyrənilmiş acizlik" formalaşır, uşaq passiv qalaraq xarici təşəbbüs gözlədiyi bir fenomendir.

Bütün iştirakçıların təhsil prosesinə fəal cəlb edilməsi prinsipi. Bu, humanist əsasda səmərəli qarşılıqlı fəaliyyətə nail olmaq üçün bir-birini başa düşmək və qəbul etmək üçün şərait yaratmaqdan ibarətdir. İnklüziv uşaqların, valideynlərin və təhsil mütəxəssislərinin birgə fəaliyyətə fəal cəlb edilməsidir: real cəmiyyətin modeli kimi inklüziv icma yaratmaq üçün birgə planlaşdırma, ümumi tədbirlərin, seminarların, bayramların keçirilməsi.

Fənlərarası yanaşma prinsipi. Uşaqların fərdi xüsusiyyətlərinin müxtəlifliyi təhsil və təlim metodlarının və vasitələrinin müəyyən edilməsinə və inkişafına kompleks, fənlərarası yanaşma tələb edir.Mütəxəssislər müntəzəm olaraq uşaqlara diaqnoz qoyurlar və müzakirələr yolu ilə həm konkret uşağa, həm də bütövlükdə qrupa yönəlmiş təhsil fəaliyyət planı tərtib edirlər.

Təlim və tərbiyə proseslərinin təşkilində dəyişkənlik prinsipi. Müxtəlif inkişaf qüsurları olan uşaqların inklüziv qrupuna daxil edilməsi dəyişən inkişaf mühitinin, yəni maneəsiz zəruri inkişaf və didaktik vasitələrin, tədris vasitələrinin, tədris və tərbiyə üçün dəyişən metodoloji bazanın və bacarıqların mövcudluğunu nəzərdə tutur. müəllimin ümumi və xüsusi pedaqogika kimi müxtəlif üsul və iş vasitələrindən istifadə etməsi.

Ailə ilə tərəfdaşlıq prinsipi. Müəllimlərin səyləri yalnız valideynlər tərəfindən dəstəkləndikdə, onlar üçün başa düşülən və ailənin ehtiyaclarını ödədikdə səmərəli olacaqdır. Mütəxəssisin vəzifəsi uşağın valideynləri və ya qohumları ilə etibarlı tərəfdaşlıq qurmaq, valideynlərin istəklərinə diqqət

yetirmək, onların fikrincə, hazırda övladı üçün vacib və zəruri olan şeyləri dəstəkləmək üçün birgə hərəkətləri razılaşdırmaqdır.

Müasir şəraitdə prioritetlərdən biri inklüziv təhsildir. İnklüziv təhsil prosesinin hər bir obyektinin (məktəbəqədər uşaq, şagird, tələbə) onun qabiliyyət və ehtiyaclarına uyğun olan təhsil proqramının köməyi ilə prosesə cəlb edilməsini nəzərdə tutur.

Dünya birliyinin qarşısında duran əsas problemlərdən biri hamının təhsil hüququnun reallaşdırılması problemidir. Bu hüquq hər kəs üçün sosial və şəxsi inkişafda və həyatda real uğurda əbədi, konkret, həyata keçirilə bilən imkanlar şəklində özünü göstərir. "Hüquq"un əhatəli qlobal konsepsiyası müasir cəmiyyətdə təhsilin aparıcı rolu haqqında müzakirələri istiqamətləndirir, qanuniləşdirir və konkret məzmunla doldurur. İnklüziv təhsilin normativ-hüquqi bazasına aşağıdakı beynəlxalq və yerli sənədlər daxildir:

Hüquqi əsas olan beynəlxalq:

- Uşaq Hüquqları Bəyannaməsi (BMT, 1959);
- Uşaq Hüquqları haqqında Konvensiya (BMT, 1989);
- Xüsusi Ehtiyaclı Təhsildə Prinsiplər, Siyasətlər və Təcrübələrin Salamanka Bəyannaməsi (Xüsusi Ehtiyaclı Təhsil üzrə Ümumdünya Konfransı, Salamanka, İspaniya, 1994);
- Əlillərin Hüquqları haqqında Konvensiya (BMT, 2006)

Ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara keyfiyyətli təhsil almaq imkanı yaratmaq, onların ailələrinə dəstək vermək məqsədilə 2001-ci ilin iyulunda "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda xüsusi təhsil sahəsində dövlətin vəzifələri müəyyənləşdirilmiş, sağlamlıq imkanları məhdud uşaqların valideynlərinin və ya valideynlərini əvəz edən şəxslərin inklüziv təhsil sahəsində hüquq və vəzifələri öz əksini tapmış, bu təhsilin təşkili və idarə olunması təsbit olunmuşdur. Qanunun icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müxtəlif təyinatlı 9 qərar, o cümlədən "İnteqrasiya təlimi təhsil müəssisələrində təhsilin təşkili Qaydaları haqqında" qərar qəbul edilmişdir.

Hamı üçün təhsil hüququnun (AFA) həyata keçirilməsinə sosial kapitalın və sosial birliyin qurulmasında aparıcı amil kimi təhsilə vahid baxışa nail olmağa imkan verən beynəlxalq hüquqi baza kömək edir. Buraya bir sıra mühüm beynəlxalq sənədlər daxildir: Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (1979), Uşaq Hüquqları Konvensiyası (1989), Salamanka Bəyannaməsi (1994), Dakar Fəaliyyət Planı. (2000) və BMT-nin Əlillərin Hüquqları Konvensiyası (2006) – təhsil hüququ ilə bağlı strategiya, proqram və tövsiyələri müəyyən edən aparıcı hüquqi aktlardır.

Əlilliyi olan uşaqların inklüziv təhsili problemi xarici dil müəllimləri qarşısında xüsusilə kəskindir. Xarici ölkələr uşaqların birgə öyrənilməsində zəngin və uğurlu təcrübə toplamışlar. Bununla birlikdə, xarici elmi tədqiqat ədəbiyyatının təhlili göstərdi ki, inklüziv təhsil şəraitində əlilliyi olan uşaqlara xarici dilin tədrisi üçün effektiv texnologiyanın seçilməsi məsələsi hələ də mübahisəlidir. Bir tərəfdən, bu problem təhsil sistemində ənənəvi olaraq inkişaf etmiş bir baxışla əlaqədardır ki, xarici dil öyrənmək mürəkkəb bir prosesdir və xüsusilə psixofiziki pozğunluqları olan uşaqlar üçün. Sağlamlıq imkanları məhdud uşaqlara dərs yükünü azaltmaq üçün, son vaxtlara qədər, ilk növbədə, bu kateqoriyalı uşaqların maraqlarını nəzərə alaraq, əlavə olaraq xarici dil öyrətmək məqsədəuyğun sayılmırdı. Bu baxımdan sağlamlıq imkanları məhdud uşaqların marağı məsələsi vacibdir. Digər tərəfdən, müəllimlərin diqqəti uşağın inkişafında psixofiziki pozğunluğun diaqnozuna yönəldilməsi nadir deyil, bu, əlbəttə ki, xüsusilə təlimin erkən mərhələsində vacibdir. Ancaq diaqnostika özlüyündə bir məqsəd kimi çıxış edirsə və tələbənin imkanlarının təbiətinə uyğun fərdi təhsil trayektoriyasının inkişafı üçün əsas deyilsə, bu vəziyyətdə digər ümumi təhsil fənləri kimi xarici dilin tədrisi mümkün deyil. R.Şvartsın fikrincə, tələbələrin xarici dil öyrənməkdə çətinlik çəkməsinin erkən diaqnozu onların öyrənilməsinin mümkünsüzlüyünün müəyyən edilməsi kimi deyil, xarici dil öyrənən tələbələr qrupunda sağlamlıq imkanları məhdud uşaqların tədrisi kimi qəbul edilməlidir (Şvarz, R., 1997).

Uğurlu və effektiv təhsil mühitinin yaradılmasının fundamental əsası bütün uşaqların öyrənə bilməsi təklifi olmalıdır və hər bir müəllim öyrənmə üçün adekvat psixoloji və pedaqoji dəstəyin təşkili üçün məsuliyyət daşımalıdır.

Bu problemə həsr olunmuş xarici elmi tədqiqat ədəbiyyatlarında tədrisin müxtəlif sosial-pedaqoji modelləri təqdim olunur. “Xarici dil” fənninin xüsusiyyətlərini nəzərə alaraq, G. Gardner hesab edir ki, xarici dilin tədrisi prosesi əlilliyi olan uşaqların idrak və emosional sahələrinin inkişaf xüsusiyyətlərinə uyğun olaraq sosial-mədəni ünsiyyətdə fəal iştirakına əsaslanan “sosial-pedaqoji” model çərçivəsində həyata keçirilməlidir (Gardner, 1985). Xarici alimlərin fikrincə, sosial-mədəni kontekstdə xarici dilin tədrisi prosesi tələbələrin həqiqi dil və qeyri-linqvistik bilik və bacarıqlarının formalaşmasına və inkişafına yönəldilməlidir. Bu hədəfin həyata keçirilməsi, həqiqi ünsiyyət vəziyyətlərinin modelləşdirilməsini əhatə edir, bu müddət ərzində xarici dildən istifadə üçün kommunikativ ehtiyaclar yenilənir, onun öyrənilməsinin gələcək perspektivlərini qurmaq üçün vacibdir (Krashen, 1982). İnklüziv sinifdə şagirdlərin kommunikativ fəaliyyətinin düzgün təşkili aşağıdakılara imkan verir: istisnasız olaraq bütün sinif şagirdləri arasında əməkdaşlıq səviyyəsini, tələbələrin öz qabiliyyətlərinə inam səviyyəsini və başqalarının ehtiyaclarına diqqətli münasibət səviyyəsini artırmağa imkan verir; fərqli tapşırıqlar sistemini inkişaf etdirmək və onları yerinə yetirmək üçün əlavə vaxt planlaşdırmaq; şagirdlərin dil və nitq bacarıqlarını birləşdirmək və genişləndirmək imkanı verən sinif şagirdləri arasında dərhal rəy tətbiq etmək. Əlilliyi olan uşaqların tədrisinə kommunikativ yanaşmanın istifadəsi tələbələrin nitq düşünmə fəaliyyətinin əsas növlərinin formalaşmasını və inkişafını təmin etmək üçün hazırlanmışdır. Müəllimin prioritet vəzifələrindən biri də uşağın öyrənmə uğuruna nail olmasına kömək etməkdir. Müvafiq olaraq, təlimin müvəffəqiyyəti əsasən müxtəlif təhsil texnologiyalarının tədris prosesinə hərtərəfli və sistematik tətbiqindən asılıdır. Məsələn, kommunikativ ünsiyyət prosesində şagirdlərin duyğu qavrayışının bütün orqanlarını yeniləmək üçün elm adamları multisensor bir yanaşma istifadə etməyi məsləhət görürlər (Tlustosova, 2006: 14).

Beləliklə, inklüziv təhsil şəraitində əlilliyi olan uşaqlara xarici dilin tədrisi problemi müasir pedaqoji elmdə aktual və mübahisəli məsələlərdən biridir.

Ədəbiyyat

1. Əliyev M. ”İnklüziv təhsil”. (Məlumat kitabçası). Bakı, 2018.

2. Mikayılova Ü., L.Şərəfxanova və b. ”İnklüziv təhsil”. (Metodik vəsait). Bakı, 2011.

3. Денискина В. З. Особые образовательные потребности детей с нарушением зрения / В. . Денискина // Дефектология. – 2012 – №6. – с. 17-24.

4. Gardner, R. C. Social Psychology and Second Language Learning: The Role of Attitudes and Motivation. London: Edward Arnold, 1985. 208 p.

5. Krashen, Stephen D. Principles and Practice in Second Language Acquisition. Oxford: Pergamon Press, 1982, 202p.

6. MacIntyre, Peter D. Biases in Self- Ratings of Second Language Proficiency: The Role of Language Anxiety // Language Learning, 1997, № 47, P. 265–287

7. Schwarz, R. Learning disabilities and foreign language learning: A painful collision. [Электронный ресурс]. Режим доступа: URL: http://www.ldonline.org/ld_indepth/foreign_lang/painful_collision.html. - 20.04.13

8. Tlustošová, P. Teaching English to children with specific learning difficulties. Brno, 2006, 42p.

9. Chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/http://www.anl.az/down/meqale/az_muellimi/2021/oktyabr/762159(meqale).pdf

10. https://cyberleninka.ru/article/n/inklyuzivnye-obrazovatelnye-praktiki-retrospektiva-i-sovremennoe-sostoyanie

İNKLÜZİV TƏHSİLƏ DAİR PEDAQOGİKADA FİKİR MÜXTƏLİFLİYİ

Anar Xələfov
Azərbaycan Dövlət Pedaqoji Universitetin doktorantı
anar.khalafov@gmail.com

Summary

The concept of "accessible school for all" has long been a focal point within research on educating individuals with disabilities and within the context of educational reforms. However, experience demonstrates a substantial gap between this concept and its practical realization. This article seeks to explore the prerequisites for fostering inclusive schooling through the lens of diverse pedagogical ideologies and traditions. Specifically, it aims to delineate two distinct pedagogical approaches that offer contrasting perspectives on learning, knowledge, and diversity. Additionally, the article scrutinizes the discrepancies among the viewpoints of various researchers and scholars regarding the organization of pedagogical practices.

Key words: *Diversity of opinion in pedagogy, segregate pedagogy, inclusive pedagogy, traditional education, organization of inclusive education*

Резюме

Идея "доступной школы для всех" давно уже находится в центре внимания как в исследованиях об образовании лиц с ограниченными возможностями, так и в контексте образовательных реформ. Опыт показывает, что между этой идеей и ее реализацией лежит долгий путь. Цель данной статьи состоит в рассмотрении условий развития инклюзивной школы с учетом различных педагогических идей и традиций. Основной задачей статьи является грубая дифференциация двух педагогических подходов с различными взглядами на такие аспекты, как обучение, знание и разнообразие. Кроме того, в статье проводится анализ противоречий между взглядами различных исследователей и ученых относительно организации педагогической деятельности.

Ключевые слова: *разнообразие мнений в педагогике, сегрегативная педагогика, инклюзивная педагогика, традиционное образование, организация инклюзивного образования.*

Təhsilin formalaşması və inkişafı

Təhsilin formalaşması və inkişafı əsasən müxtəlif ideyalarla və ölkələrin prioritetləri ilə idarə olunur (Göransson,2006, s. 67). Bu ideya və prioritetlərin bəziləri özünü ilk növbədə praktikada göstərir –təhsil qanunvericiliyi, məktəblərin qurulması, təhsilin təşkili, tədrisin necə tətbiq edilməsi, dərsliklərin yazılması kimi aspektlər. Təlim-tərbiyə praktikasını formalaşdıran ideyaların heç olmasa bəzilərinin pedaqogikadan qaynaqlanmasını müdafiə etmək məntiqlidir. Bununla belə, pedaqogika sahəsi müxtəlifdir və biliklərin öyrənilməsi və öyrədilməsi kimi məsələlərə dair müxtəlif ənənələrə malikdir.

Bu məqalənin məqsədləri aşağıdakıları iddia etməkdir: 1. İnklüziv təhsil müxtəlif pedaqoji ideya və dəyərlər kontekstindən başa düşülə bilər; 2. müasir cəmiyyətdə təzahür edən təhsilə dair tələblər təlim və pedaqoji nəzəriyyələrlə mütləq uyğun gəlmir. Nəzəriyyə dedikdə, müasir pedaqogikanın öyrənmənin necə baş verdiyini və bu pedaqoji prosesin nəticəsi kimi təlim və tərbiyənin necə həyata keçirilməli olduğunu nəzərdə tutulur.

Təlim və təhsilin məqsədi barədə bəzi düşüncələr

Təhsilin və kurikulum məqsədlərinin təhsil sistemi tərəfindən necə formalaşdırıldığı, məktəbdə iştirak üçün icazə veriləcək şagirdlərin növü haqqında nə deyildiyi barədə müzakirə edir. Bununla yanaşı təcrübə göstərir ki, inklüziv təhsilə nail olmağa çalışan məktəblərdə müəllimlər əvvəlki məqsədləri şübhə altına almağa və sinifdə bütün şagirdləri inkişaf etdirməyə çalışırlar (Booth, Ainscow, 2002, s. 54) (Loreman, Deppeler. and Harvey, 2004 s. 216)

Müxtəlif ölkələrin təhsil sistemlərini nəzərdən keçirdikdə pedaqoji fəaliyyətə müxtəlif paradiqmadan baxışın olduğunu müşahidə etmək olur. Seqreqativ təhsili dəstəkləyən pedaqogikanın məqsədi ölçülə bilən, standartlaşdırılmış bilik və bacarıqlarınformalaşdırılması mənasını daşıyan proses olduğunu, heterogen qrupların birgə təhsilini dəstəkləyən pedaqogikada isə standartlaşmanın qəbul olmadığını, hər şagirdin imkan və ehtiyaclarının nəzərə alınması ilə fərqlənir.

Buradan göründüyü kimi, ənənəvi pedaqoji yanaşmanı dəstəkləyən alimlər, şagirdlər arasında öyrənmə fərqlərinin olmadığını isbat etməyə çalışırlar. Ənənəvi təlim metodununmüxtəlif uşaqların maraqlarına və qabiliyyətlərinə bağlı deyil, yalnız mövzuya münasibətdə göründüyünü göstərməsi diqqət çəkir. Bu ənənə, müəllim tərəfindən bütün sinif üçün mövzunun şifahi təqdimatı ilə xarakterizə

olunan tədris formatında özünü göstərir. Alternativ olaraq, ev tapşırığı ilə bağlı bəzi şifahi və ya yazılı testlə başlayır. Bundan sonra bütün kurikulum materialları kimi hamı üçün eyni olan iş vərəqləri ilə fərdi iş aparılır.

Nəhayət, dərs bir növ xülasə və bütün sinif üçün ev tapşırığı ilə başa çata bilər. Cəld işləyən şagirdlərə, günün tapşırığının başa çatdığı vaxtdan sonra, artıq tapşırıqlar etməyə icazə verilmir, bu da bütün şagirdlərin təxminən eyni səviyyədə olmasını təmin etmək cəhdi olur. Şagirdlərin fənn sahəsində nailiyyətləri daha sonra yoxlanılır və hamı üçün eyni imtahan tətbiq olunur. Bu fikirlər, milli standartların istifadəsində və ümummilli testlərdə də özünü göstərir.

Ənənəvi təhsil formatında sinifdə hər hansı bir uşağın inkişaf səviyyəsi və mənimsəmə imkanları digər sinif yoldaşları ilə uyğunlaşdırılması mümkün olmadıqda, ənənəvi sinifdə onun təlim nəticələri inkişaf səviyyəsindən irəli gələrək müxtəlif olur və aşağı qiymət alan “zəif” şagird adətən qınaq obyektinə çevrilir. Ənənəvi sinfin əsas prinsipi, şagirdin təhsilin tələblərinə (standartlarına) uyğunlaşmasıdır. Bu üslubda təlimin təşkil olunmasına səbəb, ənənəvi-seqreqativ pedaqogikanı dəstəkləyən və məktəbin, şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşmasının mümkün olmadığını iddia edən alimlərin fikirləridir. Seqreqativ pedaqogikanı dəstəkləyən alimlər iddia edir ki, sinifdə şagirdlərin hər biri müəllimdən eyni səviyyədə dəstək almalıdır,nəticədə şagirdlərin hamısı bitirdikləri təhsil müəssisəsinin standartlarına uyğun təlim-tərbiyə almış olacaqlar (Подласый, 2006, s. 82). Həmin məktəbin standartlarına uyğun gəlməyən uşaqlar isə qabiliyyətlərinə uyğun məktəbdə təhsilə cəlb olunmalıdırlar. Birinci fikri daha dolğun və ətraflı Fridrix Hegel belə ifadə edir: *“İnsanların özünəməxsusluğunu çox yüksək qiymətləndirmək lazım deyil. Əksinə, müəllimin şagirdlərin hər birinin fərdi xüsusiyyətlərini dəqiqliklə araşdıraraq onlara uyğunlaşması və inkişaf etdirməsi tamamilə mənasızdır və heç nəyə əsaslanmır. Bunun üçün müəllimin vaxtı yoxdur. Uşaqların özünəməxsusluğu ailəsində qəbul edilməlidir, lakin məktəbdə hamı üçün ümumi olan və təyin olunmuş qaydalara əsaslanan həyat başlayır. Məktəbdə uşaqların özünəməxsus vərdişlərindən əl çəkərək, ümumi qaydalara riayət etməyə və ümumi təhsildəki nəticələri mənimsəməyə həvəsləndirmək lazımdır. Tərbiyənin mahiyyəti, yalnız bu cur ruhun çevrilişidir”* (Гегель, 1977, s. 24).Seqreqativ təhsili dəstəkləyən alimlərin pedaqoji ideyaları əsasında təhsil müəssisələri uşaqların inkişaf səviyyəsinə görə seqreqativ formada təşkil olunur (liseylər, ümumi orta məkətblər və xüsusi məktəblər).

Digər alimlər daha humanist dünyagörüşünü əks etdirir və təhsilin məqsədi kimi hər bir fərdin şəxsiyyətinin inkişafına dəstək vermək və humanitar və mədəni dəyərləri aşılamaga nail olmağını vacibliyi vurğulanır. Müasir dövrdə bu təhsil idealı Avropada 18-ci əsrdə inkişaf etmişdir (Olofsson, 2002, s. 12). Bu cür humanistik yanaşma, tam iştirak, şagirdlər arasında müxtəlifliyin qeyd olunması, hər bir şagirdin şəxsiyyət və bacarıqlarının inkişafı və s. kimi humanitar dəyərlərə böyük əhəmiyyət verir. Sapon-Şevin inklüziv təhsil ideyasını belə formalaşdırır: “Bizim uşaqların bütün fərqliliklərinə cavabdehliyimiz insanların tam spektrinə hörmət və qiymətləndirmə nümunəsi göstərən inklüziv məktəbləri yaradır varlıqlar” (Sapon-Shevin, M., 1993, s. 335).

Eyni zamanda Yan Komenski, Lev Vıqotski, Kerol Tomlinson və s.təlim və tərbiyənin mümkün olduğu qədər fərdiyyətə əsaslanmasının vacib olduğunu bildirirlər. Təlim-tərbiyə prosesində şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması, pedaqogikanın banisi Yan Komenskinin müəyyənləşdirdiyi pedaqogikanın əsas prinsiplərindən biridir (Гусейнов, 2015 s. 46). Fundamental pedaqogikada təlim-tərbiyə prosesində şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınmasında səbəb odur ki, bir sinifdə eyni inkişaf səviyyəsinə, öyrənmə üslublarına malik uşaqların (homogen qrupun) cəmlənməsi reallıqda mümkün deyil (Broderick, 2005, s. 198). Sinifdə bütün uşaqlara eyni yanaşma tətbiq edərək homogen sinif yaratmaq istədikdə, müəllimin proqramı çətin mənimsəyən uşaqlara dair gözləntisi aşağı düşür. Bir çox hallarda təlim materialları bütün sinif üçün sadələşdirilir (Tomilson,1999, s. 75). İnklüziv təhsil, pedaqogikanın fərdi yanaşma prinsipini əsas götürərək sinifdə bütün uşaqların müxtəlif ehtiyaclar və imkanlarının olmasını nəzərə alaraq, təlim və tərbiyənin vahid prinsip və standartlar əsasında həyata keçirilməsi mümkün olmadığını isbat edir. Eyni zamanda, inklüziv təhsilin əsasında duran sosial ədalət paradiqması hər bir fərdin ictimai resurslardan bərabər faydalanmasını vacib buyurur (Booth, 2002, s. 32). Beləliklə, ənənəvi sinifdə olduğu kimi şagirdlərin bir qismi təlimi yaxşı mənimsəyir və təlimdə fəal iştirak edirlər. Digərlərinin potensialları zəif olduğundan, sinifdə passiv müşahidəçi qismində qalması

inklüziv təhsilin prinsiplərinə ziddir. İnklüziv təhsil infrastrukturun, sinifdə istifadə olunan təlim metodlarının, şagirdlərin təlim nəticələrinə dair gözləntilərin, uşaqların imkanlarını və məhdudiyyətlərini nəzərə almasını və fərdi xüsusiyyətlərinə uyğunlaşmasını nəzərdə tutur. Bu cür təşkil olunmuş sinifdə hər bir şagird öz potensial inkişaf səviyyəsini əldə edir. Bu səbəbdən inklüziv təhsilin əsas keyfiyyət göstəricisi birgə təlimin sinifdə şagirdlərin öz potensial inkişaf səviyyələrinə çatmasına xidmət etməsidir (Hoppey, 2014, s. 236).

Nəzəri cəhətdən çətin ki, kimsə bu humanitar dəyərləri dəstəkləyən təhsilin vacibliyinə qarşı çıxsın. Buna baxmayaraq standartlaşdırılmış təhsil sistemini mühafizə etməklə inklüziv pedaqogikanın inkişafına mane olan alimlər az deyil. Təhsildə standartlaşdırmanın tətbiqi təlimin texniki prosesə çevrilməsi, şablonlaşmasına səbəb olmuşdur. Təlimin nəticəsi olaraq müəllim şagirdin nələri öyrəndiyini ölçür lakin nələri dərk etdiyinin ölçülməsi mümkün olmadığından müəyyənləşdirilməsi mümkün olmur. Bu səbəbdən təlimin məqsədləri daha çox nələrin öyrədiləcəyinə (ölçülə bilən) göstəriciləri müəyyənləşdirir (Göransson, 2006, s. 69)

Ferquson bu fikri vurğulayır ki, bu da əslində hər bir uşağın eyni şeyi öyrənmək məcburiyyətində olmadığını, əslində, inklüziv məktəbin yaradılması üçün çox vacib olduğunu nəzərdə tutur (Ferguson, 1996, s. 4). Əgər fərz etsək ki, uşaqlar arasında müxtəlifliyin həm öyrənmə üsulları, həm də öyrəndikləri üçün nəticələri var, yəni uşaqlar müxtəlif yollarla öyrənirlər və onlar fərqli şeylər öyrənirlər, onda tədris və təhsil bu fərziyyələrə uyğun qurulmalıdır.

Bu iki pedaqoji ideya ənənəsini bilik və təhsilin məqsədi ilə bağlı müxtəlif ideyalar haqqında yuxarıdakı müzakirələrlə müqayisə etdikdə belə görünür ki, mütərəqqi yanaşma daha çox humanist və mədəni dəyərləri təhsilin mühüm məqsədləri kimi təbliğ edən ənənə ilə bağlıdır. Bununla belə, iddia etmək olar ki, təhsilin məqsədləri haqqında bugünkü təcrübələrdə təzahür edən fikirlər, humanist dəyərlərlə asanlıqla tətbiq olunmayan bilik və bacarıqların aşılanması anlayışlarından təsirlənir.

Yekun

Müasir təhsil təlimdə differensiasiya anlayışını qəbul edir. Mövcud təhsil qanunvericiliyinə əsasən, "Şagirdlərin müxtəlif qabiliyyətləri və ehtiyacları nəzərə alınmalıdır. Lakin məktəbəqədər və ümumi təhsil qanunvericiliyi təlim prosesində müxtəlif məqsədlərin əldə edilməsi nəzərdə tutulmamışdır. Şagirdlərin hamısı sinifdə eyni məqsədə çatması nəzərdə tutulmuşdur, bu yanaşam isə müxtəlifliyi nəzərə alan pedaqoji yanaşmanı dəstəkləyən təhsil hesab edilə bilməz (Tomlinson, 2001, s. 36)

Uşaqların müxtəlifliyi onların müxtəlif yollarla öyrənmələri mənasında deyil, fərqli inkişaf və fərqli məqsədlərə çatmaq mənasında qəbul etsək, ənənəvi pedaqogikada mövcud olan standartlaşdırılmış təhsil proqramını "normal" şəkildə öyrənə bilməyən şagirdlər "xüsusi" üsullarla (xüsusi təhsil) kömək edilməlidir (Haug, 1998, s. 14).

Ənənəvi pedaqogika atipik uşaqların təlimini öz öhdəliyi hesab etmir və bunun üçün pedaqogikada korreksiya pedaqogikası (defektologiya) adlı yeni sahə formalaşdırılmışdır. Bu uşaqları da əhatə edən məktəb və kurrikulumun dəyişdirilməsi və hazırlanması ümumi təhsilin öz problemi kimi görmür.

Bu ənənəvi ideyalar həm də onda özünü göstərir ki, qlobal olaraqinklüziv təhsili dəstəkləyən alimlərin və valideynlərin böyük hissəsi ümumi təhsildə iştirak etməyən qrupları təmsil edir.İnklüziv təhsil ümumi təhsil üzrə deyil, xüsusi təhsil üzrə milli və beynəlxalq konfranslarındaha çox gündəmdədir. Nəticə etibarı ilə əsasən xüsusi təhsil jurnallarında inteqrasiya və inklüzivlik haqqında məqalələr tapa bilərsiniz (Göransson, 2006, s. 6).

Ölkəmizdə inklüziv təhsilə daha çox xüsusi təhsil islahatı kimi yanaşılır: İnklüziv təhsil anlayışına dair müddəalar ilk olaraq Xüsusi Təhsil haqqında Qanuna əlavə olunur, Dövlət Proqramı məs sağlamlıq imkanları məhdud uşaqlar üçün inklüziv təhsilin inkişafını nəzərdə tutur və s. Bir çox tədqiqatçılar bunun əvəzinə inklüziyanın bütün məktəbə aid olduğunu nəzərdə tutur (Dell'Ann, 2022, s. 2029). Əqli və ya digər əlilliyi olan uşaqların daxil edilməsi daha böyük dəyişikliyin yalnız bir hissəsi kimi qəbul edilməlidir. Dəyişiklik təkcə sağlamlıq imkanları məhdud uşaqlar deyil, uşaqların fərqli olması faktının nəticələrini nəzərə alan təhsil sisteminin inkişafını nəzərdə tutur (Berres, 1996, s. 34).

Seqreqativ məktəbin təklif etdiyi təlimdənbəzi uşaqlar faydalana bilmədikdə problemin həlli kimi həmin uşaqlara diaqnozun təyin edilməsi və onları "atipik" kateqoriyalara ayırmaq və bu yolla onları kənarlaşdırmaq yollarını tapmaqdır. Bunu etməklə, seqreqativtəhsil özünün bəzi əsas pedaqoji ideya-

larını şübhə altına almaq məcburiyyətində olmur və nəticədə bu yanaşmaların dəyişməsinə ehtiyac yaranmır.

Təhsil sistemi daxilində inklüzivliyə qarşı müqavimətin bir hissəsi bu gün bir çox pedaqoqların doğru hesab etdikləri fikirlərə zidd olan təlim prosesi və təhsilin məqsədi haqqında fərqli, inklüziv pedaqogikaya əsaslanan fikirlərdir. Ənənəvi seqreqativ pedaqoji yanaşmalarla inklüziv pedaqogikanı dərk edilməsi və həyata keçirilməsi mümkün deyil (Haug, 1998, s. 58)

Ədəbiyyat

1. Berres, M.S., Ferguson, D.L., Knoblock, P. & Woods, C. (1996). Creating tomorrows schools today. Stories of inclusion, change and renewal (New York: Teachers College Press).

2. Booth, T., Ainscow, M. (2002). Index for Inclusion, Developing learning and participation in schools. Published by the Centre for Studies on Inclusive Education (CSIE). 102 p.

3. Broderick, A. (2005). Differentiating instruction for disabled students in inclusive classrooms. Theory Into Practice,3, 194-202

4. Dell’Anna S., Pellegrini, M., Ianes, D., Vivanet, G. (2022) Learning, Social, and Psychological Outcomes of Students with Moderate, Severe, and Complex Disabilities in Inclusive Education: A Systematic Review. 69(6), 2025-2041. International Journal of Disability, Development and Education. https://doi.org/10.1080/1034912X.2020.1843143

5. Ferguson, D. L. (1996). “Is it inclusion yet? Bursting the bubbles”. In *Creating tomorrows schools today. Stories of inclusion, change and renewal.* Edited by: Berres , M. S. , Ferguson, D. L. , Knoblock , P. and Woods. , C., 16.New-York: Teachers College Press.

6. Göransson, K., (2006). Pedagogical Traditions and Conditions for Inclusive Education. Scandinavian Journal of Disability Research, 8(1), p.67-74. https://doi.org/10.1080/15017410600551873

7. Haug, P. (1998). Specialpedagogiskt dilemma: Specialundervisning.Stockholm: Skolverket. 73 p.

8. Hoppey, D. McLeskey, J. (2014). What are Qualities of Effective Inclusive Schools? Handbook of Effective Inclusive Schools,Research and Practice, Taylor & Francis Group. 564 p.

9. Гегель, Г. В. Ф.(1977) Философия Духа. Энциклопедия Философских Наук. том 3. Академия Наук СССР Институт Философии, Издательство Социально-Экономической Литературы, Москва: «Мысль». 74 с.

10. Гусейнов, А.З.,Турчин, Г.Д. (2015). Коменский – Классика Научной Педагогики – Учебное пособие. Саратов: Просвещение,69 с.

11. Loreman, J. Deppeler, D. (2005). İnklüziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. 306 s. Sidney: Allen&UNWIN:

12. Olofsson, T. (2002). Bildningsompersonligutveckling. Svenska dagbladet, 6 dec, Kulturen, s. 10.

13. Подласый, И.П. (2006). Педагогика 100 вопросов – 100 ответов. Учебное пособие для студентов высших учебных заведений.Москва: Владос-Пресс, 365 с.

14. Sapon-Shevin, M. (1993). Marriage advice, in: R. A. Villa, J. S. Thousand, W. Stainback & S. Stainback (red.), Restructing for caring & effective education. An administrative guide to creating heterogenous schools s. 3 /5 Baltimore: Paul Brookes Publishing Company.

15. Tomilson, C.A. (1999). The Differentiated Classroom, Responding to the Needs of All Learners, Alexandria: Association for Supervision and Curriculum Development, 132 p.

16. Tomlinson, C.A. (2001). How to Differentiate Instruction in Mixed-Ability Classrooms. 2edition,Alexandria:Association for Supervision and Curriculum Development (ASCD), 117 p.

ОСОБЕННОСТИ ВНИМАНИЯ У МЛАДШИХ ШКОЛЬНИКОВ С РАССТРОЙСТВАМИ АУТИСТИЧЕСКОГО СПЕКТРА

Елизавета Давыдова
Московский государственный психолого-педагогический университет (ФГБОУ ВО МГППУ),
г. Москва, Российская Федерация
davidovaeju@mgppu.ru
Денис Давыдов
Московский государственный психолого-педагогический университет (ФГБОУ ВО МГППУ),
г. Москва, Российская Федерация
davydovdv@mgppu.ru
Антон Богомолов
Московский государственный психолого-педагогический университет (ФГБОУ ВО МГППУ),
г. Москва, Российская Федерация
bog.anton.i@yandex.ru

Резюме

Исследование комплекса показателей внимания и двигательной активности у младших школьников с РАС с применением VR-технологии, моделирующей ситуацию школьного обучения выявило снижение внимания, сосредоточенности, скорости обработки информации и в меньшей степени контроля импульсивности относительно нормативных данных. Двигательная активность напротив была повышена, при этом индивидуальные профили показателей внимания характеризовались выраженной гетерогенностью.

Ключевые слова: *Расстройства аутистического спектра, внимание, контроль импульсивности, сосредоточенность, VR-технологии.*

Summary

A study was conducted on a set of indicators of attention and motor activity in younger schoolchildren with ASD using VR technology that simulates the situation of school education. Data were obtained on a decrease in attention, concentration, and information processing speed in the RAS group. Impulsivity control was also reduced, but to a lesser extent relative to regulatory data. On the contrary, motor activity was increased, while individual profiles of attention indicators were characterized by significant heterogeneity.

Key words: *Autism spectrum disorders, attention, impulsivity control, concentration, VR technology*

Əsas istiqamət orta məktəblərdə xüsusi siniflərin açılmasını və normal inkişaf edən məktəblilərlə birgə tədbirlərin keçirilməsini nəzərdə tutur. Bir çox tələbələr üçün bu istiqamətdə müəssisələrə yerləşdirmə ciddi uğursuzluğa çevrilə bilər, buna görə də bütün xüsusi qayğıya ehtiyacı olan uşaqların 25,2%-i hazırda əsas istiqamətlə əhatə olunur.

Müəyyən edilmiş istiqamətlər müəllimlərə və sağlamlıq imkanları məhdud uşaqlara dəstəyin göstərilməsinin aşağıdakı modellərində həyata keçirilir:

- "məsləhət modeli";

- xüsusi təhsil müəllimi ümumi təhsil müəllimləri və sağlamlıq imkanları məhdud uşaqlarla məsləhətləşmələr aparır;

- "komanda modeli";

- xüsusi təhsil müəllimi bir qrup ümumtəhsil müəlliminə hərtərəfli dəstək göstərir, onların sağlamlıq imkanları məhdud uşaqlarla işin xüsusiyyətləri haqqında biliklərini genişləndirir, onlara bu uşaqların məktəbə uyğunlaşmasını artırmaq üçün metod və üsulların seçilməsində kömək edir;

- inklüziv təhsil prosesi və onların təhsil, kommunikativ və sosial bacarıqlarının inkişafı;

- "paralel təlim" modeli – xüsusi müəllimlər əlilliyi olan uşaqlara kiçik qruplarda və ya fərdi şəkildə xüsusi sinifdə ("resurs otağı") dəstək göstərirlər;

- "müəllimlərin əməkdaşlığı" modeli – xüsusi və ümumtəhsil müəllimləri ümumi təhsil qrupunda birgə işləyir, dərslər və dərsdənkənar fəaliyyətlər zamanı bütün uşaqlara lazımi dəstək göstərirlər;

- "kooperativ təhsil" modeli;

- açıq dialoq prinsiplərinə əsaslanan inklüziv təhsil prosesində bütün uşaqların dəstəklənməsinin birləşdirilmiş modeli (Kopland M.A. 2003, s. 380).

- "peşəkar əməkdaşlıq" modeli;

- mütəxəssislərdən, ictimai təşkilatların könüllülərindən və bu uşaqların valideynlərindən ibarət fənlərarası qrup tərəfindən həyata keçirilən əlilliyi olan uşaqlar üçün hərtərəfli və qarşılıqlı asılı dəstək modeli. Bu modelin yaranması əlilliyi olan uşaqların inklüziv təhsili konsepsiyasının nəzəri əsaslarının təhsil praktikasına uğurla uyğunlaşdırılmasını təmin etmək üçün nəzərdə tutulmuş ən səmərəli strategiyaların tapılmasına yönəlmiş uzunmüddətli beynəlxalq pedaqoji tədqiqatların nəticəsidir.

Bu modelin prinsipial əhəmiyyətli üstünlüyü ondan ibarətdir ki, təhsil prosesinin bütün iştirakçılarının sıx qarşılıqlı əlaqəsi bütün uşaqlara intensiv kömək və dəstək göstərməyə yönəlib, bu da təhsil prosesinin maksimum fərdiləşdirilməsinə kömək edir, hər bir uşağa təhsildə iştirak etmək imkanı verir. Bu onların motivasiyasını və özünə hörmətini artırır, həmyaşıdları və böyüklərlə müsbət münasibətlərin qurulmasına əhəmiyyətli dərəcədə təsir göstərir (5. https://milytin.ru › attachments › article››).

Qonşu Rusiyada isə inklüziv təhsil öz inkişafının ilkin mərhələsindədir.

Belə ki,Rusiya Federasiyasında inklüziv təhsil aşağıdakı sosial və təhsil layihələrinin həyata keçirilməsi çərçivəsində həyata keçirilir:

- "Rusiya Federasiyasında 2025-ci ilə qədər Təhsil üzrə Milli Doktrina";

2025-ci ilə qədər "Əlçatan ətraf mühit" Dövlət Proqramı.

Rusiya cəmiyyətinin indiki inkişafı mərhələsində inklüziv təhsil bir neçə uşaq birgə təhsil qrupunun fəaliyyət göstərdiyi təhsil müəssisələrində həyata keçirilir:

-adi qruplar;

-uşaqların əksəriyyətinin olduğu qruplar. Normal inkişaf edən uşaqlar və sağlamlıq imkanları məhdud 1-2 uşaq;

- xüsusi qruplar – yalnız sağlamlıq imkanları məhdud uşaqlar (6-10 nəfər), onların inteqrasiyası sağlam həmyaşıdları ilə birgə fəaliyyətə qismən cəlb olunma çərçivəsində həyata keçirilir;
- qarışıq qruplar;
- kiçik uşaq qrupları (12-15 nəfər), burada adi uşaqlar və 4-5 sağlamlıq imkanları məhdud uşağın eyni vaxtda təhsil və tərbiyəsi həyata keçirilir.

Rusiyada inklüziv təhsillə yanaşı, əlilliyi olan uşaqların təhsili üçün başqa variantlar da var: - xüsusi məktəblər və internat məktəbləri – şagirdlərin gecə-gündüz iştirak etdiyi təhsil müəssisələri, ailələrə uşaqların böyüdülməsində, onların müstəqil həyat bacarıqlarının inkişaf etdirilməsində kömək etmək üçün yaradılmışdır. (5. https://milytin.ru › attachments › article››)

YUNESKO-nun sorğusu əsasında (1989) ölkələrin ¾-nün (sorğuda iştirak etmiş 58 ölkədən 43-ü) sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilini qəbul etdiyi müəyyənləşdirilmişdir. (6.tipii.edu.az.oxu-)

Ədəbiyyat

1. Astoyans M.S., Rossikhina İ.G. Sosial daxilolma: konsepsiyanı konseptuallaşdırmaq və əməliyyatlaşdırmaq cəhdi. – Giriş rejimi: URL: http:// do.gendocs.ru/docs/index-249855.html (4 noyabr 2020-ci il).
2. Korkunov V.V. Regionda xüsusi təhsilin inkişafının konseptual müddəaları: nəzəri modellərdən praktiki həyata keçirməyə: monoqrafiya. Ural dövləti ped. univ. - Ekaterinburq, 1998.
3. Siqal N.G. İnklüziya bu gün: müsbət və mənfi cəhətləri – Monoqrafiya. – Kazan: Vətən, 2017.- 200 s.
4. Kopland M.A. Sorğuya rəhbərlik: məktəbin təkmilləşdirilməsi üçün potensialın yaradılması və davamlılığı / M. A. Kopland // Təhsilin qiymətləndirilməsi və siyasətin təhlili. - 2003. - S. 375 – 395.
5. İnklüziv təhsilin dünya təcrübəsi. Rusiya Federasiyasında əlil uşaqları öyrətmək üçün seçimlər.https://milytin.ru › attachments › article
6. İnklüziv siniflərdə təlimin təşkili.tipii.edu.az.oxu-
7. İnklüziv tendensiyaların xarici təcrübəsi..rosopeka.ru›

SAĞLAMLIQ İMKANLARI MƏHDUD ŞƏXSLƏRİN TƏHSİLDƏN İSTİFADƏ İMKANLARI

Nabat Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
cafarova_nabat@mail.ru
Sona Məmmədova
Sumqayıt Dövlət Universiteti
sonamemmedova@mail.ru

Summary

Inclusion translated from English means “inclusion” and “joining”. Inclusion builds the self-confidence of students with disabilities and encourages them to study at school with other children. Inclusion extends not only to SIM children, but to every child who has different languages, cultures, lifestyles and religions. Having equal rights, such educated people actively participate in the life and development of society and the state. The education system provides for the spiritual and educational needs of indigenous people's children. In inclusive education, the educational direction of SIM students in school is established in an environment that is appropriate to their capabilities, and their educational needs are properly supported.

Key words: persons with disabilities, inclusive education, XXI century, science and technology, inclusive classes

Резюме

Инклюзия в переводе с английского означает «включение» и «присоединение». Инклюзия укрепляет уверенность в себе учащихся с ограниченными возможностями и побуждает их учиться в школе вместе с другими детьми. Инклюзия распространяется не только на детей SIM, но и на каждого ребенка, говорящего на разных языках, культурах, образе жизни и религиях. Имея равные права, такие образованные люди активно участвуют в жизни и развитии общества и государства. Система образования обеспечивает духовно-образовательные потребности детей коренных

народов. В инклюзивном образовании образовательное направление учащихся КМНС в школе устанавливается в среде, соответствующей их возможностям, и их образовательные потребности должным образом поддерживаются.

Ключевые слова: инвалиды, инклюзивное образование, XXI век, наука и технологии, инклюзивные классы

Aktuallıq

Tədqiqatçılar tərəfindən məktəb təcrübəsini araşdırmaqla XQE (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərin müşahidəsini təşkil etməklə, qeyri-rəsmi müsahibələr aparmaqla, təhsilin hansı istiqamətdə təşkilinin onlar üçün daha əhəmiyyətli olacağını araşdırmaq və izah etmək üçün məlumatlar toplanılır ki, bu da inkluziv təhsilin inkişafı üçün istifadə olunur. Tədqiqatçıların müşahidəsi, qeyri-rəsmi müsahibələri, sinif rəhbərləri ilə söhbətləri inkluziv təhsilin öyrənilməsi üçün istifadə edilmiş və təhlillər aparılmışdır. Müzakirə edilən inkluziv təhsilin nəticələri, SİM (sağlamlıq imkanları məhdud olan) şagirdlərin təhsil təcrübəsi göstərir ki, onların həmyaşıdları ilə müsbət münasibətləri; həmyaşıdları ilə qarşılıqlı əlaqələri və sosial əlaqələri daha uğurlu qurulur (Rüstəmova, 2021, s. 29-40).

Qloballaşan dünyanın bir çox ölkələrində SİM uşaqlar, digər uşaqlarla birgə ümumtəhsil məktəblərində təhsil alırlar. İnkluziv təhsil məhz bu cür inteqrasiyaya deyilir və inkluziv təhsilin inkişafı təhsil siyasətinin prioritetlərindən biri kimi nəzərdə tutulur. Təhsil sisteminin beynəlxalq prinsip və standartlara uyğunlaşdırılması inkluziv təhsilin məqsədlərindən biridir. İnkuliziv komponentli müəssisələrdə fəaliyyət göstərən müəllim kadrlarını yeni yanaşmalarla və pedaqoji texnikalarla bağlı məlumatlarla təmin etməkdəinkluziv təhsilin məqsəd və vəzifələrinə daxildir.

Sağlamlıq imkanları məhdud uşaqların inklüziv təliminin təşkilinə start verməzdən əvvəl, SİM şagirdlərin mövcud fiziki, emosional, sosial, intellektual, dil və digər xüsusiyyətləri nəzərə alınmalıdır. Belə ki, onların müvafiq biliklər qazanması və cəmiyyətə adaptasiya olunmasına şərait yaradılmalıdır. Hər bir sağlamlıq imkanları məhdud uşağın ümumi təhsil və tərbiyə prosesinə daxil olmaq imkanının olması doğru yanaşmadır. Sağlamlıq imkanları məhdud uşaqların istedadlarının üzə çıxarılması və bunun mümkünlüyünə cəmiyyəti inandırmaq lazımdır. Belə olduqda sağlamlıq imkanları məhdud şagirdlərə hər hansı bir qabiliyyəti çatışmayan şəxslər kimi deyil, əksinə onların potensialına inam yaradılır. SİM uşaqların təhsil və tərbiyəsinəuyğun şəraitin yaradılması, bu şagirdlərin cəmiyyətdən təcridinin qarşısını alır. SİM uşaqların sağlam yaşıdları ilə ümumi təhsil müəssisələrində oxuması və onların tədrisi prosesini təşkil edən müəllimlərlə mütəmadi aparılan metodik işlər qarşılıqlı anlaşmanı təmin edir. Bununla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlarıntəhsilində təlimin təşkili zamanı rast gəlinən çətinliklərdə mövcuddur ki, bunları da inkar etmək olmaz.Tədqiqatçıların fikrincə, məktəblərdə çox vaxt inklüzivliyə riayət edilmir(Kauffman və Hallahan, 1995; Fox və Ysselduke, 1997).

Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqlarla bağlı məktəbəqədər dövrdə görülən işlər də qənaətbəxş deyil. Bunu həmin sahədə maarifləndirmə işinin zəif olması, televiziyada, radioda, mətbuatda inklüziv təhsillə bağlı zəruri məlumatlara geniş yer verilməməsi ilə izah etmək olar (Xudaverdiyeva, 2001, səh.54).Bu həmçinin Azərbaycanda inklüziv təhsillə bağlı kifayət qədər biliyin olmaması və tədqiqatların məhdud olması ilə əlaqədardır.

Təlim prosesinin uğurla həyata keçirilməsində əsas məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərini aradan qaldırmaq və onların sağlam düşüncəli vətəndaş kimi cəmiyyətə adaptasiyasını təşkil etməkdir. Belə ki, ümumi dəyərlərin mövcud olduğu və təhsil təcrübəsinin təkmilləşdirilməsinə həqiqi səylər göstərən məktəblərdə hətta ağır və mürəkkəb əlilliyi olan uşaqların təhsilə cəlb edilməsinin müsbət nəticələr verə biləcəyini göstərən kifayət qədər tədqiqatlar mövcuddur (Giangreco və başqaları, 2001; Farmer, 1996; Yasutake və Lerner, 1997; Grenor-Schreyer və başqaları, 2001; Loreman, 2001).

"Müəllimlərdən kimsə məktəbin ümumi dəyərlərini paylaşmadığı təqdirdə, siz həmişə inklüziyanı təşviq edərək, bununla başqalarına nümunə olaraq, öz sinif təcrübənizi təkmilləşdirə bilərsiniz" (İnklüziv təhsil, 2020, s.31).

Tədqiqat işinin metodları:

Məqalədə müqayisəli-qarşılaşdırma, linqvistik-təsviri metodlardan istifadə edilmişdir.

Giriş:

"2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na görə təhsildə aşağıdakı nəticələr gözlənilir:

- təhsil müəssisələrinin infrastrukturunu sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması;
- İKT tətbiq etmək və sağlamlıq imkanları məhdud şəxslərin informasiya əldə etmək imkanlarının genişləndirilməsi;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələrində digər şəxslərlə bərabər səviyyədə istifadə imkanlarının olması;
- sağlamlıq imkanları məhdud şəxslər üzrə inklüziv təhsilin məlumat bazasının yaradılması;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin yeni qaydalarla qiymətləndirilməsinin tətbiq edilməsi;
- cəmiyyət üzvlərinin sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqlarına dair məlumatlandırılması(Azerbaijan Journal of Educational Studies, 2002, №3, s.57).

İnklüziv təhsil səkkiz prinsipə əsaslanır:

1.**İnsanın dəyəri onun bacarıqları və nailiyyətləri ilə ölçülmür.** Bu prinsip mahiyyət etibarilə “Ümumdünya insan hüquqları bəyannaməsi”nə əsaslanır. Bəyannamənin elə ilk bəndində qeyd edilir ki, “bütün insanlar ləyaqət və hüquqlarına görə bərabər doğulurlar” və sonra əlavə edilir ki, “insanlar bir-biriləri ilə qardaşlıq ruhunda davranmalıdırlar”.

Belə ki, şagirdin fiziki və ya intellektual inkişaf səviyyəsi, yaxud malik olduğu potensial onların qeyri-bərabər olmasına səbəb olmamalıdır. İnsan elmi, mədəni, siyasi və iqtisadi sferalarda yüksək inkişaf səviyyəsi və müasir sivilizasiyada bioloji varlıq kimi yüksək dəyərə malikdir.

2. **Hər bir insan hissetmə və düşünmə qabiliyyətinə malikdir.** İnklüziv təhsil prinsipləri hər bir şagirdin hiss etmə və düşünmə qabiliyyətinə malik olduğunu göstərir,yəni xüsusi qayğıya ehtiyacı olan şagird olub-olmamasından asılı olmayaraq hər kəs özünəməxsus tərzdə düşünə və hiss edə bilir. Qeyd edilən amillər,subyektiv fikirlər və ümumbəşəri hisslərə hörmət etmək inklüziv və tolerant cəmiyyətin ali dəyərlərindəndir.

3. **Hər bir insan ünsiyyət hüququna malikdir.** İnklüziv təhsilin ünsiyyət hüququnun bir prinsip kimi nəzərə alınması insan üçün həyati əhəmiyyət kəsb edən mənəvi-psixoloji ehtiyaca əsaslanır. Sosial varlıq kimi insan digərləri ilə ünsiyyətə girmək və sosiallaşmaqla şəxsiyyət kimi formalaşır. Sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə adaptasiyası prosesində ünsiyyət hüququnun təmin edilməsi ciddi əhəmiyyət kəsb edir.

4. **Bütün insanların bir-birinə ehtiyacı vardır.** Bəzən biz unuduruq ki, sadəcə xüsusi qayğıya ehtiyacı olan insanlar deyil, bütün insanların bir-birinə ehtiyacı vardır və onlar müəyyən mənada başqalarından asılıdırlar. Biz bioloji və sosial varlıq kimi ehtiyaclarımızın böyük bir qismini başqalarının köməyi ilə təmin edirik. Lakin sağlamlıq imkanları məhdud olan insanların ehtiyacları nisbətən qabarıq nəzərə çarpdığından bizdə elə təsəvvür formalaşır ki, sadəcə onların xüsusi qayğıya ehtiyacı vardır. Nəzərdə saxlamaq lazımdır ki, hər bir insan bənzərsizdir və özünəməxsus ehtiyacı vardır.

5. **Əsl təhsil yalnız real qarşılıqlı münasibətlər zəminində həyata keçirilə bilər.** İnklüziv təhsil təhsilin qarşılıqlı münasibətlər zəminində baş tutmasını bir prinsip kimi əsas götürür. Məntiqi olaraq inklüziv təhsil sosial öyrənmə nəzəriyyəsi və davranış psixologiyasına istinad edir. İnsansosial fenomen kimi yalnız nümunəvi davranışları təqlid etməklə şəxsiyyət kimi formalaşır. Qeyd edək ki, təhsildə müasir yanaşma hesab edilən interaktiv təlim də, uşaqların birgə fəaliyyyət və qarşılıqlı münasibətləridaha yaxşı öyrənməsini təmin edir.

6. **Bütün insanlar həmyaşıdlarının köməyi və dostluğuna ehtiyac duyurlar.** Yuxarıda qeyd edildiyi kimi, sosial ünsiyyət ən təbii insani ehtiyac kimi özünü büruzə verir. Lakin inklüziv təhsil kontekstində bunu da nəzərə almaq lazımdır ki, insan öz həmyaşıdları ilə daha asan və sərbəst ünsiyyət qurur, dostluq edir və qarşılıqlı surətdə bir-birinə yardım edirlər. Belə ki, inklüziv təhsil bütün uşaqlar üçün faydalı bir konsepsiyadır.

7. **Bütün təhsilalanların nailiyyətləri onların bacarıqları ilə ölçülür.** Qiymətləndirmə məsələsinə gəldikdə isə inklüziv təhsil yanaşması xüsusi qayğıya ehtiyacı olan şagirdlərin bilik və bacarıqlarını təyin olunmuş normativlərə əsasən deyil, onların əvvəlki bilik və bacarıqlarına əsasən qiymətləndirməyi zəruri hesab edir. Yəni xüsusi qayğıya ehtiyacı olan şagirdlərin bacarıqları şərti şkala əsasında deyil, real olaraq əldə etdikləri inkişaf əsasında qiymətləndirilməlidir.

8. **Rəngarənglik insanın bütün cəhətlərini inkişaf etdirir.** İnklüziv təhsilin istinad etdiyi universal dəyərlər yalnız əlilliyi olan insanların deyil, bütün təhsilalanların maraqlarını təmin edir. Bu universal dəyərlər onu deməyə əsas verir ki, inklüziv təhsil özündə hamı üçün təhsil anlayışını ehtiva edir.

Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədinə əsasən bu problemin tədricən aradan qaldırılması, həssas qrupa daxil olan uşaqların erkən yaşlardan aşkar edilməsi və təlim-təhsil prosesinə cəlb olunması qarşıya qoyulan əsas hədəflərdəndir (Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi, 2018).

İnklüziv təhsillə məşğul olan müəllimlər qiymətləndirmə strategiyalarına müntəzəm dəyişikliklər etməklə yanaşı, formativ qiymətləndirmə kimi daha ənənəvi formanı innovativ qiymətləndirmə strategiyaları ilə birləşdirə və ya şagirdləri motivasiya etmək üçün özünəməxsus qiymətləndirmə metodundan istifadə edə bilərlər. İnklüziv təhsil prosesində təlimin təşkili zamanı bir sıra nəzəri əsasları və praktik mexanizmləri bilməklə yanaşı, başlıca məsələlərdən biri də sağlamlıq imkanları məhdud uşağın, onun ailəsinin qarşılaşdığı problemlərin həllini təmin edən səriştələr formalaşdırmaqdır. Digər əsas məsələ tapşırıqların dəyişkənliyi, təşkili formaları və metodları nəzərə alınmaqla təhsilalanların praktik biliklərə yiyələnməsini təmin etməkdir. Sağlamlıq imkanları məhdud şagirdlərin təhsildə mükəmməl nəticə əldə etməsi üçün müəllimlərlə yanaşı, valideynlərin bu prosesə cəlb olunması inklüziv təhsildə təlimin başlıca prinsiplərindəndir. Dövlət, eləcə də təhsil müəssisələri siyasi və hüquqi yollarla inklüziv təhsilə dəstək verərkən valideynlərin onlarla birgə əməkdaşlığı müsbət nəticələrə daha tez nail olmaq imkanı verir. Qeyd edək ki, sağlamlıq imkanları məhdud uşağın birbaşa kütləvi təhsil müəssisəsində təlimə cəlb olunması məqsədəuyğun deyil. Onları ümumi təhsilə hazırlamaq üçün öyrənmə prosesini asanlaşdırmaq, defektoloji, psixoloji və pedaqoji yardımlardan istifadə etməklə bu prosesə hazırlamaq lazımdır. Bunun üçün ümumtəhsil məktəblərində inklüziv siniflərin təşkili bu işin müsbət həlli yollarından biri kimi qiymətləndirilə bilər(İnklüziv siniflərdə təlimin təşkili, 2018, s.3).

Buna görə də inklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də sağlamlıq imkanları məhdud insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir. İnklüziv təhsilin məktəb həyatına gətirdiyi dəyişikliklərin nəticəsində yalnız sağlamlıq imkanları məhdud uşaqlar deyil, bütün uşaqlar qazanacaqlar. Sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil məktəblərində təhsili bir çox ölkələrin, eləcə də Azərbaycanın cəlb olunduğu inklüziv təhsil sisteminin qanunauyğun inkişaf mərhələsidir. Bu inkişaf sxematik olaraq aşağıdakı mərhələlərdən keçmişdir:

I mərhələ - diskriminasiya (Sağlamlıq imkanları məhdud uşaqlar, ümumiyyətlə, təhsildən kənarda qalır)

II mərhələ - seqreqasiya (Sağlamlıq imkanları məhdud uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunur)

III mərhələ - inteqrasiya (Sağlamlıq imkanları məhdud uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxuyur)

IV mərhələ - inklüziya (Sağlamlıq imkanları məhdud uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alır).

Sağlamlıq imkanları məhdud uşaqların təhsilinə belə yanaşma həyatda müxtəlif xarakterli səbəblərlə əlaqədardır. Ümumilikdə bu səbəbləri iqtisadi, hüquqi inkişaf baxımından müəyyən səviyyəyə nail olmuş cəmiyyət və dövlətlərin sosial tələbləri kimi müəyyənləşdirmək olar. Son mərhələ cəmiyyət və dövlətlər tərəfindən sağlamlıq imkanları məhdud olan şəxslərə münasibətin dəyişdirilməsi, yalnız hüquqlarının tanınması deyil, təhsil də daxil olmaqla, həyatın müxtəlif sahələrində onlara digər insanlarla bərabər imkanların yaradılması ilə xarakterizə olunur(İnklüziv siniflərdə təlimin təşkili, 2018, s.5).

XXI əsrdə, elm və texnologiyanın yüksək sürətlə inkişaf etdiyi bir dövrdə, xüsusi ehtiyacı olan hər bir fərdin bütün sosial proseslərdə, təhsilin bütün səviyyələrində məhdudiyyətsiz iştirakının həyata keçirilməsi təmin edilməli, adi insanlarla sağlamlıq imkanları məhdud olan insanlar eynihüquqlu subyektlər kimi dərk edilməli, istər iş yerlərində, istər məktəblərdə inklüziv təhsildə yanaşma eyni cür olmalıdır(Xudaverdiyeva, 2021, s.54).

Azərbaycanda inklüziv təhsil şəraitlərində təhsil ehtiyacları tədqiq edilir, xüsusi ilə şagirdlərin məktəb təcrübələri araşdırılır, SİM şagirdlərin qarşılaşdıqları maneələrə işıq salır, onların məktəbə olan həsrətinə son qoymaq məqsədi daşıyır.

Nəticə. Xüsusi ehtiyacı olanların inklüziv təhsil mühitinə aid olduqlarını və qəbul edildiyini hiss edirlər. Milli qanunvericilik və dəstəkləyici mühit xüsusi qayğıya ehtiyacı olanların inklüziv təhsilinin təşkilinin müvəffəqiyyətli olması üçün müəllimlərin bu sahə üzrə səriştəliliyinin artırılmasını və yeni texnologiyalardan istifadəsini ön plana çəkir. Xüsusi qayğıya ehtiyacı olanların məktəb təcrübələrini araşdırmaqla tədqiqat mövzularının sferası genişləndirilməli və keyfiyyətli təlim texnologiyalarından, fəal təlim metodlarından istifadə edilməlidir.

Ədəbiyyat

1.Cavadova, Leyla Bahadur. İnklüziv təhsilin bəzi psixoloji problemləri/ 21 əsr – mülahizələr və düşüncələr. Gənc tədqiqatçıların respublika elmi – praktik konfransının materialları (15 aprel 2011 – ci il) Bakı, 2011 s. 235(s.232 - 236).

2.Davud M., What Really Works in Special and Inclusive Education: Using Evidence – Based Teaching Strategies, 2014, s.138(s.35)

3.“Əlilliyi olan şəxslərin hüquqları haqqında “ Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli, 1153 – VQ nömrəli Qanunu

4.Xudaverdiyeva, Tehranə. Təhsildə təlimin təşkili prinsipləri: perspektivlər və nəticələr // Azərbaycan məktəbi, 2021, №3, s.54

5.Rüstəmova, Sevinc. Azərbaycanda inklüziv təhsil: xüsusi təhsil ehtiyaclari olan şagirdlərin inklüziv təhsil müəssisələrindəki təcrübələri//Azərbaycan məktəbi, 2021, №3, s. 29-40

6.http://as-journal.edu.az

İNKLÜZİV TƏHSİL SİSTEMİNİN TƏŞKİLİ ÜZRƏ BİR SIRA MƏSƏLƏLƏR

Səbinə Dostəliyeva
Bakı Slavyan Universiteti, Pedaqogika və psixologiya kafedrasının müəllimi
sabi.aliyeva01@gmail.com

Summary

The article examines the problem of organizing educational activities in inclusive conditions. The purpose of the study is to determine the features of organizing educational work in inclusive conditions. Also, a number of researchers draw attention to the fact that one of the trends in inclusive schools is the organization of interaction between the teaching staff. The article discusses the problem of cooperation between teachers of inclusive education in an educational institution.

Key words: *inclusive education, organization of educational work, child with limited health opportunities, educational environment, cooperation in education.*

Резюме

В статье рассматривается проблема организации образовательной деятельности в инклюзивных условиях. Цель исследования – определить особенности организации воспитательной работы в инклюзивных условиях. Также ряд исследователей обращают внимание на то, что одной из тенденций инклюзивных школ является организация взаимодействия педагогического коллектива. В статье рассматривается проблема сотрудничества педагогов инклюзивного образования в образовательном учреждении.

Ключевые слова: *инклюзивное образование, организация воспитательной работы, ребенок с ограниченными возможностями здоровья, образовательная среда, сотрудничество в образовании.*

Müasir təhsilə qoyulan tələblərdən biri də onun humanist yönümlü olması, insanı əsas dəyər hesab etməsi, şəxsi inkişafa yönəldilməsidir. Bu yanaşma ilə hər hansı formalar, metodlar, texnologiyalar özlüyündə məqsəd deyil, təhsilin əsas məqsədlərindən biri – şagirdlərin özünü inkişaf etdirməsi üçün ən əlverişli şəraitin təmin edilməsi kontekstində nəzərdən keçirilməlidir. Təhsil insana öz “mən”ini dərk etməyə, onu zənginləşdirməyə, xarici aləmlə münasibətlərdə sosial rolunu müəyyənləşdirməyə və orada öz yerini tapmağa kömək etməlidir.

İnklüziv təhsilin həyata keçirilməsi mürəkkəb məsələdir, çünki o, ətraflı düşünülməli, düzgün, sistemli təşkil edilməli və müəyyən fəaliyyət amillərinə əsaslanmalıdır.

Ümumiyyətlə, inklüziv təhsil odur ki, bütün uşaqlar, xüsusiyyətlərinə (fiziki, intellektual, etnik və s.) baxmayaraq, ümumi təhsil sisteminə daxil edilir. Belə uşaqların tərbiyəsi və təhsili onların xüsusi təhsil ehtiyacları nəzərə alınmaqla yaşadıqları yer üzrə kütləvi təhsil müəssisələrində, həmyaşıdlarının əhatəsində həyata keçirilir. İnklüziv təhsilin inkişafında təhsil mühitinin özünə məxsusluğu xüsusi yer tutur. Təhsil proseslərini humanistləşdirmək üçün uşağın imkanlarının nəzərə alındığı təhsil mühiti yaratmaq lazımdır. Əlilliyi olan şagirdlər üçün əhəmiyyətli bir mühit sosial-mədəni mühitdir, burada: özünü inkişaf etdirmə və öz müqəddəratını təyinetmə, şəxsi təcrübənin toplanması baş verir. Əlilliyi olan şagirdin optimal inkişafı, onun cəmiyyətə uyğunlaşması və sosiallaşması üçün xüsusi reabilitasiya məkanı yaradılır. Adi bir uşaq üçün sosiallaşma təbii bir prosesdirsə, "xüsusi" bir uşaq üçün cəmiyyətə daxil olmaq zəhmətli bir işdir, nəticəsi isə tamamilə böyüklərin bunun üçün yaratdığı şəraitdən asılıdır(Ахметова, 2013, s. 24).

Təhsil müəssisəsində adaptiv təhsil mühitinin təşkilinin əsas xüsusiyyətlərinə aşağıdakılar daxildir:

– bütün şagirdlərin fərdi imkanlarının nəzərə alınması;
– şagirdlərin müxtəlif koqnitiv ehtiyac və maraqlarının ödənilməsi;
– uyğunlaşma üçün şəraitin təmin edilməsi(Битянова, 2015, 49).

Sağlamlıq imkanları məhdud uşaqlarla işləyərkən müəllim üçün ən vacib şərtlərdən biri də bu uşaqların digərləri ilə müqayisədə əlil olmadığını başa düşməkdir. Uşağın tərbiyəsi ilə bağlı aktual problemlərdən biri hazırda uşağın şəxsiyyət yönümlü tərbiyəsidir. Bu problem zehni cəhətdən zəif olan uşaqların inkişaf çatışmazlıqlarının aradan qaldırılmasına, onların şəxsiyyətinin formalaşmasına və sosial uyğunlaşmasına yönəlmiş korreksiyaedici tədbirlər sisteminin həyata keçirilməsi ilə həll olunur. Şəxsiyyətin formalaşmasını və inkişafını ən çox təmin edən məqsədyönlü və sistemli tərbiyə işidir.

Tərbiyə prosesinə şagirdlərin şəxsiyyətinin optimal inkişafını təmin etmək üçün müəllim tərəfindən həll edilən təşkilati və pedaqoji tapşırıqlar kompleksinin həyata keçirilməsi, tapşırıqlara uyğun olaraq onun təhsilinin forma və üsullarının seçilməsi və onların həyata keçirilməsi prosesi daxildir. Bu iş müəllim və şagirdlərlər arasında birgə tədbirlərin təşkilini əhatə edir, həmçinin sağlamlıq imkanları məhdud uşaqların inkişafına mühüm təsir göstərən sosial sahələr arasında münasibətlərin tənzimlənməsini nəzərdə tutur. Bir sıra ədəbiyyatlarda inklüziv təhsil şəraitində tərbiyə işinin təşkili üçün psixoloji və pedaqoji tövsiyələr təklif edilmişdir. Onlardan bəzilərini nəzərdən keçirək (Алехина, 2012, 88):

– böyüklərin və uşaqların birgə fəaliyyəti vasitəsilə tədris prosesinin keyfiyyətinin və müəllimlərin peşəkar bacarıqlarının yüksəldilməsi;
– fikir və hisslərini sərbəst ifadə etmək üçün kollektivdə mehriban atmosferin yaradılması;
– əlilliyi olan şagirdlərə hərtərəfli inkişafının təmin edilməsinə yönəlmiş pedaqoqun - müəllimin, tərbiyəçinin, fasilitatorun dəstəyinin genişləndirilməsi;
– xüsusilə sağlamlıq imkanı məhdud şagirdlərin tərbiyəsi prosesində şəxsiyyətyönümlü, antropoloji, ekoloji və humanist yanaşmalardan istifadə edilməsi.

Hal-hazırda, inklüziv qrupların müəllimlərinin xüsusi qayğıya ehtiyacı olan uşaqların inkişaf məqsədləri ilə bağlı bir-biri ilə razılaşmadıqları, onların inkişafı üçün müxtəlif yol, üsul və vasitələrdən istifadə etdikləri tipik bir vəziyyət mövcuddur. İnklüziv qrupların uğurlu təcrübəsinin təhlili nəticəsində müəyyən edilmişdir ki, müsbət əlaqələrlə yanaşı, müəllimlər müvafiq səriştələrə malik olmalıdırlar ki, bunlara aşağıdakılar daxildir (Вороних, 2013, 19):

– qrupdakı inkişaf mühitinə uyğunlaşma bacarığı;
– uşaqların müxtəlif ehtiyaclarına uyğun olaraq proqram və tədris metodları hazırlamaq bacarığı;
– inkişaf pozulmaları olan uşaqlara effektiv təsir göstərmək üçün müxtəlif texnologiyalara yiyələnmək;
– komanda daxilində işləməyi bacarmaq.

Tədqiqatçılar hesab edirlər ki, müəllimlərin təhsil prosesini tərəfdaşlıq əsasında təşkil etmək bacarığının inkişafına diqqət yetirmək bacarığı, həmkarları, şagirdlər və valideynlərlə ünsiyyət qurmaq bacarığı müəllimlərin müsbət keyfiyyətləridir. Meta-analitik tədqiqat vurğuladı ki, “Tədrisdə əmək-

daşlıq” müxtəlif mərhələlərdə müəllimlərin peşəkar imkanlarını bir araya gətirməyi nəzərdə tutur (Hattie, 2009, s. 93).

– vahid müəllim hazırlığı.

– birgə müzakirə və planlaşdırma.

– gözlənilən nəticəyə uyğun gələn öyrənmə istiqamətlərinin, uğur meyarlarının, təlimdə irəliləyişin müəyyən edilməsi.

Tədqiqatçılar komanda qarşılıqlı fəaliyyətinin yaxşılaşdırılması yollarını, fərdi təhsil proqramının hazırlanması prosesini, məqsədlərin düzgün formalaşdırılmasını (hər bir mütəxəssis üçün müxtəlif şəxsi məqsədlərdən üzərində işləmək lazım olan hər bir mütəxəssis üçün ümumi məqsədə keçid) göstərir:

- məqsədləri müəyyən etmək və təsdiqləmək üçün valideynlərin iştirakı;
- təhsil proqramının strukturunun təkmilləşdirilməsi;
- xüsusi ehtiyacı olan uşaqla birbaşa işləyən müəllimlər üçün fərdi proqramların yazılması.

Müəllimlər arasında əməkdaşlığın bu növünün çatışmazlıqları arasında birgə öyrənmə texnologiyası, daha dəqiq desək, ondan istifadə etməli olan inklüziv qrupların müəllimləri fərdi yanaşmanın planlaşdırılmasına və onun gedişatının qiymətləndirilməsinə kifayət qədər diqqət yetirmirlər. Tədqiqatçılar inklüziv qrupda uşaqların təhsili və inkişafı üçün proqramlar hazırlayarkən, bu proqramların təkmilləşdirilməsinə və qiymətləndirilməsinə yönəlmiş işlərdə müəllimlərin komanda şəklində işləmək bacarığının kritik əhəmiyyətini qeyd edirlər.

Bir sıra tədqiqatlar sübut edir ki, səriştəli müəllimlər müxtəlif strategiyalara malik olduqları üçün uşaqların nailiyyətlərini artırırlar (Hattie, 2009, s. 186; Wong, 2014, s. 225):

– onlar təhsil prosesini təşkil edə və onun məzmununu ən yaxşı şəkildə təmin edə bilirlər;

– yeni nailiyyətləri əvvəlkilərlə, öyrəndikləri mövzunu digər təhsil sahələri ilə əlaqələndirə bilirlər;

– onlar fəaliyyətləri uşaqların ehtiyaclarına uyğunlaşdıra bilirlər;

– bütün uşaqların uğur üçün müəyyən meyarlara nail ola biləcəyinə inamları əsasında inam və uğur mühiti yarada bilərlər.

Pedaqoqların səriştəsi həm də öz təhsil strategiyalarının daha da təkmilləşdirilməsinə səbəb olan uğur və uğursuzluq amillərinin hərtərəfli təhlilini təmin edir. Belə işin vacib komponenti həmkarların rəyidir. Müəllimlərin işində komanda əməkdaşlığı vacibdir, çünki təhsil prosesi ekoloji kontekstə malikdir, çünki uşaqların təhsilində və inkişafında nailiyyətlərin səviyyəsi müəllimlərin yaratdığı mühitdən asılıdır.

Beləliklə, əldə edilmiş biliklərə əsaslanaraq belə bir nəticəyə gəlirik ki, məktəbin keyfiyyətcə yenilənməsi üçün mütərəqqi hərəkat inklüziv təhsil mühitində optimal şəraitin yaradılmasını tələb edir. Həmçinin, təhsil fəaliyyətinin təşkili nəticəsində təhsil prosesinin xüsusi təhsil ehtiyacı olan uşaqların dinamik həyatına effektiv uyğunlaşması təmin edilməlidir. Bundan əlavə, inklüziv təhsil sisteminin təşkilində və inkişaf etdirilməsində, sağlamlıq imkanları məhdud uşaqlar üçün səmərəli tədris şəraitinin yaradılmasında müəllimlərin əməkdaşlığının zərurəti vurğulanır.

Ədəbiyyat

1. Ахметова, Д.З. (2013) Педагогика и психология инклюзивного образования: учебное пособие / Ахметова, Д.З., Нигматов, З.Г., Челнокова, Т.А. [и др.]; под ред. Д.З., Ахметовой. – Казань: Познание, 204 с.

2. Hattie, J. (2009), Visible learning: a synthesis of over 800 meta-analyses relating to achievement, Routledge, New York, 389 p.

3. Инклюзивное образование (2015) / сост. Битянова, М.Р. – М.: Классное руководство и воспитание школьников, 224 с.

4. Инклюзивное образование (2011). Настольная книга педагога, работающего с детьми с ОВЗ: методическое пособие. – М.: Владос, 167 с.

5. Организация специальных образовательных условий для детей с ограниченными возможностями здоровья в общеобразовательных учреждениях: методические рекомендации

для руководителей образовательных учреждений / под ред. Алехина, С.В.– М.: МГППУ, 2012. – 92 с.

6. Воронич, Е.А. Сущность инклюзивного подхода в образовании / Воронич, Е.А. // Фэннаука. – 2013. – №1 (16). – С. 17–20

7. Wong, H.K., Wong, R.T., Jondahl S.F., & Ferguson, O.F. (2014), The classroom management, Denton, Texas, 320 p.

INCLUSIVE EDUCATION AND MENTAL RETARDATION IN INTERNATIONAL PRACTICE

Ulviyya Elyazova
Baku State University teacher
ulviyyaali222@gmail.com

Xülasə

Məqalədə inklüziv təhsilin təkcə təhsilin fəlsəfəsi olmadığını, onun mənəvi və müsbət sosial dəyişikliklər üçün katalizator rolunu oynadığı deyilir. Təhsildə müxtəlifliyin tanınması və qəbul edilməsi, ümumiyyətlə, inklüziv təhsilin daha ədalətli və harmonik cəmiyyətin əsasını qoyduğunu nəzərdə tutur. Çətinliklərin aradan qaldırılması və inklüziv təcrübələrin həyata keçirilməsi təhsil işçilərinin, siyasətçilərin və icmaların kollektiv səylərini tələb edir. İnklüziv təhsil haqqında anlayışımızı dərinləşdirdikcə, onun təkcə fərdlər üçün öyrənmə təcrübəsini zənginləşdirməklə yanaşı, həm də inklüziv, empatik və anlayışlı bir dünya qurmağa töhfə verdiyi iddia edilir.

Açar sözlər: *inklüziv təhsil,psixi sağlamlıq, depressiya, təşviş, şəxsiyyət pozuntusu*

Резюме

В статье инклюзивное образование – это не только философия образования; Говорят, что оно действует как катализатор моральных и позитивных социальных изменений. Признание и принятие разнообразия в образовании в целом подразумевает, что инклюзивное образование закладывает основу для более справедливого и гармоничного общества. Преодоление проблем и внедрение инклюзивной практики требуют коллективных усилий педагогов, политиков и сообществ. По мере того как мы углубляем наше понимание инклюзивного образования, утверждается, что оно не только обогащает опыт обучения для отдельных людей, но и способствует построению инклюзивного, чуткого и понимающего мира.

Ключевые слова: *инклюзивное образование, психическое здоровье, депрессия, беспокойство, расстройство личности*

Inclusive education is a transformative approach that recognizes and celebrates the diversity of learners, ensuring that every individual, regardless of their abilities, background, or characteristics, has equal opportunities to learn and participate in the educational process. It goes beyond mere integration and strives to create a supportive and accepting environment where all students can thrive. This essay explores the concept of inclusive education, its benefits, challenges, and the crucial role it plays in fostering a more equitable and harmonious society (Florian, L., & Linklater, H. 2010, p. 300).

Understanding Inclusive Education:

At its core, inclusive education aims to embrace diversity by accommodating and valuing the unique qualities and needs of every learner. Unlike traditional educational models that may segregate students based on abilities or disabilities, inclusive education promotes a sense of belonging for everyone. Inclusion is not just about physical presence in the same classroom; it is about actively engaging all students in meaningful learning experiences, adapting teaching methods, and providing necessary support to ensure their success.

Benefits of Inclusive Education:

Enhanced Learning Opportunities:

Inclusive classrooms provide a rich learning environment where students are exposed to a wide range of perspectives, experiences, and abilities. This diversity fosters creativity, critical thinking, and problem-solving skills, preparing students for the complexities of the real world.

Promotion of Empathy and Understanding:

Interacting with peers from various backgrounds and abilities promotes empathy and understanding. Students learn to appreciate differences, reduce stereotypes, and develop a sense of compassion, creating a more inclusive and compassionate society.

Preparation for Life:

Inclusive education prepares students for life beyond the classroom by teaching them to navigate diversity. This inclusive mindset promotes social integration, acceptance, and collaboration, essential skills for success in the globalized and interconnected world.

Challenges in Implementing Inclusive Education:

Attitudinal Barriers:

Overcoming deeply ingrained attitudes and stereotypes regarding disability or differences poses a significant challenge. Attitudinal shifts are necessary at all levels, from teachers and administrators to students and parents.

Lack of Resources:

Inclusive education requires additional resources, such as specialized training for teachers, support staff, and appropriate materials. Many educational institutions face financial constraints that hinder the effective implementation of inclusive practices (by Forlin, C., Loreman, T., & Sharma, U. 2008, p. 310).

Structural and Systemic Challenges:

The existing educational systems may not be designed to accommodate the diverse needs of all learners. Redefining structures and policies to support inclusive education can be a complex and time-consuming process.

The Role of Teachers and Educational Institutions:

Teachers play a pivotal role in the success of inclusive education. They need to be equipped with the knowledge, skills, and attitudes necessary to create inclusive learning environments. Professional development programs, ongoing training, and collaborative initiatives can empower educators to embrace inclusivity and address the diverse needs of their students.

Educational institutions must also commit to creating inclusive policies and structures. This involves designing accessible physical spaces, implementing flexible curriculum options, and fostering a culture of acceptance and support (Hodkinson, A., & Vickerman, P. 2009, p. 110).

Mental health problems, also referred to as mental health disorders or conditions, are a range of conditions that affect an individual's thoughts, emotions, behavior, and overall well-being. These conditions can significantly impact a person's daily life, relationships, and ability to function. Mental health problems can manifest in various forms and severity levels, and they can affect people of all ages, backgrounds, and walks of life.

Some common types of mental health problems include:

Anxiety Disorders: Conditions characterized by excessive worry, fear, or nervousness. Examples include generalized anxiety disorder, panic disorder, and social anxiety disorder.

Mood Disorders: Conditions that affect a person's mood and emotions. Major depressive disorder, bipolar disorder, and dysthymia are examples.

Schizophrenia and Other Psychotic Disorders: Conditions that can cause a disconnection from reality, leading to distorted thinking, perception, and behavior.

Eating Disorders: Conditions such as anorexia nervosa, bulimia nervosa, and binge-eating disorder, which involve unhealthy eating patterns and a preoccupation with weight and body image.

Personality Disorders: Conditions characterized by enduring patterns of behavior, cognition, and inner experience that deviate significantly from societal expectations. Examples include borderline personality disorder and narcissistic personality disorder.

Attention-Deficit/Hyperactivity Disorder (ADHD): A neurodevelopmental disorder that affects attention, impulse control, and hyperactivity.

Substance Use Disorders: Conditions involving the misuse of drugs or alcohol, leading to negative consequences for physical and mental health.

Post-Traumatic Stress Disorder (PTSD): Occurs after experiencing or witnessing a traumatic event and involves symptoms such as flashbacks, nightmares, and severe anxiety (Avramidis, E., Bayliss, P., & Burden, R. 2000, p.200).

It's important to note that mental health problems are complex and often result from a combination of genetic, biological, environmental, and psychological factors.

International practices in inclusive education vary, but there are common principles and strategies that many countries adopt to promote inclusivity in their education systems. Here are some key aspects of inclusive education in international practice:

Legal Frameworks and Policies:

Many countries have established legal frameworks and policies that emphasize the right to inclusive education for all students. These may include anti-discrimination laws, special education legislation, and policies promoting diversity and inclusion.

Universal Design for Learning (UDL):

UDL is a framework that aims to provide multiple means of representation, engagement, and expression to accommodate diverse learning styles and abilities. This approach ensures that instructional materials, methods, and assessments are accessible to all students.

Collaborative Teaching and Teamwork:

Inclusive education often involves collaborative teaching where general education and special education teachers work together to meet the diverse needs of students. This collaborative approach helps create a supportive learning environment.

Individualized Education Plans (IEPs) and Personalized Learning:

Many countries implement individualized education plans for students with special needs. These plans outline specific accommodations, modifications, and goals tailored to the unique needs of each student. Personalized learning approaches are also gaining popularity to address the diverse learning styles and paces of students.

Professional Development:

Ongoing professional development for educators is crucial in ensuring that they are equipped with the knowledge and skills to effectively support diverse learners. Training may focus on inclusive teaching practices, understanding various disabilities, and utilizing assistive technologies.

Accessible Infrastructure and Resources:

Schools are encouraged to provide physically accessible infrastructure and resources to accommodate students with disabilities. This includes ramps, elevators, accessible bathrooms, and materials in alternative formats.

Promoting a Positive School Culture:

Creating a positive and inclusive school culture involves promoting diversity, fostering a sense of belonging for all students, and addressing issues such as bullying or discrimination.

Parent and Community Involvement:

Collaboration with parents, families, and the community is essential for the success of inclusive education. Open communication and involvement of stakeholders contribute to a more supportive and inclusive learning environment (Florian, L. 2008, p. 446)

Literature

1. Avramidis, E., Bayliss, P., & Burden, R. (2000). "A Survey into Mainstream Teachers' Attitudes towards the Inclusion of Children with Special Educational Needs in the Ordinary School in one Local Education Authority." Educational Psychology, 20(2), 191-211.

2. Florian, L., & Linklater, H. (2010). "Preventing Exclusion from Mainstream Schools in Scotland." International Journal of Inclusive Education, 14(3), 291-305.

3. Hodkinson, A., & Vickerman, P. (2009). "Moving beyond 'Inclusion' in the English Secondary Mainstream." International Studies in Sociology of Education, 19(2), 107-121.

4. "Inclusive Education: Achieving Education for All by Including Those with Disabilities and Special Education Needs" by Florian, L. (2008). International Journal of Inclusive Education, 12(5-6), 441-457.

5. "Inclusive Education for Students with Disability: A Comparative Study of School Leadership Practices" by Forlin, C., Loreman, T., & Sharma, U. (2008). International Journal of Disability, Development and Education, 55(4), 303-316.

İNKLÜZİV TƏHSİLİN DÜNYA TƏCRÜBƏSİ

Leyla Hacıyeva
Azərbaycan Dillər Universiteti, b.m.
leila.haciyeva@mail.ru

Summary

Inclusive education is a form of education that gives every person the opportunity to receive general education regardless of their existing physical, social, emotional, mental, linguistic, intellectual and other characteristics. Inclusive education is one of the main priority areas of education policy of many countries of the world. This type of education aims to adapt the education system of each country to international principles and standards. In the article, the world experience of inclusive education was analyzed and investigated.

Key words: *international experience, strategy, education, school, inclusive education*

Резюме

Инклюзивное образование – это форма образования, дающая каждому человеку возможность получить общее образование независимо от имеющихся у него физических, социальных, эмоциональных, психических, языковых, интеллектуальных и других особенностей. Инклюзивное образование является одним из основных приоритетных направлений образовательной политики многих стран мира. Этот тип образования направлен на адаптацию системы образования каждой страны к международным принципам и стандартам. В статье проанализирован и исследован мировой опыт инклюзивного образования.

Ключевые слова: *международный опыт, стратегия, образование, школа, инклюзивное образование*

Müasir şəraitin prioritetlərindən biri inklüziv təhsildir. İnklüziv təhsil sisteminin hər bir obyekti (məktəbəqədər uşaq, şagird, tələbə) onun qabiliyyət və ehtiyaclarına uyğun olan təhsil proqramının köməyi ilə prosesə cəlb edilməsini nəzərdə tutur.

İnklüziv təhsilin təşkili üzrə beynəlxalq təcrübə bir neçə sahədə cəmlənib. Birinci istiqamət mərkəzsizləşdirmə prosesidir. Məsələn, Avstriya, Almaniya, Yunanıstan, Portuqaliya, Fransa, İslandiya, Norveç, Danimarka, Finlandiya, İsveç, Amerika Birləşmiş Ştatları, Kanada, Yeni Zelandiya və Cənubi Afrika ölkələri təhsil müəssisələrinə pedaqoji yanaşmaların seçimində nisbi müstəqillik verirlər. Əlilliyi olan uşaqlar üçün inklüziv təhsil prosesini təşkil etmək, həmçinin məktəb rəhbərliyini bu prosesə məsuliyyətlə yanaşmağa sövq etmək, milli təhsil sisteminin aparıcı məqsədlərinə uyğun olaraq onun səmərəliliyinə sistemli nəzarət və monitorinq aparmaq lazımdır. Məsələn, İngiltərə, Finlandiya, Yeni Zelandiya və ABŞ-ın milli təhsil siyasətlərinə uyğun olaraq, əlilliyi olan uşaqların təhsili üçün məsuliyyət yerli təhsil orqanlarına həvalə edilmişdir.

İslandiyada inklüziv təhsil bütün uşaqlar üçün aparıcı təhsil sistemidir. Lakin ayrıca xüsusi məktəblər və xüsusi siniflər də mövcuddur. İsveçdə hər bir məktəb vahid məqsədə uyğun fəaliyyət göstərir. Bütün uşaqların təhsil almaqda bərabər hüququnun təmin edilməsi, bunun əsasında strategiyalar işlənib hazırlanır, məktəbdaxili təhsil siyasəti formalaşdırılır və müəllimlər komandasına təhsil almaq azadlığı verilir. Uşaq qrupları yaş və fərdi inkişaf xüsusiyyətləri nəzərə alınmaqla formalaşır və akademik fənlərin dairəsi genişlənir və valideynlərlə qarşılıqlı əlaqə artır.

Beynəlxalq inklüziv təhsildə ikinci mühüm sahə müəllimlərə və əlilliyi olan uşaqlara dəstəyin inkişafıdır. Bu istiqamə tİtaliyanın inklüziv təhsil sistemində həyata keçirilir. Dəstək müxtəlif rollarda və vəzifələrdə bir sıra müəllim köməkçiləri tərəfindən təmin edilir. Köməkçilər komandasına daxildir:

- xüsusi peşə hazırlığı olan müəllim, tədris və rabitə üzrə köməkçi;
- mədəni-maarif məsələləri üzrə köməkçi;

- sosial əməkdaşlıq üzrə köməkçi;
- uşaqlara yemək və gigiyena prosedurlarını yerinə yetirməkdə əlavə texniki, inzibati və fərdi yardım göstərmək üzrə köməkçi.

Müəllim vəzifəsi ilə yanaşı, həm sinifdə, həm də dərsdənkənar tədbirlərdə müxtəlif uşaqlarla fərdi işlərdə iştirak edən tərbiyəçi müəllimin mühüm vəzifəsi vardır. Tərbiyəçi müəllimin vəzifəsi uşaqlara ünvanlı dəstək göstərməkdir.Bu müəllim cəmiyyət, məktəb və ev arasında "fasilitator"dur (1).

Xüsusi müəllimlər tədris prosesinin təşkilində və həyata keçirilməsində fəal mövqe tuturlar:
- sinifdə və dərsdənkənar tədbirlərdə iştirak edirlər;
- sağlamlıq imkanları məhdud uşaqlara fərdi və qrup şəklində kömək göstərirlər;
- ümumtəhsil müəllimlərinə praktiki fəaliyyətdə dəstək olurlar, bu uşaqların sağlam uşaqları ilə tərbiyə işləri aparırlar;
- müəllimlərə və tələbələrə xüsusi dəstək islah müəllimləri -"ekspertlər" və əlilliyi olan uşaqlar üçün dəstək mərkəzləri tərəfindən təmin edilir.

Xüsusi müəllimin vəzifəsi ümumtəhsil müəlliminə bu uşaqlarla işin xüsusiyyətləri haqqında məlumat vermək və uyğun tədris metodunun işlənib hazırlanmasına, fərdi təhsil proqramlarının tərtib edilməsinə kömək etməkdir. Əlilliyiolanuşağatəlim prosesi zamanı müvəqqəti çətinliklər yarandıqda fərdi dəstək göstərilir. Bu mütəxəssislərin əsasən kənar məsləhətçilər olmasına baxmayaraq, bu uşaqların inklüziv təhsili prosesinə görə məsuliyyət tamamilə onların üzərinə düşür. Bu yanaşmadan Avstriya, Belçika, Fransa, Yunanıstan, Lüksemburq, Hollandiya və İsveçrədə geniş istifadə olunur.

Xaricdə inklüziv təhsilin həyata keçirilməsində növbəti istiqamət təhsil prosesində valideynlərin rolunun gücləndirilməsidir. Dünyanın müxtəlif ölkələrindən olan müəllimlərin genişmiqyaslı müqayisəli tədqiqatlarının nəticələri sübut etdi ki, valideynlərin təhsil prosesində fəal iştirakı sağlamlıq imkanları məhdud uşaqların və onların sağlam həmyaşıdlarının emosional, sosial və təhsil sahələrində dəyişikliklərə müsbət təsir göstərir.

Xarici müəllimlər hesab edirlər ki, müəllim ailə ilə etibarlı əlaqə yaratmağa çalışmalı və bu proses erkən təhsil dövründən başlamalıdır ki, bu da müsbət heysiyyətin, motivasiyanın və açıqlığın formalaşmasına böyük töhfə versin və uşağın bütövlükdə uğurunu əvvəlcədən müəyyənləşdirsin. Bu tendensiya Böyük Britaniyada geniş yayılmışdır ("ailə mərkəzli yanaşma") (Сигал Н.Г., 2017, с.126).

Müəyyən edilmiş istiqamətlər müəllimlərə və sağlamlıq imkanları məhdud uşaqlara dəstəyin göstərilməsinin aşağıdakı modellərində həyata keçirilir:
- "məsləhət modeli" - xüsusi təhsil müəllimi ümumi təhsil müəllimləri və sağlamlıq imkanları məhdud uşaqlarla məsləhətləşmələr aparır;
- "komanda modeli" - xüsusi təhsil müəllimi bir qrup ümumtəhsil müəlliminə hərtərəfli dəstək göstərir, onların sağlamlıq imkanları məhdud uşaqlarla işin xüsusiyyətləri haqqında biliklərini genişləndirir. Onlara bu uşaqların məktəbə uyğunlaşmasını artırmaq üçün metod və üsulların seçilməsində kömək edir;
- "paralel təlim" modeli – xüsusi müəllimlər əlilliyi olan uşaqlara kiçik qruplarda və ya fərdi şəkildə xüsusi sinifdə ("resurs otağı") dəstək göstərirlər;
- "müəllimlərin əməkdaşlığı" modeli - xüsusi və ümumtəhsil müəllimləri ümumi təhsil qrupunda birgə işləyir, dərslər və dərsdənkənar fəaliyyətlər zamanı bütün uşaqlara lazımi dəstək göstərirlər;
- "kooperativ təhsil" modeli - açıq dialoq prinsiplərinə əsaslanan inklüziv təhsil prosesində bütün uşaqların dəstəklənməsinin birləşdirilmiş modeli;
- "peşəkar əməkdaşlıq" modeli - mütəxəssislərdən, ictimai təşkilatların könüllülərindən və bu uşaqların valideynlərindən ibarət fənlərarası qrup tərəfindən həyata keçirilən əlilliyi olan uşaqlar üçün hərtərəfli və qarşılıqlı asılı dəstək modeli.

Bu modelin yaranması əlilliyi olan uşaqların inklüziv təhsili konsepsiyasının nəzəri əsaslarının təhsil praktikasına uğurla uyğunlaşdırılmasını təmin etmək üçün nəzərdə tutulmuş ən səmərəli strategiyaların tapılmasına yönəlmiş uzunmüddətli beynəlxalq pedaqoji tədqiqatların nəticəsi idi. Bu modelin prinsipial əhəmiyyətli üstünlüyü ondan ibarətdir ki, təhsil prosesinin bütün iştirakçılarının sıx qarşılıqlı əlaqəsi bütün uşaqlara intensiv kömək və dəstək göstərməyə yönəlib, bu da təhsil prosesinin maksimum fərdiləşdirilməsinə kömək edir, hər bir uşağın təhsildə iştirak etmək imkanı verir. O onların

motivasiyasını və özünə hörmətini artırır, həmyaşıdları və böyüklər ilə müsbət münasibətlərin qurulmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Azərbaycanda inklüziv təhsilin nəzərdən keçirilməsinə keçərək qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyəti bu prosesin inkişafının ilkin mərhələsindədir.

Azərbaycanda inklüziv təhsillə yanaşı, əlilliyi olan uşaqların təhsili üçün başqa variantlar da var:

- uşaqların tərbiyəsində, müstəqil həyat vərdişlərinin inkişaf etdirilməsində, sosial müdafiəsində və uşaqların yaradıcılıq qabiliyyətlərinin hərtərəfli inkişafında ailələrə kömək etmək məqsədi ilə yaradılan, gecə-gündüz şagirdlərin iştirak etdiyi təhsil müəssisələri;
- Azərbaycan ərazisində sosial müəllimlər tərəfindən müxtəlif təhsil proqramlarının həyata keçirildiyi sosial müdafiə üçün pansionatlar sistemi mövcuddur;
- evdə təhsil əlilliyi olan uşaqların təhsili üçün bir seçimdir. Burada təhsil müəssisəsinin müəllimləri uşağa mütəşəkkil şəkildə baş çəkir və onunla birbaşa yaşayış yerində dərslər keçirir.

Bu halda, bir qayda olaraq, təlim ən yaxın təhsil müəssisəsinin müəllimləri tərəfindən həyata keçirilir:

- distant təhsil - məsafədən təhsil məlumatlarının mübadiləsi vasitələrinə əsaslanan ixtisaslaşdırılmış məlumat və təhsil mühitindən istifadə etməklə sağlamlıq imkanları məhdud uşaqlara göstərilən təhsil xidmətlərinin məcmusudur.

Beləliklə, Azərbaycanda aşağıdakı müddəalara əsaslanaraq inklüziv təhsilə dəyişiklik etmək lazımdır:

- bu prosesin mahiyyəti, cəmiyyətdəki rolu, yeri və funksiyaları, hər bir uşağın şəxsiyyətinin inkişafında müəllimlər arasında ümumi baxış;
- elmi-metodiki əsaslar və hüquqi təminat;
- yüksək ixtisaslı mütəxəssislərdən ibarət komanda;
-sağlamlıq imkanları məhdud uşaqların valideynləri və sağlam uşaqların valideynləri ilə birgə iş.

Həmçinin, Azərbaycanın bu məsələnin məhsuldar şəkildə həll olunduğu bir sıra ölkələrlə (Böyük Britaniya, Almaniya, İtaliya, Finlandiya və s.) beynəlxalq əməkdaşlığa ehtiyacı var. Azərbaycan hökumətinin uzunmüddətli proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi ideyasını irəli sürmək lazımdır.

Ədəbiyyat

1.https://milytin.ru/attachments/article/Мировая/практика%20инклюзивного%20образования.pdf

2.Сигал Н.Г. Инклюзия сегодня: за и против – Монография. – Казань: Отечество, 2017.-126 с.

İSTEDADLI UŞAQLARA PSİXOLOJİ XİDMƏTİN SAHƏLƏRİ VƏ ONLARIN MAHİYYƏTİ

Solmaz Həsənli
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi psixologiya kafedrasının dosenti
solmazhasanli@hotmail.com

Summary

Providing the psychological assistance needs of gifted children for personal, pedagogical, professional choice issues will affect the formation and protection of self-esteem and self-confidence, positive perception of themselves as a person, establishment of successful social relations, and orientation in the right direction in educational and work activities. In this regard, the article discusses the areas of psychological services provided to gifted children and their essence.

Key words: *gifted children, areas of psychological services, psychological guidance, adaptation to the environment, self-awareness.*

Резюме

Обеспечение потребности одаренных детей в психологической помощи по вопросам личностного, педагогического, профессионального выбора повлияет на формирование и защиту самооценки и уверенности в себе, позитивного восприятия себя как личности, формирования успешных социальных отношений, ориентации в праве. направление в учебной и трудовой деятельности. В связи с этим в статье рассматриваются направления психологических услуг, оказываемых одаренным детям, и их сущность.

Ключевые слова: *одаренные дети, направления психологической помощи, психологическая ориентация, адаптация к окружающей среде, самосознание.*

Müasir dövrdə istedadlı uşaq, yeniyetmə və gənclərin potensial imkanlarının ortaya çıxarılması, onların istedadları doğrultusunda yönləndirilməsi ümumiyyətlə toplum olaraq əsas vəzifələrdən biridir. Belə ki, istedad toplumların sərvəti sayılacaq səviyyədə dəyərə sahibdir. Bu dəyərlərin topluma qazandırılması işində isə bu gün praktik psixoloqların üzərinə böyük məsuliyyət düşür. Günümüzdə psixoloji yardım fəaliyyətlərini istedadlı uşaqların ehtiyaclarına uyğun şəkildə həyata keçirən, eyni zamanda valideyn və müəllimlərlə səmərəli işbirliyi quran praktik psixoloqlara daha çox ehtiyac hiss edilir.

Professor Ə.Əlizadə istedadlı uşaqlarla bağlı yazırdı: "İstedad inteqrativ keyfiyyətdir. Şagirdin bir şəxsiyyət kimi bütün keyfiyyətləri məhz bu sahədə görünməz tellərlə bir-birinə qovuşur. Bu gün insanlar üçün empirik surətdə olsa da, bir həqiqət gün kimi aydındır: istedad haçansa üzə çıxır, özünü göstərir. Lakin onu vaxtında, uşaq xəyalının kəpənəyin qayğısız uçuşu kimi öz-özünə oyanıb əsrarəngiz möcüzələr yaratdığı uşaqlıq illərində kəşf edib inkişafı üçün şərait yaratmayanda çox vaxt istedad öz rövnəqini itirir, səmavi çalarlarla ömür payı kimi alnına yazılmış effektləri vermir". (Əlizadə, 2005, s. 22)

Psixoloji xidmətin əsas məqsədi, şagirdlərin inkişaf və uyğunlaşmasına yardım edərək onların hər cəhətdən potensiallarını sonuna qədər inkişaf etdirə bilmələri və daha faydalı, səmərəli fəaliyyətlərini təmin edən müsbət psixo-emosional səviyyəyə çata bilməsidir. Normal bir inkişaf prosesində bütün şagirdlər öncə özlərini tanıyır, sonra özlərini anlayır, qəbul edir, çevrələrini tanıyır, olduğu çevrədə hansı fəaliyyətləri göstərə biləcəklərini kəşf edirlər və son olaraq özlərini olduqları mühitdə təsdiq edirlər. Bir çox hallarda istedadlı şagirdlər özlərini tanıma və qəbul etmədə, fərqli olmalarından dolayı mühitə uyğunlaşmada problemlərlə qarşılaşa bilirlər. İstedadlı uşaqlara, yeniyetmə və gənclərə psixoloji rəhbərliyin əsil məqsədi də bu problemləri azaltmaq və şagirdlərin uyğunlaşmasını, inkişafını dəstəkləməkdir. Çünki ancaq bu şərtlərdə istedadlı şagirdlər öz inkişafları üçün geniş imkanlara sahib olur, özlərini ifadə və təsdiq edirlər. Təbiidir ki, potensial imkanlarının fərqində olmayan insan doğru istiqamətə yönələ bilməz və özünü təsdiq etmək imkanına sahib olmaz.

İstedadlı uşaqlara psixoloji xidmətin sahələri bunlardır.

1. Psixoloji konsultasiya xidmətləri: Şagirdin ailəsi və ya özü ilə üz-üzə aparılan, qərar vermək və problem həll etmək ehtiyaclarını ortadan qaldırmağa yönələn psixoloji xidmət sahəsidir. İstedadlı şagirdlər potensiallarına görə psixoloji yardım alarkən problemlərlə rastlaşmırlar. Çünki psixoloji yardım fəaliyyəti prosesində onlar potensial imkanlarına əsaslanan inkişaf sürətlərinə görə irəlilədiklərindən, müstəqil hərəkət etdiklərindən və inkişaflarını hiss etmələri səbəbindən müsbət nəticə alına bilər. Ailələr üçün psixoloji konsultasiya fəaliyyətlərində isə fərdi təsir olduğunda daha güvən verici və yararlı olur. Çünki istedadlı uşaqlar xüsusi yanaşma tələb edirlər. Ailələr də bu yanaşma və təsir metodlarını tətbiq etməyə daha açıq olurlar. Ümumi qrup fəaliyyətlərində isə ailələr daha çox heç kimin onları anlamadıqlarını düşünürlər. İstər ailə, istərsə də şagirdlə həyata keçirilən psixoloji konsultasiyalar bu fəaliyyətlərin davamlı xarakter daşıması və nəzarətdə saxlanılması sayəsində səmərə verə bilər.

2. Oriyentasiya xidmətləri. İstedadlı şagirdlərin məktəbdə və yaxın çevrədə onlardan gözlənilən uyğunlaşmanı göstərə bilmələri üçün həyata keçirilən psixoloji xidmətdir. İstedadlı uşaqlar oryentasiya xidməti zamanı daha çox sual vermələri və ya uyğunlaşmada problem yaşamaları diqqəti cəlb edir. Bu baxımdan istedadlı uşaqlar üçün daha çox detallarla izahat verilməli, verilən suallara cavab onların səviyyə və potensialları diqqətə alınaraq açıqlanmalıdır. İstedadlı uşaqların olduqları mühitə uyğunlaşmaları üçün isə onların bu mühiti geniş təhlillərə əsaslanan müşahidələrini bitirmələrini gözləmək lazımdır. Bu baxımdan tələsmədən oryentasiya fəaliyyətləri sistemli həyata keçirilməlidir. Sosial mühitə uyğunlaşmanın istedadlı uşaqlarda digər uşaqlara nisbətən daha uzun müddətdə baş verdiyi unudulmamalıdır. Bu baxımdan psixoloqlar səbirli olmalı və istedadlı şagirdin uyğunlaşma prosesini dərin təhlil edərək müşahidə etmək, istedadlı şagirdə göstərilən təsirlərdə (valideyn, müəllim, psixoloq) birliyə diqqət etmək və müsbət inkişafı şişirtmədən rəğbətləndirmək lazımdır. Oryentasiya fəaliyyətində müəllimlərə də istedadlı şagirdlərlə bağlı məlumat vermək məqsədi ilə fəaliyyətlər həyata keçirilməlidir. Çünki siniflərdə istedadlı şagirdi tanımaq və anlamaq heç də asan bir iş deyil.

3. Şəxsi tanıma xidmətləri. Şəxsi tanıma xidmətləri insanın qabiliyyətləri, xüsusiyyətləri, güclü və zəif cəhətləri, gözlənti və idealları, ailə mühiti, təlim uğuru, maraq və meylləri və s. haqqında məlumat əldə etmək, bu məlumatların köməyi ilə insanın özünü tanımasını, dərk etməsini və özünü qəbul etməsini təmin etmək üçün aparılan çalışmalardır. İstedadlı şagirdlər tanındıqca məktəb mühitində daha çox qəbul edilir və problemlər yaşamadan digər şagirdlərlə birgə fəaliyyət göstərə, onlara uyğunlaşa bilirlər. Digər tərəfdən, şəxsi tanıma texnologiyalarından əldə edilən məlumatlar istedadlı şagirdlərin inkişaf edən və inkişaf etməyən cəhətlərinin fərqinə varmalarına, dolayısıyla özlərini daha yaxşı tanımalarına və qəbul etmələrinə imkan verir. Şəxsi tanıma xidmətləri ilə əldə edilən məlumatlar uşaqlar üçün hazırlanan Fərdi Təhsil Planlarının da təməlini meydana gətirir. Fərdi Təhsil Planları xüsusi ehtiyacı olan şəxslərin inkişaf xüsusiyyətləri, təhsil performansları və ehtiyacları yönündə hazırlanan planlardır. Fərdi Təhsil Planlarının həyata keçirilməsində məktəb müdiri və ya onun bu iş üçün təhkim etdiyi şəxslər, məktəb psixoloqu, müəllimlər, sinif rəhbərləri və ailə birgə fəaliyyət göstərir. Hazırlanan planların köməyi ilə istedadlı şagirdlərə dəstək olan bütün tərəflər birlikdə fəaliyyət göztərir, məsuliyyət daşıyır və vəzifələri paylaşırlar.

4. Məlumat toplama və yayma xidmətləri. Bu xidmət istedadlı şagirdlərin ehtiyaclarını təmin etmək üçün gərəkli olan məlumatlardan faydalana bilmələri üçün bu informasiyaların təqdim edilməsidir. İstedadlı şagirdlər üçün bu xidmət olduqca böyük önəm daşıyır. Məlumatı əldə etmək və yaymaq üçün onların özlərinin də həvəsli olduqları müşahidə edilir. Bu xidmət sahəsində istedadlı şagirdlərə vəzifələr verilərək onların özlərini daha çox ifadə etmələrinə, varsa liderlik xüsusiyyəltərini ortaya qoymalarına, layihələr hazırlamalarına və araşdırmalar aparmalarına şərait yaratmaq lazımdır. Məsələn, hazırlanacaq seminarlarda, braşura, stend və s. çalışmalarda istedadlı şagirdlərə öz qabiliyyət və istedadlarını ortaya qoymaq üçün imkanlar verilməlidir.

5. Yönləndirmə və yerləşdirmə xidməti. Maraq və qabiliyyətləri doğrultusunda müxtəlif məktəbdaxili proqramlar, digər üst təhsil səviyyələri, iş və peşələrə yönələn şagirdlərin bu səviyyələrə yerləşmələri üçün gərəkli olan yardım fəaliyyətlərini əhatə edir. Təəssüf ki, istedadlı şagirdlərin problemlərlə qarşılaşdıqları sahələrdən biri də qabiliyyət və istedadlarının nəzərə alınaraq yönləndirmə və yerləşdirmə fəaliyyətlərinin həyata keçirilməməsidir.

6. Müşahidə və dəyərləndirmə xidməti. Müşahidə və dəyərləndirmə xidmətləri ilə həyata keçirilən fəaliyyətlərin səmərəli olub-olmaması müəyyənləşdirilir, lazım gəldikdə yeni fəaliyyətlərin həyata keçirilməsi planlaşdırılır. Hər bir şagird üçün olduğu kimi istedadlı şagirdlər üçün də müşahidə qeydlərinin aparılması önəmlidir. Beləliklə hər dəfə məlumatlar yenidən alınmaz və bir üst sistemə ötürülə bilər. Məsələn, istedadlı şagirdlərin məktəbdəki fəaliyyətləri ilə bağlı məlumatlar bir sonrakı təhsil müəssisəsinin psixoloji rəhbərlik xidmətinə verilə bilər.

7. Konsilium xidməti. Məktəbdəki praktik psixoloqun müəllim və məktəb rəhbərliyinin ortaq bir psixoloji xidmət anlayışı qazanmaları, bu sahədə bilik və bacarıqlarını artırmaları üçün onlara yardım etməsidir. İstedadlı şagirdlərlə çalışarkən hər istedadlı şagirdin özünəməxsus istedad və qabiliyyətinin olduğunu diqqətə alaraq şagirdi anlamaq baxımından məktəb psixoloqlarının müəllimlərə bu mövzuda köməklik göstərməsi, fəalyyətləri dəyərləndirməsi və lazım gəldikdə fəaliyyətlərdə düzəlişlər etməsi çox vacibdir.

İstedadlı uşaqlar yaşıdlarına görə bəzi fərqli xüsusiyyətlərə malikdirlər. Məktəbdə çalışan praktik psixoloqlar bu cəhəti nəzərə almalı və psixoloji xidmət sahələrinə yönləndirmədə bu fərqliliklərə diqqət yetirməlidirlər. Qeyd edilən xüsusiyyətlər əsasən aşağıdakılardır:

İdrak xüsusiyyətləri. İstedadlı uşaqların zehni sahədə inkişaf tempi inkişafın digər sahələrindən öndə gedir. Onların mükəmməl yaddaşı var. Böyük həcmdə məlumatın eyni anda yadda saxlanması istedadlı uşaqların ümumi xüsusiyyətləri arasındadır. O, məlumatı qavramaq və sintez etməkdə uğur göstərir, yaşıdları ilə fikir ayrılıqlarını aydın şəkildə izah edir və qiymətləndirir. İstedadlı uşaqlar problemin həlli prosesini daha effektiv şəkildə yekunlaşdırmağa meyllidirlər. Onlar eyni vaxtda bir neçə beyin kanalını idarə edir və eyni vaxtda bir neçə işi yerinə yetirirlər. Məsələn, o, müəllimin nə dediyini eşitmək üçün ona baxmaq məcburiyyətində qalmadan, sadəcə müəllimi dinləməklə izah edilən vəziyyəti asanlıqla qavrayır. Bundan əlavə, istedadlı uşaqlar qeyri-adi analiz gücünə və ümumiləşdirmə qabiliyyətinə malikdirlər.

Dilin inkişaf xüsusiyyətləri. İstedadlı uşaqların inkişaf etmiş dil qabiliyyətləri körpəlikdən başlayaraq daha mürəkkəb və çoxşaxəli səslər çıxarmaq şəklində özünü göstərir. Bu uşaqlar adətən inkişaf edən həmyaşıdlarından üç-altı ay əvvəl danışmağa başlayırlar. İstedadlı uşaqlar danışmağı sevirlər, onların lüğət ehtiyatları həmyaşıdları ilə müqayisədə zəngindir. Nitqlərində yaşıdlarından daha çox söz işlədirlər. Danışma və oxuma bacarıqları erkən yaşda özünü göstərirlər. Dildən istifadə edərək yeni sözlər və yeni cümlə strukturları yaratmaqdan həzz alırlar.

Psixomotor xüsusiyyətlər. İstedadlı uşaqlar yaşıdlarına nisbətən daha tez yeriyirlər. Onların bəzi motor davranışlarda erkən inkişaf xüsusiyyətləri göstərdikləri müşahidə edilir. İstedadlı uşaqların çox az yuxuya ehtiyacı var. Bu səbəblə çox az yatırlar.

Sosial xüsusiyyətlər. İstedadlı uşaqlar tək başına daha çox vaxt keçirməyə, yaşıdlarının fikirlərinə daha az həssaslıq göstərməyə, ətraf mühitə daha az uyğunlaşmağa üstünlük verirlər. Bu uşaqlar çox vaxt böyük uşaqlarla mürəkkəb oyunlar oynamağa meyllidirlər. Daha çox fərdi olaraq məşğul ola biləcəkləri oyunlar və fəaliyyətlərlə maraqlanırlar. Özlərinə inamlı və müstəqildirlər. Məsuliyyəti öz üzərlərinə götürməyi sevirlər, lakin eyni zamanda məqsədlərinə çatmaqda qətiyyətlidirlər. Fikirlərini müdafiə edir və özlərinə tənqidi yanaşa bilirlər

Şəxsiyyət xüsusiyyətləri. İstedadlı uşaqlar müstəqillik xüsusiyyətlərini nümayiş etdirirlər. Bu uşaqların yüksək məqsədləri və idealları var. Onlar düşünmə bacarıqlarını stimullaşdıracaq şəkildə məlumat ötürməkdən böyük zövq alırlar. Onlarda daxili nəzarət inkişaf etmişdir. Bəzən həddindən artıq emosional ola bilirlər. Özlərinə inamları çox yüksəkdir və yumor hissi yüksək səviyyədə inkişaf etmişdir. İstedadlı uşaqlar normal yaşıdlarına nisbətən daha yetkin və əxlaqi düşüncəyə malikdirlər. Hətta bəzilərinin tipik bir yetişkin insan səviyyəsində əxlaqi mühakimə qabiliyyətinə malik olduqları qeyd etdilir. Onlar mənəvi dəyər məsələlərinə erkən maraq göstərirlər və həddindən artıq ədalət hissinə malikdirlər. Bu kontekstdə onların haqsızlıqla mübarizə aparmaq, əlilləri və qayğıya ehtiyacı olanları müdafiə etmək, təbiəti qorumaq kimi yüksək mənəvi həssaslıqlara sahib olduqları görülür. Haqsızlığa dözə bilmirlər. İdealist davranışları var və başqa insanlar üçün fədakarlıq etməyə meyillidirlər.

Sensor xüsusiyyətlər. İstedadlı uşaqlar çox vaxt səs-küyə və qoxuya qarşı həssas olurlar. Bundan əlavə, bu uşaqlar səs tonuna və nitqdəki vurğuya qarşı özəl bir həssaslığa malikdirlər. İstedadlı uşaqlar

həddən artıq həssaslıqları səbəbindən insanların psixi vəziyyətləri haqqında asanlıqla nəticə çıxara bilirlər. İstedadlı uşaqlar toplumda baş verən problemlərin fərqindədirlər. Yüksək şüur, müşahidə və həssaslıq səbəbindən onlarda müharibə, aclıq və zorakılıq kimi bəzi mənfi davranış və ya hadisələr qarşısında qorxu yarana bilər.

Emosional xüsusiyyətlər. İstedadlı uşaqlar bir çox hallarda narahatlıq, depressiya, özünə inamın azalması və cansıxıcılıq kimi mənfi emosional vəziyyətlər yaşayırlar. Onlara ailədə yaşanan problemlər daha dərin təsir edir. İstedadlı uşaqları bəzən valideynlər üsyankar, laqeyd və soyuqqanlı kimi qəbul edirlər. Bu uşaqlar çox vaxt fərqli, tək və unikal olduqlarına görə özlərini sosial çevrədən kənarda qalmış kimi hiss edirlər. İstedadlı uşaqların bir çoxu aldıqları yüksək qiymətlərə, mükafatlarına və xüsusi istedadlarına görə sevildiklərinə inanırlar. Bu səbəbdən uşaqlar uğur qazanamq üçün özlərini təzyiq altında hiss edə bilərlər. Səhv etmək və ya uğur qazana bilməmək onlar üçün ciddi problemlər yarada bilər. Onlar bu problemlərdə güzəştə getmirlər. Uğursuzluq nəticəsində hiss edilən utanc və günah bəzən intihara səbəb ola bilir.

Yaradıcılıq və liderlik. Üstün yaradıcılıq qabiliyyəti olan uşaqlar bir-biri ilə əlaqəsi olmayan ideyalar, obyektlər və anlayışlar arasında heç kimin görə bilmədiyi əlaqələr yarada bilirlər. Onlar özlərinə verilən suallara və ya qarşılaşdıqları problemlərə müxtəlif həll yolları və fərqli yanaşmalar ortaya qoyurlar. İstedadlı uşaqlar qrupu idarə etmək, fəaliyyətlərin planlaşdırılması və təşkili kimi vəzifələrdə diqqəti cəlb edirlər. Onlar hər an nə edilməli olduğunu dərhal hiss edir və vəziyyəti idarə etmək üçün hərəkətə keçirlər.

Mükəmməllilik. İstedadlı uşaqların çox vaxt iddialı valideynləri olur. Bu zaman ailələr övladlarının hər işdə mükəmməl olmasını istəyirlər. Bu uşaqların normal psixo-sosial inkişaflarına mane olur və onların “əsəbi, narahat, gərgin və inadkar” şəxsiyyətlərə çevrilməsinə və özünü daima natamam hiss etməsinə səbəb olur.

Heç şübhəsiz ki, istedadlı uşaq üzvü olduğu toplumun sərvətidir. İstedadlıların potensial imkanları istiqamətində inkişaf etdirilməsi, onların topluma qazandırılması və eyni zamanda o toplumun inkişafında əsas rol oynayan simalardan birinə çevrilməsi bu gün təhsil sisteminin əsas vəzifələrindən biridir. Təhsil sistemində bu işlə birbaşa olaraq məşğul olan mütəxəssis kadrların- praktik psixoloqların istedadlı uşaqlara psixoloji rəhbərlik baxımından geniş bilgiyə, bacarıq və təcrübəyə sahib olmaları çox gərəkli bir tələbdir. Bu baxımdan hər bir praktik psixoloqun istedadlı uşaqlara göstərilən psixoloji xidmətin sahələri və onların mahiyyətinə dərindən bələd olmaları və psixoloji xidmət sahəsindəki fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmaları vacibdir.

Ədəbiyyat

1. Bəylərov, E.B.(2008). İstedadın psixoloji diaqnostikası. “Aspoliqraf”, 300 s.
2. Əlizadə, Ə.(2005) İstedadlı uşaqlar: psixopedaqoji məsələlər. Bakı, 352 s.
3. Əliyev, R.İ. (2004). Məktəbdə psixoloji xidmətin aktual məsələləri. Bakı: Nurlan, 271 s.
4. Əmrahlı, L.Ş. (2008). Psixoloji xidmət. I kitab. Psixoloji xidmətin əsasları. Bakı, MBM, 283 s.
5. Facchın, F.S. (2018). Üstün zekalı çocuğa yardım. İstanbul.
6. Koçak, R., İçmenoğlu E. (2012). Üstün Yetenekli Öğrencilerin Duygusal Zekâ ve Yaratıcılık Düzeylerinin Yaşam Doyumlarını Yordayıcı Rolü. Türk Psikolojik Danışma ve Rehberlik Dergisi, 4 (37), 73-85
7. Özbay, Y. (2013). Üstün yetenekli çocuklar ve aileleri. Ankara.

İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİ

Aqil Həsənov
Ağsu rayonu Pirhəsənli kənd tam orta məktəbinin direktoru
aqil.hesenov.63@mail.ru

Summary

The article focuses on the development of intellectual education, the projects undertaken in our country, and the adoption of regulatory and legal documents on inclusive education. It should be noted that the development of inclusive education is a priority of education policy in many countries around the world. In some lands, children with special needs are normally enrolled in schools along with other children. Such intelligence eliminates discrimination among children, changes their mood in a positive direction and allows such children to feel like an equal organ of society. Based on the right of all children to quality education, a number of international conventions, as well as national legislative acts and regulatory and legal documents, ensure the application of inclusive education.

***Key words**: priority, infrastructure, equality, intelligence, adaptation, discrimination, incentive*

Резюме

Статья посвящена развитию интеллектуального образования, проектам, реализуемым в нашей стране, принятию нормативно-правовых документов по инклюзивному образованию. Следует отметить, что развитие инклюзивного образования является приоритетом образовательной политики во многих странах мира. В некоторых странах дети с особыми потребностями, как правило, учатся в школах наравне с другими детьми. Такой интеллект устраняет дискриминацию среди детей, меняет их настроение в положительную сторону и позволяет таким детям чувствовать себя равноправным органом общества. Исходя из права всех детей на качественное образование, ряд международных конвенций, а также национальные законодательные акты и нормативно-правовые документы обеспечивают применение инклюзивного образования.

***Ключевые слова:** приоритет, инфраструктура, равенство, интеллект, адаптация, дискриминация, стимул*

Məqalədə inklüziv təhsilin inkişaf istiqamətləri, ölkəmizdə bu sahədə həyata keçirilən layihələr, inklüziv təhsil haqqında normativ-hüquqi sənədlərin qəbul olunması sərh edilir. Qeyd etmək lazımdır ki, inklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin prioritet sahələrindəndir. Bəzi ölkələrdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar, bir qayda olaraq, məktəblərdə digər uşaqlarla birlikdə təhsil alır. Bu cür inteqrasiya uşaqlar arasında ayrı-seçkiliyi aradan qaldırır, onların əhvali-ruhiyyəsini müsbət istiqamətə dəyişdirir və belə uşaqların özlərini cəmiyyətin bərabərhüquqlu üzvi kimi hiss etmələrinə imkan verir. Bütün uşaqların keyfiyyətli təhsil almaq hüququnq əsaslanaraq, bir sıra beynəlxalq konvensiyalar, həmçinin milli qanunvericilik aktları və normativ-hüquqi sənədlər inklüziv təhsilin tətbiqini təmin edir.

Azərbaycanda müstəqilliyin bərpasından sonra bütün sahələrdə, o cümlədən təhsildə də yenidən-qurma işləri aparılır. 1999-cu ildən başlayaraq təhsil islahatları həyata keçirilir. Bu islahat tədbirlərində başlıca məqsəd təhsil sistemini nizamlayan müvafiq normativ-hüquqi bazanı yaratmaq, cəmiyyətin bütün üzvləri üçün təhsilin əlçatanlığını təmin etməkdən ibarətdir.

Təhsil sosial proseslərə təsir göstərən mühüm faktorlardandır, o, ilk növbədə şəxsiyyəti şərtləndirən keyfiyyətlərin-dəyərlərin formalaşmasına xidmət edir. Demokratik təhsil cəmiyyətin bütün üzvlərinin istər sağlam, istərsədə sağlamlıq imkanları məhdud insanların bərabər təhsil almaq hüquqlarını təmin edir. Bununla da, cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaranır. Belə bir imkan isə yalnız inklüziv təhsillə bağlıdır. Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev ölkədə təhsilin müstəsna əhəmiyyətə malik məsələlərdən biri olduğunu həmişə qeyd etmişdir. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi məktəbinin layiqli davamçısı kimi bütün bunları diqqət mərkəzində saxlayır.

Inklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Əlilliyi olan uşaqların əlilliyi olmayan həmyaşıdları ilə birlikdə təhsili hər kəs üçün səmərəli tədris formasıdır. Belə ki, bütün uşaqların eyni sinifdə həyata keçirilən tədris prosesində iştirakı təhsilverənləri şagirdlərə fərdi yanaşmağı sövq edir. Müxtəlif araşdırmaların nəticələri göstərir ki, əlilliyi olan uşaqlarla əlilliyi olmayan uşaqların birgə inklüziv sinifdə oxuması fərqliliyə münasibəti dəyişməyə, özünə hörmətin və

həmyaşıdların qəbulunun yaxşılaşdırılmasına səbəb olur ki, bu, sosial yöndən ədalətli və ayrı-seçkiliyə yol verməyən cəmiyyətin qurulmasına töhfə verir.

Birləşmiş Millətlər Təşkilatının “Əlillərin hüquqlqrı haqqında” Konvensiyası əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüsiv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu təşviq edir. BMT-nin “Uşaq hüquqlqrı konvensiyası”nın 28-ci maddəsi hər bir uşağın təhsil hüququnu tanıyır və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsini dəstəkləyir. Təhsil uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının inkişaf etdirilməsi, insan hüquqlqrı və əsas azadlıqlara, azad cəmiyyətdə sülh, dostluq, anlaşma, tolerantlıq və bərabərlik içərisində həyata, ətraf mühitə hörmət tərbiyə edilməsinə yönəldilməlidir. Bu əsasda. əlilliyi olan uşaqların əlilliyi olmayan uşaqlarla birlikdə təhsilə cəlb edilməsi xüsusilə nəzərə alınır.

Azərbaycan Respublikası “Təhsil haqqında” Qanununun 5-ci maddəsinə əsasən, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı əsas məqsəd kimi qəbul edir.

Yuxarıda sadaladığımız beynəlxalq və milli normativ-hüquqi sənədlərə əsaslanaraq, ölkədə keyfiyyətli inklüziv təhsili təmin etmək məqsədilə inklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsi genişləndirilir. Azərbaycanda əlilliyi olan uşaqların təhsil hüququnun təminatına dəstək verilir, inklüziv təhsilin keyfiyyəti artırılır və məktəblərdə kadr potensialı gücləndirilir.

Inklüziya latın dilində “daxiletmə” deməkdir. Məktəbdə təhsil alan bütün şagirdlərin tədris prosesinə cəlb edilməsi və onların təliminin təkmilləşdirilməsinə, bu məqsədlə məktəb təcrübəsinin hərtərəfli tətbiqinə və inkişafına yönəlmiş daimi prosesdir, xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlam həmyaşıdları ilə birlikdə eyni məktəb və siniflərdə eyni proqram ilə təhsil almaq hüququnu təmin edən təhsil modelidir. Bu üsul xüsusi qayğı və bərabərliyə yönəlmiş məkan və proqramların tətbiqini inkar edərək, bütün şagirdlər üçün bərabər tədris şəraiti yaradır.

Bir qədər geniş mənada düşünəndə inklüziya yanaşması təkcə fiziki qüsurlarla deyil, irqi ayrı-seçkilik, gender və sosial təbəqələşməyə qarşı yanaşma və strategiyaların tətbiqini də nəzərdə tutur.

Inklüziv təhsil modelinə həm də valideyn himayəsindən məhrum, kimsəsiz, çətin tərbiyə olunan, içki və narkomaniya kimi zərərli vərdişlərə meylli olan, təhsildən kənarda qalan, hüquqları pozulan, zorakılığa məruz qalan uşaqların cəlb olunması da daxildir. Bu təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların nəinki sağlam həmyaşıdları ilə birlikdə təhsil almasına, həm də onların ümumi inkişafına, öz fiziki imkanlarına, inamına, psixoloji maneələrin öhdəsindən gəlmələrinə yardım göstərir.

Qeyd etmək lazımdır ki, inklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin prioritet sahələrindəndir. Bəzi ölkələrdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar, bir qayda olaraq, məktəblərdə digər uşaqlarla birlikdə təhsil alır. Bu cür inteqrasiya uşaqlar arasında ayrı-seçkiliyi aradan qaldırır, onların əhvali-ruhiyyəsini müsbət istiqamətə dəyişdirir və belə uşaqların özlərini cəmiyyətin bərabərhüquqlu üzvi kimi hiss etmələrinə imkan verir. Bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanaraq, bir sıra beynəlxalq konvensiyalar, həmçinin milli qanunvericilik aktları və normativ-hüquqi sənədlər inklüziv təhsilin tətbiqini təmin edir.

Dünyanın bir çox ölkələrinin təhsil siyasətinin əsas prioritetlərindən biri olan inklüziv təhsil beynəlxalq prinsip və standartlara uyğunlaşdırılmışdır. Inklüziv təhsilin prinsipləri aşağıdakılardır:

- insanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;
- hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
- hər bir insan ünsiyyət hüququna malikdir;
- bütün insanlar bir-birinə lazımdır;
- əsl təhsil yalnız real qarşılıqlı münasibətlər zəminində həyata keçirilə bilər;
- bütün insanlar öz həmyaşıdlarının köməyinə və dostluğuna ehtiyac duyurlar;

- bütün təhsilalanların nailiyyətləri onların nəyi etməyi bacarmaları ilə ölçülür;
- rəngarənglik insanın bütün cəhətlərini inkişaf etdirir.

Bütün ölkələrdə inklüziv təhsil sahəsində aparılan islahatlar təhsilin beynəlxalq prinsip və standartlara uyğunlaşdırılmaqla reallaşdırılır. BMT-nin İnsan Hüquqları Konvensiyasına görə, bütün uşaqlar üçün bərabər təhsil almaq imkanlarının yaradılması və əlil uşaqların cəmiyyətə inteqrasiyası vəzifəsi dövlətin üzərinə düşür. İnklüziv təhsilin əsas prinsipi odur ki, cəmiyyətdə birgə yaşayan uşaqlar birgə də təhsil alsınlar.

Son illərdə Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində sağlamlıq imkanları məhdud uşaqların bütün təhsil pillələri üzrə təhsil ala bilməsi üçün infrastruktur dəyişmişdir. Bu infrastruktur əlil uşaqların təhsil müəssisələrinin binalarına rahat şəkildə daxil olmasına imkan verməlidir. Dövlət proqramında xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təhsilə cəlbinin əsas mərhələləri də müəyyənləşdirilmişdir. Nəzərdə tutulmuşdur ki, inklüziv təhsilin əsasında münasibətlərin, təcrübələrin və siyasətin təkmilləşdirilməsi prinsipləri durur, onun daim təkmilləşdirilməsi vacibdir.

İnklüziv təhsil təşəbbüsü geniş kütləni əhatə edən proqramdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüquqlarını yalnız dəstəkləmək azdır, həmçinin, bu uşaqların ictimaiyyətə uğurlu inteqrasiyasını, infrastruktur və digər resurslar kimi ehtiyaclarını ödəmək də zəruridir.

İnklüziv təhsilə ilk növbədə xüsusi qayğıya ehtiyacı olanlar cəlb edilir. Onlarla məşğul olan müəllimlər və müəllim köməkçiləri təlimlərdən keçirilir, fəal valideynlərin qüvvəsindən istifadə edilir. Əhali arasında məlumatlandırma, maarifləndirmə işləri aparılır. Sonra bu məlumatlar və resurslar hazırlanır və ümumiləşdirilir. Sonra isə inklüziv təhsil modelinin islahatına inteqrasiya dövrü başlanır.

Ümumiyyətlə, ölkəmizdə inklüziv təhsilə dair aparılan araşdırmalar göstərir ki, ilk növbədə inklüziv təhsilə qoşulan məktəblərdə işləmək üçün mütəxəssis kadrlar hazırlanmalıdır. Loqoped, difektoloq və psixoloq kimi mütəxəssislər olmasa bu işin öhdəsindən gəlmək olmaz. Bu gün rəhbəri olduğum təhsil müəssisəsində 450 şagird təhsil alır. Buna baxmayaraq məktəbdə psixoloq yoxdur. Vəzifə vacantdadır, ixtisaslı mütəxəssisə ehtiyac vardır. XXI əsr məktəbini psixoloqsuz təsəvvür etmək olarmı?

Bu məqsədlə, ali təhsil, orta ixtisas, ilk peşə-ixtisas təhsili müəssisələrinin proqramlarına inklüziv təhsilə dair bölmələr daxil edilməli, hazırlanan mütəxəssislər inklüziv təhsilə dair məlumatlandırılmalı, ən azı onların ilkin anlayışları olmalıdır. Sonra inklüziv təhsilə aid metodik və əyani vəsaitlər hazırlanmalı və pedoqoji kollektivlərə çatdırılmalıdır. Psixoloq hazırlığı ilə məşğul olan müəssisələrdə bu iş xeyli gücləndirilməlidir. Hazırda məktəblərimizdə inklüziv təhsilə cavabdehlik daşıyan müəllim köməkçiləri yenidən hazırlanmalı, ixtisasartırma fakültələrində bunlarla müntəzəm iş aparılmalıdır. Valideynlərlə işin təşkilinin səmərəliliyinə nail olmaq məqsədilə mətbuat və informasiya vasitələrində maarifləndirmə və təbliğat işlərinə də ardıcıl fikir verilməlidir.

Təhsil müəssisələrində bu sahədəki vəziyyət öyrənilib, qabaqcıl iş təcrübəsi kimi ümumiləşdirilib yayılmalıdır. Sonra xüsusi qayğıya ehtiyacı olan uşaqlarla məşğul olan müəllimlər və müəllim köməkçiləri üçün treninq və seminarlar keçirilməli, oraya alimlərlə bərabər praktik müəllim və tərbiyəçilər də cəlb edilməlidir. Aydındır ki, belə uşaqlar kəndlərdə də vardır, həm də onlar xüsusi qayğıya daha çox ehtiyac duyurlar. Ona görə də regionlarda inklüziv mərkəzlərin yaradılması və ildən ilə onların sayının artırılması məqsədəuyğun olardı. Belə mərkəzlərdə bütün fənlər üzrə müəllimlərin özlərinin də treninqlərə cəlb edilməsi nəzərdə tutulmalıdır. Hər bir məktəbdə iş elə qurulmalıdır ki, inklüziv uşaqların həyatı davamlı olaraq izlənilsin, onlar məktəb psixoloqu, köməkçilər, tərbiyəçilər tərəfindən nəzarətdə saxlansınlar. Valideynlər üçün maarifləndirmə kurslarını isə, məktəblərdə də təşkil etmək olar və valideynlər vaxtaşırı buraya cəlb olunar.

İnklüziv təhsil xüsusi təhsil ehtiyacları və digər səbəbdən yaranan maneələrə baxmayaraq, bütün uşaqların onlara yaxın ərazidə yerləşən məktəblərdə keyfiyyətli təhsilə cəlb edilmələri və təlimdə nailiyyət əldə etmələri üçün lazımi dəstəyin göstərilməsi və şəraitin yaradılmasını nəzərdə tutur. Bu cür təhsil, eyni zamanda sosial birliyi stimullaşdırır. Əlilliyi olan uşaqları yaşıdlarından və cəmiyyətdən təcrid olunmaqdan xilas edərək, onların inkişafına, ictimai həyata inteqrasiyasına və hüquqlarının təmin olunmasına kömək edir. Əlilliyi olmayan uşaqlarda isə öz həmyaşıdlarına və yaxud siniflərində olan sağlamlıq imkanları məhdud olan şəxslərə qarşı düzgün münasibətin formalaşmasına səbəb olur.

İnklüziv təhsil iqtisadi cəhətdən də səmərəlidir, çünki cəmiyyətdə uğurlu adaptasiya prosesi keçən əlilliyi olan şəxslərin əmək məşğulluğunun artması perspektivi daha böyükdür. Belə olan halda müavinətlərdən asılılıq azalır, onların sosial vəziyyəti yaxşılaşır, bununla da iqtisadi inkişafa öz töhfələrini vermiş olurlar.

İnklüziv təhsildə bir sıra problemlərin yaranması da təbiidir və daha dəqiq desək, qaçılmazdır. Bu mürəkkəb psixoloji-pedaqoji yanaşmada uğur qazanmaq o qədər də asan məsələ deyildir. Bu da onunla bağlıdır ki, inteqrasiya olunmuş inklüziv təhsildə eyni qavrama qabiliyyətinə malik olmayan şagirdlərlə xüsusi qayğıya ehtiyacı olan uşaqlar arasında ünsiyyətin də düzgün qurulmasına ardıcıl fikir verilməlidir. Bu, heç vaxt müəllimləri, xüsusən gənc müəllimləri qorxutmamalıdır. Belə şagirdlərin hər birinə fərdi yanaşılmalı, onların hər birinin bir-biri ilə dost olmasına səy göstərilməlidir. Bir sözlə, şagird-müəllim-valideyn münasibətləri çox həssas, etikalı səviyyədə qurulmalıdır. Müəllimin yaradıcı işinə bir qədər problemi olan şagirdlər də cəlb edilməlidir. Bir sözlə, heç kəsə fərq qoyulmamalıdır. Əks təqdirdə, onda sağlamlığı məhdud olan uşaqlar ruhdan düşərlər, bacarıqlı, istedadlı yoldaşlarından uzaqlaşarlar. Belə uşaqların düşünmə qabiliyyətinin möhkəmlənməsinə hər cür yardım göstərilməlidir. Yalnız belə olduqda müəllim öz zəhmətinin bəhrəsini görə bilər.

İnklüziv təhsil proqramı xüsusi qayğıya ehtiyacı olan uşaqların öz potensiallarına nail olma imkanını dəstəkləyir. Bu təhsil sistemi xüsusi qayğıya ehtiyacı olan uşaqlarda özünə inam artırır və normal uşaqlarla bərabərhüquqlu edir. Belə olan halda uşaqların yaşamaq istəyi və həvəsi daha da artır, gələcəyə ümidi yaranır. Təcrübə və tədqiqatlar göstərir ki, inklüziv təhsilin tətbiq olunmasında bir sıra prinsiplər var ki, onlar daima nəzarətdə saxlanmalıdır (bu prinsplər yuxarıda qeyd olunmuşdur).

Məqalədə qeyd olunan fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, inklüziv təhsil sosial birliyi stimullaşdırır, əlilliyi olan uşaqların yaşıdlarından təcrid olunmalarının qarşısını alır, onların intellektual inkişafına, cəmiyyətə inteqrasiyasına və hüquqlarının təmin olunmasına kömək edir. Bu uşaqların öz yaşıdları ilə məqsədəuyğun şəkildə təmasda olmaları hesabına onların koqnitivliyi, emosional zəkası artır, nitqi inkişaf edir. İnklüziv təhsil zamanı yeni bacarıq və vərdişlərin mənimsənilməsi və onlardan istifadə olunması funksional olaraq həyata keçirilir, uşaqların güclü cəhətlərinə, qabiliyyətlərinə və maraqlarına fokuslanaraq aparılır. Onlar üçün əlilliyi olmayan yaşıdları ilə dostluq münasibətləri yaratmaq və ictimai həyatda iştirak etmək imkanları yaradır.

Ədəbiyyat

1. “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14.12.2017- ci il tarixli, 3498 nömrəli sərəncamı.
2. Axundova, Ü. Uşaq inkişafı metodikası. Bakı, 2011.
3. Əliyev, M. İnklüziv təhsil. Bakı, 2018.
4. Qasımov, S. İnklüziv təhsil. Bakı, 2006.
5. Mikayılova, Ü., Şərəfxanova, Ş. İnklüziv təhsil. Metodik vəsait. Bakı, 2011.

İNKLÜZİV TƏHSİLDƏ TƏTBİQİ DAVRANIŞ ANALİZİ

Milana Həsənova
“Birgə və Sağlam” İctimai Birliyi
milana.adiyeva@gmail.com

Summary

Applied Behavior Analysis (ABA Therapy) stands as a cornerstone in enhancing the quality of inclusive education. As a scientifically grounded methodology, ABA elucidates human behavior and learning processes, presenting a repertoire of techniques. Rooted in systematic assessment, personalized learning strategies, precise motivation establishment, meticulous data collection, and analysis throughout the training regimen, ABA Therapy embodies a holistic approach.

Key words: *inclusive education, Applied Behavior Analysis (ABA Therapy), education, knowledge, skills*

İnsan haqları və pedaqoji innovasiyaların vəhdətindən yaranan, yeni təhsil paradiqmalarının aparıcı meyarlarından olan inklüzivlik təhsildə yeni çağırış kimi qarşımızda durur. İnklüzivlik həm də dəyərlərə əsaslanan təhsilin ana xətlərindən birini təşkil edir. Ali insani dəyərlər ayrı-seçkiliyin bütün formalarından imtina edir və hamı üçün bərbər imkanların təmin edilməsinə səsləyir. Bu dəyərlərin gələcək nəsillərə aşılanması üçün əməli baxımdan ən səmərəli yanaşmalardan biri inklüziv təhsildir. Çünki inklüziv təhsil fərqliliyə hörməti yalnız şifahi diktə ilə tələqin etmir, həm də fərqli insanları bir araya toplamaqla fərqliliyə hörmət və dözümlülüyü bir səriştə kimi formalaşdırır. Fərqliliyə dözümlü olmaq isə yalnız təhsilin keyfiyyəti baxımından deyil, yaşadığımız icmada əmin-amanlıq və həmrəylik kimi mühüm ictimai dəyərləri yaşatmaq baxımından da əhəmiyyət kəsb edir. Bu mənada inklüziv təhsilə yalnız təlim-tədris çərçivəsində deyil, daha geniş çərçivədə qiymət vermək daha düzdün baxış olardı.

İnklüziv təhsilin vəd etdiyi dəyərli əməli surətdə görmək üçün, şübhəsiz ki, inklüziv təhsili keyfiyyətli əsaslarla qurmaq vacib şərtlərdəndir. Bu şərtlərin təmin edilməsi üçün təlim-tədrisin səmərəliliyini artıran pedaqoji metod və yanaşmalardan istifadə etmək bir zərurətə çevrilir. Bu metodlardan olan Tətbiqi Davranış Analizi (ABA Terapiya) inklüziv təhsildə faydalı olan çoxsaylı alətlər təklif edir. Bu alətlərdən inklüziv təlimə cəlb edilmiş sağlam imkanları məhdud şagirdlərin təlimi ilə yanaşı, bu və ya digər formada xüsusi ehtiyacları olan şagirdlərin ehtiyaclarını qarşılamaq üçün də istifadə oluna bilər. Bu mənada Tətbiqi Davranış Analizi inklüzivlik üçün geniş imkanlar təmin edir (Cooper, 2017, s. 158).

Bəs ABA-nı inklüziv təhsildə necə istifadə etməli? Bunu anlamaq üçün ilk olaraq ABA-nın mahiyyəti ilə tanış olaq. ABA insan davranışı və insanın necə öyrəndiyini izah edən və buna uyğun metodlar toplusu təklif edən elmi yanaşmadır. ABA davranış və ətraf mühit arasında müşahidə olunan əlaqələri nəzərə alan davranış əsaslı prinsipləri rəhbər tutaraq öyrənmə və öyrətmə metodlarında istifadə edir. Başqa sözlə, ABA davranışda müsbət dəyişikliklər yaratmağa proqramlanmış və sistematik tətbiq olunan metod və alətlər bütünüdür. ABA-dan əsasən autizm spektr pozuntusu olan şəxslərin sosial bacarıqlar qazanması və təhsili üçün istifadə edilsə də, onun alətlərindən daha geniş spektrdə istifadə etmək mümkündür. Qeyd edək ki, ABA Frederik Skinnerin fundamental elmi əsasları olan davranış analizi nəzəriyyəsinə əsaslanır və bu da ABA-nın olduqca etibarlı yanaşma olduğuna dəlalət edir.

ABA aşağıdakı yanaşmaları baxımında inklüziv təhsil üçün faydalı hesab edilir.

Davranışın qiymətləndirilməsi və təhlili: ABA-nın əsas məqsədi islah edilməsi vacib olan davranışları müəyyən etmək və bu davranışlara təsir edən ətraf mühit faktorlarını başa düşmək üçün müfəssəl qiymətləndirmə aparmaqdır. Məktəbdə şagirdlər arasında geniş çeşidli davranış formaları müşahidə oluna bilər. Bu davranışların əsas funksiyalarını təyin etməyə və məqsədyönlü müdaxilə planlarını hazırlama üçün funksional davranış qiymətləndirmələrinin aparıla bilər. Bunun üçün davranışı sistematik müşahidə etmək və məlumat toplamaq, məlumatları təhlil etmək və nəticə etibarilə əsaslı qənaət əldə edilir. Qiymətləndirməyə bu cür sistemli və geniş perspektivdən yanaşmaq sonrakı mərhələdə təlim-tədrisin daha düzgün qurulmasına zəmin yardır.

Motivasiyanın qurulması: ABA problemli davranışları azaltmaq və yeni bacarıqları öyrətmək məqsədilə təlim metodları tətbiq edir. Bu metodlar ehtiyaclara görə fərdiləşdirilmiş olur. ABA çərçivəsində motivasiyanın qurulması tədrisin açar məqamlarındandır. Belə ki yeni bilik və bacarıqların öyrədilməsi və onların davamlılığını təmin etmək üçün şəxsi motivasiyaedici faktorlar aşkarlanır və onlardan səmərəli istifadə edilir. Motivasiyaedicilər tədris proqramına maraq aşılmaq və materialı çevik mənimsəmək üçün əsas vasitə kimi istifadə edilir.

Məlumatların toplanması və təhlili: ABA-nın effektivliyi tədris prosesinin keyfiyyəti haqqında etibarlı və təfərrüatlı məlumatların toplanması və onların təhlilindən asılıdır. Tədris müddətində müəllim sistemli tərtib edilmiş alətlər vasitəsilə tədrisin keyfiyyətinə təsir göstərən amillər, aradan qaldırılması nəzərdən tutulan problemli davranışlar, ətraf mühit faktorları və s. haqqında dolğun məlumat toplayır, daha sonra bu məlumatlar sistemli və əlaqəli şəkildə təhlil edilərək inkişafın hazırkı tempi və perspektivi barədə müəyyən qənaətə gəlir. Məlumat toplama və təhlil mərhələsi ABA-nın mühüm komponentlərindən biridir. Çünki bu komponent tədrisə qoyulmuş sərmayənin mümkün qədər yüksək nəticə verməsinə xeyli dəsərcədə təminat verir.

Bilik və bacarığın ümumiləşdirilməsi: ABA əldə edilmiş bilik və bacarığın davamlılığını təmin etmək üçün qənaətin ümumiləşdirilməsini şərt kimi qoyur. Yəni şagird sinifdə qazandığı bilik və

bacarığı məktəbdə kənarda da tətbiq etməyi bacarmalıdır. Əgər tətbiq bacarığı yalnız siniflə məhdudlaşırsa, demək əldə edilmiş bacarıqlar lazımi səviyyədə mənimsənilməyib. Bu məqsədlə bilik və bacarıqların situasiyadan müstəqil şəkildə təzahür etməsi məqsədilə metodik işlər aparılır və bu məqsədə çatana qədər tədris prosesi davam edir.

Tədris metodları: ABA fərdiləşdirilmiş tədris metodu, situasiya əsaslı tədris metodu, fəaliyyət əsaslı tədris metodu, tapşırıq əsaslı tədris metodu, səhvsiz tədris metodu, replikalı tədris metodu və s. çoxsaylı tədris metodlarından istifadə etməklə bilik və bacarıqların öyrədilməsi üçün şagirdlərə geniş imkanları yaradır (Alberto, 2013, s.40). Hansı tədris metodunun tətbiq ediləcəyi şagirdin motivasiyası və öyrənmə tərzindən asılı olaraq müəllim tərəfindən seçilir.

Əməkdaşlıq: ABA tədris aparan mütəxəssislər arasında sıx və sistemli əməkdaşlığın olmasını tələb edir. Xüsusən inklüziv təhsildə bu əməkdaşlıq xüsusi təhsil ehtiyacları olan şagirdin sinfə adaptasiyası, sosiallaşması və məhz sinif mühitində yeni biliklər qazana bilməsi üçün müəllim və tədrisə yardımçı heyət arasında intensiv əməkdaşlıq zəruridir.

Qeyd edilənləri ümumiləşdirərək bunu deyə bilərik ki, ABA inklüziv təhsilin effektiv olması və dayanıqlı əsaslar üzərində qurulması üçün ümumi nəzəri çərçivə və praktik alətlər təmin etmə baxımında olduqca səmərəli metodlar toplusudur.

Ədəbiyyat

1. Alberto, P. A., ve Troutman, A. C. (2013). Applied behavior analysis for teachers (9. Baskı), Upple Saddle River, New Jersey: Pearson Education, 36-45.
2. Cooper, J. O., Heron, T. E., ve Heward, W. L. (2018). Applied behavior analysis (3. Baskı). Columbus, OH: Merrill, 152-160.
3. Micheal M.Mueller (2010), Ajamu Nkosi, ABA Poqramlarının Böyük Kitbı, 450-460.
4. Tekin-İftar, E. (2018). Uygulamalı davranış analizi (4. Baskı). Ankara: Vize yayıncılık, 68-80.

İNKLÜZİV TƏHSİLDƏ YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ ƏHƏMİYYƏTİ

Sevda Xaspoladova
ADU-nun Pedaqogika kafedrasının baş müəllimi
sevdaxaspoladova61@mail.ru

Summary

Information and communication technologies are a tool for the social integration of people with disabilities, because they facilitate free access to knowledge and information, open up new methodological opportunities for teachers in their lesson preparation, increase the efficiency and quality of teaching, create an opportunity for the formation of a culture of intellectual work, increase students' attention, creative activity, develops discipline. The implementation of inclusive education undoubtedly contributes to the formation of tolerant behavior in students and the formation of a humane personality capable of showing empathy. In such an educational system, the use of modern ICT tools acts as one of the means of special educational technologies, which is a set of organizational structures and activities, system tools and methods that effectively ensure the implementation and mastering of educational programs.

Key words: *inclusive education, education of persons with disabilities, information and communication technologies, standard and assistive technologies, supportive environment*

Резюме

Информационные и коммуникационные технологии являются инструментом социальной интеграции людей с ограниченными возможностями, поскольку они способствуют свободному доступу к знаниям и информации, открывают перед учителями новые методические возможности при подготовке уроков, повышают эффективность и качество преподавания, создают возможность формирование культуры интеллектуального труда, повышение внимания учащихся, творческой активности, развивает дисциплину. Реализация инклюзивного образования, несомненно, способствует формированию толерантного поведения у учащихся и формированию гуманной личности, способной проявлять эмпатию. В такой образовательной системе использование современных средств ИКТ выступает одним из средств специальных образовательных технологий, которые представляют собой совокупность организационных структур и мероприятий, системных средств и методов, эффективно обеспечивающих реализацию и освоение образовательных программ.

Ключевые слова: *инклюзивное образование, образование для людей с ограниченными возможностями, информационно-коммуникационные технологии, стандартные и ассистивные технологии, поддерживающая среда*

"Bir çox insan üçün texnologiya həyatı asanlaşdırır. Lakin sağlamlıq imkanları məhdud şəxslər üçün texnologiya hər şeyi mümkün edir."

M.P.Radaboug

Cəmiyyətin inklüziv əsaslarla inkişafı ilə sosial, elmi, mədəni, humanitar və xidmət proseslərinin hər bir iştirakçısı üçün bərabər şərait yaradılır. Bu inkişaf konsepsiyası innovativ təlimmodellərinin istifadəsini genişləndirir, sosial sahədə bərabərliyə, ədalətə, intellektual inkişafa, ətraf mühitin mühafizəsinə, təhlükəsizliyinə ciddi önəmverir. İnklüziv təhsil bir çox kompleks xarakterli məsələləri əhatə edir. Buraya sağlamlıq imkanları məhdud şəxslərin təhsil ala bilmək, cəmiyyətə inteqrasiya, idarəetmə proseslərində fəal iştirak, özünü müdafiə və s. kimi hallar aiddir.

İnklüziv təhsil öyrənənlərə qarşı hər hansı ayrı-seçkiliyi istisna edən, bütün şəxslərin müxtəlif ehtiyaclarına uyğunlaşma baxımından xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən və təhsilin hamı üçün əlçatanlığını nəzərdə tutanideologiyaya əsaslanır.İnklüziv təhsilin reallaşmasında informasiya texnologiyalarının mühüm rol oynayır. İKT sağlamlıq imkanları məhdud şəxslərin həmyaşıdları və müəllimləri arasında əlaqə yaratmağa imkan verir və müxtəlif yaş qrupları arasında öyrənmə üçün əlverişli şərait yaradır. İKT-dən istifadə əlilliyi olan şəxslərdə şəxsi, ünsiyyət, iradi və əxlaqi keyfiyyətləri inkişaf etdirməyə, həmçinin şagirdlərə informasiya və kommunikasiya bacarıqlarını aşılayarkən onları daha da həvəsləndirmək üçün məlumatların vizuallaşdırılması imkanlarını genişləndirməyə imkan verir.

Sağlamlıq imkanları məhdud şəxslər üçün hazırlanmış müxtəlif texniki vasitə və proqram təminatlarından istifadə xüsusi əhəmiyyət kəsb edir. Xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilində informasiya texnologiyalarından istifadə təhsil prosesində yaranan ən mühüm çətinlikləri müəyyən etməyə kömək edir. Bu, öz növbəsində, bütövlükdə təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə verməklə yanaşı, həm də təlim prosesinin daha səmərəli olması üçün bir sıra tədbirlərin (informasiyanın axtarışı, toplanması, saxlanması, emalı, təmin edilməsi və paylanması prosesi) həyata keçirilməsini müəyyən edir. Məsələyə daha yaxından aydınlıq gətirmək üçün inklüziv təhsildə İKT-nin tətbiqi əhəmiyyətini aşağıda cədvəldə təsvir etməyə çalışmışıq:

Cədvəl 1. İnklüziv təhsildə İKT-nin tətbiqi əhəmiyyəti

№	İnklüziv təhsildə İKT-nin tətbiqi əhəmiyyəti	
The article analyzes organizational problems in the process of inclusive education in Azerbaijan. A brief description of the opportunities created for students with disabilities in educational institutions of foreign countries was given. It was emphasized that inclusive culture is the main factor of sustainable inclusive development. Inclusion is a long-term policy that is generally seen as an international approach to organizing the activities of the education system in all areas. The professional qualities of teachers play a key role in the organization of the inclusive education process. A modern teacher must have inclusive competencies.

***Key words**: inclusive education, inclusive competencies, staff training, inclusive educational process, inclusive higher education*

Резюме

В статье анализируются организационные проблемы в процессе инклюзивного образования в Азербайджане. Дано краткое описание возможностей, созданных для студентов с ограниченными возможностями в образовательных учреждениях зарубежных стран. Было подчеркнуто, что инклюзивная культура является основным фактором устойчивого инклюзивного развития. Инклюзия – это долгосрочная политика, которую обычно рассматривают как международный подход к организации деятельности системы образования во всех сферах. Профессиональные качества педагогов играют ключевую роль в организации процесса инклюзивного образования. Современный учитель должен обладать инклюзивными компетенциями.

***Ключевые слова:** инклюзивное образование, инклюзивные компетенции, подготовка кадров, инклюзивный образовательный процесс, инклюзивное высшее образование*.

Müasir qlobal təhsil prosesi, bir tərəfdən, təhsil sistemlərinin dəyişkənliyi, onların strukturu, konkret problemlərin həlli yollarının müəyyən edilməsi ilə seçilir. Digər tərəfdən, bir sıra ümumi tendensiyalar göstərir ki, onlardan biri də inklüziv təhsilin həyata keçirilməsidir. İnklüziv təhsilin əsas məqsədi təhsil prosesində hər hansı ayrı seçkiliyin aradan qaldırılması, hər kəsin təhsilə əlçatanlığının təmin edilməsi olduğundan, bu məqsədə nail olmaq müxtəlif yollarla təşkil oluna bilər ki, bu da müxtəlif ölkələrin təhsil sistemlərində müşahidə olunur.

Dünya ölkələrində inklüziv təhsilin həyata keçirilməsinin əsas modellərini nəzərdən keçirək.

Finlandiyada inklüziv təhsil üzrə illər öncə müvafiq qanunlar qəbul olunub. Qanun əlilliyi olan şəxslər üçün təhsilin əlçatanlığını əks etdirir, əlilliyin xarakterindən asılı olaraq differensiallaşdırılmış təhsil mühitinin yaradılmasını nəzərdə tutur. Dövlət məktəblərində əlilliyi olan şəxslərin inteqrasiyalı təhsilini təmin etmək üçün milli kurrikulumda xüsusi dəyişikliklər edilib. Bu ölkədə inklüziv təhsilin həyata keçirilməsi üçün geniş miqyasda təlimlər təşkil olunur. Məsələn, Lapland Universitetində "Müəllimlərin hazırlığı" (60 kredit) xüsusi kurs tətbiq edilir. Bu proqram inklüziv təhsil üzrə müəllim olmaq istəyən hər bir mütəxəssisin hazırlanması üçün nəzərdə tutulub. [Markku Jahnukainen. Inclusion in Finland: Myths and realities. Finland`s Famous Education Systems.2023. https://link.springer.com/chapter/10.1007/978-981-19-8241-5_25]

İsveçdə əlilliyi olan uşaqların dövlət məktəbində təhsil almaq hüququ qanunlarla təsbit olunur. Eyni zamanda, dövlət belə məktəblərə sosial və maddi dəstək göstərir. Universitetlərdə bütün müəllim hazırlığı proqramlarında inklüziv təhsil üzrə məcburi kurs (15 kredit) vardır. İnklüziv düşüncənin əsasları bütün fənlərdə, bütün müəllimlər tərəfindən formalaşdırılır. [Mattson E.H., Hansen A.M. Inclusive and exclusive education in Sweden: principals' opinions and experiences // European Journal of Special Needs Education. 2009. Vol. 24, Iss. 4.]

Norveçdə xüsusi təhsilə ehtiyacı olan şəxslər üçün təhsilin əlçatanlığı haqqında qanunlar var. Norveç təhsil müəssisələrində funksional xüsusiyyətlərindən asılı olmayaraq bütün təhsilalanların məktəbə daxil edilməsi ümumi prinsipdir. Hazırda ölkədə əlilliyi olan uşaqlar üçün xüsusi məktəblər yoxdur. [https://studme.org/412533/pedagogika/inklyuzivnoe_obrazovanie_norvegii]

Danimarkada inklüziv təhsil təkcə qanunla təsbit edilməyib, həm də inklüziv təhsilin tətbiqi prosesinə rəhbərlik edən milli resurs mərkəzindən ibarət inklüziv təhsilin həyata keçirilməsi üzrə milli strategiya yaradılıb. Ölkənin müxtəlif universitetlərində inklüziv təhsil sahəsində araşdırmalar aparan və inklüziv təhsilin həyata keçirilməsində bələdiyyələrin işinə nəzarət edən nümayəndələrdən ibarət

operativ qrup fəaliyyət göstərir. [Froestad J. & Ravneberg B. Education Policy, the Norwegian unitary school and the social construction of disability//Scandinavian Journal of History. 2006. № 2.]

Fransada vətəndaşlar üçün bərabər hüquq və imkanları təmin edən, o cümlədən təhsil sahəsində bir sıra qanunlar qəbul edilib. Dövlət sağlamlıq imkanları məhdud uşaqların təhsil mühitinə uğurla uyğunlaşması üçün şəraitin yaradılmasını, o cümlədən zəruri texniki avadanlıqların alınmasının maliyyələşdirilməsini və mütəxəssislərin (fərdi və kollektiv inteqrasiya üçün məktəbə dəstək üzrə müəllim köməkçiləri) əməyinin ödənilməsini təmin edir. [Y.Martan Inclusive education in France through the eyes of a regular teacher.]

Amerika əlilliyi olan tələbələr üçün dünyanın ən yaxşı yaşayış və təhsil şəraitinə malik ölkələrdən sayılır. Hələ 1973-cü ildə ölkədə Peşə Reabilitasiyası Aktı qəbul edilmişdi, ona görə ABŞ-da iş yerlərində və təhsil müəssisələrində sağlamlıq vəziyyətindən asılı olmayaraq, bütün insanlar üçün bərabər şərait yaradılması məcburidir.[Gilmour A.F. Has inclusion gone too far? Weighing its effects on students with disabilities, their peers, and teachers // Education next. 2018. Vol. 18, No. 4. https://www.educationnext.org/has-inclusion-gone-too-far-weighing-effectsstudents-with-disabilities-peers-teachers/]

Həm də ABŞ universitetlərində sağlamlıq problemlərindən və diaqnozundan asılı olmayaraq hər bir tələbə özünü tələbə cəmiyyətinin tam hüquqlu üzvü kimi hiss edir.

ABŞ-nın Miçiqan Universiteti öz divarları arasında əlilliyi olan tələbələr üçün rəsmi ofis yaradan ilk universitetlərdən biri oldu. Universitetdə müxtəlif diaqnozlu tələbələrin yaşaması və təhsil alması üçün hər cür şərait yaradılıb.[https://umich.edu/]

ABŞ-nın Cənubi Kaliforniya Universiteti əlilliyi olan tələbələrinin akademik potensiallarını maksimum dərəcədə artırmalarını, təhsillərində və gündəlik həyatlarında özlərini müstəqil hiss etmələrini təmin edir. Universitet tələbələrini rahat öyrənmələri üçün xüsusi texnologiyalarla təmin edir, onlara repetitor və mentorların xidmətlərini tamamilə pulsuz təklif edir. [https://faculty.usc.edu/mentoring/diversity/]

ABŞ Massachusetts Northeastern Universiteti, əlilliyi olan yerli və ya xarici tələbələrə əlillik resurs mərkəzində nəzərət edir və hərtərəfli dəstək göstərir.

Texasda yerləşən Texas Universitetinin kampusunda əlilliyi olan tələbələr üçün xüsusi Xidmət mərkəzi var, uyğunlaşdırılmış tədris materialları və test tapşırıqları köməyə ehtiyacı olan bütün tələbələr üçün mövcuddur. Tələbənin ehtiyaclarından asılı olaraq onlara surdo-tərcüməçi xidmətləri tamamilə pulsuz verilə və ya ümumi akademik yük azaldıla bilər. [https://ctl.utexas.edu/drafting-diversity-equity-and-inclusion-dei-statement]

Kanadada belə bir xüsusi təhsil sistemi heç yoxdur. Kanadalılar bərabərliyin dərin kök saldığı və müxtəlifliyin qeyd olunduğu inklüziv ölkəni qiymətləndirirlər. Təhsil mühitində vahid cəmiyyətin qaydaları tətbiq edilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar digər uşaqlarla eyni siniflərə yerləşdirilir. Kanadalılar bu qərarda mənfi cəhətlərdən daha çox müsbət cəhətləri görürlər. Xüsusi uşaqların adi məktəb şəraitində təkmilləşməsi daha asan və sadədir. Ətraf mühitə əlçatanlıq üçün qanunvericilik aktları qəbul edilmiş və tikinti standartları tətbiq edirlər. Universitetlər ideyaların, coğrafiyaların, mədəniyyətlərin və perspektivlərin müxtəlifliyinə yer açaraq, şəxsiyyətlərin və perspektivlərin müxtəlifliyinin həyati əhəmiyyətini dərk edirlər. Bu peşəkar çeviklikdir. Kanada Universitetləri həyatın bütün təbəqələrindən olan tələbələri, müəllimləri, işçiləri cəlb etmək və saxlamaq öhdəliyinə sadiqdirlər. [https://inclusioncanada.ca/who-we-are/]

Azərbaycanda əlilliyi olan və xüsusi qayğıya ehtiyacı olan uşaqlar əsasən, xüsusi məktəblərdə, xüsusi internat məktəblərində və ya evdə təhsilə cəlb olunurdu. Digər tərəfdən, onlar üçün nəzərdə tutulan mövcud təhsil təminatından istifadə imkanları bütün ölkəni əhatə etmir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı” çərçivəsində aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, dövlət uşaq müəssisələrində yaşayan uşaqların 37,7 faizi xüsusi təhsilə olan ehtiyacları üzündən xüsusi internat məktəblərinə yerləşdirilirlər. Regionlarda görmə məhdudiyyəti olan şəxs və ya eşitmə qabiliyyəti tam və qismən məhdud olan, eşitmə qabiliyyətini sonradan tam

itirmiş uşaqlar üçün xüsusi təhsilin təşkil edilməməsi səbəbindən onlar Bakı şəhərində fəaliyyət göstərən xüsusi internat məktəblərində təhsilə cəlb olunaraq Bakıda yaşamaq məcburiyyətində qalırlar. Rəsmi mənbəələrdə qeyd edildiyi kimi, hal-hazırda ölkə ərazisində 65482 nəfər əlilliyi olan uşaq vardır. Onlardan 9355 nəfəri evdə, 2558 nəfəri uşaq xüsusi məktəblərində, 2725 nəfəri isə xüsusi internat məktəblərində təhsilə cəlb olunublar.[“2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” https://e-qanun.az/framework/37269; A.Khalafov. The impact of instructional games in inclusive classrooms on students' learning outcomes. Journal of Preschool and Primary Education. Ministry of Science and Education of the Republic of Azerbaijan. 2023.V.3.]

Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur. Əlilliyi olan və xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili ilə əlaqədar 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılmışdı. Layihələrin icrası olaraq 15 ümumi təhsil müəssisəsində, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdu. Layihələrin icrası dövründə inklüziv təhsilin hüquqi tənzimlənməsində boşluqların mövcudluğu inklüziv təhsilin Azərbaycan Respublikasında tətbiqində çətinliklər yaratmışdı.[A.Khalafov. The impact of instructional games in inclusive classrooms on students' learning outcomes. Journal of Preschool and Primary Education. Ministry of Science and Education of the Republic of Azerbaijan. 2023.V.3.]

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilmişdir. Nəticə etibarilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın 1.4-cü bəndində sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur. Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi zəruridir.[“2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” https://e-qanun.az/framework/37269; A.Khalafov. The impact of instructional games in inclusive classrooms on students' learning outcomes. Journal of Preschool and Primary Education. Ministry of Science and Education of the Republic of Azerbaijan. 2023.V.3.]

Son bir neçə ildə irəliləyiş əldə olunsa da, biz inklüziv mədəniyyətə həqiqətən nail olmaq üçün daha çox şey edə bilərik və etməliyik. Burda qeyd etmək istəyirəm ki, Azərbaycanda Ali Təhsil müəssisələrinin tam inklüziv olması və inklüziv mədəniyyətinin təbliği aparılsa cəmiyyətdə müxtəliflik və bərabərlik anlayışının tam formalaşmasına nail ola bilərik.

İnklüzivlik, müxtəlif əqli və fiziki əlilliklərı olan şəxslərə, qazilərə və şəhid övladlarına, məcburi köçkünlərə, əcnəbi tələbələrə, qeyri-ənənəvi cinsi oriyentasiyaya malik olan insanlara, valideyn himayəsindən məhrum olunmuş şəxslərə, penitensiar müəssisələrdə saxlanılan şəxslərə, o cümlədən HİV-ə yoluxmuş insanlara, çətin həyat şəraitində yaşayan insanlara, fitri istedadlı şəxslərə, ucqar kənd yerlərinin sakinlərinə və s. - yəni, təhsil prosesində xüsusi yanaşmaların, müxtəlif metod və üsulların tətbiqi zəruri olan bütün insanlara şamil olunur.

İnklüziv mədəniyyət davamlı inklüziv inkişafın əsas amilidir. İnklüzivlik ümumi olaraq bütün sahələrdə təhsil sisteminin fəaliyyətinin təşkili üçün beynəlmiləl yanaşma kimi görünən uzunmüddətli siyasətdir. Ölkəmizdə təhsil sisteminin bütün pillələrində inklüziv təhsilin həyata keçirilməsi müxtəlif sahələrdə insanların (həm əlilliyi olan, həm də inkişaf normasına malik) uğurlu sosiallaşmasının, cəmiyyətdə tam iştirakının, tam adaptasiyasının və inkişafının əsas komponentidir. [S.Məhsimova.“New methods in learning as the basis of inclusive education”, «Austrian Journal of Humanities and Social Sciences», Austria. № 3-4 2017.]

Bununla belə, inklüziv təhsilin cəmiyyətdəki rolunu yerinə yetirməsi üçün inklüziv təhsilin bütün iştirakçıları arasında inklüziv mədəniyyətin dəyərlərinə və normalarına əsaslanan xüsusi münasibətlər

qurmaq lazımdır. Belə bir mədəniyyətin dəyərləri və normaları təhsil prosesinin bütün iştirakçıları tərəfindən qəbul edilməlidir.

İnklüziv mədəniyyət səviyyəsində üstünlük təşkil edən stereotiplər və mifləri, cəmiyyətin fikirləri, o cümlədən mənfi cəhətləri də böyük təsir göstərir. Məsələn, “əlil” hər zaman cəmiyyət tərəfindən “əmək və peşə fəaliyyətinə yararsız insan” kimi qəbul edilib. Əlilliyi olan insanlarla ünsiyyətdə, özünəməxsus maneələr və çətinliklər ətrafdakı “şərti normal” insanlar arasında da yaranıb, nəticədə onlara qarşı “nifrət”, “ikrah” kimi mənfi münasibət formalaşıb.

Qeyd edilənlərə əsaslanaraq, təhsil müəssisələri və kütləvi informasiya vasitələri, fiziki və ya psixi pozuntuya görə çətin vəziyyətə düşən insanlara hörmətlə yanaşma və tolerant münasibətlərini tərbiyə etmək üçün səylərini birləşdirməlidir.

İnklüziv mədəniyyətin formalaşması inklüziv təhsilin təkmilləşdirilməsi prosesində ən vacib mərhələlərdən biridir. İnklüziv təhsilə yanaşma dəyərlər, normalar, münasibət və etika təhsil münasibətlərinin bütün iştirakçıları tərəfindən inklüziv təhsil ideologiyasının, əxlaqi prinsiplərin qəbul edilməsi prosesidir. Təhsil müəssisələrində inklüziv mədəniyyət dəyərlərinin qəbul edilməsi, hörmət, müxtəliflik, fərqliliklərə dözümlülük, əməkdaşlığın qəbul edilməsi, hər bir insanın nailiyyətlərinin dəstəklənməsi və həvəsləndirilməsi prosesi kimi qiymətləndirilir.[S.Məhsimova. Tədrisdə universal dizayn. “Azərbaycan müəllimi” qazeti. Bakı. 2018.]

İnklüziv tədris prosesin təşkili üçün əsas rol oynayan müəllimlərin peşəkar keyfiyyətləridir. Müassir müəllim inklüziv səriştələrə malik olmalıdır. Müəllimlərin inklüziv kompetensiyalara hakim olmadan inklüziv təhsilin küyfiyyətindən söz ola bilməz.[S.Məhsimova. Tədrisdə universal dizayn. “Azərbaycan müəllimi” qazeti. Bakı. 2018.]

İnklüziv kompetensiya (səriştə) – həssas tələbələrin müxtəlif təhsil ehtiyaclarını nəzərə alaraq ali təhsil müəssisəsinin mühitinə daxil olmasını təmin edən və inklüziv təhsil prosesində peşəkar funksiyaları yerinə yetirmək qabiliyyətini müəyyən edən inteqrativ təhsildir.[S.Məhsimova.İnklüziv Ali Təhsil. Ali təhsil müəssisələri üçün köməkçi vəsait.Bakı.2024]

Qısa təsviri ilə inklüziv kompetensiyalar aşağıdaki əsas bacarıqları ehtiva edir:

1. Diaqnostik - inklüziv təhsildə tələbə kollektivinin inkişaf səviyyəsi, şəxsiyyətin inkişafı, ayrı-ayrı tələbələrin təlim və tərbiyəsi, bütövlükdə ayrı-ayrı mərhələlərində pedaqoji prosesin vəziyyəti haqqında düzgün diaqnoz qoymaq bacarığı;
2. Proqnozlaşdırıcı - inklüziv təhsil kontekstində müəyyən pedaqoji fəaliyyətlərin nəticələrini qabaqcadan görmə bacarığı;
3. Konstruktiv - diaqnostik məlumatlara (həm ümumi, həm də fərdi) adekvat məqsədlər qoymaqla fəaliyyəti planlaşdırmaq və tələbələrin müxtəlif təhsil ehtiyaclarını nəzərə almaq, formaları dəyişdirmək, öz fəaliyyətini planlaşdırmaq bacarığı;
4. Təşkilati - inklüziv təhsil kontekstində pedaqoji fəaliyyəti təşkil etmək bacarığı, peşəkar fəaliyyətdə fərdi yanaşmanın yaradıcı tətbiqi (məsələn, fərdi təhsil proqramı üzrə təlim);
5. Kommunikativ - inklüziv təhsilin səmərəli həyata keçirilməsinə töhfə verən tədris prosesin subyektləri ilə konstruktiv əlaqələr qurmaq bacarığı;
6. Texnoloji - müxtəlif təhsil ehtiyacları və müxtəlif növ inkişaf problemləri olan uşaqlar üçün inklüziv təhsilin metod və texnologiyalarını həyata keçirmək bacarığı;
7. Korreksiyaedici –diaqnostikanın nəticələrini nəzərə almaqla istənilən mərhələdə tədris prosesin gedişatını korrektə etmək bacarığı;
8. Tədqiqat – tədrisdə innovasiyaları öyrənmək, təhlil etmək, eksperimental iş aparmaq bacarığı.

Beləliklə, müəllimin inklüziv təhsilə peşəkar hazırlığı inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün əsas şərtdir, dinamik, inteqrativ peşəkar və şəxsi təhsildir, bu, müəllimə fəal meyl və ehtiyacı ifadə edən münasibətin olması ilə xarakterizə olunur. İnklüziv təhsilin həyata keçirilməsi üçün xüsusi bilik, bacarıq və bacarıqların mövcudluğu və səfərbər olunması ilə özünü göstərən inklüziv təhsilin həyata keçirilməsi.

İnklüziv təhsilə cəmiyyətdə yalnış yanaşma var. Bu sadəcə əlilliyi olan uşaqlara aid olduğunu hesab edilir.

İnklüziv tədris prosesi kimlərə şamil olunur? Tədris prosesində hər bir insan, əlilliyi olanlar, şəhidlərin övladları və qazilər, valideyn itirmiş vəya himayəsindən məhrum olanlar, psixoloji və zorakılığa məruz qalanlar, davranış pozuntuları və posttravmatik stress pozuntusu olan uşaqlar və gənclər. Beləliklə, İnklüziv təhsil cəmiyyətin bütün fərdlərini əhatə edən təhsildir.

Keyfiyyətli tədris prosesinin təşkil olunmasında bir neçə əsas amili qeyd etmək lazım. Bunlardan ən birincisi infrastrukturdur. İnfrasturktur dedikdə sadəcə pandus vəya sanitar qovşağı deyil. Təhsil müəssisələrinin hər bir hissəsinin əlçatanlığıdır. Sinif və auditoriyalarının, tədris avadalıqların, kitabxanaların, yeməkxana və hətta koridorların da əlçatanlığı olmalıdır.[S.Məhsimova.İnklüziv Ali Təhsil. Ali təhsil müəssisələri üçün köməkçi vəsait.Bakı.2024; **Error! Reference source not found.**]

İnklüziv tədris prosesinin təşkilində növbəti faktor sosial və psixo-pedaqoji dəstəkdir. Hər bir təhsilalanın problemləri ola bilər. Həssas qruptan olanların bu problemləri daha coxdur. Təhsil müəssisələri burda bərpaedici rol oynamalıdır. Bu faktor inklüziv tədris prosesinin ən vacib faktorlardan – kadr hazırlığıdır. Təəssüf ki, ümumən bərpaedici deyil, əks nəticələri müşahidə edirik. Bir təhsilalanın ilk sosial mühit baxça, məktəb olduğuna görə burda müəllimlər tərəfindən daha diqqətli yanaşma tələb olunmalıdır. Müəllimin lüğətində olmamalı olan təzik ifadələri, sağlam olmayan rəqabət duyğusu, yalnış müqaisələr, bəzən təhqiredici sözlər və s.müəllim simasına heç yaraşmayan davranışlar müşahidə edirik. əslində müəllimlərin özlərinin psixo-sosial pozuntuların olub olmaması çox ciddi şəkildə təhlil olunmalıdır. İnklüziv tədris prosesində kadr hazırlığının mühim amillərdən kadrların peşəkarlığı və psixoloji hazırlığıdır. [S.Məhsimova. Tədrisdə universal dizayn. "Azərbaycan müəllimi" qazeti. Bakı. 2018.; S.Məhsimova.İnklüziv Ali Təhsil. Ali təhsil müəssisələri üçün köməkçi vəsait.Bakı.2024; S.Məhsimova. "Müasir dövrün inkişafının ali təhsilə mənfi və müsbət təsirləri", Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər I Beynəlxalq elmi konfransın materialları Mingəçevir, 2021- I c.]

Bu yanaşmaya diqqət yetirərək, inklüziv təhsil sahəsində müəllimlərin səriştəsini əks etdirən peşəkar vəzifələr formalaşdırmaq olar:

- inklüziv təhsil mühitində olan həssas qruptan uşaqların yaş və fərdi inkişafının psixoloji-pedaqoji qanunauyğunluqlarını və xüsusiyyətlərini görmək, anlamaq və bilmək;
- inklüziv təhsilin təşkilinin ən yaxşı üsullarını seçməyi, inkişafında birgə təhsili üçün tədris prosesini tərtib etməyi bacarmaq;
- islah-tərbiyə prosesinin bütün subyektləri arasında pedaqoji qarşılıqlı əlaqənin müxtəlif üsullarını həyata keçirmək;
- inklüziv təhsil məkanında bərpa, korreksiya və inkişaf mühiti yaratmaq;
- həssas qruptan uşaql inkişafı üçün ümumi təhsil müəssisəsinin resurslarını və imkanlarını təkmilləşdirmək gücləndirmək üçün təşəbbüskar olmaq.

İnklüziv tədris prosesin təçkilində bir digər faktor tədris – metodiki vəsaitlərinin, tədris alətlərin və avadanlıqların keyfiyyətidir. Müassir proqramlar, müxtəliflik və tədrisdə universal dizayn əsaslı tədris proqramları, kompyuter proqramları və əlavələri və s.müəllimlər tərəfindən istifadə olunmalı və tədrisdə çeviklik yaradılmalıdır.

İnklüziv təhsilin təşkili bütün faktorlardan asıllıdır. Bütünlüyü yaratmaq, tədris proqramların çevikliyini təmin etmək, döğru psixo-pedaqoji yanaşma şəriştələrinə malik olmaq müassir müəllimi bir peşəkar kadr kimi tamamlayır. Təhsildə innovativ proseslər təkcə bütün təhsil sistemini deyil, həm də müasir gəncin şəxsiyyətinin inkişafına, zamana uyğunlaşmasına, cəmiyyətin mənafeyi naminə lazımi hərəkət və fəaliyyətləri həyata keçirməsinə, özünü dərk etməsinə yönəlmədir. Təqdim olunan inklüziv təhsil sistemində pedaqoji kadrların səmərəli peşəkar hazırlığı üçün zəruri olan şərtlər hər təhsil müəssisələrinin ehtiyac və imkanlarına uyğunlaşdırıla bilər.

Ədəbiyyat

1. Markku Jahnukainen. Inclusion in Finland: Myths and realities. Finland`s Famous Education Systems.2023. https://link.springer.com/chapter/10.1007/978-981-19-8241-5_25

2. Mattson E.H., Hansen A.M. Inclusive and exclusive education in Sweden: principals’ opinions and experiences // European Journal of Special Needs Education. 2009. Vol. 24, Iss. 4.

3. https://studme.org/412533/pedagogika/inklyuzivnoe_obrazovanie_norvegii

4. Froestad J. & Ravneberg B. Education Policy, the Norwegian unitary school and the social construction of disability//Scandinavian Journal of History. 2006. № 2.

5. Y.Martan Inclusive education in France through the eyes of a regular teacher.
https://dzen.ru/a/YPL1DGFpwkb5xOXf

6. Gilmour A.F. Has inclusion gone too far? Weighing its effects on students with disabilities, their peers, and teachers // Education next. 2018. Vol. 18, No. 4. https://www.educationnext.org/has-inclusion-gone-too-far-weighing-effectsstudents-with-disabilities-peers-teachers/

7. https://umich.edu/

8. https://faculty.usc.edu/mentoring/diversity/

9. https://ctl.utexas.edu/drafting-diversity-equity-and-inclusion-dei-statement

10. https://inclusioncanada.ca/who-we-are/

11. “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” https://e-qanun.az/framework/37269

12. A.Khalafov. The impact of instructional games in inclusive classrooms on students' learning outcomes. Journal of Preschool and Primary Education. Ministry of Science and Education of the Republic of Azerbaijan. 2023.V.3.

13. S.Məhsimova.“New methods in learning as the basis of inclusive education”, «Austrian Journal of Humanities and Social Sciences», Austria. № 3-4 2017.

14. S.Məhsimova. Tədrisdə universal dizayn. “Azərbaycan müəllimi” qazeti. Bakı. 2018.
https://muallim.edu.az/news.php?id=2713

15. S.Məhsimova.İnklüziv Ali Təhsil. Ali təhsil müəssisələri üçün köməkçi vəsait.Bakı.2024

16. S.Məhsimova. “Müasir dövrün inkişafının ali təhsilə mənfi və müsbət təsirləri”, Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər I Beynəlxalq elmi konfransın materialları Mingəçevir, 2021- I c.

İNKLUZİV TƏHSİLİN TƏŞKİL EDİLMƏSİNƏ UNİVERSİTET MÜƏLLİMLƏRİNİN HAZIRLIĞI

Afət Məmmədova
Bakı Dövlət Universiteti
m.afet@mail.ru , konul6@mail.ru

Summary

The inclusion of people with disabilities in the educational process of mass educational institutions is one of the new problems for the education system. The implementation of the system is based on the principle of “equal and different” inclusive education at the university and actualizes the concept of “quality of access”. The essence of inclusive education is that students with disabilities are trained together with other students in accordance with common standards and requirements for the process, content, quality and outcome of education.

Currently, the main problem of education is the creation of conditions that guarantee accessibility and quality of education for people with disabilities and people with disabilities. Creating an accessible environment for inclusive education is one of the main requirements for higher professional educational institutions.

The article discusses the theoretical and practical aspects of staffing inclusive education: regulatory and legal aspects of inclusive education, the personnel system of inclusive processes, the inclusive process as an integrator for improving social and labor relations in the social context of educational development. When implementing inclusive education, an analysis of inclusive experience, pedagogical and social effectiveness of measures to develop the university’s personnel system was carried out.

Key words: *limitation of health opportunities, disability, inclusive education, university teacher's preparation for inclusive education.*

Резюме

Включение людей с ограниченными возможностями здоровья в образовательный процесс массовых образовательных учреждений является одной из новых проблем для системы образования. Реализация системы основана на принципе «равных и разных» инклюзивного образования в университете и актуализирует концепцию «качества доступа». Сущность инклюзивного образования заключается в том, что учащиеся с ограниченными возможностями обучаются вместе с другими учащимися в соответствии с едиными стандартами и требованиями к процессу, содержанию, качеству и результату образования.

В настоящее время основной проблемой образования является создание условий, гарантирующих доступность и качество образования для людей с ограниченными возможностями здоровья и инвалидами. Создание доступной среды инклюзивного образования – одно из главных требований к высшим профессиональным образовательным учреждениям.

В статье рассматриваются теоретические и практические аспекты кадрового обеспечения инклюзивного образования: нормативно-правовые аспекты инклюзивного образования, кадровая система инклюзивных процессов, инклюзивный процесс как интегратор совершенствования социально-трудовых отношений в социальном контексте развития образования. При реализации инклюзивного образования проведен анализ инклюзивного опыта, педагогической и социальной эффективности мер по развитию кадровой системы университета.

Ключевые слова: *ограничение возможностей здоровья, инвалидность, инклюзивное образование, подготовка преподавателей вузов к инклюзивному образованию.*

Giriş

Keçən əsrin 90-cı illərinə, əlillərə münasibətdə sosial siyasətin əsasən kompensasiya xarakterinə malik olduğu dövrə qədər həyata keçirilən xüsusi təhsilin humanist alternativi inklüziv (birgə) təhsildir ki, bu da əlilliyi olan insanların təkcə həyat dünyasını dəyişməyə imkan vermir, həm də onların marjinallaşma proseslərini əhəmiyyətli dərəcədə azaltmaq üçündür [Martynova, Romanovich 2014]. İnklüziv təhsil şagirdlərə qarşı hər hansı ayrı-seçkiliyi istisna edən təhsil məkanının yaradılması əsasında birgə öyrənmə və keyfiyyətli təhsilin hamı üçün əlçatanlığını nəzərdə tutur [Andrianova 2016; Arefieva, Kryzhanovskaya 2016; Atımtaeva 2016]. İnklüziv təhsil o ideyanı həyata keçirir ki, təkcə sağlam şagird təhsil sisteminə daxil olmağa hazırlaşmalı deyil, həm də əlillik dərəcəsindən asılı olmayaraq sistemin özü də öyrənməyə uyğunlaşdırılmalıdır [Andrianova, Arefiev, Kryzhanovskaya 2016; Bryzgalova 2011; Jdanova 2016]. Mövcud inklüziv təcrübələrə təhsil prosesinin idarə edilməsi, onun texniki və texnoloji təchizatı, resursların səfərbər edilməsi (müəllimlər, valideynlər, yerli icmaların nümayəndələri) daxildir. Bu təcrübənin gücü onun metodlarının, texnologiyalarının, təşkilati formalarının və məzmununun müxtəlifliyindədir.

Əlillik probleminə kifayət qədər optimist və praktiki baxışa malik olan müasir iqtisadçıların nöqteyi-nəzəri ilə də razılaşmamaq çətindir: iqtisadçılar əlillərdə özünü həyata keçirmə və özünü təsdiqləmə qabiliyyətinə malik, ölkəyə fayda verən və işləməyə qadir olan potensial işçiləri görürlər [Kondratieva, Mastyaeva 2009].

İlk dəfə olaraq inklüziv təhsilin nəzəri əsasları L.S. Vıqotskinin əsərlərində qoyulmuşdur. L.S. Vıqodski, əlilliyi olan bir şagirdin normal inkişafı olan insanlar cəmiyyətindən kənarda qalmayacağı bir təhsil sisteminin yaradılmasının zəruriliyiniqeyd edir. [Vygotsky 1995]. İnklüziv təhsil konsepsiyası "inklüziv cəmiyyət" ideyasına əsaslanır ki, burada hər şey digərinin (fərqli irqdən, dindən, mədəniyyətdən, fiziki məhdudiyyəti və əlilliyi olan şəxsin) ictimai həyata aktiv və bərabər şəkildə cəlb edilməsinə tərəfdardır, hər kəsin mənafeyini, müstəqil yaşamaq qabiliyyətinin artırılmasını və onların hüquqlarının bərabərliyini təmin edir. İnklüziv təhsil bir sosial hadisə kimi sosiologiya, psixologiya və pedaqogika sahəsində alimlər tərəfindən nəzərdən keçirilir.

Problemin inkişaf dərəcəsi

K.V. Zaxarova, G.V. Niqmatullina, S.P. Peşkov, S.S. Stepanov, A.V. Tyurin, T.V. Furyaeva, Y.G. Ellanski inklüziv təhsilin zəruriliyini müdafiə edir, xüsusi və daxil edilmiş təhsil məsələlərini müqayisə edir. G.V. Arefieva, E.Yu. Kryzhanovskaya, G.A. Romanov inklüziv təhsili müasir cəmiyyətin humanistləşdirilməsi prosesinin tərkib hissəsi kimi təmsil edir. Sosial əhəmiyyətiəlilliyi olan uşaqların inteqrasiyası (A.Y.Çiqrina, O.S.Kuzmina, İ.İ.Loşakova, E.R.Yarskaya Smirnova, S.O.Brızqalova, G.G.Zak, Y.N. Quzova) ; İnklüziv təhsil sistemi ömürboyu (ibtidai təhsildən ali peşəyə qədər) öyrənmə prosesi kimi qəbul edilir.

A.V. Baxarev, O.V. Oleinik inklüziv təhsil modelini təhsil mühitinin müəyyən dinamikası kimi təqdim edir. S.V. Alekhina, L.A. Kolyvanova, T.M. Nosov, əlillərlə işdə müasir təhsil texnologiyalarına diqqət yetirin. İnklüziv təhsilin hüquqi əsasları D.P.Gezenkonun əsərlərində aşkar edilmişdir. Gezenko, M.A. Larionova, E.S. Şapovalov, əlilliyi olan insanlar üçün ali peşə təhsili müəssisələrinə daxil olan zaman xüsusi hüquq və güzəştlər və əlilliyi olan şəxslərin ali məktəblərdə təhsil alarkən bilavasitə ali təhsil almaq imkanları haqqında məlumatları təhlil edir.

S.V. Alexina, Y.N. Qalaquzova,Y.V. Salivanova tinina müəllimlərin əlilliyi olan və sağlamlıq imkanları məhdud olan şagirdlərə dərs verməyə hazır olmasının vacibliyini qeyd edir. N.V. Antakova, T.G. Qluxova, L.V. Qoryunova, Y.V. Salivanova, E.B. Şetinina müəllimlərin inklüziv təhsil sisteminə hazırlanmasına diqqət yetirir. Əlilliyi olan və sağlamlıq imkanları məhdud tələbələrin universitet təhsili şərtlərinə sosial uyğunlaşmasının xüsusiyyətləri aşkar edilmişdir (A.E.Dumbayev, L.G.Jdanova, O.V.Zabrodina). Bu şəkildə, inklüziya prosesini başa düşmək üçün təcrübə toplanır.

Nəticələr

Əlilliyi olan tələbələrlə işləyərkən universitet müəllimi aşağıdakıları bacarmalıdır:

– əqli, fiziki, sosial və emosional qüsurlar, qeyri-adi əqli qabiliyyətlər və digər xüsusi vəziyyətlərlə bağlı tələbələrin imkan və məhdudiyyətlərini qiymətləndirmək;

– tələbələrin imkan və ehtiyaclarına uyğunlaşaraq xüsusi proqramların hazırlanması hazırlanması və dəyişdirilməsi;

– xüsusi üsullardan istifadə etməklə fərdi və ya kollektiv əsasda öyrətmək;

– hissiyyat və qavrayış-hərəkət funksiyalarını, nitqi, idrakı və yaddaşı stimullaşdırmaq üçün xüsusi təhsil strategiyaları və üsullarını tətbiq etmək;

– tələbələr arasında asayişi qorumaq üçün müəyyən edilmiş davranış qaydalarını və prosedurları tətbiq etmək;

– eşitmə, görmə və digər qüsurları olan tələbələrin praktiki özünə qulluq bacarıqlarını inkişaf etdirmək;

– tələbələrin özünə inamını, maraqlarını, qabiliyyətlərini, bacarıqlarını və hərəkətlərinin koordinasiyasını inkişaf etdirmək;

– hər bir tələbənin nailiyyətlərinin qiymətləndirilməsinin müxtəlif formalarını tətbiq etmək

İnklüzivlik çərçivəsində işləyən müəllimin peşə hazırlığının əsas xüsusiyyətləri: uyğunluq, psixoloji əks göstərişlərin olmaması, tələbənin sosial əhəmiyyətli və şəxsi problemlərini həll etməyə meyllilik; müəllimin fəaliyyət metodları sistemini mənimsəməyə diqqəti, o cümlədən insanların münasibətlərində sərbəst hərəkət etmək və sosial və şəxsi problemlərin həllinin optimal yollarını müəyyən etmək istəyi və bacarığı; dərin peşəkar səriştə, o cümlədən fundamental biliklər və onları praktik fəaliyyətdə tətbiq etmək bacarığı; öz peşəkar davranışı üçün seçim variantlarının şüurlu seçimi, fəaliyyətin inkişafı, yaradıcılığı və özünü həyata keçirməsi ehtiyacının formalaşması (Cədvəl 1).

Əlilliyi olan tələbələrin tədrisi prosesində universitet müəllimi müəyyən bir tələbə və peşə səriştəsi ilə fəaliyyətə diqqət yetirərək, bütövlükdə təhsil fəaliyyətinin səmərəliliyini təmin edir. Universitet müəllimlərinin peşəkar hazırlığına belə bir baxış bizə tədris fəaliyyətinin effektivliyini sağlamlıq imkanları məhdud olan tələbənin fərdiliyinin inkişafı, onun şəxsi inkişafı, özünütəhsil, özünü yaratmaq, özünü təkmilləşdirmə və istəkləri üçün məsuliyyət istəyinin formalaşması ilə əlaqələndirməyə imkan verir.

Universitet müəllimlərinin inklüziv təhsil şəraitində işləməyə hazırlığının inkişaf etdirilməsində əsas problem tələbənin diaqnozunu, psixoloji, fiziki, şəxsi xüsusiyyətlərini və onun uyğunlaşma imkanlarını anlamaq üçün onların peşəkar səriştələrinin sistematik şəkildə təkmilləşməsidir. Hazırlıq sistemli və vahid təhsil kimi təqdim olunur, burada peşəkar oriyentasiya müəllimin özünüinkişaf subyekti kimi tələbəyə marağı, inklüziv təhsilin şüurlu və emosional qəbulu, empatiya və stresli vəziyyətlərdə dözümlülük vasitəsilə təhlil edilir. Müəllimlərin inklüziv təhsili həyata keçirməyə hazırlığının formalaşmasında peşəkar pedaqoji fəaliyyətin sosial əhəmiyyətinin gücləndirilməsi də vurğulanmalıdır ki, bunlar aşağıdakı komponentlərlə təmsil olunur: idrak, kommunikativ, prosessual və əməliyyat.

Cədvəl 1.
Sağlamlıq imkanlarının məhdudiyyəti olan tələbələrlə işləmək üçün universitet müəllimlərinin peşəkar hazırlığının strukturu

Hazırlıq komponentləri	Məzmun	Meyarlar
İstiqamətlilik	tələbəyə diqqət yetirmək (istiqamətlənmək) (tələbənin şəxsiyyətinin inkişafına kömək etmək, onun fərdiliyini maksimum dərəcədə reallaşdırmaq)	İnsan həyatının daxili dəyərinin, onun fərdiliyinin, yaradıcı mahiyyətinin dərk edilməsi Tələbənin şəxsiyyətinin üstünlüyünün və onun qarşısında məsuliyyətin qəbul edilməsi İnsanların fərdi qrup fərqlərinin təbiiliyinin qəbul edilməsi Tələbə məlumatlarının məxfi saxlanılması Tələbənin qorunması, onun bacarıqlarının inkişaf etdirilməsi
	İnklüziv təhsil formatında özünü təkmilləşdirmə və özünü həyata keçirmə ehtiyacı ilə əlaqəli özünü istiqamətləndirmə	İnklüziv təhsil haqqında məlumatlılıq və emosional qəbul İnklüziv texnologiyaların mənimsənilməsində yüksək səviyyəli peşəkar keyfiyyətlərə nail olmağa çalışmaq
	Peşənin mövzu tərəfinə istiqamətlənmək	Empatiya, stres şəraitində dayanıqlılıq
Peşəkar sərištə	Koqnitiv	Ümumi mədəni biliklər Biotibbibilik Mövzu bilikləri
	Kommunikativ	Şəxsi göstərici: oriyentasiya, dəyər istiqamətləri, motivlər İnteraktiv göstərici: tələbələrlə ünsiyyət, həmkarları ilə ünsiyyət, valideynlərlə ünsiyyət, rəhbərliklə ünsiyyət Qnostik göstərici: əlilliyi olan tələbələrlə ünsiyyət nümunələrini bilmək, pedaqoji tapşırıqları kommunikativ tapşırıqlara çevirmək bacarığı
	Prosessual-əməliyyat	Proqnostik göstərici: insanın fərdi inkişafının qanunauyğunluqlarını bilmək, modelləşdirmə üsullarını mənimsəmək

		Təşkilati və fəaliyyət göstəricisi: xüsusi təşkil etmək bacarığının həyata keçirilməsi həm fərdlə, həm də qrupla pedaqoji qarşılıqlı əlaqə şərtləri Nəzarət və analitik göstərici: təşkilati-pedaqoji prosesin səmərəliliyinin təhlili

Ədəbiyyat

1. Alekhina 2011 – Alekhina S.V., Alekseeva M.N., Agafonova E.L. Müəllimlərin hazırlığı təhsildə inklüziv prosesin uğurunun əsas amili kimi // Psixologiya elmləri və təhsil. 2011. № 1. S.83–92.URL:http://psyjournals.ru/les/39878/psyedu_2011_n1_Alekhina_Alekseeva_Agafonova.pdf.

2. Brızgalova, Zak 2011 – Bryzgalova S.O., Zak G.G.İnklüziv təhsil: beynəlxalq təcrübə, müasir tendensiyalar // İnklüziv təhsil: metodologiya, təcrübə, texnologiya: beynəlxalq elmi-praktik konf. materialları 20–22.06.2011 /tərəfindən redaktə edilmiş O. Ertanova, M.M. Qordon. M., 2011.səh. 41–43. URL: http://psyjournals.ru/les/44014/Inclusive_edu_Bryzgalova.pdf.

3. Vıqotski L.S. Problemlərdefektologiya. M.: Təhsil, 1995. 384 s. URL:https://xn--90anb0a.xn--p1ai/images/Bibl/SSV5.pdf

4. Jdanova L.G. Sosial xüsusiyyətləriəlilliyi olan tələbələrin uyğunlaşmasıuniversitet təhsili şərtlərinə sağlamlıq // İnklüzivliyin inkişafı üçün problemlər və perspektivlərTəhsil: Birinci Ümumrusiya Konfransının materialları.beynəlxalq iştirakı ilə 19-21 oktyabr 2016-cı il.Samara: Elmi-Texniki Mərkəz MMC, 2017.səh. 112–116.URL: https://elibrary.ru/item.asp?id=28837581

5. Romanoviç N.A. Məqsədlər və fəaliyyət sahələri kompleks dəstək mütəxəssisləri əlillər və insanlar üçün inklüziv təhsil əlillər peşə təhsili təşkilatı //Elmin və təhsilin müasir problemləri. 2016.№ 5. S. 192. URL: https://elibrary.ru/item.asp?id=27181815.

MÜASİR TƏHSİL SİSTEMİNDƏ İNKLÜZİVƏ YENİ YANAŞMA

Esmira Məmmədova
ADPU-nun “Azərbaycan dili və onun tədrisi texnologiyası” kafedrasının baş müəllimi, p.üz f.d.
tunaryasin.memmedli@ mail.ru

Summary

The article discusses some issues of an inclusive approach in the modern education system. Inclusive education is a requirement of the day. Inclusive education is the need of the day. Education and upbringing of children with limited health opportunities is also in the center of attention in secondary general education schools. The role of science, education and upbringing is great in the formation of these children who need special care as normal citizens and personalities. These children are covered by state care.

Currently, work is being continued in the direction of updating and improving the content of special education. The special subject program shows that children's training is approached in a complex manner. It is assumed that a child develops by being taught and conversely, he is taught by developing.

Key words: *inclusive education, children, students, new approach, methods and principles*

Резюме

В статье рассмотрены некоторые вопросы инклюзивного подхода в современной системе образования. Инклюзивное образование – актуальная проблема дня, образование и воспитание детей с ограниченными возможностями здоровья также находится в центре внимания в средних общеобразовательных школах. Велика роль науки, образования и воспитания в формировании этих детей, нуждающихся в особой заботе, как нормальных граждан и личностей. Эти дети находятся под опекой государства. В настоящее время продолжается работа по обновлению и совершенствованию содержания специального образования. В программе специального предмета

показано, что к обучению детей применяется комплексный подход. Предполагается, что ребенок развивается, обучаясь, и наоборот, развиваясь и обучаясь.

Ключевые слова: *инклюзивное образование, дети, студенты, новый подход, методы и принципы.*

İnklüziv təhsil günün tələbidir. Sağlamlıq imkanları məhdud uşaqların təhsil və tərbiyəsi – orta ümumtəhsil məktəblərində də diqqət mərkəzindədir. Xüsusi qayğıya ehtiyacı olan bu uşaqların normal vətəndaş və şəxsiyyət kimi formalaşmasında elmin, təhsilin və tərbiyənin rolu böyükdür. İnklüziv təhsil müddətində mütəxəssislər qrupu mütəmadi olaraq uşaqların təlim aldığı qrup və siniflərdə monitorinqi keçirməli və assisentlərə, müəllimlərə, tərbiyəçilərə və valideynlərə məsləhətlər verməli, onların suallarını cavablandırmalıdırlar. Xüsusi qayğıya ehtiyacı olan və tədrisdə çətinlik çəkən uşağın inklüziv siniflərdə oxuması ilə qərar verilərsə, seçim meyarları uşaqları seçmək üçün yox, onların müxtəlif inkişaf səviyyələrini müəyyən etmək üçün işlənməlidir. Xüsusi qayğıya ehtiyacı olan uşağın təhsildə uğuruna təsir göstərən faktorlar mövcuddur. Bunlar uşağın ailəsinin vəziyyəti, imkanları, dövlət tərəfindən verilən təminat, mütəxəssislər (loqoped, fizizoterapevt, əmək terapevti) və təhsil müəssisələrində tərbiyəçi-müəllimlə uşaq arasında yaranan münasibətləri əhatə edir. Hər hansı xüsusi qayğıya ehtiyacı olan uşağın təhsilə və cəmiyyətə uğurlu inteqrasiyasından söhbət açanda məhz bu faktorların əlaqəli olması və hər birinin lazımi səviyyədə vurğulanması zəruridir. Məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsil barədə qərar verildikdə uşağın diaqnozunun "çətin" olub-olmamasına yox, inkişaf xüsusiyyətlərinə və onlara təsir göstərən faktorlara kompleks şəkildə baxılmalı və zəruri dəstək təmin edilməlidir. Əks halda bağça mühüti xüsusi qayğıya ehtiyacı olan uşağın emosional və psixoloji vəziyyətinin daha da ağırlaşmasına gətirib çıxara bilər. Bu uşaqlar dövlət qayğısı ilə əhatə olunurlar.

Ümummilli lider H.Əliyev də hələ XX əsrdə belə bu məsələyə də ciddi yanaşaraq, bir çox fərman və sərəncamlar qəbul etmişdir. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında, Azərbaycan respublikasının qanunu"nda (19 iyun 2001-ci il) irəli sürdüyü əsas tələblər, şəxsiyyətin inkişafına təkan verən amillərdəndir. Təhsilin bütün cəmiyyətlərin, xüsusilə də demokratik cəmiyyətin ən zəruri komponentlərindən olan bu sahənin təhsilimizin qurucusu, ümummilli lider Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu xüsusi vurğulamaq yerinə düşərdi.

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazasının təkmilləşdirilmiş maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı əsasında geniş tədbirlər həyata keçirilmişdir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün, təhsilin idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurlarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulur ki, təhsil alanların istedadının aşkar olunması və inkişafı ilə bağlı xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılması məqsədəuyğundur.

Strategiyanın məqsədi:

1. Səmərəli təhsil modelinə əsaslanan standart və kurikulumların hazırlanması;
2. Kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunması;
3. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması;
4. Təhsil verənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən sistemin yaradılması;
5. Xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması;
6. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil və sosial adaptasiyası üçün imkanların təmin edilməsi məqsədi ilə optimal inklüziv təhsil modelinin tətbiq edilməsi;
7. Distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil müəssisələri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlər yaradılması.

Maddi-texniki və metodoloji baza, tələb olunan səviyyədə kadr potensialı olmadığı halda, xüsusi təhsilin tam inteqrativləşməsindən söhbət aparmaq hələ tezdir. Mövcud olan xüsusi tipli təlim müəssisələrində, həm də ümumtəhsil müəssisələri daxilində inklüziv təhsil həyata keçirilir.

Sağlamlıq imkanları məhdud şəxslərə ictimaiyyətin münasibətini köklü surətdə dəyişmək, insanlarda bu şəxslərə dözümlülük, tolerantlıq tərbiyə etmək lazımdır. Cəmiyyət bu insanları özünün ayrılmaz bir hissəsi kimi qəbul etməli və onlara qayğı ilə yanaşmalıdır. Bu insanlar üçün iş yerləri açılmalı, onlar öz imkanlarına uyğun peşələrə yiyələnməlidirlər.

Xüsusi təhsilin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərə həyat üçün zəruri olan bilik, bacarıq və vərdişlər aşılamaq, cəmiyyətə qovuşmalarını təmin etmək, özünə xidmət bacarıqlarını formalaşdırmaq, yaradıcı əmək fəaliyyətinə və ailə həyatına hazırlamaqdan ibarətdir.

İbtidai siniflərdə Azərbaycan dili dərsləri tədrisi olunarkən sinifdə olan bütün şagirdlərin səviyyələri nəzərə alınmalıdır. Müəllim fəal təlim üsulları tətbiq edərkən əlliyi olan şagirddi də qrup daxilində işlətməyə sövq etməlidir. Məsələn, hər hansı bir mövzuda nağıl və hekayə tədris olunursa, rollar üzrə oxuda və ya səhnələşdirmədə də əlilliyi olan şagirdə də rol verilməlidir. Müəllim də onun fəaliyyətini insani hisləri ilə deyil, bacarığı ilə qiymətləndirməyə çalışmalıdır. Onlara ibtidai siniflərdə göstərilən metodik yanaşma yuxarı sinifdə də öz təsir gücünü saxlayacaqdadır. Ona görə də müəllim və pedaqoqlar buna ciddi yanaşmalı, strategiyaları seçərkən sinifdəki inklüziv şagirdləri də nəzərə almalıdır. Ümumiləşdirmələr aparılaraq aşağıdakıların nəzərə alınması və əlaqədar təşkilatların nəzərinə çatdırılması məqsədəmüvafiq hesab edirik:

* İnklüziv təhsilə qoşulan məktəb və uşaq bağçalarında işləmək üçün loqoped, psixoloq və defektoloq ştatları verilsin;

* Ali təhsil, orta ixtisas, ilk peşə-ixtisas təhsili müəssisələrində də inklüziv təhsilin layihəsi hazırlansın;

* İnklüziv təhsilə aid metodik və əyani vəsaitlər hazırlansın;

* Müəllim köməkçilərinin hazırlanması üçün ixtisasartırma fakültələrində kurslar təşkil edilsin;

* Mətbuat və informasiya vasitələrində maarifləndirmə və təbliğat işi gücləndirilsin;

* Uşaq bağçaları və məktəblərin qabaqcıl iş təcrübəsi öyrənilsin, ümumiləşdirilsin və yayılsın.

* Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla məşğul olan müəllimlər və müəllim köməkçiləri üçün treninq və seminarların keçirilməsi təmin edilsin;

* İnklüziv təhsillə işləyən müəllim, müəllim köməkçisi və tərbiyəçilərin aylıq maaşında fərq nəzərə alınsın;

* Regionlarda inklüziv mərkəzlərin sayı artırılsın;

* İcma halında mərkəzlər yaradılsın və bütün fənlər üzrə müəllimlər treninqlərə cəlb edilsinlər;

* Sosial işlə bağlı kurslar təşkil edilsin;

* İnklüziv uşaqların həyatı davamlı olaraq izlənilsin;

* Valideynlər üçün maarifləndirmə kursları təşkil edilsin.

Təhsil sahəsində İslahat Proqramının prinsipləri təhsil alana şəxsiyyət kimi münasibət bəsləməyi, onun təlim - tərbiyə prosesində əsas subyektə çevrilməsini, hər bir uşağa demokratik yanaşmağı tələb edir. Bu baxımdan xüsusi qayğıya ehtiyacı olan uşaqlara təhsil almaq imkanı yaratmaq, onların ailələrinə dəstək verməkdövrün, zamanın və demokratik cəmiyyətin tələbidir.

Ədəbiyyat

1. Əliyev, M. (2018) İnklüziv təhsil. Bakı, 41 s.

2. Архипова, Е.Ф. (2007). Логопедическая работа с детьми раннего возраста. М.: АСТ: Астрель, 231 с.

3. Волкова, Л.С. Логопедия / Под ред. Л.С. Волковой, С.Н. Шаховской. М.: «Владос», 703 с

4. https://www.unicef.org/azerbaijan/az/inkl%C3%BCziv-t%C9%99hsil

İNKLUZİV SİNİFLƏRDƏ AUTİZM SPEKTRLİ ŞAGİRDLƏRİN ADAPTASİYASI

Gövhər Məmmədtağıyeva
Bakı Dövlət Universiteti Qazax filialı
govharmammadtagiyeva@gmail.com

Summary

In inclusive classes, the development of academic skills of children with autism should be parallel with the development of their social skills. The parallel development of these skills will be one of the positive steps in accustoming those children to the collective and adapting them to the classroom environment. Education and social adaptation of autistic children enables their adaptation to society.

Key words: *autism, social development, skills, adaptation, student*

Резюме

В инклюзивных классах развитие академических навыков детей с аутизмом должно идти параллельно с развитием их социальных навыков. Параллельное развитие этих навыков будет одним из положительных шагов в деле приобщения детей к коллективу и адаптации к школьной среде. Обучение и социальная адаптация детей-аутизм способствует их адаптации в обществе.

Ключевые слова: *аутизм, социальное развитие, навыки, адаптация, ученик.*

Autizm spektrli uşaqların təhsilə cəlb edilməsi məktəbəqədər yaşdan başlanmalı ümumtəhsil məktəblərində davam etdirilməlidir. Bunun üçün təhsil müəssisələrin üzərinə böyük məsuliyyət düşür. Uşağı kollektivə alışdırmaq və təhsilə hazırlamaq əsas məqsədlərdən biri olmalıdır.

İnkluziv siniflərdə autizm spektrli uşaqların akademik bacarıqlarının inkişafı sosial bacarıqlarının inkişafı ilə paralel aparılmalıdır. Bu bacarıqların paralel inkişafı həmin uşaqların kollektivə alışdırılması, sinif mühitinə adaptasiya edilməsi işində müsbət addımlardan biri olar.

Bəs onların sosial bacarıqlarını necə inkişaf etdirək? Bunun üçün autizm spektrli uşaqların bu xüsusiyyətlərini bilmək vacibdir. Autizmli uşaqlar:

-göz təması qurmaqdan çəkinir;

-əllə təmasdan çəkinir;

-dostluq münasibəti qurmaqda çətinlik çəkirlər;

-adını çağırdıqda çağırılan tərəfə çevrilib baxmırlar;

-öz hiss və həyəcanlarını büruzə vermirlər;

-başqalarının hiss və həyəcanlarına reaksiya vermirlər;

-maraq dairələri məhdud olur, insanlardan çox ətrafdakı əşyalara maraq göstərirlər;

-dəyişməyə meylli deyillər;

-eyni hərəkətləri daima təkrar edirlər; məs: stolda hər dəfə harada oturur🪑sa həmişə ora getməyə meyllidirlər, yaxud eyni bir oyuncaqla təkrar hərəkətlər edirlər.

Autizm spektrli uşaqların fərqli bir xüsusiyyəti də budur ki, digər uşaqlar ətrafdan bir neçə səs eşitsələr də diqqətlərini dərs danışan müəllimə, onları çağıran valideynlərinə, yaxud kənarda siqnal verən maşına yönəldə bilirlər. Autizm spektrli uşaqlarda isə diqqəti bir yerə cəmləmək qabiliyyəti çox zəif olur, onlar bütün bu səsləri eyni səviyyədə eşidib qavrayırlar. Onlar üçün elə xüsusi ekskursiyalar, gəzintilərin təşkil etmək lazımdır ki, ətrafda çox səs-küy olmasın, onların diqqəti bir neçə yerə yönəlməsin. İşıq, mühit mütləq nəzərə alınmalıdır. Məsələn sakit şəraitli bir muzeyə ekskursiya, yaxud sakit mühitdə tennis oyununa tamaşa etmək onların təhsil mühitinə adaptasiyası, sosial münasibətlərin inkişafı üçün daha münasib olar.

Autizm spektrlı uşaqların akademik bacarıqlarını inkişaf etdirmək üçün müəllimlərdən uşaqların yaş və fərdi xüsusiyyətlərini dərindən bilmək tələb olunur.

Müəllim nəinki dərs dediyi sinfin yaş xüsusiyyətlərini, həmçinin, ayrı-ayrı yaş qrupları üzrə bütün uşaqlara xas olan xüsusiyyətləri yaxşı bilməlidir. Uşaqlarda maraq və meyllərin hansı yaşda necə istiqamətləndiyini, inkişafın senzitiv dövrlərini, fiziki inkişafın necə getdiyini və s. yaxşı bilməlidir. Fransız maarifçisi və pedaqoqu J.J.Russonun qeyd etdiyi kimi, “uşaqlara kiçildilmiş böyüklər kimi” baxmamalıdır. Hər bir yaş dövrü üçün xarakterik xüsusiyyətləri bilməklə yanaşı, həm də konkret yaş

dövründə inkişafın hansı tərəflərinə daha çox diqqət yetirilməli lazım olduğunu yaxşı biməlidir. (İlyasov, 2018, s.158)

Autizm spektrlı uşaqların akademik bacarıqlarını inkişaf etdirmək üçün onların təhsilə erkən yaşda başlaması əsas amillərdən biridir. Autizm spektrlı uşaqların təhsilinin digər uşaqlarla və fasiləsiz aparılması müsbət nəticə verir. Yeniliyi sevməyən bu uşaqlar məktəbdə olan yeniliklərdən narahatçılıq duya bilərlər. Məktəb mühiti onları bir qədər çətinə salır. Məktəbdən kənarda fərdi şəkildə dərs alan uşaqlar üçün bəzən tək qalmaq daha rahat olur. Çünki, onlar sinifdə qrupla görülən işlərdə yoldaşlarının hərəkətlərinə çata bilmirlər, başqaları ilə münasibət qurmaqda çətinlik çəkirlər və tək qalmaq istəkləri daha çox olur.

Bu çətinlikləri aradan qaldırmaq və autizm spektrlı şagirdləri sinfə adaptasiya etmək üçün müəllimlərə aşağıdakı tövsiyələr verilir:

- Autzim spektrlı uşaqlarda öyrənmək qabiliyyəti digər uşaqlardan fərqlidir. Belə ki, autzim spektrli uşaq verilən materialı dərk etmədən, anlamadan mexaniki olaraq əzbərləyir. Autzim spektrli uşaqlarda təkcə öyrənmək bacarığı formalaşdırmaq kifayət etmir. Belə uşaqlarda müxtəlif sosial vəziyyətə uyğun bacarıqları, zehni inkişaf etdirən xüsusiyyətlər formalaşdırmaq lazımdır.
- Müəllim hər bir şagirdinin fərdi xüsusiyyətini, zəif və güclü tərəflərini, maraq dairəsini, nəyi sevib, nəyi bacardığını, bilməlidir. Çünki, uşaqlar edə bilməyəcəyi, sevmədiyi şeyləri edəndə çətinlik çəkir, bacara biləcəyi işləri edəndə daha yüksək motivasiyalı olurlar.
- Autzim spektrlı uşaqlar dinləmə bacarığından daha çox görmə orqanı-göz vasitəsilə qəbul etdiyi informasiyanı daha yaxşı mənimsəyir. Müəllim belə uşaqlara xüsusi yanaşmalı, verdiyi materialı, tapşırığı əyani vasitələrlə möhkəmləndirməlidir. Verilən tapşırığın, öyrədilən hər bir bacarığın süjetli şəkildə rəsmi, şəkli müəllimin əlinin altında olmalı və uşağa təqdim edilməlidir.
- Hər hansı bir mövzunu götürərək uşağa söhbət əsnasında necə sual vermək, verilən suallara necə cavab vermək bacarığı formalaşdırılmalıdır. Bunu rollu oyunlar vasitəsilə də etmək olar. Uşağın sualları müəllim vasitəsilə yönləndirilməlidir.
- Duyğuları necə ifadə etməyi öyrətmək lazımdır. Bu məqsədlə kiçik smayliklər hazırlayaraq həmin şəkillər vasitəsilə mimikaları, jestləri öyrətmək mümkündür. Yaxud dərsdə hansısa bir nağıl, hekayə, mətn oxunarsa həmin bölmədə verilən hiss-həyəcana uyğun smaylikləri, şəkilləri göstərsək həm duyğuların ifadəsini ifadə etməyi öyrənər, həm də verilən material daha yaxşı qavranılar.
- Sinif mühitində autizm spektrlı uşaqla dərs zamanı tez-tez göz təması qurmaq və uşaq nəyə maraq göstərirsə onun marağını izləyərək, etdiyi hərəkəti təqlid edərək onun diqqətini çəkmək mümkündür.

Bununla yanaşı pedaqoji prosesdə müəllim müvəffəqiyyətinin başlıca amillərindən biri də onunşagirdlərlə düzgün və müsbət emosional zəmin üzərində qurulmuş səmimi qarşılıqlı münasibətdə olmasıdır. (İlyasov, 2013, s. 54)

Autizm spektrlı uşaqların təhsilində irəliləyiş əldə etmək və sinfə adaptasiyasını təmin etmək üçün ailələrlə əlbir işin aparılması da ən mühüm şərtlərdən biridir. Çünki, uşağı daha yaxşı ailə üzvlərindən məlumat alaraq tanımaq, güclü və zəif tərəflərini daha tez aşkar etmək mümkündür.Təhsil müəssisələri tərəfindən ailələrlə görüşlər keçirilməli və onlara övladlarının təhsialma ilə bağlı həssaslıqları valideynlərə çatdırılmalı və mərhələli şəkildə uşaqlara kömək prosesi təqdim olunmalıdır.

Uşaqlara onların tələbatını ödəyən valideyn köməyi prosesi mərhələlərinə diqqət yetirək: 1) Valideynlər uşaqla müsbət münasibətlər atmosferini öz şəxsi nümunəsi ilə yaradır. 2) Valideynlərə uşağın davranışına nəzarət etməyə, onun seçiminə dərk edərək kömək etmək təklif edilir. 3) Valideynlər uşaqlara öz əməlləri haqqında dəyərli qərarlar çıxarmağa kömək edir. 4) Uşaq vəziyyətinin düzəlməsi üçün plan tərtib edir. (Ağayev, Rzayeva, Hüseynova, Vahabova, 2008s.170)

Autizm spektrli uşaqların təhsili və sosial adaptasiyası onların gələcəkdə bir iş, peşə sahibi olmasına, özünüidarəedə bilmək, müstəqil yaşamaq bacarıqlarının formalaşdırmasına ümumilikdə cəmiyyətə adaptasiya edilməsinə imkan yaradır.

Ədəbiyyat

1. Ə.Ə.Ağayev, Y.T.Rzayeva, T.M.Hüseynova, T.Ə.Vahabova, Sosial Pedaqogika, Bakı-2008

2.M.İlyasov, Müəllimin pedaqoji ustalığı, Bakı-2013, 215 səh.
3.M.İlyasov, Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri, Bakı-2018, 207 səh.

İNKLÜZİV TƏHSİLDƏ KREATİVLİK

Müjkan Məmmədzadə
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, pedaqogika üzrə fəlsəfə doktoru
mujkan@mail.ru

Summary

The article discusses creativity in inclusive education. A little creativity in inclusive education has a special importance in education. It plays an important role in revealing the inner capabilities of learners, achieving intellectual achievements, and increasing interest in the lesson.

Inclusion means creating interesting, different, motivating opportunities for all students, involving them in learning, providing them with appropriate attitudes, methods, communication and resources. These factors enable differentiation in training, meeting individual needs and constitute the main pillars of inclusive education.

Key words: *inclusive education, creativity, learner, development orientation, pedagogical process*

Резюме

В статье рассматривается творчество в инклюзивном образовании. Немного творчества в инклюзивном образовании имеет особое значение в образовании. Он играет важную роль в раскрытии внутренних возможностей учащихся, достижении интеллектуальных достижений, повышении интереса к уроку.

Инклюзия означает создание интересных, разных, мотивирующих возможностей для всех учащихся, вовлечение их в обучение, предоставление им соответствующих взглядов, методов, общения и ресурсов. Эти факторы обеспечивают дифференциацию обучения, удовлетворение индивидуальных потребностей и составляют основные основы инклюзивного образования.

Ключевые слова: *инклюзивное образование, творчество, обучающийся, направленность развития, педагогический процесс*

İnklüziv təhsil bərabər imkanlar prinsipinə əsaslanan normallaşdırma, ümumiləşdirmə və inteqrasiya təcrübələri nəticəsində əldə edilən bilik və təcrübələrlə əldə edilmişdir. İnklüziv təhsilə gedən yolda normallaşma xüsusi təhsil ehtiyacı olan bütün şagirdlərin ümumi əhali qrupunda həmyaşıdlarının istifadə etdiyi şəraitə mümkün qədər yaxın olan təhsil xidmətlərinə çıxış əldə etmələrini müdafiə edən bir yanaşmadır. İnklüzivlik xüsusi təhsilə ehtiyacı olan şagirdlərin ehtiyaclarına uyğun fiziki mühitdə lazımi tənzimləmələr edərək ümumi təhsil siniflərinə yerləşdirmək, dərslərdə və sinif fəaliyyətlərində minimum köməkliklə iştirak etmək kimi müəyyən edilir. İnklüziv geniş şəkildə bütün imkansız uşaqları, o cümlədən xüsusi təhsil ehtiyacı olanları əhatə edir. İnklüziv təhsil anlayışına daha yaxın bir təcrübə olan inteqrasiya, bütün imkansız tələbələrin "ən az məhdudlaşdırıcı" prinsipinə uyğun olaraq, yerləşdikləri təhsil mühitlərində bütün kurslarda və fəaliyyətlərdə tam iştirakını təmin etmək üçün dəstək xidmətlərinin göstərilməsi deməkdir (4).

İnklüziv təhsildə kiçik kreativlik təhsildə xüsusi əhəmiyyətə malikdir. O, öyrənənlərin daxili imkanlarının üzə çıxarılmasında, intellektual nailiyyətlərin əldə edilməsində, dərsə marağın artırılmasında mühüm rol oynayır. Problemlə bağlı ədəbiyyatın təhlili kreativliyin inkişafının təkcə imkan deyil, günün tələbi olmasını ortaya cıxarmışdır. M.Runkonun (2003) fikrincə, kreativ potensial hər bir uşağın təbiətində mövcuddur (3). Həmkarının fikrini dəstəkləyən A.Kraft (2005) kreativliyin inklüziv və demokratik perspektivlərini qeyd edərək, bütün insanların erkən uşaqlıq dövründən etibarən kreativ imkanlara malik olmasını vurğulamışdır (1).

Müasir dövrdə təhsilin məzmununun yenilənməsi, islahatlarının miqyasının genişlənməsi, innovasiyaların meydana gəlməsi, demokratik, humanist dəyərləri özündə əxz edən cəmiyyətin formalaşması, yaddaşdan düşüncə, təfəkkür məktəbinə keçidin sürətlənməsi, şəxsiyyət yetişdirilməsi kadr hazırlığı prosesinin qarşına yeni və daha məsuliyyətli tələblər qoymuşdur. Cəmiyyətin və əmək bazarının hərtərəfli formalaşmış mütəxəssislərlə təmin edilməsində ali məktəblərin rolu müstəsnadır.

Bu səbəbdən ali təhsilin ictimai funksiyaları günbəgün artmaqda, mürəkkəb xarakter daşımaqdadır. Biliklərin ötürülməsi artıq çoxçeşidli bacarıqların, kompetensiyaların formalaşdırılması ilə əvəzlənmişdir. Bu vəzifə aşağıda sadalanan məqsədlərdən irəli gəlir:

– Təhsilin yeniliklərə uyğunlaşmasına nail olmaq. Təhsilalanda kreativliyi inkişaf etdirmək, ömür boyu öyrənməyə motivasiya yaratmaq, problem həlli bacarığı formalaşdırmaq, ünsiyyət, əməkdaşlıq üçün fərdi imkanları, şəxsi potensialları inkişaf etdirmək, öyrənənlərin ideyalarının reallaşdırılmasına şərait yaratmaq;

– Təhsildə yeni vəzifələrin həyata keçirilməsi üçün təlim prosesində kreativliyin inkişafını diqqətdə saxlamaq;

– Müasir, innovativ cəmiyyətə xas dəyərlər formalaşdırmaq. Tolerantlıq, müxtəlifliyə hörmətlə yanaşmaq, müsbət fikirləri dəyərləndirmək, əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək, müstəqil və doğru qərar vermək, tənqidi təfəkkürü aktivləşdirmək.

– İmkanları bərabərləşdirmək. Müxtəlif təlim ehtiyacları və öyrənmə yollarına malik tələbələrin təhsildə uğur qazanmasına, cəmiyyətdə müəyyən mövqe tutmasına, sosial mühitə inteqrasiyasına şərait yaratmaq, inklüziv təlimin təşkilinə xüsusi diqqət yetirmək;

Müasir tələblərə cavab verən mütəxəssislərin formalaşmasında kreativlik mühüm amil olduğu üçün hazırda təhsil ocaqlarının əksəriyyəti onun inkişafına xidmət edən metod və vasitələrin seçiminə daha həssas yanaşılır. Lakin nəzərə almaq lazımdır ki, o, adətən planlaşdırılmış deyil, təsadüfi xarakter daşıyır.

Tələbəyönümlülük, *inkişafyönümlülük, fəaliyyətin stimullaşdırılması, dəstəkləyici mühitin yaradılması* əsas prinsiplər kimi müəyyənləşdirilmişdir. Bu prinsiplər bütün təhsilalanların pedaqoji prosesdə potensial imkanlarının nəzərə alınmasını, tədris və təlim işində öyrənənlərin maraqlarının, tələbatlarının ödənilməsini, onların qabiliyyətlərinin inkişafının təmin olunmasını, potensial imkanlarının genişləndirilməsini, əqli fəallığının izlənilməsini, nailiyyətlərin təhlili, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsinin tənzimlənməsini, pedaqoji prosesin səmərəli şəkildə qurulmasını, tələbələrin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlərin dəyərləndirilməsini, sağlam mənəvi-psixoloji mühitin, əlverişli, təhlükəsiz şəraitin yaradılmasını nəzərdə tutur.

- Təlimdə inklüzivliyin təmin edilməsi. İnklüzivlik bütün tələbələr üçün maraqlı, fərqli, həvəsləndirici imkanların yaradılması, onların təlimə cəlb olunması, müvafiq münasibət, üsul, ünsiyyət və resursla təmin olunması deməkdir. Bu amillər təlimdə diferensiallaşdırmanı, fərdi tələbatların ödənilməsini mümkünləşdirir və inklüziv təhsilin əsas sütunlarını təşkil edir. Bu həmçinin təlim prosesində fərdi və qrup tələbatlarının nəzərə alınmasıdır. Təcrübəli pedaqoq çalışmalıdır ki, tələbələrin hansı yollarla öyrənə biləcəyini müəyyənləşdirsin: görmə (visual), eşitmə (auditory) və ya hərəki (kinaesthetic) (VAK). Hazırda təhsilalanların müxtəlif öyrənmə tərzlərini özündə cəmləşdirən təsnifatlar mövcuddur. Görmə, eşitmə, hərəki öyrənmə üsulları kimi təlim tərzləri də ətraf mühitin şərtlərinə, stimullaşdırıcı, maraq oyadan amillərə əsasən qurulur, müxtəlif neyrolinqvistik proqramlaşdırma və s. kimi ideyalardan bəhrələnir. İnklüzivliyin təmin edilməsinin başlıca şərti öyrənənləri, onların fərdi xüsusiyyətlərini, ehtiyac və tələbatlarını ilk gündən müəyyənləşdirib təlim prosesini onun üzərində təşkil etməkdən ibarətdir. İnklüziv təcrübə fərdi tələbatların ödənilməsi məqsədilə diferensiallaşmanı labüdləşdirir. Dərs prosesinin yuxarıda sadalanan məqam nəzərə alınmaqla qurulması öyrənənlərin motivasiyasını, marağını artırmağa hesablanmışdır. Müəllim dərs üçün müxtəlif tapşırıqlar, resurslar və qiymətləndirmə vasitələri də hazırlaya bilər. İşin keyfiyyətini yüksəltmək üçün dünyada gedən dəyişikliklər təhsil sistemində öz əksini tapmalıdır. Bu səbəbdən təhsildə çevik dəyişikliklərə böyük ehtiyac var. Təhsil cəmiyyətin idarə olunması məqsədilə yaradıcı və innovativ bacarıqların inkişafına, transversal kompetensiyaların formalaşmasına təkan verməlidir. O, ilk növbədə təlim strategiyalarında, pedaqoqun innovativ təlim metodlarından bəhrələnməsində özünü göstərməlidir. Əsas məsələ təhsilalanlarda sərt təfəkkürdən daha çevik, qeyri-standart, orijinal təfəkkürə keçidin tənzimlənməsi, çətinliklərin öhdəsindən gəlmək, müstəqil fikir yürütmək bacarığının formalaşdırılmasıdır. Bu, təhsilin prioritet istiqamətlərindən olduğu üçün təhsil-tədqiqat-innovasiyalar üçbucağının fəaliyyəti diqqət mərkəzində saxlanılmalıdır. (2).

Bacarıq səviyyəsindəki sərištələrə inklüziv təlim mühiti yaratmaq, bütün uşaqları əhatə edəcək şəkildə öyrənmə və tədris prosesini uyğunlaşdırmaq, inklüziv şəkildə inkişafı və öyrənməni qiymətləndirmək üçün tələb olunan sərištə sahələri və bacarıqlar daxildir. Nəhayət, münasibət səviyyəsində olan səlahiyyətlərə inklüziv təhsilə müsbət münasibət və meyllər nümayiş etdirmək və təhsilin digər maraqlı tərəflərinin inklüziv paradiqmaya müsbət münasibət bəsləməsini təmin etmək üçün zəruri olan səlahiyyətlər daxildir.

Ədəbiyyat

1. Cox C.M.(1926). Genetic studies of genius: V. 2. The early mental traits of three hundred geniuses. Stanford,CA. Stanford University Press.

2. Decision of the European Parliament and of the Council of 18.12.2006 concerning the Seventh Framework Programme of the European Community for research, technological development and demonstration activities (2007–2013).

3. Runco M.A. (1999) The Divergent Thinking of Young Children: Implications of the Research. Gifted Child Today (GCT), 13(4), 37-39

4. https://tehsilmedia.az/kose/7803-inkluziv-thsil-haqqinda-hr-sey-mqal.html

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN SOSİAL VƏ İCTİMAİ HƏYATA İNTEQRASİYASI

Sevinc Orucova
Naxçıvan Dövlət Universiteti
s.orucova.71@gmail.com

Summary

The article talks about a number of works done by state and non-state organizations to integrate children with special needs into social and public life in our country. It is noted that. According to the Education Law of the Republic of Azerbaijan, all citizens have the right to education, regardless of their race, national and religious affiliation, language, gender, age, health status, social status, field of activity, social origin, place of residence and political views.

Key words: *inclusive education, general education system, integration, school, early diagnosis*

Резюме

В статье говорится о ряде работ, проделанных государственными и негосударственными организациями по интеграции детей с особыми потребностями в общественную и общественную жизнь нашей страны. Отмечается, что. Согласно Закону Азербайджанской Республики «Об образовании», все граждане имеют право на образование независимо от расы, национальности и вероисповедания, языка, пола, возраста, состояния здоровья, социального положения, сферы деятельности, социального происхождения, места жительства и Политические взгляды.

Ключевые слова: *инклюзивное образование, система общего образования, интеграция, школа, ранняя диагностика*

Məqalədə ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial və ictimai həyata inteqrasiya olunması üçün dövlət və qeyri dövlət təşkilatları tərəfindən görülən bir sıra işlərdən bəhs edilir. Qeyd edilir ki. Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən, bütün vətəndaşlar irqindən, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, sağlamlıq vəziyyətindən, sosial vəziyyətindən, fəaliyyət göstərdiyi sahədən, sosial mənşəyindən, yaşadığı yerdən və siyasi baxışlarından asılı olmayaraq təhsil almaq hüququna malikdirlər.

Ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanların sosial və ictimai həyata inteqrasiya olunması üçün dövlət və qeyri dövlət təşkilatları tərəfindən bir sıra addımlar atılır. Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən, bütün vətəndaşlar irqindən, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, sağlamlıq vəziyyətindən, sosial vəziyyətindən, fəaliyyət göstərdiyi sahədən, sosial mənşəyindən, yaşadığı yerdən və siyasi baxışlarından asılı olmayaraq təhsil almaq hüququna malikdirlər. Azərbaycanda Təhsil Siyasətinin məqsədi bütün vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin

edilməsindən ibarətdir. Həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqların keyfiyyətli təhsil alması üçün bərabər imkanların yaradılması sahəsində mühüm addımlar atılmaqdadır (4).

Qeyd edilir ki, ümumtəhsil sistemi bütün uşaqları əhatə etməli,bütün uşaqların bərabər imkanlara malik olmasını təmin etməli və hər birinin fərdi nailiyyətlərinə dəstək verməlidir. Təhsildə inklüziv yanaşma bu məqsədlərə xidmət edir. Sistem şəklində təmin olunan şərait və təlim vəsaitləri müxtəlif qabiliyyətləri olan uşaqlar üçün əlverişli təlim mühitinin olmasını vurğulayır. Ümumtəhsil sistemində inklüzivlik anlayışı hansısa qrup uşaqları ümumtəhsil məktəblərinə daxil etmək yox, məhz sistemin özünün geniş spektrli qabiliyyətlərə malik olan və təlimdə xüsusi ehtiyacları olan uşaqları əhatə etmək imkanlarının yaradılmasına üstünlük vermək deməkdir. Bu da qanunvericiliyi, maaliyyə təminatını, məktəblərdə xüsusi xidmətlərin və zəruri infrastrukrurun olmasını, müəllimlərin müvafiq hazırlıqlarını, dərslərin və hər bir uşağın fərdi ehtiyaclarına görə planlaşdırılmasını və aparılmasını, müxtəlif çeşidli təlim metodları və strategiyaları nəzərdə tutur. Bu gün dünyanın bir çox ölkələrinin təhsil sistemlərinin inkişafı məhz inklüziv yanaşma ilə xarakterizə olunur.

İnklüziv təhsil ideyası, mütəxəssislərin həm professional, həm də şəxsi keyfiyyətlər baxımından yetişdirilməsinə xüsusi tələblər qoyur. Kadrların əsaslı korreksiyaedici təhsili və professional ixtisaslı olması vacibdir. Əsaslı komponent dedikdə, professional-pedaqoji hazırlıq nəzərdə tutulur. Xüsusi komponent dedikdə isə aşağıdakı psixoloji-pedaqoji biliklər nəzərdə tutulur (1):

- İnklüziv təhsil haqqında əsaslı məlumatın verilməsi, onun digər təhsil formalarından fərqinin nümayiş etdirilməsi;
- İnklüziv təhsil mühitində uşaqların yaş və şəxsi keyfiyyətlərinin inkişafı haqqında biliklərin olması;
- Tədris prosesinin psixoloji və didaktik proyeksiyası haqqında metodların təqdim edilməsi;
- Tədris mühitində pedaqoji qarşılıqlı təsirin müxtəlif metodlarını həyata keçirmək bacarığı.

Eləcədə mütəxəssislərin həm professional, həm də şəxsi keyfiyyətlər baxımından yetişdirilməsi prosesində treninqlər, müxtəlif elmi seminarlar, ustad –peşəkar təlimləri çox əhəmiyyətli rol oynayırlar. Açıq tədbirlərin keçirilməsi müəllimlərə və ümumiyyətlə, bütün komadaya öz məqsədini müəyyənləşdirməkdə və professional yüksəlişə doğru irəliləməkdə yardımçı olur. Mütəxəssislərin birgə çalışması inklüziv təhsili daha da canlı və effektiv edir, çünki birgə fəaliyyət çoxsaylı ideyaların ortaya qoyulmasına gətirib çıxarır, bu da öz növbəsində, uşaqların problemlərinin daha da dərindən dərk edilməsinə səbəb olur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların ayrıca xüsusi təhsil alması vacıb deyildir. Əksinə, onların daha keyfiyyətli təhsilə yiyələnmələri və cəmiyyətə daha tez adaptasiya olmaları üçün öz tipik həmyaşıdları ilə, ümumtəhsil orta məktəblərdə dərs almaları məqsədəuyğundur. Hər şeydən əvvəl bu, artıq mövcud formalaşmış korreksiyaedici sistemdə, “xüsusi” uşağın cəmiyyətə adaptasiyası prosesinin zəif inkişaf etməsi və onun, ictimaiyyətdən kənarda qalaraq təcrid olunması ilə əlaqədardır.

Son zamanlar xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün bir sıra yeni yanaşmalar tətbiq edilir. Sosial statusundan asılı olmayaraq, hər bir uşaq inklüziv təhsil vasitəsi ilə öz inkişaf tələbatlarını ödəmə imkanı və bütöv digər uşaqlar kimi, normal təhsil alma hüququnu əldə edir. Həm ümumtəhsil məktəblərinin, həm də məktəbəqədər uşaq müəssisələrinin idarə heyəti xüsusi qayğıya və təhsilə ehtiyacı olan uşaqları qəbul edir. Onları sosial status, irqi, fiziki, emosional və intellektual inkişaf səviyyələrinə görə diferensasiya etmədən onların tələbatına uyğun xüsusi psixoloji-pedaqoji şərait yaradır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar xüsusi təchiz edilmiş tədris otaqlarına nisbətən ümumtəhsil orta və məktəbəqədər müəssisələrində cəmiyyətə ümumiyyətlə, həyata daha tez və effektiv adaptasiya olmağı öyrənirlər. Bu uşaqlarla eyni mühitdə tədris alan tipik uşaqlarda isə təhsil imkanları genişlənir, onlarda fəallıq, toleranrtlıq və sərbəstlik kimi müsbət keyfiyyətlər daha çox inkişaf edir.

Təcrübə göstərir ki, inklüziv təhsilin inkişafı-mürəkkəb hərtərəfli elmi, metodoloji və inzibati resurslara toxunan prosesdir. İnklüziv təhsil ideyasını qəbul edən müəssisələrin idarə heyəti xüsusi köməyə ehtiyac duyurlar. Burada pedaqoji prosesin təşkili, qarşılıqlı-təsirin işlənilməsi mexanizminin nəzərə alınması vacibdir. Əgər xüsusi təhsilə ehtiyac duyan və sağlamlığında problem olan uşaq bağçaya getmirsə, o zaman doğru olmayan təhsil istiqamətinin yaranması riski yarana bilər. Məktəb müəllimləri uşağın qabiliyyətini və fərdi keyfiyyətlərini bilmədikləri üçün əlilliyi olan uşaqlardan

onların tipik həmyaşıdları kimi eyni bilikləri tələb edə bilərlər. Bu zaman bir sıra problemlərin ortaya çıxması qaçılmazdır. Burada özünəməxsus bir ziddiyyət yaranır: uşağın bacarıqları və onun qarşıya qoyulmuş tələblər kəskin fərqləndiyindən və uzaqlaşdığından bu ziddiyyətlər nəticəsində onun təhsilə olan motivasiyası aşağı düşür, tədris prosesi zamanı çətinliklər yaranır və son nəticədə onun sağlamlığıdakı problemlər daha da kəskinləşir.

Təəssüf ki, uşaq bağçalarında uşaqların psixi sağlamlığı ilə bağlı hərtərəfli və obyektiv diaqnostika aparılmır. Valideynlərin öz övladlarının əqli durumu və inkişafı haqda dürüst və obyektiv məlumat verməməsi halları da təcrübədə tez-tez rast gəlinən hallardandır. Buna görə də uşaqlarının fiziki, intellektual və psixi inkişafı haqqında hərtərəfli biliyə malik olmaları üçün məktəbəqədər yaşlı uşaqların valideynləri arasında xüsusi profilaktik işlərin aparılması vacibdir. Bu işdə bir neçə sosial qurum iştirak etməlidir (sağlamlığa cavabdeh orqanlar, təhsil ocaqları və sosial yardım fondları). Bundan əlavə bu prosesdə valideynlərin də rolunu nəzərə almaq vacibdir.

Ümumtəhsil orta məktəblərin, bağçaların idarə heyəti və müəllim-tərbiyəçiləri valideynlərlə söhbət zamanı maksimal dərəcədə onları yuxarıda qeyd edilən diaqnostik prosedurlardan keçməyə sövq etməli, qüsurlar ortaya çıxdıqdan sonra isə onlar bərabər olaraq uşağın hazırlıq mərhələsində çalışaraq onu müasir cəmiyyətə və həyati hadisələrə hazırlamalıdırlar. Uşaq məktəbə qəbul olmadan əvvəl, məktəbəqədər müəssisələr ümumtəhsil orta məktəblərinin müəllim və idarə heyətinə uşaq haqqında bütün lazımi məlumatları təqdim edərək onun inkişafında olan ləngimələr, həmçinin potensial imkanları barəsində informasiya verirlər. Lakin bu informasiya kifayət etməzsə, o zaman məktəbin idarə heyəti uşağı valideynlərinin müşayəti ilə müayinədən keçməyə göndərməlidirlər.

Unutmaq olmaz ki, məhz erkən uşaqlıq dövründə gələcək inkişafın vacib komponentləri mənimsənilir: psixi fəaliyyətin, emosional və motivasiya sahələrinin əsası qoyulur, müstəqil hərəkətlərə və nitq fəaliyyətinə hazırlıq gedir. Erkən uşaqlıq dövrü həm də psixoloji-pedaqoji təsir nöqteyi nəzərindən çox əhəmiyyətli dövrdür. Buna görə də inkişafda olan pozulmaların erkən diaqnostikası vacib bir məsələyə çevrilir. İnkişafın pozulmasının fərdi strukturunun kompleks müayinəsi ilkin qüsurun dərəcəsinin və sosial faktorların inkişafı gedişinə təsirinin müəyyənləşdirilməsini, yanaşı xəstəliklərin və uşağın somatik vəziyyətinin xarakteristikasını nəzərdə tutur. Erkən kompleks diaqnostika 3 blokdan ibarətidir (3):

- Sosial blok;
- Tibbi blok;
- Psixoloji-pedaqiji blok.

Erkən yaş dövründə qeyri-adekvat sosial mühitin təsiri altında uşağın psixofiziki inkişafı pozulur, beyin strukturlarının yetişməsi prosesi deformasiya olur, analizatormararası əlaqələrin formalaşması ləngiyir. Buna görə də erkən diaqnostika prosesində sosial blok böyük əhəmiyyətə malikdir. Erkən yaş dövrünün diaqnostikasında tibbi blokun rolu əvəzedilməzdir. Tibbi diaqnostika nəticəsində ilkin nöqsanın strukturu, yanaşı gedən pozulmalar, patoloji prosesin xüsusiyyətləri, nöqsanın etiologiyası və patogenizi və nəhayət, klinik diaqnoz müəyyən edilir. Uşağın psixonevroloji, somatik və antropometrik statusu müəyyənləşəndən sonra, tibbi korreksiyanın vaxtı və metodları təyin edilir. Xüsusi müəllim və xüsusi psixoloqun səriştəsində olan psixoloji-pedaqoji blok inkişafın aktual səviyyəsini müəyyənləşdirməklə, inkişaf və korreksiyaedici proqramların həyata keçirilməsinin zəruriliyini əsaslandırır. Hər üç mərhələdə, valideynlərin fəal iştirakı uşağın sağlamlığının, fərdi təliminin və psixoloji problemlərinin maksimal həllinə kömək edir.

Ümumiyyətlə, xüsusi qayğıya ehtiyacı olan uşaqların inteqrasiyası məktəbəqədər yaş dövründən, onların sosial inteqrasiyasından başlamalıdır. Bu zaman inkişafında problemləri olan uşaqlar zəruri məsləhəti dəstəklə, pedaqoji-korreksion və tibbi-sosial köməklə təmin edilirlər. İnklüziv tərbiyə və təlimin inkişafı xüsusi və kütləvi təhsil arasında yeni münasibətlərin yaranmasına zəmin yaradaraq, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili ilə yanaşı, onların həyata transformasiyasını nəzərdə tutur. Eyni zamanda bu model daha geniş kateqoriyadan olan uşaqları əhatə edir. Yəni burada sağlamlıq imkanları məhdud olan uşaqlar deyil, həm də kimsəsiz, valideyn himayəsindən məhrum, çətin tərbiyə olunan, davranışında problemlər olan, zərərli vərdişlərə meyl edən, təhsildən kənarda qalan hüquqları pozulan, zorakılığa məruz qalan uşaqlar da aid edilir. İnklüziv təhsil tətbiq edilən təhsil müəssisələrində

bütün təhsil alanların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüquqlarının tam şəkildə reallaşdırılması üçün onların bərabərhüquqluluğu, təhsil prosesinin hər bir uşaq üçün əlçatan olması, onlara ünsiyyət üçün bərabər imkanlar yaradılması, təlim prosesinin səmərəli təşkil edilməsi, prosesə cəlb olunan pedaqoji işçilərin müvafiq bacarıqlara yiyələnməsinin təmin edilməsi, tədris proqramlarında hər bir uşağın tələbatının nəzərə alması, ailələrin təhsil müəssisələrinin həyatında fəal işrirak etməsi təmin edilməlidir. Yalnız bu halda respublikamızda inklüziv təhsil sahəsində real nəticələr əldə edilə bilər və inklüziv təhsilin əsas prinsipi olan "təhsil-hamı üçün" reallaşır.

Ədəbiyyat

1. Hüseynova N.T. İnklüziv təhsil. Dərs vəsaiti. Bakı 2014.
2. Korreksion pedaqogikanın müasir problemləri. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı, 2012.
3. Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil. Məktəbəqədər təhsil pilləsi üçün. Bakı 2010.
4. Təhsil Haqqında Azərbaycan Respublikasının qanunu. Bakı: Qanun, 2009.

İNKLÜZİV SİNİFLƏRDƏ TƏDRİSİN TƏŞKİLİ

Ələviyyə Ömərova
Bakı Dövlət Univerisitetinin Qazax filialı
alaviyya.omarova@mail.ru

Summary

Every child has the right to a free education. But children with diasbilities have been having difficulty getting education for many years. Although private schools educate this type of children, it has its own negative aspects that these children have been having difficulties integrating into society. But the fact that children with disabilities stay away from education brings to the lack of their career perspective. As a result, they lose the personal development opportunities and the society loses potential human capital.

Key words: *inclusive education, school, teacher, student, physical*

Резюме

Каждый ребёнок имеет право на бесплатное образование. Однако с ограниченными возможностями на протяжении многих лет сталкиваются с рядом трудностей при получении образования. Хотя такие дети получают образование в специальных образовательных учреждениях, специфическим негативным моментом этого является то, что обучающиеся в таких учреждениях в дальнейшем сталкиваются со значительными трудностями в интеграции в общество. Однако исключение детей с ограниченными возможностями из образования приводит к ослаблению их перспектив трудоустройства. В результате и они лишаются возможностей для личного развития, и все общество теряет свой потенциальный человеческий капитал.

Ключевые слова: *Инклюзивное образование, школа, учитель, ученик, физический.*

İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Əlilliyi olan uşaqların əlilliyi olmayan həmyaşıdları ilə birlikdə təhsili hər kəs üçün səmərəli tədris formasıdır. Belə ki, bütün uşaqların eyni sinifdə həyata keçirilən tədris prosesində iştirakı təhsilverənləri şagirdlərə fərdi yanaşmağa sövq edir. Əlavə olaraq, müxtəlif araşdırmaların nəticələri göstərir ki, əlilliyi olan uşaqlarla əlilliyi olmayan uşaqların birgə inklüziv sinifdə oxuması fərqliliyə münasibəti dəyişməyə, özünə hörmətin və həmyaşıdların qəbulunun yaxşılaşdırılmasına səbəb olur ki, bu, sosial yöndən ədalətli və ayrı-seçkiliyə yol verməyən cəmiyyətin qurulmasına töhfə verir.“Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının Qanununda xüsusi təhsil, evdə təhsil və inteqrasiyalı təhsilin təşkil olunması ilə bağlı normaların nəzərdə tutulmasına baxmayaraq, inklüziv təhsilə dair müddəalar yer almamışdır. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın 1.4- cü bəndində sağlamlıq

imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur. 2017-ci ildə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.(İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı).

Hər bir sağlamlıq imkanı məhdud uşağın bacarığının inkişaf etdirilməsi vacib məsələlərdən biridir. Bu məqsədlə şagirdin özünü inkişaf etdirməsi, təlimdə və sosial mühitdə qazandığı bilikləri öyrəndiyi və öyrənəcəkləri ilə birləşdirməyə, əsaslandırmağa 21 çalışması və özü üçün yeni,yüksək səviyyədə bilik qazanması onun ən vacib tələbatlarındandir. Problemli təlim prosesində sagirdin öz daxili qüvvəsinə inanaraq inkişafa, dərk etməyə, bilik qazanmağa yönəlməsi başlıca amalı olmalıdır. Bu məqsədə nail olmaq ücün konstruktiv təlim üsulu ilə dərs keçən hər bir müəllim dərsi inkişafetdirici, düşündürücü istiqamətdə qurur. Müəllim şagirdin qarşısına qoyduğu məsələnin bütün cavablarını qəbul edib ümumiləşdirərək onları yeni bir sual şəklində meydana şıxarır. Şagirdlər yeni yaranan, özlərinin təfəkkür tərzlərini kecmiş səviyyə ilə əlaqələndirərək daha yüksək təfəkkür səviyyəsinə keçid etmək imkanına malik olurlar. Deməli, problemli təlim prosesində həqiqi bilik şagirdlər tərəfindən öz əvvəlki təcrübələri əsasında anlamaqla yaranır. Bu məqsədlə öyrətmə və öyrənmə prosesi elə qurulur ki, burada mütəşəkkil, fəal əqli fəaliyyət interaktiv davranış fəaliyyətilə müşayiət edilir. Fəal təlim fəaliyyətinə cəlb edilərək şagirdlər öz anlayışlarının genişləndirilməsi üçün biliklər bazası əldə edirlər. Burada biliyin mahiyyəti şagirdlərin anlama mahiyyəti ilə mütənasib qurulur. (İsgəndərova, 2022, s.72).

İnklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də SİM insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir. İnklüziv təhsilin məktəb həyatına gətirdiyi dəyişikliklərin nəticəsində yalnız sağlamlıq imkanları məhdud uşaqlar deyil, bütün uşaqlar qazanacaqlar. SİM uşaqların ümumtəhsil məktəblərində təhsili bir çox ölkələrin, eləcə də Azərbaycanın cəlb olunduğu inklüziv təhsil sisteminin qanunauyğun inkişaf mərhələsidir. Bu inkişaf sxematik olaraq aşağıdakı mərhələlərdən keçmişdir:

I mərhələ - diskriminasiya (SİM uşaqlar ümumiyyətlə təhsildən kənarda qalır)

II mərhələ - seqreqasiya (SİM uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunur)

III mərhələ - inteqrasiya (SİM uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxuyur)

IV mərhələ - inklüziya (SİM uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alır).

SİM uşaqların təhsilinə belə yanaşma həyatda müxtəlif xarakterli səbəblərlə əlaqədardır. Ümumilikdə bu səbəbləri iqtisadi, hüquqi inkişaf baxımından müəyyən səviyyəyə nail olmuş cəmiyyət və dövlətlərin sosial tələbləri kimi müəyyənləşdirmək olar. Son mərhələ cəmiyyət və dövlətlər tərəfindən əliliyi olan şəxslərə münasibətin dəyişdirilməsi, yalnız hüquqlarının tanınması deyil, təhsil də daxil olmaqla, həyatın müxtəlif sahələrində onlara digər insanlarla bərabər imkanların yaradılması ilə xarakterizə olunur. (İnklüziv siniflərdə təlimin təşkili, 2018, s.3).

Sağlamlıq imkanları məhdud şagird və tələbələrin rastlaşdığı bir çox problem var ki, onlar inklüziv cəmiyyətin yaranmasına və ümumiyyətlə təhsilli əhalinin yetişməsinə ciddi əngəllər törədir. Başlıca problem ölkəmizdə inkluziv təhsil sisteminin mövcud olmamasıdır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının Fəaliyyət Planında yaxın gələcəkdə (2015-2023) məktəbəqədər və ümumi təhsil müəssisələrinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulsa da, bu proqram hələ ki, pilot layihəsi səviyyəsindədir. Uğurlu olacağı təqdirdə, sağlamlıq imkanları məhdud uşaqların həyatında ciddi irəliləyişlərə səbəb ola biləcək bu proqramın uğurlu icrasını şərtləndirən amillərdən biri də müyəssər infrastrukturun yaradılmasıdır. Belə ki, müyəssər infrastrukturun olmadığı bir şəraitdə təhsillə bağlı proqramlar heç bir ciddi effekt verə bilməz. Hal-hazırkı nəqliyyat strukturu və küçələrin, yolların quruluşu sağlamlığı məhdud şəxslərin müstəqil hərəkətinə ciddi maneələr törədir. Hətta dövlət qurumları, təhsil müəssisələri və şirkətlərin bir çoxunun binası da müyəssərlik cəhətdən geri qalırlar. Tələbə yataqxanaları da bu məsələdə geri qalırlar. Buna görə də, İSİM olaraq infrastrukturun yenilənməsi və dəyişdirilməsini təklif edir, bu istiqamətdə büdcədən yeni vəsaitlərin ayrılmasının lazım olduğunu hesab edirik. Hal-hazırda

Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların təhsil almağı üçün xüsusi təhsil müəssisələri fəaliyyət göstərir. Görmə qabiliyyəti məhdud uşaqlar üçün Loqopedik xidmət məktəbəqədər müəssisələri, uşaq bağçaları, internat məktəbləri və ümumtəhsil müəssisələrində təşkil edilir. Bununla yanaşı, müxtəlif dərəcədə eşitmə qüsuru olan uşaqlar üçün də internat məktəblərinin bəzilərində təhsil xidmətləri təşkil edilir. Görmə qabiliyyəti məhdud vətəndaşlar üçün kitabxananın yaradılması və xüsusi şriftlərlə və brayl əlifbası ilə dərsliklərin çap olunması da təqdirə layiq addımlardır. Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi təhsil müəssisələrində işləyən müəllimlər və təhsil işçilərinin əmək haqlarına və vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada əlavələr olunması da bu sahədə atılan müsbət addımlardan biri kimi xarakterizə edilməlidir.(Az. Res. Təh.Haq. qan.,2009 s.1).

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu (2009)
2. İsgəndərova S.(2022). Sağlamlıq imkanları məhdud olan uşaqların pedaqoji reabilitasiyası üçün təlim prosesinin idarə olunması. Bakı: 72 səh20-21.
3. İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı. Oxumaterialı. http://www.tipii.edu.az..səh 3-4.
4.2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı.

XARİCİ ÖLKƏLƏRDƏ İNKLÜZV TƏHSİLİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Nigar Sultanova
Bakı Slavyan Universiteti
nigarsultanova@mail.ru

Summary

The article describes the stages of inclusive education in the foreign countries where the possibility of acquiring knowledge is available for everybody and especially for children with disabilities. The concept "inclusive education" is defined as the provision of equal access to education for all learners taking into account the diversity of special educational needs and individual opportunities. Children with disabilities in an ordinary secondary school can not only get a qualitative education but also they can successfully adapt to life. The principles and factors of inclusive education which provide the availability of learning for all children are also reflected in this article. In order to implement inclusive education it is necessary to pay special attention to the creation of appropriate conditions in society and educational process which results in a growing need for teachers who are able to develop and implement inclusive learning environment in educational organizations.

Key words: *children with disabilities, inclusive education, stages, principles, factors*

Резюме

В статье рассмотрены этапы становления инклюзивного образования в зарубежных странах, в которых возможность приобретения знаний доступна всем, и особенно детям с ограниченными возможностями здоровья (ОВЗ). Понятие «инклюзивное образование» определено как обеспечение равного доступа к образованию для всех обучающихся с учетом разнообразия особых образовательных потребностей и индивидуальных возможностей. Дети с ограниченными возможностями здоровья в обычной общеобразовательной школе могут не только получить качественное образование, но и успешно адаптироваться к жизни. Отражены принципы и факторы инклюзивного образования, которые включают в себя доступность школьного образования для всех детей. Для реализации инклюзивного образования нужно обратить внимание на создание соответствующих условий в обществе и образовательном процессе, а также подготовку педагогов, способных создавать и внедрять инклюзивную образовательную среду в образовательных организациях.

Ключевые слова: *дети с ограниченными возможностями здоровья, инклюзивное образование, этапы, принципы, факторы*

Təhsilin ən mühüm insan hüquqlarından biri olması və onun ədalətli cəmiyyət yaratmağa imkan verməsi inamı “inklüziv təhsil” konsepsiyasının formalaşmasına zəmin yaratmışdır. Ona görə də bütün uşaqlar təhsil almaq hüququna malikdirlər və bu, onların problemlərindən, şəxsi keyfiyyətlərindən asılı ola bilməz. İnklüziv və ya daxil edilmiş təhsil (fransızca inclusif - o cümlədən, latınca daxildir - nəticəyə gəlirəm, daxildir) ümumi təhsil təşkilatlarında sağlamlıq imkanları məhdud uşaqların (SIM) tədrisi prosesini təsvir etməyə imkan verən termindir.

İnklüziv təhsil uşaqlara qarşı hər hansı ayrı-seçkiliyi istisna edən, bütün insanlara bərabər münasibəti təmin edən, xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün xüsusi şərait yaradan ideologiyaya əsaslanır. Söhbət inkişafda qüsurlu, əlilliyi olan uşaqlardan gedir.

Müasir təhsil sistemi, ilk növbədə, müəyyən tələblərə cavab verən və hamı üçün ümumi proqram üzrə təhsil ala bilən tələbələrə yönəlib. Nəticədə sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil prosesində iştirak etmək imkanı və şəraiti yoxdur. Məhz inklüziv təhsil bu problemi həll etməyə kömək edəcək. Axı, əlilliyi olan uşaqların təhsil problemi müasir cəmiyyətdə ən aktual problemlərdən biridir. İnklüziv təhsil ümumi təhsilin inkişaf mərhələsini nəzərdə tutur, bu mərhələdə bilik əldə etmək imkanı hər kəs üçün, xüsusən də sağlamlıq imkanları məhdud uşaqlar üçün mövcuddur. Xarici ölkələrdə belə təhsil uzun müddətdir ki, inkişaf edir və qanunla təsbit olunub. İnklüziv təhsilin mahiyyəti uşaqlara qarşı heç bir ayrı-seçkiliyə yol verməyən, eyni zamanda təhsil mühitində insanların ehtiyac duyduğu zəruri şəraitin həyata keçirilməsinə kömək edən baxışlar sistemidir (Алехина С.В., 2010, с. 7).

1961-1980-ci illərdə Danimarkada və digər Skandinaviya ölkələrində hakimiyyət orqanları tərəfindən tənzimlənməyən bir çox fərdi təşəbbüslərin müəllimlər tərəfindən dərk edilməsi və mənimsənilməsi üçün böyük sosial və pedaqoji iş aparılmışdır. Burada inteqrasiya sosial-demokratik hərəkat və ölkənin müsbət sosial-iqtisadi inkişafının təşəbbüsü və dəstəyi ilə tədricən böyüyürdü. Və yalnız bütövlükdə ölkə inteqrasiya fenomenini praktiki və mənəvi cəhətdən mənimsədikdə (bu, təxminən 20 il çəkdi) qanuniləşdirildi: 1980-ci ilin yanvarında əlillərlə münasibətlərin normallaşdırılması prinsipini tətbiq edən Təhsil İslahatı Qanunu qəbul edildi.

20-ci əsrin sonlarında dünyanın bir çox ölkələrində (ABŞ, Böyük Britaniya, İsveç, Almaniya, İtaliya, Skandinaviya ölkələri) uşaqların xüsusi (korreksiya) təhsil müəssisələrinə göndərilməsi son çarə kimi görünür (bütün digər imkanların artıq mövcud olduğu halda istifadə edilmişdir və istənilən nəticəni verməmişdir). Bu ölkələrin təhsil praktikasında kompleks yanaşma prinsipi həyata keçirilir - sağlamlıq imkanları məhdud uşaqlara adi uşaqlarla birlikdə ümumtəhsil məktəblərində təhsil almaq imkanının verilməsi. Eyni zamanda, öyrənməni asanlaşdırmaq üçün xüsusi dəstək üçün əlavə şərait yaradılır.

İnklüziv təhsilin inkişafında mühüm mərhələ 1994-cü ildə İspaniyada xüsusi ehtiyacı olan şəxslər üçün Təhsil üzrə Ümumdünya Konfransının keçirilməsi olmuşdur. “Xüsusi ehtiyacı olan şəxslərin təhsili sahəsində prinsiplər, siyasətlər və praktiki fəaliyyətlər haqqında” Bəyannamə qəbul edilmişdir (З.Феталиева Л.П.,2018, с. 21).

İnklüziv təhsilin inkişafında mühüm mərhələ 1994-cü ildə İspaniyada Xüsusi Ehtiyacı olan Şəxslər üçün Təhsil üzrə Ümumdünya Konfransının keçirilməsi olmuşdur. “Xüsusi ehtiyacı olan şəxslərin təhsili sahəsində prinsiplər, siyasətlər və praktiki fəaliyyətlər haqqında” Bəyannamə qəbul edilmişdir. Bu sənədin əsas məqsədi ölkələri “hamı üçün məktəb” kimi təhsil müəssisələrinin formalaşmasına çağırmaqdır. Bu cür təhsil təşkilatlarında müəllimlər, insanlar arasında fərqlərin təbii olduğuna dair şəxsi inamı rəhbər tuturlar və bilik əldə etmə prosesi uşağın nəyin sürətinin və nəyin baş verdiyinin ilkin tərifinə uyğunlaşmamalı, nəinki uşağın xüsusiyyətlərinə uyğunlaşdırılmalıdır. öyrənmə xarakteri olmalıdır. Xüsusi təhsildə inklüzivlik bütün vətəndaşların, ilk növbədə fiziki inkişafında çətinlik çəkənlərin cəmiyyətdə iştirak dərəcəsinin artırılması prosesi kimi başa düşülür. Bu, hər bir insana akademik və ictimai həyatda bərabər iştirak etməyə imkan verə biləcək belə xüsusi həllərin işlənib hazırlanmasını və tətbiqini nəzərdə tutur (Гусева Т.Н., 2010, С.3-6).

Xüsusi təhsil sisteminin qlobal kontekstdə transformasiyası və təhsildə inklüziv yanaşmaların inkişafı, ilk növbədə, ən mühüm beynəlxalq hüquqi aktlara - Birləşmiş Millətlər Təşkilatının (BMT) və BMT-nin himayəsi altında bağlanmış bəyannamə və konvensiyalara əsaslanır. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) insan hüquqları və hər hansı bir səbəbdən ayrı-seçkiliyə yol verilməməsi ilə bağlıdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların məktəbdə tədrisi tarixini təxminən aşağıdakı mərhələlərə bölmək olar:

- XX əsrin 60-cı illərinin ortaları - əlilliyi olan insanların təcrid olunmasına səbəb olan "tibbi model";
- 60-cı illərin ortaları - 80-ci illərin ortaları - “normallaşma modeli”, əlillərin ictimai həyata inteqrasiyası;

- 80-ci illərin ortaları - indiki zaman- "daxiletmə modeli", yəni inklüziya.

Təhsidə inklüzivlik - məktəb təhsilini bütün uşaqlar üçün əlçatan edən prinsiplərlə əks olunur: əlilliyi olan şagirdlərin məktəblərə fiziki əlçatanlığının təmin edilməsi (nəqliyyat, panduslar, liftlər); bütün şagirdlərin ehtiyaclarını ödəmək üçün mobil kurikulum strukturunun və müxtəlif təhsil metodlarının hazırlanması, o cümlədən:

- fərdi maraqlar, motivlər və qabiliyyətlər nəzərə alınmaqla - tam və müxtəlif fərdi formalaşma və inkişaf ehtiyacları (şəxsi uğur);

- təcrübə yönümlü - "xüsusi" uşaqların valideynlərinin pedaqoq rolunda təhsil prosesinə fəal şəkildə daxil edilməsi; daxiletmənin “koordinator-metodisti” vəzifəsinin yaranması; inklüziv təhsil prosesinin dəstəklənməsi sahəsində peşəkar icmaların yaradılması, dəyirmi masaların, elmi-praktik konfransların, mütəxəssislərin yenidən hazırlanması kurslarının təşkili;

- fərdin sosial mühitə üzvi şəkildə daxil olması və cəmiyyətin həyatında səmərəli iştirak ehtiyacı (sosial uğur);

— fərdin ümumbəşəri əmək və praktiki bacarıqların inkişaf etdirilməsi zərurəti, peşə seçməyə hazır olması (peşə uğuru) (Хуснутдинова М.Р. , 2017 , с.36).

İnklüziv təhsil mühitinin yaranmasına bir sıra amillər təsir etdi:

- getdikcə daha çox uşaq emosional və əqli qüsurlu, eləcə də autistik və digər pozğunluqlarla doğulur və onların da təhsilə ehtiyacı var; cəmiyyət təhsilin əlçatanlığı və keyfiyyətinin yüksəldilməsi ilə bağlı daim yeni tələblər irəli sürür; cəmiyyətin humanistləşdirilməsi və demokratikləşməsi ideyalarını tətbiq etmək lazımdır; valideynlərin təlim subyektləri kimi təhsil prosesinə daxil edildiyi "ailə siyasəti" nin inkişafı, bu, uşaqların təlimi, təhsili və inkişafı üçün məsuliyyətdə özünü göstərir;

- “xüsusi” uşaqların valideynlərinin tərbiyəçi kimi təhsil prosesinə fəal cəlb edilməsi; “koordinator-metodist” vəzifəsinin yaranması; inklüziv təhsil prosesinin dəstəklənməsi sahəsində peşəkar icmaların yaradılması, dəyirmi masaların, elmi-praktik konfransların, mütəxəssislərin yenidənhazırlanma kurslarının təşkili;

- yeni təhsil sistemi insanın öz potensialını fəal şəkildə həyata keçirməsi və fərdi inkişaf xüsusiyyətlərinin buna mane ola bilməməsi səbəbindən “insan resurslarını” formalaşdırmağa və artırmağa imkan verir.

Güman edilir ki, bu gün xüsusi qayğıya ehtiyacı olan uşaqlar xüsusi müəssisələrdə oxumaq məcburiyyətində deyillər: adi ümumtəhsil məktəbində onlar nəinki daha yaxşı təhsil ala, həm də həyata uğurla uyğunlaşa, emosional və fiziki inkişaf ehtiyacını dərk edə bilərlər (M. Giangrego, M. B. Doyle , 2012, p. 67).

İnklüziv təhsilin həyata keçirilməsi üçün kurrikuluma, işçilərin dəstəyinə və əməkdaşlığına, qiymətləndirməyə və avadanlıqlara, son nəticədə cəmiyyətdə müvafiq şəraitin yaradılmasına diqqət yetirilməlidir.

Bunun nəticəsidir ki, təhsil təşkilatlarında inklüziv təhsil mühitini yarada və həyata keçirməyi bacaran, eyni zamanda bu mühitdə müxtəlif qrup şagirdlərlə məharətlə və məhsuldar işləməyi bacaran müəllimlərə tələbat artır. Müxtəlif qrup şagirdlərlə işləmək, əlbəttə ki, konkret şəraitin yaradılmasını və inklüziv təhsilin elmi əsaslı metod, alət və üsullarından istifadəni tələb edir.

Ədəbiyyat

1. Алехина С.В. Современный этап развития инклюзивного образования в Москве // Инклюзивное образование. Вып. 1. М.: Центр «Школьная книга», 2015, с. 6-11.

2. Гусева Т.Н. Инклюзивное образование как путь развития и гуманизации общества // Инклюзивное образование. Вып. 1. М.: Центр «Школьная книга», 2013, с. 3-6.

3. Феталиева Л.П. «Современный взгляд на инклюзивное образование» -М.: Журнал «Мир науки, культуры и образования», 2018, с. 21-25.

4. Хуснутдинова М.Р. «Риски инклюзивного образования» - М.: Журнал «Образование и наука», 2017, с.36-43.

5. M. Giangrego, M. B. Doyle // International journal of whole schooling .Vol. 8 (1), 2012. –p. 63-105.

İNKLÜZİV TƏHSİLDƏ PARETO TƏKMİLLƏŞMƏSİ

Fərid Süleymanov
"Birgə və Sağlam" İctimai Birliyi
farid.bay@mail.ru

Summary

While the goal of quality inclusive education is to ensure equal educational opportunities for all students, achieving this can pose several challenges. Particularly within traditional educational settings, teachers may struggle to distribute resources evenly among students, often prioritizing certain groups for various reasons. This phenomenon aligns with the Pareto Principle, which is explored in this article alongside the notions of Pareto Optimum and Pareto Improvement within the context of inclusive education.

Key words: *inclusive education, Pareto Principle, Pareto Optimum, Pareto Improvement, pupil*

Keyfiyyətli inklüziv təhsil dedikdə hər bir təhsilalan üçün təlimdə bərabər imkanların yaradılması nəzərdə tutulur (Grimes, 2020, s. 4). Burada əsas məqsəd şagirdlərin təlimin bütün resurslarından – əyani vəsaitlər, maddi-texniki resurslar, təlim-tədris xidməti və s. bərabər səviyyədə faydalanmasına şərait yaratmaqdır.

Ancaq faktlar və müşahidələr göstərir ki, ənənəvi tədris mühitində resursları əsasən məhdud bir qrupa yönləndirmə meyilləri özünü göstərir. Bu əsasən tədris prosesində, yəni müəllim fəaliyyətində özünü göstərir. Yəni müəllim vaxtının və enerjisinin böyük bir hissəsini daha çox məhdud sayda şagirdə yönləndirir. Bu iddia təhsilverənlər tərəfindən birmənalı qarşılanmaya bilər, ancaq ənənəvi təhsil çərçivəsində bu hal qaçılmazdır, ən azı Pareto Prinsipi belə deyir. Bəs Pareto Prinsipi nədir və təhsildə necə təzahür edir?

Pareto Prinsipi, yaxud 80/20 prinsipi kimi tanınan bu qanunauyğunluğa görə, əməyin 20%-i nəticənin 80%-ni təmin edir (Koch, 1999, s.35). XX əsrin əvvəllərində italyan iqtisadçı və sosioloq Vilfredo Pareto tərəfindən irəli sürülən bu prinsip əsasən iqtisadiyyat və sosiologiyada istifadə olunsa da, labüd qanun kimi bir çox sahələrdə özünü göstərir.

Bu prinsipi təhsildə də görə bilirik. Belə ki, bu prinsipi təlim prosesinə proyeksiya etdikdə belə nəticə alınır; müəllim resurslarının (vaxt, təlim vəsaiti, fərdi enerji və s.) 80 faizini əsasən şagirdlərin 20 faizinə sərf edir. Əlbəttə bu nisbət şərtidir, yəni bu təqribi nisbət 70/30 yaxud başqa rəqəmlərlə özünü göstərə bilər, ancaq qanunauyğunluq bu nisbətin bərabər olmasının qeyri-mümkün olduğunu iddia edir. Sinifdə şagird sayının çoxluğu, o cümlədən resurs qıtlığı, müəllim səriştəsizliyi, təlim vəsaitlərinin azlığı və s.) bu qeyri-proporsionallığın yaranmasına zəmin yaradan amillərdəndir.

Paretonun adı ilə bağlı olan digər konsepsiyalar da inklüziv təhsil kontekstində maraq doğura və təhsildə bərabərlik fəlsəfəsini anlamağa kömək edə bilər. Bu anlayışlardan biri Pareto Optimumu, yaxud Pareto Effektivliyidir (Mathur, 1991, s.174). Bu termin qrup daxilində bir üzvün vəziyyətini pisləşdirmədən digər üzv və ya üzvlərin vəziyyətinin yaxşılaşdırmağın mümkün olmadığı situasiyanı təsvir edir. Buna sadə bir misal; sinifdə A və B adında iki şagird var və onların hər birinə iki qələm lazımdır, ancaq sinifdə üç qələm var. Onların hər birinə bir qələm düşür, ancaq tələm olunan ikinci qələm A-ya verilsə, B-nin vəziyyəti "pisləşir", yaxud əksinə. Pareto Optimumu vəziyyətinin əksi Pareto Təkmilləşməsi adlanır. Bu, qrupun heç bir üzvünə zərər yetirmədən bütün üzvlərinə fayda təmin etməyi, yəni resursların tam bərabər paylanmasını nəzərdə tutan konsepsiyadır.

Bu anlayışların inklüziv təhsil kontekstində labüd təzahürünü belə ümumiləşdirmək olar; şagird sayının normadan çox, resursların isə az olduğu siniflərdə Pareto Prinsipinin kəskin nisbətdə təzahür etməsi labüddür. Bu prinsip fonunda digər bir qanunauyğuluq – Pareto Optimumu da özünü göstərir. Yəni resurslar məhdud olduğu halda, müəyyən bir qrup şagird məhrum olmadan, digər qrupu lazımi vəsait və dəstəklə təmin etmək mümkün olmayacaq.

İnklüziv təhsildə Pareto Təkmilləşməsinə nail olmaq, yəni resursların bütün şagirdlərə əlçatan olması üçün şagird sayının optimal həddə olması, sinif və tədris vəsaitlərinin universal təlim dizaynı əsasında qurulması, müəllim səriştəsinin artırılması, tədrisə yardımçı heyətin təmin edilməsi və s. kompleks tədbirlərin görülməsi zəruridir.

Ədəbiyyat

1. Kiremire A. R. (2011) The Application of the Pareto Principle in Software Engineering, 12-45
2. Koch R. (1999) The 80/20 Principle: The Secret to Achieving More with Less. Random House Inc. New York, 30-55.
3. Mathur, Vijay K. (1991). "How well do we know Pareto optimality?". The Journal of Economic Education. Taylor and Francis via JSTOR. 22 (2): 172–178.
4. Peter Grimes və b. (2020) “İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının oxu materialı, 4-12.
5. Tomlinson, S. (1982) A Sociology of Special Education. London: Routledge and Kegan Paul, 220-230.

DÜNYA ÖLKƏLƏRİNDƏ İNKLÜZİV TƏHSİL VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qəmər Tağıyeva
BDU, Pedaqogika kafedrasının dosenti
gemer.tagiyeva56@gmail.com

Резюме

В научной статье изначально было уточнено понятие инклюзивного образования. Принятие этой концепции в странах мира учтено в аспектах построения образования в этом направлении. В результате исследования стало ясно, что хотя радикальный переход к инклюзивному образованию был реализован в ряде стран, специальные образовательные учреждения не были однозначно заброшены, наоборот, их опыт был умело использован. Потому что, хотя инклюзивное образование организовано в общеобразовательных учреждениях, для работы с детьми, нуждающимися в особом уходе, используется опыт специализированных кадров, и эти кадры в основном готовятся в специальных образовательных учреждениях.

Ключевые слова: *мир, инклюзивный, Европа, Скандинавия, право, здравоохранение*

Dünyanın müxtəlif ölkələrində mövcud olan müasir təhsil sistemləri təhsil və onun strukturunun variativliyi, konkret problemlərin çeşidli həlli yolları baxımından fərqlənirlər. Bir də ümumi tendensiyalar var ki, onlara yanaşma adətən eyni fəlsəfəyə malikdir. Müasir təhsilin ümumi tendensiyalarından danışarkən toxunulan ilk problemlərdən biri inklüziv təhsildir. İnsan haqlarının inkişafı, təhsil prosesinin müasirləşməsi, qloballaşma kimi kütləvi proseslər hər bir dövlətin inklüziv təhsil anlayışına daha həssas yanaşmasını tələb edir. Hazırda bu məsələ ilə ilgilənməyən az ölkənin adını çəkmək olar ki, bu da əsas etibarilə onların ağır sosial-iqtisadi durumu, qeyri-sabit siyasi quruluşu və s. səbəblərlə izah oluna bilər. İnklüziv təhsil kimi qayəsində humanizm elementləri duran problemlərin həllinə sosial rifahı yüksək olan ölkələrdə xüsusi diqqətlə yanaşılır. İnklüziv təhsil isə ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada hamının, ilk növbədə, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə ehtiyacı təmin edilir.

T. Xudaverdiyeva yazır:”İnklüziv təhsil ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların ehtiyaclarına uyğun həyata keçirilən təhsil prosesidir. Bu proses sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını təmin edən ən etibarlı vasitədir”(Xudaverdiyeva, 2021, s.51).

“İnklüziv təhsil” anlayışının geniş çərçivədə izah edilməsinə ehtiyac o səbəbdən yaranmışdır ki, təhsil işçiləri, idarəedici və digər orqanlar, təhsil siyasətini hazırlayan şəxslər qarşılıqlı əməkdaşlıq və dialoq üçün ümumi diskursiv sahəyə (diskursiv sahə intellektual və sosial səhələrin qarışığıdır ki, burada sosial əlaqələr müəyyən bir təcrübəyə çevrilir) malik olsunlar.

SİM uşaqların ümumtəhsil məktəblərində təhsili bir çox ölkələrin, eləcə də Finlandiyanın cəlb olunduğu inklüziv təhsil sisteminin qanunauyğun inkişaf mərhələsidir. Finlandiyada inklüziv təhsil qanunvericilik səviyyədə öz əksini tapıb. Yerli qanunlara görə, sağlamlığında məhdudiyyəti olan şəxslərin təhsili üçün diferensiallaşmış mühitin formalaşdırılması başlıca şərtdir. Milli tədris proqramına edilmiş xüsusi dəyişikliklərə əsasən, belə məhdudiyyəti olan uşaqlar da digərləri kimi kütləvi məktəblərdə təhsil ala bilərlər. Bundan əlavə, dövlət tədris-məsləhət mərkəzləri fəaliyyət göstərir ki,

onlar da fiziki qabiliyyətləri məhdud olan uşaqlara, onların valideynləri və pedaqoqlarına təhsil prosesində yardım edir. Mərkəzdə təşkil edilən uzunmüddətli kurslarla yanaşı, mütəxəssislərin məktəblərdə daha qısamüddətli treninqlər vasitəsilə prosesə müdaxilə halları tez-tez müşahidə olunur. Pedaqoqları hər növ fiziki məhdudiyyəti olan uşaqlarla işləmək üçün ciddi hazırlaşdırırlar. Bu baxımdan müəllimin tək təhsildən deyil, tibb və psixologiyadan da hazırlıqlı olması başlıca şərtdir. Finlandiyanın bu sahədə mütərəqqi dövlətlərdən biri olmasına baxmayaraq, ölkədə fəaliyyət göstərən 7 mərkəzə müraciətlər sabit xarakter daşımır. Valideynlər reabilitasiya mərkəzlərinə gec müraciət edirlər. Bu da onunla əlaqədardır ki, ölkədə sağlamlıqlarında məhdudiyyət olan uşaqlara dair vahid milli baza yoxdur.

İsveçdə sağlamlığında məhdudiyyət olan uşaqların kütləvi məktəblərdə təhsil alma hüquqları qanunla təsbit edilir. Bu məktəblərin maliyyə və sosial dəstəyini dövlət göstərir. çmYerli idarəetmə orqanları səviyyəsindəki təcrübəyə əsasən, qüsurlu uşaqlar da adi məktəblərdə təhsil alırlar. Ancaq həftədə bir neçə saat onlara xüsusi pedaqoq tərəfindən ayrıca sinifdə dərs keçilir. Xüsusi pedaqoqların qarşısında duran məqsəd məhdudiyyəti olan uşağı adi uşaqların təhsil aldıqları siniflərdə oxumağa hazırlamaqdır. Uşağın məktəbdə hər hansı problemi yaranarsa, Pedaqoji Şura toplaşır və qərar verir. Verilən qərar vəziyyətin müxtəlifliyindən asılı olur. Ola bilər ki, uşaq hətta məktəbdən birbaşa xəstəxanaya da göndərilsin.

Norveçdə xüsusi təhsil ehtiyacları olan şəxslərin təhsil alma hüquqlarına dair qanun fəaliyyət göstərir. Paralel olaraq fərqli kateqoriyalı məhdudiyyətli uşaqlara yardım mərkəzləri də mövcuddur. Məsələn, erkən autizm, görmə və eşitmə qabiliyyəti zəif olan uşaqlar belə mərkəzlərdə hər növ yardım görürlər. İnklüziv təhsilin həyata keçirilməsi üçün lazım olan pedaqoqlar isə universitetlərdə hazırlanır. Gələcək pedaqoqların keçdikləri xüsusi pedaqoji kurs var ki, burada inklüziv təhsilə geniş yer ayrılır. Pedaqoji təhsil alan tələbələr eyni zamanda, Avropa Birliyi ölkələrində bu istiqamətdə müxtəlif təcrübələr keçmək imkanına da malikdirlər.

Sağlamlığında məhdudiyyət olan uşaq ümumi məktəblərdə digər həmyaşıdları ilə birlikdə təhsil alır. Norveçdə adətən hər məktəbdə bir neçə belə uşaq olur və onlar bütün uşaqlarla eyni sinifdə oxuyurlar.

Daha bir Skandinaviya ölkəsi olan Danimarkada inklüziv təhsil hüququ nəinki qanuniləşdirilib, paralel olaraq inklüziv təhsilin reallaşdırılması üçün milli strategiya da hazırlanıb. Milli Resurs Mərkəzi bu prosesə nəzarət edir. İnklüziv təhsil sahəsində araşdırmalar aparan universitetlərin əməkdaşları tərəfindən formalaşdırılmış xüsusi qrup isə bələdiyyələrin bu sahədəki fəaliyyəti ilə maraqlanır və hesabatlar hazırlayır.

Pedaqoqların hazırlanması bakalavr və magistr sistemi ilə həyata keçirilir. İnklüziv təhsil sahəsində işləyəcək gənc pedaqoqları hazırlayarkən onların konkret pedaqoji situasiyaya necə reaksiya verəcəklərinə ağırlıq salınır, bu istiqamətdə müxtəlif pedaqoji məsləhətlər işlənib hazırlanır. Tədris proqramına əsasən, tələbələrin hamısı xüsusi kurs keçməlidirlər. Əgər onlardan hər hansı biliklərini daha da dərinləşdirmək istəyirsə, inklüziv təhsil sahəsində əlavə ixtisaslaşmaya nail olur.

Litva tərəfindən 2014- 2020-ci illər üçün hazırlanmış Təhsil Fəaliyyəti Planı xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üçün inklüziv təhsilin mövcudluğuna və çoxşaxəli peşəkar dəstəyin keyfiyyətinə diqqət yetirməkdədir. Litvada inklüziv təhsillə bağlı mövcud olan proqramlardan biri də, "Pul uşağı izləyir" və ya "Şagirdin bel çantası" layihəsidir. Layihənin əsas mahiyyəti sağlamlıq imkanları məhdud olan uşaqların maddi təminatında olan çatışmazlıqları aradan qaldırmaqdan ibarətdir. Bunun üçün sağlamlıq imkanları məhdud uşaqların ailələri verilən müavinətlə yanaşı, əlavə maliyyə vəsaitinə ehtiyac olduğu təqdirdə aidiyyatı üzrə qurumlara müraciət etməlidir. Bununla da onlar əlavə 35% maliyyə vəsaiti ilə təmin oluna bilərlər. Digər bir proqram olan "Sarı avtobus"layihəsi isə uzaq kənd yerlərində yaşayan, lakin maddi vəziyyəti stabil olmayan ailələrin övladlarının məktəbə gəlməsi üçün onların nəqliyyat vasitəsilə təmin olunmasından ibarətdir.

Avstriyada XX əsrin 80-ci illərində valideynlər XQEU üçün inklüziv təhsil tələbi ilə çıxış etməyə başladılar və bu tələblər əsasında pilot layihələrin icrasına başlandı. Hazırda 3 tip məktəbəqədər təhsil müəssisəsi var – ümumi, inklüziv və xüsusi. 1993-cü ildə qəbul edilmiş qanunla XQEU ümumtəhsil müəssisələrində ibtidai sinifdə təhsil almaq hüququ əldə etdi. 1996-cı ildən etibarən isə XQEU yuxarı siniflərdə də təhsil almaq hüququ əldə etdi. Bu yenilik orta məktəblərdə təhsilin keyfiyyətini artırmağa

(təlimin diferensiallaşdırılması, idarəetmə və dərs vəsaitlərinin təkmilləşdirilməsi) təkan verdi. Rayon təhsil idarəsi (xüsusi təhsil mərkəzlərinin (xüsusi məktəblər) rəyi əsasında) uşağın qüsurlarından asılı olaraq təlim prosesində əlavə dəstəyə ehtiyac olub-olmamasına qərar verir. Digər bir sıra Avropa ölkələrində olduğu kimi Avstriyada da xüsusi təhsil mərkəzləri inklüziv təhsil verən məktəblərə bütün lazımi köməkliyi edir (ekspert rəyi valideynlərlə iş, müəllimlərin təlimi və s.).

Avstriyada birgə təhsilin aşağıdakı modelləri tətbiq olunur:

1.İnklüziv siniflər – bu siniflərdə bir neçə müəllim (əsasən 2) komanda halında çalışır; 2. Müəllim köməkçisi olan dərslər – bu dərslərdə təhsil alan XQEU ehtiyaclarından asılı olaraq həftədə bir neçə saat müəllim köməkçisinin yardımından faydalanır.

Avstriyada eyni zamanda 10 müxtəlif təyinatlı xüsusi məktəb fəaliyyət göstərir. Burda kurikulum, təlim metodları və materiallar uşaqların ehtiyaclarına uyğunlaşdırılmışdır. Almaniya xüsusi təhsildə 1960-cı illərdən başlayaraq mütəmadi tənzimləmə işləri aparır (qanunvericilik, islahat və s.). XQEU bütün mümkün hallarda inklüziv təhsilə cəlb olunur, lakin bununla belə ölkə üzrə inklüziv təhsilə cəlb olunma səviyyəsi 20 faizdir. Almaniyada xüsusi təhsil müəssisələri öz əhəmiyyətini saxlamaqdadır. Belə ki, Almaniyada əqli və fiziki qüsurun formasından və dərəcəsindən asılı olaraq 10 müxtəlif təyinatlı xüsusi məktəb fəaliyyət göstərir. Lakin inklüziv təhsil ideyasının dalğası Almaniyadan da yan keçməyib. 80-ci illərdən etibarən inklüziv təhsil üzrə pilot layihələrin icrasına başlandı. 90-cı illərdən etibarən bu pilot məktəblər standart məktəblərə çevrildi.

Almaniyada XQEU üçün təşkil olunan təhsilin aşağıdakı formaları var:

1.İnklüziv təhsil - xüsusi qayğıya ehtiyacı olan uşaqlar ümumi təhsil müəssisələrində bu şərtlə təhsil ala bilərlər ki, təlim prosesində onlar üçün xüsusi dəstək təmin edilsin.

2. İnteqrativ təhsil (müştərək əməkdaşlıq meyarları əsasında) - eyni təhsil müəssisələrində təşkil olunan ümumi və xüsusi təhsil forması (birgə dərslər təşkil olunur, bu proses inklüziv təhsilə keçidi sürətləndirir).

3. Xüsusi təhsil üzrə resurs mərkəzləri – bu mərkəzlərin məqsədi xüsusi təhsil müəssisələrini geniş fəaliyyət və səlahiyyət sahibi olan resurs mərkəzlərinə çevirməkdir.

4. Fənlər üzrə xüsusi təhsil - xüsusi təhsil mütəxəssisləri müəyyən fənlər üzrə xüsusi qruplarda dərslər təşkil edir.

Yaponiya inklüziv təhsilin təşkilində aparıcı ölkələrdən biri hesab olunur. Bu ölkə qısa müddətdə sağlamlıq imkanları məhdud uşaqlara qarşı ayrı-seçkiliyə son qoydu, onlar üçün lazımi şəraitin yaradılmasına və cəmiyyətə adaptasiya olunmasına nail oldu. 1970-ci illərdən etibarən sağlamlıq imkanları məhdud şəxslər üçün təhsil imkanlarını genişləndirməyə şərait yaradan hüquqi və tənzimləyici baza hazırlamağa başladı. Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı milli standartları və dövlət siyasətini gücləndirən əsas qanunlar isə 1990-cı ildə qəbul edildi. Yaponiyada xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə adaptasiyası uşaq bağçasından başlayır və məktəb daxilində davam edən tədrisin ən yüksək səviyyəsini əhatə edir. Uşaqlara hələ kiçik yaşlarından sağlamlıq imkanları məhdud uşaqlara qarşı humanist münasibət göstərmək öyrədilir, köməyə ehtiyacı olanlara qayğı göstərmək vərdişləri aşılanır. Yapon məktəblərində inklüziv təhsilin daha bir xüsusiyyəti ondan ibarətdir ki, burada konsultasiya otaqları mövcuddur. Həmin adi məktəblərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar mütəxəssis məsləhəti ala bilərlər. Həmçinin ehtiyac olduğu təqdirdə, bəzi uşaqlara fərdi kömək göstərmək üçün repetitorlar da var. Yaponiyada inklüziv təhsilin məqsədi ölkə Konstitusiyasına və “Təhsil haqqında” əsas qanuna uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqların qabiliyyətlərinin və şəxsiyyətlərinin hərtərəfli inkişafı üçün lazımi şəraiti təmin etməkdən ibarətdir. Yalnız bu halda, sağlamlıq imkanları məhdud olan şəxs iş yerinə və həqiqi şəxsi xoşbəxtliyə arxalanmağa davam edə bilər. Sağlamlıq imkanları məhdud olan şəxslər məzun olduqdan sonra real iş imkanına sahib olurlar. Bu kateqoriyaya daxil olan vətəndaşları işlə təmin edən şirkətlər üçün xüsusi güzəştlər var.

İspaniya ölkəsində 1970-ci ildə general Frankonun ölümündən sonra bu ölkədə bir sıra sahələrdə yenidənqurma dövrü başladı. 1980-ci ildə müşahidə olunan ilkin dəyişikliklər sosial və siyasi sahələrlə yanaşı, təhsil sahəsini də əhatə edirdi. Bu sahədə qəbul edilmiş iki qanun mühüm rol oynayırdı: 1982-ci il,“Əlillərin Sosial İnteqrasiyası” Qanunu; 1985-ci il, “Xüsusi Təhsilin Tənzimlənməsi” Qanunu. Hər iki qanun həmin dövrdə “xüsusi təhsil” alan şəxslərin təhsillə bağlı problemlərinin həll edilməsində

əlamətdar hadisə hesab olunurdu. Bununla yanaşı, təhsil sahəsində həyata keçirilən bu kimi lazımi addımlar məktəbə inteqrasiya prosesinə təkan verdi. İspaniyada 1990-cı ildə Ümumi Təhsil Sisteminin Planlaşdırılması Qanunu (LOGSE) qəbul olundu və bununla da, xüsusi və ümumi təhsil forması vahid təhsil (ümumi kurikulum) sisteminə birləşdirildi. Qeyd etmək lazımdır ki, əslində, qanun həqiqətən də icbari orta təhsildə (12-16 yaş) inklüziv təhsilin yaradılması və müdafiəsi üçün, həmçinin ən azı tədris ili ərzində tələbələrin icbari təhsil sisteminə inteqrasiya olunması üçün effektiv həllər təklif edirdi. Təbii ki, həmin dövr üçün nəticənin müsbət olmasına baxmayaraq, qanunun həyata keçirilməsi ilə bağlı bir sıra maneələr var idi. İlkin maneələrə təlim, mentorluq, müxtəlif resurslar, maliyyə vəsaiti, müəllimlər və məktəblər üçün qarşılıqlı əlaqə imkanlarının olmaması daxildir. İnklüziv təhsilin inkişafında mühüm bir mərhələ 1994-cü ildə İspaniyada Xüsusi Ehtiyacı olan Şəxslər üçün Ümumdünya Təhsil Konfransının keçirilməsi idi. Bu konfrans vasitəsilə "Xüsusi ehtiyacı olan insanlar üçün təhsil sahəsində prinsiplər, siyasət və təcrübələr haqqında" bəyannamə qəbul edilmişdi. Həmin sənədin əsas məqsədi ölkələri "hamı üçün məktəb" yaratmağa çağırmaq idi. Bu cür təhsil təşkilatlarındakı müəllimlər insanlar arasındakı fərqin təbii olduğunu, bilik əldə etmə müddətinin uşağın xüsusiyyətlərinə uyğunlaşdırılmasını rəhbər tuturlar.

A.Nəzərova İspaniyada olan inklüziv təhsilin bir sıra güclü tərəfləri olduğunu göstərmişdir. Bu tərəflərə aiddir:

"- bütün vətəndaşlar üçün vahid təhsil sistemi mövcuddur;
-ibtidai və orta məktəblərdə dəstək və məsləhət verən mərkəzlər fəaliyyət göstərir;
- şagirdlərə xüsusi metodlarla kömək etmək üçün məktəblər tərəfindən inkişaf planları hazırlanır;
-müəllimlərin təlimlərə cəlb olunması daim diqqət mərkəzində saxlanılır;
-əlilliyi olan və ya olmayan uşaqların təhsil aldığı müəssisələrin sayı artırılır;
-valideynlər uşaqların təhsil həyatında yaxından iştirak edirlər;
- sağlamlıq imkanları məhdud şəxslərə qarşı sosial münasibətlər müsbət istiqamətdə dəyişib;
- təhsil təcrübələri daim inkişaf etdirilir"(Nəzərova, 2022, s.33).

Böyük Britaniya inklüziv təhsil praktikasının yayılması üçün, əsasən, qanunvericilik bazasını təmin etməyə üstünlük verib. Ölkənin təhsil sistemi ilə əlaqəli "xüsusi təhsil ehtiyacları" konsepsiyası ilk dəfə 1978- ci ildə xüsusi bir komitənin hesabatında təqdim edilib. Bu ifadə,"əlillik" anlayışı ilə eynilik təşkil etmir. "Xüsusi təhsil ehtiyacları" ifadəsi daha geniş anlayış olmaqla, yəni"əlil" kateqoriyasına daxil olmayan, lakin bəzi çətinliyi olan uşaqları da əhatə etməyə imkan verir. Digər tərəfdən, bu proqram hər bir şagirdin zəruri ehtiyaclarını müəyyən edərək, təhsil aldığı müddətdə onlara fərdi yanaşmağa imkan verir. Ölkənin inklüziv təhsillə bağlı milli siyasəti mürəkkəbdir və bu, ümumi ölkə strategiyasında, eləcə də maliyyə və inzibati əsaslarda öz əksini tapır.

İnteqrasiya yolu kimi qəbul edilən ABŞ təcrübəsi sağlamlıq imkanları məhdud olan uşaqların yaşıdlarının da daxil xüsusi təhsildən inklüziv təhsilə keçid dövrlərində müxtəlif ölkələrin inkişaf modelləri olduğu cəmiyyətə inteqrasiya olunmasını vacib sayırdı. Mütəxəssislər sağlamlıq imkanları məhdud uşaqlarla nə qədər sistemli və planlı surətdə işlər aparsalar da, xüsusilə görmə və eşitmə məhdudiyyətli uşaqlar arasında yenə də təhsilini normal bir sinifdə davam etdirməyə hazır olmayanlar var idi. Belə hallar bu problemin inteqrasiya üsulu ilə həll olunmasına böyük maneə yaratdı. Ona görə də XX əsrin 80-ci illərində ABŞ, Avropa təcrübəsinə üstünlük verdi.

Kanadada hər bir əyalətin özünəməxsus təhsil sistemi var və federal hökumətin bu sistemlərə təsiri çox zəifdir. Əyalətlərdə təhsil sistemi spesifik mexanizmlə fəaliyyət göstərsə də, onların hər birində xüsusi təhsilə yanaşmalar oxşardır. Kanadada müvafiq təhsil sənədlərində "xüsusi təhsil" fiziki və intellektual problemləri olan, davranış pozuntuları olan, öyrənmə vərdişlərinin spesifik pozuntuları olan, xüsusi istedada malik uşaqlar və digər xüsusi qayğı tələb edən uşaqlar üçün təşkil edilmiş təhsil nəzərdə tutulur. Lakin Kanadanın əyalətlərində XQEU-ya istinadən müxtəlif ifadələr işlədilir. Məsələn, Ontario və Nyu-Brunsvik əyalətlərində "müstəsna ehtiyacları olan uşaqlar", digər əyalətlərdə isə "xüsusi qayğıya ehtiyacı olan uşaqlar" terminalogiyası işlədilir. Dünyanın digər bölgələrində olduğu kimi Kanadada da tarix boyu əlilliyi olan insanlara təcridedici münasibət hakim olub. XX əsrin əvvəllərinə qədər uşaqların intellektual testlərdən keçməsi tələb olunurdu. Bu testlərdə lazımi nəticə göstərməyən uşaqlar ümumtəhsil məktəblərindən çıxarılıb institutlaşmış təhsilə cəlb olunurdular. Lakin XX əsrdən etibarən Kanadada mütərəqqi ideyaların formalaşması və yevgenika (insan nəslini bioloji

yolla yaxşılaşdırmaq haqqında nəzəriyyə) hərəkatının vüsət alması xüsusi qayğıya ehtiyacı olan insanlara münasibəti müsbətə doğru dəyişməyə başladı.

1991-ci ildə Təhsil Nazirliyinin yeni qərarına əsasən Ontarioda ümumtəhsil məktəblərinin imkanı olduğu halda və valideynlər tələb edərsə XQEU-nun ümumtəhsil məktəblərinə inteq rasiyası və inklüziv təhsilə cəlb olunması bir daimi norma kimi qəbul edildi. Kanadada təhsilin müasir tələblərinə uyğun olaraq inklüziv təhsil sahəsində mütəmadi islahatlar keçirilir.

Göründüyü kimi, inklüziv təhsilin inkişafına rəvac verən amillərdən biri də xüsusi təhsil təcrübəsinin zəngin olmasıdır. Bir sıra ölkələrdə inklüziv təhsilə radikal keçid həyata keçirilsə də xüsusi təhsil müəssisələrindən birmənalı şəkildə imtina edilməmiş, əksinə onların təcrübəsindən məharətlə istifadə edilmişdir. Çünki inklüziv təhsil ümumtəhsil müəssisələrində təşkil edilsə də xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləmək üçün ixtisaslaşmış kadrların təcrübəsindən istifadə edilir ki, bu kadrlar da, əsasən, xüsusi təhsil müəssisələrində püxtələşirlər

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ). Məktəbəqədər hazırlıq qruplarında inklüziv təhsilin təşkili. Bakı, 2021, 73 s.

2. Ağayev, Ş., Məmmədova, E., Əliyeva, X. (2012). “İnklüziv təhsil günün tələbidir”. “Azərbaycan məktəbi” jurnalı, №4.

3. İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı. Oxu materialı. http://www.tipii.edu.az

4. Hüseynzadə, R.L. (2013). Pedaqogika. Dərslik. Bakı, Mütərcim, 708 s.

5. Xudaverdiyeva, T. (2021).İnklüziv təhsildə təlimin təşkili prinsipləri:perspektivlər və nəticələr.“Azərbaycan məktəbi” jurnalı, №3, s.49-58

6. Nəzərova, A. (2022). Xüsusi təhsildən inklüzv təhsilə keçid dövrlərində müxtəlif ölkələrin inkişaf modelləri. “Azərbaycan məktəbi” jurnalı, №2, s.29-37

TƏHSİLDƏ İNKLÜZİVLİK VƏ İNTEQRASİYA

Zülfiyyə Tanrıverdiyeva
Mingəçevir Dövlət Universitetinin
Pedaqogika və psixologiya kafedrasının müəllimi
zulfiyye.tanriverdi@gmail.com

Summary

The thesis presents a brief analysis of the history of the development of integrative and inclusive education. In addition, various forms of inclusive education and mistakes made when introducing them into practice were analyzed. The author notes that as a result of timely psychocorrectional measures, the integration of people with disabilities into the social environment can be considered one of the humanitarian principles.

Key words: *inclusive education, reforms, innovations, integration, social environment, implementation, principles*

Резюме

В тезисе представлен краткий анализ истории развития интегративного и инклюзивного образования. Помимо этого, проанализированы различные формы инклюзивного образования и ошибки, допущенные при внедрении их в практику. Автором отмечается, что в результате своевременных психокоррекционных мероприятий интеграцию людей с ограниченными возможностями здоровья, в социальную среду можно считать одним из гуманитарных принципов.

Ключевые слова: *инклюзивное образование, реформы, инновации, интеграция, социальная среда, внедрение, принципы*

XX əsrin ikinci yarısından etibarən təhsildə təşəkkül tapmağa başlayan alnayışlardan biri də inklüziv təhsil oldu. Xüsusi təhsilin əsrlər boyun qəlibləşmiş nəzəri və praktiki təcrübəsinə meydan oxuyan inklüziv təhsil modeli pedaqoqları və təhsildə qərar öndələrini “xüsusi qayğı” anlayışına daha liberal yanaşmağa vadar etdi. Klassik baxış bucağına görə “xüsusi qayğı” yaxud ənənəvi təbirlə desək “əlillik” anlayışı

təhsil müəssisələrində aparılan təlimin çərçivəsinə sığmır, ona əks olan anlayış kimi fəhm olunurdu. Təəccüblü olsa da inklüziv təhsil elə məhz bu əksliklərin vəhdətindən yarandı. Belə ki, tarix boyu xüsusi təhsildə ənənəvi olaraq "psixi-tibbi yanaşma" üstünlük təşkil etmişdir. Bu yanaşma fərdin qüsurlarından törəyən maneələrin yalnız fərdin özündən qaynaqlandığını əsas tutur və fərdin ətraf mühitlə münasibətində mühitin təklif etdiyi imkan yaxud yaratdığı məhdudiyyətləri qətiyyən nəzərə almırdı. Lakin bunun əksinə olaraq xüsusi təhsildə yeni təmayül kimi peyda olan təşkilati yanaşma "diqqəti insanın qüsurlarına deyil, mühitin imkanlarına yönəltdi. Başqa sözlə, yeni paradiqmaya əsasən xüsusi təhsilin yeni pedaqoji fəlsəfəsində "qüsurlu insan yox, qüsurlu mühit vardır" prinsipi dominantlıq təşkil etməyə başladı. Bu səbəbdən də inklüziv təhsilin elmi-metodiki əsaslarını hazırlayan pedaqoqlar təlim prosesinin nəticə verməsi üçün əsas diqqəti qüsurlara deyil, bu qüsurların tələblərinə cavab verə bilən məzmun, təlim metod və materialları, əyani vəsaitlərin və maddi-texniki vasitələrin maksimum səmərəli istifadəsinə yönəltdi.

L.S. Vıqotski qeyd etmişdir ki, qüsur strukturundan asılı olmayaraq imkanları məhdud uşaqlarda psixi inkişaf qanunauyğunluğu normal uşaqların inkişaf qanunauyğunluğu ilə eynilik təşkil edir. Amma imkanları məhdud uşaqların psixi inkişafında zaman məfhumu üstünlük təşkil edir. Yəni, imkanları məhdud uşaqların psixi inkişafı normal uşaqlardan fərqli olaraq zaman etibarı ilə gec müddətdə həyata keçir. Bu səbəbdən onların psixi inkişafını normal uşaqlardan fərqli olaraq daha gec zamanlarda müşahidə etmək mümkündür (Vıqotski, 1983, s.408).

Psixi inkişaf qanunauyğunluq prinsiplərinə, ilk növbədə, psixikanın mərhələlərinin müəyyən ardıcıllığı, psixi funksiyaların inkişafına senzitiv dövrlərin təsiri, bütün psixi proseslərin inkişafında ardıcıllığa riayət olunma, psixikanın inkişafında fəaliyyətin rolu, ali psixi funksiyaların formalaşmasında nitqin rolu, psixikanın inkişafında təlimin aparıcı rolu aiddir.

Hal-hazırda müxtəlif ölkələrdə inklüziya termininin açıqlaması müxtəlifdir və çox vaxt radikal dərəcədə zidd fenomenləri əks etdirir. Bunlar: tam inklüziyanın mümkünlüyünə dair rəhbər strukturların qeyri-peşəkar entuziazmı; mənəvi və sosial məsuliyyətə əsaslanan inklüziya fəlsəfəsinin təbliğatı; birgə təhsilin real imkanlarının və mənfi və müsbət tərəflərinin təcrübədə təsdiqlənməsi və s. Alman dilli ölkələrdə inklüziya termini əvəzinə birgə təlim və ya inteqrasiya terminindən istifadə edilir. Bu təcrübə göstərir ki, kütləvi təhsil müəssisələrində inklüziya ilə əlaqədar aparılan dəyişiklər sərhədsiz deyil. Birgə təhsil fenomenində xüsusi diqqət cəmiyyətin, qrupun xüsusi ehtiyacları olan insanların qəbul edilməsi, onların hüquqlarının realizə edilməsinin sosial aspekti ilə bağlıdır.

İnteqrasiya sosial varlıq forması kimi xüsusi qayğıya ehtiyacı olan şəxslərin bütün sosial proseslərdə, əməkdə, təhsildə və s. fəal iştirakını nəzərdə tutur. Bir sıra ölkələrdə belə şəxslərin hüquqları qanuni yolla dövlət tərəfindən təsdiqlənib. Pedaqoji anlamda isə inteqrasiya altında bir kommunikativ məkanda bütün insanların birgə təhsil almalarını, fəaliyyətlərini, çalışmalarını və s. nəzərdə tutur. Xüsusi qayğıya ehtiyacı olan insanların imkan və ehtiyacları nəzərə alınmaqla yanaşı bu proseslərdə fəal iştirakını təmin edərək onların inkişafı və təhsili üçün şərait yaradılır.

Müasir xarici pedaqogika yarıməsrlik təcrübədə formalaşmış inteqrasiyanın və inklüziv təhsilin ümumi prinsiplərinə əsaslanaraq inteqrativ proseslərin inkişaf dərəcəsinin göstəricilərindən ibarət qiymətləndirilmə sistemini yaratmışdır (Malofeev, 2007, s. 269).

Bu göstəricilərdən bir neçəsinə nəzər salaq:

– inklüziv təlim ilə əlaqəli yeniliklərin həyata keçirilməsində bürokratik maneələrin olmaması;

– sağlamlıq imkanları məhdud olan uşaqların tərbiyəsi və təlimi kütləvi və xüsusi məktəbin mütəxəssis və peşəkarları tərəfindən aparılması ayrıca və müstəqil məsələ kimi qiymətləndirilməsi;

– bu problemə aidiyyatı olan mütəxəssislərin bir istiqamətdə birgə fəaliyyətə hazır olması;

– sağlamlıq imkanları məhdud uşaqların «Erkən aşkarlanma və erkən kompleks kömək sistemi» nin yaradılması və həyata keçirilməsi - bu gələcəkdə normal və sağlamlıq imkanlıq məhdud uşaqların birgə təlimindəki çətinlikləri bir qədər azaldar;

– inklüziyaya cəlb olunmayan uşaqlar üçün nəzərdə tutulan xüsusi məktəblərin funksıonal statusunun saxlanılması və onların şəraitinin yaxşılaşdırılması;

– uşaqların inkişafında ikincili pozulmaların qarşısını almaq məqsədilə onların çətinliklərin müəyyən edilməsi və fərdi təhsil mühitinin seçilməsi;

– xüsusi və ümumi təhsil sistemlərinin açıqlığı, yəni, lazım olarsa, uşağın bir təhsil sistemindən o birisinə sərbəst keçidinin təmin edilməsi;

– xüsusi qayğıya ehtiyacı olan uşağın ailəsinin təhsil prosesində fəal iştirakı;

– valideynlərin ümumtəhsil (inklüziv) və ya xüsusi məktəbin öz uşağı üçün seçmək hüququ və bu hüququn iqtisadi cəhətdən təmin edilməsi;

– inklüziv təhsilin əlçatmazlığı (nəqliyyat, yaşayış şəraiti və sosial münasibətlər, təhsil müəssisənin yaxınlığı və s.);

– uşaqların pedaqoji resurslara deyil, əksinə qayğıya ehtiyacı olan uşaqlara bütün pedaqoji resursların çatdırılması;

– könüllülük prinsipinin gözlənilməsi, yəni inklüziv təlim prosesinin bütün iştirakçıları bir biri ilə könüllü olaraq əməkdaşlıq edirlər;

– inklüziv prosesin müxtəlif formalarının tətbiqi - imkan və ehtiyaclarından asılı olaraq məktəbində qarışıq inklüziv siniflər və ya tam inklüziv siniflər ola bilər.

Yuxarıda göstərinlərə əsaslanaraq respublikada inklüziv təhsilin tətbiqi prosesinin qısa xarakteristikasını vermək istərdik. İndiki dövrün ən aktual problemlərindən biri normal sosiumda öz yerini tapmaq istəyən və yetişməkdə olan gənc nəslin mənəvi, psixi və fiziki sağlamlığıdır. Vaxtında aparılan psixokorreksiya tədbirləri nəticəsində imkanları məhdud insanların sosial mühitə inteqrasiya edilməsi humanist prinsiplərdən sayıla bilər.

Beləliklə, respublikada bu gün inklüziv təhsilin həyata keçirilməsi təhsil sistemində inteqrasiya innovasiyalarının tətbiqinin metodologiyasının dəyişməsini tələb edir. İnklüziv təhsil sistemli yanaşmanı, yəni dövlət səviyyəsində təhsil, sosial, normativ-hüquqi, iqtisadi və s. sahələrin uyğunlaşdırılmasını və müvafiqləşdirilməsini tələb edir.

Ədəbiyyat

1. Qasımov S., Kərimova E., Sultanova İ., Ağayeva T. (2006).İnklüziv təhsil sistemində ailə - məktəb, məktəb - valideyn münasibətləri. Bakı: Oka Ofset. 307 s.

2. Выготский Л.С.(1983). Собрание сочинений. В 6-и т.5, Москва: Педагогика, 408 с.

3. Соколова Н.Д., Калинникова Л.В. (2005). Дети с ограниченными возможностями: проблемы и инновационные тенденции в обучении и воспитании. Хрестоматия по курсу «Коррекционная педагогика и специальная психология». Москва: ООО «Аспект», 198 с.

4. Малофеев Н.Н. (2007). Специальное образование в меняющемся мире. Москва: Просвещение, 269 с.

5. Наумов А.А., Соколова В.Р.,Седегова А.Н (2012)., Интегрированное и инклюзивное обучение в образовательном учреждении. Инновационный опыт. Волгоград : Учитель 112 с.

SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏHSİLİNİN TƏŞKİLİ

Nəzakət Yusifova
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru,dosent
n.yusifova@ndu.edu.az

Резюме

В статье речь идет об организации воспитания детей с ограниченными возможностями здоровья. Было отмечено, что все дети, независимо от возможностей здоровья, семейного положения, навыков, религии, расы, имеют право на образование. В заключение сделан вывод о том, что для того, чтобы дети с ограниченными возможностями здоровья в Азербайджане, обучаясь вместе с другими детьми, более комфортно и быстро интегрировались в общество, подход общества к инклюзивному образованию должен измениться в лучшую сторону, должны быть созданы благоприятные условия для их вовлечения в образование и развития навыков, чтобы в будущем они могли занять более удобное и хорошее место на рынке труда.

Ключевые слова: *дети с ограниченными возможностями здоровья, специальные школы, социальная модель, инклюзивное образование, общеобразовательные школы*

Məlumdur ki, Azərbaycan Respublikasında hər bir vətəndaşın təhsil almaq hüququ var. Təhsil almaq sahəsində heç bir məhdudiyyət qoyulmur.Təhsilin məqsədi də elə təhsil alanların müəyyən ictimai statusa malik olmağından və öz sosial əhəmiyyətini təsdiq etməkdən ibarətdir. Azərbaycan Respublikasının Təhsil Qanununun 5.2 maddəsində qeyd olunur ki, "Dövlət cinsindən, irqindən, dilindən, siyasi əqidəsindən, milliyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir." (Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu, s.12) Amma biliklər əldə etmək, həmin bilikləri təkmilləşdirmək, öz ictimai əhəmiyyətini təsdiq etmək, cəmiyyətdə müəyyən mövqe tutma arzusu heç də hamı üçün reallığa çevrilmir. Belə insanlar arasında sağlamlıq imkanları məhdud olan uşaqlar da vardır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikamızda Sağlamlıq imkanları məhdud olan uşaqların təhsili ön plana çəkildi. Belə uşaqların təhsili problemi müəllim, psixoloq, pedaqoqların diqqətini cəlb etməklə yanaşı, Azərbaycan dövlətinin təhsil siyasətinin prioritetlərindəndir.Ulu öndər Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət hazırda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Azərbaycan müstəqillik illərində insan hüquqları, xüsusilə uşaq hüquqları ilə bağlı beynəlxalq saziş və konvensiyalara qoşulmuş, bununla bağlı üzərinə bir sıra öhdəliklər götürmüşdür. Həmin öhdəliklərdən biri də ayrı-seçkiliyə yol vermədən sağlamlıq inkanları məhdud uşaqların təhsil hüququnu təmin etmək üçün bütün səviyyələrdəonların təhsilin təşkil edilməsidir. Ölkəmizdə bu sənədlərdən irəli gələn vəzifələri həyata keçirmək məqsədi ilə müvafiq qərarlar qəbul edilmişdir.

Son illər istər məktəbəqədər, istərsə də orta təhsil sahəsində aparılan islahatlar sağlamlıq imkanı məhdud övladı olan valideynlər üçün yeni ümidlər yaradıb. Yuxarıda da qeyd etdik ki, ölkəmizdə bu istiqamətində məqsədyönlü addımlar atılıb və bu addımlar bu sahədəki mövcud çətinliklərin aradan qaldırılmasına imkan yaradıb.

Bildiyimiz kimi əvvələr belə uşaqları valideyinlər nəinki onları təhsilə cəlb etmirdilər, hətta onları cəmiyyətdən uzaqlaşdırırdılar.Hal-hazırda inklüziv təhsilin təşkili bu duşüncə tərzinə son qoydu.

Mütəxəssislər belə hesab edirlər ki, sağlamlıq imkanları məhdud olan uşaqlar öz sağlam həmyaşıdları ilə birlikdə böyüdükdə və təlim prosesində birgə iştirak etdikdə özlərini yararsız, köməksiz saymırlar. Belə uşaqlar sağlam uşaqlar kimi hərəkət etməyə, danışmağa, fəaliyyət göstərməyə, özlərində güc, qüvvət toplamağa səy göstərirlər. Düşdükləri mühitə adaptasiya olunaraq bir fərd, cəmiyyətə yararlı insan olduqlarını hiss edirlər. Belə bir şəraitdə onların sosiallaşması üçün münbit şərait yaranır.

Qeyd edək ki, hazırda sağlamlıq imkanları məhdud olan uşaqlara dəstək xidmətinin inkişafı "sosial model"lə müəyyən olunur. XX əsrin 80-ci illərinin ortalarından hazırki dövrə qədər - "sosial model" (İnkluziv siniflərdə təlimin təşkili, s.5) adlanır. Bu modelə əsasən sağlamlıq imkanlarından, ailə vəziyyətindən, bacarıqlarından, dinindən, irqindən asılı olmayaraq bütün uşaqların təhsil prosesində və həyatda bərabər-hüquqlu olmasını nəzərdə tutur.

Aparılan araşdırmalara əsasən müəyyənləşdirilmişdir ki, istər sağlam, istərsə də qeyri-sağlam insanların bərabər təhsil alma hüquqlarını təmin edir ki, bu da cəmiyyətdə sosial bərabərliyin qorunmasına, sağlamlığı məhdud uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaradır. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onlar arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir(2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud uşaqlar üçün inkluziv təhsilin inkişafı üzrə Dövlət proqramı).

Getdikcə dünyada genişlənən inklüziv təhsil hələ ki, ölkəmizdə tam təşəkkül tapmasa da, bu təhsil növünün yaranması və inkişafı istiqamətində müəyyən addımlar atılıb.

Təhsil Nazirliyinin həyata keçirdiyi ən uğurlu layihələrdən biri məhz inklüziv təhsillə bağlı layihə hesab olunur. Belə ki, ölkəmizdə "İnklüziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verildi. "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı əsasında Təhsil Nazirliyi və UNİCEF tərəfindən 2005-ci ildən etibarən Azərbaycanda birgə inkluziv təhsil layihələri həyata keçirilməyə başlanıldı.Və proqram çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı UNESCO-nun maliyyə dəstəyi ilə 2005-ci ildən 3 pilot layihənin icrasına başlanıldı. 15

ümumtəhsil məktəbi və 13 məktəbəqədər təhsil müəssisəsində 268 əlil uşaq layihələrin icrası müddətində inklüziv təhsilə cəlb edildi.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının Fəaliyyət Planında (2015-2023) məktəbəqədər və ümumi təhsil müəssisələrinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulmuşdur. (“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı).

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fon-dunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsillə bağlı görülən işlər təhlil edilib.Sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin təşkili nəticə etibarilə yeni mərhələyə keçib. Xüsusi təhsil sistemində interaktiv proseslər 2016-cı ildə həyata keçirilib və xüsusi qayğıya ehtiyacı olan uşaqların yaradıcılıq potensialının inkişafı sahəsində inklüziv təlimin keyfiyyətinin yüksəldilməsi istiqamətində səmərəli işlər görülüb. Sağlamlıq imkanları məhdud olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında “İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi” layihəsinin icrasına 2015-2016-cı tədris ilindən başlanılıb. Bu məqsədlə müəyyənləşdirilən pilot inklüziv məktəblərin (Bakıdakı 138, 220, 202 və 252 nömrəli məktəblər) hər birində iki sinif olmaqla, sağlamlıq imkanları məhdud olan 4 uşaq birinci sinfə qəbul edilib. Bakı şəhəri üzrə 4 ümumi təhsil müəssisəsində 86 şagird inklüziv təhsilə cəlb edilib.

Layihənin Fəaliyyət Planına əsasən, pilot məktəblərin direktorları, eksperimental siniflərin müəllimləri, xüsusi təhsil mütəxəssisləri üçün Almaniyada inklüziv təhsil üzrə təlim təşkil edildi və Bakıda onlara Almaniyanın Oldenburq Universitetinin 4 nəfərdən ibarət professor heyəti tərəfindən ikihəftəlik təlim keçirildi.

Məktəblərin yerləşdiyi ərazidə yaşayan əlil uşaqların valideynlərinə xüsusi və inklüziv təhsil üzrə maarifləndirici seminarlar keçirildi və həmin məktəblərdə loqopedik xidmət yaradıldı.

2017-ci il 14 dekabrda “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” təsdiq edildi.(İnkişaf Proqramının təsdiq edilməsi haqqında fərman (2018-2024 illər)xüsusi qayğıya ehtiyacı olan uşaqların (əlil uşaqlar) təhsilinin təşkili. Azərbaycan Respublikası. 2017). Proqramının məqsədi SİM məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.Hazırlanan sənəd layihələrinin, aparılan araşdırma və tədqiqatların nəticələrinin müzakirəsinin təşkili və müvafiq təkliflərin hazırlanması üçün İşçi Qrupu yaradıldı.

2018-ci ilin may ayından “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsinin icrasına başlanıldı. Bununla bağlı Bakı şəhəri, Quba, Şəki, Cəlilabad, Ağcabədi və Şamaxı rayonlarında müəllimlərin inklüziv təhsil sahəsində tədris imkanlarının və pedaqoji resurslarının təkmilləşdirilməsi nəzərdə tutuldu. Layihə çərçivəsində fəaliyyət 4 istiqamətdə – inklüziv təhsil üzrə tədris proqramı və materiallarının təkmilləşdirilməsi, müəllim və yardımçı heyətin bacarıqlarının artırılması, onlar üçün resursların yaradılması, inklüziv təhsil üzrə siyasətin təkmilləşdirilməsi və ictimai maarifləndirmə tədbirlərinin təşkili üzrə aparılırdı. Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filiallarında müəllim və yardımçı mütəxəssislərin inklüziv təhsil üzrə resurslara çıxışını təmin etmək məqsədilə İnklüziv Təhsil Mərkəzləri yaradıldı.Bunlarla yanaşı, respublikada inklüziv təhsilin qanunvericilik əsasları barədə məlumat kitabçası və digər maarifləndirici materiallar hazırlandı.

Eyni zamanda, müəllim və yardımçı heyətin bacarıqlarının artırılması istiqamətində təlimlər təşkil olundu və bu təlimlərdən ibtidai sinif müəllimləri, orta məktəb rəhbərləri, universitetlərin pedaqoji fakültələrində çalışan pedaqoq-müəllimlər və tələbələr faydalandılar.

Azərbaycanda inklüziv təhsillə bağlı nəzərdə tutulan innovativ layihələrə dəstək daha da artırılır. Bu məqsədlə 2019-cu ildə Heydər Əliyev Fondunun dəstəyi əsasında daha bir layihəyə başlanılıb. “1001 səsli hekayə” adı altında olan layihədə həm orta məktəb dərsliklərindən, həm də klassik və dünya ədəbiyyatından 5-16 yaşlı uşaqlar üçün yeni resurslar hazırlanılır. Bununla bağlı bir neçə video hazırlanıb və uşaqların ixtiyarına verilib.

Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin qalibi olan “Səsli dərslik” layihəsi bu gün də uğurla davam etdirilir. Kəlbəcər rayon 19 nömrəli tam orta məktəbin

Azərbaycan dili və ədəbiyyat müəllimi Nofəl Şirinovun innovativ bir layihə olan "Səsli dərslik" ideyası təsdiq edildi. Bu lahiyədə VI sinfin ədəbiyyat dərsliyindəki bədii mətnlər perspektiv planlaşdırmanın tələblərinə uyğun ardıcıllıqla professional diktor və qiraətçilər tərəfindən studiya şəraitində səsləndirilib və www.seslideslik.az saytına yerləşdirilib. Səsləndirilən bədii mətnləri şagirdlər saytdan dinləyərək öyrənə bilirlər. Eyni zamanda, layihə ilə bağlı mobil tətbiq də mövcuddur. Valideynlər həmin kitabı telefonlarına da yükləyə bilirlər. Qeyd edək ki, bu layihəyə böyük maraq doğurmuş, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üçün imkanların təmin olunmasında dəstək olmuşdur.

Bütün bunlarla yanaşı, sağlamlıq imkanları məhdud olanların rastlaşdığı bir çox problem var ki, onlar inkluziv cəmiyyətin yaranmasına və ümumiyyətlə təhsilli əhalinin yetişməsinə ciddi çətinliklər yaradır. Bu sahədə başlıca problem ölkəmizdə inkluziv təhsil sisteminin tam mövcud olmamasıdır. SİM olan uşaqların sağlam həmyaşıdları ilə birgə təhsili o zaman uğurla gedər ki, qüsurlu uşaqları oxudan ümumi məktəb müəllimləri uşaqların təlim və tərbiyə xüsusiyyətləri barədə tam məlumatlıdır və dərsləri təhsil sisteminin korrektiv istiqamətliliyini nəzərə alaraq keçirirlər.

Bu sahədə başlıca problemlərdən biri də ölkəmizdə inkluziv təhsilin tətbiq olunduğu məktəbəqədər müəssisələr və ümumtəhsil məktəblərinin sağlamlıq imkanları məhdud uşaqlarının sayına nisbətən azlıq təşkil etməsidir. Xüsusilə regionlarda bu uşaqların belə müəssisələrə cəlb olunmasındakı ciddi problemlər, vaildeynlərin evdə təhsili üstün tutması, xüsusu proqram və dərsliklərin azlığı da belə uşaqların inkluziv təhsilə cəlb olunmasını çətinləşdirir.Ümumtəhsil məktəblərinin müəllimlərinə informasiya və metodiki yardımı həmçinin qüsurlular üçün kitabxanalar göstərə bilər. SİM uşaqların həyatında ciddi irəliləyişlərə səbəb ola biləcək əsas amillərdən biri də müyəssər infrastrukturun yaradılmasıdır. Nəqliyyat strukturu və küçələrin, yolların quruluşu SİM olan şəxslərin müstəqil hərəkət etmlərində ciddi çətinliklər yaradır. Bu baxımdan da qeyd etmək lazımdır ki, müyəssər infrastrukturun olmadığı bir şəraitdə təhsillə bağlı proqramlar heç bir ciddi effekt verə bilməz.

Aparılan araşdırmalara əsasən Azərbaycanda 60 minə yaxın Sağlamlıq imkanları məhdud olan uşaq var. Onlardan yalnız 12 mini təhsilə cəlb olunub, o cümlədən, 1105-i xüsusi məktəblərdə, 2664-ü xüsusi internat məktəblərində, 7750-si evdə, 268-i isə inklüziv təhsil alır. UNICEF-in hesablamalarına görə, Azərbaycanda qeydiyyatdan keçmiş əlilliyi olan 72 000 uşaqdan 54 000 nəfəri ibtidai və orta məktəb yaşındadır. Yəni qeydiyyatda olan məktəb yaşlı əlilliyi olan uşaqların yalnız 20%-i təhsil alır.Onlardan isə yalnız 14638 nəfər təhsilə cəlb olunub. Evdə təqribən 9355 nəfər, xüsusi məktəblərdə 2558 nəfər, xüsusi internat məktəblərində təqribən 2725 nəfər təhsil alır. Yəni ümumilikdə hər 5 sağlamlıq imkanı məhdud uşaqdan 4-ü təhsildən kənarda qalır.

Sağlamlıq imkanları məhdud uşaqların linqvistik və texnoloji biliklərə, həm də, həyat üçün lazım olan bacarıqlara yiyələnmələri üçün inklüziv təhsilin rolu danılmazdır. Belə uşaqların həyata düzgün hazırlanması cəmiyyətin sosial inkişafı deməkdir. Məhz belə bir təhsil qorxu, təhqir, psixoloji və fiziki şiddət, ayrı-seçkilik kimi mənfi halların aradan qaldırılmasına şərait yaradar, saglam ,ümid dolu cəmiyyətin rüşeymini təşkil edər.

Sağlamlıq imkanları məhdud uşaqların təhsili məhz ona görə vacibdir ki, sanki onlar cəmiyyətin gözündən, könlündən uzaqda qalır, vaxtlarının çoxunu evdə keçirir, sosiallaşa bilmirlər. Bu isə onların cəmiyyətə inteqrasiyasının qarşısını alır. Belə uşaqlar məktəbdəki dərslərdə iştirak etmir və müxtəlif fəaliyyətlərə qoşula bilmirlər. Öz bacarıqlarını inkişaf etdirməyə lazımlı şəraiti tapa bilmirlər. Və bir çox halda valideynləri maddi çatışmazlıqlar, təhsil səviyyəsinin aşağı olması səbəbindən övladlarını həyata yaxşı səviyyədə hazırlaya bilmirlər. Həmin uşaqlar gələcəkdə əmək bazarında da iş tapmaqda çox çətinlik çəkirlər.

Sonda qeyd etmək lazımdır ki, Azərbaycanda sağlamlığı məhdud olan uşaqlar digər uşaqlarla təhsil alaraq cəmiyyətə daha rahat və sürətli inteqrasiya etmələri üçün cəmiyyətin inklüziv təhsilə yanaşması müsbətə doğru dəyişməli, təhsilə cəlb olunmuş və təhsildən kənarda qalmış belə uşaqları müəyyən edə bilmək üçün yaradılmış vahid məlumat bazası müntəzəm nəzarətdə saxlanılmalı, onların təhsil alması üçün əlavə xüsusi proqram və dərsliklər müəyyən edilməli, onlarla işləməli olan yetərli sayda kadr hazırlanmalı və gələcəkdə əmək bazarında özlərinə daha rahat və yaxşı yer tuta bilmələri üçün onların bacarıqları inkişaf etdirilməli və münbit şərait yaradılmalıdır. Çünki, belə uşaqların yaşama həvəsinin artırılması onların uğurlarının da artmasına səbəb olar.

Ədəbiyyat

1. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı. Bakı şəhəri, 19 yanvar 2015-ci il № 995
2. Ağayev Ş., Məmmədova E., Əliyeva X. “İnkluziv təhsil günün tələbidir”. “Azərbaycan məktəbi” jurnalı. Bakı 2012, №4
3. BMT-nin “Əlillərin hüquqları haqqında” Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı. Yanvar, 2011-ci il.
4. Əlil uşaqların təhsilə cəlb edilməsi ilə bağlı yeni planlar. Təhsil Nazirliyi, Press-reliz- Sual-cavab, 2014-cü il.
5. İnkişaf Proqramının təsdiq edilməsi haqqında fərman (2018-2024 illər)xüsusi qayğıya ehtiyacı olan uşaqların (əlil uşaqlar) təhsilinin təşkili. Azərbaycan Respublikası. 2017. Bakı: Respublikanın Qanunvericilik ToplusuAzərbaycan.
6. İnkluziv siniflərdə təlimin təşkili (2018). Bakı. Oxu materialı. http://www.tipi.edu.az
7. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud uşaqlar üçün inkluziv təhsilin inkişafı üzrə Dövlət proqramı. Bakı 2017
8. Qasımov S., Talıbov Y. Əlahiddə pedaqogikanın əsasları. Bakı, 2000, 120 s.
9. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə çıxış imkanları: real vəziyyət, beynəlxalq praktika və təkliflər (İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD), Bakı, 2016.
10. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu (2001).
11. “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı, “Hüquq ədəbiyyatı”, 2010. 80 səh.

STEAM DƏRSLƏRİNDƏ ƏLÇATANLIĞIN TƏMİNİ ÜÇÜN İNKLÜZİV STRATEGİYALAR

Fatimə Zülfüqar
Bakı Slavyan Universiteti
pedaqoq.fatime.zulfuqar@gmail.com

Summary

The article discusses the organization of inclusiveness in the STEAM educational model. Several strategies for optimizing teaching in the organization of STEAM training have been analyzed. The effectiveness of the kinesthetic aspect of STEAM lessons on inclusive classrooms has been investigated. The illustration of visual aids that will lead to the development of cognitive, affective and motor skills for teachers who will teach STEAM in inclusive classrooms is reflected. Also, the influence of STEAM classes on learning motivation in inclusive classes was analyzed.

Key words: *science, technology, engineering, mathematics, inclusion, training, limitation*

Резюме

В статье рассматривается организация инклюзивности в образовательной модели STEAM. Проанализировано несколько стратегий оптимизации преподавания при организации обучения STEAM. Исследована эффективность кинестетического аспекта уроков STEAM на инклюзивных классах. Отражена иллюстрация наглядных пособий, которые приведут к развитию когнитивных, аффективных и моторных навыков у учителей, которые будут преподавать STEAM в инклюзивных классах. Также было проанализировано влияние занятий STEAM на мотивацию обучения в инклюзивных классах.

Ключевые слова: *наука, технология, инженерия, математика, инклюзия, обучение, ограничение.*

Inclusive education ensures the equal rights of both able-bodied and disabled people to receive education, and this creates conditions for the protection of social equality in society and the fulfillment of educational and other special needs of disabled children.

The concept of inclusive education is based on the principle of international human rights. According to the Human Rights Convention, states must establish an education system in such a way that the right to education is extended to every child. It can be said with certainty that inclusive education expands personal opportunities of all children, helps to develop such qualities as humanism, tolerance, willingness to help..

Key words: *disabled children, joint education, humanism, inclusive society, inclusive education*

Резюме

Инклюзивное образование обеспечивает равные права как трудоспособных, так и инвалидов на получение образования, а это создает условия для защиты социального равенства в обществе и удовлетворения образовательных и других особых потребностей детей-инвалидов.

Концепция инклюзивного образования основана на принципе международных прав человека. Согласно Конвенции по правам человека, государства должны создать систему образования таким образом, чтобы право на образование распространялось на каждого ребенка. Можно с уверенностью сказать, что инклюзивное образование расширяет личностные возможности всех детей, способствует развитию таких качеств, как гуманизм, толерантность, готовность помочь.

Ключевые слова: *дети с ограниченным доступом к здравоохранению, совместное обучение, гуманизм, инклюзивное общество, инклюзивное образование*

İnklüziya (inclusion – daxiletmə) – bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir. İnklüziv təhsil isə ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada hamının, ilk növbədə, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə ehtiyacı təmin edilir. İnklüziv təhsil bütün uşaqların psixofiziki, intellektual və başqa xüsusiyyətlərindən asılı olmayaraq ümumtəhsil sistemində sağlam uşaqlarla birgə təlim – tərbiyəsidir. İnklüziya bütün şəxslər üçün, o cümlədən sağlamlıq imkanları məhdud şəxslər üçün təhsilin mümkünlüyünü nəzərdə tutur. İnklüziv təhsil istər sağlam, istərsə də əlillərin bərabər təhsil alma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur. (3 səh.4)

İnklüziv cəmiyyətin yaradılmasında inklüziv təhsil böyük bir addımdır. İnklüziv cəmiyyət bütün insanlara psixofiziki imkanlarından, cinsindən, yaşından, etnik və dini mənsubiyyətindən asılı olmayaraq tam və bərabər hüquqlu olmağa və ictimai həyatda iştirak etməyə imkan yaradır. Belə cəmiyyətdə insanın xüsusiyyətləri hörmətlə qarşılanır və qiymətləndirilir.

İnklüziv təhsil anlayışı beynəlxalq insan hüquqları prinsipinə əsaslanır. İnsan hüquqları Konvensiyasına görə dövlətlər elə təhsil sitemi qurmalıdır ki, təhsilalma hüququ hər bir uşağa şamil

edilsin.Müasir dövrdə inklüziya reallığa çevrilərək bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da tətbiq olunur. Yüksək sürətlə tətbiq olunaraq, inklüziv təhsil eyni zamanda təhsil sistemi qarşısında bir sıra mürəkkəb sual və yeni məsələlər qoyur. İnklüziyanın zəngin təcrübəsi və möhkəm hüquqi bazası olan xarici təhsil sistemindən fərqli olaraq respublikada inklüziv təhsil ilk dəfə 2004-cü ildə pilot layihə kimi UNİSEF və s. xarici təşkilatlar tərəfindən tətbiq olunmağa başladı.

Azərbaycanda müvafiq qanunvericilik çərçivəsində inklüziv təhsilin tətbiqi təmin edilir. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsi sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Bundan başqa, “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı məqsəd götürüb. 2023-cü ilin fevral ayında təsdiqlənən “İnklüziv təhsilin təşkili Qaydası” adlı sənəd isə ümumi təhsil müəssisələrində inklüziv təhsilin təşkili ilə bağlı məsələləri tənzimləyir. https://www.muallim.edu.az/news.php?id=26261

Hazırda inklüziv təhsilə ümumilikdə 400-ə yaxın ibtidai sinif şagirdi cəlb olunub. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil imkanlarının genişləndirilməsi məqsədilə onların elektron resurslardan (kompyüter, internet) istifadə etmək imkanları da yaxşılaşdırılır.

“Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”qanunda İnklüziv təhsil sinfində tədrisin təşkili ilə bağlı aşağıdakılar qeyd olunub:

1. Sağlamlıq imkanları məhdud uşaqların (əqli geriliyi olanlar istisna olmaqla) təhsili ümumi orta və tam orta təhsil səviyyələrində təhsil proqramının uyğunlaşdırılması vasitəsilə həyata keçirilir.

2. Əqli geriliyi olan sağlamlıq imkanları məhdud uşaqların təhsili ümumi orta təhsil səviyyəsində təhsil proqramının sadələşdirilməsi vasitəsilə həyata keçirilir.

3. İnklüziv təhsil təşkil edilən müəssisədə nitq pozuntusu olan uşaqlara kömək məqsədilə mütəxəssis üçün otaq və zəruri avadanlıqla təchiz edilməklə loqopedik xidmət təşkil olunur.

4. İnklüziv təhsil sinfində təhsil alan sağlamlıq imkanları məhdud uşağın sinifdə, qrup və fərdi məşğələlərdə iştiraketmə müddəti onun sağlamlıq imkanları nəzərə alınaraq müəssisənin rəhbəri tərəfindən təsdiq edilən fərdi tədris planı ilə müəyyənləşdirilir. Fərdi tədris planının forması Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

5. İnklüziv təhsil sinfində təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar tədris prosesində funksionallığın artırılmasına xidmət edən lazımi avadanlıq və vəsaitlərlə, didaktik materiallarla təmin olunurlar.

6. İnklüziv təhsil siniflərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların nailiyyətlərinin izlənilməsi məqsədilə “Ümumi təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 14.2-ci maddəsinə uyğun olaraq onların attestasiyası (məktəbdaxili qiymətləndirmə) təşkil edilir.

7. İnklüziv təhsil sinfində təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqda emosional-iradi sahədə və davranışında nəzərəçarpan pozuntular yarandığı halda, psixoloji-tibbi-pedaqoji komissiya Qanuna və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 aprel tarixli 74 nömrəli Qərarı ilə təsdiq edilmiş “Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə”nin tələblərinə uyğun olaraq onun xüsusi təhsilə cəlb olunması barədə qərar qəbul edir və s. (https://e-qanun.az/framework/53554)

Əminliklə demək olar ki, inkluziv təhsil bütün uşaqların şəxsi imkanlarını genişləndirir, humanizm, tolerantlıq, köməyə hazır olmaq kimi keyfiyyətləri inkişaf etdirməyə kömək edir. İnkluziv təhsil elə bir sistemdir ki, burada şagirdlər və müəllimlər ümumi məqsəd üzərində, yəni istisnasız olaraq bütün uşaqları əlçatan və keyfiyyətli təhsil ilə təmin etmək üzərində işləyirlər. İnklüziya bir sosial konsepsiya kimi ictimai əlaqələrin humanistləşməsini və sağlamlıq imkanları məhdud şəxslərin birgə keyfiyyətli təlimə hüququnun qəbul etməsini özündə əks etdirir.

XX-ci əsrin 70-80-cı illərində ABŞ – da inklüziyanın tətbiqi zamanı buraxılan səhvlər hazırda bizdə də mövcuddur və demək olar ki, təkrarlanır. Belə ki, vaxtıkən inklüziya əksər hallarda xüsusi hazırlığı olmayan ümumtəhsil məktəblərin müəllimləri, psixoloqları, məktəbəqədər müəssisələrin

tərbiyəçiləri tərəfindən həyata keçirilirdi. İnklüziv təhsil sistemində işləməyi bacaran kütləvi və xüsusi məktəb müəllimləri hazırlamaq üçün pedaqoji universitetlərin və pedaqoji kolleclərin texnologiyası, tədris – metodik təchizatı və şəraiti yox idi. Bunu isə yerlərdə yalnız yüksək ixtisaslı mütəxəssislər komandası etməli idi. Hazırda bizim ali təhsil müəssisələrimizin pedaqoji fakültələrində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləməyi bacaran, onlar üçün fərdi və adekvat inklüziya modeli seçməyə qadir olan korreksiya müəllimləri, psixoloqlar hazırlanır. (2, 2023, səh 117)

İnklüziv təhsilin uğuru müəllimlərin, məktəb rəhbərliyinin, ailələrin, şagirdlərin və təhsildə digər maraqlı tərəflərin töhfəsi və əməkdaşlığı ilə əldə edilir. Xüsusən də müəllimlərin hər bir fərdin özünəməxsus təlim proseslərinə qərəzsiz dəstək verməsi inklüziv təhsilin mühüm elementidir. Məktəb rəhbərliyinin və ailələrin bu prosesi dəstəkləməsi, uşaqların sosial və akademik inkişafına töhfə verməsi böyük əhəmiyyət kəsb edir.

İnklüziv təhsilin uğurlu olması üçün təhsildə əməkdaşlıq və maraqlı tərəflərin iştirakı böyük əhəmiyyət kəsb edir. Ailələr müntəzəm ünsiyyət və əməkdaşlıq yolu ilə şagirdin ehtiyaclarını və uğurlarını dəstəkləməli, məktəblər və cəmiyyət təhsildəki fərqləri qəbul edən və onlara müsbət münasibətlə yanaşan bir mühit təmin etməlidir.

İnklüziv təhsilin həyata keçirilməsində müxtəlif təlim ehtiyaclarına uyğun metod və materiallardan istifadə etmək vacibdir. Vizual, eşitmə və kinestetik materiallarla təmin etməklə tələbələrin üstünlük verdiyi öyrənmə yollarına uyğun mühitlərin təmin edilməsi uğurlu inklüziv təhsilin açarıdır.

Müəllimlərin inklüziv təhsili uğurla həyata keçirməyə yaxşı hazırlaşması vacibdir. Peşəkar inkişaf fəaliyyətləri vasitəsilə müəllimlər hər bir tələbənin fərdi ehtiyaclarını və öyrənmə tərzini nəzərə alaraq tədris strategiyalarını inkişaf etdirməyi, təhsil materiallarını və mühitlərini fərdiləşdirməyi, tələbələrin sosial və emosional inkişafına dəstək verməyi öyrənməlidirlər.

İnklüziv təhsilin indiki mərhələsinin bir xarakterik xüsusiyyəti də inklüziv təhsili tətbiq etmək üçün ümumtəhsil məktəbinin müəllimlərinin və müşayiətçi (köməkçi) müəllimlərin peşəkar hazırlığının aşağı olmasıdır. Onların özlərinin də xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləmək üçün korreksion pedaqogika, xüsusi pedaqogika və pedaqoji psixologiya mütəxəssislərinin köməyinə ehtiyacları vardır. İnklüziv məktəbə gələn hər bir uşaqla işləmək, hər birinə pedaqoji yanaşaraq fərdi yol tapmaq ümumtəhsil məktəb müəlliminin üzərinə düşür. Nə cür? Hansı yolla buna nail olmaq? – bu suallara bu gün birmənalı cavab yoxdur. Bunun üçün müəllim daim işləməli, axtarmalı, yenilikləri qəbul etməkdə cəsarətli olmalıdır.

Son vaxtlar ümumiyyətlə inklüziyada tədrisin keyfiyyətini təmin edən müəllimlərin və xüsusən də korreksiya müəllimlərinin hazırlığına böyük fikir verilir. Əgər ümumtəhsil məktəbinin əsas məqsədi uşaqlara bilik verib imtahanlara hazırlamaq, sinifdən – sinifə keçirib attestat verməkdirsə, inklüziv təhsilin əsas məqsədi bir qədər fərqlidir və xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata adaptasiyası və cəmiyyətə sosiallaşmasından ibarətdir. Bundan başqa, inklüziv təhsilin kurikulumunun hazırlanması və tətbiqi özü də xeyli hazırlıq tələb edir. Amma təəssüflə qeyd etməliyik ki, ölkədə bütün sağlamlıq imkanları məhdud uşaqları inklüziv təhsilə cəlb edib onların təhsil ehtiyaclarını ödəmək qeyri mümkündür. Respublikanın şəhərlərində və kəndlərində belə uşaqlar bir sıra səbəblərə görə hətta xüsusi təhsil sistemindən belə kənarda qalırlar. Bu səbəblər ixtisaslı pedaqoji kadrların çatışmazlığı, inklüziv və xüsusi məktəblərin yaşayış yerindən uzaqda, hətta başqa şəhərdə və rayonda olması ilə, iqtisadi imkansızlıqla və s. bağlıdır.

Müasir təhsil sistemi son vaxtlar təhsil verməklə yanaşı şəxsiyyətin psixofiziki imkanlarından asılı olmayaraq onun sosiallaşması funksiyasını da öz üzərinə götürmüşdür. Hazırda ictimai həyata tam daxil olmaq istəyən insanların buna nail olmaq üçün bizim köməyimizə ehtiyacları vardır. Bu kömək təhsildən başqa peşə təhsili və sosial – mədəni təhsili nəzərdə tutur. Ali təhsil müəssisələri artıq təhsil proqramlarını sağlamlıq imkanları məhdud uşaqların xüsusi təhsil ehtiyaclarını nəzərə almaqla tərtib etməlidir. Amma təəssüflə qeyd etməliyik ki, hələ indiyədək "sağlamlıq imkanları məhdud insanlar" anlayışının dəqiq və korrekt tərifi yoxdur. "Əlil" və "sağlamlıq imkanları məhdud insanlar" anlayışları məzmununa görə yaxın anlayışlardır.

Məktəblə yanaşı uşaq bağçalarında da sağlamlıq imkanları məhdud uşaqların mənimsəmə çətinliklərinin müəyyən edilməsi və onların aradan qaldırılması işini həyata keçirmək üçün məktəbəqədər

təhsil müəssisəsinin rəhbərliyi, psixoloq, defektoloq, loqoped, tərbiyəçi-müəllim, köməkçilər valideynlər birgə komanda şəklində çalışmalıdır. Müəssisədaxili resurslardan istifadə etməklə tərbiyəçi-müəllim və valideynlərin inklüziv sahədə bilikləri artırılmalıdır. Mənimsəmə çətinliklərini həll etmək üçün həm fərdi, həm də kollektiv iş formalarından istifadə edilməlidir. Sağlamlıq imkanları məhdud uşaqların adi uşaqlarla birgə təlim-tərbiyə prosesinə qoşulması tərbiyəçi-müəllim və köməkçisinin işinin vəhdət təşkil etməsi vacib şərtlərdəndir. Bu vəhdətin yaranması tərbiyəçi-müəllim və köməkçisinin qarşıya qoyulan vəzifələrinin yerinə yetirilməsindən asılıdır. Bu mənada tərbiyəçi-müəllimin bacarığından çox şey asılıdır. Belə ki, tərbiyəçi-müəllim qrupda adekvat şəraitin, yəni adaptiv təlim mühitinin (hər bir uşaq üçün tələbatı ödəyəcək) yaradılmasına; normal təhsil almağa mane ola biləcək hər hansı bir inkişaf pozulmasının (fiziki və ya əqli çatışmazlıqlara) fikir yönəltməyən şəraitinin yaradılmasına; xüsusi qayğıya ehtiyacı olan uşağın tipik məşğələ prosesinə qoşulması üçün rasional izah formalarından istifadə etməklə sağlamlıq imkanları məhdud uşağın fəal məşğələ prosesinə qoşulmasına şərait yaradılmasına məsuldur. Məşğələ prosesində tərbiyəçi-müəllim və köməkçisinin vəzifələrini aşağıdakı kimi təsvir etmək olar.

Tərbiyəçi-müəllim: Professional olaraq tədris materialını bilir, aydın, səlis, düzgün, ifadəli nitqi var; uşağın şəxsiyyətini inkişaf etdirən məşğələnin köməyi ilə korreksion məqsədlər qoyur və məqsədinə nail olur; zorakılıq (uşağın sözünü sərt şəkildə kəsmir, uşağın fiziki və ya psixi əziyyətlərini üzünə vurmur, gec cavaba hiddətlənmir və s.) nümayiş etdirmir, köməkedici (dəstəkləyici) təlimə üstünlük verir, tapşırıqların müxtəlif səviyyə üzrə bölünməsi üsulundan taktiki istifadə edir, məşğələni vaxtında bitirir, problem situasiyalardan (problem suallardan) istifadə edir, dialoji təlimə üstünlük verir, refleks təlimi (uşaqlar məşğələdən faydalandığını hiss etsin) təmin edir, digər fənlərlə (xüsusilə uşaqların daha çox maraq göstərdiyi fənlərlə (əlaqə yaradır), differensial təlimi təmin edir: (İnklüziv təhsilə cəlb olunmuş uşağın psixo-fizioloji fərdiliyini bilir; • Qavrama kanallarına bələddir; • Başadüşmə qabiliyyətini bilir; • Düşünmə növlərini bilir), müxtəlif səviyyəli ev tapşırığı verir, müxtəlif kommunikativ fəaliyyət növlərindən ustalıqla istifadə edir: (• Jest; • Mimika; • Simvol; • İşarə; • Söz), fərdi təlim irəliləyişlərini stimullaşdırır, gündəlik müşahidə aparmaqla hər bir inklüziv təhsildə iştirak edən uşağın səviyyəsi haqqında seminarlarda diskussiya qura bilir, inklüziv təhsilə cəlb olunan uşaqların istirahətini təmin edir, hər rübün (yarım il) sonunda məktəbəqədər müəssisənin rəhbərliyi qarşısında hesabatla çıxış edir, inklüziv təhsilə cəlb olunmuş uşaqların səhhəti ilə daima maraqlanır, bağçanın həkimi və valideynlərlə birlikdə bu sahədə iş aparır.

Tərbiyəçi köməkçisi - tərbiyəçi-müəllim ilə daima ünsiyyətdə olur, inklüziv təhsil formasının özəlliklərini bilir, “Bütün uşaqlar təhsil ala bilər” prinsipini əsas tutur, tərbiyəçi-müəllim ilə birlikdə sağlam yaşıdlarla inteqrativ təhsilə cəlb olumuş uşaqların birgə işini qurur, inklüziv təhsil forması üçün işlənmiş standartları izləyir, işində istifadə edir, tərbiyəçi-müəllim ilə birgə uşaqların təlim səviyyəsini izləyir, psixoloq və tərbiyəçi-müəllim ilə bərabər uşaqların təlim səviyyəsini təhlil edir, inklüziv təhsilə cəlb olunmuş uşaqların müvafiq bacarıq və vərdişlərə yiyələnmə istiqamətində işi qurur, attraksiya (cəlbetmə, yaxınlaşdırma) mexanizminin formalaşması üçün tərbiyəçimüəllim ilə birlikdə digər uşaqlar və onların valideynləri ilə iş aparır. (1, 2020,səh.24)

Tərbiyəçi-müəllim və köməkçisi yalnız bu vəzifələri bilmək və öhdəsindən gəlməklə uşaqların mənimsəmə çətinliklərini aradan qaldıra bilər.

“Sağlamlıq imkanları məhdud uşaqlar (şəxslər)” anlayışı daha geniş və ümumidir və özündə təkcə əlil statusu olan insanları birləşdirir. Dünyada belə insanlara daha zərif yanaşma mövcuddur. Belə ki, Qərbi Avropa ölkələrində və ABŞ – da “xüsusi təhsil ehtiyacları olan uşaqlar” (“children with special educational needs”) anlayışından istifadə edilir. “Əlil” sözünün işlədilməsi sağlamlıq imkanları məhdud uşaqlara (şəxslərə) qarşı müəyyən qədər kobud və hörmətsiz sayılır. Fiziki çatışmazlıqlar (zəif eşitmə, zəif görmə, uşaqlıqda aldığı fiziki qüsur) onların əqli inkişafına təsir etməmişdir, onların intellekti sağlamdır və onlarda ali təhsil almaq və həyatda özünə yer tutmağa motivasiyaları yüksəkdir.(2.səh 130)

İnklüziv mühitin yaradılması üçün sinifdə şagirdlər arasında hörmət, bərabərlik və konstruktiv münasibət olmalıdır. Belə mühiti məhz müəllim yaratmalıdır. Əgər müəllim avtoritar metodlardan istifadə edirsə, onda sinifdə mənfi psixoloji atmosfer yaranır və belə mühitdə uşaqlar öz xoşları və

istəkləri ilə heç nə eləmək istəmir. Müasir müəllim həm də menecer olmalıdır, yəni fəaliyyəti planlaşdırmağı, təşkil və nəzarət etməyi, qiymətləndirməyi, məsləhət verməyi və qərar qəbul etməyi bacarmalıdır.

Ailə və cəmiyyət inklüziv təhsilin əsas partnyorları kimi.

X.Ştern yazır: "Hər bir təhsil sistemi, mükəmməlliyindən asılı olmayaraq, valideynlərin laqeydliyi və müxalifətçiliyi qarşısında acizdir."

Uşağın maraqlarını nəzərə alan inklüziv məktəb cəmiyyətin bütün uşaqlarının üzünə açıq olmalıdır. İctimaiyyətin və valideynlərin diqqətinin inklüziv təhsilə cəlb edilməsi, sağlamlıq imkanları məhdud uşaqların bu təhsil forması haqqında dolğun informasiyanın təqdim edilməsi ən əsas məqsəd və məsələ olaraq cəmiyyətdə və məktəbdə belə uşaqlara qarşı ayrı seçkiliyin qarşısını almağa və düzgün münasibətin formalaşmasına kömək edər.

Valideynlərlə əməkdaşlığın əhəmiyyəti və effektivliyi ondadır ki, buna valideynlər özləri də can atır. Biz bu əməkdaşlığa məktəbin, təhsil sisteminin vəzifəsi kimi baxırıq, işin ən yaxşı cəhəti isə odur ki, əksər hallarda valideynlər özləri təşəbbüs göstərirlər. Tarixə müraciət etsək, bunun ən yaxşı nümunəsini görərik.

Vətəndaş müharibəsi başa çatdıqdan sonra ABŞ-da müxtəlif amillər təhsil sahəsində böyük çətinliklər və qayğılar ortaya çıxarmış oldu. Bu zaman bir qrup ana ABŞ vitse-prezidentinin xanımına müraciət ünvanladı. Bu, valideynlərin təhsil prosesinə ən ciddi və tarixi müdaxilələrindən sayıla bilər. Nəticədə ABŞ prezidenti və vitse-prezidentinin xanımlarının təşəbbüsü ilə Milli Valideyn-Müəllim Assosiasiyası yaradıldı və məktəb-valideyn əməkdaşlığında rəsmi xarakter aldı

Güclü təhsil sistemi ilə tanınan Yaponiyada valideynlər uşaqların təhsilində o qədər yaxından iştirak edir ki, xəstələnmiş uşağın əvəzinə onlardan birinin, xüsusən də ananın dərsə getməsi, qeydlər götürməsi adi hal alıb.

Yapon məktəblərində çox maraqlı bir təcrübə var, xüsusi gündəlik vasitəsi ilə daim valideyn və müəllim arasında danışıqlar gedir, fikir mübadiləsi və ünsiyyət qurulur. Valideyn gündəliyə öz müşahidələrini, uşaq haqda düşüncələrini, onun necə çalışması, nə zaman çalışmaması, digər davranışları və maraqları barədə qeydlər yazır. Buna cavab olaraq müəllim də öz qeydlərini və təbii ki, valideynin yazdıqlarına münasibətini, təklif və izahlarını yazır. Bu yazışma daim davam edir. (https://www.muallim.edu.az/news.php?id=26261)

Məktəb-ailə tərəfdaşlığını təmin etmək üçün ilk növbədə cəmiyyətin diqqətini inklüziya məsələsinə cəlb etmək, onu sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsili barədə maarifləndirmək lazımdır. Vacibdir ki, sağlamlıq imkanları məhdud uşaqlar təkcə məktəbdə deyil, cəmiyyətdə də özlərini lazımlı hiss etsinlər, onun fəaliyyətində fəal iştirak etsinlər. Təəssüf ki, bəzən hətta valideynlər belə sağlamlıq imkanları məhdud uşaqlara qarşı ayrı-seçkilik nümayiş etdirirlər. Buna görə də məktəb geniş maarifləndirmə işləri aparmalı, valideynləri və ictimaiyyəti sosial və təhsil inklüziyası barəsində məlumatlandırmalıdır.

Ədəbiyyat

1. L.Rəfiyeva, M.Məmmədova, S.Abbasova, E.Yusifova. İnklüziv təhsilə cəlb olunan uşaqlarla işin aparılması, Bakı-2020
2. Məktəbdə psixoloji xidmətə dəstək, ARTİ. BAKI – 2023
3. İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı, Bakı-2018

İstinadlar

1. https://www.static.inkluzivtehsil.edu.az/book/files/%C4%B0nkl%C3%BCziv%20t%C9%99hsil.pdf
2. https://www.muallim.edu.az/news.php?id=26261
3. https://e-qanun.az/framework/53554

İNKLUZİV TƏHSİLİN HÜQUQİ ASPEKTLƏRİ

Sevda Abdullayeva, t.ü.f.d., dos.
Elgün Bayramov, t.ü.f.d., dos.
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə
sevda.abdullayeva.1986@mail.ru

Summary

Short. Inequity, exclusion and segregation in education are concepts that constantly make their presence felt in education systems. Although school stakeholders and politicians have proposed different ways to solve the problem, it is considered a major problem for today's modern education systems. Although developed countries can reduce educational disparity, segregation and isolation through their policies and developments, they will not be able to eliminate them completely. One of these prepared policies is inclusive education policies, which we have repeatedly observed and newly integrated into the Azerbaijan Education System.

Key words: *law, inclusion, unity, difference, education, school*

Резюме

Неравенство, изоляция и сегрегация в сфере образования – это концепции, которые постоянно ощущают свое присутствие в системах образования. Хотя заинтересованные стороны школ и политики предлагают разные пути решения этой проблемы, она считается серьезной проблемой для сегодняшних современных систем образования. Хотя развитые страны могут уменьшить образовательное неравенство, сегрегацию и изоляцию посредством своей политики и развития, они не смогут устранить их полностью. Одной из таких подготовленных политик является политика инклюзивного образования, которую мы неоднократно наблюдали и которую недавно интегрировали в систему образования Азербайджана.

Ключевые слова: *право, инклюзия, единство, различие, образование, школа.*

Təhsildə bərabərsizlik, ayrı-seçkilik və təcrid təhsil sistemlərində öz varlığını daim hiss etdirən anlayışlardır. Məktəbin maraqlı tərəfləri və siyasətçilər problemin müxtəlif həll yolları təklif etsələr də, bu, günümüzün müasir təhsil sistemləri üçün mühüm problem kimi qiymətləndirilir. İnkişaf etmiş ölkələr hazırladıqları siyasət və layihələrlə təhsildə bərabərsizliyi, ayrı-seçkiliyi və təcridi azaltsalar da, onları tam aradan qaldıra bilməyiblər. Hazırlanan bu siyasətlərdən biri də hazırda tez-tez eşitdiyimiz və Azərbaycan Təhsil Sisteminə yeni inteqrasiya olunan inklüziv təhsil siyasətləridir. İnklüziv təhsilin əsasını 1948-ci il dekabrın 10-da BMT-nin İnsan Hüquqları Komissiyası tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qeyd olunan təhsil hüququ təşkil edir. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqlarının Ümumdünya Bəyannaməsi 20 noyabr 1959-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş və iştirakçı dövlətlər tərəfindən qüvvəyə minmişdir. Bu bəyannamə ilə üzv ölkələr uşaqların din, dil, irq, rəng, cinsi, milli, etnik və sosial mənşəyinə, siyasi və ya digər əqidəsinə, doğum və ya digər şərtlə faydalanmaq hüququna malik olduqlarını bəyan etdilər (Direk və Dilber, 2020).BMT-nin Ümumdünya Uşaq Hüquqları Bəyannaməsi uşaqların sahib olduğu bir çox hüquqların dövlətlər tərəfindən tanınması ilə bu sahədə görülən və ya görüləcək işlərin əsasını təşkil edir (Pijl, Meijer və Heqarti, 1997). Aşağıda inklüziv təhsilə gedən yolda mühüm mərhələlər xronoloji ardıcıllıqla verilmişdir.

1. İnklüziv təhsilə doğru beynəlxalq təməl daşlarıBeynəlxalq Bəyannamələr və Konvensiyalar 1948
2. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (Maddə 26) 1966
3. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt 1982
4. Əlillər Haqqında Dünya Fəaliyyət Proqramı 1990 Jomtien (Tayland)
5. Hamı üçün Təhsil Konfransı (EFA) 1993
6. Əlillər üçün Bərabər İmkanlar üzrə Standart Qaydalar 1994
7. UNESCO Salamanka Bəyannaməsi və Xüsusi Ehtiyaclı Təhsil üzrə Fəaliyyət Çərçivəsi 2006

Dakar Dünya İqtisadi Forumu BMT-nin İnsan Hüquqları Konvensiyası 1990-cı ildə Taylandın Jomtien şəhərində keçirilən beynəlxalq konfransda ilk dəfə dünya məktəblərində "Çox sayda həssas və təcrid olunmuş şagirdin varlığı" konfransda gündəmə gəlmiş və əlil tələbələrdən başqa şagirdlərin əlilliyi səbəbiylə dezavantajlı yoxsulluq, mədəniyyət, müharibə və coğrafi mövqe konfransın diqqət

mərkəzində oldu (Sinqal, 2008; Dreyer, 2017-dən sitat gətirdi). 1990-cı illərin əvvəllərindən YUNESKO hamı üçün təhsil konsepsiyasını dəstəkləyəcək təhsil siyasətini inkişaf etdirməyi və davam etdirməyi qarşısına məqsəd qoymuşdur. Bütün hərəkat üçün təhsil bütün uşaqları, gəncləri və böyükləri əhatə edən keyfiyyətli təhsil yanaşmasının yaradılmasına əsaslanır. Bütün təhsil hərəkatının ilk illərindən inklüzivliyin təkcə təhsil sahəsində deyil, həm də uzunmüddətli perspektivdə sosial səviyyədə əldə olunası bir məqsəd olduğu vurğulanır (Çelik, 2017).YUNESKO-nun 2019-cu il üzrə Qlobal Təhsil Monitorinqi Hesabatına əsasən, 2017-ci ildə dünyada 64 milyonu ibtidai məktəb yaşında, 61 milyonu orta məktəb yaşında, 138 milyonu isə daha yüksək səviyyələrdə olmaqla, ümumilikdə 263 milyon uşaq təhsil hüququndan yararlana bilməyib. Dreyerdən uyğunlaşdırılmışdır (2017). UNICEF-in dərc etdiyi "Oğurlanmış gələcək: Gənc insanlar və məktəbdən kənar" adlı hesabata görə, münaqişə və təbii fəlakətlərdən təsirlənən ölkələrdə yaşayan 5-17 yaşlı hər üç uşaq və gəncdən biri (təxminən 104 milyon uşaq və gənc) məktəbdə yoxdur. Bu, dünyada məktəbə çıxışı olmayan uşaqların sayının üçdə birindən çoxunu təşkil edir. Dünya üzrə məktəbdən kənarda qalan 5-17 yaş arası uşaq və gənclərin ümumi sayı 302,7 milyon nəfərdir. Yenə hesabata görə, münaqişə və fəlakətlərdən əziyyət çəkən ölkələrdə yaşayan 15-17 yaşlı hər beş uşaqdan birinin heç vaxt məktəbə getmədiyi və hər beş uşaqdan ikisinin ibtidai təhsilini başa vurmadığı bildirilir (UNICEF, 2018). 21-ci əsrdə baş verən müharibələr, böyük köçlər və dövlətlərin yaşadığı sosial, siyasi və iqtisadi təlatümlər uşaq hüquqlarını bir daha gündəmə gətirib və bu məsələyə həssas olan bütün ölkələr və beynəlxalq qurum və təşkilatlar uşaqların hüquqlarını təmin etmək üçün yollar axtarırlar. Bu kontekstdə UNESCO 2005-ci ildə "İnklüziv təhsil" konsepsiyasını müəyyən etmişdir.YUNESKO-nun tərifinə görə, İnklüziv Təhsil; Bu, öyrənmədə iştirakın artırılması və təhsil sistemində ayrı-seçkiliyin azaldılması yolu ilə bütün öyrənənlərin, mədəniyyətlərin və icmaların müxtəlif ehtiyaclarına cavab vermək prosesidir. Bu proses öyrənmə yaşındakı bütün uşaqları əhatə edən ümumi baxış və bütün uşaqları öyrətməyin dövlətlərin məsuliyyəti olduğuna inanmaqla məzmun, yanaşma, struktur və strategiyalarda mühüm dəyişiklikləri əhatə edir. UNESCO inklüzivliyi "şagird müxtəlifliyinə müsbət cavab vermək və fərdi fərqlərə problem kimi deyil, öyrənməni zənginləşdirmək imkanları kimi baxmaq üçün dinamik yanaşma" kimi qiymətləndirir (UNESCO, 2005). İnklüzivlik və inklüziv təhsil nisbətən yeni anlayışlar olsa da, inklüzivlik anlayışı son otuz ildə Avropada sosial nəzəriyyələr daxilində yaranıb və cəmiyyətin kənarında əlverişsiz vəziyyətdə yaşayan fərdlərin və qrupların daxil edilməsinə yönəlmiş müdaxilələri təsvir etmək üçün istifadə olunur. İnklüziv təhsil termini daha sonra adi məktəblərdən kənarda qalan bütün uşaqların təhsili üçün müəyyən edilmişdir (sitat: Terzi, 2014). İnklüziv təhsilin ümumtəhsil sistemi daxilində məktəblərin daha inklüziv olması ilə əldə oluna biləcəyi yanaşması bir çox beynəlxalq qurumlar tərəfindən qəbul edilmişdir. Başqa sözlə, müvafiq şəraitin yaradılması və lazımi tədbirlərin görülməsi ilə bütün uşaqların ümumi təhsil sisteminə daxil edilməsi inklüziv təhsilin əsas şərti kimi qəbul edilir. Bu yanaşmayaYUNESK üç fərqli əsasla yanaşmşdır. Təhsil əsaslandırması ondan ibarətdir ki, inklüziv məktəblər fərdi müxtəlifliyə cavab verən tədris metodlarını inkişaf etdirir və bu, şagirdlərə fayda gətirir. Sosial əsaslandırma ondan ibarətdir ki, inklüziv məktəblər daha ədalətli və inklüziv cəmiyyətin əsasını qoyaraq münasibətdə dəyişiklik yaradacaq. İqtisadi əsaslandırma ondan ibarətdir ki, bütün şagirdləri bir yerdə oxuyan məktəblər müxtəlif qruplar üçün müxtəlif məktəblərin yaradıldığı daha mürəkkəb sistemdən daha az xərc tələb edir (UNESCO, 2009). Son illərdə dünya liderləri növbəti 15 il ərzində üç mühüm vəzifəyə nail olmaq üçün 17 qlobal məqsəd barədə razılığa gəliblər. Üç mühüm mövzu açılıb: ifrat yoxsulluğa son qoymaq, bərabərsizlik və ədalətsizliklə mübarizə və iqlim dəyişikliyi ilə mübarizə. 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Sammitində 193 ölkənin imzası ilə qəbul edilmiş "Dayanıqlı İnkişaf Məqsədləri"nin məqsədi dünyamızın üzləşdiyi aktual ekoloji, siyasi və iqtisadi problemləri həll edən universal məqsədlər toplusu yaratmaqdır. Bu inkişaf məqsədlərinin dördüncü maddəsi "Keyfiyyətli təhsil" başlığı altında "hər kəs üçün inklüziv və bərabər, keyfiyyətli təhsilin təmin edilməsi və ömürboyu təhsilin dəstəklənməsi" kimi izah olunur. Onun alt məqsədlərinə "2030-cu ilə qədər bütün qızların və oğlanların pulsuz, ədalətli və keyfiyyətli ibtidai və orta təhsili başa vurmasının təmin edilməsi, bununla da müvafiq və effektiv təlim nəticələrinin əldə edilməsi" və "2030-cu ilə qədər təhsildə gender bərabərsizliyinin aradan qaldırılması" və həssas insanların təmin edilməsi daxildir. Əlilliyi olan insanlar, yerli əhali və həssas uşaqlar da daxil olmaqla, bütün səviyyələrdə təhsil və peşə

hazırlığına bərabər çıxış imkanına malikdirlər” və “uşaqlar, əlillər üçün təhsil imkanlarının yaradılması və inkişafı, gender bərabərliyinə həssas, hamı üçün təhlükəsiz, qeyri-zorakılıq , inklüziv" və effektiv öyrənmə mühitlərinin yaradılması" mövzusunda inklüziv təhsilə xüsusi diqqət yetirilmişdir (UNDP, 2015). İnklüziv təhsil müxtəlifliyə dəyər verir, cinsi, etnik mənsubiyyəti, sosial sinif, sağlamlıq, sosial iştirak və uğur kimi səbəblərə görə heç kimin təhsil proseslərindən kənarda qalmamasını və hər kəsin sistem tərəfindən mənimsənilməsini təmin edir (UNESCO, 2009). İnklüziv təhsil termini müxtəlifliyi özündə birləşdirən və bu müxtəliflik üçün təhsili fərqləndirən təhsil sistemi deməkdir. Xüsusilə fərdləri hər cür ayrı-seçkilikdən, mənfi münasibətdən və qərəzdən uzaq tutaraq, bütün təhsil imkanlarından bərabər şəkildə faydalanmalarını təmin edərək, uşağın rifahının yaxşılaşdırılması bu anlayışın əsasını təşkil edir.

Ədəbiyyat

1. Direk, A. ve Dilber, Y. (2020). İlkokulmüdürlerininbakışaçısıylakapsayıcıeğitim, International Social Science Journal, 57(6), 754-767.
2. Dreyer, L., M. (2017). Inclusive education, Education Studies for Initial Teacher Training, (Editors: L, Ramrathan; L Le Grange and P., Higgs), C (26), Juta & Company (Pty), Cape Town.
3. Çelik, R. (2017). Adalet, kapsayıcılıkveeğitimdehakkaniyetlifırsateşitliği, Fe Dergi 9 (2), 17-29
4. Pijl, S.,P., Meijer, J.,W. ve Hegarty, S. (1997). Inclusive education: A global agenda, Routledge, USA.
5. Stubbs, S. (2008). Inclusive education: Where there are few resources, Oslo: The Atlas Alliance, S:27
6. Terzi, L. (2014). Reframing inclusive education: Education equality as capability equality, Cambridge Journal of Education, 44 (4).
7. UNESCO (2009). Policy guidelines on inclusion in education, Fransa: UNESCO.
8. UNDP (2015). Sürdürülebilirkalkınmaiçinküreselamaçlar,

PERIODIZATION OF FORMATION AND DEVELOPMENT OF INCLUSIVE EDUCATION

Günay Ağayeva
Bakı Slavyan Universiteti
aghayevagunay1@gmail.com

Xülasə

Məqalədə adi uşaqlar, inkişafda qüsurlu və xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün birgə (inklüziv) təhsilin formalaşması və inkişafının dövrləşdirilməsi təqdim olunur. İnklüziv təhsilin uğurlu olmasına təsir edən amillər müəyyən edilir və bu təhsil fenomeninin inkişaf perspektivləri nəzərdən keçirilir.

Açar sözlər. *İnklüziv təhsil, inteqrasiyalı təhsil, inklüziyanın inkişaf mərhələləri, normallaşma prinsipi, ünsiyyət.*

Резюме

В статье представлена периодизация становления и развития совместного (инклюзивного) образования обычных детей и детей с отклонениями в развитии и особыми образовательными потребностями. Выявлены факторы, влияющие на успешность инклюзивного образования, и рассмотрены перспективы развития этого образовательного явления.

Ключевые слова. *Инклюзивное образование, интегрированное образование, этапы развития инклюзии, принцип нормализации, коммуникация.*

The pedagogical idea of the joint education of normal children and children who deviate from the normative development is already found in John Amos Comenius' "Great Didactics". He wrote: "...these defects and deviations in ability are best helped when they are new...there must be such an order that the slow with the quick, the foolish with the wiser, the obstinate with the obedient, and those who rule

all alike." But with instructions and examples when they need a guide... I see this mixing not only concerning space. attitude to help..." (Назарова, 2015, p. 89)

The following five stages can be distinguished in the history of the formation and development of inclusive education. The first, "romantic" phase (in fact, when the phenomenon of cooperative learning emerged in Western European educational practice) covers the first half of the 19th century. At the beginning of the 19th century. The idea of co-education has been a topic of discussion among progressive educators and has been successfully implemented in some European countries. Historians of German special pedagogy consider Samuel Haynike (1727 - 1790), the founder of German deaf pedagogy, and the organizer and director of the first educational institution (school) for children with hearing and speech impairments in Germany, to be one of the pioneers of this idea. In his early work, he proposed the creation of special classes for deaf children in the public-school structure, to be taught by a specially trained teacher. S. Geinicke's ideas remained unclaimed for several decades, but in the first half of the 19th century. The ground was already prepared for their implementation. In 1803, a school for the poor in Seitz (Germany) opened an additional class for "mentally defective children". The work experience described by the teacher of this school I. T. Weise (1793 - 1859) began to be used in schools in Germany, in "extra help classes" for children with mental retardation (Каменский, 2016, s. 90).

In Bavaria in 1829, a discussion was initiated about the possibilities of implementing compulsory education for deaf children and ways to organize such education. Many teachers noted that teaching children with developmental disabilities (deaf, blind) in a public school environment allows them to establish contacts and practice communicating with the outside world. It was assumed that educating such children in a regular school would be cheaper than in a special boarding school if a specially trained teacher worked with them. To this end, teachers' seminaries held regular seminars for teachers of public schools in schools for deaf children. According to data from 1837, only for 2 years (1832 - 34) in the year. Erfurt and Halbershadt trained about a hundred seminarians who could work not only in schools for the poor, where there were many students with learning difficulties but also with deaf children. Industrial development and the growing need for skilled, and therefore literate, workers in European countries led to the introduction of laws on compulsory primary education. This led to an increase in the number of elementary schools and overcrowding of classes in them(Lowe, 2022, p. 98). Such educational conditions for children with educational difficulties, with mental retardation, deaf, and blind became unacceptable, therefore, more and more often, additional classes or additional help classes were opened for children who could not cope with the compulsory program. Since 1850, France has taken the baton of experiments in joint education: Doctor of Medicine, otolaryngologist at the Paris National Institute of the Deaf and Mutes, Alexandre Blanchet (1817 - 1867) opened classes for deaf children in Paris municipal schools. He placed children with hearing impairments in general classes. A. Blanchet found support for his idea in the Trustee Society of the Deaf and the French Ministry of Education. The commission, which subsequently checked the results of joint education, noted success in learning and communication among deaf children, which was achieved with a small class size, an easy school curriculum, and the presence of a teacher from a school for deaf children in the classroom. The experience of A. Blanchet became known to his contemporaries in Russia thanks to the translation by Ya. T. Speshnev, director of the St. Petersburg School for the Deaf-Mute, of his book “A Guide for a Teacher on Teaching the Deaf-Mute in Public Schools.” However, permission to conduct such an experiment in St. Petersburg schools was not received from the Ministry of Public Education(Lowe, 2022, p. 78).

There were other experiences of joint education of children with developmental disabilities and ordinary children (Austria, Italy, and other countries). In the second half of the 19th century. The interest of European pedagogy in the integrated education of children with deviations from normative development in public schools decreases as qualification education is introduced. Practice has shown that their education requires special pedagogy that would recognize the unique development of these children, and their special educational needs and, accordingly, structure the process of training and education specially. This became visible as laws on compulsory primary education were adopted in

Western European countries and an educational qualification was established for public schools, and therefore a strict and fairly high educational bar. In the conditions of work of a public school in the second half of the 19th century. (when there were sometimes up to 80 people in classes), it was impossible to maintain a comfortable learning process for children with developmental problems. Therefore, the creation of special educational institutions and the provision of compulsory public education in them by qualified teachers began to be considered inthe second half of the 19th century as a new, progressive trend in European schools. The development of national special education systems at that time became a boon for this category of the child population, a progressive step and an act of humaneness of society. Thus, for almost 100 years (the second half of the 19th - the second half of the 20th centuries), the pedagogy of mass education practically forgot about cooperative learning. The second stage of development of joint (integrated, inclusive) learning takes place in the context of the formation and spread of reform pedagogy. By the end of the 19th century. new socio-economic relations, the dynamic development of industry, and social institutions in Western Europe and the United States imposed new demands on education and created a need for school reform. Already at the beginning of the 20th century. A new direction has taken shape in European pedagogy - reformist pedagogy (new education). Its key ideas and principles, formed under the influence of developing non-classical science, made it possible to preserve and bring to a new level the idea of joint education of children of different abilities. It is in the pedagogical systems of reform pedagogy, innovative for their time, that inclusive educational phenomena come to life again.

The most general, key ideas and principles of reform pedagogy, received their further development during the 20th century. in the form of integrated and inclusive education, can be formulated as follows (Замский, 2020, p. 87):

1. child-centrism, individual approach, the possibility of an individual educational route;
2. a child is a self-developing system that constructs its world (of life, values, relationships);
3. the course of the process of formation and development of the child’s personality in a specially organized environment, accessible and orderly, satisfying the entire complex of his needs for self-development (educational, communicative, social, etc.);
4. diversity and freedom of choice of forms of organizing the educational process;
5. activity, social activity, and communication as ways of learning and checking by a child the adequacy of his own constructed world;
6. freedom to choose the place, method, content, language, and pace of learning;
7. the child’s acceptance of responsibility for the results of learning;
8. personal rather than normative assessment of the child’s educational achievements;

During the period under review, kindergartens and schools that worked based on the pedagogical ideas of the Italian doctor and teacher Maria Montessori in Italy, Great Britain, Holland, and other European countries easily implemented integration ideas, since the principles and organizational conditions of Montessori pedagogy made it possible to overcome the problems characteristic of classrooms. -lesson system of qualification education.

Literature

1. Каменский Я.А. Великая дидактика. Латинский текст с русским переводом Андрея Адольфа и Сергея Любомудрова. Издание книжного магазина К. И. Тихомирова. М., 2016.
2. Lowe A. Horgeschedigtenpadagogik International. Heidelberg, 2022.
3. Замский Х.С. История олигофренопедагогики. М., 2020.
4. Назарова Н.М., Моргачева Е.Н., Фуряева Т.В. Сравнительная специальная педагогика. М.: Издательский центр "Академия", 2015.

MÜXTƏLİFLİYİ ƏHATƏ ETMƏK: DAUN SİNDROMLU ŞƏXSLƏR ÜÇÜN İNKLÜZİV CƏMİYYƏTİN TƏŞVİQİ

Günay Bədəlzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Xüsusi təhsil kafedrasının müəllimi
gunay.badalzade@mail.ru

Summary

This article explores the imperative of creating an inclusive society for individuals with Down Syndrome. Emphasizing the core values of diversity, acceptance, and empowerment, it advocates for breaking down barriers through education and advocacy. By fostering an environment that values every individual, we can build a society where everyone, including those with Down Syndrome, can lead fulfilling lives and contribute meaningfully to their communities.

Key words: *inclusion, diversity, Down syndrome, equality, acceptance, community*

Özet

Bu makale Down sendromlu bireyler için kapsayıcı bir toplum yaratmanın önemini incelemektedir. Çeşitlilik, kabul ve yetkilendirme gibi temel değerleri vurgulayarak eğitim ve savunuculuk yoluyla engellerin yıkılmasını savunur. Her bireye değer veren bir ortamı teşvik ederek, Down Sendromlu kişiler de dahil olmak üzere herkesin mutlu yaşamlar sürdürebileceği ve içinde bulunduğu topluma anlamlı katkılarda bulunabileceği bir toplum inşa edebiliriz.

Anahtar kelimeler*: kapsayıcılık, çeşitlilik, Down sendromu, eşitlik, kabullenme, topluluk*

Müxtəliflik üzərində inkişaf edən dünyada inklüziv cəmiyyətə çağırış həmişəkindən daha dərin rezonans doğurur. Bu məqalə Daun sindromlu şəxsləri əhatə edən mühitin yaradılmasının əhəmiyyətini araşdırır. Müxtəliflik, qəbul və səlahiyyətlərin verilməsi prinsiplərini tədqiq etməklə biz onların tam iştirakına mane olan maneələri aradan qaldırmağı hədəfləyirik. Biz təhsil və təbliğat yolu ilə, qabiliyyətindən asılı olmayaraq hər bir insanın tanındığı, hörmət edildiyi və çiçəklənmək imkanı təmin edildiyi bir cəmiyyət yaratmağa çalışırıq.

2006-cı ildən bəri dünyanın əksər ölkələri Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olan Şəxslərin Hüquqları Konvensiyasını imzalayıb və "əlilliyi olan şəxslərin təhsil almaq hüququnu" və "bütün səviyyələrdə inklüziv təhsil sistemini və ömürboyu təhsili təmin etmək" hüququnu tanıyan 24-cü maddədə (Təhsil) sadalanan meyarları əhatə edir.(4)

Təhsil qanununda bu cür dəyişikliklərlə, bütün dünyada Daun sindromlu uşaqların icma oyun qruplarına və uşaq bağçalarına, yerli əsas məktəblərə getməsi və tipik inkişaf edən bacı-qardaşları və dostları ilə sosial fəaliyyətlərə qoşulması getdikcə daha adi hala çevrilir. Bundan əlavə, Daun sindromlu daha çox gənc yetkinlik və təcrübə qazanır və bununla da müxtəlif adi işlərdə uğur qazanır.

Daun sindromlu uşaqların böyük əksəriyyəti yerli ümumi məktəbə yerləşdirmədən faydalanır və öz yaşlarında tipik inkişaf edən həmyaşıdları ilə birlikdə təhsil alırlar. Tədqiqatlar göstərir ki, Daun sindromlu uşaqlar xüsusi məktəblərdə oxuyan oxşar qabiliyyətə malik uşaqlardan daha yaxşı olmasa da, ən azı yaxşı təhsil alırlar. Normal inkişaf edən həmyaşıdları ilə birlikdə öyrənmək, qarşılıqlı əlaqə qurmaq və oynamaq üçün müntəzəm imkanlar Daun sindromlu uşaqlara yaşa uyğun davranışları inkişaf etdirməyə və münasibətləri davam etdirməyə təşviq etmək üçün onlara lazım olacaq rol modelləri verir. Onların yerli icma daxilindəki məktəbə yerləşdirilməsi həm də məktəbdən kənarda görəcəkləri uşaqlarla dostluq etmək imkanı verir.

Əsas diqqət Daun Sindromlu şəxslərin unikal ehtiyaclarını və imkanlarını anlamaq və dəstəkləməkdir. Müxtəlifliyi qəbul etmək, onları damğalamaqdansa, onları qəbul etmək və qeyd etmək deməkdir. Təhsil əsas rol oynayır, yanlış təsəvvürləri aradan qaldırır və inklüzivliyi təşviq edən məlumatlılığı artırır. Bundan əlavə, ictimai maneələri aradan qaldırmaq, Daun Sindromlu insanlar üçün bərabər imkanları təmin etmək üçün təbliğat səyləri vacibdir. Gücləndirmə təşəbbüsləri vasitəsilə biz hər bir fərdin güclü tərəflərini dəyərləndirən və istifadə edən mədəniyyəti inkişaf etdirə, hər kəsin mənalı töhfə vermək və inkişaf etmək şansının olduğu bir cəmiyyəti inkişaf etdirə bilərik. İnklüziv cəmiyyətə doğru səyahətimizin əsas hissəsi qərəzliyi aradan qaldırmaq, anlayışı gücləndirmək və bütün qabiliyyətlərə

malik olan fərdləri birləşdirən körpülər qurmaqdan ibarətdir.(Tim Loreman, Joanne Deppeler, David Harvey/Allen & Unwin, 2010, s.143)

Öyrənməyi asanlaşdırmaq üçün dəstək tələb olunsa da, uğurlu inklüzivlik müstəqilliyi təşviq edir. Uşaq böyüdükcə kurrikulumun tələbləri artsa da, onlar getdikcə məktəb icmasının adi üzvləri kimi, lazım olduqda və köməklik göstərərək daha çox fəaliyyət göstərə bilməlidirlər.(Peter Clough, Jenny Corbert, 2012, s.130)

İnklüziv təhsil təkcə Daun sindromlu uşağa fayda vermir, həm də yerli icmada və nəticədə bütövlükdə cəmiyyətdə daha çox anlayışa və daha az qərəzli münasibətə gətirib çıxarır. İnklüziv məktəblərdə uşaqlar daha dözümlü və səbirli olmağı və bir-birini dəstəkləməyi öyrənirlər. Onlar həmçinin müxtəlifliyə dəyər verməyi və hər kəsin məktəbin həyatına gətirəcək bir şeyə sahib olduğunu qiymətləndirməyi öyrənirlər.

Daun Sindromlu fərdlər üçün inklüziv cəmiyyətin yaradılması ətrafında müzakirələr çoxşaxəlidir və sosial, mədəni və etik mülahizələrə əhəmiyyətli təsir göstərir. Bu diskursun mərkəzində müxtəlifliyin icmalarımızın strukturunu zənginləşdirdiyini və Daun Sindromlu fərdləri əhatə etməsinin daha mərhəmətli və anlayışlı cəmiyyəti təşviq etdiyini qəbul etmək dayanır.

Tədqitın əsas aspektlərindən biri Daun Sindromu ilə bağlı mifləri və yanlış təsəvvürləri dağıtmaq ətrafında fırlanır. Təhsil stereotiplərə qarşı mübarizədə və Daun Sindromlu şəxslərin imkanları, potensialı və unikal keyfiyyətləri haqqında dəqiq məlumatın təbliğində mühüm rol oynayır. Maarifləndirmə mədəniyyətini inkişaf etdirməklə biz cəhalətdən qaynaqlanan maneələri qıra və həqiqi inklüzivlik üçün zəmin yarada bilərik.

İnklüziv cəmiyyətin yaradılması səyləri təhsil, məşğulluq, səhiyyə və sosial imkanlara bərabər çıxışı təmin etmək üçün fəal tədbirlər tələb edir. Hüquq müdafiəçiləri siyasətlərin dəyişdirilməsi, dəstəkləyici mühitlərin təşviq edilməsi və Daun sindromlu şəxslərin icma həyatının müxtəlif aspektlərində tam iştirakına mane ola biləcək ayrı-seçkilik praktikalarının həlli istiqamətində işləyirlər.

Məqalədə rəhbər prinsip kimi səlahiyyətlərin verilməsi önə çıxır. Daun sindromlu fərdlərin özlərini ifadə etmələri, bacarıqlarını inkişaf etdirmələri və cəmiyyətə mənalı töhfə vermələri üçün imkanların yaradılması çox vacibdir. Bu, onların unikal güclü tərəflərini, istedadlarını və perspektivlərini tanımaq və inkişaf etdirməkdən ibarətdir. Gücləndirmə yolu ilə Daun Sindromlu fərdlər öz imkanları haqqında qərəzli təsəvvürlərə meydan oxuyaraq, öz icmalarına fəal töhfə verə bilərlər.(5)

Bundan əlavə, müzakirə inklüzivliyin daha geniş ictimai təsirini əhatə edir. İnklüziv cəmiyyət təkcə Daun Sindromlu şəxslərə fayda vermir, həm də bütün cəmiyyətin təcrübələrini zənginləşdirir. Müxtəlifliyi qəbul etmək birlik və kollektiv məsuliyyət hissini gücləndirir, daha möhkəm və mərhəmətli sosial quruluş yaradır.

Əhəmiyyətli irəliləyişlərə baxmayaraq, problemlər davam edir, bu da davamlı dialoq və birgə səylərin zəruriliyini vurğulayır. Stiqma, resurslara məhdud çıxış və münasibət maneələri hələ də Daun sindromlu şəxslərin cəmiyyətə tam inteqrasiyasına mane olur. Davamlı təbliğat, təhsil və siyasət dəyişiklikləri bu problemləri həll etmək və inklüzivliyin ortaq dəyərlərimizin təməl daşına çevrilməsini təmin etmək üçün vacibdir.(3)

Yekun olaraq, Daun Sindromlu fərdlər üçün inklüziv cəmiyyətin yaradılması üzrə müzakirə kollektiv fəaliyyət tələb edən dinamik və inkişaf edən dialoqdur. Təhsilə, təbliğata və səlahiyyətlərə üstünlük verməklə biz maneələri qıra, stereotiplərə meydan oxuya və qabiliyyətlərindən asılı olmayaraq hər kəsin qiymətləndirildiyi, hörmət edildiyi və inkişaf etmək imkanı verildiyi bir cəmiyyəti inkişaf etdirə bilərik.

Ədəbiyyat

1. Peter Clough, Jenny Corbert (2012) Theories of Inclusive Education, 117-156
2. Tim Loreman, Joanne Deppeler, David Harvey/Allen & Unwin (2010) A Practical Guide to Supporting Diversity in the Classroom, 25 – 115
3. UNESCO. (2017). Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments.
4. United Nations. (2006). Convention on the Rights of Persons with Disabilities.
5. https://ndss.org/resources/employment-resources

SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏLİMİNİN TƏŞKİLİ PROSESİNDƏ RAST GƏLİNƏN ÇƏTİNLİKLƏR

Mehparə Əhmədova
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
ehmedovamehpare69@gmail.com
Taleh Xəlilov
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
x.taleh@gmail.com

Summary

This article examines the organization of educational processes for children with disabilities, aiming at their holistic development, adaptation, and integration into society. It discusses the challenges encountered in this endeavor. The conclusion emphasizes the importance of teachers' deep understanding of the educational needs of children with disabilities, incorporating corrective measures within the education system, utilizing special programs and textbooks, and ensuring adequate personnel training. It highlights the shift away from traditional teaching methods towards modern, inclusive approaches that cater to diverse intelligence levels. Additionally, it underscores the necessity of creating suitable infrastructures to support these children.

Key words: *Children with disabilities, inclusive education, special schools, educational process, inclusive classrooms*

Резюме

В статье рассматривается организация образовательного процесса детей с ограниченными возможностями здоровья для их всестороннего развития, адаптации и интеграции в общество, а также трудности, возникающие в это время. В итоге делается вывод, что организация образовательного процесса детей с ограниченными возможностями здоровья будет успешной, если педагоги будут в полной мере осознавать особенности обучения и воспитания таких детей и проводить занятия с учетом коррекционной направленности системы образования, специальных программы и учебники для их обучения, и работать с ними.Подготовлено достаточное количество кадров, учителя уже отошли от традиционализма и приобрели современные знания и навыки, они еще больше развили свои подходы к преподаванию и обучению, по разным данным уровней, и для них уже создана соответствующая инфраструктура.

Ключевые слова: *Дети с ограниченными возможностями здоровья, инклюзивное образование, специальные школы, образовательный процесс, инклюзивный класс.*

Giriş. Respublikamızda hər bir vətəndaşın təhsil almaq hüququ var və bu sahədə heç bir məhdudiyyət qoyulmur. Milli təhsil sisteminin keyfiyyətcə yeni mərhələyə keçməsi, təhsil, tərbiyə və inkişaf prosesinə bütün uşaqların, eyni zamanda sağlamlıq imkanları məhdud olan uşaqların da cəlb edilməsini nəzərdə tutur. Azərbaycan Respublikasının Təhsil Qanununun 5.2 maddəsində qeyd olunur ki, "Dövlət cinsindən, irqindən, dilindən, siyasi əqidəsindən, milliyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir." ("Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu, 2009, s.12)

Sağlamlıq imkanları məhdud olan uşaqların hərtərəfli inkişafı, cəmiyyətə adaptasiyası və inteqrasiyası, onlarda lazımi sosial adaptiv davranış vərdişlərinin formalaşdırılması və sosial aktiv şəxsiyyətin yaradılması tədrisin aktual problemlərindəndir. Artıq bu cür uşaqlar üçün "xüsusi təhsil" yanaşması kökündən dəyişməyə başlayıb və yeni, müasir bir yanaşma ortaya çıxıb. Yəni, artıq "Əlilliyi olan uşaq evdə təhsil almalıdır" fikri müasir təhsildə düzgün hesab edilmir.Cəmiyyətimizdə də, təhsilimizdə də belə uşaqların ancaq evdə təhsil almasının düzgün olduğu təsəvvürü formalaşsa da bu sahədəki görülən işlər artdıqca təbii ki, yaranan təsəvvürlər də dəyişir. Çünki ictimai şüurun formalaşdırılması sağlamlıq imkanları məhdud uşaqların təhsili sahəsində böyük əhəmiyyət daşıyır. Yalnız belə uşaqlara münasibətdə ictimai fikir dəyişdiyi zaman uşaqların və böyüklərin iştirakına imkan yaranacaqdır.

Dünya ölkələrinin təhsil sistemlərində olduğu kimi, respublikamızın xüsusi təhsil sistemində də sağlamlıq imkanları məhdud olan uşaqların təliminin təşkilinə şərait yaradılır.Məlumdur ki, inklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil məktəbinin təlim prosesinə fəal daxil olmasını

və bütün uşaqların təhsil ehtiyaclarının təmin edilməsini nəzərdə tutur. Belə uşaqların təhsili məhz ona görə vacibdir ki, onlar cəmiyyətdən uzaqda qalır, vaxtlarının çoxunu evdə keçirir.Onlar məktəbdəki dərslərdə iştirak etmir, müxtəlif fəaliyyətlərə qoşula bilmir və öz bacarıqlarını inkişaf etdirməyə lazımlı şəraiti tapa bilmirlər. Bütün bunlar isə onların cəmiyyətə inteqrasiyasının və sosiallaşmasının qarşısını alır.

Sağlamlıq imkanları məhdud uşaqlar hər gün cəmiyyətdə saysız problemlərlə rastlaşırlar ki, bu problemlər də inklüziv cəmiyyətin yaranmasına və ümumiyyətlə təhsilli əhalinin yetişməsinə ciddi çətinliklər yaradır. Xüsusilə onlar üçün cəmiyyətin müxtəlif sahələrində təhsil hüququ ya ümumiyyətlə həyata keçirilmir, yaxud da şübhə doğuran tərzdə həyata keçirilir.

Bu sahədə başlıca problem ölkəmizdə inkluziv təhsil sisteminin tam mövcud olmamasıdır. SİM olan uşaqların sağlam həmyaşıdları ilə birgə təhsili o zaman uğurla gedər ki, qüsurlu uşaqları oxudan ümumi məktəb müəllimləri uşaqların təlim və tərbiyə xüsusiyyətləri barədə tam məlumatlıdır və dərsləri təhsil sisteminin korrektiv istiqamətliliyini nəzərə alaraq keçirlər.Bu baxımdaninklüziv sinifdə dərs deyəcək müəllim inklüziv təhsilin fəlsəfəsini anlamalı, inklüziv təlimin təşkilinin optimal üsullarını düzgün seçməli, sağlamlıq imkanları məhdud şagirdlərin şəxsi və yaş inkişafının xüsusiyyətlərini bilməli, onlarla münasibətdə pedaqoji ünsiyyətin müxtəlif üsullarını tətbiq etməyi, korreksiyaedici-inkişafetdirici mühitin yaradılmasını və bu resurslardan bütün uşaqların inkişafı üçün istifadə etməyi bacarmalıdır.

İnkliziv sinifdə müəllim sağlamlığı məhdud olan uşaqların normal təhsil almağa mane ola biləcək fiziki və ya əqli çatışmazlıqlara fikir yönəltməyən şəraitin yaradılmasına və onların fəal dərs prosesinə qoşulmasına şərait yaratmalıdır. Eyni zamanda inklüziv sinifdə müəllim şagirdləri cəmiyyətə bərabərhüquqluşəxs kimi təqdim etmək, bu təhsillə bağlı nəzəri və praktik biliklərə malik olmaq, onların diferensial təlimi təşkil etmək, bu şagirdlərin daha çox maraq göstərdiyi fənlərlə əlaqəsini təmin etmək, belə şagirdlərin nəticələrinin diaqnostik, formativ və summativ qiymətləndirilməsini aparmaq, hər yarımilin sonunda məktəb rəhbərliyi qarşısında hesabat vermək,məktəb psixoloqu ilə əməkdaşlıq etmək, valideynləri şagirdlər barədə müntəzəm məlumatlandırmaq kimi vəzifələrin öhdəsindən gəlməlidir.

Qeyd edək ki,heç kəsin kənarlaşdırılmadığı və hər kəsin fərdiqabiliyyət və ehtiyacları ilə birgə qəbul edildiyi kollektivə olan münasibət məhz elə inklüziv siniflərin əsasını təşkil edir. Çünki, qabiliyyət və ehtiyaclardan asılı olmayaraq, şagirdlərin hamısı eyni qaydada sinifkollektivinin üzvü sayılmalıdır. Buna görə də salamlıq imkanları məhdud uşaqların siniflərə ürəkaçıqlığı ilə qəbul edilməsi olduqca vacib məqamlardan biridir. Məhz buna görə də müəllim öz hərəkətləri ilə digər şagirdlərə SİM şagirdin, sinfin və cəmiyyətin vacib üzvlərindənbiri olduğunu göstərməli və onlar arasında pozitiv münasibətlərin yaranmasınaşərait yaratmalıdır. (İnklüziv siniflərdə təlimin təşkili, 2018, s.33)

İnklüziv siniflərdə yarana biləcək problemlərdən biri də belə uşaqlara mərhəmət, güzəşt mühitinin yaranmasıdır. Müəllim həm özü dərk etməlidir ki, sağlamlıq imkanları məhdud şagirdlər cəmiyyətin bərabərhüquqlu üzvü olduğuna görə bu sinifdədilər. Müəllim belə şagirdlər üçün güzəştli münasibətin təhlükəli olması ilə bağlı şagirdlərlə söhbət etməli, şagirdlər arasında fərq qoymadan onların hər birinin ehtiyaclarına hansı şəkildə cavab verə biləcəyini bilməlidir. Müəllim şagirdlərə əməkdaşlıq etməyi öyrətmək üçün bütün imkanlardan istifadə etməli, şagirdlərdə müxtəlif mövqeləri müzakirə etməklə münaqişələri yoluna qoya bilməbacarığını inkişaf etdirməlidir.Şagirdlərə imkan verilməlidir ki, bütün sinfə aid olan vacib qərarları birgə qəbul etsinlər və bütün bunlar sayəsində şagirdlər sinifdəki mühit vəmünasibətlər üçün məsuliyyət daşıdıqlarını hiss edəcəklər.

İnklüziv sinfdə dərs deyən hər bir müəllim xüsusi bacarıqlara malik olmalı, valideynlərlə birgə əməkdaşlıq etməyi bacarmalıdır. Müəllim sinfin təşkili zamanı şagirdlər üçün sinifdə emosional təhlükəsiz mühitin yaratmalı, onları dərs prosesinə cəlb etmək məqsədi ilə müxtəlif metodlardan istifadə etməyi bacarmalı, qarşılıqlı hörmət və anlaşmanı təmin etməlidir.

Qeyd edək ki, inklüziv siniflərdə dərslərin planlaşdırılması və təşkili pedaqoji prinsiplərə əsaslanır. Bu prinsiplər müəllimin inklüziv təlim prosesində, biliklərə yiyələnmə prosesində əsaslandığı qaydalar, qanunlar sistemidir. İnklüziv siniflərdə müəllimin istifadə etdiyi pedaqoji optimizm prinsipi, diferensial və fərdi yanaşma prinsipi, təlimin sosial-adaptasiyaedici prinsipi, təfəkkür, dil və ünsiyyətin xüsusi təlim vasitəsi kimiinkişafı prinsipi, xüsusi pedaqoji rəhbərliyin vacibliyi prinsipləridir. Bu prinsiplərdən

istifadə etməklə müəllim inklüziv siniflərdə təlimin təşkili prosesində baş verən çətinlikləri aradan qaldırıbtəhsildə arzu olunan nəticə əldə edə bilməsi mümkündür.

Bu sahədə başlıca problemlərdən biri də ölkəmizdə inklüziv təhsilin tətbiq olunduğu məktəbəqədər müəssisələr və ümumtəhsil məktəblərinin sağlamlıq imkanları məhdud uşaqlarının sayına nisbətən azlıq təşkil etməsidir. Xüsusiləxüsusi proqram, dərsliklərlə və qiymətləndirmə metodları ilə bağlı çatışmazlıqlar, onlarla işləməli olan yetərli sayda kadrların olmamasıda belə uşaqların inkluziv təhsilə cəlb olunmasını çətinləşdirir.

Ümumtəhsil məktəblərinin müəllimlərinə informasiya və metodiki yardımı həmçinin SİM uşaqlar üçün kitabxanalar göstərə bilər ki, bu kitabxanaların da yetərli sayda olmadığını qeyd edə bilərik. SİM uşaqların həyatında ciddi irəliləyişlərə səbəb ola biləcək əsas amillərdən biri də müyəssər infrastrukturun yaradılmasıdır. Nəqliyyat strukturu və küçələrin, yolların quruluşu onların müstəqil hərəkət etmələrində ciddi çətinliklər yaradır. Bu baxımdan da qeyd etmək lazımdır ki, əlverişli və təhlükəsiz mühitin, müyəssər infrastrukturun yaradılmadığı bir şəraitdə təhsillə bağlı proqramlar heç bir ciddi effekt verə bilməz.

Nəticə. Sağlamlıq imkanları məhdud uşaqların gələcəkdə əmək bazarında özlərinə daha rahat və yaxşı yer tuta bilmələri üçün onların bacarıqları inkişaf etdirilməli və münbit şərait yaradılmalıdır. Onların təlim proseslərinin təşkili o zaman uğurla gedər ki, müəllimlər belə uşaqların təlim və tərbiyə xüsusiyyətləri barədə tam məlumatlıdır və dərsləri təhsil sisteminin korrektiv istiqamətliliyini nəzərə alaraq keçirlər, onların təhsil alması üçün əlavə xüsusi proqram və dərsliklər, onlarla işləməli olan yetərli sayda kadr hazırlanıb, müəllimlər artıq ənənəvilikdən çıxaraq çağdaş bilik və bacarıqlara yiyələnib, öyrənməyi öyrətmək, fərqli zəka səviyyələrinə görə yanaşmalarını daha da inkişaf etdirib, xarakteri və davranışı ilə şagirdlərinə nümunədirlər və artıq onlar üçün müyəssər infrastruktur yaradılıb.

Ədəbiyyat

1. Ağayev Ş., Məmmədova E., Əliyeva X. (2012) "İnkluziv təhsil günün tələbidir". "Azərbaycan məktəbi" jurnalı, №4, Bakı.

2. BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı.(2011), Yanvar.

3. İnkişaf Proqramının təsdiq edilməsi haqqında fərman (2018-2024 illər)xüsusi qayğıya ehtiyacı olan uşaqların (əlil uşaqlar) təhsilinin təşkili. (2017). Azərbaycan Respublikası, Bakı: Respublikanın Qanunvericilik ToplusuAzərbaycan.

4. İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı. Oxu materialı. http://www.tipi.edu.az

5. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud uşaqlar üçün inkluziv təhsilin inkişafı üzrə Dövlət proqramı. (2017). Bakı.

6. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə çıxış imkanları: real vəziyyət, beynəlxalq praktika və təkliflər. (2016). (İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD), Bakı.

7. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu (2001).

8. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. (2010)."Hüquq ədəbiyyatı", Bakı,. 80 səh.

HUMANİST TƏHSİLİN ZƏRURİLİYİ

Nuranə Əliyeva
Bakı Dövlət Universiteti, müəllim, doktorant
Aliyevanurana0@gmail.com

Summary

According to the world education system, humanism has become widespread in the field of education. The importance of humanist education is more evident in the context of understanding students' potential and taking into account their different thoughts, needs and interests. In addition, inclusivity has come into the forefront in the training process through humanist education. According to the inclusive approach, which is one of the main directions of humanist education, ensuring equality and fairness among leaners in the training process and preventing discrimination, isolation and marginalization are among the main issues.

Key words: *education, humanism, inclusion, importance, approach*

Резюме

Согласно мировой системе образования, в сфере образования получил распространение гуманизм. Важность гуманистического образования становится более очевидной в контексте понимания потенциала учащихся и учета их различных мыслей, потребностей и интересов. Кроме того, инклюзивность вышла на первый план в процессе обучения посредством гуманистического образования. Согласно инклюзивному подходу, который является одним из основных направлений гуманистического образования, обеспечение равенства и справедливости между обучающимися в процессе обучения и предотвращение дискриминации, изоляции и маргинализации являются одними из основных вопросов.

Ключевые слова: *образование, гуманизм, инклюзивность, важность, подход*

İnsan təhsil almağa ehtiyac duyan yeganə varlıqdır. O, yalnız təhsil vasitəsilə insanlaşa və yüksək mənəvi-əxlaqi dəyərlərə sahib olar və özünə xas şəxsiyyətini, düşüncələrini, davranışlarını, ehtiyacları-nı, qabiliyyət və potensialını dərk edə bilər. Vaxtilə görkəmli alman filosofu İmmanuel Kantın dediyi kimi, insanoğlunun mükəmməl təbiətinin böyük sirri təhsilin arxasında dayanır. İnsan təbiətinin yalnız təhsil vasitəsilə daha yüksək bir səviyyəyə çatacağı və bəşəriyyətin xeyrinə istifadə edilə bilən bir formaya çevriləcəyi fikrini düşünmək belə insanı məmnun etmək üçün kifayətdir. Bu vəziyyət gələcəkdə daha xoşbəxt və firavan yaşayan insan nəslinin üstünlük təşkil etməsi üçün qapı açır. (Kant, 2019, s. 11) Hər bir fərdi ilk öncə bir dəyər olaraq qəbul etmək, onların gələcək həyatları üçün vacib olan biliklər vermək, duyğu və ehtiyaclarını anlamaq, təbii imkanlarını, potensiallarını kəşf etmək və o yöndə istiqamətləndirmək təhsilin əsas məqsədlərindən biri hesab edilmişdir. Amerika psixoloqu Karl Rocersin təbirincə desək, insana ən qiymətli hədiyyə onun emosional vəziyyətini dinləmək, hörmətlə yanaşmaq və öz yerini tapmaqda kömək etməkdir. Bütün bunların reallaşması təhsil prosesində humanist yanaşmanın nəticəsi olaraq tədqiq edilmişdir. Son yüz ildə ortaya atılmış humanizm anlayışı müasir dövrdə də öz aktuallığını itirməmişdir. Humanizm insanlıq sevgisini, insanın dəyərini və ucalığını əsas məqsəd hesab edən bir doktrinadır (Varış, 1994, s. 73).

Humanizm insanın daxili aləminə müsbət mövqedən yanaşır. Bu o deməkdir ki, hər bir insan öz daxilindəki mənfi cəhətləri aradan qaldırıb müsbət cəhətləri inkişaf etdirmək potensialına malikdir. İnsan öz iradəsi və digər insanların köməyi ilə mənəvi təkmilləşməyə nail ola bilər. Humanizmin mahiyyətinin başa düşülməsi insanın və onun varlığının və dəyərinin anlaşılması ilə əlaqədardır. Bu insanın ucalığını və insanlıq sevgisini əsas hesab edən bir baxışlar sistemidir. Humanizm insanın dəyər oriyentasiyalarını, maraq və meyillərini əsas hesab etsə də, insanın heç də bütün maraq və meyillərini humanist adlandırmaq olmaz. Məsələn, insanların pis vərdişlərə meyillənmə hallarını, narkomanların narkotik vasitələrə olan tələbatlarını, insanların cinayi davranışlara meyillərini humanist hesab etmək olmaz. Bu konteksdə, söhbət ağıllı tələbatlar və maraqlardan gedir. Deməli, humanizmin əsasında insanın ağıllı tələbat və maraqları durur.

Humanist ideyalar digər sahələrdə olduğu kimi, təhsil sahəsində də geniş vüsət almışdır. İnsanların gələcəyi, habelə, onların potensialının vaxtında tədqiq və inkişaf etdirilməsi baxımından bu sahədə humanist fəaliyyətin vacibliyi daha çox nəzərə çarpır. Hal- hazırda dünya təhsil sistemində tətbiq olunan yanaşmalar, texnologiyalar, metod və üsullar humanizm prinsipinə əsaslanır. Bunun əsas məqsədi hər

bir fərdi yaşından, statusundan, qabiliyyətindən asılı olmayaraq, şəxsiyyət kimi qəbul etmək və hörmət etməkdir. Həmçinin, onun azad və hərtərəfli inkişafını və ictimai həyatında iştirakını təmin etməkdir.

Müasir dövrdə humanist təhsili önəmli hesab edən əsas səbəblərindən bir də təhsildə inkluzivliyin diqqət mərkəzində olmasıdır. Humanist təhsilin əsas istiqamətlərindən biri hesab olunan inkluzivlik bütün öyrənənlərin inkişafı, sosial-mədəni və fərdi xüsusiyyətlərinə və ehtiyaclarına uyğun təhsil almasını təmin edən bir yanaşmadır. Öyrənənlərin hər birinin təhsil prosesində iştirakının təmin edilməsi və onlar arasında ayrı-seçkiliyin aradan qaldırılması inkluziv təhsilin əsas məqsədlərindəndir. İnkluziv təlim mühitində istifadə olunan proqram, metodlar, texnologiyalar və materiallar bütün uşaqların fərdi xüsusiyyətləri, ehtiyacları, meyl və maraqlarına uyğunlaşdırılır.

Humanist təhsilin əsasını təşkil edən inkluziv yanaşmada təlim-təhsil prosesində bərabərlik və ədalətliliyin təmin edilməsi vacib məsələlərdəndir. Ayrı- seçkilik, təcridetmə, marginallaşma inkluziv yanaşmanın qarşısını almağa çalışdığı davranış nümunələridir. Bunlar cəmiyyətə zərər verə biləcək davranış nümunələri kimi qəbul edilir.

Humanist təhsil anlayışı yalnız öyrənənlərin biliklərə yiyələnməsi deyil, həm də onların bacarıqlara və sosial səriştələrə yiyələnməsini də nəzərdə tutur. Bu səbəbdən, humanist təhsilin əsas istiqamətlərindən biri hesab edilən inkluzivlik anlayışı da mühüm və ciddi məsələlərdəndir. Humanist təhsilin uğurlu nəticəsinin sirri təhsil prosesində inkluzivliyin tətbiq edilməsidir. Onu da vurğulamaq lazımdır ki, inkluzivlik dedikdə yalnız xüsusi təhsilə ehtiyacı olan uşaqlar deyil, eyni zamanda təlim prosesində fərqlilikləri nəzərə alınan bütün öyrənənlərin ehtiyaclarına uyğun şəraitin yaradılmasını dəstəkləyən humanist təhsil yanaşması nəzərdə tutulur. Humanist təhsil prosesində inkluzivliyin diqqət mərkəzində olması hər bir öyrənənin şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Bu da təhsildə humanizmi önəmli edən əsas məslələrdəndir.

Ədəbiyyat

1. Kant, I. (2019). Eğitim üzerine. İstanbul: İz Yayıncılık, 78.
2. Maslow, A. (2019). İnsan olmanın psikolojisi. İstanbul: Kuraldışı Yayıcılık, 244.
3. Rogers, C. R. (2019). Yarının insanı. İstanbul: Okyanus Yayıncılık, 342.
4. Varış, F. (1994). Eğitim bilimlerine giriş. Konya: Atlas Kitapevi, 226.

AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİLİN İNKİŞAFI

Lamiə Hacımuradova
Aynur Həsənova
Gəncə Dövlət Universiteti
Lamie.7530@gmail.com

Summary

The article is dedicated to the development of inclusive education in Azerbaijan. It is known that since the 2004-2005 school year, integration of children with disabilities has been carried out in the form of pilot projects in a number of secondary schools and pre-school educational institutions of Azerbaijan, and this experience is being tested in inclusive classes and groups. At the same time, in terms of the implementation of the "State Program for the Development of Inclusive Education for Persons with Disabilities in the Republic of Azerbaijan in 2018-2024", from the 2020-2021 academic year until now in all school preparatory groups of the country, and from the 2021-2022 academic year of the country Inclusive education is implemented in 38 general education schools operating in different regions.

Key words: *Inclusive education, children with disabilities, State program, inclusive classes, infrastructure, Education policy.*

Резюме

Статья посвящена развитию инклюзивного образования в Азербайджане. Известно, что с 2004-2005 учебного года интеграция детей с ограниченными возможностями осуществляется в виде пилотных проектов в ряде средних школ и дошкольных образовательных учреждений Азербайджана, и этот опыт апробируется в инклюзивных учреждениях. классы и группы. В то же время, в связи с реализацией «Государственной программы развития инклюзивного образования для лиц с ограниченными возможностями в Азербайджанской Республике в 2018-2024

годах», с 2020-2021 учебного года по настоящее время, в всех подготовительных школьных групп страны, в 2021-2022 учебном году инклюзивное образование реализовано в 38 общеобразовательных школах, действующих в разных регионах страны.

Ключевые слова: *Инклюзивное образование, дети с ограниченными возможностями, Государственная программа, инклюзивные занятия, инфраструктура, Политика образования.*

Azərbaycanda inklüziv təhsilin inkişafında imkanlar və çətinliklərin öyrənilməsi, potensial xidmətlərin sistemləşdirilməsi üzrə hazırkı tədqiqatın əsas məqsədi ölkədə inklüziv təhsilin planlaşdırılması və tətbiq edilməsi ilə bağlı yetərli sübutlu bazanın toplanması olub. Tədqiqatımız Azərbaycanda inklüziv təhsilə olan ehtiyacların qiymətləndirilməsinə və bu prosesdə iştirak edəcək müəllimlərin və digər mütəxəssislərin mövcud vəziyyətini, problemlərinin və ehtiyaclarının müəyyən edilməsinə yönəlmişdir.

Etiraf etmək lazımdır ki, Azərbaycanda inklüziv təhsil ilə bağlı məlumatlılıq səviyyəsi kifayət qədər qənaətbəxş deyil. İnklüziv təhsil ilə bağlı məlumatların əldə edilməsində problemlər mövcuddur ki, bu da bir çox hallarda mütəxəssislərə çətinlik yaradır. Lakin inklüziv təhsilinin tətbiqi üçün lazım olan amillərin mövcud vəziyyəti aşağı səviyyədədir və bir çox maneələr mövcuddur. Həmçinin, müəllimlərin professional, didaktik və psixoloji səviyyəsi o qədər də yüksək deyil.

İnklüziv təhsil sisteminin tətbiqi uşaqların keyfiyyətli təhsilə əlçatanlığının artırılması ilə yanaşı, uşaqların cəmiyyətin bərabərhüquqlu üzvünə çevrilməsinə, cəmiyyətə adaptasiya olunmasına, tolerantlığın artmasına, əlilliyi olan uşaqların və əlilliyi olan şəxslərin cəmiyyətdən təcrid olunmasının qarşısının alınmasına, əlilliyi olan şəxslərin asılılığının aradan qalxmasına, onların müstəqil şəxsə çevrilməsinə və nəticədə dövlətin sosial yükünün azalmasına gətirib çıxaracaq.

Artıq 2004-2005-ci dərs ilindən indiyə kimi Azərbaycanın bir sıra ümumtəhsil məktəblərində və məktəbəqədər təhsil müəssisələrində pilot layihələr şəklində əlilliyi olan uşaqların inteqrasiyası həyata keçirilir, inklüziv siniflər və qruplarda bu təcrübə sınaqdan keçirilir. Eyni zamanda “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrəDövlət Proqramı”nın [1] icrası baxımından, 2020-2021-ci tədris ilindən indiyə kimi ölkənin bütün məktəbəhazırlıq qruplarında, 2021-2022-ci tədris ilindən isə ölkənin müxtəlif bölgələrində fəaliyyət göstərən 38 ümumtəhsil məktəblərində inklüziv təhsil həyata keçirilməkdədir.

Bəzən valideynlər əlilliyi olan uşaqları cəmiyyətdən gizlədir, onları qeydiyyata salmırlar. Bu cür valideynlərlə apardığımız sorğulardan aydın olur ki, qeydiyyata salmamağın əsas səbəblərindən biri də onların öz icmalarında təhsilə cəlb olunması mümkün deyil, valideynlər də uşaqlarını paytaxtda yerləşən xüsusi məktəblərdə oxumasını istəmirlər.

Sevindirici haldır ki, “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin 13.5-ci bəndini rəhbər tutaraq Təhsil Naziri Emin Əmrullayev “İnklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi barədə” 2021-ci ildən etibarən hər tədris ilinin başlanğıcında əmrlər imzalamışdır [2]. Yerli təhsili idarəetmə orqanları bu əmrə əsasən əlilliyi olan uşaqların psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı əsasında seçilmiş ümumi təhsil müəssisələrində inklüziv təhsilə cəlb olunmasını və həmin məktəblərdə korreksiyaedici xidmətin yaradılmasını təmin etmişlər. Bununla da, adı çəkilən məktəblərdə inklüziv siniflər fəaliyyətə başlamşdır.

İlkin olaraq, sinif şagirdlərinin sayının on faizi əsasında əlilliyi olan uşaqların inklüziv siniflərə cəlb edilməsi məqsədəuyğun hesab edilmişdir. Siniflərdə şagird sayı 20-dən çox olmamaq şərtilə 2 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb edilir. Bu da müəllimin bütün şagirdlərə eyni şəkildə yanaşaraq təlimi təşkil edə biləcəyinə imkan verir. Düşünürük ki, hər bir şagirdin dəyərinin onun qabiliyyət və nailiyyətlərindən asılı olmadığını bilən müəllim dərsi şagirdlərin maraq və meylləri üzərində yanaşaraq təlim prosesini diferensial təlim metodu ilə qursa, qarşıya qoyduğu təlim məqsədlərinə nail ola bilər.

Adı çəkilən əmrdən irəli gələn müddəalardan biri də, əsaslı tikinti və təchizat idarəsi tərəfindən məktəbin infrastrukturunun əlilliyi olan uşaqlar üçün müyəssərliyinin təmin edilməsi, lazımı avadanlıq və vəsaitlərlə təmin edilməsinin nəzərdə tutulmasıdır. Bu da, inklüziv təhsil üçün ən vacib məqamı, təhsilalanların məktəbə deyil, məktəbin təhsilalanlara uyğunlaşmasını təmin edir.

Ümumiyyətlə, əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb olunması prosesində seçim meyarları uşaqları seçmək yox, onların müxtəlif inkişaf xüsusiyyətlərini müəyyən etmək üçün işlənməlidir. Bunları müəyyən etməyin vacibliyini qeyd edən mütəxəssislər hesab edirlər ki, hər bir problemli, əlilliyi olan uşaqların təhsillə bağlı ehtiyacları tək onların sağlamlığı və inkişaf səviyyəsindən asılı deyil. Çünki, əlilliyi olmayan uşaqların da təlim nəticələri daim yüksək olmaya bilər. Bir sözlə, inklüziv təhsilin daha bir üstünlüyü ondan ibarətdir ki, şagirdlərin təlim nəticələrinin göstəricisi onların sağlamlıq, məhdudiyyəti ilə əlaqəli deyil.

İnklüziv təhsil prosesində əlilliyi olan uşaqların təhsildə uğurlu olub-olmamasına təsir göstərən əsas səbəblərdən biri də, onların ailəsinin imkanları, vəziyyəti, dövlətdən aldıqları maddi təminatı, korreksion pedaqoq-psixoloqlar, həkimlər, məktəbdə müəllimlə şagird və şagirdlər arasında münasibətlərdir. Ona görə də, bu səbəblərin araşdırılması və təhlil edilməsi məqsədəuyğundur. Bu səbəbdən də, inklüziv təhsil prosesində uşağın imkanlarının məhdud olub-olmamasına deyil, onun inkişaf xüsusiyyətlərinə və onlara təsir göstərən amillərə hərtərəfli şəkildə baxılmalı və zəruri dəstəklə təmin edilməlidir. Əks halda məktəb mühiti əlilliyi olan uşağın vəziyyətinin daha da ağırlaşmasına səbəb ola bilər. İngiltərənin təhsil siyasətində işlənən rəsmi sənəddə göstərilir: "*Hər an nəzərə alınmalıdır ki, təhsildə qarşıya çıxa biləcək çətinliklərin səbəbi məhz məktəb mühiti, uşaqlar və böyüklər arasında yaranan münasibətlər ola bilər"* [3, s. 44].

Tədqiqatın gedişində təhsil müəssisələrində inklüziv təhsilin təşkilinin hansı səviyyədə olduğunu yoxlamaq məqsədilə müəyyənləşdirici eksperiment aparılmışdır. Bununla əlaqədar inklüziv siniflərdə təcrübi-eksperimental materiallar əsasında inkişaf şəraiti müəyyənləşdirilmişdir. Keçirilən eksperimentin əsas məqsədi seçilmiş 2 regionda 5 məktəbdə (Gəncə şəhəri 8, 10, 39 və Qazax şəhəri 2, Daşsalahlı kənd 1 nömrəli tam orta məktəblərdə) təhsil işçilərinin inklüziv təhsilin tətbiqi ilə bağlı fikirlərini, bəzi vacib mövzular və məsələlər haqqında rəyini, qiymətləndirmələri və münasibətlərini öyrənmək və təhlil aparmaqdan ibarət olmuşdur.

Keçirilən pedaqoji eksperimentin vəzifələrinə aşağıdakılar daxildir:

1. Adı çəkilən məktəblərdə fəaliyyət göstərən təhsil işçilərinin inklüziv təhsil haqqında məlumatlılıq səviyyəsinin, inklüziv təhsil sisteminin mahiyyətinin və konsepsiyasının nə şəkildə anlaşılmasının və bu sahədə biliklərin mövcud dərəcəsinin öyrənilməsi;
2. Təhsil işçilərinin yaşadığı ərazidə inklüziv təhsilin tətbiqinə müvafiq peşəkar hazırlıq (nəzəri, texnoloji, metodik, psixoloji) səviyyəsinin qiymətləndirilməsi;
3. Təhsil işçiləri tərəfindən inklüziv təhsil sahəsində yerli mövcud resursların qiymətləndirilməsi və fikirlərinin müəyyənləşdirilməsi;
4. Müzakirələr zamanı iştirakçılar tərəfindən səslənən inklüziv təhsilin tətbiqinə dair innovativ, maraqlı və perspektivli fikirlər əsasında təkliflərin verilməsi.

"Azərbaycanda inklüziv təhsilin inkişafı" mövzusunda tədqiqat işinin səmərəliliyini müəyyən etmək üçün apardığımız pedaqoji eksperimentdə müşahidə, müsahibə, müzakirə, disskusiya və s. kimi metodlardan istifadə olunmuşdur. Eksperimentə 80 nəfər cəlb edilmişdir. Onların sosial tərkibi aşağıdakı kimi olmuşdur:

8. Müəllimlər – 10 nəfər
9. Əlilliyi olan uşaqlar – 10 nəfər
10. Əlilliyi olmayan uşaqlar – 50 nəfər
11. Əlilliyi olan uşaqların valideynləri – 10 nəfər

Eksperimentin birinci, müəyyənləşdirici mərhələsində inklüziv təhsil üzrə təlimlərdə iştirak edərək imtahandan yüksək nəticə toplayan ümumilikdə 10 nəfər ibtidai sinif müəllimi və əlilliyi olan uşaqların 10 nəfər valideynləri arasında sorğu keçirilmişdir. Bu sorğunun məqsədi müəllim və valideynlərin inklüziv təhsilə dair müxtəlif məsələlər üzrə fikirlərini öyrənməyə yönəldilmişdir.

Bütün müsahibələrdə anonimlik və konfidensiallıq ciddi şəkildə təmin edilib. Sorğuda iştirak edənlər tam əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil də sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığına səbəb olmuşdur.

Eksperimentin müəyyənləşdirici mərhələsi ilə əlaqədar dinlənilmiş dərslər, sorğuda iştirak edən müəllimlər, valideynlər, uşaqlarla aparılan söhbətlər, müzakirələr, müşahidələr, anonim anket sorğuları

belə nəticə çıxarmağa imkan vermişdir ki, tədqiqatın aparıldığı tədris müəssisələrinin bəzilərində inklüziv təhsilin təşkili ilə bağlı müəyyən problemlər vardır. Bunu təhsil müəssisələrinin rəhbərlərinə, müəllimlərə və valideynlərə verilən aşağıdakı anket suallarına onların verdiyi cavablar təsdiq edir:

1. İnklüziv təhsil haqqında məlumatınız varmı?

Müəllimlərin cavabı: yetərincə var – 10 nəfər (100 %)

Valideynlərin cavabı: yetərincə var – 10 nəfər (100%)

2. İnklüziv təhsil haqqında məlumatı əsasən hansı mənbələrdən alırsınız?

- Müəllimlərin cavabı: bizə təlim keçiblər – 10 nəfər (100 %)
- Valideynlərin cavabı: müəllimlərdən 7 nəfər (70%), internetdən – 3 nəfər (30%)

3. Azərbaycanda ümumtəhsil məktəblərində inklüziv təhsil modelinin tətbiqini nə dərəcədə vacib və məqsədəuyğun hesab edirsiniz?

- Müəllimlərin cavabı: mühit səmərəli olsa məqsədəuyğun hesab edirik–7 nəfər (70%), onları öyrətmək çətindir - 1 nəfər (10%), əlilliyi olan uşaqlar xüsusi məktəblərdə oxusa yaxşıdır - 2 nəfər (20 %)
- Valideynlərin cavabı: məqsədəuyğun hesab edirik - 6 nəfər (60%), evdə təhsil daha yaxşıdır – 3 nəfər (30%), ehtiyac yoxdur - 1 nəfər (10 %)

4. İnklüziv təhsilin tətbiqi üçün şəraitlərin indiki vəziyyətini necə qiymətləndirirsiniz?

- Müəllimlərin cavabı: yaxşı –5 nəfər (50%), orta - 2 nəfər (20%), pis - 3 nəfər (30 %)
- Valideynlərin cavabı: yaxşı – 0 nəfər (0%), orta - 2 nəfər (20%), pis - 3 nəfər (30 %)

5. Sosial qurumların inklüziv təhsilin tətbiqinə indiki hazırlıq səviyyəsini necə qiymətləndirirsiniz?

- Müəllimlərin cavabı: yaxşı –5 nəfər (50%), orta - 5 nəfər (50%)
- Valideynlərin cavabı: yaxşı –3 nəfər (30%), orta - 4 nəfər (40%), pis - 1 nəfər (10 %)

6. Müəllimlərin inklüziv təhsil sahəsində hazırlıq səviyyəsini necə qiymətləndirırsiniz?

- Müəllimlərin cavabı: yaxşı–6 nəfər (60%), orta-4 nəfər (40%), pis–0 nəfər (0%)
- Valideynlərin cavabı: yaxşı –5 nəfər (50%), orta - 4 nəfər (40%), pis-1 nəfər (10%)

7. İnklüziv təhsil modelinin tətbiqi prosesində hansı əsas problemlər, çətinliklər və maneələr mövcuddur?

- Müəllimlərin cavabı: inklüziv siniflərin azlığı və yaxud olmaması-7 nəfər (70%), nəqliyyatın, infrastrukturun əlçatan olmaması-1 nəfər (10%), əlilliyi olmayan uşaqların valideynlərinin mənfi münasibəti-1 nəfər (10%), əlilliyi olan uşaqların valideynlərinin maraq göstərməməsi-1 nəfər (10%),
- Valideynlərin cavabı: maarifləndirmə işinin azlığı-5 nəfər (50%), uşaqların damğalanması və bullinqə məruz qalması-3 nəfər (30%), uşaqların təlim materiallarını qavraya bilməməsi-2 nəfər (20%),

8. İnklüziv təhsil modelinin tətbiqi hansı dəyişikliklərə və nəticələrə gətirib çıxara bilər?

- Müəllimlərin cavabı: fərqliliyə hörmət olunacaq-4 nəfər (40%), uşaqların hüquqları təmin olunacaq-2 nəfər (20%), təlim prosesinin səmərəliliyi aşağı düşəcək-2 nəfər (20%), əlilliyi olan uşaqlar damğalanaraq ayrıseçkiliyə məruz qalacaq-2 nəfər (20%),
- Valideynlərin cavabı: müəllimlər uşaqlara can yandırmayacaq, onları görməzdən gələcək-4 nəfər (40%), şagirdlər arasında psixoloji gərginlik, stress yaranacaq–2 nəfər (20%), uşaqlar arasında anlaşma və hörmət hissi formalaşacaq- 4 nəfər (40%),

9. Əlilliyi olan uşaqların inklüziv təhsil almasına mane olan səbəblər sizcə hansılardır?

- Müəllimlərin cavabı: universal dizaynın olmaması-4nəfər (40%), damğalanma-3 nəfər (30%), kurikulumun çətinliyi-3 nəfər (30%),
- Valideynlərin cavabı: ayrıseçkiliyin olması-5 nəfər (50%), damğalanma-3 nəfər (30%), kurikulumun çətinliyi-2 nəfər (20%),

10. Məktəb övladınızın təhsil ehtiyacını qarşılaya bilirmi?

- Müəllimlərin cavabı: qismən – 10 nəfər (100%)
- Valideynlərin cavabı: bəli – 4 nəfər (40%), xeyir – 6 nəfər (60 faiz)

Anket sorğusunda iştirak edənlərin orta hesabla 50 faizinin müəllimlərdə inklüziv təhsil ilə bağlı bilik, bacarıqların orta səviyyəli, valideynlərin isə 80 faizinin inklüziv təhsil üzrə məlumatlarının aşağı olduğu aşkarlanmışdır.

Eksperimentin birinci mərhələsinin tədqiqi fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirməyə imkan vermişdir:

1. Problemə uyğun eksperimentin qoyulacağı təhsil müəssisələrini müəyyən etmək;
2. İnklüziv təhsilin təşkili istiqamətində fəaliyyət göstərən müəllimlərin imkanlarından istifadə etmək;
3. Müəllimlərin təqdim olunan təkliflərdən istifadə edərək inklüziv siniflərdə dərs keçməsi məqsədilə onların bilik və bacarıqlarını artırmaq;
4. İnkluziv təhsilin ümumtəhsil müəssisələrinin ibtidai siniflərində tətbiqini təşviq etmək;
5. Müəllimlərin istifadəsi üçün praktiki təlimatlar və strategiyalar təqdim etmək.

Ekperimentin ikinci mərhələsi zamanı səviyyəsi eyni olan kontrol və eksperimental siniflər seçilmişdir. Eksperimental siniflərdə fəaliyyət göstərən tərbiyəçi-müəllimlərdən bir neçə fəaliyyətə diqqət yetirmələri tövsiyə edilmişdir:

12. inklziv təhsil üzrə tövsiyə olunan ədəbiyyatları öyrənmək və bilikləri inkişaf etdirmək;
13. inklüziv təhsilin həyata keçirilməsi ilə əlaqədar hüquqi sənədlərlə tanış olmaq;
14. problem üzrə dərslərini inklüziv dəyərlər üzərində qurmaq;
15. əlilliyi olan uşaqlara sosial model əsasında yanaşmaq;
16. təlim yanaşmasını və onun şagirdlərin öyrənmə üslubu ilə necə əlaqələndiyini başa düşmək;
17. öyrənmə və inklüziv təhsilin tətbiqində əsas element kimi reflektiv təcrübəni təqdim etmək;
18. öyrənmənin sosial fəaliyyət olduğunu və birgə əməkdaşlıq sayəsində baş tutduğunu başa düşmək;
19. inklüziv təhsilin tətbiqində uşaqyönümlü pedaqogikanın əhəmiyyətini başa düşmək;
20. universal öyrənmə dizaynının əsas konsepsiyalarını təqdim etmək;
21. əlilliyi olan uşaqların sərbəst hərəkəti üçün əlçatan imkanlar yaratmaq.

Aparılmış eksperimental məşğələlər müəllimlərlə birlikdə təhlil edilmiş uşaqların həm mənimsəmə, həm də praktik səviyyəsinə aydınlıq gətirilmiş, iradlar göstərilmişdir. Eksperimentin ikinci mərhələsində 10 nəfər əlilliyi olan, 50 nəfər əlilliyi olmayan uşaq iştirak etmişdir.

Alınmış nəticələr sübut edir ki, yeni təşkil olunan inklüziv məktəblərdə inklüziv təhsilin təşkili istiqamətində əsaslı fəaliyyət tədbirləri həyata keçirmək mümkündür. Əlilliyi olan uşaqlar inklüziv siniflərdə rahat sosiallaşırlar, damğalanmadan uzaqdırlar, öyrənməyə meyillidirlər. Əlilliyi olmayan uşaqlar isə onların əlilliyinə fokuslanmır, hər kəsi olduğu kimi qəbul edir, kommunikativ bacarıqlarını inkişaf etdirirlər.

Uşaqların bir-birinə münasibətini öyrənmək məqsədi ilə onlar arasında aşağıdakı suallar əsasında sorğu keçirmişik:

1. Məktəbə nə üçün gəlirsiniz?
2. Məktəb xoşunuza gəlirmi?
3. Ən çox kimlərlə dostluq edirsiniz?
4. Oyunları kiminlə oynayırsınız?
5. Sənin üçün uşaqların xarici görünüşü önəmlidirmi?
6. Yıxılan uşaq görsən nə edərsən?
7. Kömək etməyi sevirsənmi?
8. Nə üçün kömək edirsən?
9. Sənə kömək edilməsini istəyirsənmi?
10. Səncə evdə qalanda çox öyrənmək olur, yoxsa məktəbdə?

Uşaqların bir-birinə münasibətini öyrənmək məqsədi ilə keçirdiyimiz bu anket sorğularında və şifahi sorğulara cavablarından eksperiment zamanı istifadə etmişik. Həmin suallar eksperiment zamanı tədqiqat işinin nəticələrini hansı istiqamətdə qurmaq və təhlil etmək imkanları verməsi baxımından seçilmiş və istifadə olunmuşdur. Verilən suallara cavabların təhlili göstərir ki, uşaqların inklüziv təhsilə cəlb edilməsi istiqamətində hazırlıq səviyyələrinin (müxtəlif mənbələr üzərində işlərdə bacarıq və vərdişləri, nəzəri biliklərin elmi təşkili sahəsində) ümumi nəticələri qənaətbəxş olmuşdur. İnklüziv siniflərdən ibarət eksperimental siniflərdə əsas göstəricilər kontrol siniflərə nisbətən 25%-dən 70% - ə qədər olmuş, yüksək nəticələr alınmışdır. Belə nəticəni təsadüfi hesab etmək olmaz. Uşaqlar öz cavabları ilə

bir daha sübut etdilər ki, xarici görünüşün öyrənmək üçün, məktəbə getmək üçün heç bir fərqi yoxdur. Uşaqlar birlikdə öz həmyaşıdları ilə öyrənəndə daha maraqlı, daha əyləncəli iş həyata keçirmiş olurlar. Hər kəs çətinliyə məruz qala bilər, ona görə də çətinliyə düşənlərə hamımız kömək etməliyik.

Beləliklə, eksperimentin gedişi zamanı uşaqların inklüziv dəyərlər zəminində yetişdirilməsinin inkişaf dinamikası üzə çıxdı və onların mənimsənilməsi qabiliyyət və bacarıqları ilə müşayiət olundu.

Müxtəlif mürəkkəblikdə olan tapşırıqların suallarından asılı olaraq düzgün cavablar üçün aşağıdakı tələbləri əsas götürmüşük:

1. Uşaqlar birlikdə fəaliyyət göstərməyə daha maraqlı olmalıdır;
2. Köməyə ehtiyacı olana kömək göstərmək, yoldaşlarını sevmək, onlara dəyər vermək lazımdır;
3. İnsanların xarici görünüşü müxtəlif ola bilər, sağlamlığı fərqli ola bilər, buna baxmayaraq hər kəs dəyərlidir, hər kəs bacarıqlarını nümayiş etdirməlidir;
4. Hər kəsi olduğu kimi qəbul etmək üzrə spesifik bacarıq və vərdişlərə yiyələnməlidir.

Eksperiment zamanı həmin məsələlər haqqında biliklərin praktik və ixtisas əhəmiyyətini nəzərə alaraq sual məsələlərin tərtib edilməsi, uşaqların yaş səviy-yəsinin verilmiş suallara uyğun gəlməsi, suallarda məsələlərin ardıcıl qoyuluşu və s. məsələlər də nəzərə alınmışdır.

Qeyd edək ki, biz tam və düzgün cavablar üçün elə meyarları əsas götürürük ki, o, obyektin bütün əsas əlamətlərini özündə ehtiva etsin, onu müfəssəl şəkildə aydınlaşdırmaq olsun. Tam və dəqiq olmayan cavablara isə əsas əlamətlər kifayət qədər əks olunsa da, lakin nümunələr, fakt və misalların gətirilməsi, həmçinin kobud səhvlər olmasa belə, sualın düzgün başa düşülməməsi ilə nəticələnən davamsız, möhkəm olmayan cavabları daxil edirik.

Xüsusilə eksperimental siniflərlə kontrol siniflər arasında bütün keyfiyyətlər üzrə müəyyən fərqlər göz qabağındadır. Bu isə onu göstərir ki, ümumtəhsil müəssisələrində müxtəlif formada yüngül əlilliyi olan uşaqların inklüziv təhsil fəaliyyətinə cəlb olunması üçün hazırlığın tam, təkmil sistemini yaratmaq, bu istiqamətdə işlərin səmərə və keyfiyyətini yüksəltmək, məzmunu dərinləşdirmək məqsədilə müəllim-tərbiyəçilərə, valideynlərə xüsusi və ya giriş kursları, yaxud ən azı giriş mövzuları və məlumatlarının verilməsi faydalı və zəruridir. Uşaqlarla şifahi sorğular zamanı belə bir fikir təsdiqləndi ki, onların əksəriyyəti sosial model əsasında inklüziv təhsilə cəlb edilsələr müxtəlif bilik, bacarıq və vərdişlərə yiyələnmişlər.

Müəllimlərlə söhbətlər, müsahibələr, müşahidələr və anket sorğularına daxil etdiyimiz sual əlilliyi olan uşaqların ailədən gələn ümumi hazırlıqlarına təsiri ilə bağlı idi. Əlilliyi olan uşaqların sosial-emosional inkişafına müsbət istiqamətdə ailənin təsiri nə dərəcədədir? sualına alınan cavabların nəticəsi aşağıdakı cədvəldə verildiyi kimidir:

Əlilliyi olan uşaqların sosial-emosional inkişafına müsbət istiqamətdə ailənin təsirinin keyfiyyət göstəriciləri

Qrup	Cavablar	Eksperimental qrup (10 nəfər)		Kontrol qrup (10 nəfər)	
		Sayı	% - lə	Sayı	% - lə
1	Təsiri olmuşdur	4	40	2	20
2	Təsiri olmamışdır	3	30	2	20
3	Bilmirəm	3	30	6	60
	Cəmi:	10	100	10	100

Müəllimlərin cavablarından göründüyü kimi əlilliyi olan uşaqların sosial-emosional inkişafına ailələrin hamısının müsbət təsiri olmamışdır. Bu həqiqətən də belədir. Hər bir ailə övladının sağlam dünyaya gəlməsini istəyir, onun da digər həmyaşıdları kimi xoşbəxt, sağlam, qayğısız yaşamasını arzu edir. Mental dəyərlərinə bağlı xalq olaraq tipik Azərbaycan ailəsində uşaq müxtəlif əlilliklə doğulanda, ailə həmin uşağı ya xüsusi qayğıya möhtac böyüdür, ya da onları görməzdən gəlirlər, bu da onlarda sosial-emosional bacarıqların aşağı səviyyədə olmasına gətirib çıxarır.

Apardığımız eksperimentin materiallarına həm tədqiqatçı, həm də təhsil müəssisələrinin rəhbərliyi, həm regional təhsil idarəsinin, sektorların metodistləri, müəllimlər nəzarət etmişlər. İşin gedişi müzakirə

olunmuş, uşaqların sosial-emosional bacarıqlarının səviyyəsi təhlil edilmiş, öyrənilmiş, ümumiləşdirmələr aparılmış və nəticələr alınmışdır.

İnklüziv məktəblərdə qoyulmuş eksperimentlər aşağıdakı nəticələri çıxarmağa imkan vermişdir:

1. İnklüziv təhsilə məktəbəqədər təhsildən başlamaq vacibdir. Çünki, "*Məktəbəqədər yaş uşağın fəal sosiallaşması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür və qrup şəraitində böyüklər və yaşıdları ilə hərətərəfli ünsiyyət qurmaq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək imkanı əldə etdiyini"*[4, s. 8] nəzərə alaraq, uşaqların mütləq şəkildə uşaq bağcalarında formalaşmasını vacib edir.

2. Uşaqlar hər kəsi olduğu kimi görür, dərk edir, onda olan fərqliliyin fərqində olmur, bu da gələcəkdə fərqli görünüşdə olan həmyaşıdlarını incidəcək suallar verməkdən onları yayındırır.

3. Eksperimental siniflərdə keyfiyyət göstəriciləri nəzarət qruplarının nəticələrindən yüksəkdir.

Keçirilmiş pedaqoji eksperimentdə əldə olunan nəticələr aşağıdakı kimidir:

1. Baxmayaraq ki, Ölkə başçısı 2017-ci ildə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrəDövlət Proqramı"nın icrası ilə bağlı sərəncam imzalayıb, buna baxmayaraq ölkəmizdə əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb edilməsi ilə bağlı indiki ümumi vəziyyəti qənaətbəxş deyildir. Bu isə, 2019-2021-ci illərdə COVİD – 19 virusu ilə əlaqədar ölkəni bürüyən pandemiya ilə əlaqədar bütün sahələrdə olduğu kimi təhsildə də ləngimələr səbəbi ilə izah edilir.

2. Müvafiq infrastrukturun (rampalar, panduslar, xüsusi eşitmə aparatlar, yeraltı keçidlərdən, xüsusi işıqlandırma, tualetlər, nəqliyyat problemləri, səsli işıqforlar) əlçatan olmaması əlilliyi olan uşaqların məktəbə gəlməsinə mane olan əsas amillərdəndir.

3. Əlilliyi olan uşaqlar üçün psixo-sosial və tibbi reabilitasiya xidmətləri kifayət qədər qənaətbəxş səviyyədə deyil. Xüsusilə regionlarda reabilitasiya mərkəzlərinə çox ehtiyac var. Belə müəssisələr əlilliyi olan uşaqların məktəbə hazırlığında çox müsbət təsir edə biləcək vacib amildir.

4. Əlilliyi olan uşaqların təhsili ilə bağlı qanuvericilikdə bəzi məhdudiyyətlər mövcuddur. İnklüziv təhsil hamı üçün əl çatan deyil. Həmçinin, bu uşaqların statistikası düzgün aparılmır.

5. Cəmiyyətin fərqliliyə qarşı qeyri-adekvatlığı bir daha onu deməyə əsas verir ki, əlilliyi olan uşaqlara bəzi insanlar tərəfindən mənfi ictimai münasibət mövcuddur. Bəzi əlilliyi olmayan uşaqların valideynləri istəmir ki, onların uşaqları əlilliyi olan uşaqlarla bir sinifdə oxusunlar. Hətta bu cür hallar olarsa, uşaqlarını həmin sinifdən çıxaracaqları ilə müəllimləri təhdid edən valideynlər də var. Onlar yanlış olaraq belə düşünürlər ki, əlilliyi olan uşaqlar onların övladlarının psixikasına mənfi təsir edəcək.

6. Əlilliyi olan uşaqların valideynləri ilə əlaqəli bir sıra problemlər mövcuddur. Onlar daha çox psixoloji gərginlik keçirir, hələ də bir çox valideyn əlilliyi olan uşaqlarını evdən çıxarmağa cəsarət etmir, utanır, əlilliyi olan uşaqlarının damğalanacaqlarından, bullinqə məruz qalacaqlarından qorxurlar. Bu da onu deməyə əsas verir ki, inklüziv təhsil sahəsində maarifləndirmə işi qənaətbəxş səviyyədə deyil, bu səbəbdən də valideynlər məlumatsızdır, əlilliyi olan uşaqları ilə məşğul ola bilmək üçün lazımi bilik və bacarıqlara sahib deyillər. Həmçinin valideynlərin uşaqları ilə bağlı məsləhət ala biləcəyi hər hansı müvafiq müəssisə yoxdur.

7. Təhsilin bütün pillə və səviyyələrində fəaliyyət göstərən işçilərinin inklüziv təhsilin tətbiqinə indiki ümumi məlumatlılıq hazırlığı, xüsusi professional hazırlıq, psixoloji hazırlıq səviyyəsi çox zəif və aşağıdır. Müəllimlər tədris prosesində ənənəvi metodologiyadan istifadə edirlər, yeni yanaşmalardan, əsas sinif strategiyalarından, uşaqyönümlü pedaqogikadan, universal təlim dizaynından xəbərsizdirlər. Bu da müəllimlərin hamısının bu sahədə təlimlərə cəlb edilməsi zərurətini yaradır.

8. Hal-hazırda mütəxəssis çatışmazlığı mövcuddur. Xüsusən də regionlarda mütəxəssislər başqa sahənin insanlarıdır, bu sahə mütəxəssislər çox azdır. Ölkədə xüsusi təhsil sahəsində nəzəri biliyi, praktik bacarığı və bu kateqoriyalı uşaqlarla işləmək üçün psixoloji bacarığı olan az sayda kadrlar var; uşaq inkişaf mərhələlərini bilən, inklüziv təhsil sahəsində metodikalar, tədris materialları və dərsliklər hazırlamağa qadir olan mütəxəssislər demək olar yoxdur.

9. Müəllim və tələbələr arasında inklüziv təhsilə böyük maraq var. Onlar əlilliyi olan uşaqlarla işləməkdə maraqlıdırlar və özlərində bu potensialı görürlər. Tələbələrin inklüziv məktəblərdə könüllülük fəaliyyətinə cəlb etmək məqsədəuyğun olardı.

10. İnklüziv təhsil sahəsində maarifləndirmə aşağı səviyyədədir. Doğrudur, bu sahədə yetərli sayda sosial çarxlar, qısametrajlı filmlər çəkilib, sosial media hesablarında maraqlı insanlar tərəfindən paylaşılır, lakin bu qənaətbəxş deyil. Bu çarxları mütəmadi olaraq kütləvi informasiya vasitələrində ictimaiyyətin diqqətinə çatdırmaq vacibdir.

11. İnklüziv təhsil ideyasının gerçəkləşdirilməsi dağınıq və lazımi peşəkarlıq olmadan həyata keçirilsə, bu, həm əlilliyi olan uşaqlar, həm də digər uşaqlar üçün təhsilin keyfiyyətini azaldacaq və gözlənilən nəticə olmayacaqdır. İnklüziv təhsilin sistemli və ardıcıl şəkildə həyata keçirilməsi vacibdir.

12. *İnklüziv təhsil sisteminin tətbiqi çox böyük müsbət dəyişikliklərə və nəticələrə gətirib çıxarar. Belə ki, əlilliyi olan uşaqların tədricən sosiallaşmasına, onların hərtərəfli fiziki və intellektual inkişafına, cəmiyyətə adaptasiya olunmasına əhəmiyyətli dərəcədə kömək olacaqdır. Bu da təhsilin humanistləşməsinə səbəb olmaqla əlilliyi olan uşaqların özünə inam hissinin artmasına, gələcəkdə onların ali məktəbə qəbul olunmasında yarana biləcək problemlərin əhəmiyyətli dərəcədə azalması və nəticədə onların məşğulluq problemlərinin aradan qaldırılması kimi müsbət dəyişikliklərə səbəb olacaqdır* [5, s. 8].

Göründüyü kimi, inklüziv təhsil üzrə eksperimentə cəlb edilən hər kəslə aparılan anket sorğularının ümumi nəticələri də irəli sürdüyümüz işçi fərziyyəsini təsdiq edir. Bu isə belə bir nəticəyə gəlməyə imkan verir ki, inklüziv təhsil və onun Azərbaycan təhsil sistemində perspektivləri üçün münbit imkanlar yaradır.

Ədəbiyyat

1. “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Bakı şəhəri, 14 dekabr 2017-ci il № 3498. http://www.e-qanun.az/framework/37269

2. “İnklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmri” https://edu.gov.az/az/esas-senedler/inkluziv-sinif-teskil-edilen-umumi-tehsil-muessiselerinin-sebekesinin-genislendirilmesi-barede-azerbaycan-respublikasi-tehsil-nazirinin-emri

3. Frederilson N., Klayn T. Xüsusi təhsil ehtiyacları, inklüziya və müxtəliflik. Dərslik (ingilis dilində) London, 2005.

4. Azərbaycan Respublikasinda Məktəbəqədər Təhsil Proqrami (Kurikulumu) (3-6 yaş) Bakı, 2015

5. İnklüziv təhsilə dair ümumi anlayiş, pedaqoji kadrlarin peşəkar hazirliği və mövcud resurslar haqqinda sosial tədqiqat // Analitik hesabat . Bakı: 2018; 55 s.

İNKLÜZİV TƏHSİL: PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI

Simnarə Heydərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Xüsusi təhsil kafedrasının müdiri
simnareh373@gmail.com

Summary

Ellisin ABC şəxsiyyət nəzəriyyəsi (ABC modeli) var ki, o, dəyişikliyi və dəyişikliyin istənilən nəticəsini əldə etmək üçün (D) və (E) əlavə edir. Bundan əlavə, insan ABC modelləri üçün kontekst təmin etmək üçün ilk olaraq (G) hərfini yerləşdirilə bilər (bizim halda M.)



Şək. 1. A. Ellisin ABC modeli

A.Ellisin konsepsiyasının təhlili metaforik assosiativ kartlarla işləyərkən rasional emotiv terapiyanın (RET) istifadə alqoritminin modifikasiya olunmuş versiyasını təqdim etməyə imkan verir.

Arzulanmayan emosiyalara səbəb olan hadisə ilə əlaqəli bir kart seçin. Gəlin buna **"Hadisələr" kartı** deyək. Onu təsvir edin. Səthi düşüncələrin təhlili.
Emosiyaların təhlili. Emosiyalarınıza uyğun bir kart seçin - **"Emosiyalar" kartı**
Psixoloq müştərinin ağlına gələn fikirləri aydınlaşdırır, konkretləşdirir. Əsas inanclarınızı ən yaxşı şəkildə əks etdirən bir kartı seçin – **«Düşüncələr» kartı.**
Mərkəzi inancın düzgün seçilməsinin yoxlanılması. Hadisə, emosiyalar, düşüncələrlə əlaqəli üç kart qoyulur (bu üç kartı birləşdirəcək bir hekayə düşünülür). Bu düşüncələrin davranışa təsiri.
İrrasional düşüncələrin təkzib edilməsi. Müştəridən irrasional düşüncələr üçün mümkün qədər çox əks arqument tapmasını istəyin. Yeni rasional düşüncələrlə əlaqəli bir kart seçin - "Yeni düşüncələr" kartı.
Rasional düşüncələrlə əlaqəli emosiyaların təhlili. Emosiyalarınıza uyğun bir kart seçin – **“Yeni emosiyalar” kartı**. Yeni düşüncələrin davranışa təsiri.
"Hadisələr", "Yeni düşüncələr", "Yeni emosiyalar" kartlarını bir yerə qoyun. Bu kartları birləşdirən bir hekayə düşünün. Hadisələrin necə inkişaf edəcəyini söyləyin.

Şək.2. A. Ellisin (RET) istifadə alqoritmi

Beləliklə, təqdim edilən alqoritm psixoloqun müştəri ilə işində çox səmərəli bir vasitədir.

Sağlamlıq imkanları məhdud olan uşaqlarla psixoloqun korreksiya işində metaforik katrlardan istifadə müsbət nəticələr əldə etməyə imkan verir:

- Effektiv emosional reaksiyanı təmin edir, ona (aqressiv təzahür halında belə) sosial cəhətdən məqbul, yolverilən formalar verir.
- Ünsiyyətə qapalı, utancaq və ya zəif yönümlü məhdud imkanlı uşaqlar üçün kommunikasiya prosesini asanlaşdırır.
- Qeyri-verbal təmas imkanı verir, ünsiyyət maneələrini və psixoloji müdafiəni aşmağa kömək edir.
- İxtiyarilik və özünütənzimləmə qabiliyyətinin inkişafı üçün əlverişli şərait yaradır.
- Uşağın hisslərini, təəssüratlarını və emosional vəziyyətlərini dərk etməsinə əlavə təsir göstərir, emosional vəziyyətlərin və reaksiyaların tənzimlənməsi üçün zəmin yaradır.
- Şəxsi dəyəri əhəmiyyətli dərəcədə artırır, sağlamlıq imkanları məhdud olan uşağın yaratdığı məhsulun dəyərinin sosial şəkildə tanınması yolu ilə müsbət "Mən-konsepsiya" nın formalaşmasına və özünə inamın artmasına kömək edir.

Ədəbiyyat

1. Буравцева, Н.В. (2017). Использование ассоциативных карт в работе с детьми и подростками. М., 200 с.
2. Кац, Г. (2014). Метафорические карты: руководство для психолога. М.: Генезис, 160 с.
3. Дмитриева, Н.В., Буравцова, Н.В. (2016). Ассоциативные карты в работе со случаем. СПб., "ГАЛАРТ+", 242 с.

AZƏRBAYCANDA İNKLÜZİV POTENSİALIN MƏŞĞULLUĞUNUN TƏMİN EDİLMƏSİ

Sevda Həsənova
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci, i.f.d.
sevda.hesenova.73@mail.ru

Summary

Every person in the society, regardless of their race, national and religious affiliation, gender, language, financial status, etc. have the right to study and participate in the labor market without dependence. For this purpose, each state defines its strategic directions. In Azerbaijan, state programs and projects have also been implemented in the direction of providing education and employment of the inclusive population. On the basis of these programs and projects, generalization, normalization and integration experiences based on the principle of equal opportunities in providing education and employment of the inclusive population have been obtained. This means removing the limiting features of the inclusive potential in the field of education and employment and ensuring equal full participation.

Key words: *Sustainable development, inclusive potential, inclusive economy, labor market, social justice, economic growth, employment efficiency.*

Özet

Toplumdaki her insan, ırkı, ulusal ve dini mensubiyeti, cinsiyeti, dili, mali durumu vb. ne olursa olsun. bağımlılık olmaksızın eğitim görme ve işgücü piyasasına katılma hakkına sahiptirler. Bu amaçla her devlet kendi stratejik yönelimini tanımlar. Azerbaycan'da kapsayıcı nüfusun eğitim ve istihdamının sağlanması yönünde devlet programları ve projeleri de hayata geçirilmiştir. Bu program ve projeler temelinde kapsayıcı nüfusun eğitim ve istihdamının sağlanmasında fırsat eşitliği ilkesine dayalı genelleme, normalleştirme ve entegrasyon deneyimleri elde edilmiştir. Bu, eğitim ve istihdam alanında kapsayıcı potansiyelin sınırlayıcı özelliklerinin ortadan kaldırılması ve eşit tam katılımın sağlanması anlamına gelmektedir.

Anahtar Kelimeler: *Sürdürülebilir kalkınma, kapsayıcı potansiyel, kapsayıcı ekonomi, işgücü piyasası, sosyal adalet, ekonomik büyüme, istihdam verimliliği.*

Müasir dünyada sosial və siyasi sferalarda baş verən dəyişikliklər əmək və iqtisadi münasibətlərə sürətlə transformasiya olunur. Cəmiyyət və əmək bazarı arasında münasibətlərin yeni formaları yaranır. Bu zaman gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsini əvvəlcədən müəyyən edən mülkiyyət münasibətləri sistemi sosial təbəqələrin və digər əhali qruplarının xeyrinə dəyişir. Bu halda iqtisadiyyatın inkişafı cəmiyyətdəmövcud əmək potensialının inkişafından, səmərəli fəaliyyətin təşkilindən daha çox asılı olur. İqtisadi münasibətlərin hər bir subyektinin yaradıcı əmək qabiliyyətlərini və xüsusiyyətlərini

maksimum dərəcədə nəzərə alaraqməşğulluğa cəlb etməklə iqtisadiyyatın inklüzivliyini təmin etmək mümkündür. İnklüziv iqtisadiyyatda əmək qabiliyyətili əlillərin sağlamlığının qorunması, onların təhsilə, müxtəlif peşə və ixtisasartırma proqramlarına cəlb olunması vacib məsələlərdəndir.

İnklüzivlik sosial münasibətlərə daha dərindən nüfuz edir. İnklüziv və sosial ədalətə əsaslanan iqtisadi münasibətlərdə dövlət, cəmiyyət və işçilərarasında balansınmüəyyənləşdirilməsinə ehtiyac yaranır. Bu zaman iqtisadi münasibətlərdə sosial yönümlü yanaşmanın tətbiqi aktuallaşır. Sosial yönümlü yanaşmanın məqsədi insanların iqtisadi müstəqilliyə bərabər və maneəsiz çıxışını təmin etməkdir. İnklüziv münasibətlər milli iqtisadiyyatın sosial-iqtisadi inkişaf yolu ilə hərəkətinin təşviqi kontekstində sosial bərabərsizliyin mənfi nəticələrinin minimuma endirilməsinə, iqtisadi təhlükəsizliyin, tərəqqinin və rəqabət qabiliyyətliyin artırılmasına xidmət edir. Sosial cəhətdən həssas əhali qruplarının milli iqtisadi inkişafda iştirakı ölkədəki ictimai-siyasi münasibətlərin yaxşılaşdırılmasına, kollektivdə empatiyanın yüksəldilməsinə, ayrıseçkiliyin aradan qaldırılmasına və ədalətli cəmiyyətin qurulmasına təsir göstərir (5).

Sağlamlıq imkanları məhdud olan şəxslərin cəmiyyətə inteqrasiyası və onlar üçün maneəsiz mühitin formalaşdırılması, təhsil və əmək imkanlarınıngenişləndirilməsi davamlı inkişafa nail olmanın vacib problemlərindəndir.

Təhlil: Azərbaycanda bu istiqamətdə dəstəkləyici tədbirlər həyata keçirilmiş, həssas qruplardan olan işsiz və işaxtaran şəxslərin potensialının artırılması və onların əmək bazarında məhsuldar məşğulluğa cəlb edilməsi üçün imkanlar yaradılmışdır. Sosial sahənin inkişafı, əhalinin həssas təbəqələrinin sosial məsələlərinin həllinə diqqətin göstərilməsi Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin apardığı uğurlu siyasətin əsas istiqamətlərindən olmuşdur. Ölkəmizdə bu istiqamətdə bir çox Dövlət Proqramları və layihələr həyata keçirilmişdir.“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı proqramın əsas məqsədi sosial rifahın yaxşılaşdırılması və dövlətin inkişafının təmin edilməsi olmuşdur (1). Əsas strateji prioritetlərdən biri də dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılmasıdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi yaradılmışdır. Mərkəzin əsas məqsədi əlilliyi olan şəxslərin, həmçinin müharibə əlillərinin, onların ailə üzvlərinin yaradıcılıq potensialının və digər qabiliyyətlərinin üzə çıxarılması, onların inkişafına kömək etməkdir (7).

Ölkəmizdə səmərəli məşğulluğun təmin olunması üçün vacib hesab olunan işçi qüvvəsinin bacarığının təkmilləşdirilməsi, qeyri-formal məşğulluğun səviyyəsinin azaldılması, həssas sosial qruplara aid olan şəxslərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi və bir sıra mühüm məsələlərə xüsusi diqqət yetirilir. Göstərilən bu kimi məsələlər əsas hədəf olaraq Azərbaycan Respublikasında 2030-cu ilə qədər olan dövrü əhatə edən Məşğulluq Strategiyasının tədbirlər planında öz əksini tapmışdır. Ölkə əhalisinin məşğulluq quruluşunu xarakterizə edən əsas göstəricilərdən biri də iqtisadiyyatda məşğul olanların iqtisadi fəaliyyət növləri üzrə bölgüsüdür. İqtisadiyyatın maddi və qeyri-maddi istehsal dairəsində bir çox sahələr vardır ki, həmin sahələrdə kişilərə nisbətən daha çox qadınlar məşğul olmağa meyil edirlər. Belə sahələrə sosial və şəxsi xidmətlərin göstərilməsi, daşınmaz əmlakla bağlı əməliyyatlar, idarə və istehlakçılara xidmətlərin göstərilməsi, təhsil, səhiyyə və sosial xidmətlərin göstərilməsi və s. aiddir. Mövcud problemin tənzimlənməsi məqsədilə “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda sosial müdafiyəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar da xüsusi diqqət önünə çəkilmiş, onların da cəmiyyətdə sosial durumlarının tənzimlənməsi istiqamətində qanunlar qəbul olunmuşdur (2). Sosial cəhətdən həssas əhali qrupunun hüququnun qorunması və cəmiyyətə inteqrasiya olunması təmin olunmuşdur. İnkişaf etmiş Azərbaycan cəmiyyətində sağlamlıq imkanları məhdud olan insanların sağlam və təhlükəsiz əmək şəraitində məşğulluğunun təmin edilməsi, onlara qarşı ayrı-seçkiliyin qadağan olunması, peşə yönümlü proqramlara, işədüzəltmə xidmətlərinə, fasiləsiz təhsil prosesinə qoşulmaq imkanlarının yaradılması, fərdi əmək fəaliyyəti və sahibkarlıq fəaliyyətində imkanlarının genişləndirilməsi ölkə siyasətinin prioritetlərindən olmuşdur (3). Bu qrup insanların əmək bazarına cəlb edilməsi Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında (2007-2015-ci illər) öz əksini taparaq dövlətin prioritet məqsədlərinə çevrilmişdir.

Digər tərəfdən müasir dövrdəbəşəriyyət və planet üçün mühüm əhəmiyyət kəsb edən Dayanıqlı İnkişafın Məqsədləri bütün fəaliyyət sahələrində inkişafı təmin etməyə təkan vermişdir. Davamlı inkişafın “Layiqli əmək və iqtisadi artım” adlanan 8-ci məqsədi davamlı, inklüziv və dayanıqlı iqtisadi

artımı, əmək qabiliyyətli əhali üçün məhsuldar məşğulluğu və layiqli iş yerlərinin təşviqiniözündə birləşdirmişdir (8).

Azərbaycanda iqtisadi fəal əhalinin tərkibində məşğul əhalinin statistikası **Diaqram 1**-də təsvir edilmişdir.

Diaqram 1.

Məşğul əhalinin sayı (ilin sonuna), min nəfərlə



Mənbə: https://sdg.azstat.gov.az/az/goals/8/layiqli-emek-ve-iqtisadi-artim/indicators məlumatı əsasında müəllif tərəfindən hazırlanmışdır.

Diaqram 1-ə əsasən deyə bilərik ki, 2018-2022-ci illər üzrə bu göstəricilərdə fərqli tendensiya müşahidə olunmuşdur. Belə ki, 2018-ci ildə məşğul əhalinin sayı 4879,3 min nəfər olduğu halda 2019-cu ildə bu göstərici 1,9% azalmış, 2020-ci ildə əvvəlki illə müqayisədə 1,3% azalmışdır. 2021-ci ildə 2,3% artmış, 2022-ci ildə isə 2021-ci illə müqayisədə 1,5% artmışdır. Göründüyü kimi 2019 və 2020-ci illərdə məşğulluq səviyyəsinin azalması dünyanı bürümüş COVİD-19 pandemiyasının mənfi təsiri nəticəsində baş vermişdir.

Ölkəmizdə cins, yaş və əlillik əlaməti üzrə bülgüdə işsizlik səviyyəsinin statistikası diaqram 2-də təsvir edilmişdir.

Diaqram2.

İşsizlik səviyyəsi: cins, yaş və əlillik əlaməti üzrə bölgüdə



Mənbə: https://sdg.azstat.gov.az/az/goals/8/layiqli-emek-ve-iqtisadi-artim/indicators məlumatı əsasında müəllif tərəfindən hazırlanmışdır.

Diaqram 2-dən göründüyü kimi Azərbaycanda cins, yaş və əlillik əlaməti üzrə bölgüdə işsizlik səviyyəsində ən yüksək göstərici 2020-ci ildə 7,2% qeydə alınmışdır. Ölkədə aparılmış islahatların nəticəsi olaraq sonrakı illərdə işsizlik səviyyəsi azalaraq 6% və 5,6% təşkil etmişdir.

Digər tərəfdən cins, yaş, peşə növü və əlillik əlaməti üzrə bölgüdəişçilərin orta saathesabı əməkhaqqı diaqram 3-də öz əksini tapmışdır.

Diaqram 3.

İşçilərin orta saathesabı əməkhaqqı, manatla

cins, yaş, peşə növü və əlillik əlaməti üzrə bölgüdə



Mənbə: https://sdg.azstat.gov.az/az/goals/8/layiqli-emek-ve-iqtisadi-artim/indicators məlumatı əsasında müəllif tərəfindən hazırlanmışdır.

Diaqramdan da göründüyü kimi cins, yaş, peşə növü və əlillik əlaməti üzrə bölgüdə işçilərin orta saathesabı əməkhaqqında hər il əvvəlki illə müqayisədə artım müşahidə olunmuşdur. 2018-2023-cü illərdə həyata keçirilən sosial islahat paketlərinin nəticəsində bu artıma nail olunmuşdur. Ölkəmizdə aparılan islahatların nəticəsi olaraq əhalinin gəlir imkanları, əməkhaqqları və pensiyaları artmışdır.

Nəticə: İnklüziv potensialın əmək bazarına çıxışının dəstəklənməsində ümumi məqsəd həmin qrupa daxil olan əhalinin təhsil imkanlarını və öz potensialını tam şəkildə inkişaf etdirmək imkanını təmin etməkdir. Həssas qrupların sağlamlığının yaxşılaşdırılmasına kömək etmək, təhsil, səhiyyə və elmi-tədqiqat müəssisələrinin gücləndirilməsi üçün tədbirlərin əhatə dairəsi genişləndirilməlidir. Bu qrup əhalinin üzləşdiyi problemlər üzrə sosial tədqiqatlar təkmilləşdirilməli və onların çevik həllini təmin edən metodlar araşdırılmalı, profilaktik tədbirlərə xüsusi diqqət yetirilməlidir. Ölkədə yüksək iqtisadi inkişafa nail olunduğu bir dövrdə inklüziv potensialdan səmərəli istifadə olunmaması mənfi nəticələrə səbəb ola bilər. Sosial infrastrukturun təkmilləşdirilməsi və inkişaf etdirilməsi, səmərəli məşğulluğun təmin edilməsi, cəmiyyətdə insanların hüquqlarının müdafiəsi, aztəminatlı əhalinin sosial müdafiəsinin təşkili sosial rifaha müsbət təsir göstərər, davamlı inkişafı təmin edər (Рофе, 2010, с.188-190).Beynəlxalq təcrübə kontekstində ölkədə sosial müəssisələrin sayının artırılması sosial cəhətdən həssas əhali qrupunun əmək bazarına çıxış imkanlarını genişləndirər. İnklüziv potensialın məşğulluğunun təmin olunması maddi itkilərin qarşısının alınması ilə yanaşı, həm də sosial gərginliklərin aradan qaldırılmasına səbəb ola bilər. Bu isə öz növbəsində ictimai-siyasi tarazlığının qorunmasını təmin edər, dövlətə və onun iqtisadi sisteminə inamı formalaşdırar.

Ədəbiyyat

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, [elektron ressurs]: https://president.az/az/articles/view/50474
2. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu // 24 avqust 2018-ci ildə qəbul edilmişdir. – Bakı: Qanun, – 2018, 24 avqust.
3. Əlilliyi olan şəxslərin əmək bazarına çıxışının asanlaşdırılmasına ictimai dəstək // Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. – Bakı: Qanun, – 2012. – 44 s.
4. Перспективы развития инклюзивной экономики в России [Электронный ресурс] // АПНИ (Агентство перспективных научных исследований). — Режим доступа: https://apni.ru/article/549-perspektivi-razvitiya-inklyuzivnoj-ekonomiki.
5. Инклюзивная экономика [Электронный ресурс] // Социальная ответственность бизнеса. — Режим доступа: https://soc-otvet.ru/inklyuzivnaya-ekonomika/. — Дата доступа: 14.12.2022.
6. Рофе, А.И. Экономика труда / А.И.Рофе. – Москва: КноРус, – 2010. – 400 с.
7. https://dost.gov.az/news/325
8. https://azerbaijan.un.org/az/sdgs

İNKLÜZİV TƏHSİL: TƏDRİS MÜHİTİNDƏ MÜXTƏLİFLİYİN VƏ BƏRABƏRLİYİN TƏŞVİQ EDİLMƏSİ

Naila Hüseynova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsinin dekanı,
pedaqogika üzrə elmlər doktoru
nailyahuseyn72@gmail.com

Summary

Inclusive education is a transformative approach that emphasizes diversity, equality, and accessibility in learning environments. This article explores the fundamental principles of inclusive education, highlighting the importance of integration, collaboration, and empowerment. By addressing the needs of all learners, including those with special needs, inclusive education strives to create environments that foster a sense of belonging and provide equal opportunities for academic and social development. This article delves into the key aspects of inclusive education, examining its potential to reshape traditional educational paradigms and promote a more inclusive and equitable society.

Key words: *diversity, equality, accessibility, integration, collaboration, special needs, inclusive education*

Резюме

Инклюзивное образование — это преобразующий подход, который подчеркивает разнообразие, равенство и доступность в среде обучения. В этой статье исследуются фундаментальные принципы инклюзивного образования, подчеркивая важность интеграции, сотрудничества и расширения прав и возможностей. Путем удовлетворения потребностей всех учащихся, в том числе тех, кто с особыми потребностями инклюзивное образование стремится создать среду, которая способствует чувству принадлежности и обеспечивает равные возможности для академического и социального развития. В статье также рассматриваются ключевые аспекты инклюзивного образования, исследуются его потенциал в изменении традиционных образовательных парадигм и способствовать построению более инклюзивного и справедливого общества.

Ключевые слова: *многообразие, равенство, доступность, интеграция, сотрудничество, особые потребности, инклюзивное образование*

İnklüziv təhsil, qabiliyyətlərindən, mənşəyindən və ya fərqliliyindən asılı olmayaraq hər bir şagirdin alqışlandığını, qiymətləndirildiyini və dəstəkləndiyini hiss etdiyi öyrənmə mühiti yaratmağa çalışan paradiqma dəyişikliyidir. Bu, müxtəlifliyi, bərabərliyi və hər bir şagirdin sinifə gətirdiyi unikal güclü tərəflərin və problemlərin tanınmasını təşviq edən bir fəlsəfədir. İnklüziv təhsil xüsusi ehtiyacı olan şagirdlərin ümumiləşdirilməsi və ya inteqrasiyası kimi ənənəvi anlayışlardan kənara çıxır; bu, bütün təhsil sistemini bütün şagirdlərin müxtəlif ehtiyaclarını ödəmək üçün çevirmək məqsədi daşıyan kompleks yanaşmadır.Özündə inklüziv təhsil ədalət anlayışını müdafiə edir. Bütün şagirdlərə eyni yanaşmaqdansa, o, hər bir fərdin müxtəlif mənşəli olduğunu və fərqli öyrənmə qabiliyyətlərinə malik olduğunu qəbul edir. İnklüziv sinif otaqları heç bir şagirdin geridə qalmamasını təmin edərək, bu fərqləri nəzərə almaq üçün nəzərdə tutulmuşdur. Bu yanaşma maneələri aradan qaldırır və stereotiplərə meydan oxuyur, müxtəlifliyin nəinki qəbul edildiyi, həm də qeyd olunduğu bir mühit yaradır.(1)

İnklüziv təhsil təkcə əlilliyi olan və ya xüsusi ehtiyacı olanlara deyil, bütün şagirdlərə fayda verir. Müxtəlif qabiliyyətlərə və keçmişə malik olan şagirdlər eyni sinifdə qarşılıqlı əlaqədə olduqda, onlar empatiya, şəfqət və anlayış kimi dəyərli həyat bacarıqlarını öyrənirlər. İnklüziv sinif otaqları zorakılıq və ayrı-seçkiliyi azaldaraq, qəbul və tolerantlıq mədəniyyətini təşviq edir. Bundan əlavə, aparılan yerli və xarici tədqiqatlara nəzər yetirsək görürük ki, inklüziv təhsil bütün şagirdlər üçün akademik performansı və sosial inteqrasiyanı yaxşılaşdıra bilər.

Əlilliyi olan və ya xüsusi ehtiyacı olan şagirdlər üçün inklüziv təhsil aidiyyət hissi və dəstəkləyici mühit təklif edir. Onlar fərdi diqqət, ixtisaslaşdırılmış tədris metodları və lazımi resurslara çıxış əldə edir, onlara öz potensiallarını üzə çıxarmağa kömək edir. İnklüziv şərait həm də özünü müdafiə bacarıqlarının inkişafını təşviq edir və müsbət mənlik imicini gücləndirir. (Johnson, M. B, 2018, s.123-140)

İnklüziv təhsilin mərkəzində onun şagirdlər arasında aidiyyət hissinin formalaşmasına dərin təsiri dayanır. Şagirdlər özlərini göründüklərini, eşitdiklərini və qiymətləndirildiklərini hiss etdikdə,

onların təhsil səyahətlərində fəal iştirak etmək ehtimalı daha yüksəkdir. İnklüziv təcrübələr şagirdin aidiyyət duyğusuna mane ola biləcək maneələri aradan qaldırmaq, hər kəsin hörmət edildiyini və daxil olduğunu hiss etdiyi bir mühit yaratmaq məqsədi daşıyır. Bu, təkcə akademik nailiyyətləri artırmır, həm də sosial bacarıqların və emosional rifahın inkişafına töhfə verir.

İnklüzivlik hər bir şagirdin daxilində olan geniş və müxtəlif potensialın açılması üçün katalizator rolunu oynayır. Ənənəvi təhsil modelləri öyrənmə üslubları və ya bacarıqlarındakı fərqlərə görə təsadüfən müəyyən şagirdləri məhdudlaşdıra bilər. Digər tərəfdən, inklüziv təhsil, hər bir şagirdin inkişaf etməsinə imkan verən müxtəlif ehtiyacları ödəmək üçün yanaşmalar yaradır. Fərdi güclü tərəfləri və problemləri tanımaqla və onlara müraciət etməklə, pedaqoqlar şagirdlərə tam potensialını həyata keçirməyə imkan verən fərdiləşdirilmiş təlim təcrübələri yarada bilərlər.

Təhsilə bərabər yanaşma inklüziv təcrübələrin əsasını təşkil edir. O, bərabər resursları təmin etməkdən kənara çıxır; bu, müəyyən qrup şagirdlərə mane ola biləcək sistemli maneələrin və qərəzlərin aradan qaldırılmasını nəzərdə tutur. İnklüziv təhsil mühitində hər bir şagirdə iştirak etmək, öyrənmək və uğur qazanmaq üçün bərabər imkanlar verilir. Ədalətliliyə olan bu öhdəlik təhsilin sosial dəyişikliklər üçün güclü qüvvəyə çevrildiyi daha ədalətli və mərhəmətli cəmiyyətin əsasını qoyur.(Tim Loreman və b,2020, s.17-45)

İnklüziv təhsilin incəliklərini araşdırdıqca biz onun müxtəlifliyi qəbul etməkdə, aidiyyət hissini inkişaf etdirməkdə, fərdi potensialı açmaqda və bərabərliyi təşviq etməkdə onun dəyişdirici gücünü aşkar edirik. İnklüziv və bərabərhüquqlu öyrənmə mühitinin inkişaf etdirilməsi istiqamətində səyahəti səciyyələndirən praktiki strategiyaları, çətinlikləri və uğurları araşdırarkən bu kəşfiyyatda bizə qoşulun.

İnklüziv təhsilə dair araşdırmamızın yekun fəsillərində biz onun təhsil mənzərəsinə transformativ təsirini dərindən dərk edirik. Müxtəlifliyin, bərabərliyin və inklüziv təcrübələrə can atmanın mürəkkəbliklərini gəzdikcə aydın olur ki, bu paradiqma təkcə təhsil fəlsəfəsi deyil, həm də cəmiyyət dəyişikliyi üçün güclü katalizatordur.

Müxtəlifliyin bir təhsil sərvəti kimi qeyd olunması təkcə öyrətmə və öyrənmə tərzimizi deyil, həm də dünyanı necə qavradığımızı və onunla əlaqəmizi yenidən formalaşdırmaq potensialına malikdir. Hər bir şagirdin özünəməxsus təcrübə və perspektivlər dəstini gətirdiyinin qəbul edilməsi təhsil qobelenini zənginləşdirir, marağın inkişaf etdirildiyi və biliyin ortaq anlaşma əsasında qurulduğu mühit yaradır.(Buli-Holmberg, J,2016,s.119-123)

Aidiyyət hissinin tərbiyə edilməsinə vurğu inklüziv təhsil çərçivəsində təməl daşı olduğunu sübut edir. Hər bir şagirdin görüldüyünü və qiymətləndirildiyini hiss etməsinin əhəmiyyətini qiymətləndirmək olmaz. Fərqlərin əhatə olunduğu bir cəmiyyəti inkişaf etdirməklə biz təkcə akademik biliklərə malik deyil, həm də empatik, açıq fikirli və daha inklüziv cəmiyyətə töhfə verməyə hazır olan fərdlər nəslinə yol açırıq.

İnklüziv təcrübələr müxtəlif öyrənmə üslubları və qabiliyyətlərini qəbul etdikdə və onlara müraciət etdikdə fərdi potensialın açılması reallığa çevrilir. Təhsil yanaşmalarını fərdiləşdirməklə, biz hər bir şagirdyə unikal akademik vəziyyətlərini idarə etmək üçün səlahiyyət veririk, öyrənməyə və özünü kəşf etməyə ömürlük sevgini aşılayırıq.

İnklüziv təhsil ilə bağlı tədqiqatımız öyrənmə imkanlarında bərabərliyin təşviqi ilə yekunlaşır. O, xatırladır ki, təhsil təkcə bilik vermək deyil, həm də əldə etmək və uğura mane olan maneələri aradan qaldırmaqdır. Eqalitar yanaşmanı qəbul etməklə biz təhsilin sistemli bərabərsizlikləri aradan qaldırmaq, ədaləti təşviq etmək və daha ədalətli gələcəyə kollektiv öhdəliyi inkişaf etdirmək üçün vasitəyə çevrildiyi bir cəmiyyətin təməlini qoyuruq.

Bu tədqiqatı yekunlaşdırarkən biz inklüziv təhsilin təkcə məqsəd deyil, həm də ortaq öhdəlik olduğu bir dünya təsəvvür edirik. Bu, müxtəlifliyin qeyd olunduğu, fərdi potensialın üzə çıxdığı və bərabərliyin rəhbər prinsip olduğu öyrənmə mühitinin yaradılmasında müəllimlər, siyasətçilər və icmalar üçün fəaliyyətə çağırışdır. İnklüziv təhsili qəbul etməklə biz hamı üçün daha parlaq, daha mərhəmətli və həqiqətən ədalətli gələcəyə doğru kollektiv səyahətə çıxırıq.

Ədəbiyyat

1. “İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının Oxu materialı. Avropa İttifaqı, Azərbaycan Təhsil Nazirliyi, UNİCEF, Regional İnkişaf İctimai Birliyi. 2019.
2. İnklüziv siniflərdə təlimin təşkili. TİPİİ. Oxu materialı .Bakı – 2018
3. İnklüziv təhsil Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Tim Loreman, Coan Deppeler və David Harvey. (Tərcümə- Regional İnkişaf İctimai Birliyi) 2020.
4. Buli-Holmberg, J., and S. Jeyaprathaban. 2016. “Effective Practice in Inclusive and Special Needs Education.” International Journal of Special Education 31 (1): 119–134.
5. Johnson, M.B. (2018). Nurturing Belonging in Inclusive Classrooms. Journal of Inclusive Education, 15(2), 123-145.
6. Rodriguez, C.D. (2019). Unlocking Potential: A Case Study of Inclusive Education Implementation. International Conference on Education Research, 45-56.

İNKLÜZİV TƏHSİLİN ÜSTÜN VƏ ÇATIŞMAYAN TƏRƏFLƏRİ

Aybəniz Xəlilova
Bakı Slavyan Universiteti
aybanizxalilova@mail.ru

Summary

This article discusses issues such as the inclusion of children with disabilities in inclusive education, how children with disabilities feel in an inclusive environment, as well as the advantages and disadvantages of inclusiveness. Disputes about the joint education of healthy children and children with disabilities have not subsided to this day. Both sides benefit from this process. At the same time, it is not yet known which side benefits more - a child with disabilities who needs it more, or ordinary children who receive lessons in kindness and tolerance.

Key words: *inclusion, socio-cultural phenomenon, tolerance, integration, experience, training, resources.*

Резюме

В данной статье рассматриваются такие вопросы, как вовлечение детей с ограниченными возможностями здоровья в инклюзивное образование, как дети с ограниченными возможностями чувствуют себя в условиях инклюзивности, а также преимущества и недостатки инклюзивности. Споры о совместном обучении здоровых детей и детей с ограниченными возможностями здоровья не утихают до сих пор. Обе стороны выигрывают от этого процесса. При этом пока неизвестно, какая сторона выигрывает больше – ребенок с ограниченными возможностями здоровья, который в этом больше нуждается, или обычные дети, которые проходят уроки доброты и толерантности.

Ключевые слова: *инклюзия, социокультурный феномен, толерантность, интеграция, опыт, обучение, ресурсы.*

Qərbi Avropa dövlətlərinin sosial sistemində demokratikləşmə proseslərinin sürətli inkişafı informasiya cəmiyyəti daxilində münasibətlərin keyfiyyətcə dəyişməsinə səbəb olmuşdur. Bərabərlik tələbləri və fərdi xüsusiyyətlərə görə insanlar arasında bölünmələrin minimuma endirilməsi cəmiyyətin birliyinə yönəlmiş inklüziv proseslərin inkişafına səbəb olur. İnklüzivlik, informasiya cəmiyyətinin inkişafının əsas elementi kimi, cəmiyyətin müxtəlif qruplarından olan insanları birləşdirməyə və birgə həyat fəaliyyətinin birliyinə meylli olan cəmiyyət daxilində münasibətlərin və qarşılıqlı əlaqələrin fundamental növlərindən biridir.

Müasir inklüzivlik uzun müddət formalaşmış ideyaların məcmusudur. İndiki nəslin imkanları cəmiyyətin inklüzivlik ideyalarını və prinsiplərini həyata keçirməyə mədəni-ideoloji, etik, iqtisadi, siyasi hazırlığından danışmağa imkan verir. Hər bir şəxs, fərdi xüsusiyyətlərindən və ya məhdud imkanlarından asılı olmayaraq, həyatın bütün sahələrində iştirak etmək hüququna malikdir. İnklüzivliyin təsiri fərdi imkanları nəzərə alaraq xüsusi həyat ehtiyaclarını ödəməyə yönəlmiş xüsusi şəraitin yaradılmasında əks olunur.

Sosial-mədəni fenomen kimi inklüzivliyin müasir tərifi aydın və konkret deyil və bu anlayışın hər hansı bir elmi çərçivəsinin olmaması ilə əlaqədardır. Müxtəlif sosial istiqamətlərdə (təhsil, asudə

vaxt, əmək fəaliyyəti və s.) inklüzivlik fərqli şəkildə başa düşülür və qeyri-adi şəkildə tətbiq olunur. Cəmiyyətdə inklüzivlik mövzusunun öyrənilməsi müasir elmi və sosial dünyada mürəkkəb və aktualdır. İnklüzivliyin aktuallığı onun dünyanın bir çox ölkələrində yayılmış qlobal demokratikləşmə və humanistləşmə prosesləri ilə əlaqəsindədir.

İnklüziv təhsil - xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi təhsil (kütləvi) məktəblərində tədris prosesini təsvir etmək üçün istifadə olunan termindir. İnklüziv təhsil uşaqlara qarşı hər hansı ayrı-seçkiliyi istisna edən, bütün insanlara bərabər münasibəti təmin edən, lakin xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün xüsusi şərait yaradan ideologiyaya əsaslanır. İnklüziv təhsil - bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşma baxımından təhsilin hamı üçün əlçatanlığını nəzərdə tutan, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən ümumi təhsilin inkişafı prosesidir.

İnklüziv təhsil mövzusunda bir çox söhbətlər, mübahisələr, debatlar, mülahizələr, qanunlar qəbul edilir, düzəlişlər edilir, bütün bunlara təhsil təşkilatları əməl edir, müəllimlər bu proseslərə ayaqlaşmağa çalışırlar. Bəs inklüzivlik uşaqlarımızda necə əks olunur? Bu prosesin əsas personajlar, məhdud imkanlı uşaqlarımız və böyüklərimiz tətbiq olunan inklyüziyada özlərini necə hiss edirlər?

Məqalədə yuxarıda sadalanan bütün məsələləri anlamağa, inklüzivliyə prosesin bütün iştirakçılarının gözü ilə baxmağa, sağlamlıq imkanları məhdud uşaqların sağlam uşaqların yanında nəyə sahib olduqlarını, həmçinin inklüziyanın onlara və sağlam həmyaşıdlarına nə verdiyini anlamağa çalışacağıq. Eyni zamanda inklüzivliyin üstün və çatışmayan tərəflərini görməyə çalışacağıq.

Sağlam uşaqlarla inkişaf qüsurları olan uşaqların bir yerdə təhsil almasına dair mübahisələr indiyədək səngimək bilmir. Bu prosesdən hər iki tərəf udur. Bununla yanaşı, hələ bilinmir hansı tərəf daha çox qazanır – buna daha çox ehtiyacı olan məhdud imkanlı uşaq, yoxsa xeyirxahlıq və tolerantlıq dərsləri keçən adi uşaqlar".

Məqalənin əvvəlində qeyd etdiyimiz kimi inklüzivliyin üstün və çatışmayan tərəfləridə vardır. Bunlar aşağıdakılardır:

Üstünlüklər

- Xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün təhsil təşkilatlarında xüsusi təlim şəraitinin yaradılması.
- Bütün uşaqların - müəyyən bir təhsil təşkilatının təhsil ehtiyaclarını ödəyə biləcək çevik adaptiv təhsil mühitinin yaradılması.
- SİM uşaqları qəbul etmək üçün uşaq, pedaqoji və valideyn kollektivin hazırlanması və bütün uşaqlar üçün rahat olacaq və maksimum inkişaf səviyyəsinə nail olunmasına, həmçinin uşağın sosial reabilitasiyasına və cəmiyyətə inteqrasiyasına töhfə verəcək təlim şəraitinin yaradılması.
- Qrupda tolerantlıq vərdişlərinin, yəni dözümlülüyün, mərhəmətin, qarşılıqlı hörmətin formalaşdırılması.

Çatışmazlıqlar:

- Tədris planının və təlimin məzmununun uşağın xüsusi təhsil ehtiyacları ilə uyğunsuzluğu.
- Ümumi tipli təhsil müəssisəsinin müəllim heyətinin xüsusi hazırlığının olmaması, korreksiya pedaqogikasının və xüsusi psixologiyanın əsaslarını bilməməsi.
- Müəllimlərin sağlamlıq imkanları məhdud olan uşaqların psixofiziki inkişafının xüsusiyyətləri, bu cür uşaqlar üçün təhsil və korreksiya prosesinin təşkili üsulları və texnologiyaları haqqında heç bir təsəvvürün olmaması.
- Sağlamlıq imkanları məhdud uşaqların ehtiyacları üçün məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki təchizatının kifayət qədər olmaması (pandusların, liftlərin, xüsusi tədris, reabilitasiya, tibbi avadanlıqların və s. olmaması).
- Məktəbəqədər təhsil müəssisələrinin ştat cədvəlində əlavə pedaqoji kadrların (surdopedaqoqlar, loqopedlər, pedaqoq-psixoloqlar, tiflopedaqoqlar) və tibb işçilərinin olmaması.
- Cəmiyyətin mühafizəkarlığı və xüsusən də övladlarının əlillərlə təhsil almasına tez-tez qarşı çıxan sağlam uşaqların valideynlərinin fikirlərinin sərtliyi.

SİM uşaqlar üçün maneəsiz mühitin və yaşayış şəraitinin yaradılması inklüzivliyin ən çətin vəzifəsi deyil, ən çətini sağlam insanların sağlamlıq imkanları məhdud uşaqlara münasibətini dəyişdirmək və inkişaf qüsurlarından asılı olmayaraq bütün uşaqları qəbul etməyə hazır olmaqdır.

Lakin real həyatda əksər valideynlər və onların uşaqları inklüzivliyin banal formallığı ilə üzləşirlər. Sağlam uşaqlarla birlikdə ətraf mühitə sağlamlıq imkanları məhdud uşaqlar buraxılır, amma təcrübədə göründüyü kimi nə uşaqlar, nə onların valideynləri, nə də müəllimlər bu prosesə hazır deyillər. Əgər xüsusi təhsil müəssisəsində uşaq xüsusi təşkil olunmuş məkanda, ixtisaslı mütəxəssislərin olduğu yerdədirsə, ümumi inkişaf və ümumi təhsil müəssisələrinə daxil olarkən müəllimlərimizin müxtəlif problemlərlə işləməyə hazır olmadıqları, maliyyə məsələlərində zəif motivasiyalı olduqları və maddi-texniki mühitin xüsusi təhsil ehtiyacı olan uşaqlar üçün hazırlıqsız olduğu üzə çıxır. Və əgər Bakıda inklüziyanın həyata keçirilməsində bəzi müsbət dinamikadan danışmaq olarsa, o zaman regionlarımız praktiki olaraq bu yolun başlanğıcındadır.

Təhsil sistemimizdə kimə təlim və sosiallaşma üçün ümumtəhsil məktəbə, kimə isə yalnız ixtisaslaşdırılmış məktəbə ehtiyacı olduğuna dair dəqiq qradasiya yoxdur. Amma nə qədər insanpərvər baxmağa çalışsaq da, müxtəlif problemləri olan uşaqların heç də hamısı ümumtəhsil məktəbə yararlı deyil. Buna görə də xüsusi bir uşağın bütün ehtiyacları ödənilmirsə və bütün lazımi şərait yaradılmırsa, inklüzivliyin faydalarından danışmaq çətinləşir.

Bir çox xarici alimlər öz tədqiqatlarında müxtəlif təhsil ehtiyacları olan uşaqların uğurlu birgə təlimi üçün təhsil təşkilatlarının inklüziv mədəniyyətinin formalaşmasının vacibliyini qeyd edirlər (Corbet, 1999, s.56).

A. De Boer, S. J. Pijl, A. Minnaert (De Boer və b., 2011, s. 4) müəllimlərin inklüziv təhsilə münasibətini öyrənməyə yönəlmiş 26 tədqiqatın icmalını təqdim edir. Əksər hallarda müəllimlər sağlamlıq imkanları məhdud uşaqların ümumi ibtidai təhsil sisteminə cəlb edilməsinə neytral və ya mənfi münasibət bəsləməsi müəyyən edilib. Heç bir tədqiqat tamamilə müsbət nəticə verməyib. Müəllimlərin inklüzivliyə münasibətinə təsir edən bir sıra amillər müəyyən edilmişdir, bunlar arasında yenidən hazırlıq kurslarında əlavə təlim və müxtəlif növ əlilliyi olan uşaqlar ilə qarşılıqlı təcrübə əldə etmək.

Xarici alimlər təcrübəyə önəm verərək qeyd edirlər ki, müəllimlərin məhdud imkanları olan uşaqlar üçün inklüziv təhsilə münasibətinə təcrübə, təlim, mövcud resursların qavranılması və ekspert dəstəyi kimi dəyişənlər güclü təsir göstərir. İnklüziv təhsil mühitində böyük iş təcrübəsi xüsusi ehtiyacı olan uşaqların adi siniflərdə tədrisinə daha müsbət münasibət yaradır (Rodríguez, 2012, s.8). İnklüziv hazırlığın formalaşması nəticəsində müəllim və şagirdlər təhsilə fərdi və səriştə əsaslanan yanaşmaların həyata keçirilməsi üsullarını, çoxsəviyyəli mühitlərdə işləmək vərdişlərini, adaptiv metodları və tədris texnikalarını mənimsəməlidirlər.

İnklüzivlik düzgün formatda qurulduğu təqdirdə, prosesin bütün iştirakçıları üçün qarşılıqlı faydalı haldır; sağlamlıqimkanları məhdud olan uşaqlar məktəbdən, məktəb isə onlardan faydalanır. İnklüziv məktəbdə uşaqlar mərhəmət, bərabərlik, sosial ədalət, əməkdaşlıq, birlik və müsbət münasibət mühitində olurlar. Təhsil prosesinin bütün iştirakçıları şəxsiyyətlərarası münasibətləri və ümumi rifah naminə birgə iş hissini qiymətləndirən xeyirxah və əlverişli bir mühitdən faydalanırlar.

Ədəbiyyat

1. Corbet, J. (1999). Inclusive education and school culture [Electronic resource]: J. Corbet // International Journal of Inclusive Education. Vol. 3, №1. p. 53- 61. Mode of access: http:www. tandfonline. com/doi/abs/10.1080/136031199285183.

2. De Boer A., Pijl S. J., Minnaert A. (2011). Regular primary schoolteachers' attitudes towards inclusive education: a review of the literature // International Journal of Inclusive Education. Vol. 15 № 3

3. Rodríguez, I. R. (2012) Support, Inclusion, and Special Education Teachers’ Attitudes toward the Education of Students with Autism Spectrum Disorders // I.R. Rodríguez, D. Saldaña, F. J.Moreno/ Autism Research and Treatment. Mode of access: http://www.hindawi. com/ journals /aurt/2012/259468.

ORTA MƏKTƏB TƏCRÜBƏSİNDƏ TƏDRİSƏ İNKLÜZİV YANAŞMALAR

İlhamə Xəlilova
Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksi, məktəb psixoloqu
ilhama.xelilova@mail.ru

Summary

In addition to referring to cases encountered in the practice of a school psychologist in the direction of ensuring inclusiveness in the educational environment, the presented article describes the attempts, projects and forms of cooperation with other relevant educational institutions in the pedagogical team represented by him. Certain conclusions and observations are presented. It is emphasized that inclusiveness paves the way for tolerant attitude and compassion in the educational process.

Key words: *inclusivity, team, School-Lyceum Complex at the Baku Slavic University, projects, tolerance*

Резюме

Помимо обращения к случаям, встречающимся в практике школьного психолога в обеспечении инклюзивности в образовательной среде, в представленной статье описаны попытки, проекты и формы сотрудничества Комплекса «Школа-лицей» при БСУ с другими соответствующими образовательными учреждениями. Представлены некоторые выводы и наблюдения автора. Подчёркивается, что инклюзивность открывает путь к толерантному отношению и состраданию в образовательном процессе и во всём обществе.

Ключевые слова: *инклюзивность, коллектив, Комплекс «школа-лицей» при Бакинском славянском университете, проекты, толерантность.*

Bildiyimiz kimi, inklüziv təhsil (fransızcadan tərcümədə - *"özümə daxil edirəm*", latıncadan tərcümədən – *"daxil edirəm"*) – ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. İnklüziv təhsil həm də sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir.

İnklüziv təhsil uşaqların müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib.

İnklüziv təhsil istər sağlam, istərsə də əlillərin bərabər təhsilalma hüquqlarını təmin edir və bu cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur.

Beynəlxalq praktikaya əsasən, bir sinifdə təhsil alan xüsusi qayğıya ehtiyacı olan şagirdlərin sayı 5-10% olmalıdır.

Azərbaycanda orta məktəb şəraitində inklüziv təhsil hansı şəraitdə təzahür edir və şəxsi təcrübələrimiz nəyi ehtiva edir.

İllər boyu Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksində psixoloq kimi fəaliyyətim inklüzivliyin əhəmiyyəti, tədrisdə inklüziv yanaşmanın rolu barədə məndə müəyyən təsəvvürlər formalaşdırıb. Bir vaxtlar tanınmış bir pedaqoqun dilindən səslənən "Məktəbdə nə qədər şagird varsa, o qədər də fərdi yanaşma olmalıdır" ifadəsi barədə çox düşünmüşəm. İstər yetirən, istedadlı, istər yetirməyən, problemli, fərqli yanaşma tələb edən şagirdlərə münasibətdə inklüzivliyə ehtiyac duyulduğunu anlamışam. Hələ 2000-ci illərin əvvəllərində o vaxtlar *Humanitar lisey* adı altında fəaliyyət göstərən tədris müəssisəmizdə inkişaf və əqli cəhətdən qüsurlu uşaqların ayrı-ayrı siniflərdə tədrisə cəlb olunması praktikası ilə üzləşmişdik.

Digər bir təcrübəmiz Bakı şəhəri 11 saylı internat məktəblə sıx əməkdaşlıq əlaqələrimizin mövcudluğu idi ki, liseyin Şagird Parlamenti üzvüləri mütəmadi olaraq bu internatda bayram tədbirlərinin təşkilində iştirak edirdilər.

Sonra bu təcrübəmizi digər internat məktəblərinə də apardıq...

Məktəb çox böyük bir ailədir. Görək nə baş verir?

İnklüziv uşaqların xüsusi qayğıya ehtiyacı olsa da

1) Kollektivə necə uyğunlaşırlar?

2) Onlarda özünəinam hissi varmı və ya olması üçün hansı tədbirlər görülür?

3) Bu uşaqlar cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu şəxs kimi yetişə bilirlərmi?

4) Onların empatiya hissini inkişaf etdirmək üçün şərait varmı?

5) İnklüziv uşaqlar təhsil alan siniflərdə adi uşaqların bu vəziyyətə münasibəti necə olur və ya olmalıdır?

6) İnklüziv uşaqların valideynləri övladlarının adi orta məktəblərdə təhsil alması üçün mənəvi gücə və dəstəyə malikdirlərmi?

7) Ümumiyyətlə, aparılan tədqiqatlar məktəb şəraitində özünü doğruldurmu?

8) Nəticəyönümlü işlərin artırılması üçün nə edilir və etmək lazımdır?

9) “Müəllim – uşaq - valideyn” üçlüyünün düzgün qurulması üçün hansı addımlar atılmalıdır?

Qoyulan məsələlərə məktəb şəraitində saysız-hesabsız yanaşmaları var.

Uzun illərin təcrübəsi göstərir ki, inklüziv adi məktəblərdə (ibtidai, ümumi orta və tam orta, yəni I-IV; V-IX; X-XI təhsil səviyyələrində) yanaşma və iş prinsipinin qurulması müxtəlif yaş dövrlərinə təsadüf etdiyindən fərqli olur. Çoxsaylı müşahidələr göstərir ki, eyni diaqnoza (həkim diaqnozuna) malik iki nəfər I sinif şagirdinin sosial-mənəvi durumundan asılı olaraq, özünə və ətrafındakı sağlam uşaqlara yanaşmasında özünəməxsus prablemlər yaranır. Məktəbə daxil olub I sinifdə təlim və tədrisinə başlayan 7 yaşlı 2 eyni inklüziv şagirdin məktəbə adaptasıyasına baxaq. Rus bölməsində təhsil alan birinci şagird sinfə girməyə qorxur (tədris ili təzə başlayarkən), lağ obyekti olmamaq üçün məktəbə daxil olarkən vaxtının çoxunu koridorlarda keçirir və ya anasının yanına qacır. Sinifdə bəlli çox sayda şagird olduğuna görə idarəetməni itirəcəyindən qorxan müəllim isə ilk vaxtlarda belə şagirdə səbrsiz və etinasız yanaşır. Çünki müəllimin düşüncəsində o, ilk növbədə, tədris proqramını çatdırmalıdır. Valideynin usanmadan, mütəmadi köməyi, dəstəyi, psixoloqla daimi təması, uşağın arzu və istəklərinə tolerant və düzgün yanaşması, aparılan ümumi işlərin nəticəsi olaraq (psixoloqun, valideynin müəllimlə düzgün təması) vəziyyətin sözün həqiqi mənasında az da olsa (çox uzunmüddətli empatik və düzgün yanaşma nəticəsində) sabitləşməsinə və yanaşmasına səbəb olur. Doğrudur, valideyn də hərdən sürətli nəticəyə köklənir deyə ruhdan düşür. Amma yenə də burada ailəsində (ata və ananın tandem şəklində) olan inklüziv övladla əlaqəli davranış biçimlərini formalaşdırması, uşaqlarına “yazığı gəlir mövqeyindən deyil, doğru olan edilməlidir mövqeyindən yanaşmaları hadisələrin yaxşı tərəfə dəyişməsində mühim rol oynayır.” Ümumiyyətlə, cəmiyyətdə inklüziv uşaqın məktəblərdə tez sosiallaşması və normal münasibət qurması üçün ən vacib amil müəllim-pedaqoq və valideyn amilidir. Düzgün dəstək, problemlər haqqında açıqsözlü olmaq, problemlərin çözülməsi üçün düzgün analız və məsləhətləşmələr məktəbin əsl təhsil ocağı olmasında danılmaz rol oynayır. Çünki məktəbin əsas vəzifəsi “insan” yetişdirməkdir.

İkinci şagird də I sinifdə təhsil alır. Azərbaycan bölməsində təhsil alan bu uşaq (7 yaşında) nə qədər dözümlü yanaşılsa da (müəllim, psixoloq) sosiallaşmasında ciddi problemlər olduğuna görə oturmur, qışqırır, bütün psixoloji prosedurlardan keçsə belə, sakitləşmir və həmin yaşda olan adi şagirdlərdə qorxu hissi yaradır, valideynlər şikayət edir, mənim övladımın keyfiyyətli təhsil almaq, rahat şəraitdə oxumaq hüququ var və sair. Valideyni isə öz uşağına təpki göstərir və cəzalandırır. V-IX ümumi orta təhsil səviyyəsində ciddi kəkələməsi olan özünə və mühitə qapalı, aqresiv, biliklərini çatdıra bilməyəndə, məktəb ləvazimatlarına zərər verən oğlan şagirdini sinfin qız şagidlərinin maariflənməsi nəticəsində empatiya hisslərinin artması, dərindən mərhəmətli yanaşma və həddi-buluğ yaşının (nəticəsi) “tələtümlərindən” çıxış olaraq (bu yaş dövrünün çıxıntıları dəqiq şəkildə izah edilərək) və ən ümdə olaraq işə şagirdin öz iradəsinə və ədalətinə söykənərək, şagirdin formalaşmasında irəli dönüşlər az da olsa özünü göstərdi. Bu münasibətlər həmin şagirdlərin təlim nəticələrinin dəyişməsinə də təsir edir. Bu məsələdə valideyn özü də çox qapalı olduğuna görə (ixtisasca həkim olsa belə) nəticələr az qənaətbəxşdir.

Nəticə olaraq: İnklüziv təhsilin inkişafı üçün

1) Təhsilalanların, təhsilverənlərin və ən əsası valideynin birgə fəaliyyəti

2) Uşaqlarda empatiya hissinin inkişafına dəstəkləyici mühitin olması

3) Təhsilverənlərin ümdə məqsədinin “insan”, “şəxsiyyət” yetişdirmək olması

4) Valideynin (inklüziv uşağın) dürüst və açıq sözlü olması

5) Müəllim-valideyn-şagird üçlüyünün daim düzgün ünsiyyəti

6) Bu sahədə güclü, düzgün maarifləndirmə

7) Təhsilverənlərin “əsl pedaqoq”, “əsl insan”, “əsl müəllim olması”

8) “Bədən dilinin” elmi şəkildə öyrədilməsi
9) Hər yaş qrupuna uyğun düzgün psixoloji işlərin aparılması
10) Beynəlxalq təcrübələrin Azərbaycan mentalitetinə uyğun tətbiqi
11) Ətraf mühitin inklüziv uşaqlara yanaşmasındakı “yazıqlıq” hissinin düzgün yanaşma hissinə (maariflənmə nəticəsində) çevrilməsi kimi cəhətləri pedaqoji fəaliyyətdə, tədris müəssisələrində, təhsil mühitində əsas götürülməli məqamlar hesab edirik.

Bir sözlə, təhsildə inklüzivliyin gözlənilməsi qaçılmazdır. Məktəb, universitet mühiti tolerantlıq məkanına çevrilməlidir. Zaman gələcək, məktəblərdə ancaq “mərhəmət” dərslərinin keçirilməsinə ciddi ehtiyac olacaq. Yunus Əmrənin təbirincə desək,

Gəzdin Mələb ilə Şamı,
Eylədim elmi tələb.
Demə elm bir heç imiş,
İllah ədəb, illah ədəb.

Ədəbiyyat

1. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunu, 2019-cu il. https://e-qanun.az/framework/42543
2. “Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 fevral 2018-ci il tarixli, 62 nömrəli Qərarı.
3. Cəfərov T.H. (2023) Təhsilimizin cari və strateji inkişaf konsepsiyasının cizgiləri // T.Cəfərov (Vəlixanlı). Təhsil və zaman, Bakı, Mütərcim, s.30-42.

İNKLÜZİV TƏHSİLİN MƏKTƏB SƏVİYYƏSİNDƏ TƏŞKİLİNƏ VERİLƏN TƏLƏBLƏR

Vəfa İlyasova
BDU Qazax filialı
vefa.ilyasova74@gmail.com

Summary

Education in the classroom with an inclusive component implies the right of everyone to participate in the educational process together with others. Differences between children, including different abilities, cannot affect this right. All children have different abilities. When children are given the right to belong to a collective, they are also given the right to diversity. Inclusive classrooms are based on an attitude of community where no one is excluded and everyone is accepted with their individual abilities and needs. Regardless of abilities and needs, all students are considered members of the class team in the same way.

Key words: *inclusive education,children with disabilities, spiritual integrity, faith in the future,inclusive values.*

Резюме

Обучение в классе с инклюзивным компонентом предполагает право каждого участвовать в образовательном процессе вместе с другими. Различия между детьми, в том числе разные способности, не могут повлиять на это право. У всех детей разные способности. Когда детям дается право принадлежать к коллективу, им также дается право на разнообразие. Инклюзивные классы основаны на позиции сообщества, где никто не исключен и каждый принимается с его индивидуальными способностями и потребностями. Независимо от способностей и потребностей, все учащиеся в равной степени считаются членами классного коллектива.

Ключевые слова: *инклюзивное образование, дети с ограниченными возможностями, духовная целостность, вера в будущее, инклюзивные ценности.*

Mənəvi bütövlük, özgüvən, gələcəyə inam, yoxsa bu gündən sabaha ümidi olmayan parçalanmış və haçalanmış düşüncə? Psixoloji dinclik, yoxsa cavabsız suallarla yüklənmiş ipdən asılı xəyallar? Cəmiyyət üçün önəmli, faydalı olmaq hissi, yoxsa heç kimin işinə yaramayan sıradan fərdlər

olduğunu düşünmək duyğusu? Bu sualları, yazıldığı vərəqdən oxumaq nə qədər asan olsa da, onları cavablandırmaq bir o qədər çətindir. Ancaq mümkünsüz deyil.

Əgər biz bötüv və sağlam bir toplum istəyiriksə, bu, hər şeydən öncə təhsilin tamlığından keçir. Böyük hədəfləri olan inklüziv təhsil də sağlamlıq imkanları məhdud olan uşaqlar üçün geniş üfüqlər açır (1,səh 38).

İnklüziv təhsil övladının dəyişəcəyinə, irəliləyəcəyinə, inkişaf edəcəyinə zərrə qədər də ümid və inamı olmayan valideynlərə ümid verir. Əlilliyi olan uşaqlar ümumtəhsil məktəblərində uğur sərgiləyən zaman ailə sevinir və ilk hədiyyələrini almış olurlar. Bu zaman inklüziv təhsil şagird-müəllim-valideyn üçbucağının mərkəzində dayanıb missiyasının bəhrəsini izləyir. Bu bəhrəni görmək bir günün, bir saatın işi deyil.

Əlilliyi olan uşaqların inklüziv təhsil başlanğıcı bütünlüklə müəllimin öhdəliyidir desək, düzgün olmaz. Bu işdə ibtidai addım ailədən başlanmalı, sistemli, məntiqli əsaslarla məktəbdə davam etdirilməlidir. İlk növbədə valideyn övladı ilə olan ümid bağını qoparmamalıdır və dəstək olmalıdır ki, uşaq da inklüziv siniflərdə irəliləyiş göstərə bilsin. Sevgi amili addım atılan işə çıraq tutmasa, nəticə də gözlənilən və ümid edilən kimi olmaz. Bəzi valideynlər var ki, onlar öz canından olan uşaqlarının təhsili bir yana qalsın, onlara evdə baxmağı belə dünyanın həlli mümkünsüz işi kimi görürlər. Qorxu hissi, ümidsizlik, eyni zamanda çarəsizlik baş alıb gedir. Hətta inklüziv təhsil şərtləri ilə tanış olduqda belə yenə müsbət nəticəyə inanmırlar. İnklüziv təhsil sistemini yerli mühit və quruluşa uyğunlaşdıran, ölkəmizdə bu istiqamətin əsaslarını formalaşdıran və təkmilləşdirən mütəxəssislər valideynlərlə düzgün ünsiyyət qurmalı və maarifləndirmə işlərini effektiv vasitələrlə aparmalıdırlar ki, valideyn övladının təhsilin bu növünə qoşulmasına qəribə baxmasın (2,səh 32).

İnklüziv təhsilin öz miqyasında qoruyub saxladığı mühüm bir detal bəzən gözdən qaçır. Aydındır ki, əlil uşaqların sağlam uşaqlarla eyni sinifdə təhsilə cəlb olunması, bir tərəfdən sağlamlıq imkanları məhdud olanların onlarla eyni vəziyyətdə olan digər şagirdləri görməsinə səbəb olur. Nəticə etibarilə, fiziki, əqli əlilliyi olan uşaqlar tək olmadıqlarını anlayır və əskikliyin yalnız onlarda deyil, digərlərində də mövcud olduğunu dərk edirlər. O biri tərəfdən sağlam sinif yoldaşlarını görüb ilk başda müəyyən məhrumiyyət duyğusu yaşasalar da, onlarla eyni təhsildən faydalana bildiklərini və eyni yolu getdiklərini başa düşürlər. Sanki güzgüyə baxıb özlərini yox, sağlam ekvivalentlərini görürlər. Özlərinin o cür olduqlarına və ya ola biləcəklərinə inanırlar. Əsas olan da inam deyilmi? Deməli, hədəf bəhrəsini verir.

Xüsusilə əlilliyi olan uşaqlardan danışırıqsa, sinifdə dərsin təşkili zamanı, gedişatda onlara eyni metodları tətbiq etmək və ya eyni psixoloji, mənəvi yanaşma ilə yaxınlaşmaq düzgün olmaz (3,səh 45).

Əlilliyi olan uşaqlar tozlanmış əşya kimidirlər. Bəziləri bu tozu təmizləməyə cürət etməsə də, onları təmizləyib, cilalayıb içlərindəki cövhəri çıxara bilən müəllimlər nəticəni görəndə, bütün tərəflər inklüziv siniflərin faydasını anlayırlar. Ona görə də inklüziv təhsilin tətbiqi zamanı hər bir uşağa işlənməsi vacib olan bir layihə kimi baxmaq lazımdır. Bu uşaqlar bəzən coşub çağlayan Amazon çayı kimi, məcrasını basıb insanları çətinə sala bilərlər. Bəzən isə həddən artıq sakit dəyişən məfhumlar kimi ola bilərlər. Fərdi yanaşıb, zərgər dəqiqliyi ilə zinət əşyasını incə-incə işəmək lazımdır. Ümumi qaydalar, hər kəs üçün keçərli deyil. Fərdi metodlar isə əksər vaxtlarda öz faydasını göstərir, nəticəni sürətləndirir.

İnklüziv təhsil başqa hansı faydaları ilə tələbatlılığını artırır? Hər şeydən öncə bu təhsil sistemi dost qazandırır, münasibətlər yaradır, cəmiyyətin yararlı üzvü olmaq imkanlarını artırır, ən əsası yaşamaq eşqi bəxş edir. İnklüziv təhsil illərdir formalaşmış və bu qəbildən olan insanların içərisindən çıxa bilməyəcəklərini düşündükləri qorxu amilini də yox etməyə yardımçı olur. Ona görə də əlilliyi olan uşaqlarla aramıza aşılması mümkün olmayan barikadalar, tikanlı məftillər çəkmək əvəzinə, möhkəm və uzunömürlü körpülər qurmaq lazımdır. Bu prinsipi təkcə həyat münasibətlərində deyil, eyni sinifdə təhsil almağı əsas tutan inklüziv təhsil sistemində də, tətbiq etmək lazımdır. Fiziki məhdudiyyətli uşaqları cəmiyyətə qazandırmaq hər kəsin, xüsusilə də təhsil sahəsində külüng vuran insanların ən ümdə borcuna çevrilməlidir.

İstər ailədə, istərsə də məktəbdə əlil uşaqlara "yazıq gəlinməsi" fikri ilə yanaşmaq yanlışdır. İnklüziv təhsilin əlilliyi olan şagirdlərdə effekt verməsini gözləyiriksə, onlara acımaqdansa, bu uşaqların özgüvən hisslərini artırmaq və onların yaşadıqları mühit, xalq, cəmiyyət üçün faydalı ola biləcəklərinə bu fərdləri inandırmaq lazımdır. Oxumaq onların tam təbii və qanuni haqlarıdır. Çünki həmin insanların tibbi nöqteyi-nəzrədən sağlam olmamaları "bizdən biri deyillər" təəssüratı yaratmamalıdır.

İnklüziv təhsil sistemi normasında olmayan bir məfhumun daxilində yaxşı yönləri görüb göstərməyi hədəfləyən bir yanaşmadır. Təbii ki, bu bir az da baxanın təkcə baxmaqla qalmayıb, görməli və göstərməli olduğunu diqqətə çatdırır. Qaydasında olmayan obyekt və ya subyekti görüb yanından ötüb keçənlər də var, diqqətlə izləyib çoxlarının görmədiyini görənlər də. Əlilliyi olan uşaqlar da ifrat dərəcədə olmayan qayğını, diqqəti, təkanı, dəstəyi, ən əsası öyrənməyi, istedadlarını göstərməyi istəyən cövhərlərdir.

Göstərməkdən söz düşmüşkən, mütəmadi olaraq, əlilliyi olan uşaqlarla bərabər kiçik əyləncəli tədbirlərin, şənliklərin hazırlanması, onların iştirakı ilə bəsit teatr tamaşalarının təşkil edilməsi, inklüziv təhsilin faydalılığını bir qədər də artıra bilər. Nəticə etibarilə, münasibətləri möhkəmləndirmə, qaynayıb-qarışma, mənəvi-psixoloji rahatlıq baxımından bu, önəmlidir.

İnklüziv komponentli sinifdə təlim hər kəsin tədris prosesində digərləri ilə birlikdə iştirak etmə hüququnu nəzərdə tutur. Uşaqlar arasında olan fərq, o cümlədən, müxtəlif qabiliyyətlər bu hüquqa təsir göstərə bilməz. Bütün uşaqlar elə uşaqdırlar və müxtəlif qabiliyyətlərə malikdirlər. Uşaqlara kollektivə mənsub olma hüququ verildiyi zaman, onlara müxtəliflik hüququ da verilir. İnklüziv komponentli siniflərin əsasını heç kəsin kənarlaşdırılmadığı və hər kəsin fərdi qabiliyyət və ehtiyacları ilə birgə qəbul edildiyi birliyə olan münasibət təşkil edir. Qabiliyyət və ehtiyaclardan asılı olmayaraq, şagirdlərin hamısı eyni qaydada sinif kollektivinin üzvü sayılır. Xüsusən qayğıya ehtiyacı olan uşaqların siniflərə ürək açıqlığı ilə qəbul edilməsi olduqca vacibdir. Aydındır ki, müəllim şagirdlər üçün əsas davranış nümunəsidir.

Beynəlxalq sənədlər və yerli təcrübəyə əsasən tövsiyə olunur ki, inklüziv komponentli sinifdə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin faizi 5-10% arası olmalıdır. Belə ki, inklüziv komponentli siniflərdə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin biri fiziki və digəri isə əqli geriləməsi olan şagird olmaqla şagird sayı və sinif komplektləşməsi 20 nəfərdən artıq olmamalıdır.

Yalnız demokratik prinsiplərə söykənməklə sinifdə əsl kollektiv yaratmaq mümükündür. Ünsiyyət və öz yaşıdları ilə qarşılıqlı əlaqə imkanları inklüziv komponentli təlimin əsas elementlərindən biridir. Ancaq, bəzən belə hallarda da rast gəlinir: xüsusi qayğıya ehtiyacı olan şagirdlər digərlərindən kənarda yerləşdirilir, hətta digər şagirdlərlə yanaşı otursalar belə başqa fəaliyyətlə məşğul olur, başqa plan üzrə işləyirlər. Belə təcrübə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin sinif yoldaşları ilə birgə təlimə cəlb olunmalarına və onlardan nə isə öyrənmələrinə mane olur. Bunun sosial təcrid olunma ilə nəticələnə biləcəyini göstərməklə, müəllimlərə tövsiyə etmək olar ki, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin yoldaşları ilə birgə oturub, hətta məqsədlər müxtəlif olsa belə, onların məşğul olduqları fəaliyyətlərlə məşğul olmaları vacibdir.

Ədəbiyyat

1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.

2. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019

3. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019

İNKLUZİV TƏHSİLƏ DAİR BƏZİ MƏSƏLƏLƏR

Nəzakət İmamverdiyeva
Bakı Dövlət Universiteti, dosent
Naza-52@mail.ru

Summary

The article emphasizes the need for an inclusive education approach that includes the principles of social justice and equality among people.Inclusive education is an approach designed to pay special attention to and meet the educational needs of individuals at risk of being neglected and excluded.The application of an inclusive approach in education has a great impact on the formation of each person as a personality and leads to the creation of social equality in society.

Key words:*inclusion, education, approach, importance, training, features*

Резюме

В статье подчеркивается необходимость инклюзивного подхода к образованию, включающего принципы социальной справедливости и равенства между людьми. Инклюзивное образование – это подход, призванный уделять особое внимание и удовлетворять образовательные потребности людей, подвергающихся риску остаться без внимания и изоляции. Применение инклюзивного подхода в образовании оказывает большое влияние на формирование каждого человека как личности и приводит к созданию социального равенства в обществе.

Ключевые слова: *инклюзивность, образование, подход, важность,обучение, особенности*

Dünyada insanlar arasında cinsə, etnik mənşəyə, gəlir səviyyəsinə, dilə, dinə, fiziki qüsurlara və digər səbəblərə görə ayrı-seçkilik mövcuddur. Bu, hər bir insanın bərabər təhsil imkanlarına, sosial-mədəni fəaliyyətdə iştirakına imkan vermir. Ancaq, bu vəziyyətin qarşısını almaq və hər bir fərd üçün bərabər imkanlar yaratmaq təhsildə inkluzivliyi önəmli edən əsas məsələlərdən biridir. İnkluziv təhsil ilk növbədə xüsusi təhsilə ehtiyacı olan və ya sağlamlıq imkanları məhdud insanların normal təhsil prosesinə cəlb edilməsi məqsədi ilə ön plana çıxmışdır. Zaman keçdikcə bu yanaşmanın əhatə dairəsi genişlənmişdir. Hal-hazırda inkluziv təhsil diqqətdən kənarda qalmaq və təcrid olunmaq təhlükəsi yaşayan şəxslərə xüsusi diqqət yetirmək və onların təhsil ehtiyaclarını ödəmək üçün nəzərdə tutulan bir yanaşmadır. Beləliklə, təhsildə inkluziv yanaşma təhsil imkanları, sosial və mədəni fəaliyyətlər kimi müxtəlif imkanlara bərabər çıxışı olmayan bütün insanları əhatə edir. İnsanın yaradılış fitrətinə hörmət göz önündə tutularaq təlim prosesində hər bir öyrənən bərabərlik və ədalətlilik prinsiplərini həyata keçirilən mühit ilə təmin edilməlidir. Bu səbəbdən, inklüziv təhsilin elmi - metodiki əsaslarını hazırlayan pedaqoqlar təlim prosesinin nəticə verməsi üçün əsas diqqətin qüsurlara deyil, bu qüsurların tələblərinə cavab verən təlim materiallarının, əyani vəsaitlərin, maddi -texniki vasitələrin mümkün qədər səmərəli istifadəsinə yönəltməyi tövsiyə edir. (1, 2016, s. 102)

İnklüziv təhsil yanaşması Azərbaycan təhsil sistemində yeni islahatların həyata keçirilməsini, kadr hazırlığını, təhsil müəssisələrinin maddi -texniki bazasının daha da zənginləşdirilməsini və.s. məsələləri diqqət nərkəzinə gətirdi. Milli qanunvericilikdə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosialvəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasını və ayrı - seçkiliyə yol verilməməsinə təminat verir (5, 2009) Eyni zamanda, 2017- ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2024- cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı əsas məqsəd kimi qəbul edir. (3, 2017)

İnkluzivlik öyrənənlər arasında fərdi xüsusiyyətləri, fərqli bacarıq və qabiliyyətləri dəstəkləyən və hər kəs üçün əlçatanlığın təmin edilməsinə çalışan təhsil yanaşmasıdır.

İnklüziv təhsil aşağıdakıların əleyhinədir;

- Öyrənənlər sabit "bacarığa" malikdir.
- Öyrənənin hazırki öyrənmə bacarığı gələcək potensialını proqnozlaşdırma üçün istifadə edilə bilər.
- Öyrənənlərin zəkasının və düşünmə bacarığının test vasitəsi ilə müəyyən edilə bilər.

Əvəzində;

- İnklüziv təhsil hesab edir ki, zamanla hər bir şagirdin bacarıq və qabiliyyəti dəyişə bilər.
- Öyrədənlərin indiki halda etdikləri (və yaxud etmədikləri) hər bir öyrənənin gələcək qabiliyyət və bacarıqlarını dəyişə bilər.
- Heç bir şey neytral deyil. Öyrədənin etdiyi (və yaxud etmədiyi) hər bir şagirdin öyrənmə bacarığına təsir göstərir.

Beləliklə, təlim prosesində inklüziv yanaşma sinifdəki bütün öyrənənləri diqqətə alaraq zəngin öyrənmə mühitinin yaradılmasını və hər bir şagirdin fərqli öyrənmə tərzinə malik olduğuna inanmağı nəzərdə tutur.

İnkluziv təhsil anlayışında sosial ədalət və bərabərlik prinsipləri ön plana çıxar və fərdlər arası fərqliliklərə hörmət edilməsinin və dəyər verilməsinin vacibliyi vurğulanır. Buna oxşar bir şəkildə, UNICEF inkluziv təhsili xüsusi dəstəyə ehtiyac duyan bütün şagirdləri ehtiva edəcək bir sistem olaraq müəyyənləşdirmişdir. (6, 2003) Bu səbəbdən inklüziv təhsil "hər öyrənən eyni dərəcədə önəmlidir" anlayışı çərçivəsində məktəblərə bütün öyrənənlərə xidmət verə biləcək bir vəziyyətə gətirə bilmə cəhdi deyilə bilər. (7, 1994)

Araşdırılmış mənbələrə əsasən, inkluzivliyin təmin edildiyi təlim mühitinin bir sıra xüsusiyyətləri aşağıdakı kimi sıralanmışdır. (4, 2014, 84)

- ✓ Şagirdlər məktəbdə özlərini təhlükəsiz və güvəndə hiss edirlər.
- ✓ Müəllimlər şagirdlərə qayğı göstərirlər.
- ✓ Şagirdlər özlərini məktəbə aid hiss edirlər.
- ✓ Məktəbdə cinsiyyət ayrımı edilmədən qız və oğlan şagirdlərə bərabər və ədalətli şəkildə rəftar edilir.
- ✓ Məktəb qaydalarını hər kəs bilir.
- ✓ Məktəbdə kimsə zorbalığa məruz qalmır.
- ✓ Məktəb təmiz və təmirlidir.
- ✓ Məktəbdə müəllimlər mentor və fasilitator rolunda çıxış edirlər.
- ✓ Məktəbdəki əşyalar şagirdlərin zərər görməyəcəyi şəkildə yerləşdirilir.
- ✓ Valideyn, məktəb rəhbərliyi və müəllimlər arasında birgə əməkdaşlıq var.
- ✓ Müxtəlif mədəniyyətlərə malik olan şagirdlərə bərabər münasibət göstərilir.
- ✓ Şagirdlər bir - birlərinə kömək edirlər.
- ✓ Məktəbdə disiplin mövcuddur.
- ✓ Məktəbdə ailələrin gəlir vəziyyətləri nəzərə alınmadan bütün şagirdlərə bərabər şəkildə rəftar edilir.
- ✓ Şagirdlər məktəbdən kənar vaxtlarda ehtiyac hiss etdikdə müəllimləri və məktəb rəhbərliyi ilə əlaqə yarada bilirlər.

Təhsildə inkluziv yanaşmanın tətbiqi hər bir insanın şəxsiyyət kimi formalaşmasına böyük təsir göstərir. İnkluziv təhsil bütün insanların bərabərhüquqlu şəxslər kimi qəbul edilməsini əsas hesab edir. Yalnız belə olduğu halda bu, cəmiyyətdə sosial bərabərliyin yaradılmasına gətirib çıxara bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi. Bakı, 2016.

2. Azərbaycan Respublikasının Təhsil İnstitutu. İnklüziv təhsil. Bakı, 2024

3. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. (2017), Bakı

4. Bradshaw, C.P., Waasdorp ,T. E., Debnam, K. J., Johnson, S. L., (2014). Measuring school climate in high schools: a focus on safety, engagement, and the environment. Journal of School Health. 84(9): 593-604

5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. (2009). Bakı

6. UNICEF annual report. 1 January to 31 December, 2003

7. UNESCO (1997) Network for action on special needs education

MÜASİR CƏMİYYƏTDƏ İNKLÜZİV TƏHSİL VƏ ONUN TƏTBİQ İSTİQAMƏTLƏRİ

Nigar İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
niay.83@mail.ru

Summary

The article talks about inclusive education and the work carried out in this direction in modern times. It is noted that in an inclusive class, children not only learn together, but also work, communicate and have fun. With this approach, lessons are carried out depending on the child's abilities, readiness to master the program and be with healthy peers. Sometimes children spend the whole day together, and sometimes they communicate only during joint lessons.

At the same time, the article also talks about the principles of an inclusive approach to education.

***Key words**: inclusive education, development, children, communication, class, need*

Резюме

В статье говорится об инклюзивном образовании и работе, проводимой в этом направлении в современности. Отмечается, что в инклюзивном классе дети не только учатся вместе, но и работают, общаются и развлекаются. При таком подходе занятия проводятся в зависимости от способностей ребенка, готовности осваивать программу и находиться в среде здоровых сверстников. Иногда дети проводят вместе целый день, а иногда общаются только во время совместных уроков.

При этом в статье также говорится о принципах инклюзивного подхода к образованию.

***Ключевые слова:** инклюзивное образование, развитие, дети, общение, класс, потребность*

Fransız dilindən tərcümədə “daxil edirəm”ifadəsini özündə birləşdirən inklüziv təhsil müasir dövrdə aktual olması ilə diqqət çəkir. Belə ki, inklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqlara sağlam həmyaşıdlar qrupunda ümumi məktəb kurikulumunu mənimsəmələrini təklif edən təhsildir. İnklüzivliyin əsas prinsipi, diaqnoz qoyulmuş əlilliklərdən və sağlamlıq vəziyyətindən asılı olmayaraq uşaqların bərabər dəyəri və bərabərliyidir.

İnklüziv məktəb şəraiti kompleks narahatlıqlardan, inkişafda geriləmələrdən, davranış, görmə, eşitmə, nitq, intellekt və dayaq-hərəkət sistemi funksiyalarının pozulmasından əziyyət çəkən uşaqlara imkan verir ki, onlar sağlam uşaqlarla birgə məktəbə getsinlər, həmyaşıdları ilə bir sinifdə olsunlar, sağlamlıq ehtiyaclarına və imkanlarına uyğun fərdi öyrənmə məqsədləri olsun və lazımi dəstəyə arxayın formalaşsınlar.

Sağlamlıq imkanları məhdud uşaqlar uşaq bağçası qruplarına, ümumtəhsil məktəbi siniflərinə, inklüziv prinsipə əməl etməyə qadir olan peşə və ali təhsil müəssisələrinə daxil edilirlər. Bu, böyük nailiyyətdir, çünk iinklüzivlik belə uşaqlar üçün təhsil və peşə hazırlığı baxımından yeganə imkandır.

İnklüziv sinifdə uşaqlar təkcə birlikdə öyrənmir, həm də işləyir, ünsiyyət qurur və əylənirlər. Bu yanaşma ilə dərslər uşağın bacarıqlarından, proqramı mənimsəməyə və sağlam həmyaşıdları ilə birlikdə olmağa hazırlığından asılı olaraq həyata keçirilir. Bəzən uşaqlar bütün günü birlikdə keçirirlər, bəzən isə yalnız birgə dərslər zamanı ünsiyyət qururlar.

Ölkəmizdə təhsil sistemi çoxdan uşaqları xəstə və sağlamlara bölüb. Əlillər əmək qabiliyyətli insanlarla bərabər təhsil almaq və işləmək istəklərini həyata keçirə bilmir, ayrı-seçkilik və təcriddən əziyyət çəkirdilər. İnklüziv təhsilin əsas məqsədi bütün uşaqların təhsilə və peşəyə bərabər çıxışını təmin etmək, bunun üçün lazımi şərait və mehriban mühit yaratmaqdır. Ona görə də təhsilə inklüziv yanaşma aşağıdakı prinsiplərə əsaslanır. Bunları belə formada qeyd ed əbilərik:

1. İnsanqabiliyyətindən, uğurundanasılıolmayaraqdəyərlidir.
2. Hərbirimizdüşünə və hiss edəbilərik.
3. Bütüninsanlarınbir-birinəehtiyacı var.
4. Yüksək keyfiyyətlitəhsiliancaq real ünsiyyətləəldəetməkolar.
5. Hərbirimizinünsiyyətqurmaq və başqalarıtərəfindəneşitməkhüququmuzolmalıdır.
6. Hərbirimizinhəmyaşıdlarımızlaköməyə və dostluğaehtiyacı var.
7. Şagirdləredəbilmədiklərindəndahaçoxbacardıqlarındairəliləyirlər.
8. Müxtəliflikinsanınhəyatınınbütünsahələriniyaxşılaşdırır.

Bu prinsiplərdən belə nəticə çıxır ki, təhsil əsas insan hüququdur və onun hər birimiz üçün əlçatan olması ədalətli cəmiyyət yaradır.

Müasir dövrdə bütün uşaqların tam və rahat təhsilini təşkil etmək üçün həll edilməmiş çoxlu problemlər və çətinliklər var ki, onları aradan qaldırmaq lazımdır. Müasir inklüziv təhsil sistemində xüsusilə aktual olan əsas məsələləri sadalayaq:

1. İnklüziv təhsil müəssisələri yalnız böyük şəhərlərdə mövcuddur. Ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil xidmətləri məhdud olduğu halda, kiçik qəsəbələrdə əlillər iqtisadi səbəblərdən tam təhsil almağa ümid edə bilmirlər, ona görədə onlar yalnız islah məktəblərində təhsil alırlar.

2. Təhsil sisteminin mükəmməl olmaması. Xüsusi qayğıya ehtiyacı olan uşaqların normal inkişaf edən həmyaşıdları ilə birlikdə təhsil almasına mane olan bir sıra çətinliklər var: məsələn, sosial dəstək sistemi yaxşı inkişaf etdirilməyib, inklüziv təhsili tənzimləyən normativ hüquqi aktlar yoxdur.

3. Korreksiya pedaqogikası sahəsində ixtisaslı mütəxəssislərin kəskin çatışmazlığı. Bu gün əsasən korreksiya məktəblərində işləmək üçün psixoloqlar, müəllimlər, loqopedlər, defektoloqlar hazırlayan kadr hazırlığı sistemini təkmilləşdirmək lazımdır. Xüsusi müəllimlər olmadan isə inklüziv məktəbdə sağlamlıq imkanları məhdud uşağa daimi dəstək göstərmək mümkün deyil.

4. Cəmiyyətin əlil uşaqları qəbul etməyə hazır olmaması. Cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı mənfi münasibət hələ də güclüdür. Məsələn, sağlam uşaq sahibi olan valideynlər çox vaxt övladlarının əlillərlə birgə oxumasını istəmirlər, bu təhsil formasının bilik keyfiyyətinin aşağı düşəcəyindən qorxurlar. Bu stereotipləri dəyişmək üçün əhali ilə maarifləndirmə işi aparmaq lazımdır.

5. Kurikulumların uyğunsuzluğu. Xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusi və ümum təhsil məktəblərində təhsil alması üçün kurikulumda dəyişikliklər etmək lazımdır.

6. İnklüziv təhsil müəssisələri üçün kifayət qədər maliyyə vəsaitinin olmaması. Bu təhsil formasını inkişaf etdirmək üçün məktəbləri xüsusi texniki vasitə və avadanlıqlarla təmin etmək, korreksiya sinifləri üçün otaqlar, loqopedik və tibb kabinetləri, məşq terapiyası kabinetləri, sensor otaqlar təchiz etmək lazımdır.

7. Müəllimlər sağlamlıq imkanları məhdud uşaqların bir çox problemlərini bilmirlər və onları adi məktəbdə tədris prosesinə cəlb etməyə hazır deyillər.

8. İnklüzivliyin effektivliyinə dair sənədləşdirilmiş tədqiqatların olmaması. Məsələn, aşağıdakı suallar cavabsız qalır:

- hansı meyarlara görə məktəb inklüziv sayıla bilər;
- sağlam həmyaşıdları ilə eyni qrupda təhsil alan sağlamlıq imkanları məhdud uşaqların inkişafındakı dəyişiklikləri necə qeyd etmək olar və s.

9. Müəllimlər psixoloji problemlər yaşayır, öz güclü tərəflərinə və səriştələrinə arxayın deyillər, öz hərəkətlərinə görə məsuliyyət daşımaqdan qorxurlar.

10. Sağlam uşaqlar və onların valideynləri əlillərlə birgə təhsilin əleyhinədirlər. Valideynlər sinifdə xüsusi dəstəyə ehtiyacı olan uşaqların olmasından narahatdırlar, bir çox ana və ata bunun uşağının inkişafına və xarakterinə mənfi təsir göstərə biləcəyinə inanır. Adi uşaqların özləridə sağlamlıq imkanları məhdud yaşıdlarına heçdə həmişə müsbət münasibət bəsləmir, onlara yazığı gəlir, onlarla necə ünsiyyət quracağını bilmir, hətta,özünə hörmətsizlik göstərir.

"Azərbaycanda müvafiq qanunvericilik çərçivəsində inklüziv təhsilin tətbiqi təmin edilir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsi sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Bundan başqa, "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı məqsəd götürüb. 2023-cü ilin fevral ayında təsdiqlənən "İnklüziv təhsilin təşkili Qaydası" adlı sənəd isə ümumi təhsil müəssisələrində inklüziv təhsilin təşkili ilə bağlı məsələləri tənzimləyir" (2).

Ölkəmizdə inklüzivliyin inkişafının müəyyən edilmiş problemləri vahid kompleks proqramın qəbulunu, normativ hüquqi aktların təkmilləşdirilməsini, maliyyə təminatını, maddi-texniki və kadr

təminatını, habelə ixtisaslı mütəxəssislərin (psixoloqlar, defektoloqlar, loqopedlər) yardımını tələb edir (həkimlər, sosial işçilər, müəllimlər və təhsil işçiləri). Ona görə də inklüziv təhsilin səmərəli inkişafını təmin etmək üçün aşağıdakılar lazımdır:

əlilliyi olan məktəbəqədər uşaqlara erkən düzəliş yardımı göstərmək;

bütün tələbələrin ehtiyaclarını ödəmək üçün kurikulumun müxtəlif təhsil metodları ilə zənginləşdirilməsi;

bütün uşaqlar üçün adi məktəbə getmək hüququnu və onlara çıxışı təmin etmək;

zəruri islahatların aparılması, çatışmayan qanunların qəbul edilməsi;

uşaqları onlar üçün əlçatan və maraqlı olan fəaliyyətlərə cəlb etməklə şagirdlərdə öyrənməyə müsbət münasibət formalaşdırmaq;

hər bir şagirdin yaşını, şəxsiyyətini, sağlamlığını, fərdi xüsusiyyətlərini, qabiliyyətlərini və istəklərini nəzərə almaq;

təhsil prosesinə effektiv psixoloji və pedaqoji dəstəyin tətbiqi (uşaq bağçasından başlayaraq);

təhsil prosesinin bütün iştirakçıları üçün rahat bir yer yaratmaq;

uşaqlarda, valideynlərdə və müəllimlərdə tolerantlıq və empatiya inkişaf etdirmək;

müxtəlif uşaqlarla işləmək üçün ixtisaslı mütəxəssisləri cəlb etmək;

professor-müəllim heyətinin ixtisasının vaxtında artırılmasına nəzarət etmək;

hər bir tələbənin nəticələrini təhlil etmək;

bütün tələbələrin cəmiyyət üçün bərabər dəyərini tanımaq;

məktəbdənkənar tədbirlər və asudə vaxt keçirmək;

bütün tələbələrin sağlamlığının qorunması və yaxşılaşdırılması üçün tədbirlər həyata keçirmək.

“Fərqli qabiliyyət və maraqlara, eləcə də, öyrənmə xüsusiyyətlərinə malik şagirdlərə eyni anlayış və bacarıqları dərs üçün ayrılmış məhdud vaxt çərçivəsində öyrətmək asan iş deyil. Diferensiasiya bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün – şagirdlərin nə öyrəndiyinə (məzmun), informasiyanı necə mənimsədiklərinə (informasiyanın emalı), bilik və bacarıqlarını necə nümayiş etdirmələrinə (nəticə) və tədrisin harda və kiminlə baş tutmasına (təlim mühiti) dəyişiklik etməklə hazırlanmış öyrətmə metodudur. Diferensiasiya təlim reseptlərindən ibarət toplu deyil. Əslində bu, şagirdlərin sinifdə lazımi təlim təcrübəsi qazanması üçün öyrətmə və öyrənmə haqqında müəllimin düşünmək tərzidir.

Diferensial təlim anlayışı Amerika Birləşmiş ştatlarının təhsil sistemində və təhsillə bağlı qanunvericiliyində əksini tapmış bir anlayışdır. 1975-ci ildən etbarən ABŞ inklüziv siniflərdə təlimin təşkili qanunlarının bütün məktəbləri uşaqların fiziki, əqli, irqi, dini, və s. fərqliliklərinə baxmayaraq fəal halda ümumtəhsil kurikulumu ilə əhatə olunmasını tələb etmişdir. 1990-cı və 1997-ci illərdə isə həmin qanunları daha da möhkəmləndirmək və icra olunması üçün “Əlilliyi olan fərdlərin Təhsili” adlı qanun qəbul edilmişdir və bu qanun məhz fiziki və əqli əlilliyi olan uşaqların ümumtəhsil kurikulumu ilə əhatə olunması üçün səmərəli şəraitin yaradılmasını tələb etmişdir. Differensial təlim çərçivəsində müəllim: a)inklüziv təhsilə cəlb olunmuş uşağın psixofizioloji fərdiliyini bilir; b)qavrama kanallarına bələddir; c) anlama səviyyələrini bilir; d)təfəkkür növlərini bilir”(1).

Deyilənləri nəzəri alaraq, müəllim də bir sıra məsələləri düzgün formada yerinə yetirilməlidir. Çünki burada onun rolu daha çoxdur. Belə ki, müəllim daim olaraq yeniliklərə açıq olmalı və davamlı peşəkar inkişafı üçün tədbirlər görməlidir. Müəllim ilk olaraq inklüziv təhsilin fəlsəfəsini dərk etməli, əlilliyi olan uşaqları tanımalı və onlara yanaşmanı bilməli, psixoloji vəziyyətlərini nəzərə almalı, onlara daim dəstək olmalı, onların ehtiyaclarını müəyyən etməyi bilməli, bütün uşaqlar üçün əlçatan təlim-tədris prossesini qurmağı bacarmalıdır. Müəllim bütün uşaqların xarakterik xüsusiyyətlərini bilməli, onların ehtiyaclarını düzgün müəyyən etməli və əlilliyi olan uşaqlara düzgün yanaşmanı bacarmalıdır. Müəllim uşaqlar haqqında ilkin məlumatları valideynlərindən alır.

Valideyn-müəllim əməkdaşlığında müəllimin rolunu aşağıdakı şəkildə tam olaraq göstərmək olar: Valideyn və ya qəyyumları övladlarının təhsildə irəliləyişi və nailiyyəti barədə mütəmadi olaraq məlumatdıraraq; inklüziv təhsilin dəyərini və məqsədini valideyinlərə izah edərək;şagirdlərin təlim fəaliyyətlərini artırmaq və təhsilin keyfiyyətini qaldırmaq məqsədi ilə valideynlərlə fikir mübadiləsi apararaq; məktəb tərəfindən inklüziv siniflərə cəlb edilmiş əlilliyi olmayan şagirdlərin valideynləri ilə də maarifləndirici və müzakirə xarakterli tədbirlər həyata keçirdilməlidir. Əlilliyin tədrisin keyfiyyətinə

təsir göstərməməsini vurğulamaq və bu mövzuda maarifləndirmə işləri aparmaq lazımdır. Əlilliyi olan uşaqların valideynlərini bu prosesə qoşmaq və onları cəmiyyətin bir üzvi kimi qəbul etdiyini əsaslandırmaq üçün görüləcək tədbirlər genişləndirilməlidir. Unudulmamalıdır ki, əlilliyi olan uşaqların valideynlərinin psixoloji dəstəyə və uşaqlarının inkişafına dair stimula daim ehtiyacları vardır.

Ədəbiyyat

1. İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı (2018), s. 40-41
2. https://www.muallim.edu.az/news.php?id=26261

İNKLÜZİV TƏHSİL: FƏRQLƏRİN QƏBUL EDİLMƏSİ VƏ DƏSTƏKLƏNMƏSİNƏ YANAŞMA

Ruslan Kamilov
Dağlıq Şirvan Regional Təhsil İdarəsi
İsmayıllı Psixoloji-Tibbi-Pedaqoji Komissyanın sədri
ru.kamilov87@gmail.com

Summary

The recent implementation of educational reforms in our country is proof that education is one of the priority areas of state policy. One of the innovations in the field of education is the organization of education of children with special needs and the provision of inclusive education. Inclusive education allows children with disabilities to study in the same school, in the same class, with their peers. One of the features of inclusive education is cooperation. Collaboration refers to the relationship between parents and the community in inclusive education.

Key words: *Inclusive environment, learning motivation, accessibility, diversity, social equality*

Özet

Ülkemizde son dönemde uygulanan eğitim reformları, eğitimin devlet politikasının öncelikli alanlarından biri olduğunun kanıtıdır. Eğitim alanındaki yeniliklerden biri de özel gereksinimli çocukların eğitiminin düzenlenmesi ve kapsayıcı eğitimin sağlanmasıdır. Kapsayıcı eğitim, engelli çocukların akranlarıyla aynı okulda, aynı sınıfta eğitim görmelerine olanak tanır. Kapsayıcı eğitimin özelliklerinden biri de işbirliğidir. İşbirliği, kapsayıcı eğitimde ebeveynler ve toplum arasındaki ilişkiyi ifade eder.

Anahtar Kelimeler: *Kapsayıcı ortam, öğrenme motivasyonu, erişilebilirlik, çeşitlilik, sosyal eşitlik*

İnklüziv təhsil müxtəlif şagird ehtiyaclarını və qabiliyyətlərini tanıyan, dəstəkləyən və onlara uyğun cavab verən təhsil modelidir. Bu məqalədə inklüziv təhsilin əhəmiyyəti, prinsipləri və həyata keçirilmə strategiyaları öz əksini tapmışdır.

İnklüziv təhsil, bərabərlik, ədalət, ictimai harmoniya, fərdi inkişaf və sosial ədalət kimi mühüm dəyərləri təbliğ edir. Buna görə də inklüziv təhsil prinsiplərinə uyğun fəaliyyət göstərən təhsil sistemləri, məktəblər daha ədalətli və inklüziv cəmiyyətin yaradılmasına töhfə verir, hər bir şagirdin fiziki, emosional, əqli və ya sosial fərqlərinə baxmayaraq, təhsil prosesində tam və səmərəli iştirakını təmin etmək məqsədi daşıyır. İnklüziv təhsilin əhəmiyyətini bir çox cəhətdən vurğulamaq olar:

İnklüziv təhsilin əhəmiyyəti:

İnklüziv təhsil hər bir şagirdin təhsil hüququnu müdafiə edir və hər kəsin fərqliliklərini qəbul edir. Bu model şagirdlərin fiziki, emosional, əqli və sosial ehtiyaclarını ödəməyi hədəfləyir. İnklüziv mühitdə hər bir şagird özünü dəyərli, qəbul olunan hiss edir ki, bu da özünə hörməti artırır və öyrənmə motivasiyasını gücləndirir.Bu, hər bir şagirdin fiziki, emosional, əqli və ya sosial fərqlərinə baxmayaraq, təhsil prosesində tam və səmərəli iştirakını təmin etmək məqsədi daşıyır. İnklüziv təhsilin əhəmiyyətini bir çox cəhətdən vurğulamaq olar:

Bərabərlik və ədalət: İnklüziv təhsil hər bir şagirdə bərabər imkanlar təqdim etməklə təhsildə ədalətin təmin olunmasına töhfə verir. Bu, müxtəlif ehtiyacları olan şagirdlərin kənarda və ayrı-seçkiliyə məruz qalmamasını təmin etmək üçün mühüm vasitədir.

Sosial bərabərlik və qəbul olunmaq: İnklüziv təhsil cəmiyyətə fərqləri qəbul etməyə və müxtəlifliyi qiymətləndirməyə kömək edir. Şagirdlərin müxtəlif təbəqələrdən olması, müxtəlif qabiliyyətlərə malik olması sosial müxtəlifliyi artırır və ictimai harmoniyaya dəstək verir.

Fərdi inkişaf və özünə hörmət: İnklüziv təhsil hər bir şagirdə öz potensialını reallaşdırmağa və özünə hörməti artırmağa imkan verir. Fərqli ehtiyacları olan şagirdlərə dəstək vermək onların özlərinə inamını artırır və uğur qazanmalarına təkan verir.

Öyrənmə mühitinin zənginləşdirilməsi: Müxtəlif şagird profillərinə malik olmaq sinif mühitini zənginləşdirir. Hər bir şagirdin fərqli perspektivləri, təcrübələri və bacarıqları sinifdə öyrənmə təcrübəsini zənginləşdirir və şagirdlərə daha geniş perspektiv təqdim edir.

Sosial ədalət və insan hüquqları: İnklüziv təhsil hər bir şagirdin insan hüquqlarına hörmət edilməsini və ədalətli təhsil almasını müdafiə edir. Buşagirdlərin şəxsiyyətlərinə, inanclarına və qabiliyyətlərinə görə ayrı-seçkilik olmadan təhsil almalarını təmin edir.(6)

İnklüziv təhsilin prinsipləri:

Əlçatanlıq: Hər bir şagirdin təhsil resurslarına və öyrənmə mühitlərinə asan çıxışı olmalıdır.

Qəbul: Fərqlər normaldır və hər bir şagird qəbul edilməlidir.

Dəstək: Şagirdlərin ehtiyac duyduqları dəstək təmin edilməlidir.

İştirak: Hər bir şagird tədris prosesində fəal iştirak etməlidir.

İnklüziv təhsilin tətbiq strategiyaları:

Differensiallaşdırılmış təlim: Müəllimlər öz tədris metodlarını şagirdlərin müxtəlif öyrənmə üslublarını və ehtiyaclarını nəzərə almaq üçün uyğunlaşdıra bilərlər.

Birgə öyrənmə: Şagirdlər arasında əməkdaşlıq və həmrəyliyi təşviq etməklə, bir-birindən öyrənmə mühiti təmin edilə bilər.

Dəstəkləyici texnologiya: Texnologiya, şagirdləri diferensiallaşdırılmış məzmunla təmin etmək və öyrənmə prosesini dəstəkləmək üçün mühüm vasitə ola bilər.

Məsləhət və rəhbərlik xidmətləri:Şagirdlərə emosional ,akademik dəstək verən məsləhət və bələdçilik xidmətləri inklüziv mühitin yaradılmasında mühüm rol oynayır.(1)

Nəticə:

İnklüziv təhsil, təhsil sistemindəki fərqlərə qarşı həssaslıq və inklüzivliyi təmin edir. Hər bir şagirdin öz potensialına çatmasını və özünü təkmilləşdirməsini təmin etməklə, daha ədalətli və bərabərhüquqlu cəmiyyətin əsaslarını yaradır. Buna görə də inklüziv təhsil prinsiplərinə əsaslanan təcrübələrin yayılması və dəstəklənməsi vacibdir.

Ədəbiyyat

1. Tim Loreman, Joanne Deppeler, David Harvey- Kapsayıcı Eğitim-Sınıfta Çeşitliliği Desteklemek İçin Pratik Yönergeler, Bakü-2020.
2. Malaysian Online Journal of Educational Sciences- Teacher-parent collaboration for an inclusive classroom: success for every child, 2016
3. https://www.researchgate.net -The Heart of Inclusive Education is Collaboration (PDF)
4. https://m.youtube.com -What is inclusive education?
5. https://blogs.unicef.org -Inclusive education for children with disabilities- UNICEF connect
6. https://www.unicef.org -Inclusive Education / UNICEF Azerbaijan
7. https://www.youtube.com- Инклюзивное образование, МГППУ
8. https://m.youtube.com - Что такое инклюзивное образование.

DAVAMLI İNKLÜZİV TƏHSİLİN HƏYATA KEÇİRİLMƏSİ PROSESİNƏ SOSİAL MANEƏLƏRİN TƏSİRİ

Sevinc Qarayeva
BSU-nun İbtidai təhsil kafedrasının müəllimi, b.ü.f.d.
qarayevasevinc80@mail.ru

Summary

Behaving in an inclusive educational institution, people with disabilities face many challenges that are an obstacle to education continuously and social barriers. The article examines the main social barriers in the process of obtaining inclusive education: spatial barriers - the lack of "barrier-free environment" in academic buildings, and transportation availability; the socio - psychological barriers - unwillingness of teachers to education of persons with disabilities; the lack of a unified database for studies of the social community.

Key words: *people with disabilities, social barriers, continuous inclusive education, education, integration into society*

Резюме

При поступлении в инклюзивное образовательное учреждение инвалиды сталкиваются со многими трудностями – социальными барьерами, – которые являются препятствиями для непрерывного образования. В статье рассматриваются основные социальные препятствия в процессе достижения инклюзивного образования: пространственные препятствия - отсутствие «безбарьерной среды» в учебных зданиях, а также транспортная доступность; социально-психологические барьеры – учителя не готовы обучать людей с ограниченными возможностями; отсутствие единой базы данных для изучения проблем определенного социального общества.

Ключевые слова: *обучающиеся с ограниченными возможностями здоровья, инклюзивное образование, субъекты инклюзии, субъекты реализации модели, интеграция в общество*

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası dövlətin sosial siyasətinin ən mühüm məsələlərindən biridir. Dövlətimizin səyləri “maneəsiz” mühitin yaradılmasına, tibbi xidmətin, sosial xidmətlərin göstərilməsinin yaxşılaşdırılmasına, təhsil hüququnun təmin edilməsinə yönəlib.

Təhsilli insanın cəmiyyətə uyğunlaşması, özünü əmək bazarında reallaşdırması daha asandır. Təhsil sosial statusu, şəxsi özünü həyata keçirmək imkanlarını və hətta həyatın məzmununu müəyyən edən fundamental dəyərdir. Müasir dünyada əlilliyi olan insanların cəmiyyətə inteqrasiyasını təşviq edən təhsil modeli qəbul edilib - bu, inklüzivlik modelidir. Biz inklüzivliyi “atipik” sosial icmaların ayrı-seçkiliyi istisna edən şərtlərlə “tipik” cəmiyyətə daxil edilməsi prosesi kimi müəyyən edəcəyik, bu kimi hüquqların həyata keçirilməsinə çıxış imkanını təmin edəcəyik, seçim azadlığı və ləyaqəti təmin edəcəyik. İnklüziv təhsil müəssisəsinə daxil olarkən əlillər davamlı təhsilə maneə olan bir çox çətinliklərlə - sosial maneələrlə üzləşirlər.

Əgər sosial maneənin bütün tərifl ərini bir tərifdə “örtməyə” çalışsaq, bu, əlilliyi olan insanların cəmiyyətin həyatında tam iştirakına mane olan sosial amili təmsil edir. Sosial maneələrin təsiri haqqında daha dolğun məlumatı, xüsusən Ümumdünya Səhiyyə Təşkilatının Əlilliyə dair Dünya Hesabatından əldə etmək olar.

Gəlin, inklüziv təhsilin alınması prosesində məkanın sosial maneələrini nəzərdən keçirək. ÜST-nin hesabatında “Əlçatanlığın olmaması” kimi müəyyən edilən sosial maneə “maneəsiz mühitin” yaradılması kimi ifadə edilir. Əlçatanlıq sosial fəaliyyətin ekoloji amillərindən biridir.

Əlçatanlığın olmaması əlilliyi olan insanların fəaliyyətində məhdudiyyətlərə, habelə onların təkcə fiziki deyil, həm də sosial məkandan kənarlaşdırılması praktikasına gətirib çıxarır. Ona görə də “Maneəsiz mühit” infrastrukturda dəyişiklikləri nəzərdə tutur: binaların yenidən qurulması, nəqliyyatın əlçatanlığı. Təhsil binalarının yenidən qurulması böyük maliyyə investisiyaları ilə əsaslı təmir tələb edir. (TİPİİ, Oxu materialı, 2017, səh 12-15)

Əlilliyi olan şəxslərin ali təhsil almaq imkanı birbaşa universitetdə “maneəsiz mühitin” olmasından asılıdır. Bu problem xüsusilə dayaq-hərəkət sistemi pozğunluğu olan insanlar üçün aktualdır. Bir çox təhsil müəssisələri əlçatanlıq problemini müəyyən qədər həll etsələr də, bu məsələyə kompleks yanaşmırlar. Məsələn, akademik binalardan birində (adətən “inzibati” bina) panduslar və ya digər əlçatanlıq şəraiti quraşdırıla bilər, digər binalar isə əlil tələbələrlə təlim məşğələlərinin təşkil edilməsinə baxmayaraq, əlçatmaz olacaqdır. Praktikada əlçatanlığı təmin etmək üçün nəzərdə tutulmuş obyektlər qəbul

edilmiş norma və standartlardan əhəmiyyətli dərəcədə kənara çıxdıqda digər ziddiyyətlər də mövcuddur. Bəzən qeyd edilir ki, quraşdırılmış pandus standart parametrlərə cavab vermir, ona görə də onun istifadəsi əlverişsizdir. Nəticədə, əlil şəxs dərsləri buraxmağa məcbur olur ki, bu da sonradan öyrənmə nəticələrinə təsir göstərir. Bundan belə nəticə çıxır ki, effektiv inklüzivlik əsasən ilkin olaraq əlilliyi olan insanlar üçün uyğunlaşdırılmış universitetlərdə həyata keçirilir. Əlilliyi olan insanlar üçün tam uyğunlaşdırılmış təhsil prosesinə sağlamlıq imkanları məhdud olmayan insanları daxil etmək, əksinə, daha asandır. («Актуальные проблемы современного образования детей с ОВЗ», 2020, 305-310)

Nəqliyyat imkanlarının olmaması əlillərin davamlı olaraq təhsillərini davam etdirməkdən imtina etmələrinin səbəbidir. Dövlət öz səylərini bu sosial cəmiyyətin saxlanmasına yönəldir. Məsələn, bir sıra ölkələrdə yaşayan əlillər sosial taksi kimi xidmətlərdən fəal istifadə edirlər. Həmçinin, metroda yeni bir xidmət - sərnişinlərin hərəkətliliyini təmin edən bir mərkəz meydana çıxdı. Bu xidmətin müfəttişləri hərəkət qabiliyyəti məhdud olan vətəndaşları müşayiət edərək onların təhlükəsiz hərəkətini təmin edirlər. Qonşu ölkələrə nəzər salsaq, görə bilərik ki, məsələn, Moskvada eyni zamanda, fəaliyyət göstərən 200 metro stansiyasından yalnız 17-si əlil arabası istifadəçilərinin istifadəsinə verilir, əlil arabası istifadəçilərinin də istifadə edə biləcəyi panduslarla təchiz olunmuş qovşaqların sayı isə 20-dir. Bu da paytaxt üçün rəqəmlərdir! Bəs bölgələrdə nə baş verir?! Nəticədə əlillər yenidən cəmiyyətdən asılı olmağa məcbur olur, müstəqilliklərini tam nümayiş etdirə bilmirlər ki, bu da bir çox sosial və psixoloji problemlər yaradır. (Методические рекомендации,2017 г.,47-49)

Hərəkət qabiliyyəti məhdud insanlar üçün əlçatanlığı təmin etmək üçün dövlət səviyyəsində standartların siyahısı artıq təsdiq edilmişdir. "Hərəkət qabiliyyəti məhdud insanlar üçün bina və tikililərin əlçatanlığı"dedikdə bura tikinti normaları və tikinti qaydaları daxildir. Lakin bu qaydaların əsas tətbiq sahəsi ümumşəhər infrastrukturu deyil, bu kateqoriya ilə birbaşa iş aparan sosial müdafiə müəssisələrinin binalarıdır. Nəticədə, bir çox əlilliyi olan insanlar qiyabi və ya distant təhsilin xeyrinə tam zamanlı inklüziv təhsildən imtina etməli olurlar.

Həmçinin, təhsil almaqda sosial və psixoloji maneələr - müəllimlərin bütün şagirdləri bərabər qəbul etmək istəməməsi var. Aşkar fiziki qüsurları olan insanlar təəssüf doğulur, müəllim əlilliyi olan insanlara olan tələbləri azaldır ki, bu da inklüziv təhsil prinsiplərinə ziddir. Bu, həm ifadə olunmayan əlilliyi olan insanlarda, həm də “sağlam” insanlarda mənfi münasibət yaradır. Hazırda təhsil sistemində inklüziv təhsilin aktiv inkişafı ilə, yəni əlillərin və əlilliyi olmayan insanların birgə hazırlanması, belə şəraitdə fəaliyyətlərini həyata keçirmək üçün kadrların hazırlanması sistemi yoxdur. Xüsusi müəllimlərin hazırlanması xüsusi məktəb sistemində işləməyə yönəldilmişdir. İnklüziv təhsil müəssisələrinin müəllimləri əsasən yalnız “tipik” tələbələrlə işləmək təcrübəsinə malikdirlər. Lakin, ümumiyyətlə, universitetlərarası araşdırmaların məlumatları göstərir ki, universitetlərin böyük bir hissəsi müəllim heyətinin münasibətini tamamilə sadiq və mehriban kimi qeyd edir. Fikrimizcə, müəllimlər üçün əlavə təhsil sistemi bu problemin həllinə kömək edə bilər. Əlilliyi olan insanlarla işləmək təcrübəsi olan müəllimlər öz təcrübələrini bölüşə və ya əlilliyi olan tələbələrlə işləmək bacarıqlarının mənimsənilməsinə yönəlmiş tövsiyələr və proqramlar hazırlaya bilərlər. Əlilliyi olan tələbələr üçün məlumatın daha yaxşı qavranılmasına, habelə əlilliyi olan şagirdlə müəllim arasında əlaqənin qurulmasına kömək edəcək əlavə fərdi dərslər sistemini tətbiq etmək lazımdır. Əlilliyi olan insanlar üçün təhsil sisteminin inkişafından danışarkən, ÜST-nin hesabatında “məlumat və təcrübə çatışmazlığı” kimi müəyyən edilmiş maneəni qeyd etmək lazımdır. Pensiya Fondunun rüblük və illik hesabatlarından öyrənə bilərik (onların vurğulanması sosial aspektdə əlillərin sayına deyil, paylanmış pul vəsaitlərinin hərəkətinə aiddir); Tibbi və Sosial Ekspertiza Komissiyasınınn hesabatlarından (onlar əlilliyin səbəblərini, habelə müəyyən bir əlillik qrupunun yaradılmasından asılı olan amilləri müəyyən edirlər). Həmçinin, əlilliyi olan şəxslərlə bağlı seçilmiş məlumatları Əmək, Təhsil və Səhiyyə Nazirliyinin hesabatlarında görmək olar. Amma əlilliyi olan insanların sosial-demoqrafik xüsusiyyətlərinin vahid məlumat bazası yoxdur. (TİPİİ, Oxu materialı, 2018, səh 6-8)

Ona görə də alimlər əlilliyi olan şəxslərin problemlərini müzakirə edərkən dəqiq göstəricilərə əsaslanmadan, ancaq bu mövzunu müzakirə edə bilərlər. Təhsil ehtiyaclarını müəyyən edərkən sosial-demoqrafik məlumatlar zəruridir. Ona görə də əlilliyi olan şəxslərin orta, ali, dissertantura və əlavə təhsilə ehtiyacları ilə bağlı hər il araşdırma aparılmalıdır. Beləliklə, qeyd etmək olar ki, inklüziv təhsilin

əldə edilməsi prosesində əsas maneələr aşağıdakılardır: məkan maneələri - tədris binalarında "maneəsiz mühitin" olmaması, habelə nəqliyyat əlçatanlığı; sosial-psixoloji maneələr - müəllimlərin əlilliyi olan insanlara dərs verməyə hazır olmaması; müəyyən sosial cəmiyyətin problemlərinin tədqiqi üçün vahid məlumat bazasının olmaması.

Sosial maneələrin ömürboyu inklüziv təhsilin qurulması prosesinə təsirini aradan qaldırmaq üçün bəzi tövsiyələr verək: birincisi, əlilliyi olan insanların təhsil almaq ehtiyaclarının daha ətraflı öyrənilməsi zəruridir. Bu məqsədlə əlilliyi olan şəxslərin sosial və demoqrafik xüsusiyyətlərinin vahid məlumat bazasının yaradılması, bu məlumatlar əsasında tədqiqatların aparılması vacibdir. Tədqiqat nəticələrini sistemləşdirmək və onların əsasında əlilliyi olan insanlar üçün təhsil sisteminin gələcək inkişafı ilə bağlı qərarlar qəbul etmək; ikincisi, bütün təhsil müəssisələrini əlilin ehtiyaclarına uyğunlaşdırmağa ehtiyac yoxdur. Fikrimizcə, bütün dairələrdə inklüziv təhsil üçün böyük baş mərkəzlərin yaradılması, onların əsasında bu və ya digər səbəbdən köçməyə hazır olmayan əlillər üçün filialların yaradılması məqsədəuyğun olardı; üçüncüsü, davamlı inklüziv təhsil sistemində işləmək üçün kadrların hazırlanması sistemini təkmilləşdirmək lazımdır; dördüncü, əlilliyi olan şəxslərin müəyyən əlilliyi olan şəxslərin təhsil ala biləcəyi təhsil müəssisələri haqqında məlumat əldə edə bildiyi vahid məlumat bazası yaratmaq lazımdır. Təklif olunan tövsiyələr davamlı inklüziv təhsil sistemində yaranan problemlərin sayını azaldacaq ki, bu da əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına daha da töhfə verəcək. (Boyraz, 4-6)

Ədəbiyyat

1. Grimes Peter, Marieke Stevens, Ariene Dela Cruz, Tricia Mercado və Kaisa Ligaya Sol Cruz. (2017) "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı., Bakı:TİPİİ, 12-15

2. Grimes Peter, Marieke Stevens, Ariene Dela Cruz, Tricia Mercado və Kaisa Ligaya Sol Cruz.(2018) "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı., Bakı: TİPİİ, 6-8

3. Актуальные проблемы современного образования детей с ОВЗ Сборник материалов. Всероссийской научно-практической конференции «Актуальные проблемы современного образования детей с ОВЗ» (30.11.2020г., г.Москва), 305-310

4. Методические рекомендации(2017 г.) по созданию доступной среды для инвалидов и других маломобильных групп населения ООО «Винтаж», 47-49

5. Erhan Boyraz, Uzman Öyretmenlik Sınavı, 5.Modül Özeti, Eğitimdə kapsayıcılık,4-6

İNKLÜZİV TƏHSİL UŞAQLARIN CƏMİYYƏTƏ İNTEQRASİYA PROSESİDİR

Aynur Qasımova
BSU-nun Pedaqogika və psixologiya kafedrasında müəllim, doktorant
aynurmehdiyeva84@gmail.com

Summary

Inclusive education helps children with disabilities to integrate into life and ensure their rights being isolated from their coevals and society. Rapid development in the field of modern education gave new chances for the development of inclusive education in our country and in this way there are still lots of sucessful results. As citizens of this society, our role is to be more attentive towards such kind of people and to support their integration to the society.

Key words: *inclusive education, society, law, training, integration*

Резюме

Инклюзивное образование помогает детям с ограниченными физическими возможностями интегрироватъ в жизнъ и обеспечиватъ свои права, спасая их от изоляции от общество и сверстников. Современные возможности для развития инклюзивного образования в сфере образования в нашей стране создали новые возможности, и многие успешные шаги в этом направлении все еще предпринимаются. Как общество, наша миссия – бытъ более внимателъными к таким людям и поддерживатъ их интеграцию в общество.

Ключевые слова: *инклюзивное образование, общество, закон, обучение,интеграчия*

Demokratik cəmiyyətin ən zəruri komponentlərindən biri olan təhsil sosial proseslərə təsir göstərən ən mühüm faktordur. Müasir texnologiya və dəyərlərin mənimsənilməsi təhsildə müstəsna əhəmiyyətə malikdir. Demokratik və humanist prinsiplərə söykənən təhsil cəmiyyətin bütün üzvlərinə bərabərhüquqlu fərdlər kimi yanaşaraq sosial bərabərliyin qorunmasına şərait yaradır. Təhsil sahəsində bu dəyərlər inkluziv təhsilin timsalında əks olunur.

İnklüziv təhsil – sağlamlıq imkanları məhdud olan uşaqların ümumi təhsil müəssisəsində xüsusi şərait yaratmaqla və xüsusi təlim vasitəsilə sağlam şagirdlərlə eyni sinifdə təhsilə cəlb edilməsi kimi əks olunmuşdur. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə bir-birlərinə qarşı anlayış və hörmət hissi inkişaf edir. Xüsusi qayğıya ehtiyyacı olan hər bir kəs öz hüquq və azadlıqlarını bildikdə cəmiyyətdə özlərini daha güvənli hiss edirlər.

“Xüsusi qayğıya ehtiyyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı” (2005-2009-cu illər)Azərbaycan Hökümətinin 3 fevral 2005-ci il tarixli qərarı ilə təsdiq edilmişdir. Proqramda:

- xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüququnun yerinə yetirilməsi;
- belə kateqoriyadan olan uşaqlar üçün bərabər təhsil alma şəraitinin yaradılması;
- inteqrasiyalı (inkluziv) təlimə keçidin reallaşdırılması;
- təhsil müəsisələrində bütün uşaqların təhsili üçün bərabər imkanların yaradılması;
- dövlət himayəsində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi;
- müvafiq klassifikasiyaya uyğun olaraq bütün kateqoriyalardan olan xüsusi qayğıya ehtiyyacı olan uşaqların ölkə üzrə qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi;
- xüsusi təhsil müəsisələrinin maddi-texniki və tədris bazasının müasir standartlara uyğunlaşdırılması və digər məsələlər öz əksini tapmışdır.

Dövlət proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələrində digər şəxslərlə birlikdə eyni imkanalara sahib olaraq maneəsiz mühit yaratmaqdan ibarətdir. Bütün şagirdlər keyfiyyətli təhsil almaq hüququna əsaslanaraq bir sıra beynəlxalaq konvensiyalar, həmçinin qanunvericilik çərçivələri müvafiq inklüziv təhsilin tətbiqini təmin edir. İnklüziv təhsil konsepsiyası təhsilin daha ədalətli cəmiyyətin əsasını qoyduğuna inamdan yaranmışdır. Azərbaycanda İnklüziv təhsilin tətbiqi ilə əlaqədar sənədlər aşağıdakılardır:

➢ 2006- cı ildə Birləşmiş Millətlər Təşkilatı “Əlillərin hüquqları haqqında
”Konvensiyanın (UNCRPD) lahiyəsini hazırlayır

➢ 2008-ci ildə Azərbaycan Respublikası digər 161 ölkə ilə yanaşı
“UNCRPD” konvensiyasını ratifikasiya edir

➢ 2018-2024- cü illərdə Azərbaycan Hökuməti “2018-2024-cü illərdə
Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” nı təqdim edir.

➢ 2018-2020-ci illərdə UNICEF Azərbaycanda əlliliyi olan uşaqlar üçün
keyfiyyətli inklüziv təhsil imkanlarının artırılması üzrə proqramın icrasına Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Avropa İttifaqı ilə birgə başlayır.

➢ 2001-ci il 19 iyul tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər
Əliyev “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında” fərman imzalamışdır.

Göründüyü kimi, Azərbaycanda inkluziv təhsilin inkişafı istiqamətində ciddi addımlar atılmışdır. Xüsusi qayğıya ehtiyyacı olan uşaqların yenidən cəmiyyətə inteqrasiyasi, onların hüquqlarının qorunması inkluziv təhsil sahəsində təmin olunur. İnkluziv təhsilə keçid prosesi təhsil müəsisələrində təhsilverən və idarəedənlərdən səbr, əzmkarlıq və peşəkarlıq tələb edir. Bu təhsilin tətbiqinə cəlb olunmuş mütəxəsislərin inkluziya prosesinə baxışının, dəyər verdiyi prioritetləri düzgün müəyyənləşdirməyi, başqa sözlə, ənənəvi stereotiplərdən yaxa qurtarmağı bacarmalı, innovasiyalara açıq olmalıdır. Bu prosesə cəlb olunmuş hər bir müəllim inkluziv təhsilin səmərli təşkili üçün demokratiya və humanizm carçısı olmalıdır. Bununla yanaşı qeyd etmək lazımdır ki, müvafiq qanunverici bazanın yara-

dılması, məktəblərin maddi-texniki bazasının müasir tələbərə cavab verməsi, müəllimlərin müvafiq peşə bilik və bacarıqlara yiyələnməsi istiqamətində görülən işlərin keyfiyyətinin artırılması, dərslik və əyani vasitələrin uyğunlaşdırılması və s. kimi mühüm problemləri həlli cəmiyyət həyatına son dərəcə böyük təsiri olan inkluziv təhsilin inkişafına təsir edir.

İnteqrasiya – təhsil sistemi dəyişməz qalaraq, fiziki və psixi pozğunluğu olan uşaqlar sağlam şagirdlərlə birlikdə kütləvi məktəblərdə təhsil alması deməkdir. Bu zaman əlil uşaqların digər uşaqlarla bir sinifdə oxuması vacib hesab edilmir.[1, s 12]

Dünya təcrübəsindən qeydə alınmışdır ki, xüsusi qayğıya ehtiyyacı olan uşaqlar lap əvvəldən məktəbin təhsil və sosial həyatına daxil olmalıdırlar. Təhsil müəsisələrinin başlıca vəzifəsi bütün şagirdlərin kollektivdə fəal iştirakını təmin etməkdən ibarət olmalıdır.Hal-hazırda cəmiyyətin humanistliyinin inkişafı ilə birlikdə əqli cəhətdən geri qalan və məhdud sağlamlıq imkanları olan insanların ümumi təhsilə inteqrasiyası zaman keçdikçə daha aktual məsələyə çevrilmişdir. İnkluziv təhsillə bağlı problemlərin həll edilməsi istiqamətində müxtəlif proqramlar həyata keçirilir və xüsusi şərtlər yaradılır:

- sistemli yanaşma (təhsil, sosial, normativ-hüquqi, iqtisadi);
- inteqrasiyanın tapşırıqlarına uyğun təhsil sisteminin qanunvericiliyinin islahı;
- müəllimin, psixoloqun və digər ümumi məktəb mütəxəsisslərinin hazırlığı prosesində dəyişiklik;
- ümumi və xüsusi məktəbin sosial əməkdaşlığı;
- sosial-psixoloji cəhət;
- tolerantlığın formalaşdırılması, mentalitetin dəyişilməsi;
- oxuyanları müşayiət edən mütəxəsisslərin komanda işi (inzibatçı, müəllim psixoloq, loqoped və s.);
- ümumi məktəbin təşkilati, metodik və didaktik dəyişdirilməsi;
- ilkin kompleks yardım sisteminin tənzimlənməsi;

Və sonda belə nəticəyə gəlmək olar ki, birgəyaşayış mədəniyyəti cəmiyyətdə insanların qarşılıqlı anlaşma və empatiya hisslərinin formalaşmasına öz müsbət töhfəsini verəcəkdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyasının ilkin şərtiproses iştirakçılarının bir-birinə münasibətidir. Sosial inteqrasiyanın səmərəsinin artırılmasına və müvəffəqiyyətinə - qarşılıqlı anlayış, hörmət, dostluq, əməkdaşlıq və fəaliyyətin təsiri kimi vacib anlayışlar qeyd edilməlidir. Bu anlayışların ümumtəhsil məktəblərində tətbiqi uşaqların uğurlu inteqrasiaysına və inkluziyasına müsbət təsir göstərir.

Ədəbiyyat

1. Xüsusi psixofiziki imkanlara malik uşaqların tərbiyə və təlimi.Bakı: “TUNCAY 12” MMC, 2016, 400 s.

2. “İnkluziv təhsil: təcrübə və qarşıda duran vəzifələr”. V Elmi-praktik konfransın məqalələr toplusu. Bakı, 2011.

3. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə çıxış imkanları: real vəziyyət
beynəlxalq praktika və təkliflər. Bakı, 2016

SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARIN SOSİALLAŞMASI VƏ CƏMİYYƏTƏ İNTEQRASİYASI

Ayşən Qasımova
BDU Qazax filialı
aysenoruc1995@gmail.com

Summary

The article presents aspects of socialization of children with mental disabilities depending on the learning environment. The positive and negative aspects of the process of formation of students' social competence in inclusive conditions are noted. The need to create a special corrective and developmental educational environment that creates the necessary conditions for the successful socialization of children with limited health capabilities is emphasized. In such children, it is essential to help integrate into the peer team with creative activity, creativity and competitiveness, to form self-awareness,

self-determination, self-actualization and self-affirmation in the individual, and to form a positive real self-concept. An indicator of the successful socialization of children with disabilities is the individual's adaptation to the new social environment with an increase in their social status, self-confidence and psychological satisfaction with life.

Key words: *inclusion, socialization, integration, society, adaptation, school conditions,psychological approach.*

Резюме

В статье представлены аспекты социализации детей с нарушениями психического развития в зависимости от среды обучения. Отмечаются положительные и отрицательные стороны процесса формирования социальной компетентности учащихся в инклюзивных условиях. Подчеркивается необходимость создания специальной коррекционно-развивающей образовательной среды, создающей необходимые условия для успешной социализации детей с ограниченными возможностями здоровья. Для таких детей важно способствовать интеграции в коллектив сверстников с творческой активностью, творчеством и конкурентоспособностью, формировать у личности самосознание, самоопределение, самореализацию и самоутверждение, формировать положительную реальную Я-концепция. Показателем успешной социализации детей с ограниченными возможностями здоровья является адаптация личности к новой социальной среде с повышением ее социального статуса, уверенности в себе и психологической удовлетворенности жизнью.

Müasir dünyada, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, əlilliyi olan uşaqların sayı artır. Belə uşaqlar və onların ailələri məsləhət və ixtisaslaşdırılmış psixoloji-pedaqoji yardıma, sosial mühitə daxil olmaq və yüksək keyfiyyətli təhsil xidmətləri almaq imkanına ehtiyac duyurlar. Halhazırda cəmiyyətimizdə sağlamlıq imkanları məhdud uşaqların sosial adaptasiyası və sosiallaşması problemi psixoloqlar, müəllimlər, sosial işçilər, tibb və digər mütəxəssislər üçün aktual olaraq qalır.

B.G. Mesheryakov, V.P. Zinchenko adaptasiyanın psixoloji aspektini insanın bir fərd kimi bu cəmiyyətin tələblərinə və öz ehtiyaclarına, motivlərinə və maraqlarına uyğun olaraq cəmiyyətdə mövcudluğa uyğunlaşması kimi müəyyən edir. Sosial uyğunlaşma fərdin sosial mühitin şərtlərinə fəal uyğunlaşması prosesidir. Sosial uyğunlaşmanın əsas təzahürləri ünsiyyət, insanın ətraf mühitlə qarşılıqlı əlaqəsi, həmçinin onun aktiv fəaliyyətidir. Ümumi təhsil, tərbiyə, peşə və əmək təlimi uğurlu sosial uyğunlaşmaya nail olmağın ən mühüm vasitəsidir (Коломинский, 2004, s. 17-18).

Sosiallaşma, sosial uyğunlaşma bir insanın cəmiyyətə inteqrasiyasını nəzərdə tutur, onun bioloji və sosial fəaliyyətinin imkanlarını əks etdirir. Əlil uşaqlar və sağlamlıq imkanları məhdud uşaqlar üçün sosiallaşma və sosial-psixoloji uyğunlaşma prosesi normal uşaqlara nisbətən daha mürəkkəbdir. Çox vaxt mövcud qüsurlar və məhdud hərəkətlilik səbəbindən əlilliyi olan uşaqlar ünsiyyət üçün hətta kiçik bir dost dairəsinə sahib ola bilmirlər və ya cəmiyyətdə həyata daxil ola bilmirlər. Sosial mühitdə qarşılıqlı əlaqə onlar üçün mürəkkəbdir və adekvat cavab vermək qabiliyyəti də məhduddur. Mövcud normalar çərçivəsində qarşıya məqsəd qoymaq və onlara nail olmaq da onlar üçün çətindir. Bütün bunlar uşağın intellektual və fərdi inkişafına təsir edir, cəmiyyətə uyğunlaşmasını və sosiallaşmasını çətinləşdirir (*Акатов*, 2003, s. 17). Belə uşaqlar sosiallaşması nəticəsində öz bədəninin və ətrafdakı reallığın qavranılmasının adekvatlığı, başqaları ilə adekvat ünsiyyətin qurulması və adekvat bir insanın formalaşması, münasibətlər sistemi, öyrənmək və işləmək, habelə asudə vaxtını təşkil etmək bacarığı, özünəxidmət, ailədə və ya komandada qarşılıqlı xidmət qabiliyyəti, adaptiv davranışın adi stereotiplərini dəyişdirmək bacarığı, başqalarının rol gözləntiləri nəticəsində özünüdərk və rol davranışının formalaşmasına nail olunur, özünəxidmət və özünə nəzarət qabiliyyəti inkişaf edir və formalaşır, başqaları ilə adekvat əlaqələr qurulur.

Əlilliyi olan uşaqlarda müxtəlif xarakterli və şiddətli əqli və fiziki inkişaf pozğunluqları ola bilər, bu baxımdan, təhsil proqramı və belə bir uşağın düşdüyü xüsusi ətraf mühit şəraiti uşağın imkanlarına uyğunlaşdırılmalıdır. Fikrimizcə, uğurlu sosiallaşmanın mühüm amillərindən biri sağlamlıq imkanları məhdud uşağın düşdüyü qrupun, sinfin mühitinin (valideynlər, psixoloqlar, müəllimlər, tibb və digər mütəxəssislər) anlayışla, mərhəmətlə, məqsədyönlü şəkildə davranmağa hazır olmasıdır (Казакова, 2010, s. 257). Həm müəllimlər, həm də valideynlər üçün inklüziv təhsilin əsas prinsiplərini bilmələri vacibdir. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyil, hər bir insan hiss etmək, düşünmək qabiliyyətinə malikdir, hər bir insanın ünsiyyət qurmağa, anlayışa, dəstəyə və dostluğa ehtiyacı var. Əlilliyi olan uşaqlara ətraf mühitin bütün müxtəlifliyini görməyə, eşitməyə, hiss etməyə kömək etmək, onlara öz “mən”ini tanımaqda, onu aşkar etməkdə və sağlam insanların dünyasına daxil

olmaqda, orada tam mövcud olmaqda və qarşılıqlı əlaqədə olmaqda kömək etmək – uşaqların inteqrasiyasının əsas şərtidir.

Uşaq üçün hansı yaşda problemlərin və xüsusi ehtiyacların müəyyən edilməsi vacibdir. Bu mənada problemləri görən və həll etmək üçün mümkün qədər tez mütəxəssislərə müraciət edə bilən valideynin rolu çox böyükdür. Çox vaxt valideynlər açıq-aşkar sağlamlıq problemləri görmürlər və ya mövcud olduqlarını özlərinə etiraf etmək istəmirlər. Məktəb həyatının vaxtı gəldikdə isə çox vaxt əvəzolunmaz vaxt itirilir (sübut edilmişdir ki, nə qədər tez mütəxəssislərə müraciət etsəniz, inkişaf pozuntularını düzəltmək daha çox və daha sürətli olar). Erkən yaşda inkişaf qüsuru olan uşaqların əsas xüsusiyyətlərini müəyyən edərkən, valideynlər uşaqlarda qavrayış prosesinin inkişafının aşağı dərəcəsinə diqqət yetirməlidirlər. Bu, sensor məlumatların emalı üçün bir üsul seçmək üçün daha çox vaxt tələb olunduğunda baş verir, uşağın ətrafdakı dünya haqqında çox az biliyi var, məkan təsvirləri çox zəif formalaşır(şəkilləri müqayisə etməkdə çətinlik, eyni fiqurları tapmaq, fiqur yerləşdirmək), qeyri-sabit, səpələnmiş diqqət, obyektə baxışın cəmləşməsi yoxdur. Uşaq məntiqli, ardıcıl hərəkətlər zənciri qura bilmir. Nitq – nitq funksiyalarının pozulmasını ehtiva edir və ya dil sisteminin bütün komponentləri formalaşmır. Əlilliyi olan bir uşağa psixoloji, pedaqoji dəstək və korreksiyaya nə qədər tez başlansa, bir o qədər təsirli olur. Həm də nəzərə almalıyıq ki, əlilliyi olan bir uşağın inkişafı çox vaxt məhdud bir məkanda, həmyaşıdları və böyüklər ilə tam ünsiyyətdən kənarda həyata keçirilir ki, bu da inkişafda məhdudiyyətlərə və eqosentrik münasibətlərin formalaşmasına kömək edir. Həqiqi təhsil yalnız real münasibətlər kontekstində baş verə bilər, bütün öyrənənlər üçün tərəqqi onların bacara bilmədiklərində deyil, bacardıqlarındadır, müxtəlif qarşılıqlı əlaqələr insanın həyatının bütün sahələrinə müsbət təsir göstərir. Müxtəlif tədqiqatların təhlili, alim, müəllim və psixoloqların təhsil təşkilatlarında inklüziv təhsillə bağlı fikirləri bu iş formasının həm müsbət, həm də mənfi cəhətlərini vurğulamağa imkan verdi.

İnklüziv təhsilin üstünlüklərinə daxildir: şagirdlərdə tolerantlıq, hörmət və qarşılıqlı yardım bacarıqlarının inkişaf etdirilməsi, sağlamlıq imkanları məhdud uşaqların daha uğurlu sosiallaşması imkanı, ünsiyyət və qarşılıqlı əlaqə bacarıqlarının inkişafı, adi uşaqlarla eyni səviyyədə təhsil almaq.

İnklüziv təhsilin əsas çatışmazlıqları bunlardır : uyğunlaşdırılmış korreksiya təhsili proqramının tərtib edilməsində çətinliklər, eyni zamanda müəllimlə müxtəlif kateqoriyalı uşaqlar arasında qarşılıqlı əlaqənin qurulmasında çətinliklər və məktəb şəraitində qeyri-sabit vəziyyətin yaranma ehtimalı. Xüsusi əlillər üçün sosiallaşmanın faydaları:

Danışmağı, ailə üzvlərinizdən başqa başqaları ilə ünsiyyət qurmağı necə öyrəndiyinizi heç düşünmüsünüzmü? Və ya hər hansı bir söhbətə necə başlaya bildiniz? Bu bacarıqları tədricən əldə etməlisiniz. Elə deyilmi? Heç kim heç vaxt dostları və ya ailə üzvləri ilə ünsiyyət qurmaq üçün fitri sosial bacarıqlarla doğulmur. Onlar nəhayət zamanla və təcrübə ilə öyrənirlər. Bax, başa düşmək lazımdır ki, sosial ünsiyyət bacarıqları dərhal mənimsənilə bilən bir təbiət gəzintisi deyil. Evdəki yaxınlarınızla qarşılıqlı əlaqə vasitəsilə öyrənməyi tələb edir. Ev mühitiniz, keçmiş təcrübələriniz böyüdükcə şəxsiyyətinizin və davranışınızın formalaşmasında mühüm rol oynayır. Şübhəsiz ki, övladlarınız bu əsas bacarıqları başa düşmək və öyrənmək üçün bir az daha çox vaxt aparacaqlar, lakin vaxt və səbirlə yaxşı nəticələr əldə edəcəysiz.. Xüsusi sağlamlıq imkanları olmayan uşaqlarınız olduqda biz sizin narahatçılığınızı və narahatlığınızın səbəbini həqiqətən başa düşürük. Ancaq narahat olmayın, bir az səbr edin. Əlilliyi olan uşaqlarınızı anlayın! Uşağınız otistik və ya Asperger pozğunluqları kimi ümumi xəstəliklərdən əziyyət çəkə bilər. Və ya hətta fiziki və ya əqli qüsurdan əziyyət çəkə bilərlər. Müxtəlif şərtlər var və bu şərtlər uşaqdan uşağa dəyişir. Demək olar ki, bütün hallarda uşaqların tez-tez sosial və ünsiyyət bacarıqları ilə bağlı çətinliklərlə üzləşdiyi müşahidə edilmişdir. Övladlarınıza sosiallaşmaq bacarıqlarını öyrənməyə kömək etdiyiniz zaman vəziyyətləri anlamağa kömək etmək üçün real həyat təcrübələrini birləşdirməyə çalışın. Unutmayın ki, sosiallaşma uşağınızın ümumi inkişafı ilə bağlıdır, buna görə də bu bacarıqları gənc yaşlarından inkişaf etdirmək çox vacibdir. Bu, uşaqlarda özlərinə inam, məsuliyyət hissini inkişaf etdirməyə kömək edir və onlar hər kəsin onlardan nə gözlədiyini öyrənməyə başlayırlar. Bu, onların inkişaf mərhələlərinə effektiv şəkildə çatmasına kömək edəcəkdir. Məsələn- Digər uşaqlarla oynayaraq, yeni bacarıqlar inkişaf etdirir və öyrənirlər. Fəaliyyətlər onlara paylaşma, problem həll etmə və qarşılıqlı əlaqə və s. Bacarıqlarını inkişaf etdirməyə kömək edəcək. Başqalarına empati qurmağı öyrənəcək və ətrafdakı hər kəsin duyğularını tanıyacaqlar.

Bu, onlara nizam-intizamı və davranışlarından yarana biləcək nəticələri öyrənməyə kömək edəcək. Uşaqlarınız qarşılıqlı əlaqədə olmağa davam etdikcə, onlar təkcə fiziki deyil, həm də zehni olaraq inkişaf edəcəklər.

Bütün uşaqlar kimi, əlilliyi olan uşaqların da öz gələcəkləri ilə bağlı ambisiyaları və arzuları var. Bütün uşaqlar kimi, onların bacarıqlarını inkişaf etdirmək və bütün potensiallarını reallaşdırmaq üçün keyfiyyətli təhsilə ehtiyacları var. Bununla belə, əlilliyi olan uşaqlar çox vaxt diqqətdən kənarda qalır, onların təhsil almaq imkanlarını və sosial, iqtisadi və siyasi həyatda iştirak etmək imkanlarını məhdudlaşdırır. Dünya miqyasında bu uşaqlar məktəbdən kənarda qalma ehtimalı yüksək olan uşaqlar arasındadır. Onlar ayrı-seçkilik, stiqma və qərar qəbul edənlərin əlilliyi məktəb xidmətlərinə daxil etməkdə müntəzəm uğursuzluqlarından qaynaqlanan təhsil qarşısında davamlı maneələrlə üzləşirlər. Əlilliyi olan uşaqların təxminən 50 faizi məktəbə getmir, əlilliyi olmayan həmyaşıdlarının isə yalnız 13 faizi. Öyrənmək hüquqlarından məhrum edilən əlilliyi olan uşaqlar çox vaxt onlara ən çox təsir edən qərarlarda iştirak etmək şansından məhrum olurlar. Əlilliyi olan uşaqlar bütün digər uşaqlar kimi eyni hüquq və azadlıqlardan istifadə etməlidirlər, lakin sosial islahatlarda əhəmiyyətli irəliləyişlərə baxmayaraq, onlar ən həssas qrup olaraq qalırlar. Əlilliyi olan uşaqlara qarşı ayrı-seçkilik çox vaxt əsas sosial xidmətlərə çıxışın məhdudlaşdırılması, zorakılıq, yoxsulluq və cəmiyyətdə iştirak edə bilməməsi ilə nəticələnir. Buna görə də İnkluziv sinif əlilliyi olan tələbələrə əlil olmayan həmyaşıdları ilə yanaşı təhsil almaq üçün əla imkan yaradır. Uğurlu inklüziv mühitin yaradılmasının bir hissəsi bütün tələbələrin öz siniflərinə aid hisslərinin olmasını təmin etməkdən ibarətdir. Məlumdur ki, şagird sinifdə qəbul olunduğunu hiss etdikdə bir çox müsbət faydalar əldə edir. Bunlara daxildir: Təkmilləşdirilmiş özünü imici; uğur qazanmaq üçün artan həvəs; sinif otağına uyğunlaşma sürətinin artması və bununla bağlı artan tələblər; daha yaxşı davranış formasını mənimsəyir; ümumi nailiyyət səviyyəsi daha da aydınlaşır. Tələbələri inklüziv ayarda sosiallaşdırmaq üçün məsləhətlər:

- Ünsiyyət bacarıqlarını birbaşa tələbələrə öyrədin və həmyaşıdlarını da daxil edin.
- Həmyaşıdlarına mobillik strategiyalarını və dəstəklərini öyrədin.
- Aşağı risk şəraitində dostluq bacarıqlarını öyrədin.
- Yay və həftə sonları vasitəsilə əlilliyi olan tələbələri birləşdirin.
- Dostluğun inkişafı üçün vaxt ayırın.
- Əlilliyi olan şagirdlərə məktəbdə dəyərli rollar almağa kömək edin.
- Dostluq müxtəlifliyi mədəniyyətini həyata keçirin.

Ədəbiyyat

1. Коломинский, Я.П., Панько Е.А., Игумнов С.А. (2004). Психическое развитие детей в норме и патологии: психологическая диагностика, профилактика и коррекция. СПб.: Питер, 480 с.

2. Акатов, Л.И. (2003). Социальная реабилитация детей с ограниченными возможностями здоровья. Психологические основы: Учеб. пособие для студ. высш. учеб. заведений. М.: Гуманит. изд. центр ВЛАДОС, 368 с.

3. Казакова, Л.А. 2010. Особенности адаптации детей и подростков с ОВЗ. // Сибирский педагогический журнал, №11, с.256-266.

4. https://rosuchebnik.ru/material/sotsializatsiya-detey-s-ovz/

ƏLİLLİYİ OLAN ŞƏXSİN CƏMİYYƏTƏ İNTEQRASİYASINDA İNKLÜZİV TƏHSİLİN ROLU

Tənzilə Qasımova
Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
qasimovatanzila@gmail.com

Xülasə

İnklüzivlik davamlı bir prosesdir və irqindən, milliyyətindən, dinindən, cinsindən və sağlamlıq imkanlarından asılı olmayaraq hər kəsin cəmiyyətə daxil edilməsidir. inklüziv təhsil isə təhsilə daxil olma prosesinin təcəssümüdür. İnklüziv təhsilin səmərəli təşkili üçün bütün təhsil sistemini transformasiya etmək lazımdır ki,bu zamanı təlimdə yaranan problemləri həll etmək üçün məktəb yeniliklərə açıq olmalı, uşaqların daim dəyişən ehtiyac və tələblərinə uyğunlaşmalıdır.

***Açar sözlər**: inklüzivlik, diskriminasiya, inteqrasiya, inklüziv təhsil, əlilliyi olan şəxs, inklüziv cəmiyyət*

Summary

Inclusion is an ongoing process and includes everyone regardless of race, nationality, religion, gender or health status. and inclusive education is the embodiment of the process of inclusion in education. In order to effectively organize inclusive education, it is necessary to transform the entire education system, during which the school should be open to innovations and adapt to the ever-changing needs and demands of children in order to solve the problems that arise in education.

***Key words**: inclusion, discrimination, integration, inclusive education, disabled person, inclusive society*

İnklüziya yaşadığımız dövrdə cəmiyyətin əsas şərtlərindən birinə çevrilmişdir. Beləki sözün geniş mənasında inklüziya yalnız təhsil sahəsini deyil, həm də ictimai münasibətlərin bütün spektrini əhatə edir: əmək, ünsiyyət, əyləncə. Hər yerdə əlverişli və mehriban mühit yaratmaq, içtimai şüurda maneələri yox etmək üçün diskriminasiya aradan qaldırılmalı, sağlamlıq imkanlarından asılı olmayaraq hər kəsin cəmiyyətə inteqrasiya olunmasına şərait yaradılmalıdır. Əlbəttə ki, bütün sadaladıqlarımızın təmin olunması üçün inklüziv cəmiyyət formalaşdırılmalıdır. Cəmiyyətdə əldə olunan hər bir nəaliyyətin təməlində təhsil dayandığı kimi inklüziv cəmiyyətin əsasında da tam mənasında həyata keçirilən inklüziv təhsil dayanır. Bunun üçün də ilk növbədə inklüziv təhsilin imkanlarının genişlənməsinə, bu sahədə olan çatışmazlıqların aradan qaldırəlmasına diqqət yönəltmək lazımdı.

Məlumdur ki, inklüziv təhsil dedikdə milliyətindən,cinsiyyətindən, dinindən, sosial və fiziki vəziyyətindən asılı olmayaraq hər kəsə bərabər münasibət göstərən, lakin xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün əlverişli şərait yaradan və uşaqlara qarşı hər hansı bir ayrı-seçkiliyə yol verməyə ideologiya nəzərdə tutulur.Respublikamız multikultural və tolerant bir ölkə olduğu üçün nəinki təhsil sahəsində, eləcə də digər sahələrdə də insanlar milli, cinsi, dini diskriminasiya ilə üzləşmirlər. Müəyyən qədər çatışmazlıqlar əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya olunmasında özünü göstərir ki, bu sahədə də qəbul edilmiş qərarlar, həyata keçirilən lahiyələr, problemin həlli yolunda atılan addımlar müsbət nəticə verir.İnklüziv təhsil fərdi keyfiyyətlərindən və ya problemlərindən asılı olmayaraq bütün şagirdlərin təhsil almaq hüququnu əsas götürərək onların cəmiyyətə inteqrasiya olunmasını təmin edib daha ədalətli cəmiyyətin formalaşmasına zəmin yaradır.

Azərbaycan aspektindən yanaşdıqda inklüziv təhsil - sağlamlıq imkanı məhdud olan uşaqların təhsilə çıxışını, bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşaraq hamı üçün təhsilin mövcudluğunu nəzərdə tutan ümumi təhsilin inkişafı prosesidir.

İnklüziv təhsil zamanı daha çox istifadə olunan sağlamlıq imkanları məhdud olan təhsilalan, adaptasiya edilmiş təhsil proqramı, sağlamlıq imkanları məhdud olanın fərdi tədris planı terminləri inklüziv təhsilin kimə, nəyə əsasən və necə həyata keçirilməsini özündə ehtiva edir.Sağlamlıq imkanları məhdud olan təhsilalan dedikdə psixi-tibbi-pedaqoji komissiyanın təsdiqi ilə müəyyənləşən fiziki, psixi, psixofiziki problemləri olan və xüsusi şərait yaratmadan təhsil almasında manea olan fiziki şəxs nəzərdə tutulur.

Ötən əsrin 60-70-ci illərinədək ictimai həyatın heç bir sferası sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğun olmayıb. Keçmişin xoş olmayan bu mirası indi də qismən özünü göstərərək fiziki məhdudiyyəti olan insanlara qarşı bir çox sahələrdə ayrı-seçkilik müşahidə edilir. Ancaq inlüzivlik

sahəsində atılan addımlar, həyata keçirilən lahiyələr diskriminasiyanın məhdudlaşmasına, gələcəkdə isə tamamilə aradan qaldırılmasına stimul yaradır.

İnklüziv təhsil formalaşana qədər sağlamlıq imkanları məhdud olan uşaqlar xüsusi müəssisələrində, evdə və ya inteqrasiya olunmuş məktəblərdə təhsilə cəlb olunurdular ki, burada lazımi diqqət və dəstək ala bilmir və cəmiyyətə adaptasiya olunmadıqları üçün inteqrasiyalarına da əngəl yaranırdı. 1960-70-ci illərində insan hüquqları və ümumi bərabərlik uğrunda hərəkatın genişlənməsi ilə sağlamlıq imkanları məhdud insanların cəmiyyətə və ümumtəhsil məktəblərinə inteqrasiyası meyilləri inkişaf etməyə başladı. Buna baxmayaraq bəzi məktəblər fiziki məhdudiyyətli uşaqların məktəbə inteqrasiya olunmasına hazır deyildi və inteqrasiya olunmuş təhsilə cəlb olunanlar bir çox maneələrlə rastlaşırdılar. Bu maneələrə infrastrukturun əlverişsiz olması, təhsil ptoqramlarının uyğun olmaması, pedaqoji kadrların səriştəsizliyi daxil idi. Buna görə də sağlamlıq imkanları məhdud uşaqların məktəbin həyatında tam iştirak etməsi üçün qarşılaşdıqları ciddi maneələri aradan qaldırılması istiqamətində bir sıra addımlar atılmağa başlandı.

Bir müddət sonra beynəlxalq təcrübədə bu prosesi təsvir edən "inteqrasiya təhsili" termini "inklüziv təhsil" termini ilə əvəz edilmişdir. İnkluziv təhsil: uşaqlara yönəlmiş metodologiyanı inkişaf etdirməyə çalışan və bütün uşaqların müxtəlif ehtiyacları olan fərdlər olduğunu qəbul edən yanaşmadır. İnkluziv təhsil müxtəlif təlim ehtiyaclarını ödəmək üçün daha çevik olacaq tədris və öyrənmə yanaşmasını inkişaf etdirməyə çalışır

İnklüziya əlilliyi olan şagirdlərə öz güclərinə əminlik yaratmaq cəhdidir ki, bununla da onlar bütün uşaqlar kimi məktəbə getməyə motivasiya olunurlar. Uşaqlar birlikdə təhsil alarkən birlikdə yaşamağı öyrənərək əlilliyi olan və olmayan insanlar arasında sərhədləri aradan qaldırır, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya olunmasına ilk və ən vacib addımı atmış olurlar. Əlilliyi olan insanların cəmiyyətə inteqrasiya olunmasının çətinliyinin səbəbi onların əlilliklərindən daha çox öz maneələri ilə insanların hüquq və azadlıqlarının reallaşdırılmasına mane olan cəmiyyətin inkişaf vəziyyətidir. Buna görə də inklüziv təhsilin səmərəli təşkilinə cəmiyyətin inklüziya sahəsində maarifləndirilməsi ilə başlamaq lazımdır. Belə ki,artıq cəmiyyətdə əlilliklər qüsur deyil, bu və ya digər şəxsin xüsusiyyəti, fərqliliyi kimi qəbul olunsun və əlilliyi olan şəxs cəmiyyətun tam hüquqlu üzvü kimi qəbul olunaraq onun cəmiyyətin bütün sferalarında iştirakına məhdudiyyət qoyulmasın. İnklüzivlik -insanların birbirinə ehtiyacı olduğu zaman fərqliliklərdən mükəmməl bir tamın yaradılmasıdır.

Bəzi müəllim və mütəxəssislər belə hesab edirlər ki, əlilliyi olan uşaqlar ancaq müəyyən bacarıqlara yiyələndikdən sonra adi sinfə qəbul oluna bilərlər. Əks təqdirdə,onlar sinifdə çoxluğun səviyyəsindən geri qalaraq sinfin ümumi nailiyyətlərinə də əngəl yaradacaqlar. Başqa sözlə, qabiliyyət və bacarıq məktəbdə uğur qazanmağın əsas şərti kimi qəbul olunur və bu cür yanaşma təlim prosesində səmərəli inteqrasiyaya mane olur. Bunun qarşısını almaq üçün uşağı təhsilə cəlb edərkən onların bacarıq və qabiliyyətlərinə deyil, ehtiyaclarına diqqət yetirmək lazımdır və həmin ehtiyaclar nəzərə alınaraq onların ödənməsi üçün qarşıya məqsəd qoyulmalıdır. Təhsildə xüsusi ehtiyac termini 1981-ci ildə ilk dəfə İngiltərədə işlənmiş və “Təhsildə ehtiyaclar”konsepsiyası hazırlanmışdır. Bu konsepsiyaya qədər Uşağın harada təhsil alacağı məsələsi ön plana çıxanda ilk növbədə uşaqların tibbi diaqnozu əsas götürülərək əlillik kateqoriyasından asılı olaraq qərar qəbul edilirdi. Xüsusi təhsil ehtiyacları konsepsiyasının başlıca məqsədi də təhsildə əlillik kateqoriyalarının istifadəsindən imtina etmək idi.

İnklüziv təlim prosesində yarana biləcək bu çətinlikləri anlamaq və aradan qaldıra bilmək üçün üçün xarici mütəxəssislər üç komponentli çərçivə konsepsiyasını təqdim ediblər: l Uşağın hal-hazırkı koqnitiv inkişafı və psixo-fizioloji xüsusiyyətləri; ll Məktəbdə sinif səviyyəsində müəllimlər tərəfindən təşkil olunan təlim mühiti; lll Dərslikləri və digər materialları, həm də verilən tapşırıqları və təlim metodlarını daxil edən təlim vəsaitləri.

Birinci komponentidə deyildiyi kimi müəllim və mütəxəssislər uşağın inkişaf səviyyəsini, psixofziki vəziyyətini düzgün qiymətləndirdikdə onun ehtiyaclarını düzgün müəyyənləşdirə bilir və bundan təlimdə yanaşma zamanı istifadə edərək şagirdin inkişafını izləyə bilir

İkinci komponent özündə bir neçə amili birləşdirirki,bura sinfin quruluşu, sinifdəki şagirdlərin sayı, təlim vasitələrinin şagirdlərin yaşına və inkişafına uyğunluğu, şagirdlərin aktiv təlimə cəlb olun-

ması, təlimdə ünsiyyət və yaranan münasibətlər, təlim zamanı istifadə olunan üsullar, valideynlərin təlim prosesinə cəlb edilməsi daxildir.

Üçüncü konponent xüsusi təhsil ehtiyacları nəzərə alınaraq təlim vasitələrinin, metodlarının, tapşırıqların şagirdlərin yaşına və inkişafına uyğunluğunu, şagirdlərin aktiv təlimə cəlb olunmasını, təlimdə düzgün starategiyalardan istifadə etməyi nəzərdə tutur.

Xüsusi təhsil ehtiyaclarının 3 komponenti inklüziv təhsilin əsas prinsipini açıqlayır. Müəllimlər və məktəbdə çalışan digər işçilər dərk etməlidirlər ki, inklüziv təhsil, hansısa əlillik kateqoriyası olan və ya sağlamlıq imkanları məhdud olan uşağa sinifdə yer verilməsindən ibarət deyil. İnklüziv təhsil uşaqların xüsusi ehtiyaclarının müəyyənləşdirilməsindən başlanır. Müvafiq təlim starategiyalarından istifadə edilməsi xüsusi qayğıya ehtiyacı olan uşağı sosial, psixi, fiziki və koqnitiv inkişafa doğru aparmaqla onu sinif kollektivinin inteqrativ bir üzvünə çevirir.

İnklüziv təhsilin səmərəli təşkil olunması üçün vacib olan bir sıra şərtlər vardır: müvafiq inklüziv təlimi dəstəkləyən mühit hazırlamaq; inklüziv təhsildə maraqlı olan tərəflər arasında əməkdaşlıq; fərdi tədris proqramının hazırlanması və istifadəsi; inklüziv təhsillə əlaqədar olan digər xidmətlərin rolu; inklüziv təhsilə valideynlərin cəlb olunması

Müasir təhsil sistemində İnklüziv təhsilin vacibliyi,o cümlədən Azərbaycanda geniş şəkildə tətbiq olunmağa başlanması bu sahədə zəruri işlər görməyi şərtləndirdi.İnklüziv təhsilin təbliği, tətbiqi üzrə aparılan işləri üç istiqamət üzrə qruplaşdırmaq olar:maarifləndirmə, təlimlər, metodiki dəstək.

İnklüziya mədəniyyətinin formalaşması üçün ilkin olaraq ümumtəhsil məktəblərində pedaqoji və inzibati heyət, həmçinin şagird və valideynlər arasında maarifləndirmə işləri aparılır. Bu zaman iştirakçılara inklüzivlik, inklüziv təhsilin mahiyyəti və əhəmiyyəti, əlilliyə tibbi və sosial yanaşma haqqında məlumat verilir.

İnklüziv təhsilin təşkilində iştirak edən komanda üzvlərinin: müəllim, korreksiyaedici pedaqoq və psixoloqların təlimlərə cəlb olunması təhsildə inklüziyanın tətbiqinə çox yararlı olur.

Keyfiyyətli inklüziv təhsilin tətbiqini təmin etmək üçün məqalələr yazılır, metodiki vasitələr, dərsliklər hazırlanır.

İnklüziv təhsilin tətbiqinə əngəl yaradan bir sıra maneələr də var: məktəblərin cəhətdən əlçatmazlığı; xüsusi təhsil ehtiyacları olan uşaqların öyrənməyə qadir olmamalarının düşünülməsi; məktəbin pedaqoji kollektivinin əlilliklərin xüsusiyyətləri və onlara yanaşma məsələləri haqqında kifayət qədər məlumatının olmaması;sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin övladlarının təhsil hüququnu müdafiə etməməsi,əlilliyi olmayan uşaqların valideynlərinin övladının əlilliyi olan uşaqlarla birgə təhsil almasına etiraz etməsi.

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasını təmin etmək üçün vacib amillərdən biri infrastrukturun onların tələbatlarına uyğunlaşdırmasıdır.Bu,inklüziv təhsilin səmərəli təşkili üçün vacib şərtlərdəndir.

Diskriminasiyanın aradan qaldırılması,inklüziv cəmiyyətin qurulmasının əsas şərtlərindən biri inklüziyanı tam mənasında anlayan, qəbul edən,bu sahədə səriştəsi olan pedaqoqların hazırlanmasıdır. Bu baxımdan,pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrində "İnklüziv təhsil" fənni tədris olunur. Fənnin tədrisi zamanı tələbələrə inklüziv təhsilin əhəmiyyəti, vacibliyi, xüsusisi qayğıya ehtiyacı olan uşaqların xüsisiyyətləri, onlara yanaşma yolları, inklüziv təhsil müəlliminin yiyələnməsi vacib olan bir sıra bacarıqlar aşılanır.

Ədəbiyyat

1. Hüseynova,N.T. (2014). İnklüziv təhsil. Dərs Bakı: ADPU, 12-26.

2. İnklüziv siniflərdə təlimin təşkili (2018).Oxu materialı,Bakı: TİPİİ,2-5.

3. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti (2020). Xüsusi kitabça, Bakı:İdeal print ,8-16.

4. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması (2020). Texniki kitabça, Bakı:. UNİCEF, 24-32.

5. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika (2020). Aylıq bülleten, Bakı: RİİB,1-4.

6. Lorema, T., Deppeler, J., Harvey, D. (2020). İnklüziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar.Bakı:İdeal print, 48-61.
7. Nəzərova,Ş. (2023). İnklüziv təhsilin əsasları. Dərslik, Bakı: ADPUnəşriyyatı,25-46.

İNKLÜZİV TƏLƏBƏLƏRİN ÖZÜNÜREALLAŞDIRMASININ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Şahnaz Quliyeva, psix.ü.f.d.,dos.
Ayna Hacıyeva, psix.ü.f.d.,dos.
Sumqayıt Dövlət Universiteti
shahnaz1969@mail.ru
haciyevaayna748@gmail.com

Summary

The thesis examines the positive impact of higher education on the mental development of students with disabilities, their integration into society and self-realization. It is emphasized that the purpose of higher education is to instill in students with disabilities relevant knowledge, skills and abilities, ensuring their adaptation in society and at the same time their self-development and self-realization.

Key words: *inclusive education, inclusive student, integration, society*

Резюме

В статье рассматривается вопрос о том, насколько положительно оказывает влияние высшее образование на умственное развитие студентов с ограниченными возможностями здоровья, их интеграцию в общество и самореализацию. Подчеркивается, что целью высшего образования является привитие студентам с ограниченными возможностями здоровья соответствующих знаний, умений и навыков, обеспечение их адаптации в обществе и в то же время их саморазвитие и самореализация.

Ключевые слова: *инклюзивное образование, инклюзивный студент, интеграция, общество*

Müasir dövrdə həm psixologiya elminin, həm də cəmiyyətin əsas məqsədi sağlamlıq imkanları məhdud olan gənclərin cəmiyyətə inteqrasiyasını təmin etmək və onların özunutəsdiqini, özünüreallaşdirmasını həyata keçirməkdən ibarətdir. Bu baxımdan da sağlamlıq imkanları məhdud olan gənclərin özunutəsdiq və özünüreallaşdirmasınıda ali təhsilin əhəmiyyəti olduqca böyükdür. Sağlamlıq imkanları məhdud tələbə gənclərin cəmiyyətə inteqrasiyası və digər gənclərlə ünsiyyətə, birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması onların bir fərd olduğunu dərk etməsinə müsbət təsir etmiş olur. Bu prosesdə məqsəd onların bir fərd olaraq özlərinin ehtiyacları olmasını dərk etməsilə psixi inkişaflarına müsbət təsir göstərmək və cəmiyyətə inteqrasiyasını təmin etməklə özünüreallaşdirmasını həyata keçirməkdən ibarətdir. Göründüyü kimi, inklüziv tələbələrin ali təhsilində məqsəd onları zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla cəmiyyətə uyğunlaşmasını təmin etmək və bir fərd olaraq özünütəsdiqini və özünüreallaşdırmasını həyata keçirməkdən ibarətdir. İnklüziv tələbələrdə natamlıq kompleksi olur ki, bu da onların motivasiya sahəsinin və emosional-iradi sferasının tam inkişaf etməsinə mənfi təsir göstərir ki, bu isə onlarda özünə inamsızlıq və özünəqapanmaya səbəb olur. Ona görə də inklüziv tələbələrin özünuinkişaf və özünüreallaşdırmasının ən mühüm şərtlərindən biri onlarda daxili motivasiyanın yaradılmasıdır. Daxili motivasiyanın yaradılması inkuliziv tələbələrdə məqsəd aydınlığı, dərsə maraq və idrakı fəallığı artırmış olur. Daxili motivasiyanın uzun müddətli olması inkuliziv tələbələrin özünuinkişaf və özünüreallaşdırmasının daxili cəhdi kimi dəyərləndirilir.

Ölkəmizdə sağlamlıq imkanları məhdud olan tələbə gənclərin sağlam tələbə gənclərlə bərabər təhsil alması təmin edilir ki, bu da cəmiyyətimizdə sosial bərabərliyin qorunmasının bir göstəricisidir.

Beynəlxalq praktikaya görə bir qrupda inkuliziv tələbələrin sayı 5-10% olmalıdır. Ölkəmizdə inkuliziv tələbələrin ali təhsilə inteqrasiyası onların arzu və istəklərinin, maraq və tələbatlarının düzgün formalaşması və onlarla qurulan kommunikativ əlaqələrin düzgün seçilməsi müasir dövrdə diqqət yetirilən əsas psixoloji məsələlərdən biridir. Kommunikatv əlaqələrin düzgün qurulması zamanı sağlamlıq imkanları məhdud olan gənclər ali təhsil mühitinə tez uyğunlaşır və öz bilik- bacarıqları ilə

bir fərd olduğunu reallaşdırmağa çalışmaqla özlərinə inam hissi formalaşmış olur. Ali təhsil müəsisəsində bütün tələbələrin eyni qrupda təhsil alması dərs deyən müəllimin alternativ ünsiyyyət formasını seçməsinə yönəldir ki, bu prosesdə də məqsəd sağlamlıq imkanları məhdud olan uşaqların həmyaşıdları ilə ünsiyyət baçarığını formalaşdırmaq və onların təhsilə, cəmiyyətə inteqrasiyasını təşkil etməkdir. Sağlamlıq imkanları məhdud olan tələbə gənclərin universitet həyatında yaşadıqları ilk çətinliklərdən biri özləri kimi olmayan gənclərlə qarşılaşmalarıdır. Belə tələbələrlə əməkdaşlıq etmək, ünsiyyət qurmaq və dərs prosesində təlim fəalliğına qoşulmaq ilk vaxtlarda onlar üçün ağır keçir ki, bu prosesdə tələbələrin qarşılıqlı şəkildə bir-birinə uyuşması və alışması müəllim fəaliyyətində pedaqoji ustalıq və təcrübə əsas rol oynayır.Təhsil prosesində sağlamlıq imkanları məhdud olan tələbələrin sağlam tələbə gənclərlə ünsiyyət qurması və əməkdaşlıq etməsi onların diqqətini öz qüsurlarına deyil yeni davranışlara, bilik və bacarıqlara yiyələnməsinə yönəltmiş olur (Şipitsinan,1995, s.101).

Aparılan müşahidələr göstərir ki, sağlamlıq imkanları məhdud olan tələbə gəncləri təhsil prosesində onların yoldaşları tərəfindən olduğu kimi qəbul olunaraq diqqət və qayğı ilə əhatə olunması onların psixoloji inkişafına, təhsilə, cəmiyyətə adaptasiyasına və bilik - bacarıqları ilə özünüreallaşdırmasına, özünütəsdiqinə olduqca müsbət təsir göstərmiş olur. Müşahidələr göstərir ki, dərs prosesində müəllimlərin inklüziv tələbələrlə ünsiyyəti zamanı münasibətlərində təmkinli, sakit, aydın danışması, ünsiyyətdə daha az sözdən istifadə etməklə onları düşünməyə yönəltməsi onların psixoloji inkişafına müsbət təsir ğöstərir ki, bu da onların diqqətini xəstəliklərinə deyil, təhsilə, özünüinkişafa və cəmiyyətə inteqrasiyasına yönəldir. Müəllimlərin valideynlərlə birgə əməkdaşlıq etməsi və məsləhətləşmələr aparması da sağlamlıq imkanları məhdud olan tələbə gənclərin psixi inkişafı baxımından olduqca əhəmiyyətlidir (Əliyev, 2007, s.255).

Bu proses təhsil sistemindəi xüsusi qayğıya ehtiyacı olan gənclərdə özünə inamı artırır və digər normal gənclərlə bərabərhüquqlu olmasını təmin etməklə onlarda yaşamaq istəyi və həvəsini daha da artır, onlarda gələcəyə ümid yaradır.

Ölkəmizdə inklüziv uşaqlar hə zaman dövlət qayğısı ilə əhatə olunmuşlar. Bu baxımından qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı əsas məqsəd kimi qəbul edir.

Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqlar hər zama diqqət mərkəzində olmuş və 2005-ci ildən "İnklüziv təhsil layihəsi"nin icrasına start verilmişdir. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili"nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir.

Ədəbiyyat

1. Basilova, T.A. (2002) Yeniyetmə yaşlarında eşitmə və görmə qabiliyyətini itirmiş uşaqların psixi sağlamlıq problemləri. Defektologiya, № 4. s.23-27
2. Əliyev, R.İ. (2007) Psixologiya. Bakı: Nurlan, 255 s.
3. Hacıyeva, A.Ş. (2020) Emosiyaların psixologiyası. Dərs vəsaiti. Sumqayıt: SDU, 228 s.
4. Quliyeva, Ş.M.(2021) Ümumpsixoloji praktikum. Dərs vəsaiti. Sumqayıt: SDU, 426 s.
5. Şipitsinanın, L.M. red.ilə (1995) Görmə qüsurlu məktəbəqədər uşaqların inkişafı korreksiyası və təhsili. Toplu: "Təhsil", 131s.

MÜASİR İNKLÜZİV TƏHSİLİN MAHİYYƏTİ VƏ MƏZMUNU

Vüsalə Qurbanova
BSU-nun Pedaqogika və psixologiya kafedrasının müəllimi, doktorant
vusalagurbanova7@gmail.com

Summary

The article discusses inclusive education, its capabilities, the needs of inclusive education, ways of its implementation, which are the most pressing issues for our society and its development in recent years. It was also noted that inclusive education is a requirement of the time. Every child has the right to an equal education, regardless of mental or physical disabilities, and our state supports the provision of this right with its capabilities.

Key words: *inclusive education, society, law, training, integration*

Резюме

В статье рассмотрены инклюзивное образование, его возможности, потребности инклюзивного образования, пути его реализации, которые являются наиболее актуальными вопросами для нашего общества и его развития в последние годы. Также было отмечено, что инклюзивное образование – это требование времени. Каждый ребенок имеет право на равное образование, независимо от умственных и физических недостатков, и наше государство своими возможностями поддерживает обеспечение этого права.

Ключевые слова: *инклюзивное образование, общество, закон, обучение, интеграция*

Yaşadığımız müasir dünya çox sürətlə inkişaf edir. Günümüzdə inklüziv təhsilin məqsədi əqli, fiziki imkanları məhdud uşaqların təhsilə cəlb olunması ilə yanaşı, eləcə də sosial, emosional və istedadlı uşaqların da vəziyyətlərini nəzərə alaraq onların təlsil ehtiyaclarının ödənilməsini nəzərdə tutur.

Müasir inkişaf etmiş cəmiyyətdə inklüziv təhsil anlayışına tamamilə fərqli yanaşma mövcuddur, burada ən müxtəlif ehtiyaclar və xüsusiyyətlərin nəzərə alınmasından söhbət gedir. İnklüziv təhsil bütün uşaqların hərtərəfli inkişafına yardım göstərir. İnklüziv təhsil yeni ideya deyil. Bu son on il müddətində Avropa, Asiya və Birləşmiş Ştatlardakı aparıcı mütəxəssislər arasında razılaşdırılmış əsas ideyaya çevrilmişdir.

İnklüziv təhsilin əsas fəlsəfəsi, ictimaiyyət və məktəblər üçün yeni baxışlar yaratmaqla, şagirdlərin cəmiyyətin daha dəyərli üzvlərinə çevrilməsinə yardım etməyə əsaslanır.

Uşaqların bir yerdə öyrənməsi, oynaması, danışıb-gülməsi müəllimlərə, valideynlərə və şagirdlərə imkan verir ki, inklüziv təhsilin üstün cəhətlərini görsünlər və onun standartlarını qəbul etsinlər. Son nəticədə bu model cəmiyyət üçün qaydaya çevrilir və əvvəllər müəyyən səbəblərə görə ictimai həyatdan təcrid edilmiş insanlara yeni fikirlər və imkanlar yaradır.

Əqli, fiziki, sosial vəziyyətindən asılı olmayaraq, eyni zamanda emosional, xüsusi qabiliyyətli, istedadlı, eləcə də kimsəsiz, etnik və mədəni azlıqların uşaqlarının cinsindən, yaşından, sosial durumundan asılı olmayaraq təhsil prosesində iştirak etməyə və cəmiyyətə inteqrasiya olunmağa haqqı vardır (İnklüziv siniflərdə təlimin təşkili, 2018, s. 21).

İnklüziv təhsil anlayışı öz əsasını fəlsəfə elmindən götürsə də onun qanunauyğunluqlarını, prinsiplərini, strategiyalarını, işin təşkili məsələlərini pedaqoji elm sahəsi dərindən öyrənib hazırlamışdır. Ümumi qanun və didaktik prinsiplərdən əlavə inklüziv təhsilin spesifik prinsipləri vardır:

1.Hər bir insan qabiliyyətlərindən, uğurlarından asılı olmayaraq dəyərlidir.

2.Hər bir insan düşünmək və hiss etmək qabiliyyətlərinə malikdir.

3.Hər bir insanın eşidilsin deyə ünsiyyətə haqqı vardır.

4.Əsil təhsil real münasibətlər üzərində qurulmalıdır: bütün insanların bir-birinə ehtiyacı var, insanlar həmyaşıdları ilə dostluq etməyə, münasibət qurmağa ehtiyac duyurlar.

5.Müxtəliflik insan həyatını daha da rəngarəng edir (Eminova, 2021, s. 84).

İnklüziv təhsil-normal və məhdud imkanları olan şəxslərin birgə təşkil olunmuş təlim-tərbiyə poqramlarına, asudə vaxtlarda, eləcə də əlavə təhsil sistemində qarşılıqlı əməkdaşlığıdır. Hal-hazırda inklüziv təhsil siniflərində ayrıca təlim proqramı mövcud deyil, yaxud məktəblərdə korreksiyaedici siniflərdə həyata keçirilmir, inklüziv təhsil siniflərə inteqrasiya olunur.

Belə olan halda müəllim də sinifdə şagirdə münasibətini xüsusi yanaşma ilə qurmur, hər bir uşağın qabiliyyət və bacarığına görə tolerant davranmalı olur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil sahəsindəki uğurlarında sözsüzki, onların təlimə motivasiyanın da böyük rolu vardır. Bu sahədə aparılan tədqiqatlar SİM uşaqların təhsildəki müvəffəqiyyətlərinə motivasiyanın əhəmiyyətli dərəcədə təsir göstərdiyini müşahidə etmişlər. Bu qəbildən olan uşaqlar kifayət qədər yüksək qabiliyyətlərə malik olmadıqları halda belə, müsbət motivasiyanın təsiri altında təlim prosesinə daha həvəslə qoşulur və müəyyən mənada uğurlar əldə edirlər.

Əlbəttəki təlimə motivasiya prosesində onun əsas subyekti olan müəllimin üzərinə daha çox yük düşür. Çünki inklüziv siniflərdə sağlamlıq imkanları məhdud uşaqlara dərs vermək, ilk növbədə, belə uşaqlarla işləyən müəllim üçün motivasiyalı bir prosesə çevrilməlidir. Buna görə də, belə məktəblini təlimə həvəsləndirmək vəzifəsi müəllim, məktəb psixoloqu, sinif uşaqları, valideynlər bir sözlə, bütün cəmiyyət qarşısında qoyulmuş, mühüm əhəmiyyət kəsb edən bir məsələ kimi qəbul etmək lazımdır. Unutmaq olmaz ki, inklüziv təhsilin məqsədi hər bir uşağı, onun imkan və qüsurlarından asılı olmayaraq təlim-təhsil prosesinə cəlb etmək, beləliklə də onun cəmiyyətə inteqrasiyası və idrak ehtiyaclarının formalaşması və inkişafı üçün müvafiq şəraiti yaratmaqdan ibarətdir.

İnklüziv sinifdə dərs deyəcək müəllimin inklüziv səriştələliliyi aşağıdakıları əhatə edir:

– inklüziv təhsilin fəlsəfəsini anlamaq, SİM şagirdlərin şəxsi və yaş inkişafının qanunauyğunluqlarını, xüsusiyyətlərini bilmək;

– inklüziv təlimin təşkilinin optimal üsullarını seçmək, inklüziv sinifdə təlim prosesini layihələndirmək;

– pedaqoji ünsiyyətin bütün subyektləri arasında SİM uşaqlara münasibətdə dəyərlərə əsaslanmış müxtəlif üsulların tətbiqi;

–inklüziv təlimin əhatə dairəsində korreksiyaedici-inkişafetdirici mühitin yaradılması və resurslardan bütün uşaqların inkişafı üçün istifadə etmək;

– inklüziv təhsillə bağlı peşəkar özünütəkmilləşdirməsini təmin etmək İnklüziv siniflərdə təlimin təşkili, 2018, s. 41).

İnklüziv təhsil hər bir şagirdə ünsiyyət ehtiyaclarının ödənilməsinə şərait yaradır, təbii ki, sağlamlıq imkanları məhdud olan uşaqların bu tələbata nə qədər ehtiyacı olduğunu bilirik. Bildiyimiz kimi, ünsiyyət prosesində uşağın sosiallaşması baş verir, o, özünü cəmiyyətin bir üzvü kimi hiss etməyə başlayır. Ünsiyyət və əməkdaşlıq uşaqları fəaliyyətə sövq edir, onlar birgə öyrənmə prosesinə qoşulurlar. Fəaliyyət və qarşılıqlı öyrənmə nəticəsində uşaq cəmiyyətə inteqrasiya və yeni mühitə adaptasiya olunur, öyrənmə fəaliyyəti onda digər duyğuların yaranmasına səbəb olur və uşaqda emosional hisslər formalaşmağa başlayır.

İnklüziv təhsil bütün uşaqların həmyaşıdlarını tanımağa, onlarla münasibət qurmağa, bir-birlərinin imkanlarını dəyərləndirməyə şərait yaradır. Bu baxımdan inklüziv təhsil çox dəyərli və faydalı bir konsepsiyadır. Rəngarəng təlim mühiti ancaq xüsusi qayğıya ehtiyacı olan uşaqların deyil, bütün uşaqların marağına səbəb olur, onları öyrənməyə motivasiya edir. Öyrənmək ancaq bilik əldə etməklə qabiliyyət və bacarıqlar formalaşdımaq deyil, əsas məsələ insanların bir - birini dərk etməsi, onların halını anlaması, özlərini başqalarının yerinə qoyması və onun vəziyyətini hiss etməsidir. İnklüziv təhsilin ən əsas üstün cəhəti də elə bundan ibarətdir.

Ədəbiyyat

1. Eminova, G. (2021), İnklüzİv təhsildə sinfin effektiv idarə edilməsinin məqsədi və əhəmiyyəti. Azərbaycan məktəbi. № 4 s. 82-90

2. İnklüziv siniflərdə təlimin təşkili TİPİİ. (2018). Oxu materialı, Bakı, 67 s.

İNKLÜZİV TƏHSİLDƏ BƏRABƏR İMKANLARIN YARADILMASININ SOSİAL VƏ HÜQUQİ ASPEKTLƏRİ

Nurlan Məmmədov
Bakı Slavyan Universiteti
nurlan.mammadov.r@bsu-uni.edu

Summary

In the article, the author summarized domestic and international experience on various aspects of inclusive education and touched upon some issues related to inclusive education. The article highlights the importance of the sub-standards adopted by the United Nations concerning the creation of equal opportunities in education for people with disabilities, as well as the approaches of other authors conducting research in this area.

Key words: *inclusive education, equal opportunities, children with disabilities, legislation, integration, education*

Резюме

В статье автор обобщил отечественный и международный опыт по различным аспектам инклюзивного образования и затронул некоторые вопросы, связанные с инклюзивным образованием. В статье подчеркивается важность подстандартов, принятых ООН, касающихся создания равных возможностей в образовании людей с ограниченными возможностями, а также подходов других авторов, проводящих исследования в этой области.

Ключевые слова: *инклюзивное образование, равные возможности, дети с ограниченными возможностями, законодательство, интеграция, образование*

Son dövlər təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri çərçivəsində təhsilin hər kəs üçün əlçatan və müyəssər olması, fiziki məhdudiyyətlərindən asılı olmayaraq şagirdlərə daha geniş imkanlar yaratmağa nail olunmuşdur. Bu baxımdan, inklüziv təhsil, eyni olan imkanları və təcrübəni təmin etməyə nail olan bir təhsil modeli olaraq aktuallaşmışdır. İnklüziv təhsil, bütün şagirdlərə bərabər imkanlar yaradaraq cəmiyyətin daha ədalətli şəkildə birgəyaşayışını təmin etməyə çalışır.

İnklüziv təhsil, cəmiyyətin hər bir üzvünün müstəqil şəkildə həmin şagirdlərə hörmət göstərməsini və onlar üçün eyni imkanları yaratmağı təmin edir. İnklüziv təhsil, hər bir şagirdin möhkəm və sağlam təhsil almaq hüququ əldə etməsini və öz potensialını tam şəkildə həyata keçirməsinə kömək etmək üçün gələcəkdə daha da əhəmiyyətli olacaq.

İnklüziv (fr. inclusif — “özünə daxil edən”, lat. include — “daxil edilən”) ümumtəhsil məktəblərində xüsusi ehtiyacı olan uşaqların öyrənmə prosesini təsvir etmək üçün istifadə olunan bir termindir. İnklüziv təhsilin əsasını uşaqlara qarşı hər hansı ayrı-seçkiliyi istisna edən, bütün insanlara bərabər münasibət göstərən, lakin xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün xüsusi şərait yaradan ideologiya təşkil edir. İnteqrasiya (lat. integratio — “bərpa edilmə”, “bütövləşmə”, “birləşmə”) kontekstdən asılı olaraq həm təlim prosesini təşkil edən mərhələlər və müxtəlif fənlər üzrə məzmun standartları arasında üzvi əlaqələrin qurulmasını ehtiva edən didaktik prinsipi kimi, həm də qanunvericilikdə ümumi təhsil sisteminin mütərəqqi beynəlxalq təhsil təcrübələrinə uyğunlaşdırmaqla inkişaf etdirilməsi kimi xarakterizə olunur.

İnklüzivlik əksər hallarda kontekstdən asılı olaraq dəyişir, buna görə də bütün məktəblərdə müxtəlif zehni və fiziki qabiliyyətləri olan uşaqları təhsil prosesinə uğurla cəlb etmək üçün vahid bir çərçivə mövcud deyil. Onun uğurlu tətbiqi qarşılıqlı əməkdaşlıq çərçivəsində, bütün məktəb işçilərinin dəstəyi ilə, müəllimlərin effektiv tədris və tədris metodlarını başa düşdüyü və nümayiş etdirdiyi şəraitdə mümkündür. Məktəb işçilərinin dəstəyi olmasa belə, müəllim öz sinfində inklüzivliyi tək başına tətbiq etmək üçün çox iş görə bilər. Daxil olma yolunda uğurlu addımlar atmaq üçün əvvəlcə problemləri həll etməyi öyrənmək lazımdır. Əlbəttə ki, burada söhbət yalnız uşağın problemindən getmir. Söhbət, məktəbin bütün şagirdlərin tələblərinə necə uyğunlaşacağını düşünərək bütün məktəbin problemlərini əhatə edir. Bir problem ortaya çıxdıqda, aydın bir Pedaqoji platformaya, ortaq dəyərlərə və müsbət liderliyə əsaslanan müsbət həlli, daha çox məktəb və sinif nişanına doğru irəliləməyin ən yaxşı yoludur. Bir çox problemin həlli ümumiyyətlə gün ərzində tələbələr və böyüklər ilə qarşılıqlı əlaqədə olan müəllimlər üçün yayğındır.

Müxtəlif əqli və fiziki imkanlı uşaqların tədrisi məqsədilə, məktəblərin əlavə maliyyə ilə təmin edilməsinin vacibliyi, artıq uzun müddətdir ki, müxtəlif tədqiqatçılar tərəfindən müzakirə edilir.

Bəzi müəllimlər arasında belə fikir formalaşmışdır ki, müxtəlif əqli və fiziki imkanları olan uşaqların dəstəklənməsi üçün əlavə maliyyələşdirmə kifayət etmir və bu maliyyələşdirilmənin artırılması onların fəaliyyət zamanı üzləşdiyi xüsusi uşaqların təhsilində bir sıra problemləri həll edə bilər [1,s.12]. Bu həqiqətən belədirmi? Əlavə maliyyələşdirmə müxtəlif fiziki və əqli imkanları olan uşaqların təhsilə cəlb edilməsində məktəbin iş keyfiyyətini artıra bilərmi? Norveçin inklüziv məktəblərində aparılan tədqiqatda bir neçə bələdiyyədə əlilliyi olan uşaqların dəstəklənməsi üçün maliyyələşdirilmənin müxtəlif səviyyələrinin təsirləri qiymətləndirilmişdir [2,s.215].

Azərbaycan Respublikasında təhsil müəssisəsində psixoloji-pedaqoji və tibbi göstəricilərə (əks göstəricilərə) uyğun təhsil almaq üçün lazımi xüsusi şərait varsa, həmin müəssisənin xüsusi siniflərində sağlamlıq imkanları məhdud şəxslər üçün inteqrasiyalı təhsil təşkil edilir.

Bir çox tədqiqatçılar, xüsusilə L.S.Vıqotskinin fikirlərini inkişaf etdirən alimlər erkən psixoloji və pedaqoji yardım və qüsurların düzəldilməsi üçün kompleks proqramlar hazırlamağa və eksperimental olaraq sınaqdan keçirməyə, uşağın sosial və ümumi təhsil mühitinə erkən inteqrasiyasını reallaşdırmağa başladılar. Məsələn, E.R.Yarskaya-Smirnova öz məqaləsində inklüziv təhsilin xüsusiyyətlərini şərh edərək "inklüziv təhsil məktəblərin və təhsil müəssisələrində uşaqların bütün ehtiyaclarını ödəmək üçün islahatlara və yenidən təşkilinə uyğun bir anlayışdır" kimi səciyyələndirmişdir [3, s.115].

Öz növbəsində T.But isə hesab edir ki, uşaq inteqrasiya olunmuş təlim şəraitində iştirak edir və inklüziv təhsildə prosesə, təhsil sisteminə tam daxil edilir. O.N.Yertanova "inteqrasiya" və "daxilolma" anlayışlarının mənasını diqqətlə araşdıraraq onların sinonim və terminoloji qohumluq əlaqələri olduğu qənaətinə gəlmişdir. Mütəxəssislər eyni zamanda "inteqrasiya" və "daxilolma" proseslərini xüsusi təhsil ehtiyacları olan uşaqların təhsil sisteminə fərqli səviyyədə inteqrasiyasını xarakterizə edirlər.

Məsələn, N.M.Nazarova, inklüzivliyin təhsil inteqrasiyası olduğunu, E.A.Yekjanova isə inteqrasiyanın inklüzivliyinin ilkin mərhələsi olduğunu söyləmişlər [4, s.27].

Beynəlxalq qanunvericiliyə nəzər salarkən biz görürük ki, İnsan Hüquqları və Bərabər İmkanlar Komitəsi 1994-cü ildə diskriminasiyanın aşağıdakı tiplərini müəyyən etmişdir:

Birbaşa diskriminasiya – əlverişsiz münasibət kimi Əlverişsiz münasibət o deməkdir ki, əlilliyi olan insan imkansızdır və onun əlilliyi olmayan şəxslərin malik olduqları imkanları və seçimi yoxdur.

Dolayısı ilə diskriminasiya – ədalətsiz istisna kimi Ədalətsiz istisna o zaman meydana çıxır ki, əlilliyi olan insan üçün yaradılmış şərtlər hər hansı fəaliyyətin yerinə yetirilməsinə mane olur. Bu şərtlər aşağıdakılardır:

- həmin fəaliyyət həyata keçirilməlidir
- əlilliyi olmayan şəxslər əsasən bunu həyata keçirə bilərlər;
- əlilliyi olan adam həmin fəaliyyəti həyata keçirə bilmir;
- əsaslandırılmamış hallar İnformasiya axtarışı ilə bağlı diskriminasion suallar;
- əlilliyi olan insanın diskriminasiyası üçün istifadə oluna bilər;
- eyni vəziyyətdə əlilliyi olan insana verilə bilməz.

Şagirdlərin əlillik kateqoriyalarına bölünməsi çox ziddiyyətli haldır. Bu ziddiyyəti dərk etmək üçün özümüzə belə bir sual verək: "Əlilliyi olan uşaqlar nə üçün və hansı məqsədlə bu və ya digər kateqoriyalara bölünməlidirlər?" Bir çox valideynlər və təhsil sahəsində çalışan mütəxəssislər iddia edirlər ki, kateqoriyalar zəruridir, çünki onlar şagirdin ehtiyaclarının daha yaxşı dərk edilməsinə kömək göstərir, buna görə də əlilliyi olan şagirdin kateqoriyası müəyyənləşdirilmədikdə o, obyektiv və zəruri yardımdan məhrum ola bilər. Bu qruplar həmçinin təsdiq edirlər ki, əlillik kateqoriyaları şagirdlərə və onların ailələrinə əlilliyi olmayan şagirdlərə şamil olunmayan inklüziv təhsil əlavə maliyyənin ayrılmasına kömək göstərə bilər. Habelə məktəb müvafiq istiqamətlərdə elmi-tədqiqat proqramlarında iştirak etməyə cəlb edilə bilər. Digər valideynlər və mütəxəssislər bildirirlər ki, kateqoriyalar mənfi stereotiplər təsəvvürü yaradır, əlilliyi olan şagirdlərdə "özünü qiymətləndirməni" təhrif edir və tədrisin planlaşdırılmasına, yaxud fərdi planın tərtib edilməsinə heç bir fayda vermir. Üstəlik, bu qruplar əlilliyi sosial və mədəni qurum hesab edirlər və buna görə də, onların fikrincə, əlilliyi olan şagirdlərin hər hansı şəkildə kateqoriyalaşdırılması və "markalanması" düzgün deyil. Zənnimizcə, kateqoriyalaşdırma bəzən

faydalı, bəzən isə məhvedici ola bilər. Əlilliyi olan şagirdlər də digər şagirdlərlə eyni təhsil imkanlarına malik olmalıdırlar. Müəllimlər, təhsil sahəsində mütəxəssislər bəzən şagirdin öz əlilliyinə görə nəyi mənimsəyə bilib-bilmədiyini dəqiq müəyyənləşdirə bilmirlər. Buna görə də əlilliyi olan tələbə hər hansı bir məktəbə, kollecə, universitetə, yaxud digər təhsil institutuna qəbul olunarkən tələblərə cavab verirsə, bu tələbə digərləri kimi təhsili davam etdirmək üçün eyni imkanlara malik olmalıdır. Əlilliyi olan şagirdlər təhsil zamanı “adi” şagirdlərlə eyni üstünlüklərə malik olmalıdırlar. Bu üstünlüklər aşağıdakılardır:

- pozitiv tədris atmosferi;
- məsləhət xidmətləri;
- kurs və fənn seçimi imkanı.

Yuxarıda qeyd edilənləri ümumiləşdirib belə qənaətə gəlmək mümkündür ki, əlillik həmişə olub və bundan sonra da mövcud olacaqdır. Bu sosial münasibətlər zəminində çox zaman xeyli xoşagəlməzlik yaradır, normal həyat fəaliyyətini çətinləşdirir. Həm yerli, həm də beynəlxalq səviyyədə qəbul edilmiş qanunvericilik aktları məhz belə məsələləri tənzimləmək üçün qəbul olunur və mütəmadi olaraq təkmilləşdirilir ki, bu da təhsilverənlərə yeni inklüziv təcrübə qazandırır. İnklüziv təcrübə - bu, müəllimin yeni şeyləri qəbul etməyə və yeni yollarla hərəkət etməyə hazır olmasını tələb edən innovativ bir təcrübədir. Mövcud hazırlıq vəziyyətini nəzərə alaraq müəllimə vəzifələrini uğurla yerinə yetirməyə, bilik, bacarıq, bacarıq, təcrübə, şəxsi keyfiyyətlərdən düzgün istifadə etməyə, özünü idarə etməyə, habelə təhsil prosesinin tələblərinə və şagirdlərin xüsusiyyətlərinə uyğun olaraq hərəkətləri yenidən qurmağa kömək edir.

Beləliklə, ünsiyyətin məzmunu kimi inklüziv təhsilə psixoloji və pedaqoji hazırlıq, bir insanın effektiv peşə fəaliyyətinin uğuru üçün zəruri şərt kimi çıxış edir. Psixoloji və pedaqoji hazırlığın məzmunu və quruluşu isə fəaliyyətin zehni proseslərə, vəziyyətlərə, təcrübələrə, şəxsi keyfiyyətlərə və münasibətlərinə olan tələbləri ilə müəyyən edilir.

Ədəbiyyat

1. Loreman, T.J. (1997), Improving the Implementation of Individualized Education Programs in Edmonton Public Schools, Geelong: Faculty of Education, Deakin University pp.12

2. Davidson, G.R. and Freebody, P.R. (1986), ‘Children and adults or novices and experts? A dilemma for cross-cultural developmental research’ in Special Issue: Contributions to Cross-cultural Psychology. Australian Journal of Psychology, 38, pp. 215

3. Выготский, Л.С. Коллектив как фактор развития аномального ребенка / Л.С. Выготский // Проблемы дефектологии. – М. -1995. – С.306 – 327.

4. Возняк, И.В. Интеграция детей с ограниченными возможностями в образовательный процесс: начальная школа / И.В. Возняк, Л.В. Годовникова.– Волгоград: Учитель, 2011.–87

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKLÜZİV TƏHSİLİN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

Arzu Məmmədova
Bakı Slavyan Universiteti
İbtidai təhsil kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru
arzumamedova9999@gmail.com

Summary

In the article, the development of inclusive education in higher education institutions and the improvement of its content is explained as a priority issue. The main goal in improving the content of inclusive education is to create conditions for opportunities in higher education institutions, to create an environment that enables equal and accessible high-quality higher education for all, and aims to effectively manage diversity. The article describes ways of organizing inclusive training, organizational management, including the creation of inclusive infrastructure.

Key words: *inclusive education, people with disabilities, inclusive university, content improvement, higher education institutions*

Резюме

В статье совершенствование содержания инклюзивного образования в высших учебных заведениях раскрывается как приоритетная задача. Основной целью улучшения содержания инклюзивного образования является создание условий для возможностей в высших учебных заведениях, создание среды, позволяющей получить равное и доступное высококачественное высшее образование для всех и направленной на эффективное управление многообразием. Также в статье описаны способы организации инклюзивного образования, компоненты инклюзивной компетентности, в том числе создание инклюзивной инфраструктуры.

Ключевые слова: *инклюзивное образование, люди с ограниченными возможностями, инклюзивный университет, совершенствование содержания, высшие учебные заведения*

Giriş. Bu gün Azərbaycanda təhsilin əsas prioritetlərindən biri də inklüziv təhsildir. İnklüziv təhsil hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların ehtiyaclarına uyğun həyata keçirilən təhsil prosesidir. Bu proses sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını təmin edən ən etibarlı vasitədir. Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, orta təhsil məktəblərində təlim prosesi nəzərdə tutulur ki, bunun da xüsusi tələbləri var. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. Onun əsas vəzifəsi məhdud imkanlara malik insanların peşə hazırlığı üçün sərhəd tanımayan mühit yaratmaqdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi, cəmiyyətə daha tez adaptasiyası üçün digər yaşıdları ilə bir yerdə olması daha çox önəmlidir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil problemlərini öyrənmək, əlilliyi olan bir uşağa lazım olan komponentləri özündə cəmləyən inklüziv təhsil haqqında fikir mübadiləsi aparmaq olduqca məsuliyyətli işdir. Ona görə ki, söhbət hər bir uşağın ehtiyacları və digər hallardan asılı olmayaraq öz potensialını tam şəkildə həyata keçirməsi, cəmiyyətə faydası və onun tamhüquqlu üzvü olmaq imkanı əldə edə biləcəyi inklüziv cəmiyyət yaratmaqdan gedir. Bu cür uşaqlara inkişaf etmək imkanı verilməlidir. Xüsusi təhsil bu gün ən vacib və həll olunması gərəkli olan məsələdir. Əlilliyi olan və sağlamlıq imkanları məhdud uşaqların sayı daim artır və bu təhsil sistemində dəyişikliyə səbəb olur. Ölkəmizdəki təhsil humanist xarakter daşıyır, yəni "insan həyatına və sağlamlığına, fərdi hüquq və azadlıqlara, şəxsin sərbəst inkişafına, qarşılıqlı hörmətin, əməksevərliyin, vətəndaşlıq, vətənpərvərlik, məsuliyyət və hüquqi mədəniyyətin inkişafına üstünlük verilir". Belə uşaqların təhsili, onlar üçün xüsusi inkişaf mühitinin yaradılmasını, adi uşaqların xüsusi təhsil standartları çərçivəsində təhsil alması üçün müvafiq şərait və bərabər imkanları təmin etməyi, reabilitasiya, müalicə, təhsil, təlim, inkişaf pozğunluqlarının düzəldilməsi və sosial uyğunlaşmanı təmin edilir. (7)

Hazırda ölkəmizdə müxtəlif inkişaf səviyyələri olan uşaqların bir yerdə oxumaq imkanı vardır. Əlil uşaqlar ictimailəşmə və uyğunlaşma prosesindən keçir və uşaqlar başqalarına hörmət və özünəhörmət anlayışlarını dərk edirlər. İnklüziv təhsilin əhəmiyyəti ondan ibarətdir ki, pedaqoqlar social vəziyyətindən, emosional, fiziki və intellectual inkişafından asılı olmayaraq xüsusi təhsilə ehtiyacı olan uşaqlarla böyü khəvəs və sevgi ilə işləyirlər. Müəllimlər bu uşaqların ehtiyaclarına yönəlmiş psixoloji və pedaqoji texnikalar əsasında onlara şərait yaradırlar.

Son illər bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilə çıxış imkanları genişlənib. Artıq ölkəmizdə fəaliyyət göstərən ali məktəblər də inklüziv təhsilin inkişafına töhfə verməyə çalışırlar, lakin inklüziv təhsilin keyfiyyətinin və onun müasir cəmiyyətin ehtiyac və tələblərinə uyğunlaşdırılmasının real çətinlikləri də mövcuddur. Ölkəmizin bir çox ali təhsil müəssisələrində İnklüziv təhsil mərkəzləri fəaliyyət göstərir. Mərkəzlərdə sağlamlıq imkanları məhdud tələbələrin imtahanlara hazırlaşması üçün hər cür şərait yaradılıb. Tələbələr sağlamlıqlarında müəyyən problemlər olduğuna görə imtahanların keçirildiyi otaqlara getmədən imtahanları mərkəzdə verirlər. İnklüziv mərkəzlərin əsas məqsədi sağlamlıq imkanları məhdud olan tələbələrin təhsil imkanlarının artırılmasından və təhsilə tam inteqrasiya edilməsindən ibarətdir. Mərkəzlərdə görmə məhdudiyyəti olan tələbələr üçün Brayl əlifbasında çap edən printer, müxtəlif yazıdan audiofor-

mata çevirən kompüter proqramları və s. var. Tələbələr istədikləri vaxt gəlib Mərkəzdə dərslərinə və imtahanlara hazırlaşa bilirlər.

Prezident cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nda ali təhsil müəssisələrinin üzərinə bir sıra öhdəliklər qoyulmuşdur:

✓ əlilliyi olan şəxslərin təhsil hüququnun təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi;

✓ onların təhsili üçün maneəsiz mühitin yaradılması;

✓ təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud olan uşaqların ehtiyaclarına uyğunlaşdırılması üçün müvafiq tədbirlər görülməsi;

✓ inklüziv təhsilin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və təkmilləşdirilməsi;

✓ dünyada aktual olan inklüziv təhsil vasitəsilə cəmiyyətə inteqrasiyasını təmin edən bütün amillərin nəzərə alınması. (1)

Bugün hansı ali təhsil müəssisəni inklüziv universitet adlandırmaq olar? Fikrimizcə, fiziki inkişafının xüsusiyyətləri, sağlamlıq vəziyyəti, etnik mənşəyi,dini baxışları və dünyagörüşündən asılı olmayaraq bütün bakalavr və magistr tələbələrinə keyfiyyətli ali təhsil almaq, tədqiqat, mədəni tədbirlər, asudə vaxt və digər fəaliyyət növlərində iştirak etməkimkanını yaradan bir universiteti İnklüziv Universitet adlandırmaq olar. İnklüzivliyi ancaq sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması kimi qəbul etmək olmaz. İnklüzivlik yaşamaq hüququ kimi, təhsil almaq hüququdur. Ali təhsil müəssisələrində tələbələr arasında da çoxsaylı xüsusi təhsil ehtiyacları olan tələbələr mövcuddur. Bunlar əsasən aşağıdakı qruplara bölünürlər:

✓ Təlimdə çətinliyi olan tələbələr;

✓ Başqa millətlərin nümayəndələri olan tələbələr;

✓ Sağlamlıq imkanları məhdud olan tələbələr

Bu bölgü arasında bizim maraq dairəmizi cəlb edən SİM olan tələbələrdir. Sağlamlıq imkanları məhdud şəxslərə verilən düzgün təhsil və onlar üçün yaradılan doğru mühit vasitəsilə bu şəxslər cəmiyyətin həyatında hər kəs kimi iştirak edə bilər, hətta daha faydalı ola bilərlər. Burada əsas məqam onlar üçün uyğun şəraitin yaradılması, mövcud olan potensiallarının üzə çıxarılması və düzgün istiqamətləndirilməsinə imkan tanınmasıdır. Hər bir fərdin şəxsiyyət kimi, vətənə, millətə layiq olan insan kimi formalaşmasında aldığı təhsilin rolu əvəzsizdir. Yəni hər şey təhsil ilə başlayır. SİM olan şəxlər üçün bir sıra təhsilalma forması mövcuddur. Evdə təhsil, stasionar təhsil, inklüziv təhsil. Məncə, bütünlükdə cəmiyyət üçün ən faydalısı inklüziv təhsildir. Belə ki, inklüziv təhsil sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnun təminatına, eyni zamanda cəmiyyətə sağlam düşüncə ilə inteqrasiyasına şərait yaradan və dünyada geniş yayılan bir təhsil təcrübəsidir.

Ali təhsil müəssisələri inklüziv təhsilin məzmununu necə təkmilləşdirə bilər? İnklüziv təhsilin məzmununun təkmilləşdirilməsi mövcud məzmunun yeni tələblərə uyğunlaşdırılması deməkdir. Ali təhsil müəssisələri inklüziv təhsilin təşkilini elə qurmalıdırlar ki, bu istiqamətdə yetişib, gedib işləyəcək gələcək kadrlarımız peşəkar səriştələrə yiyələnmiş olsunlar, öz işlərini yaxşı qurmağı bacarsınlar çünki hal-hazırda ümumitəhsil müəssisələrində çalışan müəllimlərimiz inklüziv təlimin təşkilində bir çox çətinliklər çəkirlər, pedaqoji prosesdə, dərs prosesində inklüzivliyi təmin edə bilmirlər. Eyni zamanda, ən böyük boşluqlardan biri də SİM uşaqların valideynləri ilə işin qurulmasındadır. Buna görə də xüsusilə pedaqoji yönlü ali təhsil müəssisələri İnklüziv sinifdə dərs deyəcək müəllimin inklüziv səriştələliliyini təmin edən yeni innovativ metodikanı işləməlidir. Ali təhsil müəssisələri inklüziv təhsilin məzmunu elə qurulmalıdır ki,inkülziv komponentli müəssisələrdə fəaliyyət göstərəcək müəllim kadrları yeni yanaşmalar və pedaqoji texnologiyalarayiyələnib SİM uşaqlarla iş zamanı uğurlu tətbiqinə zəmin yaratsınlar, həmçinin onları inklüziv təhsilin siyasəti ilə təmin edən prinsiplər və əsaslarla tanış edərək Azərbaycanda gedən təhsil islahatlarına hazır olsunlar.

Nəticə. Bizim üçün “inklüziv təhsil” anlayışı yenidir və inklüziv təhsil haqqında qanunlarda bəzi narahatçılıq doğuran məqamlar vardır. Bunun üçün isə tam orta, ümumi orta, peşə və ali təhsil sistemlərində dəyişikliklər tələb olunur. Lakin beynəlxalq təcrübələrdən mütləq istifadə etmək labüddür. Bu yolla inklüziv təhsil sistemini inkişaf etdirməklə və “hamı üçün cəmiyyət”, hər kəs üçün

“cəmiyyətimizin inkişafı”na öz töhfəmizi verə bilərik. Artıq bu gün əlilliyi olan uşaqlar üçün optimal təhsil şəraitini yaradan təhsil forması tətbiq edilir və bu olduqca təqdirəlayiq haldır. Təqdim edilən tələblər, cəmiyyətə uyğunlaşma, ahəngdar inkişaf etmiş bir şəxsiyyətin formalaşdırılması, inklüziv yanaşma, uşaqların müxtəlif təhsil ehtiyaclarını dərk etməyi və təhsil prosesində daha dolğun iştirak etmək, ictimaiyyətin iştirakı və təhsildə ayrıseçkiliyin aradan qaldırılması yolu ilə xidmətlərin göstərilməsi üçün vacib amillərdən biri olmuşdur.

İnklüziv təhsilin inkişafı ali təhsil müəssisələrinin imicini yüksəldərək, hədəf auditoriyasının şüurunda cəlb olunma ehtimalını artıracaq, həmçinin həmin ali təhsil müəssisəsi üçün xüsusi ehtiyacı olan daha çox tələbə qazandıraraq rəqiblər arasında sıralamasını yüksəldəcək.

İnklüziv təhsilə keçid məsələsinə elmi yanaşma və təhsil zəncirində bütün aidiyyəti qurumların iştirakı zəruri istiqamətlərdir. Ali təhsil müəssisələrində infrastruktur sağlamlıq imkanları məhdud olan tələbələr üçün əlçatan olmalı, girişdən auditoriyaya qədər tələbənin təhlükəsiz hərəkəti təmin edilməli, auditoriyalar bu təhsilə tam uyğunlaşdırılmalıdır. İnklüziv təhsilin keyfiyyətinə nəzarət edilə bilməsi üçün statistik məlumatlar daim yenilənməlidir. Ali təhsil müəssisələri müəllimlərinin ixtisaslaşmasına, müvafiq resursların və vəsaitlərin hazırlanması, infrastrukturun müyəssərliyinin təmin edilməsi, əlilliyi olan şəxslər üçün təhsil prosesində istifadə olunan rəqəmsal texnologiyaların və inklüziv kitabxana xidmətlərinin tətbiq edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, inklüziv təhsil sistemi haqqında düzgün ictimai rəy və fikrin formalaşması istiqamətində müxtəlif səviyyələrdə layihələr həyata keçirməlidir.

Ədəbiyyat

1. “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14.12.2017 tarixli, 3498 nömrəli Sərəncamı.Azərtac 14.12.2017.

2. Aliyeva S. (2017). Inklyuzivnoye obrazovaniye v Azerbaydzhane idyot na ubil. «Exo» (obshestvenno-politicheskoyeobozreniye, 21 dekabrya, 2017). https://ru.echo.az/?p=65788

3. Алехина С.В., Гращенкова Е.Л., Кутепова Е.Н., Муравьева О.А. Москва: 2015 Инклюзивное образование:результаты, опыт и перспективы.

4. David, M. (2014). What really Works in Special and Inclusive Education: Using Evidence-Based Teaching Strategies

5. Dr Peter Grimes Marieke Stevens Arlene dela Cruz Tricia Mercado Kaisa Ligaya Sol Cruz. Bakı 2018 “İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının oxu materialı.

6. Zhernokleyeva A.B. (2015). Inklyuzivnoye obrazovaniye v usloviyax sovremennoy shkolı. https://urok.1sept.ru/articles/652768

7. https://multiurok.ru/files/inkluziv-c-miyy-tin-formalasmasi-v-inkisafinda-ink.html

8. Https://muallim.edu.az/news.php?Id=781

9. https://e-qanun.az/framework/53554

İNKLÜZİV CƏMİYYƏTİN FORMALAŞMASINDA MAARİFLƏNMƏNİN ROLU

Laləzar Məmmədova
Binəqədi rayonu, 328 saylı körpələr evi, uşaq bağçası, tərbiyəçi
qaracaleman@gmail.com

Summary

An important factor in raising the inclusive level of society and education, benefiting from effective world experience, creating a legislative base, raising awareness is an important factor. Creating an appropriate educational infrastructure, forming professional personnel, and strengthening the material and technical base in the formation of an inclusive culture is an urgent topic that concerns everyone. On the way to "inclusive society" and "inclusive education", effective use of mass media has a special place.

Key words: *inclusive, society, equal, education, health*

Резюме

Создание эффективной законодательной базы с использованием мирового опыта, повышение уровня образования и информации является важным фактором повышения инклюзивного уровня общества и образования. Создание соответствующей образовательной инфраструктуры, подготовка профессионального кадрового потенциала, укрепление материально-технической базы – актуальная тема, о которой задумывается каждый в формировании инклюзивной культуры. На пути к «инклюзивному обществу» и «инклюзивному образованию» особое место занимает эффективное использование средств массовой информации.

Ключевые слова: *инклюзивный, общество, равный, образование, здоровье*

Bu gün cəmiyyətdə sağlamlıq imkanları məhdud olan uşaqların təhsilə cəlb olunması, cəmiyyətə adaptasiyası ən çox müzakirə olunan təhsil məsələlərindən biridir. Cəmiyyətdə inklüziv mədəniyyətin formalaşdırılması hər kəsi düşündürən aktual mövzudur. “inklüziv cəmiyyət”, “inklüziv təhsil” ifadələri kooreksiyaedici pedaqoqların, defektoloqların, loqopedlərin, müəllimlərin, bir sözlə, pedoqoji aləmin diqqət yetirdiyi məsələlərdəndir.

Pedaqoji cəmiyyətdə əksəriyyətin fikrinə görə inklüziv təhsil uşaqların cinsi, etnik, dini və mədəni mənşəyindən, sosial-iqtisadi statusundan, əlilliyi olub-olmamasından, qabiliyyətindən və ehtiyaclarından asılı olmayaraq, həmyaşıdları ilə birlikdə yaxınlıqdakı ümumi təhsil müəssisələrində eyni sinifdə təhsilə cəlb olunmasıdır. Başqa sözlə desək, inklüziv təhsil hər bir uşağın təhsil almaq hüququna əsaslanaraq, əlilliyi olmayan və olan bütün uşaqların keyfiyyətli təhsilə çıxışını və seqreqasiya, ayrı-seçkiliyin olmadığı mühitdə bərabər inkişafını təşviq edən təhsil modelidir

Bir tarixi ekskursu bölüşmək istəyirəm. Mən cəmiyyətdəki ayrı-seçkiliyin, mənəvi zorakılığın, hüquqların pozulduğunun nələrə səbəb olduğuna 8 yaşımdan canlı şahidəm. Biz Qarabağdan məcburi köçkün düşmüşdük. Rahat evimiz, çox sevdiyimiz məktəbimiz, gözəl mənzərəli kəndimiz artıq bizdən çox uzaqda idi. Məcburi məskunlaşdığımız rayonda nə yaşadığımızı, nə hiss etdiyimizi önəmsəmədən çoxları bizə sanki keçici xəstəlik kimi baxır, valideyinlər uşaqlarını bizdən qoruyurdular. Özümü o qədər günahkar hiss edirdim ki, elə bil bütün olanlar mənim günahım idi. Bu günahkarlıq hissi məni uzun müddət- məktəbdə, institutda, hətta iş həyatına atıldığım vaxt belə təqib etdi. İnsanlardan, xüsusilə də yaşıdlarımdan utanırdım. Çünki mən məcburi köçkün idim!

Heç kim bu uşaqlar müharibənin ta ortasından uşaqlıqlarını orda - doğulduqları yerdə “dəfn edib” gəliblər - deyə düşünmədi. Kimsə bizə güzəştə getmədi. Və mən o zaman anladım mühitin ədalətsizliyini, insanların duyğudan, empatiya hissindən uzaq olduğunu.

Etiraf edim ki, bu hiss məni Qarabağ azad olana qədər buraxmadı.İndi məktəbəqədər müəssisədə tərbiyəçi kimi çalışıram. Qarabağda şəhid düşən uşaqlığımı körpə fidanlarla birgə yenidən yaşayıram.

30 ildən çox zaman keçib o illərin üzərindən. Amma bu illər ərzində həmin insanların yaddaşında, psixologiyasında yaşananlarin izi silinmədi. Yaşa dolduqca dərk elədim ki, taleyi mənim kimi olan yaşıdlarım bu illər ərzində yaşadıqlarına məlhəm ola biləcək bir cəmiyyət arzusunda olublar.

Bu gün cəmiyyətimizdə öz iradəsindən asılı olmayaraq, taleyin hökmü ilə sağlamlıq imkanları məhdud olan minlərlə insan var. Yaşadığımız cəmiyyət onların cəmiyyətə adaptasiya olmaları üçün imkanlara malikdirmi? Cavab vermək çətindir.

Dövlətin sağlamlıq imkanları məhdud insanlar üçün qəbul etdiyi qanunvericilik bazası mövcuddur. Əsas məsələ bu bazadan necə istifadə etməkdir. “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” [1]sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı məqsəd götürüb. 2023-cü ilin fevral ayında təsdiqlənən “İnklüziv təhsilin təşkili Qaydası” adlı sənəd isə ümumi təhsil müəssisələrində inklüziv təhsilin təşkili ilə bağlı məsələləri tənzimləyir.

Lakin görülən işləri qiymətləndirmək, eləcə də müvafiq düzəlişləri zamanlı həyata keçirmək məqsədilə məktəblərdə aparılan mütəmadi monitorinqlər əsnasında məktəblərin inklüziv təhsilin təşkilində bəzi çətinliklərlə üzləşdiyi məlum olur. Bu əsasda, ehtiyacların müəyyənləşdirilməsi və müvafiq dəstəyin təmin edilməsi mütləqdir. Həmçinin daha çox əlilliyi olan uşaqların digər şəxslərlə bərabər səviyyədə keyfiyyətli təhsil almaq hüququnu və bu təhsil üçün maneəsiz mühitin təmin edilməsi ehtiyacı inklüziv təhsil təşkil olunan ümumtəhsil müəssisələrinin və müvafiq olaraq, bu siniflərdə təhsil

alacaq uşaqların sayının artırılmasına zəmin yaradır. Bu baxımdan, daha çox əlilliyi olan uşaq üçün keyfiyyətli təhsili əlçatan etmək məqsədilə 2023/2024-cü tədris ilində yeni regionlar daxil olmaqla əlavə 16 ümumi təhsil müəssisəsinin inklüziv təhsilə cəlb olunması planlaşdırılır. Bununla da inklüziv təhsil ölkə üzrə 13 regionun 38 məktəbini əhatə edəcək.

Hazırda ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 7 xüsusi məktəb, 9 internat məktəbdə 6 minə yaxın uşaq təhsil alır. Nəzərə alsaq ki, ölkəmizdə son statistik məlumata əsasən yaşı 18-dək sağlamlıq imkanı məhdud olan 72 min uşaq var, bu sahədə görüləcək işlərin nə qədər aktual olduğu məlum olar.

Dövlət Proqramı çərçivəsində inklüziv siniflərin effektiv idarəolunması üçün pedaqoqlar, defektoloqlar, loqopedlər hazırlanır, siniflərdə müxtəlif avadanlıqar quraşdırılır. [1] Proqramın məqsədlərindən biri də inklüziv məktəb mədəniyyəti formalaşdırmaqdır**.** İnklüziv məktəb mədəniyyəti bütün maraqlı tərəflərin münasibətinin dəyişməsini, eləcə də inklüziv davranışı gücləndirən nizamnamələrin işlənib hazırlanmasını, vərdişlərin formalaşdırılmasını tələb edir.

İnklüziv məktəbdə:

- hər kəsin fərqli olması faktı qəbul edilir
- öyrənməni dəstəkləyən amillər mövcuddur və onlardan düzgün istifadə olunur
- fərqli öyrənmə təcrübələri hər bir şagird üzərində tətbiq olunur
- yenilikçi və yaradıcı bir mühit var
- fərdi yanaşma prinsipləri mövcuddur
- hər kəs üçün təhlükəsiz mühit var
- məktəb icmasının bütün üzvlərinin iştirakına hörmət edən və hər kəsə dəyər verən mühit var
- siniflər hər bir şagirdin ehtiyaclarını qarşılayacaq şəkildə tərtib edilir.

Cəmiyyətin, təhsilin inklüziv səviyyəsinin yüksəldilməsində, əlçatanlığında maariflənmənin, məlumatlılığın artırılması mühüm amildir. Ən yaxşı qanunlar, qərarlar, qaydalar qəbul etmək olar. Lakin cəmiyyət bu qaydalardan, onların tətbiq olmalarından xəbərsiz qalarsa, səmərəli nəticə almaq mümkün deyildir. Qaydalar yalnız məktəb çərçivəsində qalmamalı, həm pedaqoji mətbuatda, həm kütləvi informasiya vasitələrində geniş maarifləndirici iş aparılmalıdır. Cəmiyyət nə qədər bu qaydalardan xəbərsiz olarsa, tolerant və inklüziv cəmiyyətə bir o qədər uzaq olarıq. Toplumda yetəri qədər maarifləndirmə aparılmadığı üçün hətta sağlamlıq imkanları məhdud uşaqlardan öz valideyinləri də imtina edir. Onlar öz övladlarını dost- tanış, qohum- qonşu arasına çıxarmağa utanırlar. Nə qədər kobud səslənsə də, bunun bir adı var- cahillik.

Xatırladım ki, dünya şöhrətli bəstəkarlar Bethoven, Motsart, alim fizik İsaak Nyuton, Nobel mükafatı laureatı A. Eynşteyn autizm sindromlu olublar.

Gəlin, mövqeyimizi, yanaşma tərzimizi dəyişək. Kim bilir xor gördüyümüz bu insanlar arasında, bəlkə də, Bethovenlər, Motsartlar, Nyutonlar və daha kimlər var.

Ədəbiyyat

1. “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”

2. Məktəblərdə inkluziya mədəniyyətinin formalaşdırılması (metodik vəsait), Bakı 2022.

3. Nailə Ömərova, Həbibə Nəzirova, Azərbaycanda inklüziv təhsil təcrübəsi ”Azərbaycan müəllimi” 8 sentyabr 2023.

HİPERAKTİV UŞAQLARDA DİQQƏTİN POZULMASI

Nübar Muxtarova
Bakı Dövlət Universitetinin professoru

Summary

This thesis deals with losing concentration on hyperactive children, its pedagogical problems, making difficulties in teaching, common characteristic features of hyperactivity, creating impulsiveness of inattention, deficiency of attention and others.

Потеря внимания к гиперактивным детям.

Key words: *Attention, hyperactivity, adaptation, criterion, activity, impulsivity.*

Резюме

В данной диссертации рассматриваются потеря концентрации внимания у гиперактивных детей, ее педагогические проблемы, затруднения в обучении, общие характерные черты гиперактивности, формирование импульсивности, невнимательности, дефицита внимания и другие.

Ключевые слова: *Внимание, гиперактивность, адаптация, критерий, активность, импульсивность*

L.S.Viqotski qeyd edirdi ki, hər bir geriliyin inkişaf üçün əlverişli şəraitin təzahür dərəcəsinin öz spesifikası vardır. İnsan cəmiyyəti öz inkişafı boyu fiziki və fiziki keyfiyyətlərində müəyyən çatışmazlığı olan insanlara diqqətsizlik olmayıb. Müəyyən çatışmazlıqları olan uşaqları, onların gerilliyinin olmasını görməmək olmur. Bu gerilik sırasında hiperaktivlik də özünü təzahür etdirir.(5)

Diqqətin pozulması və hiperaktivlik sindromu - daimi diqqətsizlik, hiperaktivlik, impulsivlyi əks etdirən vəziyyətdir. Bu problemi uşaqlıq dövründən başlayır və böyüdükdən sonra da bu vəziyyət qala bilər. Hiperaktivlik oğlanlarda qızlara nisbətən daha çox rast gəlinir. Bu simptomlar müxtəlif xəstələrdə fərqli ola bilər. Lakin onların hər biri üçün aktivliyi bu və ya digər səviyyədə nəzarətdə saxlamaq (hiperaktivlik), özlərini cilovlamaq (impulsivlik), diqqəti toplamaq (diqqət yayqınlığı) çətin olur

DDHS-nun müasir təsnifata əsasən əsas diaqnostik kriteriyaları aşağıdakılardır:

-normal yaş xüsusiyyətlərinə uyğun olmayan və yetərli adaptasiya imkanlarının olmaması ilə pozulması, hiperaktivlik və impulsivlik; şərtlənən diqqətin

- 7 yaşa qədər olan dövrdə simptomların təzahürü və inkişafı;

- uşağın pis adaptasiyasından xəbər verən simptomların minimum 6 ay ərzində özünü biruzə verməsi;

- intellektual səviyyəsi normaya uyğun olsa da, müxtəlif situasiyalara adaptasiya oluna bilməməsi.

Aktivlik normada və ya normadan aşağı olduğu hallarda ancaq diqqət defisitliyindən (DDS) danışılır. Yaş artdıqca hiperaktivlik bir qayda olaraq azalır. DDHS-dan əziyyət çəkən uşaqlarda həm evdə, həm məktəbdə, əsasən də öz yaşıdları ilə ünsiyyətdə problemlər yaranır. DDHS nəzarətsiz qaldıqda sonradan bu xəstəlik nəinki təhsilə və İşə mənfi təsir edir, həmçinin sosial və emosional inkişafa zərər verərək, narkotiklərə və asosial davranışa meyllilik yaradır DDHS müxtəlif xəstələrdə müxtəlif cür cərəyan edir, lakin hər birində diqqətsizlik, hiperaktivlik və im pulsivlik təzalıür edir.

Diqqəti yayğın olan insana hər hansı bir əşyaya fikrini toplamaq çətin olur. Bir tapşırığa neçə dəqiqə vaxt sərf etdikdə darıxırlar. Şüurlu olaraq diqqətlərini toplaya bilmirlər. Hər bir işi axıra saxlayır, öhdəlikləri yerinə yetirmir, bir yerdə oturmur, bir neçə işi eyni zamanda başlayaraq heç birini də sona çatdırmırlar.

Hiperaktiv insanlar daim hərəkətdə olurlar. Onlar sakit dura bilmirlər, parta arxasında otura bilməyərək sinif otağında gəzişir, əlini və ya ayağını əsəbi halda yelləyir, qələmlə stolun üstünə taqqıladırlar. Daim həyəcanlı olurlar.

İmpulsivli insanlar nə isə etməmişdən öncə düşünə bilmirlər. Sual verdikdə ağıllarına gələn ilk sözü düşünmədən deyirlər. Hər hansı bir işin nəticəsini düşünmədən hərəkət edirlər.

Çoxsaylı tədqiqatlara baxmayaraq, diqqət defisitliyinin etiologiya və patogenezi (səbəbləri və inkişaf mexanizmi) tam olaraq aydınlaşdırılmamışdır. Bu gün məlum olan neyromorfoloji, genetik, neyrofizioloji, biokimyəvi, sosial-psixoloji konsepsiyalar sindromun inkişaf mexa nizmlərinin izahını verməyə çalışır.

DDHS-nun tədqiqinin müasir mərhələsində sindro mun inkişafında 3 qrup amil dominantlıq edir:

genetik amillər; hamiləlik və doğuş zamanı MSS-nin zədələnməsi; ailədaxili amillərin neqativ təsiri.

Genetik amilin xarakterik təzahürü bir ailənin bir neçə nəslində və adətən kişi cinsindən olan nümayəndələr arasında müşahidə edilir. Bioloji amillərin təsiri kiçik yaş dövründə vacib rol oynayır. Sonradan sosial-psixoloji amillərin, xüsusilə də ailədaxili münasibətlərin rolu artır. Hamiləlik dövründə və doğuş zamanı MSS-nin erkən zədələnməsinin səbəbi düzgün olmayan qidalanma, qurğuşunla zəhərlənmə, beynin üzvi zədələnməsi, uşaqlıqdaxili qüsurlar, prenatal inkişaf dövründə dölün narkotiklərlə zəhərlənməsi, dölün inkişaf dövründə və ya doğuş prosesində oksigen çatışmazlığı ola bilər. Təlim çətinlikləri simptomu olan bir çox uşaqlar çətin doğuşla dünyaya gəlmişlər, vaxtından əvvəl doğulan uşaqlar üçün isə bu simptomlar adidir. Tədqiqatların nəticələrinə görə təlimdə və davranışda yaranan problemlərin ən geniş yayılmış səbəbi onurğa beyninin boyun şöbəsinin doğuş zamanı travmasıdır. Bu travma vaxtında diaqnozlaşdırılmadığından ontogenezdə baş beyinin formalaşmaması və ya defisitarlığı sindromunun yaranmasına gətirib çıxarır. Hal-hazırda bir çox ölkələrin mütəxəssisləri tərəfindən DDHS olan uşaqların neyrofizioloji, neyropsixoloji və bioloji tədqiqi aparılır. Elektroensefaloqrafik tədqiqatlar baş beyinin bioelektrik aktivliyində baş verən dəyişiklikləri, sol yarımkürənin struktur-funksional təşkilinin pozulmasını, diqqətin tənzimlənməsi sisteminin inkişafsızlığını, qabıq ləngiməsi sisteminin inkişafsızlığını və s. üzə çıxarır. Hiperaktiv uşaqların neyropsixoloji tədqiqi onların aşağı səviyyəli psixi statusunu, yüksək tükənməzliklərini, oxu və yazıda çətinlikləri üzə çıxarır.

Biz hamımız belə dəcəlləri özlərinə dinclik vermə yənləri, bir saniyə yerində dinc oturmayanları, özünün hərəkət dinamikasından doymayanları tanıyırıq. Valideynlər və peda qoqlar həddindən artıq fəal uşağın müvəqqəti də olsa mənasız hərəkətlərinə son qoymaq üçün hər bir şeydən istifadə edirlər Lakin elə təəssürat yaranır ki, bu uşaqların "bədənlərinə bitda raşıb". Onlar həddindən artıq qərarsız və azğın hərəkətli olurlar. Onlarda sanki tormoz yoxdur. Onlar həmişə "startda durmuş idmançıya bənzəyərək istənilən an qəfil hərəkət etməyə hazırdırlar. Onlara göstərilən cəzaların nəticəsi olmur. Tez və ya gec bəzi valideynlər, müəllimlər məcbur olaraq tibb işçilərinə, psixoloqlara olan uşaqların, tam şəxsi inkişafına aiddir. (3) Uşaqların daima öz davranışlarını dəyişməyə cəhd göstərmələri ilə hər gün qazandıqıları müvəffəqiyyətsizliklərin arasında olan böyük sərhəd onlara dəyərsizlik və günahkarlıq hisslərini qazandırır.

Hiperaktiv uşaqlarda genişlənən əzab ağırlıq nəticəsində artıq qazanılmış həyəcanın daha da dərinləşməsinə səbəb olur. Çox nadir hallarda öz bədbəxtçiliyi ilə nə isə qazanır: öz yoldaşları üçün qərarsız uşaq klouna çevrilir. Əgər o ətrafdakıların gülüşünü qazana bilirlərsə, bu onların mənliyini dəyərləndirir. Digər uşaqlar isə təəssüflər olsun ki, sakitliyi pozan, bütün pis vəziyyətlərin günahkarlarına çevrilirlər. Affektiv qərarsızlıq və qıcıqlılıq nəzarətsiz emosional fasilələrə və aqressiv affektiv hərəkətlərə gətirib çıxarır. Həddindən artıq aktivlik və davranışda impulsivlilik təəssüflər olsun ki, təlimdə mənfi hallara gətirib çıxarır. Belə ki, hiperaktiv uşaqlar çox çətinliklə öz hərəkət impulslarını boğa bilmir, buna görə də təlimə aid məlumatlara öz diqqətlərini yönəltməyi bacarmırlar. Daima hərəkətdə olan adam, görmə və akustik stimulların qavranılması üçün diqqətini cəmləyə bilməz. Bu uşaqlarda perseptiv istiqamətlənmə və hərəkətlərin planlaşdırılması, yəni pozulmuş təfəkkür ilə hərəkət arasında olan fasilə yox səviyyəsindədir. Onların hər işi tezliklə həll olunmalıdır. Hiperaktiv uşaqların hərəkətləri xaoslu və kəskindir. Onlarda enerji bolluğu qeyd olunur. Ehtiyyat güc intensiv surətdə elə xərclənir ki, qısa müddət ərzində uşaq tər-suyun içində olur. Bu uşaqlarda hər şey qarmaqarışıq və səsli-küylü olur.

Hiperaktiv uşaqlarla əlaqədar müəyyən təhlükə var. Bu uşaqlar təkrar olunan primitiv-şablon hərəkətlərin stereotipləri səviyyəsində ilişə bilirlər. Bu da motorika bacarıqlarının tərtib edilməsinə və onların mənimsənilməsinə mane olacaqdır. Öz yaşıdları ilə müqayisədə hiperaktiv uşaqlarda böyük və ya kiçik məkandan asılı olmayaraq hərəkət təcrübəsinin ehtiyatı çox azdır. Şayt erkən uşaq yaşlarında hərəkət aktivliyinin inkişafı üzrə yazdığı dissertasiyada göstərmişdir ki, ümumi motorikanın inkişafına optimal təsir üçün iki şərt vacibdir. 1. Uşaq üçün yetərincə oyun məkanı olmalıdır ki, o, dərə-təpəliyə imitasiya etsin, 2. Uşaqlara tərbiyəçinin maneəsi olmadan azad surətdə bu məkanın vasitələrindən azad istifadə etməyə şərait yaratmaq lazımdır. Bütün bunlar təşəbbüskarlığın və özünü təyin etmənin maneəsiz inkişaf şərtləridir.

Kiçik uşaqları müşahidə edərkən müəyyən olunmuşdur ki, artıq bu yaşlarda temperament fərqi uşaqlarda özünü göstərir. Bu fərq bu və ya digər vəziyyətlərdə müxtəlif motor davranış tiplərini şərtləndirir. Əslində hərəkət fəallığı üçün iki diametral əks tendensiyaları ayırd edirlər. Bəzi uşaqlar özlərini təmkinli ehtiyatlı aparırlar. Digər qrupun uşaqları isə əksinə çox hərəkətli, canlı, məqsədəyönümlü, cəld və hiperaktivdirlər. Nə bu nə də digər qrupun uşaqlarına hiperaktivlik xarakterik deyil. Onlar gördükləri işdən ləzzət almırlar, onların hərəkətləri məqsədəyönlükdən və cəldlikdən uzaqdır. Daima dəyişən hərəkət impulsları əzab və əziyyət təəssüratını yaradır. Onlarda öz yaşıdlarından fərqli olaraq heç bir həyat sevinci, özünə inam olmur. Hiperaktiv uşaqların motor dairəsində böhran dövrləri müşahidə oluna bilər. Bu da əsəb narahatçılığı ilə xarakterizə olunur ki, uşağın hərəkət azadlığını məhdudlaşdırır İlk günlər məktəb məşğələlərində məcburi hərəkətsizlik bir çox uşaqlarda sinir reaksiyalarına səbəb olur. Bu yaşda uşaqlar öz hərəki impulslarına tam nəzarət edə bilmirlər. (8) Bir çox uşaqların beyinində qıcıqlanma prosesi tormozlama prosesini üstələyir. Belə disbalans daha çox yüksək motor impulsivliliyinə malik uşaqlara xarakterikdir.

Ədəbiyyat

1. Ellen Notbohm. Hər bir autizmli uşağın bilməyinizi istədiyi on fakt. (ingilis dilindən tərcüməçi: Pərviz)
2. Kəmalə Əliyeva Autizm və təlim Bakı 2015.
3. Minarə Məmmədova . Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla psixokorreksiya işinin təşkili B. 2016.
4. Lalə İsmayılova Autizm . Ev şəraitində təlim Bakı 1917.
5. Выготский Л.С Рсихология.М Изд-во Ексмо-Рресс 2000.
6. Talıblı. Bakı, TEAS Press Nəşriyyat evi, 2019.
7. Zeynalova N., İnklüziv təhsilin pedaqogikası. Bakı, Elm və təhsil 2021.
8. Minarə Məmmədova. Hipeaktiv uşaqlarda diqqətin pozulması. Bakı, ADPU, 2017.

İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ KEÇİDDƏ AİLƏ-MƏKTƏB-CƏMİYYƏT ƏMƏKDAŞLIĞININ SOSİAL-PEDAQOJİ ƏHƏMİYYƏTİ

Elza Mollayeva
Bakı Dövlət Universiteti
elzamollayeva@rambler.ru

Summary

Creating an inclusive society is one of the priorities of the modern era in terms of improving democratic institutions. In modern times, inclusion has become a reality and is applied in many countries, including Azerbaijan. Significant reforms are being carried out in the education system related to the education and upbringing of inclusive children. However, there are a number of shortcomings in this direction. So, families with inclusive children try to isolate them from the society and keep their children in a closed environment, avoiding social pressure, due to the lack of pedagogical education. Thus, the result of the school's work with inclusive children is that parents are indifferent to this problem, and their attitude in terms of public opinion slows down the achievements in this field. As a result of the cooperation of parents and social workers, social pedagogues and social psychologists, as a result of their regular work with families, it is possible to radically change the attitude of both parents and the society as a whole towards inclusive children, and to cultivate tolerance and tolerance towards these people.

Key words: *inclusive society, inclusive education, children with special needs, inclusive education, democratic institutions*

Резюме

Создание инклюзивного общества является одним из приоритетов современной эпохи с точки зрения совершенствования демократических институтов. В наше время инклюзивность стала реальностью и применяется во многих странах, в том числе и в Азербайджане. В системе образования проводятся значительные реформы, связанные с обучением и воспитанием инклюзивных детей. Однако в этом направлении имеется ряд недостатков. Так, семьи, в которых есть инклюзивные дети, из-за отсутствия педагогического образования стараются изолировать их от общества и держать детей в закрытой среде, избегая социального давления. Таким образом, результатом работы школы с инклюзивными детьми является безразличие родителей к этой проблеме, а их отношение с точки зрения общественного мнения тормозит достижения в этой области. В результате сотрудничества родителей и социальных

работников, социальных педагогов и социальных психологов, в результате их регулярной работы с семьями, можно радикально изменить отношение как родителей, так и общества в целом к инклюзивным детям, и воспитывать толерантность и толерантность по отношению к этим людям.

Ключевые слова: *инклюзивное общество, инклюзивное образование, дети с особыми*

Müasir dövrdə inklüziv təhsil vacib sosial funksiya ilə çıxış etməklə cəmiyyətin demokratik təsisatlarının inkişafına kömək edir. Məhz bu təhsil vasitəsilə tədricən də olsa cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara (insanlara) münasibət yaxşı mənada dəyişir və ətrafdakılar anlayırlar ki, belə problemi olan insanlara bərabər imkanlar və bərabər hüquqların verilməsi kontekstində yanaşma zamanın zərurəti kimi ortaya çıxır. İnklüziv təhsilin həyata keçirilməsində bir sıra çətinliklər özünü göstərir ki, onların arasında bu sahədə peşəkar mütəxəssislərin hazırlanması ilə bərabər, bu prosesə ailənin, valideynlərin cəlb edilməsi prioritet məsələlər kimi qarşıda durur. Cünki, hansı təhsil sistemi olursa olsun əgər ona valideyn dəstəyi yoxdursa sonda tənəzzülə uğraması labüd olur. Bu mənada X.Şternin fikirləri yerinə düşür: «Hər bir təhsil sistemi, mükəmməlliyindən asılı olmayaraq, valideynlərin laqeyidliliyi və müxalifətçiliyi qarşısında acizdir».

İnklüziv cəmiyyətin yaradılması demokratik təsisatların təkmilləşdirilməsi baxımından müasir dövrün əsas məsələlərindən biridir. İnklüziv cəmiyyət bütün insanlara psixofiziki imkanlarından, cinsindən, yaşından, etnik və dini mənsubiyyətindən asılı olmayaraq tam və bərabərhüquqlu olmağa, ictimai həyatda iştirak etməyə imkan yaradır. Müasir dövrdə inklüziya reallığa çevrilərək bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da tətbiq olunur. Təhsil sistemində inklüziv uşaqların təlim və tərbiyəsilə bağlı əhəmiyyətli islahatlar keçirilir. Ancaq bu istiqamətdə bir sıra çatışmazlıqlar da özünü göstərir. Belə ki, inklüziv uşaqları olan ailələrlə pedaqoji maarifləndirmə işinin hələ də lazımi səviyyədə olmaması üzündən, onları cəmiyyətdən təcrid etməyə, ictimai təzyiqdən çəkinərək uşaqlarını qapalı mühitdə saxlamağa çalışırlar. Beləliklə də, məktəbin inklüziv uşaqlarla işinin səmərəsi valideynlərin bu problemə laqeyd və ictimai rəy baxımından münasibətləri bu sahədə əldə ediləcək uğurları ləngidir. Bunun üçün inklüziv uşaqlarla bərabər, onların valideynləri ilə də sosial-pedaqoji iş aparmaq, onlara öz uşaqlarının spesifik xüsusiyyətləri, inkişaf dinamikası, onlara qarşı tolerant olmaqla bağlı maarifləndirmə işi aparılmalıdır. Çünki ailə uşağın ilk düşdüyü mühit və vaxtını daha çox keçirdiyi məkandır. Valideynlərlə sosial işçilərin, sosial pedaqoq və sosial psixoloqların əməkdaşlığı, onların ailələrlə müntəzəm apardığı iş nəticəsində həm valideyinlərin, həm də bütövlükdə cəmiyyətin inklüziv uşaqlara münasibətini köklü şəkildə dəyişmək, insanlarda bu şəxslərə qarşı dözümlülük, tolerantlıq tərbiyə etmək olar. Eyni zamanda, inklüziv uşaqları olan ailələr arasında əlaqə yaratmaqla, onların təcrübə mübadiləsinə, əməkdaşlığına nail olmaq zəruridir.

Ailə cəmiyyətin özəyini təşkil edir və bu baxımdan ailənin inklüziv uşaqlara tolerant münasibəti ilkin yerdə durur. Həm valideynlər, həm də cəmiyyət bu uşaqları özünün ayrılmaz hissəsi kimi qəbul etməlidir.

Ailə ilə cəmiyyətin əməkdaşlığına bir sıra amillərin təsiri və bu təsirlə yaranan çətinliklər inklüziv təhsil sahəsində nəzərə alınmalıdır:

1.Bir çox hallarda sağlamlıq imkanları məhdud uşaqların valideynlərini pedaqoji prosesdə iştirak etməyə cəlb etmək çətin olur. Onlara elə gəlir ki, öz uşaqlarının sosial-pedaqoji istiqamətdə problemləri ilə tanış olmaq üçün valideyn iclaslarında iştirak etmək yetərlidir. Bəzi valideynlər isə müəllimlə və məktəblə uşaqları ilə sinif arasında böhranlı vəziyyət yarandığı halda əlaqə saxlamağı düzgün hesab edirlər. Ancaq bu valideynlər içərisində bütün məsuliyyəti məktəbin üzərinə yükləyən valideynlər də az deyil, belə ki, onlar uşaqlarının tərbiyə və təliminə məktəbin cavabdehlik daşımasını irəli sürməklə özlərini bu prosesdən kənara çəkirlər.

2.İnklüziv təhsillə bağlı ailələrin üzləşdiyi problemlərdən biri də sağlamlıq imkanları məhdud uşaqlar ilə bir sinifdə oxuyan normal uşaqların valideynlərinin inklüziv təhsilə neqativ münasibətidir. Belə valideynlər mərhəmət hissindən uzaq, ancaq öz övladının təlim-tərbiyəsi ilə maraqlanan, ətrafda baş verən hadisələrə laqeyd münasibət bəsləyən, sağlamlıq imkanları məhdud uşaqların ən kiçik problemini belə böyüdən və prosesləri mürəkkəbləşdirən valideynlərdir.

3.Bu çətinliklər sırasında məktəblərin də rolunu inkar etmək olmaz, belə ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla və onların valideynləri ilə işi bəzi məktəblər əlavə yük kimi qəbul edirlər. Nəticədə məktəb-ailə-cəmiyyət bağlılığı pozulur.

Valideynlərin sağlamlıq imkanları məhdud uşaqlarına münasibətlərinin psixoloji çalarları da inklüziv təhsili mürəkkəbləşdirən amillərdir. Belə valideynlərin psixoloji köməyə daha çox ehtiyaclar vardır və İ.V. Karpenkovanın fikrinə görə, (Карпенкова И.В. 2001.s.124) «çox vaxt valideyinlər özləri də, onların yaxınları da bunu dərk etmirlər».

A.İ.Taşeva (Тащева А.И. 1998) apardığı tədqiqatlardan sonra sağlamlıq imkanları məhdud uşaqların valideynlərində bir sıra psixoloji xüsusiyyətlərin daha qabarıq nəzərə çarpmasını qeyd edir ki, bu təsnifata da bunlar daxildir: uşağının xəstəliyi ilə bağlı yaranan xroniki stress; narahatlıq, yüksək həyəcan, praktik olmaq,düşüncə konservantlığı; zəiflik, özünəqapanma, sosial hürkəklik, şübhəlilik; özünəqiymətin aşağı olması.

A.İ.Taşevaya görə (Тащева А.И. 1998.s.67), xüsusi qayğıya ehtiyacı olan uşaqlarına daim qulluq edən valideyinlər həmişə bu hissləri keçirirlər:

-xəstə qarşısında günahkarlıq hissi;

-aylarla keçməyən nevrotik yorğunluq;

-daxili boşluq hissi və qıcıqlanma və s.

E.A.Ekjanova (Екжанова Е.А. 1998. s.156) 6-18 yaş arası sağlamlıq imkanları məhdud uşaqları olan 420 ailə ilə apardığı sorgu nəticəsində uşağa və onun problemlərinə münasibətə görə valideyinləri üç kateqoriyaya bölmüşdür:

Birinci kateqoriyaya daxil olan ailələrdəki valideynlər uşağın problemlərinə adekvat cavab verən, tam ailələrdir ki, bu ailələrdə ailədaxili münasibətlərdə xeyirxahlıq, emosional dolğunluq hökm sürür. Belə valideynlər ünsiyyətə açıq olur, bu cür problemi olan ailələrə hər an kömək etməyə hazır olurlar.

İkinci kateqoriyaya aid olan ailələr uşağın problemlərindən çaşqınlıq hiss edir, buradakı valideynlər üçün ətrafdakı ailələrlə ünsiyyətdən qaçmaq və onların uşaqlarının normal uşaqlarla ünsiyyətinin heç bir müsbət nəticəsinə inanmamaq, öz uşağının nə vaxtsa pozitiv inkişafına inamın olmaması xarakterikdir.

Üçüncü kateqoriyaya daxil olan ailələr həm öz uşağına, həm də onun problemlərinə mənfi münasibət bəsləyən ailələrdir ki, buradakı valideynlər problemi başqalarının üzərinə atmaq və uşağın ehtiyaclarına fikir verməməklə digər kateqoriyalardan fərqlənirlər.

Bəs inklüziv mühitin yaradılması və onun daha da təkmilləşdirilməsi üçün hansı tədbirlərin həyata keçirilməsi vacibdir?

Mütəxəssislərin fikrincə, 1. « təhsil müəssisələrinin işçiləri ailələrin və cəmiyyətin diqqətini sosial və təhsil inklüzisiyasına cəlb etməlidir. İlk növbədə, məktəb inklüziv təhsil formasına aid layihələr hazırlayıb həyata keçirməlidir, məsələn, seminarlar və s. Mütləq valideynlər bu proyektlərin iştirakçısı, lazım gələrsə tərtibatçısı olmalıdır» (Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi, 2016. s.78).

2. Məktəb ilə ailə arasındakı əməkdaşlığın yaradılmasında və inkişaf etdirilməsində valideyn komitələrinin və müəyyən birliklərin rolundan istifadə edilməlidir. Məktəb onların fəaliyyətini ailə ilə məktəb arasındakı əməkdaşlığın daha fəal və dinamik struktura çevrilməsinə istiqamətləndirməlidir.

3. İnklüziv təhsil mühitinin yaradılması və onun daha da inkişaf etdirilməsi üçün məktəb bu sahəyə aid problemlərə həsr edilmiş mövzuların müzakirəsini, valideyn iclaslarını keçirməli və buraya icra orqanalarının nümayəndələrini də dəvət etməlidirlər. Bu müzakirələrdə valideyn-müəllim əməkdaşlığı aparıcı rola malik olmalıdır.

4. İnklüziv məktəblərin yerləşdiyi bölgələrdə yerli təsərrüfat subyektləri və sahibkarlar təlim mühitinin, məktəb həyatının sağlamlıq imkanları məhdud uşaqlar üçün də əlçatan edilməsində fəal iştirak edə bilərlər. Məktəb belə subyektlərlə əlaqə saxlayıb onlara öz ehtiyacları haqqında məlumat verməlidir. Bu əməkdaşlıq hər iki tərəf üçün mənəvi baxımdan əhəmiyyətlidir.

5. Cəmiyyətin demokratik istiqamətdə inkişafının əsas göstəricilərindən biri olan inklüziv təhsilin inkişafı üçün maddi-texniki bazanın yaralması zəruri şərtdir. Maddi-texniki baza və resurs mərkəzi həm xüsusi qayğıya ehtiyacı olan uşaqlara, həm də valideynlərə dəstək olmaq, onlara fəaliyyət üçün əlverişli şəraitin yaradılması baxımından vacibdir.

İnklüziv təhsildə ailə-məktəb-cəmiyyət əməkdaşlığına nail olmaq üçün bütövlükdə cəmiyyətin diqqətini inklüziv təhsilə yönəltmək, cəmiyyətdə bu istiqamətdə müntəzəm olaraq maariflənmə aparmaq lazımdır. Bir məqamı da xüsusilə vurğulamaq lazımdır ki, inklüziv cəmiyyətin qarşısında duran vəzifələrdən ən əsası sağlamlıq imkanları məhdud uşaqların özlərini təkcə mikromühit olan məktəbdə

deyil, eyni zamanda makromühitdə-cəmiyyətdə də lazımlı, onun həyatında fəal iştirak edə bilən bərabərhüquqlu vətəndaş kimi hiss etməsidir. « Təəssüf ki, bəzən hətta valideynlər belə sağlamlıq imkanları məhdud uşaqlara qarşı ayrı-seçkilik nümayiş etdirilər. Buna görə də məktəb geniş maarifləndirmə işləri aparmalı, valideynləri və ictimaiyyəti sosial və təhsil inklüziyası barəsində məlumatlandırmalıdır» (Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi, 2016.s.91).

Ailə-məktəb-cəmiyyətin inklüziv təhsil sahəsində uğurlarının əldə edilməsi və onların daha da genişləndirilməsi üçün bu sahədə zəngin təcrübəyə malik insanların öz təcrübələrini cəmiyyətlə bölüşməsi, kütləvi informasiya vasitələrində inklüziv təhsilin mahiyyəti və praktik tərəfləri ilə bağlı video və çap materiallarının nümayişi, cətinliklərin öhdəsindən gəlmək üçün birlikdə çıxış yollarının axtarılıb tapılması prioritet məsələlərdəndir.

Ədəbiyyat

1. Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi(2016). Bakı, «TUNCAY 12», MMC.

2. Екжанова Е.А.(1998). Социально-педагогическая работа в проблемных семьях с разными типами внутрисемейного взаимодействия.// Школа здоровья. Т.5.№3-4.с.199-203.

3. Карпенкова И.В. (2010). Ребенок с нарушениями в развитиив семье и социуме: по разные ли мы стороны?// Социальный конфликт.№1.с.82-86.

4. Тащева А.И. (1998). Психологическая реабилитация семей с детьми-инвалидами.// Вестник психосоциальной и коррекционно-реабилитационной работы.№3.с.17-28.

IMPACT OF ARTIFICIAL INTELLIGENCE ON DEVELOPMENT OF INCLUSIVE EDUCATION

Mudasir Ali
PhD student in Education Department at Khazar University
Mudasir.ali@khazar.org

Summary

Applications of artificial intelligence have been utilized in different fields of sciences and educational sciences with effective developments at these sectors. In the field of education AI has played a significant role in developing the new ways of learning. For education sector AI has developed the different learning systems and applications which can bring the cognitive development and pedagogical developments in learning in education sector. For inclusive education AI applications have also worked to provide the ways in which the special learners can get better learning skills and get better developments in learning process. The different researchers have developed different applications that will help the learners with different disabilities and these applications can help the learners to develop the learning skills and these systems will provide the facilities to understand the content and learning needs with effective engaging properties of these AI applications. Additionally, these AI systems have developed with different needs of learners, it means the learner has disability of listening that type of system has been developed for learning the content. Likewise, the learner that has other disability the system is composed based on that disability. So, in conclusion of this paper AI have developed lot of applications and system to enhance the learning needs of special learners at school, colleges and universities level.

Key words: *Inclusive education, AI applications, Teaching and Learning, Effectiveness of AI applications for inclusive education.*

Резюме

Приложения искусственного интеллекта используются в различных областях науки и образования с эффективными разработками в этих секторах. В сфере образования ИИ сыграл значительную роль в разработке новых способов обучения. Для сектора образования ИИ разработал различные системы обучения и приложения, которые могут способствовать когнитивному развитию и педагогическим разработкам в обучении в секторе образования. В инклюзивном образовании приложения искусственного интеллекта также помогли учащимся с особыми потребностями улучшить навыки обучения и добиться лучшего развития в процессе обучения. Различные исследователи разработали различные приложения, которые помогут учащимся с различными ограниченными возможностями, и эти приложения могут помочь учащимся развить навыки обучения, и эти системы предоставят средства для понимания содержания и потребностей в обучении с эффективными привлекательными свойствами этих приложений ИИ. Кроме того, эти системы искусственного интеллекта были разработаны с учетом различных потребностей учащихся. Это означает, что учащийся не способен слушать, и такой тип системы был разработан для изучения контента. Ана-

логично, для учащегося, имеющего другую инвалидность, система формируется на основе этой инвалидности. Итак, в заключение этой статьи ИИ разработал множество приложений и систем для повышения учебных потребностей особых учащихся на уровне школы, колледжей и университетов.

Ключевые слова: *инклюзивное образование, приложения ИИ, преподавание и обучение, эффективность приложений ИИ для инклюзивного образования.*

Introduction.

Artificial intelligence, or AI, is the study of reproducing human intellect in computers by deliberate programming that simulates human thought processes and actions. Cognitive talents include the ability to learn, think, solve problems, see, and understand language, among other mental activities. Artificial intelligence refers to the process of giving a computer, software, or robot that is controlled by a computer the capacity to think like a human mind. Artificial Intelligence is obtained through the pattern recognition and cognitive process analysis of the human brain. Advanced software and systems are the result of the research. The expression artificial intelligence (AI) is more than just a working with machine. These technologies are radically changing several industries worldwide due to their remarkable capabilities. Special education is one area of education that is not immune to this. Special education is fundamentally about using a tailored and individualized approach. With its highly developed capabilities, artificial intelligence can bring unmatched personalization to the learning process. With the use of sophisticated AI algorithms, adaptive learning technologies offer different learning paths to meet the different needs of special education students. These AI algorithms assess and comprehend each student's individual learning style, pace, and understanding level. Suppose that visual comprehension is the main basis for a student's preferred learning style. Additionally, AI technologies help students with special needs overcome communication barriers that often inhibit their academic accomplishment. With the help of advanced AI features like text-to-speech and voice recognition, pupils with physical or speech impairments can converse with facilitate. Assistive Ware’s Proloquo2Go offers symbol-based communication, Microsoft's Immersive Reader improves comprehension when reading, and Google's Voice Access allows voice-based device control. With the use of artificial intelligence (AI), these technologies enable special education students to effectively express themselves and actively engage with the curriculum. With its fast growth, the field of AI-driven assistive robots has great promise for the field of special education. Although AI is obviously helpful in interacting with students directly and improving their learning, it is also a helpful tool for teachers. AI provides a wealth of data that sheds light on each student's individual learning process. Teachers can use this data to monitor student progress, improve their methods of instruction, and quickly spot any learning barriers. The information derived by artificial intelligence (AI) enables a proactive approach to enhance the quality of education and the learning process. Even while artificial intelligence (AI) continues to advance special education and has amazing possibilities, it is crucial to consider and address the ethical issues it raises. Careful and careful thought must be given to ethical considerations such as privacy concerns, potential bias, and the possibility of unfair treatment. A strong ethical framework must be established before AI can be used in special education, and this can only be done with the combined help of legislators, educators, and AI specialists. Another vital calculation to consider is advanced isolate. Guaranteeing rise to get to to these progressed devices is of most extreme significance as AI gets to be progressively broad in extraordinary instruction. The cost related to these advances, alongside the desired foundation such as high-speed web, may inadvertently compound the instructive disparities among understudies.

Impact of AI applications on inclusive education.

AI applications utilized by special learners that have to learn through the different approaches and skills with advanced ways which helped in understanding the learning content and skills of learnings. Indeed, applications of artificial intelligence is enabling the learners with special needs with effective ways and develop the special assistances in learning the content. Special assistance of AI applications enables the learners with special needs with effectiveness and productivity that help the learners in learning content,

Special AI applications that help the learners with special needs:

Attention deficit hyperactivity disorder (ADHD).

For this type of disorder by which learners can be treated with new ways of AI applications that can bring the development of learning in learning and skills of learning. R.M and Freites have introduced the Applications that will help the learners that have these types of learning disability. That AI tool is called neuro-key mentality that help the learners with assessment in learning attentions levels while learners are learning through this application. This application further helps the in assessment with different ways that are calculated and formulated in the learning process.

Dyslexia disorder

This is also another disorder in learning and in learners that have disability in reading the content and understanding of content with disorder. This disability has been found in learners where the AI applications have been used to prevent the learners from this disorder. The genetic fuzzy systems have been developed for this type of disorder in the learners for learning development. This GFS will help the teachers to determine the disorder in learning and in learners with special needs and developments. The artificial intelligence neural networks are also used in case of disability that can be help the in these conditions and develop the learning abilities of learners with effective steps in learning development.

There are other systems that are also composed of applications and development with techniques that will help the learners with different disabilities. These systems can bring the learners with effective learning styles that will help them as well as help the teachers in tackle these types of problems and disorders in learning the needs of learners through strategies and strong applications (Abbasi, R, U, M 2024)

Conclusion

AI applications have helped the inclusive learning systems with rapid technology and development of technology these technologies have also provide the ways for learning towards the disabled learners. Moreover, these technologies have helped in learning but these applications have not shaded the overall development for inclusive education and yet to develop more and more other important techniques for the advancement in the field of inclusive education.

Likewise, the applications have developed and produced ways for inclusive learning development and for also the learners that have disability with reading, writing, and listening.

Suggestions

Suggestions concern the developments that have been taken for new advancement that are required for the field of proper research areas. For this study the easy applications have to develop for the disabled learners and there should be easy way to use for disabled learners by which these learners can get proper content learning knowledge. Moreover, these systems that have been developed for learners, but these systems have to develop more developed applications that will further help the learners with disabilities and in the process of inclusive education system.

References

1. Abbasi, Muhammad Umar. (2024). Impact of AI on the inclusion of Learners with Special needs: Public Policy Perspective in Contemporary Scenario. 11. 73-91.

2. Garg, Shalini. (2020). Impact of Artificial Intelligence in Special Need Education to Promote Inclusive Pedagogy. International Journal of Information and Education Technology. 10. 10.18178/ijiet.2020.10.7.1418.

3. M. Laabidi, M. Jemni, L. J. B. Ayed, H. B. Brahim, and A. B. Jemaa,

4. “Learning technologies for people with disabilities,” Research

5. Laboratory of Technologies of Information and Communication & Electrical Engineering LaTICE, National Higher School of Engineering of Tunis, 2013.

6. D. S. Grewal, “A critical conceptual analysis of definitions of AI as applicable to computer,” IOSR Journal of Computer Engineering, vol. 16, issue 2, pp. 9-13, 2014

İNKLÜZİV TƏHSİLİN ƏMƏK BAZARINA UYĞUNLAŞDIRILMASI

Aybəniz Murğuzova
Bakı Dövlət Universiti, Qazax filialı, müəllim
murghuzova.aybaniz.shahmali@busu.edu.az

Özet

"Kapsayıcı eğitim" programının önemi, sağlıklı çocukların, doğal koşullarda belirli fiziksel ve zihinsel kısıtlılıkları olan çocuklar hakkında doğru bilgi alma fırsatı yakalamaları, ihtiyaç sahibi insanlara yardım etme, onlarla ilgilenme gibi önemli değerleri öğrenmeleridir. Hassas gruptaki çocuklar ilgi alanlarına ve sağlıklarına uygun mesleği seçebilirler.

Anahtar kelimeler: *kapsayıcı eğitim, ebeveynleri eğitmek, sosyal topluma uyum, uygun koşullar*

Резюме

Важность программы «Инклюзивное образование» заключается в том, что здоровые дети получают возможность в естественных условиях получать правильную информацию о детях с определенными физическими и умственными ограничениями, учатся таким важным ценностям, как помощь и забота о нуждающихся людях. Дети чувствительной группы могут выбрать профессию, соответствующую их интересам и состоянию здоровья.

Ключевые слова*: инклюзивное образование, обучение родителей, адаптация к социальному обществу, выгодные условия*

Cəmiyyət inkişaf etdikcə təhsildə də müntəzəm olaraq innovasiyalara ehtiyac duyulur.

Bugünki movzumuz “İnklüziv təhsil” olduğu üçün bu haqda bəzi fikirlər söyləmək yerinə düşər.

Proqram, inkişafdan geri qalan uşaqların əqli cəhətdən formalaşdırılması, özünəxidmət vərdişlərinə yiyələnmələri, onlara sərbəst yemək, geyinmək, oynamaq kimi bacarıqların aşılanması, cəmiyyətdə kollektivə inteqrasiya olunması üçün əlverişli stimul yaratmağa imkan verir.

“İnklüziv təhsil” proqramının əhəmiyyəti bir də ondan ibarətdir ki, sağlam uşaqlar təbii şəraitdə müəyyən fiziki və əqli məhdudiyyəti olan uşaqlar haqda düzgün məlumat əldə etmək imkanı qazanır, yardıma ehtiyacı olan insanlara təmənnasız kömək etmək, onların qayğısına qalmaq kimi əhəmiyyətli dəyərləri öyrənirlər.

Müəyyən fiziki və əqli məhdutiyyəti olan uşaqların valideyinləri də çox istəyirlər ki, uşaqları başqa uşaqlar kimi hər səhər baxcaya, məktəbə getsin, öz həmyaşıdları ilə dostluq əlaqəsi qursunlar, müxtəlif bacarıq və vərdişlərə yiyələnsinlər və cəmiyyətin digər üzvləri kimi normal həyata inteqrasiya olunsunlar.

Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının Təhsil Qanununda da qeyd olunur ki, “Dövlət cinsindən, irqindən, dilindən, siyasi əqidəsindən, milliyətindən, sosial vəziyyətindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşın təhsil almaq imkanı yaradılmasına və ayrıseçkililiyə yol verilməməsinə təminat verir”.

İnklüziv təhsil; Cəmiyyətdə mövcud ola bilməyən, cəmiyyət tərəfindən kənarlaşdırılan, təhsildə imkan bərabərsizliyindən əziyyət çəkən, təhsil almaqda çətinlik çəkən uşaqlar üçün yaradılmış təhsil prosesi vəproqramıdır. YUNESKO-nun məlumatına görə, bu təhsil proqramı dövlətlərin öz ölkələrində öyrənmə yaşında olan bütün uşaqlar üçün müvafiq təhsil strategiyasının hazırlanmasını, bu strategiyaların planlı şəkildə həyata keçirilməsini və nəticələrinin müşahidəsini nəzərdə tutur.

Birləşmiş Millətlər Təşkilatının (BMT) “Əlillərin hüquqları haqqında” Konvensiyası əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu təşviq edir. Eynilə, BMT-nin “Uşaq Hüquqları Konvensiyası”sının 28-ci maddəsi hər bir uşağın təhsil hüququnu tanıyır və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsi dəstəkləyir. Adıçəkilən maddə bildirir ki, təhsil uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının inkişaf etdirilməsi, insan hüquqlarına və əsas azadlıqlara, azad cəmiyyətdə sülh, dostluq, anlaşma, tolerantlıq və bərabərlik içində həyata, ətraf mühitə hörmət tərbiyə edilməsinə yönəldilməlidir. Bu əsasda, əlilliyi olan uşaqların əlilliyi olmayan uşaqlarla birlikdə təhsilə cəlb edilməsi xüsusilə nəzərə alınır. Bundan başqa, BMT-nin Dayanıqlı İnkişaf Məqsədi 4 hamı üçün inklüziv və bərabər keyfiyyətli təhsilin təminatını vurğulayır.

"İnklüziv təhsil" li qruplarda işləyən tərbiyəçi, müəllim seçilərkən onların bu cür uşaqlarla işləmək arzusu, iş təcrübəsinin olması və şəxsi keyfiyyətləri nəzərə almaq lazımdır. Tərbiyəçi, müəllim işə başlamamışdan əvvəl xüsusi təlim və seminarlarda iştirak etməlidirlər.Müəllim, korreksiyaedici pedaqoq və psixoloqların inklüziv təhsil sahəsində səriştəliliklərini artırmaq üçün ARTİ müxtəlif təlimlər keçirir. Təlimlər inklüziv dəyərlər, əlilliyə sosial və tibbi yanaşma, uşaqyönümlü pedagoqika, Universal Öyrənmə Dizaynı, tədris-təlim prosesinin səmərəli təşkilinin təşviqi üçün inklüziv təhsilin planlaması və tətbiqi, müxtəlif sinif strategiyalarından istifadə və digər mövzuları əhatə edir.[2]

Bütün bu işlərin öhdəsindən gəlmək üçün valideynlərlə iş birliyi qurmaq lazımdır. Müəyyən məhdudiyyəti olan uşaqları təhsilə cəlb etmək üçün valideynləri maarifləndirmək lazımdır və onların köməyi ilə uşağın psixoloji xüsusiyyətləri öyrənilməlidir. Fiziki və əqli məhdudiyyəti olan uşaqların cəmiyyətə inteqrasiya olunması həm uşaqların özü üçün, həm valideynlər üçün, həm də normal insanlar tərəfindən müəyyən çətinliklər törədir. Bu çətinliklərin aradan qaldırılması həm mənəvi, həm də maddi yardımlar tələb edir.

Müəyyən təhsil aldıqdan sonra fiziki məhdudiyyətli insanların cəmiyyətə tam inteqrasiya olunması üçün həmin şəxslərin onların sağlanmlığına uyğun işlə təmin olunması çox vacibdir.

Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı ölkədə həssas əhali qruplarının, o cümlədən əlilliyi olan şəxslərin sosial müdafiəsi, onların reabilitasiyası, məşğulluğu sahəsində tədbirlərin ildən-ilə güclənməsinə imkan verib.

Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizin müxtəlif bölgələrdə əlilliyi olan şəxslərin İKT-dən istifadə imkanlarına malik olmaları üçün Regional İnformasiya Mərkəzləri, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiya imkanlarının artırılması üçün Bakının Suraxanı rayonunda Reabilitasiya Müəssisəsi, habelə sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində ən müasir tələblərə uyğun şərait yaradılıb. Fond tərəfindən bu kateqoriyadan olan insanların inteqrasiya imkanlarının genişləndirilməsi, yaradıcılıq qabiliyyətlərinin tanıdılması üçün çoxsaylı layihələr icra olunur.

Bu baxımdan 2021-ci il oktyabr ayında Preziden İ.Əliyev, birinci vitse-prezident M.Əliyeva və qızları L.Əliyevanın iştirakı ilə açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi Azərbaycanda əlilliyi olan şəxsləri və digər həssas qrupların cəmiyyətə inteqrasiya imkanlarının artırılması sahəsində aparılan fəal dövlət siyasətinin əyani sübutudur. M.Əliyevanın təşəbbüsü ilə yaradılan həmin mərkəz Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən ən böyük inklüziv yaradıcılq və inkişa mərkəzidir.

Mərkəzdə həssas qruplara aid 200-dən çox müxtəlif fəaliyyət istiqamətləri rəqs, təsviri incəsənət, dulusculuq, musiqi, tikmə, dərzilik, toxuma, bədii oyma, bağçılıq və s. üzrə təlimlərdə iştirak edib bacarıqlarını təkmilləşdirirlər.

Mərkəzdə xidmətlərin göstərilməsi, şəxslərin hüquq və azadlıqlarının qorunması, şərəf və ləyaqətlərinə hörmət və bərabərlik prinsipləri ilə həyata keçirilir.

Belə tipli müəsssələrdə qazanılan bilik, bacarıq və vərdişlər müəyyən məhdudiyyəti olan insanların özlərini bu cəmiyyətin, bu dövlətin bərabərhüquqlu, istədiyi, bacardığı işlə məşğul olan, yaşamaq, yaratmaq həvəsinin özündə qayıtmasına çox yardım edir.

Ədəbiyyat

1. "İnklüziv təhsil" S.Qasəmov, E.Kərimova. İ.Sultanova, T.Ağayeva Oka Ofset Nəşriyyatı: Bakı 2006
2. https://arti.edu.az
3. https://az.m.wikipedia.org

MÜASIR CƏMİYYƏTDƏ ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN ƏMƏK BAZARINA İNTEQRASİYASI

Günel Nəzərova
Bakı Slavyan Univeristetinin İbtidai təhsil kafedrasının müəllimi
gunel.nazar@gmail.com

Summary

This article is dedicated to explaining the integration of people with disabilities into the labor market. It was noted that after the implementation of the Convention on the Rights of Persons with Disabilities in modern society, substantial measures will be taken to respect the rights and dignity of those persons and at the same time integrate them into the labor market. A key requirement for achieving an inclusive society is that legislation and regulatory measures protect the rights of all groups and ensure that all citizens have the same opportunities.

Key words: *Inclusion, society, labor market, education, disability, support*

Резюме

Данная статья посвящена объяснению интеграции людей с ограниченными возможностями на рынок труда. Было отмечено, что после реализации Конвенции о правах инвалидов в современном обществе будут приняты существенные меры по уважению прав и достоинства этих лиц и одновременной их интеграции на рынок труда. Ключевым требованием для построения инклюзивного общества является то, чтобы законодательство и нормативные меры защищали права всех групп и обеспечивали всем гражданам одинаковые возможности.

Ключевые слова: *Инклюзия, общество, рынок труда, образование, инвалидность, поддержка*

Müasir cəmiyyətin inklüziv potensiyalı müxtəlif bacarıqları, təcrübələri, vəziyyətləri və şəxsiyyətləri ilə bütün üzvləri və qrupları ilə birlikdə qəbul etmək və birlikdə yaşamaq potensiyalına malikdir və gücləndirici potensialı ifadə edir. İnklüzivlik bütün insanların cəmiyyətdə bərabər hüquq və imkanlara malik olmasını təmin etmək, həmrəylik və əməkdaşlıq mühitini təşkil etmək deməkdir. İnklüziv potensial müasir cəmiyyətlərdə bir sıra əsas sahələrdə öz əksini tapmağa başlayıb. Müasir cəmiyyətdə inklüzivlik cəmiyyətin bütün üzvləri üçün bərabər imkanlar, hüquqlar və iştirak etmək məqsədi daşıyır. İnküzivlik müxtəlif mənşələrə, qabiliyyətlərə, yaşlara, cindlərə və digər müxtəlif xüsusiyyətlərə malik olan hər kəs cəmiyy\tin bir hissəsi olmağa təşviq edir. Müasir cəmiyyətdə inklüzyonizimi dəstəkləyən bütün fərdləri əhatə edəcək təhsil sistemlərinin təşkili və əlilliyi olan tələbələrə müvafiq dəstəyin göstərilməsi, iş yerlərində müxtəlifliyin artırılması və fərqli qabiliyyətlərə, mədənəniyyətlərə və keçmişə malik işçilərə dəstək, əlillərin cəmiyyətdə tam iştirakını təmin etmək üçün fiziki və sosial maneələrin aradan qaldırılması, müxtəlif mədəniyyətlərin və etnik qrupların birgə yaşayışını dəstəkləməklə mədəni müxtəlifliyi qeyd etmək, gender bərabərliyini təşviq etməklə qadın və kişilərin bərabər hüquqlara malik olmasını təmin etmək əsas faktordur. Eyni zamanda birdən çox dil və dil qabiliyyətinin mövcudluğunu tanımaqla dil müxtəlifliyini qorumaq, əlilliyi olan insanlara əlçatan infrastruktur, nəqliyyat və xidmətlər təqdim etməklə cəmiyyətdə tam iştirakını dəstəkləmək inkişafın təmin olunmasında əsas yer tutur. Cəmiyyətdə maarifləndirməni artırmaq və ön mühakimələrlə mübarizə apararaq insanları fərqlilikləri anlamağa təşviq etmək üçün qanun qaydalar yaratmaq bütün şəxslərin bərabər hüquqlara malik olmasını təmin etmək lazımdır. İnklüzivlik cəmiyyəti daha ədalətli, bərabər və dəstəkləyici etmək məqsədi daşıyır. Bu fərqliliklərin zənginlik kimi göründüyü bir mühit yaratmaq deməkdir.

Təhsil və əmək bazarına daxil oolma müxtəlif qabiliyyətlərə, mədəni mənşələrə, cinslərə və digər müxtəlif xüsusiyyətlərə malik şəxslərin bərabər imkanlara çıxışını təmin etmək məqsədi daşıyır. Əlilliyi olan tələbələrə müvafiq dəstək və xidmət göstərməklə təhsildə bərabərliyin təmin edilməsi, müxtəlif mədəniyyətləri əhatə edən təhsil proqramları və kuriklumlar vasitəsilə mədəni müxtəlifliyin təşviqi, birdən çox dilin tədris edildiyi dil məktəbləri və dil öyrənmə proqramları vasitəsilə kişi və qadın tələbələr üçün bərabər imkanların təmin edilm əsi və s əsas hədəflərdən olmalıdır.

İş yerlərində əlillər üçün müvafiq infrastrukturun və dəstəyin təmin edilməsi, işə qəbulda bərabərlik və ədalətin yaradılması çox mühimdir. Belə tədbirlər təhsil və əmək bazarında inklüzivliyə düzgün yanaşmanı təmin etmək və cəmiyyətin geniş təbəqələrini əhatə etmək üçün mühim addımlardandır.

Yeni biznes başlanğıclarını və sahipkarlıq fəaliyyətlərini dəstəkləməklə də əmək bazarına yeni töhvələr vermək olar. Təhsil və əmək bazarı bir-biri ilə qarşılıqlı əlaqədədir. Təhsil sistemi ixtisaslı işçi

quvvəsi hazırlamaqla əmək bazarına töhvə verərkən, əmək bazarı da daim dəyişən ehtiyaclara uyğun olaraq təhsil sisteminə təsir göstərir. Bu qarşılıqlı əlaqə cəmiyyətin davamlı inkişafı üçün vacibdir.

Əlilliyi olan şəxslərin əmək bazarında yer alması, ölkənin qanunları, sosial təminat sistemi bu məsələdə mühim rol oynayır. Hər bir ölkədə əmək bazarını ntənzimləyən müxtəlif qanunlar mövcuddur.

Əlilliyi olan şəxslərin məşğulluq prosesinə təsir edən amillər çox vaxt fərdi qabiliyyətləri, ətraf mühit şəraiti, sosial münasibətlər və mövcud əmək bazarı şərtləri kimi müxtəlif sahələri əhatə edir. Əliliyin növü və dərəcəsi iş tapmaq prosesinə təsir göstərir. Bəzi işlər müəyyən bacarıq və ya fiziki qabiliyyət tələb edə bilir. Əlilliyi olan insanlar üçün təhsil və bacarıqların artırılması proqramları məşğulluq prosesində mühüm rol oynayır. Bu proqramlar əlilliyi olan insanlara iş dünyasına daha yaxşı inteqrasiya etmək üçün kömək bilər. İş yerlərinin əlillər üçün uyğun olması, xüsusi ehtiyaclara uyğun tənzimləmələr yarada bilməsi və işçilərinə dəstək erməsi əlillərin iş tapması prosesində müəyyənedici amildir. Cəmiyyətin əlilliyi olan insanlara münasibəti və qərəzləri məşğulluq prosesinə əhəmiyyətli dərəcədə təsir edə bilər. Cəmiyyətin ümumi münasibəti ondan ibarətdir ki, əlillərə açıq fikirli və müsbət yanaşma məşğulluq prosesinin yaxşılaşdırılmasına töhfə verə bilər.

İnklüziv cəmiyyətə nail olmaq üçün zəruri olan qanunvericilik və normativ tədbirlər bütün İnklüziv cəmiyyətə nail olmaq üçün zəruri olunan əsas tələb- qanunvericilik və normativ tədbirlərin bütün qrupların hüquqlarını qoruması və bütün vətəndaşların eyni imkanlara malik olmağını təmin etməsidir.

İnklüziv potensialın artırılması cəmiyyətin bütün üzvlərinin bir-biri ilə birləşməsini təşviq edir, həmrəylik və vahid gücə əsaslanan cəmiyyət yaradır. Bu, bütün insanların təhlükəsiz və firavan həyat sürməsinə kömək edir və cəmiyyətin xeyrxahlığına töhfə verir.

İnküziv fərdlərin işləmək qabiliyyətinin olmamağı, uğur qazana bilməmək və cəmiyyətdən təcrid olunmaq onları dəyərsiz və çarəsiz hiss etdirə bilər. Buna görə də onları dəstəkləmək və depressiyaya düşməklərinin qarşısını almaq lazımdır. Bu problemlərə həll etmək üçün inklüziv fərdlərə psixoloji dəstək vermək, onların motivasiyasını və bacarıqlarının inkişafını təşviq etmək çox vacibdir. Onlara göstərilən qayğı və yardım bu şəxslərə özlərini olduğu kimi qəbul etməklərinə, daha güclü olmaqlarına və uğur qazanmaqlarına kömək edə bilər.

İnklüziv şəxslərin əmək bazarına inteqrasiyası böyük əhəmiyyət kəsb edir və bu inteqrasiya cəmiyyətin və ümumilikdə biznes bazarının rifahına və sürətinə bir çox cəhətdən təsir edə bilər.

İnklüziv şəxslərin iş bazarına daxil olması, cəmiyyətin bütün tərəfləri üçün müstəqil sürətli bir inkişaf açarıdır. Bu, iş həyatının sosial və iqtisadi inkişafının artırılmasına kömək edir, müstəqil və bütün tərəflər üçün imkanlar təmin etməyə kömək edir.

Ölkəmizdə sağlamlıq imkanları məhdud şəxslərin təhsilinə və onların cəmiyyətə inteqrasiya olunmasına hər zaman dövlət tərəfindən xüsusi diqqət ayrılmışdır, lakin hələ də digər insanlarla müqayisədə sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunmasında ən əsas da onların cəmiyyətdə və əmək bazarında öz imkanlarına uyğun iş tapmasında bəzi məhdudiyyət və sıxıntılar vardır. Azərbaycan Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanı (2008) imzalayan və ratifikasiya edən ilk ölkələrdən biridir. Konvensiya imzalandıqdan sonra Azərbaycan Respublikasında Konvensiyanın həyata keçirilməsinə və əlillərin ləyaqətinə və hüquqlarına hörmətin təşviqinə əhəmiyyətli səylər göstərib. Görülən bütün tədbirlər milli qanunvericilikdə dəyişikliklər,əlilliyin qiymətləndirilməsi sisteminin gücləndirilməsi, əlilliyi olan uşaqların təhsil və digər dövlət xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması, ictimai infrastrukturun əlilliyi olan insanlar üçün daha əlçatan olunmasını ehtiva edir. Azərbaycan Respublikasının 2022-2026-cı illər üzrə yeni Milli Sosial-İqtisadi İnkişaf Strategiyasında əlilliyi olan şəxslər üçün ictimai infrastrukturun əlçatanlığının yaxşılaşdırılması, gücləndirilmiş sosial yardım və əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyası kimi məqsədlər öz əksini tapır.

Azərbaycan Respublikasında Konvensiyanın həyata keçirilməsi mütərəqqi reallaşma prosesidir. Azərbaycan əlilliyi olan şəxslərlə bağlı inklüzivliyi gücləndirmək üçün öz milli və beynəlxalq öhdəliklərini yerinə yetirmək üçün çalışdığı zamanda nəzərdən keçirilməli bir neçə amil mövcuddur. Azərbaycan bu yaxınlarda əlilliyin qiymətləndirilməsi sistemini gücləndirmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlilliyi olan şəxslərin ehtiyaclarının qiymətləndirilməsini inteqrasiya etməyə, dövlət xidmətlərini daha yaxşı planlaşdırmağa və monitorinq etməyə kömək edəcək. Amma qeyd etmək lazımdır ki, ehtiyacların qiymətləndirilməsi sisteminin uğurlu olması üçün güclü qiymətləndirmə alətləri və metodologiyası,

hableə onları həyata keçirmək üçün yaxşı təlim keçmiş kadrlar tələb olunur. 2022-2026-cı illər üzrə Milli Sosial-İqtisadi İnkişaf Strategiyasının həyata keçirilməsi və əlilliyi olan şəxslərə dəstək siyasətinin qəbulu Azərbaycana Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya çərçivəsində öz öhdəliklərini tam həyata keçirilməyə və əlilliyi olan şəxslərin rifahını yaxşılaşdırmağa imkan verəcək.

Ədəbiyyat

1. “Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası Azərbaycan üçün strateji prioritetdir” https://report.az/amp/maliyye-xeberleri/dunya-banki-azerbaycanda-elillik-seviyyesi-diger-olkelere-nisbeten-asagidir/
2. “Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətdə və əmək bazarındakı yeri” https://medium.com/@emil.abazzov/sa%C4%9Flaml%C4%B1q-imkanlar%C4%B1-m%C9%99hdud-%C5%9F%C9%99xsl%C9%99rin-c%C9%99miyy%C9%99td%C9%99-v%C9%99-%C9%99m%C9%99k-bazar%C4%B1ndak%C4%B1-yeri-a949a9519f90

ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNDƏ İNKLÜZİV TƏHSİL ŞƏRTLƏRİ

Humay Nəzərova
Qüsursuz Nitq Psixologiya Mərkəzi
loqopedhumay@gmail.com

Summary

The process of inclusive education is the process of providing humane educational conditions for the realization of the maximum social potential of each person in a given society. Man and society must be compatible with each other. It is an educational process in which an individual adapts to a society of classmates or fellow students, and the society itself takes necessary steps to adapt to this individual.

Key words: *inclusive education, general education, school, education, children with disabilities, student.*

Резюме

Процесс инклюзивного образования – это процесс обеспечения гуманных образовательных условий для реализации максимального социального потенциала каждого человека в конкретном сообществе. Человек и общество должны быть совместимы друг с другом. Это образовательный процесс, в котором личность адаптируется к обществу одноклассников или сокурсников, а общество само предпринимает необходимые шаги для адаптации к этой личности.

Ключевые слова: *инклюзивное образование, общее образование, школа, образование, дети с ограниченными возможностями, учащийся.*

Bu gün ümumtəhsil məktəblərində inklüziv təhsilin dəstəklənməsi istiqamətində əqli inkişafda qüsurlu və ya müəyyən səbəblərdən əqli geriliyi olan şagirdlərə dərslər keçirilir. Hər bir şagirdin özünəməxsus öyrənmə xüsusiyyətləri var. Beləliklə, hər bir şagird üçün emosional və psixi idrak proseslərinin inkişaf səviyyəsi fərqlidir. Hazırda şüurlu təhsil, hər bir şagirdə fərdi yanaşma keyfiyyətli təhsil üçün həyati tələbdir. Bu gün respublikanın bütün bölgələrində sağlamlıq imkanları məhdud uşaqların təhsilinə dəstək əsasında ümumtəhsil müəssisələrində tədricən korreksiya-inkişafedici təhsil sinifləri açılır. Bu sinfin məqsədi əlilliyi olan şagirdləri bir sinifə inteqrasiya etmək və hər bir şagirdə fərdiləşdirilmiş sinif və kurikulum verməkdir (Рсалдинова, 2019).

İnklüziv təhsilin məqsədi inkişaf qüsurlu uşaqları normal uşaqlarla birlikdə böyütməkdir. Yəni cinsindən, dinindən asılı olmayaraq, insanın bərabərhüquqlu şəxs kimi tərbiyəsi sistemidir. İnklüziv təhsil əlilliyi olan uşaqlar üçün təhsil formalarından biridir.

İnklüziv təhsil ümumtəhsil məktəblərində xüsusi qayğıya ehtiyacı olan uşaqların tədrisi prosesini təsvir etmək üçün istifadə olunur. İnklüziv təhsil normal inkişaf etmiş uşaqlarla sosiallaşma və inteqrasiya proseslərinin sadələşdirilməsi məqsədilə inkişafda qüsurlu uşaqların öyrədilməsinin sadələşdirilmiş sistemidir.

İnklüziv təhsil inteqrasiya olunmuş (şagird adi uşaq sinif qrupunda oxuyur və defektoloq müəllimdən sistemli yardım alır), qismən (fərdi uşaqlar günün yarısını xüsusi qruplarda, ikinci hissədə keçirirlər) sadə qruplarda həyata keçirilir. Müvəqqəti xüsusi qruplardakı uşaqlar birgə gəzintilər, bayramlar, yarışlar və şəxsi məsələlər üçün birləşirlər.

İnklüziv təhsil bütün uşaqlara məktəbəqədər təhsil müəssisələrində məktəb və məktəb həyatında fəal iştirak etməyə imkan verir. İnklüziv təlim şagirdlərin bərabər hüquqlarını müəyyən edir və onlara komanda fəaliyyətlərində iştirak etməyə imkan verir. İnsanlarla ünsiyyət qurmaq üçün lazımi bacarıqları inkişaf etdirməyə imkan verir. İnklüziv təhsil ümumi təhsil prosesinin inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların bütün uşaqların ehtiyaclarını nəzərə almaqla təhsil almasını təmin etməkdir. İnklüziv təhsil uşaqların öyrənmə ehtiyaclarına cavab verir və öyrənmə və öyrətmə üçün yeni istiqamət hazırlamağa çalışır. İnklüziv təhsil və tədrisə edilən dəyişikliklər effektiv olarsa, xüsusi qayğıya ehtiyacı olan uşaqların vəziyyəti dəyişəcək. İnklüziv təhsili qurulmuş məktəblərdə təhsil alan uşaqlar insan hüquqları ilə bağlı biliklərə yiyələnmək imkanı əldə edirlər.

İnklüziv təhsil - uşaqların ümumi təhsil prosesinə tam cəlb edilməsi və uşaqların korreksiya, pedaqoji və sosial ehtiyaclarına xüsusi dəstək verilməsi, valideynlərin sosial adaptasiyada fəallığının təşviq edilməsi, cinsindən, mənşəyindən, dinindən asılı olmayaraq uşaqları fərqləndirən maneələrin aradan qaldırılması, uşaqların yaşa bağlı ətraf mühitə uyğunlaşması üçün şərait, yəni ümumi təhsilin keyfiyyətini saxlamaqla səmərəli siyasətdir.

İnklüziv təhsilin inkişafının məqsədi bütün kateqoriyalardan olan şəxslərin keyfiyyətli təhsilə bərabər hüququnun həyata keçirilməsidir.

İnklüziv təhsilin inkişafının əsas məqsədlərinə aşağıdakılar daxildir (Orucova, 2020):

1. inklüziv təhsilin inkişafının hüquqi, təşkilati və iqtisadi əsaslarının və mexanizmlərinin təkmilləşdirilməsi;
2. inklüziv təhsilin inkişafı üçün metodiki, tədris-metodiki əsasların təkmilləşdirilməsi (kurikulumların və təlim proqramlarının işlənib hazırlanması, dərsliklərin, tədris-metodiki komplekslərin uyğunlaşdırılması və modifikasiyası, təhsil nailiyyətlərinin qiymətləndirilməsi üçün meyar əsaslı sistemin tətbiqi);
3. fərdiləşdirilmiş korreksiyaedici pedaqoji və sosial-pedaqoji dəstəyin göstərilməsi, şagirdlərin özlərini məktəb ictimaiyyətinin fəal üzvləri kimi hiss etmələri, yüksək heysiyyətə malik olmaları, öyrənmə motivasiyasının artırılması və ictimailəşməsi üçün əlverişli təhsil mühitinin yaradılması;
4. "maneəsiz əlçatan mühit" yaratmaq və şagirdləri kompensasiya vasitələri ilə təmin etmək;
5. inklüziv təhsil verən təşkilatların kadr təminatının təkmilləşdirilməsi;
6. xüsusi təhsilə ehtiyacı olan şəxslərin texniki və peşə, ali təhsil səviyyəsində davamlı təhsili və peşəsinin daha da inkişafı üçün şərait yaradılması;
7. inklüziv təhsil sahəsində tətbiqi elmi tədqiqatların aparılması.

İnkişaf qüsurlu uşaqların təhsilini təşkil etmək üçün standart xüsusi təhsil proqramı hazırlanmışdır. O, təhsilin uşaqların ehtiyaclarını nəzərə almasını təmin edən ümumi təhsil proseslərini nəzərdə tutur. İnklüziv təhsil uşaqların öyrənmə ehtiyaclarına cavab verir və öyrənmə və öyrətmə üçün yeni istiqamətin inkişafına çalışır. Əgər inklüziv təhsildə öyrənmə və tədrisə edilən dəyişikliklər effektiv olarsa, xüsusi qayğıya ehtiyacı olan uşaqların vəziyyəti də dəyişəcək. İnklüziv təhsili qurulmuş məktəblərdə təhsil alan uşaqlar insan hüquqları ilə bağlı biliklərə yiyələnmək imkanı əldə edirlər. Axı onlar ünsiyyət qurmağı, bir-birlərini tanımağı və qəbul etməyi öyrənirlər.

Sağlamlıq imkanları məhdud uşaqlara tibbi, pedaqoji və sosial yardım sisteminin səmərəli inkişafı hərtərəfli təhsilin prinsip və ideyalarının həyata keçirilməsidir. Onun vasitələri uşaqların təcrid edilməsi və onların aşağılığının daimi təzahürü deyil, sağlamlıq imkanları məhdud uşaqların sağlam uşaq mühitinə daxil edilməsi, inteqrasiya olunmuş təhsil, birgə asudə vaxtın təşkili ilə həll olunan həyatın sosial trayektoriyası üçün strukturun yaradılması və onlara qarşılıqlı yardım göstərilməsidir.

Xüsusi və inklüziv təhsil bütün şagirdlərin təhsil ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş psixoloji, tibbi və pedaqoji konsultasiyanın tövsiyələri nəzərə alınmaqla hazırlanmış xüsusi və ümumi təhsil kurikulumları vasitəsilə həyata keçirilir.

Hal-hazırda xüsusi təhsilə ehtiyacı olan uşaqların təhsil müəssisələrini seçmək hüququ var, buna

görə də təhsilin hər bir mərhələsində sosial uyğunlaşma şərtlərini və bilik, bacarıq və qabiliyyətlərin mənimsənilməsi üçün tələbləri nəzərə almaq lazımdır.

Xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün təhsilin məzmunu onların inkişaf xüsusiyyətləri ilə müəyyən edilməlidir, əsas ehtiyaclarla bərabər təhsil almaq üçün şərait təmin edilməlidir.

Xüsusi təhsilə ehtiyacı olan uşağın aktiv ictimailəşməsi üçün qüsurları düzəltmək, həqiqi orta qüsurların qarşısını almaq və qüsurları təhsil vasitəsilə kompensasiya etmək lazımdır. Bu vəziyyət uşağın əqli və ya fiziki qüsurları səbəbindən xüsusi təhsil ehtiyaclarının tam ödənilməsi ilə müşayiət olunur.

Məsələn, kar uşağın inkişafının mənfi nəticələrinin qarşısını almaq üçün yeni biliklər əldə etmək üçün şərait təmin etmək lazımdır (Orucova, 2020):

- eşitmə qavrayışının inkişafı və qalıq eşitmədən istifadə etməyi öyrənmək;
- danışanın nitqini nitqlə əlaqələndirməyi öyrətmək;
- korreksiyaedici pedaqoji dəstək vasitəsilə əvvəllər formalaşmış lüğətin itirilməməsini təmin etmək;
- səssiz bir məkanda hərəkət etməyi öyrənmək.

Nəzərə almaq lazımdır ki, uşağın eşitmə, görmə, motor və s. inkişafının məhdudiyyətləri keyfiyyət xarakterlidir. Burada şəxsiyyətin formalaşması tamamilə transformasiya olunur və biliklərin inkişafı və mənimsənilməsi üçün xüsusi şərait tələb edir. İlk növbədə, təhsil proqramını mənimsəməkdə dayanmaq yox, şəxsi həyat bacarıqlarını inkişaf etdirmək lazımdır. Yaşayış bacarıqları, istər ətraf mühitdə məkan, istərsə də müvəqqəti oriyentasiya, müxtəlif münasibətlər, sosial uyğunlaşma, şüurlu davranış intizamı və gələcək həyata müsbət münasibət formalaşdırır.

Bir-biri ilə sıx əlaqədə olan xüsusi təlim və təhsil xüsusi təhsil şəraitinin təmin edilməsini tələb edir. Xüsusi təhsil şərtlərinə aşağıdakılar aiddir (Алтаева, 2015):

- xüsusi təhsil proqramlarının, o cümlədən ümumi təhsil kurikulumlarının və korreksiya və inkişaf proqramlarının təmin edilməsi;
- Uzunmüddətli müalicəyə ehtiyacı olan şəxslər, habelə inkişafında qüsurlu uşaq və yeniyetmələr üçün xüsusi korreksiyaedici ümumtəhsil proqramları hazırlanmalı və həyata keçirilməli;
- hər bir uşağın inkişaf xüsusiyyətlərini nəzərə alaraq, xüsusi korreksiya vasitələri və texniki üsullardan istifadə;
- tam həyat üçün adekvat şəraitin təmin edilməsi;
- korreksiya-pedaqoji prosesin xüsusi müəllimlər tərəfindən aparılması tələbi, yəni karlar müəllimi, loqoped və xüsusi psixoloqlar tərəfindən psixoloji xidmətin göstərilməsi;
- psixoloji, tibbi, sosial xidmətlərin təşkili.

Uşaqlar qüsur səviyyəsinə və idrak imkanlarına uyğun olaraq və bilik əldə etmək üçün xüsusi şəraitin keyfiyyətindən asılı olaraq müxtəlif səviyyəli biliklərə yiyələnə bilərlər. Ölkəmizdə təhsil sistemi tədris kurikulumlarının davamlılığı prinsipinə əsaslanan aşağıdakı təhsil pillələrini əhatə edir:

- məktəbəqədər təhsil və təlim;
- ibtidai təhsil;
- orta təhsil;
- ümumi orta təhsil
- Ali təhsil;
- Magistratura təhsili.

Əlilliyi olan şəxslər isə vaxtında korreksiyaedici yardım göstərilməklə, öz inkişafına uyğun təhsil səviyyəsinə yiyələnə biləcəklər. Kar, zəif eşitmə, kor, görmə qüsurlu və dayaq-hərəkət sistemi, emosional-iradi inkişafı, nitqi pozulmuş bəzi şəxslər ümumi orta təhsil səviyyəsinə yiyələnir və ali təhsil müəssisəsində təhsil alırlar.

Xüsusi təhsilin məzmununun təkmilləşdirilməsinin əsas yolu müasir psixoloji, pedaqoji, nəzəri və eksperimental tədqiqatlardan səmərəli istifadə etməkdir. Onlar şagirdlərin fiziki və əqli inkişafının böyük imkanlarını, onların korreksiyası və inkişafı üsullarını əks etdirir.

Xüsusi məktəbdə təhsilin məzmununa aşağıdakı tələblər tətbiq edilir (Orucova, 2020):

- təhsilin korreksiya və inkişaf istiqaməti;
- öyrənmə effektivliyi, yəni məzmun bilik sistemini təşkil etməlidir;
- şagirdlərin yaş və idrak xüsusiyyətləri nəzərə alınmaqla təhsilin əlçatanlığı;
- tədrisin elmi xarakteri;
- tədris materialının tədris kurikulumlarında cəmləşdirilməsi;
- təhsilin məzmunu həyat və təcrübə ilə sıx bağlı olmalıdır;
- təlimin səmərəliliyini artırmaq üçün fənlərarası əlaqələrin təmin edilməsi;
- müasir tələblərə uyğun təhsil kurikulumlarının hazırlanması, müxtəlif variantlar təklif edilməsi (məsələn: əqli qüsurlu uşaqlar üçün ayrıca, kiçik əlilliyi olan uşaqlar üçün ayrıca, yüngül əlilliyi olan uşaqlar üçün ayrıca).

Yuxarıda göstərilən tələblər aydın şəkildə müəyyən edilmiş sənədlərdə - təhsil standartlarında, təhsil kurikulumlarında və dərsliklərdə təsbit edilmişdir.

Şagirdlərin fiziki və psixi xüsusiyyətlərini və inkişaf qüsurlarını nəzərə alan təsdiq edilmiş təhsil qaydaları var. O, ümumi təhsilin dövlət standartı və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi təhsil standartı adlanır. Standart biliyin dövlət səviyyəsinin əsas göstəriciləri sistemini müəyyən edir. Bu göstəricilər ondan ibarətdir ki, cəmiyyət bu fərdlərdə lazımi bilik səviyyəsini görür və ikincisi, fərdin özü ilə eyni səviyyədə biliklərə yiyələnmə qabiliyyətini nəzərə alır.

Xüsusi təhsil standartı xüsusi təhsilə ehtiyacı olan bütün qruplar üçün ümumi ümumi təhsil səviyyəsinə, korreksiya və inkişaf işinə, istirahət və peşə işlərinə hazırlıq tələblərini müəyyən edir. Standartın tələblərini hazırlayarkən bütün əlillərə xas olan inkişaf qüsurları nəzərə alınır.

Fənlərin öyrənilməsi ardıcıllığı şagirdlərin idrak imkanlarını nəzərə almaqla, akademik fənlərin məzmununun sistematik şəkildə mənimsənilməsini, harmoniyanın qorunmasını və tədris fənlərinin qarşılıqlı əlaqəsini təmin edir.

Kurikulum hər bir akademik fənnin öyrənilməsi üçün ümumi saatların sayını, akademik fənnin öyrənilməsi üçün həftədə ayrılan vaxtı və hər həftəlik tədris saatının həcmini müəyyən edir. Xüsusi pedaqogikada akademik fənn elmin əsası kimi müəyyən edilir, onun mahiyyəti ondan ibarətdir ki, akademik fənnin məzmunu müasir elmi bilikləri daha da mənimsəməyə imkan verir.

Təhsil mövzusu insan təcrübəsinin bir hissəsini əks etdirir və ona uyğun olaraq bilik, bacarıq və qabiliyyətlər formalaşır. Təhsil fənləri toplusu məktəbdə təlim prosesi zamanı şagirdin insan təcrübəsindən öyrənməli olduğu hər şeyi müəyyənləşdirir və gələcəkdə müstəqil mövcudluğuna töhfə verir.

Məzmununu təhsil kurikulumunda əks etdirən təhsil fənlərinin məcmusu şagirdə verilən bilik səviyyəsini müəyyən edir. Təhsil fəaliyyətinin həyata keçirilməsi təhsil fənlərinin və proqramlarının məzmununu nəzərdə tutur.

Xüsusi təhsildə hər biri öz funksiyasını yerinə yetirir: dərsliklər, kurikulumlar, dərs vəsaitləri, iş dəftərləri, müşahidə gündəlikləri, tədris avadanlıqları, əyani vəsaitlər, texniki tədris vəsaitləri, tədris filmləri, kompüter texnologiyaları - bütün bunlar tədris-metodiki kompleksi təşkil edir. Belə bir kompleks müəllimin işini təşkil edir və nizamlayır, onların fəaliyyətini səmərəli planlaşdırmağa və nəticələrini əvvəlcədən görməyə imkan verir, yeni axtarış və yaradıcılığın əsasını qoyur.

Ədəbiyyat

1. Orcova, L. (2020). İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar, Bakı, İdeal Print, 324 s.

2. Алтаева, Г.Ж. (2015). Роль психолого-педагогического сопровождения детей в условиях инклюзивного образования. (КРО) школа-интернат общего типа, г. Щучинск.

3. Рсалдинова, А.К., Кемешова А.М (2019), Пути обучения учащихся с особыми потребностями в условиях инклюзивного образования: Алматы: ФГБОУ ВО» НЦПК «Брлеу», 64 с.

INCLUSIVE EDUCATION IN MODERN SOCIETY

Sabina Nuraliyeva
Azerbaijan University of Languages
sabina.bagiyeva.sb@gmail.com

Xülasə

İnklüziv təhsil ümumi təhsilin inkişaf prosesidir və bu, ümummilli problemdir. Bunu təkcə xüsusi təhsil sisteminin nümayəndələrinin təşəbbüsü və ya ayrı-ayrı aidiyyəti məktəb və uşaq bağçalarının fəaliyyəti ilə həll etmək mümkün deyil, bunu beynəlxalq təcrübə də sübut edir. Həm dövlət, həm də qeyri-dövlət müxtəlif idarə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi tələb olunacaq ki, bu da düşünülmüş dövlət planına uyğun həyata keçirilməlidir. İnklüziv təhsil problemi mürəkkəb və mübahisəlidir, lakin əsas odur ki, o, həqiqətən sosialdır, çünki onun həlli çoxlu sayda insanın maraqlarına toxunur. Cəmiyyət hər bir şəxsə öz maraqlarından, ehtiyaclarından və imkanlarından asılı olaraq təhsilin növünü və yerini seçmək hüququ verməlidir; buna görə də inklüziv təhsil digərləri ilə birlikdə mövcud olan keyfiyyətli təhsil almaq üçün mümkün variantlardan biri kimi nəzərdən keçirilməlidir.

Açar sözlər: *inklüziv təhsil, sağlamlıq qüsurları, uyğunlaşma, reabilitasiya, icma, diskriminasiya.*

Резюме

Инклюзивное образование – это процесс развития общего образования, и это общенациональная проблема. Ее невозможно решить только инициативой представителей системы специального образования или деятельностью отдельных заинтересованных школ и детских садов, о чем свидетельствует международный опыт. Потребуется координация деятельности различных ведомств и организаций, как государственных, так и неправительственных, которая должна осуществляться в соответствии с продуманным государственным планом. Проблема инклюзивного образования сложна и противоречива, но наиболее главное, она действительно социальна, поскольку ее решение затрагивает интересы колоссального числа людей. Общество должно предоставить любому человеку право выбора вида и места обучения в зависимости от его интересов, потребностей и возможностей; поэтому инклюзивное образование следует рассматривать как один из возможных вариантов получения качественного образования, которое должно сосуществовать с другими.

Ключевые слова: *инклюзивное образование, дефекты здоровья, адаптация, реабилитация, сообщество, дискриминация.*

Every person has the right to education, but, unfortunately, not all educational organizations have the opportunity to train people with individual developmental disabilities. This opportunity is provided in inclusive schools.

Inclusive education is a form of education in which every person, regardless of physical, intellectual, social, emotional, linguistic and other characteristics, is given the opportunity to study in general educational institutions. The realization of the set goal is achieved with the help of modern rehabilitation and adaptation equipment, which helps people with disabilities learn and interact in society, despite their health defects. In this case, the training system adapts to the person, not the person to the system.

The main problem of a “special child” is the limited connection with the world, poor contacts with peers and adults, limited communication with nature, access to cultural values, and sometimes even basic education. And also the problem of negative attitudes towards children with disabilities from their peers. The presence of physical and mental barriers that hinder the improvement of the quality of education for children with disabilities.

This is a process of training and education in which all children, regardless of their physical, mental, intellectual and other characteristics, are included in the general education system. They attend mainstream schools in their community with their non-disabled peers, and their special educational needs are taken into account. In addition, they are provided with special support. Inclusive education is based on an ideology that excludes any discrimination against children - equal treatment of all people is ensured, but special conditions are created for children with special educational needs.

Through respect and acceptance of the individuality of each of them, personality formation occurs. At the same time, children are in a team, learning to interact with each other, build relationships, and creatively solve educational problems together with the teacher. In this regard, we can say with confidence that inclusive education expands the personal capabilities of all children and helps develop

a humane willingness to help their peers. It must also be said that the existence of inclusive schools has a positive impact on typically developing children, and not just on students with disabilities.

By helping peers with disabilities actively participate in educational and social activities, ordinary children, without realizing it, learn important life lessons. These positive experiences include growing social consciousness, realizing there are no differences between people, developing self-awareness and self-esteem, developing one's own principles, and last but not least, promoting genuine caring and friendship.

The content of inclusive education includes educational institutions such as secondary vocational and higher education. Creating a barrier-free environment in the process of education and professional training of people with disabilities is the goal of inclusive education. This set of goals represents both the technical equipment of institutions and the development of special educational methods for teachers and courses for other students, which will be aimed at developing their interaction with people with disabilities.

In addition, specialized technologies are needed that will be aimed at facilitating the process of adaptation of children with disabilities in a general education institution. At the present stage of development, the Russian state is undergoing large-scale changes in the field of education. In the modern educational space, inclusion is recognized as the most developed, humane and effective system of education not only for children with special educational needs, but also for healthy children. Inclusion gives the right to education to everyone, regardless of whether they meet or fail to meet the criteria of the school system. Meanwhile, not all participants in the educational process today are ready to accept a child with disabilities. This unpreparedness has not only a material and technical basis, but a psychological, moral and ethical basis. The growth of violence and cruelty in the modern world, and the long-term attitude towards people with disabilities as inferior members of society have left their mark on the consciousness of modern schoolchildren.

Unfortunately, today the problem of inclusive education is relevant. Society became more humane and children in this category began to be called children with special educational needs. Every year the number of children with special educational needs increases, and in order to meet the needs of society, it is necessary to maintain a culture of inclusive education and implement inclusive practices.

Inclusive education is of great importance throughout the world and is important in every country. This education system needs to be developed, since nowadays there are more and more children who need a special approach not only in obtaining an education, but also in socialization to public life. In order for any child with individual characteristics and capabilities could study at school, receiving proper education and attention, like all children, special conditions are required, conditions atypical for our schools, inclusive education provides the opportunity and conditions for the education of children with disabilities (Бейсенбаева, 2016, p. 2).

Our society is faced with the acute problem of involving our fellow citizens who have certain characteristics of physical development in society, the problem of their active adaptation, socialization and development within society and for the benefit of society. One of the options for solving this problem is the development of inclusive education in Azerbaijan.

Education of children with special needs is one of the main challenges for the country. This is a necessary condition for creating a truly inclusive society, where everyone can feel involved and relevant for their actions. We are obliged to give every child, regardless of his needs and other circumstances, the opportunity to fully realize his potential, benefit society and become a full member of it.

To implement inclusive education and training, it is necessary to develop in preschoolers the ability to build interactions based on cooperation and mutual understanding. Inclusion contributes to the formation in children with special educational needs of a positive attitude towards peers and adequate social behavior, as well as a more complete realization of development potential in training and education. Inclusive education ensures equal access to a particular education and creates the necessary conditions for all children to achieve success in education. The problem of raising and teaching children with special educational needs in the general education environment requires a sensitive and flexible

approach, since not all children with developmental disorders can successfully adapt to the environment of healthy peers (Mattson & Hansen, 2009, p. 466).

Modern civil societies are impossible without the active involvement of all its members in various types of activities, respect for the rights and freedoms of each individual, and provision of the necessary guarantees of security, freedom and equality (Носова, 2016, p. 38).

This issue is especially relevant in activities to involve people with certain disabilities in our social environment. Many opportunities in learning, development, and sports are closed to them. The attitude of ordinary people towards people with disabilities is characterized by bias and prejudice. Moreover, in our society this attitude has been cultivated since childhood.

One of the options for solving this problem is the development of an inclusive education institute in Azerbaijan, aimed at the following:

– involvement of children with disabilities in the educational process;

– socialization of disabled children in modern society;

– creating an active behavioral attitude in disabled children to confidently position themselves in modern society;

– the ability to turn one’s shortcomings into advantages;

– changing the attitude of modern society towards people with disabilities, through the above-mentioned involvement of children with disabilities in our society.

Inclusive education is a process of development of general education, and this is a national problem. It is not possible to solve it only through the initiative of representatives of the special education system or the activity of individual concerned schools and kindergartens, as evidenced by international experience. Coordination of the activities of various departments and organizations, both governmental and non-governmental, will be required, which should be carried out in accordance with a well-thought-out government plan.

Inclusive education in practice is implemented by an adaptive model of organizing the educational process with the creation of special educational conditions. In general education, conditions must be created for children with disabilities that are comparable to those available in the special education system, so that parents have the opportunity to equally choose the most suitable place of upbringing and education for their child (Огольцова, 2017, p.250).

Standardization of special educational conditions is the key to an objective assessment of the completeness and quality of the development of inclusive education in the country; this means obtaining unambiguous monitoring criteria that will allow for situational analysis. A situational analysis will show the scale of the problem, available resources and the possibilities of using them to support the ideas of inclusive education. So far, we monitor the development of inclusive education using random, different criteria each time, which does not give us objective information about the real situation.

The problem of inclusive education is complex and controversial, but most importantly it is truly social, since its solution affects the interests of a colossal number of people. Society must give any person the right to choose the type and place of education depending on his interests, needs, and capabilities; therefore, inclusive education should be considered as one of the possible options for obtaining a quality education, which should coexist with others.

Literature

1. Mattson, E.H., & Hansen, A.M. (2009). Inclusive and exclusive education in Sweden: principals’ opinions and experiences. European Journal of Special Needs Education, 24(4), p. 465- 472.

2. Бейсенбаева Б.Ж. (2016) Актуальность инклюзивного образования в сфере развития современной образовательной системы. Актуальные вопросы современной педагогики: материалы VIII Междунар. науч. конф. Самара: ООО "Издательство АСГАРД", с. 1-3.

3. Носова Т.М. (2016) Инклюзивное образование – стратегическое направление современного образования России. Молодой ученый. №16.1, с. 37-41.

4. Огольцова Е.Г. (2017) Развитие инклюзивного образования в России. Молодой ученый. №50, с. 249-252.

MÜASİR DÖVRDƏ İNKLÜZİV TƏHSİLİN ƏHƏMİYYƏTİ VƏ VACİBLİYİ

Şəkər Orucəliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti, müəllim
oruceliyeva.sheker@gmail.com

Summary

The importance and necessity of inclusive education in the modern era serve the goals of maximizing the development of everyone's potential, strengthening the environment of social justice and equality, and building a society based on more innovative, creative, and mutual understanding. The significance of this approach is not only for individuals with special needs or marginalized groups but also for the entire society in building a better future.

Key words: *inclusive education, equal opportunities, personal development, access to education, innovation and creativity*

Резюме

В современную эпоху значимость и необходимость инклюзивного образования служат целям максимального развития потенциала каждого человека, укрепления среды социальной справедливости и равенства, а также создания общества, основанного на более инновационном, творческом подходе и взаимопонимании. Важность этого подхода заключается не только в обеспечении нужд людей с особыми потребностями или представителей маргинальных групп, но и в стремлении ко лучшему будущему для всего общества.

Ключевые слова*: инклюзивное образование, равные возможности, личностное развитие, доступ к образованию, инновационность и творчество*

İnkluziya dedikdə, digər uşaqlar üçün də əlçatan və onlarında bəhrələnməyinə şərait yaratmaqla müxtəlif əqli və fiziki imkanlı uşaqların (həm xüsusi istedadlı,həm də əlilliyi olan) məktəbəqədər təhsil və tədrisin bütün aspektlərinə tam şəkildə cəlb edilməsi nəzərdə tutulub.

Müasir dövrdə inklüziv təhsilin əhəmiyyəti və vacibliyi barədə danışmaq, cəmiyyətimizin İnkluziya hər bir üzvünün potensialını tam şəkildə inkişaf etdirmək imkanı yaratmağa dairdir. İnklüziv təhsil, bütün şagirdlərin, xüsusilə də əlilliyi olanlar, etnik və mədəni azlıqlardan olanlar, məcburi köçkünlər və digər marjinal qruplardan olan şəxslərin eyni təhsil mühitində birgə təhsil alması prinsipinə əsaslanır. Bu yanaşmanın məqsədi, hər bir şagirdin fərdi ehtiyaclarını nəzərə alaraq, onlara uyğun dəstək və imkanlar təmin etməklə, bütün şagirdlərin yüksək səviyyədə təhsil almasını təmin etməkdir.

Bərabər imkanlar: inklüziv təhsil hər bir şəxsin təhsilə bərabər şəkildə çıxış hüququnu tanıyır və təmin edir. Bu, cəmiyyətin hər bir fərdinə öz potensialını maksimum dərəcədə inkişaf etdirmək imkanı verir.

Sosial inteqrasiya: inklüziv təhsil müxtəlif fonlardan gələn şagirdlərin birgə təhsil almasına imkan yaradır. Bu, şagirdlər arasında qarşılıqlı anlayış və hörmətin artmasına, stereotiplərin və diskriminasiyanın azalmasına kömək edir.

Fərdiyyətə hörmət: inklüziv təhsil hər bir şagirdin fərdi ehtiyaclarını və xüsusiyyətlərini nəzərə alır. Bu, təhsil mühitini daha inklüziv və şagirdlərin öyrənmə qabiliyyətini maksimum dərəcədə artırır.

Cəmiyyətə hazırlıq: inklüziv təhsil mühiti, şagirdləri müxtəlif insanlarla işləmək və yaşamaq üçün lazımi bacarıqlarla təmin edir. Bu, onların gələcəkdə daha tolerant və inklüziv bir cəmiyyət qurmağa töhfə verir.

İqtisadi inkişaf: inklüziv təhsil, işgücü bazarında daha geniş və müxtəlif bacarıqlar toplusunu təmin edir. Bu, iqtisadi inkişaf və innovasiya üçün vacib məsələdi.r.

Sosial ədalət: hər bir fərdin təhsilə bərabər çıxışı, sosial ədalət prinsiplərinin tətbiqini təmin edir və cəmiyyətdə bərabərlik hissini gücləndirir.

Şəxsi inkişaf: inklüziv təhsil şəxsi inkişafı dəstəkləyir və şagirdlərin özünəinamını artırır. Bu, onların cəmiyyətə daha fəal və məsuliyyətli üzvlər kimi inteqrasiyasına kömək edir.

Əsas məqam odur ki, inklüziv təhsil yalnız əlilliyi olan şəxslər və ya digər marjinal qruplara aid şəxslər üçün deyil, həmçinin bütün cəmiyyət üçün faydalıdır. Bu yanaşma, hər bir şəxsin təhsil mühitində qarşılıqlı hörmət və dəstəklə öyrənməsinə və inkişaf etməsinə imkan yaradır.Bu məsələnin sosial, iqtisadi və təhsil sistemləri üzərindəki geniş təsirlərini nəzərə almalıyıq. İnklüziv təhsil, hər bir fərdin, xüsusən də əlilliyi olanlar, etnik və mədəni azlıqlardan olanlar, məcburi köçkünlər və sosial-iqtisadi

çətinliklər yaşayanlar daxil olmaqla, bərabər təhsil imkanlarından yararlanmasını təmin etmək məqsədi güdür. Bu, təhsilin hər kəs üçün əlçatan olması, fərdi ehtiyacları nəzərə alınması və hər bir şəxsin potensialını maksimum dərəcədə inkişaf etdirməsi üçün lazımi dəstəyin göstərilməsi deməkdir.

Müasir cəmiyyətlərdə inklüziv təhsilin rolu hər zamankından daha çox önəm qazanıb. Bu, yalnız ədalətli və bərabər imkanlar yaratmaqla məhdudlaşmır, həm də cəmiyyətin bütövlükdə inkişafı üçün kritik əhəmiyyət daşıyır. İnklüziv təhsilin tətbiqi, hər bir fərdin təhsilə tam çıxışını təmin etməklə yanaşı, müxtəlif fərdlər arasında qarşılıqlı anlayış və hörməti dəstəkləyir.

Sosial inteqrasiya: inklüziv təhsil, müxtəlif arxa planlardan olan şəxslərin bir araya gəlməsini və bir-birilərindən öyrənməsini təmin edir. Bu, sosial şəxslərin inkişafına və daha harmonik bir cəmiyyət qurulmasına kömək edir.

Fərdi potensialın maksimallaşdırılması: Hər bir şəxsin özünü ifadə etməsi və öyrənməsi üçün lazımi dəstəyin göstərilməsi, onların potensialını tam şəkildə inkişaf etdirmələrinə imkan yaradır. Bu, cəmiyyətin bütövlükdə daha yaradıcı və yenilikçi olmasına yardım edir.

İqtisadi faydalar: inklüziv təhsil, iş gücü bazarında daha çeşidli və bacarıqlı işçi qüvvəsinin formalaşmasına imkan verir. Bu, iqtisadi inkişaf və dayanıqlılığın artırılmasına töhfə verir.

İnklüziv təhsilin vacibliyi məsələsi də burada mühüm rol oynayır. Eyni zamanda bir sıra amillər də özünəməxsusluğu ilə seçilir.

Vacibliyi: inklüziv təhsilin tətbiqi, müasir cəmiyyətlərin qarşılaşdığı bir çox meydan okumalara cavab vermək üçün zəruridir. Bu, yalnız fərdlər üçün deyil, həm də cəmiyyət üçün mühüm faydalar təmin edir:

Tolerant və çeşidli cəmiyyətlərin inkişafı: inklüziv təhsil, fərqli arxa planlara və ehtiyaclara malik insanların birgə yaşayışına və öyrənişinə imkan yaradır. Bu, daha tolerant və anlayışlı bir cəmiyyət qurmağa kömək edir.

Hər kəsin potensialına çatması: inklüziv təhsil, hər bir fərdin öz potensialına çatmasına kömək edir. Bu, həm fərdlərin həm də cəmiyyətin daha yaxşı inkişaf etməsinə imkan verir.

Məsələlərə çeşidli yanaşmalar: müxtəlif arxa planlardan və təcrübələrdən gələn insanların birgə öyrənməsi, məsələlərə daha yaradıcı və yenilikçi yanaşmaların tətbiqinə imkan yaradır.

Beləliklə, qeyd etdiklərimə əsasən deyə bilərəm ki, müasir dövrdə inklüziv təhsilin əhəmiyyəti və vacibliyi, cəmiyyətin hər bir fərdinin təhsilə tam çıxışının təmin edilməsi və hər kəsin potensialının tam şəkildə inkişaf etdirilməsi ilə ölçülür. Bu, bərabər imkanlar yaratmaq, sosial inteqrasiya və fərdi inkişafı dəstəkləmək məqsədilə həyata keçirilir. İnklüziv təhsil, daha ədalətli, tolerant və dinamik cəmiyyətlərin qurulmasında mühüm rol oynayır.

Ədəbiyyat

1. ChatGPT (openai.com)
2. Tim Loreman İnkluziv təhsil.

İNKLÜZİV TƏLİMİN TƏŞKİLİNDƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ İSTİQAMƏTLƏRİ

Minayə Sadıxova
BSU-nun Riyaziyyat və İnformatika kafedrasının müəllimi
sadixova.minaya@mail.ru

Summary

After analyzing the psychological, pedagogical and methodical literature on the application of information and communication technologies in the organization of training of persons with disabilities, we tried to determine the most important directions of its use. In order to implement these directions, mandatory improvement is required for all employees of the education system on the organization and implementation of inclusive education. The application of information and communication technologies to the educational process is a means of social integration of persons with disabilities, as it facilitates their free access to knowledge and information. Of course, the use of ICT does not solve all problems in the

education of persons with disabilities. ICT only provides a fundamental improvement in information access and support for communication. The implementation of inclusive education undoubtedly contributes to the formation of tolerant behavior in learners and the formation of a humane personality capable of showing empathy.

Key words: *inclusive education, diversity, information and communication technologies, e-learning resources, internet services*

Резюме

Проанализировав психолого-педагогическую и методическую литературу по применению информационно-коммуникационных технологий в организации обучения лиц с ограниченными возможностями, мы попытались определить наиболее важные направления их использования. В целях реализации данных направлений требуется обязательное совершенствование всех работников системы образования по организации и реализации инклюзивного образования. Применение информационно-коммуникационных технологий в образовательном процессе является средством социальной интеграции лиц с ограниченными возможностями, поскольку облегчает им свободный доступ к знаниям и информации. Конечно, использование ИКТ не решает всех проблем в образовании лиц с ограниченными возможностями. ИКТ лишь обеспечивают фундаментальное улучшение доступа к информации и поддержки коммуникации. Реализация инклюзивного образования, несомненно, способствует формированию толерантного поведения учащихся и формированию гуманной личности, способной проявлять эмпатию.

Ключевые слова: *инклюзивное образование, разнообразие, информационные и коммуникационные технологии, ресурсы электронного обучения, интернет-услуги*

Sağlamlıq imkanlarından, maddi təminatından, yaşından, irqindən, dilindən, dinindən asılı olmayaraq cəmiyyətin hər bir üzvü üçün bərabər təhsil imkanlarının yaradılması sosial bərabərliyin əsasını təşkil edir. Hamı üçün bərabər təhsilin reallaşdırılması ideyası bir sıra beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır. Bu sənədlərin qəbul edilməsində məqsəd əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə yanaşı, onların sağlam insanlarla bərabər, aktiv şəkildə ictimai həyatda iştirakı üçün mövcud məhdudiyyətlərin aradan qaldırılması ideyası dayanır. Cəmiyyətin idarə olunmasında hər bir fərdin iştirakının təmin olunması inklüziv cəmiyyətin qurulmasında ən zəruri məqamlardan biridir.

Təhsilin modernləşdirilməsinin müasir mərhələsində əsas vəzifələrə təhsilin keyfiyyətini yüksəltmək və bütün öyrənənlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla onların təhsil ehtiyaclarını ödəmək, habelə sağlamlıq imkanları məhdud uşaqlara pedaqoji dəstək göstərmək daxildir. İnklüziv təhsil xüsusi təhsil ehtiyaclarının müxtəlifliyi və fərdi imkanlar nəzərə alınmaqla bütün öyrənənlərin təhsilə bərabər çıxışını təmin edir. O, müxtəlif öyrənmə ehtiyacları olan fərdlərin təlim ehtiyaclarını ödəmək məqsədilə effektiv forma və üsulların inkişafını dəstəkləyən şəxsiyyət mərkəzli metodologiya hazırlayır. "İnklüziv təhsil" təhsilin bütün səviyyələrdə həyata keçirilir: məktəbəqədər təhsil, ibtidai təhsil, ümumi və ümumi orta təhsil, ali təhsil və peşə hazırlığında maneəsiz mühit yaradır. Təlim prosesinin effektivliyini və əlçatanlığını təmin etmək üçün təhsil müəssisələrinin xüsusi texniki təchizatı, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin uyğunlaşması prosesini asanlaşdırmağa yönəlmiş proqramlardan istifadə, habelə pedaqoji heyət(xüsusilə məktəbəqədər və ibtidai təhsil müəssisələrinin mütəxəssisləri) üçün sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin inkişafı istiqamətində səriştələrin formalaşdırılması və ixtisasartırma tələb olunur.

Hazırda əlilliyi olan şəxslərin mərhələlərlə ümumi təhsil prosesinə daxil edildiyi inklüziv təhsil təcrübəsinin modelləri həyata keçirilir. Təhsil müəssisələri bu istiqamətdə öyrənmə üçün xüsusi şərait yaradır, həmçinin SİM şəxslərin təhsil almaq və sosiallaşmaq hüquqlarını təmin edən tam hüquqlu, maneəsiz mühitin yaradılmasını nəzərdə tutan "əlçatan mühit" uzunmüddətli hədəf proqramının fəaliyyətini həyata keçirdir. Maneəsiz mühitin əsas meyarı bina və tikililərin əlçatanlığıdır: xarici və daxili işarələr sistemi ilə təchizatdan, görmə qabiliyyəti zəif olan şəxslər üçün giriş qapılarının rəngli kodlamasından, hər bir sinif üçün toxunma məlumat nişanlarından, ayrı-ayrı fənlər üzrə tədris metodlarından vəxüsusi əyani tədris vasitələrindən (yazı, rəsm çəkmək üçün xüsusi dərslik və tədris vəsaitlərindən və s.) istifadə olunur. İnformasiyaya çıxışın təmin olunması xüsusi texniki tədris vasitələri ilə təmsil olunur. SİM şəxslərin təlim mühitinə, eləcə də digər öyrənənlərlə qarşılıqlı əlaqə sahəsinə çıxışı təmin edən xüsusi aparat və proqram təminatından istifadə olunur. Alətlər və texnologiyalar həm universal, həm də fərdi olmalıdır, çünki hər bir fərdin öz təhsil ehtiyacları və qabiliyyətləri vardır. Bu, yalnız informasiya-kommunikasiya texnologiyaları (İKT) vasitəsilə həyata keçirilə bilər. Təhsildə informasiya texnologiyalarından istifadə sağlamlıq imkanları məhdud şəxslərin psixo-pedaqoji funksiyalarının formalaşma-

sına və bütövlükdə şəxsiyyətinin inkişafına müsbət təsir göstərir. Cəmiyyətin digər üzvləri (tipik) kimi, əlilliyi olan şəxslər də yaşadıqları cəmiyyətdə sosiallaşmaq üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnməlidirlər. Bununla belə, onlar müxtəlif yollarla öyrənmə qabiliyyətinə təsir edən funksional məhdudiyyətlər və xüsusi təhsil ehtiyacları səbəbindən əlavə çətinliklərlə üzləşirlər. Aydındır ki, funksional məhdudiyyətlər öyrənənlərin kifayət qədər bilik səviyyəsinə yiyələnməsinə imkan vermir. Təhsil müəssisələrində müvafiq texnoloji infrastrukturun yaradılması və inklüziv təhsilin həyata keçirilməsi üçün zəruri olan müasir İKT vasitələrinin mövcudluğu müəllimlərin peşəkar bacarıqlarının mexaniki şəkildə artmasına səbəb olmur. İnklüziv təhsildə İKT-nin tam tətbiqini həyata keçirmək üçün müəllimlər innovativ tədris metodlarından praktikada tətbiq etməyə, habelə inklüziv təhsilə inteqrasiya üçün yaranan yeni imkanlara uyğun olaraq mövcud olanları dəyişdirməyə və uyğunlaşdırmağa hazır olmalıdırlar (Bolotina, 2009,s. 112).

Əlilliyi olan şəxslərin fərdi imkanlarını və ehtiyaclarını tam ödəmək üçün lazım olan optimal proqram və texniki vasitələri seçmək üçün onların psixofiziki inkişafının xüsusiyyətlərini nəzərə almaq lazımdır. İnklüziv təhsilin həyata keçirilməsi çərçivəsində sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin universal şəkildə təşkili zamanı müasir İKT vasitələrindən, elektron təhsil resurslarından səmərəli istifadə etmək üçün İKT infrastrukturuna çıxış imkanlarının genişləndirilməsi və inkişaf etdirilməsi zəruridir. İKT-dən istifadə sahəsində səriştəliliyi artırmaq məqsədilə müəllim və valideynlərdə qarşılıqlı təcrübə mübadiləsi, ixtisasartırma və peşəkar proqramlarının hazırlanması istiqamətində hazırlıqlı olmalıdırlar. SİM şəxslərin hər bir kateqoriyası üçün xüsusi köməkçi qurğular və proqram təminatı seçilməli, onların imkanlarına uyğunlaşdırılmalıdır. Sağlamlıq imkanları məhdud şəxslərin təliminin təşkilində İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinə dair psixoloji, pedaqoji və metodiki ədəbiyyatı təhlil etdikdən sonra ondan istifadənin ən vacib istiqamətlərini müəyyən etməyə çalışmışıq:

1. ***Kömək məqsədilə İKT-dən istifadə.***İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi sağlamlıq imkanları məhdud şəxslərin məhdudiyyətlərini (məsələn, görmə qüsuru olan şəxslər üçün müxtəlif üsullarla - audio mətnlərlə oxumaq qabiliyyətini və s.) kompensasiya edir.

2. ***Təlim prosesində yaranan problemlərinin həlli məqsədilə İKT-dən istifadə.***İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi müəllim-şagird münasibətini yaxşılaşdırmağa imkan verir.Çünki bir tərəfdən kompüter heç vaxt “cəzalandırmır”, “danışmır”, əksinə “səbir edir”, psixoloji vəziyyətə yaxşı təsir edir və digər tərəfdən, distant təhsil, interaktiv texnologiyalar və s. kimi təlimin ən son innovativ müasir formalarını müəyyən edir.

3. ***Ünsiyyət problemlərinin həlli üçün İKT-dən istifadə.*** Müasir texnologiyalar sağlamlıq imkanları məhdud şəxslərə ünsiyyət maneələrini dəf etməyə imkan verir. Dayaq-hərəki sistemi pozğunluğu olan şəxslər hərəkət etməkdə çətinlik çəkirlər və informasiya texnologiyaları çox vaxt bu tip ünsiyyət probleminin yeganə həlli hesab olunur (Kurin, 2011, s. 691-696).

Yuxarıda qeyd etdiyimiz istiqamətləri həyata keçirmək üçün inklüziv təhsilin təşkili və həyata keçirilməsi üzrə təhsil sisteminin bütün əməkdaşları üçün icbari təkmilləşdirmə tələb olunur.

İnformasiya və kommunikasiya texnologiyalarının təlim prosesinə tətbiqi sağlamlıq imkanları məhdud şəxslərin sosial inteqrasiyası üçün bir vasitədir, çünki onlarda bilik və məlumatlara sərbəst çıxışı asanlaşdırır. Təbii ki, İKT-dən istifadə əlilliyi olan şəxslərin təhsilində bütün problemləri həll etmir. İKT yalnız məlumat əldə etməkdə və kommunikasiyaüçün dəstəkdə əsaslı təkmilləşdirməni təmin edir. İnklüziv təhsilin həyata keçirilməsi, şübhəsiz ki, öyrənənlərdə tolerant davranışın formalaşmasına və empatiya göstərə bilən humanist şəxsiyyətin formalaşmasına öz töhfəsini verir.

Ədəbiyyat

1. Болотина В.В. Использование информационных технологий в работе с детьми, имеющими ограниченные возможности здоровья / В.В. Болотина // Методические рекомендации для педагогов, специалистов образовательных учреждений, родителей. - Новокуйбышевск, 2009. - 112 с. - С. 20-22.
2. Бадарч Д. Информационные и коммуникационные технологии в образовании : монография / под ред. Д. Бадарча. - М. : ИИТО ЮНЕСКО, 2013. - 320 с.

3. Бухтиярова И. Н. Информационные технологии как фактор развития современного инклюзивного общества / И. Н. Бухтиярова // Гуманитарные, социально-экономические и общественные науки. - 2015. - № 6-1. - С. 118-121.
4. Курин А.Ю. Социальная адаптация подростков с ограниченными возможностями передвижения средствами информационных технологий как социально-педагогическая проблема / А.Ю. Курин // Социальная педагогика: вызовы XXI века : сборник материалов Международного конгресса специалистов социальной сферы (22-23 сентября 2011 г.) / отв. ред. Е.А. Юрина. - Тамбов, 2011. -С. 691-696.
5. https://www.eenet.org.uk/resources/docs/IETT-Zambia/PDFs/IETT%20Zambia%20-%20Module%201%20-%20Intro%20to%20IE.pdf
6. https://www.cedol.org/wp-content/uploads/2012/02/55-57-2009.pdf
7. http://www.included.org.za/wp-content/uploads/2019/10/What-is-Inclusive-Education.pdf

İNKLÜZİV TƏHSİL MÜHİTİNİN LAYİHƏLƏŞDİRİLMƏSİ VƏ UNİVERSAL ÖYRƏNMƏ DİZAYNI

Ümmü Süleymanova
Şəki şəhəri 14 saylı tam orta məktəbin riyaziyyat müəllimi
asimansuleymanon090@gmail.com

Summary

Regardless of physical condition, knowledge and skills, it is very desirable for every student to study in the same class and school. A very effective educational program of inclusive education has been experienced in world practice. A lot of work has been done for the implementation of this educational method in our country, and pilot class schools have been established. The more classes and schools serving inclusive education, the realization of projects, and the organization of trainings, the more our pupils and students who are suffering due to their physical condition and differences will integrate into the society and consider themselves as necessary individuals of the society. Of course, first of all, necessary conditions should be created for the joint education of our different learners, educating people to ensure their common views on differences is one of the most important factors. All these factors are the main criteria for universal learning, because modern society requires it. As a result, the importance of implementing designs that can meet the needs of disabled people and people with limited physical capabilities without discrimination is the main criterion of inclusive education.

Key words: *inclusive, education, universal, safe environment, inclusive education criteria.*

Резюме

Независимо от физического состояния, знаний и умений, очень желательно, чтобы каждый ученик учился в одном классе и школе. В мировой практике имеется весьма эффективная образовательная программа инклюзивного образования. Для внедрения этого метода обучения в нашей стране проделана большая работа, созданы школы пилотного класса. Чем больше классов и школ будут обслуживать инклюзивное образование, реализацию проектов и организацию тренингов, тем больше наши ученики и студенты, страдающие из-за своего физического состояния и различий, будут интегрироваться в общество и считать себя необходимыми личностями общества. . Конечно, в первую очередь должны быть созданы необходимые условия для совместного обучения наших разных учеников, причем воспитание людей так, чтобы у них были общие взгляды на различия, является одним из важнейших факторов. Все эти факторы являются основными критериями всеобщего обучения, поскольку этого требует современное общество. В результате важность реализации проектов, которые могут удовлетворить потребности людей с ограниченными физическими возможностями и людей с ограниченными физическими возможностями без дискриминации, является основным критерием инклюзивного образования.

Ключевые слова: *инклюзивное, образование, всеобщая, безопасная среда, критерии инклюзивного образования.*

Hər bağlı sinif qapısının arxasında müxtəlifliklə dolu bir dünya dayanır. Bu müxtəlifliyi tanımaq və qəbul etmək və onun həm məktəbə, həm də cəmiyyətə faydalarını aşkara çıxarmaq bu gün təhsil sistemlərinin tanıdığı və nail olmağa çalışdığı məqsədə çevrilmişdir. Bu məqsədə çatmağın ən təsirli yolu hesab edilən inklüziv təhsil modelidir. Dünyanın əksər ölkələri öz təhsil sistemlərində inklüzivliyi qurmaqla məktəbin "bütün" uşaqlara müxtəlif sahələrdə inkişaf etmək və öyrənmək üçün imkanlar

təqdim etməsini təmin etmişlər. Son illərdə inklüziv təhsilə artan diqqəti , bu məqsədə nail olmağa atılan addım kimi qiymətləndirə bilərik . Bakı Slavyan Universtitetinin keçirdiyi konfrans da bu məqsədə xidmət edir.

Hamıya məlumdur ki, inklüziv təhsilin tələbi, müxtəlifliklərin uyğun şəkildə idarə olunmasının təmin edilməsini, o mühitin və zamanın şərtlərinə uyğun olaraq fərqli mühitlərdə və zamanlarda təyin olunma və tətbiq olunmasını, o cümlədən hamının razılaşdığı bütün fərdlərin eyni ortamda təhsildən faydalanmasına imkan yaratmaqdır.

Beləliklə, inklüziv təhsil- bütün uşaqların öyrənmə icmalarının fəal üzvləri kimi iştirakının təmin edilməsi, həyatlarını zənginləşdirən, təcrübələrini şaxələndirən və muxtariyyətlərini gücləndirən təlimat təhsilidir.

Hər bir ölkədə olduğu kimi , bizim ölkəmizdə də inklüziv təhsilə mane olan səbəblər çoxdur. Bu səbəblər hər kəsə məlum olduğundan sadalamaq istəmirəm. İnklüziv təhsilin reallaşması üçün birinci növbədə insanlar tərəfindən fərqliliyin qəbul edilməsi, ikinci nöbvədə inklüziv sinfin, məktəbin yaradılması və s.

İnsanların maarifləndirilməsi, inklüziv sinif və məktəblərin yaradılması, tədris və təlim proseslərinin davamlı qiymətləndirilməsi və inkişafı ilə sıx bağlıdır.

İnteqrasiya edilmiş siniflərdə şagird və tələbələrin ehtiyacları, qabiliyyətləri, maraqları və təcrübələri nəzərə alınmalı və bunları əks etdirən tədris yanaşmaları həyata keçirilməlidir. Bu elementləri nəzərə alaraq, şagird və tələbələrin əhval-ruhiyyəsinə, öyrənmə üslublarına, mədəniyyətlərinə, maraqlarına və qabiliyyətlərinə xas olan tənzimləmə və uyğunlaşmaların diqqətdə saxlanılmalıdır.

Bəzi şagird v tələbələrin öyrənmə və müvəffəqiyyət əldə etməsi üçün böyüklərdən birbaşa təlimata və xarici dəstəyə ehtiyacı ola bilər; bəzi əlillik diaqnozu qoyulmuş şagird və tələbələr , daha çox vaxt və yer tələb edə bilər. Bu halda, xüsusi təlim planlayıcıları və təcrübəçiləri qəbul etməli olduğu bir vəziyyət nəzərə alınmalı ki, təhsilalanlar öyrənmə çətinlikləri çəkməsinlər.

Məktəblərdə bu dəstəyin təmin edilməsi və tələbələrin bu dəstəkdən faydalanması üçün imkanların olması çox vacibdir. Bununla belə, bütün dünyada şagirdlərin ehtiyaclarını bilən və onları qane edən məktəblərin yaradılması məqsədinə tam nail olunmayıb. Əlillik diaqnozu qoyulanların keyfiyyətli təhsilə çıxış imkanlarıfərdlər inteqrasiya olunmuş inklüziv məktəblərə yazılmaq üçün identifikasiya (həqiqiliyin yoxlanılması) prosesindən keçməli olurlar. Fərdlərin inteqrasiya olunmuş mühitlərdə həmyaşıdları ilə birlikdə keyfiyyətli təhsilə çatma prosesinin başlanğıcında müxtəlif maneələr var ki, bu da əsas insan hüququdur. Bu maneələr nəticəsində ayrılaraq təhsilə başlamaq, şagirdlərin öyrənmə və inkişaf proseslərinə, məktəblərin və təhsil sistemlərinin inklüzivlik mədəniyyətinə və keyfiyyətinə töhfə verir.

İnklüziv təhsil bütün uşaqların fərdi ehtiyaclarına diqqət yetirir; Fərqli öyrənmə xüsusiyyətlərini və sürətlərini nəzərə alır və müvafiq olaraq uşaqlar üçün uyğun bir proqram çərçivəsində öyrənmə mühitləri təklif edir. Bundan əlavə, inklüziv təhsil uşaqların müxtəlif ehtiyacları üçün müəllimlərin səyləri və digər maraqlı tərəflərin əməkdaşlığı nəticəsində reallaşa bilən və qalıcı bir prosesdir .

Uzun illərdir bir çox ölkələrdə həyata keçirilən və müəyyən xüsusiyyətlərə malik olan bəzi şagirdlərin inkişaf etməsinə və öyrənməsinə şərait yaradan təhsil proqramları tələbələrin əksəriyyətinin məktəbi bitirmədən, qalanlarının isə mənalı və keyfiyyətli təhsil almadan məzun olmasına səbəb olur.

Bu gün kurikulum tərtibatçıları və məktəb praktikləri, keçmişdə istifadə olunan təlim proqramlarını, proqramın məzmununu vəmüvafiq pedaqoji elementləri təşkil etmək və ya yenidən qurmaq və tələbə müxtəlifliyinə cavab verən inklüziv təhsil proqramlarının hazırlanması zərurətə çevrilmişdir. Bundan əlavə, tələbələrin ehtiyaclarının bir-birindən fərqli ola biləcəyini və bu ehtiyacların ödənilməsini tələb edən müxtəlif şərtlərin olduğunu bilmək lazımdır. Təhsil proqramları hazırlayan və həyata keçirənlərin bilməsi də çox vacibdir ki, hər bir tələbənin ehtiyac və güclü tərəflərinin qiymətləndirildiyi inklüziv təhsil proqramları tələbələrə öz öyrənmələri haqqında məlumat əldə etməyə imkan verəcək və onların təhsilə töhfə verəcəyi qənaətinə gəlməyə imkan verəcək.

Məlumdur ki, yalnız məktəb təcrübələri ilə inklüziv təhsil proqramları hazırlamaq və hər bir şagirdin öyrənmə ehtiyaclarını ödəyən proqram həyata keçirmək çətin olacaq.

Uşaqların sosial qarşılıqlı əlaqələri təkcə ailəni, xüsusən də valideynləri deyil, həmyaşıd qruplarını və müəllimləri də əhatə edir. Bu da uşaqların dostları ilə inkişaf və emosional əlaqəsinin onların həyatında daha təsirli olduğunu göstərir.

İnsanların şəxsiyyət nümunələrinin formalaşmasında həmyaşıdlar arasındakı münasibətlər də mühüm əhəmiyyət kəsb edir. Ekspertlərin fikrincə desək, uşaqların həmyaşıdları, ailələri və müəllimləri ilə qarşılıqlı əlaqədə olurlar; müəllimlər və ailələr arasında, ümumiyyətlə, bütün maraqlı tərəflər arasında ünsiyyət və əməkdaşlığın vacibliyini vurğulayır.

İnklüziv təhsil uşaqların inkişafında sosial qarşılıqlı əlaqə və əməkdaşlığın vacibliyini vurğulayır; məktəblərdə və siniflərdə əlaqələrə əhəmiyyət verir. İlk olaraq insanların bir-birindən öyrəndiyinə diqqət çəkir, sosial qarşılıqlı əlaqə nəticəsində və zaman keçdikcə düşüncələrini və təcrübələrini paylaşılır. Hər bir şagirdin yaddaşının formalaşmasında , öyrənmənin qalıcı olmasında

qrup münasibətləri çox vacibdir. İnkişaf edən təhsilalanlar həmyaşıdları ilə sağlam rəqabət quraraq təhsilverənlərdən modern həyat həyat haqqında bacarıqlar öyrənir.

Həmçinin, inkluziv təhsil prosesi-dzayını düzgün təşkil olunmuş təhsil prosesi olaraq, bütün təhsil-alanların öz yaş qruplarına iyğun ortamda sosial öyrənmə vasitəsilə hər kəsi bilik və bacarığını paylaşma və bu paylsşmalardan yetərincə yararlanma və inkişafetmə xüsusiyyətlərini aşılayır.

İnklüziv təhsil- təkcə öyrənmək deyil. Hər bir müsbət davranışı ,bilik və bacarığı nümayiş etdirmək üçün yüksək səviyyədə motivasiya ötürür, hər bir fərdə özünə inam, gələcəyə ümidlə baxmaq hisslərini , cəmiyyətə inteqrasiyanı aşılayır.

Ədəbiyyat

1. Altınkurt, N. (2008). Özel eğitim ve rehabilitasyon merkezlerinde yaşanılan sorunlar ve çözüm önerileri. Yüksek lisans tezi. Dokuz Eylül Üniversitesi, İzmir.

2. Amerikan Psikoloji Derneği (1997). Learner-centered psychological principles. http:// www.apa.org/ed/lcp2/lcp14.html/

3. Buultjens, M., & Stead, J. (2002). Promoting social inclusion of pupils with visual impairment in mainstream schools in Scotland. Report on project funded by the Scottish Executive Education Department.5.Caprara, G. V., Barbaranelli, C. Pastorelli, C., Bandura, A., & Zimbardo, P. G. (2000). Prosocial foundations of children's academic achievement. Psychological Science, 11, 302–306

4. "İnklüziv sinifdə təlimin təşkili "mövzusunda oxu materialı .

İNKÜZİV SİNİFLƏRDƏ TƏLİMİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

İlahə Şıxəliyeva
BDU, Pedaqogika kafedrası
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
ilashka.sh@gmail.com

Summary

In the scientific article, the concept of inclusive education and its essence, declarations and laws related to the organization of inclusive education in the countries of the world and in Azerbaijan were brought to mind. The principles of inclusive education and the main purpose of organizing training in inclusive education are explained. Important conditions for effective implementation of inclusive education and at the same time models of teachers' behavior are indicated.

The three parts of the lesson, which are methodically connected with each other: the introductory part, the main part and the final part, the importance of the active activity of the students and the directions of implementation are indicated.

